__________________Milli Kitabxana__________________

QILMAN İLKİN

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

II CİLD

"AVRASİYA PRESS"
BAKI-2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Bu kitab "Qılman İlkin. Seçilmiş əsərləri. İki cilddə. II cild"*
*(Bakı, Azərnəşr, 1989) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

***894.3613-dc22***
**AZE**
**Qılman İlkin. Seçilmiş əsərləri.** İki cilddə. II cild. Bakı, "Avrasiya press", 2006, 408 səh.

Tanınmış Azərbaycan yazıçısı Qılman İlkinin "Qalada üsyan" romanında 1907-ci ildə çar mütləqiyyətinin yüksək hərbi məmurlarının özbaşınalıqlarından, ifrat inzibatçılığından cana gələrək qiyam qaldırdıqlarına görə Azərbaycanın Zaqatala rayonuna sürgün edilmiş rus matroslarının yerləşdirildikləri qalada qaldırdıqları üsyandan bəhs edilir.

**ISBN10 9952-421-61-1**
**ISBN13 978-9952-421-61-3**

© "AVRASİYA PRESS", 2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına *hədiyyə edilir*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QALADA ÜSYAN

ROMAN

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# BİRİNCİ HİSSƏ

## I fəsil

Başlanğıcı, adətən, birdən-birə hiss olunmayan fəsillər bəzən qəribə qəziyyə və əhvalatlarla diqqəti cəlb edir. Qafqazın kiçik ucqar şəhərlərindən olan Zaqatalada 1907-ci ilin baharı belə başlanmışdı. Camaat arasında xəbər yayılmışdı ki, şəhərə qoşun gəlir. Hamı gözdə-qulaqda idi. Əldən-ayaqdan uzaqda, subasar keçidlərin arasındakı meşəli dağların qoynuna sığınan Zaqatala üçün, bu, əlbəttə, mühüm hadisə idi. Gürcülər tərəfindən saxlanılan küylü meyxanalarda, hisli və boğanaq çayxanaların qaranlıq künclərində bütün günü söhbət bunun üstündə hərlənirdi. Yastı-yapalaq allaf və misgər dükanlarında, şəhərin səhər-axşam izdihamı kəsilməyən kilsə meydançasında da ancaq bu barədə danışırdılar.

Əsnaf tayfası ilə alverçilər daha çox təşvişdə idilər. Onlar bir-birindən xəbərsiz, hətta gizli tədarük də görürdülər; bəzisi unun və taxılın qiymətini artırır, bəzisi bəd gündə onu iki-üçqat bahasına satmaq üçün xəlvəti anbarlara tığ vurdururdu. Açıq-açığına deyilirdi ki, dağların o tayından, Dağıstandan ləzgilərin basqını gözlənilir, guya köhnə hava onların beyinlərini təzədən yerindən oynadıbdır; hökumət də iy duyduğu üçün buraya qoşun yeridir. Şəhərin çinovnikləri isə bu haqda başqa mülahizədə idilər; əyinlərində mundir olan bu adamlar arada dolaşan söz-söhbətə ağız büzərək, özlərini dövlət siyasətindən xəbərdar kimi göstərməyə çalışırdılar. Onların fikrincə, Zaqatala kimi uzaq bir yerə qoşun göndərilməsi əlahəzrət Nikolayın ancaq uzaqgörənliyinin nəticəsidir. Lakin heç biri bu barədə açıq danışmağa cəsarət etmirdi; dəftərxanada, stol arxasında baş-başa verib götür-qoy edir, pıçıltı ilə eyham atırdılar. Birisi deyirdi: "İranda siyasət toqquşur; ingilislə rusun arası soyuyur, axırın Allah özü saxlasın. Buna görə də bu tərəflərə çoxlu qoşun yeridilir, bərk ayaqda qabağa vermək istəyir..." O birisi isə buna etiraz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edirdi: "Yox, məsələ başqadır, – deyirdi. – Bu saat ingilisi də, rusu da mücahidlər vəlvələyə salıb. Səttərxan, deyirlər, Qəzvindən keçib, Tehran üstünə yeriyir; şahı taxtdan salmaq niyyəti var. Belə olsa, ingilislə rus ittifaq bağlayacaq. Bu tərəfdən rus, o tərəfdən də ingilis İrana qoşun çıxaracaq".

Bu söhbətə qulaq asan üçüncü şəxs təəccüblə soruşurdu:

– Tutaq ki, siz deyən səhihdir, bəs niyə qoşunu Culfada saxlamır?

İkinci çinovnik arıq boğazını qabağa uzadaraq, rişxəndlə gülümsədi, özünün ağıllı olduğunu göstərmək niyyəti ilə başını əda ilə buladı və araq içməkdən qaralmış çürük və seyrək dişləri arasında sözləri fışıltı ilə tələffüz edərək dedi:

– Elə mətləb də orasındadır... Heç bir hökumət qoşununu göz qabağında saxlamaz. Siyasət də buna yol vermir. Onu gərək tələnin dalında yaxşıca gizlədəsən: birdən güman gəlməyən yerdən rəqibinin başının üstünü alasan.

Bu söhbət əsnasında birdən qapı cırıltı ilə açıldı. Şəhər əhlindən bir nəfər çəkinə-çəkinə içəri daxil oldu. Söhbət dərhal kəsildi. Üç cüt pensneli göz içəri girmiş adamın əlindəki ərizəyə zilləndi. Üç ağız birdən səsləndi:

"Bu gün ərizə qəbul olunmur".

Araya sükut çökdü. Ərizəçi xeyli gözlədi, öz-özünə mızıldandı və axırda naəlac bayıra çıxdı. Qapı onun dalınca cırıltı ilə örtüldü. Çinovniklərdən biri boğazını arıtdı. Pıçıltılar təzədən qızışdı. Arada hərdənbir söhbət qırılır; şax kağızlar üzərində hərəkət edən lələk qələmlərin xırıltısı eşidilirdi. Mülahizələr, ehtimallar getdikcə artırdı. Lakin nə qədər artırsa artsın, danışıq ancaq mücahidlərlə Səttərxanın ətrafında hərlənirdi.

İntizar pis şeydir: o dərinə işlədikcə ehtimallar da çoxalıb dolaşır və adamı üzür. Birdən xəbər yayılırdı ki, qoşun Nuxadadır; neçə gündür ki, orada özünə məskən salıb; Zaqatalaya gəlmək fikrində deyildir. Camaat da sakitləşirdi, O qədər keçmirdi ki, Nuxadan gələn bir faytonçu and içərək, adamları inandırmağa çalışırdı ki, rus qoşununu Qaxda öz gözü ilə görmüşdür: təbil vura-vura gəlirlər. Axşamdan keçmiş şəhərə daxil olmuş bir atlı isə qoşunun Qaxla Zaqatala arasındakı qoz ağaclarının altında dincələn gördüyünü söyləyirdi. Hərə bir söz deyirdi və çalışırdı ki, özündən qabaq yayılmış olan şayiəni heçə çıxartsın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəhayət, bir gün səhər tezdən, gün hələ boylanmamış kiçik şəhəri təbil səsləri bürüdü:

– Dam-daram-dam, dam-daram-dam...

Çoxdan gözlənilən və haqqında mülahizələr yürüdülmüş qoşun şəhərə girdi. 1-ci Lebedinski əlahiddə batalyonu şəhərin girəcəyindəki taxta körpüdən keçərək, baş küçə ilə irəliləməyə başladı. Yorğun, yuxulu soldatların kəmərlərindən asılmış qazançaların cingiltisi dəvə zəngləri kimi səslənib bir-birinə qarışmışdı. Bu səslər birgə atılan addımların həmahəng gurultusu və təbillərin qulaq dələn boğuq zərbələrinə qarışdığından şəhər sanki iri bir təbil kimi döyəclənirdi.

Səsə yuxudan ayılmış uşaqlar çığırışa-çığırışa, ayaqyalınbaşıaçıq evlərdən, həyətlərdən küçəyə doluşdular. Böyüklər də tələm-tələsik özlərini dəstəyə çatdırırdılar. Evlərin küçəyə tərəf olan pəncərələrini taybatay açıb, bir-birini itələyə-itələyə küçəyə boylanan qadınların isə ağızları açıla qalmışdı.

Günəşin ilk şəfəqləri, artıq uca ağacların yaşıl, zərif yarpaqları arasında, pəncərələrin şüşələrində oynaşırdı. Qoşunun qabağında gələn komandirin zərli poqonları və boz rəngli mundirinin qızılı düymələri də bu şəfəqdən par-par parıldayırdı. Komandir atın üstündə əsgəri qaydada, şəstlə oturmuşdu. Toz basmış günlüyünün altından parıldayan xırda göy gözləri irəlidə bir nöqtəyə zillənib qaldığından sanki heç kəsi görmürdü. Altındakı kəhər hərdənbir onu ehmalca yırğalamasaydı, tamaşaya çıxanlar onu bəlkə də canlı adamdan daha çox gözəl zərbaftaya tutulmuş bir müqəvva hesab edərdi.

Qoşun ermənilərin yaşadığı ikimərtəbəli, eyvanlı evlərə tərəf buruldu. Birdən pəncərələrin hansındansa cingiltili bir qadın gülüşü eşidildi və elə o anda da susdu. Bundan batalyon komandirinin daxilində sanki nə isə hərəkətə gəldi, üzünü döndərmədən, açıq pəncərələrdən baxan gözəl, qaraşın qadınları gözucu süzüb, qadın səsindən diksinmiş bədənini dikəltdi. Mahmızlı, qara lak çəkmələrini keçirdiyi üzəngiləri yavaşcadan kəhərin qarnına çıxdı; at ağzı köpüklənmiş başını, qadınları salamlayırmış kimi bir neçə dəfə qaldırıb endirdi, yiyəsinin boş tutmuş olduğu cilovları dartışdırdı. Komandir xanımları yenə də oğrun-oğrun süzdü. Hamının diqqəti ona sancılmışdı: yetkin qadın baxışları, cingiltili gülüşlər bu dəqiqə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lərdə ona keçmişi xatırlatmaya bilməzdi. Bu xatirələr onun gəncliyi ilə əlaqədardı... Yeddi-səkkiz il əvvəl qarğaşalıq ərəfəsində Xarkov və Odessanın küçələrindən atla keçdiyi zaman, uca evlərin pəncərələrindən qadın və qızların göndərdiyi öpüşlərə ehtiramla baş əydiyini, yaxud onlara eynən bu cür cavab göndərdiyini xatırladı. Bəzi qadınların açıqdan-açığa gülümsəyərək göz vurduqları da onun yadında idi; bunlar nisbətən yaşlı, onun əqidə-sincə ərli arvadlardı. Gənc qızlar isə öz hərəkətlərində daha çəkingən və xəsis idilər. Bəli, o zaman özü də gənc idi. Uzun bakenbardlarında bircə dənə də ağ tük tapılmazdı; indi isə gicgahları aşağıdan yuxarıya çallaşmağa başlamış, səliqə ilə vurdurduğu şeşə bığlarında ağımtıl tüklər baş qaldırmışdı. Əvvəlki cavanlıq həvəsi də soyumuşdu. Hər an yerindən oynayan titrək ehtiraslarını ömrünün şimal küləyi döyəcləməyə başlamışdı. Bu külək, özünün hiss etdiyi kimi, onun içərisində hər şeyi soldurmuş, qurudub süstləşdirmişdi. O indi özünü manejdə məğlub edilmiş bir boksçu, ya da səsi batmış adi bir xanəndə vəziyyətində hiss edirdi. Lakin bu onun üçün varlığının, şəxsiyyət və heysiyyətinin məhvi demək deyildi. O məğlub edilmiş boksçudan, yaxud da səsi batmış bədbəxt xanəndədən bir şeylə fərqlənirdi: bu, şöhrət hissi idi. Onun şöhrəti boksçu və xanəndənin şöhrəti kimi qara, lüzumsuz bir qəpik tək küçəyə, qara palçığın ortasına atılmamışdı. Əksinə, o heç bir şeylə əvəz edilməyən şöhrət pillələrinə yenicə qədəm qoymuşdu... Qadınların nəzərində şirəsi sorulub ayaq altına atılmış meyvə kimi olsa da, əlahəzrətin böyük etibarına şərəfyab olmuşdu. Onun yanında dizi üstə çöküb and içərkən, əlahəzrətin dediyi: "Soldat, mən sənə inanıram!" sözləri hafizəsində həmişə bir məhvər ətrafında dolanacaqdı. Xarkovdan bəri bütün yol boyu o bu haqda düşünərək, belə nəticəyə gəlmişdi ki, bundan sonra o hər şeyi ancaq bir məqsədə qurban verəcəkdir – əlahəzrətə sidq ilə xidmət etmək, qan bahasına qazandığı etibarı doğrultmaq!.. "Soldat..." – bu səs onun daxilində hər şeyə üstün gəlmişdi; hər şeyi vurub dağıtmış, hiss və ehtiras uçurumları üzərində öz mənliyinin bayrağını sancmışdı. Vaxtilə, qadın balaqlarının xəfif xışıltısından belə diksinən möhtəris ürəyini indi özü tanıya bilmirdi; o, dilsiz-ağılsız bir çay daşına, vecsiz bir kötüyə dönmüşdü. Bəs indi bu kiçik Qafqaz şəhərində qadın çöhrəsi görərkən, cingiltili qadın səsi eşidərkən onu yerindən oynadan nə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

idi? Yoxsa, köhnə ehtiraslar? Heyhat ki, yox! Bu ancaq sönən bir odun son közərtisi ya da atılmış güllənin sadəcə, əks-sədası ola bilərdi. Bəlkə də ani bir həvəs idi ya da qarşısıalınmaz bir vərdiş?!

Batalyon komandiri, üstündən illər adlamasına baxmayaraq, özünün çoxdan bəri unutmağa çalışdığı vərdişin birdən-birə təkrar mübtəlası olduğunu dərk etdikdə diksinən kimi oldu və tez gözlərini qabağa zilləyərək qamətini düzəltdi. Qadınların xoşuna gələn bir kavalerdən daha çox, əsl qəhrəman kimi görünməyə çalışdı. Daxilindəki şöhrətpərəstliyi öcəşkən bir əda ilə qanadlandı, başqa duyğuların hamısına üstün gəldi.

Bəli, o, iliklərinədək əlahəzrətə sadiq bir əsgər idi!.. Xarkov vağzalında onu yola salmış qoca ata-anasının göz yaşları müqabilində dediyi sözlər indi də qulaqlarında səslənirdi. Doğrudur, bu sözlər qocaları daha da sızlatmış, ürəklərini kövrəltmişdi. O isə özlüyündə qocalıq kövrəkliyinə rişxəndlə gülmüş və özünün belə hərəkətinə bəraət qazandırmışdı: "Mən əlahəzrətin etibarını doğrultmaq yolunda qılınc çalıram. Bu mənim üçün hər şeydən müqəddəsdir! Məndə coşqun və yüksək ruh vardır. İnanıram ki, belə ruhla da Qafqazdan sağ-salamat qayıdacağam". Bunları o, viski və şampanski butulkaları arxasında deyil, ağlı başında olduğu zaman, ayıq vaxtlarında demişdi. Özünü əla hiss etdiyi üçün, hətta yoldaşları ilə ayrılıq qədəhlərini toqquşdurub içməkdən belə boyun qaçırmışdı. Onların təklifinə qarşı qətiyyətlə demişdi: "Mən Olenin deyiləm, dostlarla səfər ərəfəsində badə qaldırmaq pərişan zabitlər üçün əyləncə ola bilər. Mənim isə belə şeylərə ehtiyacım yoxdur!"

Dobrovolski haqlı idi, heç bir əla içki ondakı yüksək ruhu yarada bilməzdi; çünki bu, süni vasitələrin nəticəsində əmələ gəlməmişdi. Buna, o, düşüncə və əqidəsinin məntiqi yolu ilə nail olmuş, həm də özündə elə bir qənaət hasil eləmişdi ki, belə coşqun ruh onun üçün həmişə uğurlu olacaqdır.

Dobrovolski bu kiçik şəhərdə batalyon qabağında gedərkən, Xarkovdan başlayıb, buraya qədər keçdiyi yolda baş vermiş, hətta xoşagəlməz hadisələrə də çox yuxarıdan, nikbin gözlə baxmışdı. Onun üçün ancaq bir şey həqiqət idi: batalyon heç bir mühüm xariqüladə hadisə baş vermədən son iqamətgaha, Zaqatalaya çatmışdı; bunu da Dobrovolski özünün yüksək, coşqun, ruhundan başqa heç bir şeylə izah etmək istəmirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Soldatlar kilsə meydançasına yaxınlaşırdı. Tamaşaya çıxmış şəhər əhli birdən qəribə bir səhnənin şahidi oldu. Soldatlardan bəzisinin tüfəngi süngüsüz idi, lakin bu dərhal nəzərə çarpmırdı, süngüsüz soldatlar batalyon sıraları içərisində elə yerləşdirilmişdi ki, yalnız diqqətlə baxıldıqda iti nəzərlər bu uyğunsuzluğu sezər, daha doğrusu kəşf edə bilərdi. İzdiham içərisində bu, doğrudan da, ancaq ovçu gözlərə müyəssər oldu: hər üç, ya dörd soldatdan birinin tüfəngi süngüsüz idi. Bir azdan həmin ovçu gözlər daha yeni bir şey kəşf etdilər. Süngüsüz tüfənglərin çaxmağı da yox idi. Küçələrə çıxmış adamlar təəccüblə çiyinlərini çəkir bu hadisəni hərə öz bildiyi kimi yozurdu.

* * *

Şəhər pristavı Kukiyev özünün təzə epoletli mundirini geyərək bir saatdan artıq idi ki, yumurtası tərs gəlmiş toyuq kimi vurnuxa-vurnuxa qoşunun yolunu gözləyirdi. Darıxdığındanmı, nədənsə yanında durmuş mirzəsinə müxtəlif əmrlər verir, hərdənbir də ancaq mirzənin eşitməsi üçün az qala onun qulağına nə isə pıçıldayırdı. Mirzə də tısbağa boğazına oxşayan qırışıq boynunu qabağa uzadaraq, onun dediklərinə başını tərpətməklə cavab verir, titrəyən əli ilə tələsik iri qara dəri qovluğuna qeydlər edirdi.

Kukiyev uzun bığlarını bu gün xüsusi səliqə ilə vurdurmuşdu: dodaqlarının üstünü örtən sarımtıl cod tüklərini aşağıdan azca kəsdirdiyindən dalaq kimi gömgöy olan dodaqları, demək olar ki, açıqda qalmışdı. İndi danışarkən iri, sarı dişləri, tünd-bənövşəyi bir çənbərlə haşiyələnirdi. Bığlarının üst tərəfinə toxunulmamışdı; həmişəki kimi yenə də cod tüklər onun yanağına, burun deşiklərinə pərakəndə halda dirənirdi. Kukiyevi çoxdan tanıyanlar, bunun səbəbini bilməmiş deyildilər. O, burnunun sağ pərəsinin yırtığını, adətən bu vasitə ilə gizlətməyə çalışırdı. Bığlarının ucları hər iki tərəfdən gur və çallaşmış bakenbardı ilə birləşdiyindən sifəti bütünlüklə tük içərisində itib batmışdı. Üzündə təkcə hündür və insafla deyilsə, yaraşıqlı alnı gözə xoş görünürdü; burnu isə, elə bil, alnından ayrılmış ox kimi aşağı enərək, nazik ucu ilə üçbucaq şəklində bığlarının içinə sancılmışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kukiyev erkən qoşun qabağına çıxdığından səbri tükənib əsəbiləşməyə başlayır, bir yerdə qərar tuta bilmirdi. Qollarını dalında çarpazladığı halda gəzişir, öz-özünü məzəmmət edirdi: "Necə yəni camaat desin ki, şəhərin pristavı uşaq kimi döşü atdana-atdana meydanı kəsdirib durub?! Qoşun böyüyündən, yəqin ki, ehtiyat edir". O, hirsini bir adamın, yəqin ki, birinci növbədə, mirzənin üstünə tökmək üçün bir bəhanə axtarırdı; buna görə də yerli-yersiz tez-tez onun üstünə çımxırırdı. Tərslikdən mirzə də onun dediyi hər bir sözü dərhal və xariqülade itaətkarlıqla qəbul edib yerinə yetirirdi. Aşağıdakı körpü başından gurultu eşidilməsəydi, pristavın səbir kasası lap daşacaqdı.

O, qoşunun şəhərə girdiyini eşidəndə özünü düzəltdi, bığlarını tumarlayıb, sinəsini qabartdı. Səliqə ilə asdığı iki gümüş medal bir-birinə dəyib cingildədi.

* * *

Dobrovolskinin atı göründü. Kukiyev özünü tamam yığışdırdı, yaşının ötməsinə baxmayaraq, gənc zabitə məxsus əsgəri bir vəziyyət aldı. Dobrovolski yaxınlaşıb, bir göz qırpımında atdan yerə sıçradı. Kukiyev vaxtı itirmədən qabağa yeriyib, belini əydi, batalyon komandirinin əlini şəstlə sıxdı, sonra yenə qamətini düzəldib əsgəri vəziyyətdə durdu.

– İcazə verin, – deyə o, aram-aram sözə başladı. – Bizim şəhərə varid olmanız münasibətilə cənabınızı və əlahəzrət qoşununu salamlayım. Xoş gəlmişsiniz!

Dobrovolski quru, ətsiz barmaqları ilə onun yekə, totuq əlini sıxdı, ayaqlarını şıppıltı ilə cütləyib başını əydi:

– İcazə verin sizi, habelə, – deyə pristav sözünə davam etdi, – şəhər əhli tərəfindən salamlayım və deyim ki, biz sizin gəlişinizdən çox məmnunuq.

Dobrovolski yenə ayaqlarını cütləyib, başını əydi. Kukiyev rəsmi nəvaziş xatirinə qımışdı və qarşıda durmuş qoşuna nəzər saldı.

Rəsmi qəbul mərasimi qurtarandan sonra Kukiyev məhrəmanə bir tövrlə podpolkovnikə yaxınlaşıb, boğazını arıtdı, gözlərini qıyıb qımışdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Cənabınıza, – dedi, – istirahət etmək lazımdır, bəli, bəli, yorulmuşsunuz, görürəm.

Sonra o daha nə isə demək istədi, ancaq elə bil söz boğazında ilişib qaldı.

Şəhər yolunun bərbad olmasından, toz-torpağın çoxluğundan şikayətlənmək istəyirdi, lakin bununla özünün şəhər təsərrüfatı ilə pis məşğul olmasını büruzə verəcəyini başa düşüb udqundu və sözünü belə qurtardı:

– Cənabınız, evə buyuraq, dincinizi alın, sonra hər şeyi sahmana salarıq. Hərçənd ki, hər şey sahmandadır. Buyurunuz, Dobrovolskinin üzündə heç bir dəyişiklik əmələ gəlmədi, hətta qaşlarının düyünü belə açılmadı.

– Yox, yox, zəhmət çəkməyin, – dedi, – batalyonu yerləşdirəndən sonra.

– Axı...

– Hörmətinizə qarşı çox minnətdaram. Sonra...

Kukiyev onun hərəkətindən başa düşdü ki, artıq söz deməyin heç bir mənası yoxdur. Yan-yörəsinə baxıb azca aralıda durmuş uryadnik Əlibəyi çağırdı və tələsik onun qulağına nə isə pıçıldadı.

* * *

Qoşunun şəhərə gəlməsi hamıdan çox pristav Kukiyevin ətli-canlı arvadı Tamara Danilovnanı əziyyətə salmışdı; iki gün idi ki, o, hörmətli qonaqların yolunu səbirsizliklə gözləyirdi. İnsafsız qonaqların isə ləngiməsi qadını çox narahat edir, hövsələdən çıxarırdı: tez-tez hirslənib yerli-yersiz ərinin üstünə çımxırırdı. Xanım, əlbəttə, haqlı idi, təkcə bir gün içərisində stolun üstündəki yeməklər üç dəfə dəyişdirilmişdi... Qonağın səhər gələcəyini eşidən kimi Tamara Danilovnanın sərancamı ilə stolun üstündəki ət xörəkləri üçün hazırlanmış çərəz yığışdırılmış, yüngül səhər yeməyi ilə əvəz edilmişdi; qonağın günorta zamanı gələcəyini xəbər verdikdə isə stolun üstündən aparılmış xörəklər təzədən isidilib geri qaytarılmışdı. Doğrusu, Tamara Danilovna başını itirmişdi, əli-qolu işdən lap soyumuşdu; öz-özlüyündə belə qərara gəlmişdi ki, qoşun yəqin istiqamətini dəyişmişdir, ya da Nuxada qalmağı qərara almışdır. Bu gün səhərdən şəhərə vəlvələ salmış təbil səslərini eşitdikdə isə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ürəyi elə bil açılmış, "Allaha şükür" deyə stolu təzədən böyük həvəs və arxayınlıqla səliqəyə salmağa başlamışdı.

Hər şeyin yerli-yerində olduğunu görən xanım yataq otağına keçib, qoz ağacından enli haşiyəsi olan iri bədənnüma aynanın qabağında durub tualetlə məşğul oldu. Qışda Tiflisdə alman dərzi qadınına tikdirdiyi təzə məxmər paltarını geydi. Onun dolu, ağ bədəni bu paltarda daha məlahətli görünürdü. Paltar belini sıxdıqca yarısınadək açıq olan geniş sinəsi və iri döşləri sanki daha da qabarıb qabağa çıxır, mərmər kimi işım-işım işıldayırdı. Arxa tərəfdən sallanıb, yerlə sürünən enli kəməri isə yerişinə xüsusi yaraşıq verirdi. Bu paltar Tamara Danilovnanın, demək olar ki, bütün pərəstişkarlarını valeh etmişdi. Onu görənlərin hamısı bir ağızdan: "İnanın ki, bu paltarda siz daha füsunkar görünürsünüz." deyər, məftunluqla ona baxardılar. Bu gənc və dolubədənli qadının gecələr pristav Kukiyevin qıllı qolları arasında yatdığını təsəvvür eləyənlər gizli-gizli yanıb qovrulur, açıq bir həsədlə köks ötürürdülər. Tamara Danilovna bu gün də məhz çox sevdiyi paltarda özünə yeni bir pərəstişkar tapacağını güman edirdi. Xanım bantlı lak ayaqqabılarını da geydi, bütün üzüklərini də taxtı, aynanın qabağında hərlənib, dönə-dönə özünə tamaşa etdi. Bu zaman dəhliz qapısı yavaşcadan döyüldü və cırıltı ilə açıldı.

– Kimdir? – deyə Tamara Danilovna dönüb qapıya tərəf baxdı.

Uryadnik Əlibəy piyli bədənini elə bil, güclə çəkib içəri saldı. Səssizcə furajkasını çıxartdı, əli ilə seyrək kürən saçlarını tumarladı, iri çəkmələri ilə astananın döşəyini batırıb-batırmadığını yoxlamaq üçün ayaqlarını qaldırıb altına baxdı.

– Hə, nə oldu? – deyə Tamara Danilovna bir uşaq fərəhi ilə sevincək halda ona tərəf yeridi. Əlibəy kirpiksiz qırmızı gözlərini təəccüblə döydü:

– Xanım, nə buyurdunuz, mültəfit olmadım.

Tamara Danilovna, həmişə olduğu kimi, yenə də bədənini əsəbiliklə əsdirdi:

– Deyirəm ki, nə oldu, qonaq gəldimi?

– Bəli, xanım, gəldi.

Pristavın arvadı gözlərini geniş açaraq ondan qonaq haqqında təfsilatlı xəbər gözlədiyi halda, Əlibəy yenə də nazik dodaqlarını bir-birinə sıxıb susdu. Tamara Danilovnanın səbri tükəndi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə, de görək, necə idi?

Əlibəy xanımın sözlərindən yenə də bir şey dərk eləyə bilmədi. Onun qıyılmış xırda gözləri divardan asılan əlvan xalının gur saçaqlarına ilişib qalmışdı. Uryadnik bu dəqiqələrdə pristavın tapşırıqlarını xatırlamağa çalışırdı, çünki pristav qonaq eşitməsin deyə, onun qulağına elə yavaşcadan pıçıldamışdı ki, Əlibəy sözlərin çoxusunu yaxşı ayırd eləyə bilməmiş və qonağın yanında, pristavdan təkrar soruşmağa da cəsarəti çatmamışdı. İndi qırıq-qırıq, alayarımçıq eşitmiş olduğu sözləri hafizəsində cəmləyib bir yerə toplamağa çalışırdı ki, xanımın sualı onu diksindirdi.

– Hə, necə idi?

Əlibəy xanımın sualından bu dəfə özünü daha da itirdi.

– Nəyi buyurursunuz, xanım?

Pristav arvadının qaşları çatıldı. O, uryadnikin üzünə elə bozardı ki, Əlibəy durduğu yerdən bir addım geri çəkilməyə məcbur oldu.

– "Nəyi buyurursunuz!.." – deyə Tamara Danilovna uryadniki yamsıladı. – Sizdəki bu huşsuzluğun axırını Allah saxlasın. Adamın nəyini soruşarlar?.. İnsanın ali zinəti, əlbəttə, sifətidir. – Tamara Danilovna barmağını ətli sifətinin dövrəsində gəzdirdi. – Bu yaşa qədər hələ bunu da bilmirsiniz? Eh, qorodovoy tayfası, sizi görüm...

Əlibəy udqundu:

– Yaxşı idi, xanım, – dedi. Sözlər elə bil ağzında qaynayıb pıqqıldadı. – Çox yaxşı idi, bığları qulağının dibinə dirənmişdi... epoletləri, qılıncı...

Əlibəy xanımı razı salmaq üçün daha yaxşı sözlər fikirləşib tapmağa çalışırdı, lakin pristav arvadının tez-tez yağdırdığı suallar altında özünü itirir, xanımı qəzəbləndirə biləcəyindən qorxaraq, sözləri özlüyündə bir neçə dəfə götür-qoy eləyəndən sonra deməyə çalışırdı:

– Bəs gözü, qaşı?

Əlibəy xanımın nə kimi gözlərdən xoşlandığını bilmirdi. Əgər verəcəyi cavab bu dəfə də xanımı razı sala bilməsəydi, hirsindən, yəqin ki, o dərhal qəşş edəcəkdi. Belə hallar Əlibəyin öz gözü qabağında az baş verməmişdi. Uryadnik xanımın sualına dərhal cavab tapa bilmədi, ancaq fikirləşdikdən sonra, gözlənilən zərbədən özünü qorumaq üçün çanağına çəkilən tısbağa kimi başını içəri qısıb çiyinləri arasında gizlətdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Üz-gözü yaman tozlu idi, xanım, yaxşı görə bilmədim. Əlibəy xanımın bu cavabından razı qaldığını hiss etdisə də, əvvəlki kimi onun üstünə hirslənib kükrəmədiyinə sevindi. Dərindən nəfəs aldı. Ancaq bir an keçmədi ki, pristav arvadının amiranə səsi yenə eşidildi:

– Yaşı neçə olardı?

Əlibəy yediyi zərbələrdən özünə gələ bilməyən bir adam kimi, nə edəcəyini bilmədi. O bu vaxtadək xanımın zövqünə bələd ola bilmədiyi üçün özünü məzəmmətlədi. Əslində xanımın kişilərdən xoşlandığını yaxşı bilirdi; bunu, hətta bəziləri kimi başqalarından eşitməmiş, bəlkə də öz gözü ilə görüb şahidi olmuşdu. O, hətta xanımın heç kəsə məlum olmayan bəzi sirlərinə də vaqif idi... Keçən ilin yayında, xanıma fransız dili öyrədən cavan bir tələbənin ədəbsiz hərəkətlərini öz gözü ilə görməsindən indiyədək əzab çəkirdi: "Nə üçün belə şey ancaq mənə rast gəldi?" – deyə özünü heç cür bağışlaya bilmirdi. Birinci dəfə həyətdə, qızılgül kolunun dalında o, nadürüst tələbənin öz qollarını xanımın incə belinə dolayıb, yaraşıqlı boynundan öpməsini görərkən az qala hücum çəkib, onun sür-sümüyünü əzişdirəcəkdi; ancaq vəzifəsi üçün qorxmuşdu. Bir neçə gündən sonra xanımın həmin tələbə ilə həyətdən evə keçib, qapıları bağladığını gördükdə isə, o, gözünü yumub keçmişdi. Bununla belə, bir Allah şahiddi ki, Əlibəy bu haqda heç kəslə bir kəlmə də kəsməmişdi; gördükləri quyu dibinə atılan bir daş kimi, onun ürəyinə çöküb qalmışdı. Xanımın təkcə cavanlarla deyil, yaşlılarla maraqlandığı da Əlibəyə məlum idi. Qışda Tiflisdən gəlmiş polis idarəsi inspektoru qırx-qırx beş yaşlarında olardı. Əlibəy altdan-altdan gizlicə sezmişdi ki, xanım onunla da hərdənbir gözləşir. Bütün bunlar xanıma necə cavab vermək üçün uryadniki çıxılmaz vəziyyətə salmışdı.

– Xanım, yaşını təyin edə bilmədim, deyə nəhayət, Əlibəy pristav arvadının axırıncı sualına da cavab verdi.

Əlibəy heç gözləmədiyi halda Tamara Danilovna bu cavabdan daha da qəzəbləndi.

– Axmaq! – dedi və qara məxmər paltarının uzun ətəyini sürütləyərək uzaqlaşdı.

Uryadnik yerindəcə donub qaldı. Xanım o biri otağa keçib gözdən itdikdə Əlibəy pristavın onu nə üçün göndərdiyini xatırlayıb, ehtiyatla xanımı səslədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Tamara Danilovna... – Onun səsi xırıldadı. Öskürüb boğazını arıtdı, canını vahimə aldığından çəkinə-çəkinə xanımı təzədən çağırdı. – Tamara Danilovna!

Bu zaman xanım qapıda göründü.

– Nə olub, nə çığırırsan?

– Tamara Danilovna, cənab pristav tapşırdı ki, qonaq günorta yeməyinə gələcəkdir. İndi isə Qalaya getdilər. Soldatları yerbəyer eləyəcəklər.

Xanım qaşqabağını töküb, üzünü turşutdu.

– Bəs bayaqdan ağzına su almışdın?!

– Xanım, mən demək istəyirdim ki, ancaq...

Tamara Danilovna ona axıradək qulaq asmadan hirslə içəri otağa keçdi. Əlibəy bir az gözlədi. Xanımdan daha heç bir cavab gəlmədi. Otağa elə sükut çökdü ki... Uryadnikin qulaqları guruldadı. Xanımın bir daha qayıtmayacağını başa düşüb onun keçdiyi otağa tərəf ədəblə baş əyərək, bayıra çıxdı.

Bayırda, qarşıdakı eyvanın üstündən çəpəki düşən günəş onun gözlərini qamaşdırdı. İçərisində elə bil, yüngüllük hiss edirdi. Pörtmüş sifətinin və sallaq yanaqlarının tərini silib, xanımın cəngindən qurtardığı üçün fərəhlə pristavlığa tərəf addımladı. Birdən yadına düşdü ki, dünən, qımırdan axsaq yasavulun qabağına qatıb gətirdiyi və dustaqxanaya salınmış üç nəfər kəndliyə səhər yeməyi vermək lazımdır. "Onların adamları, yəqin ki, indi qapının ağzını kəsdirib gözləyirlər." Uryadnik könülsüz halda küçəni burulub aşağıya tərəf üz qoydu; orada-burada toplaşıb, hələ də qoşunun gəlməsindən söhbət edən adamlara etina etmədən qoca gürcü qadını Aqvanın saxladığı meyxanaya yollandı.

Meyxananın açıq qapısı uzaqdan görünürdü. Bundan uryadnikin kefi daha da duruldu, addımlarını yeyinlədib yaxınlaşdı, açıq qapıdan başını içəri soxdu. İçəridə heç kəs görünmürdü, səs-səmir də yoxdu. Buna görə də içəri girməyə cürət etmədi. Rəngi bozarmış qapıların üstündəki lövhəni altdan-altdan süzdü. Lap yuxarıda çalın-çarpaz rəsm edilmiş kababların qırmızı-qəhvəyi rəngi Əlibəyə elə təbii və canlı göründü ki, sanki tikələrdən indicə yağ damcı-damcı süzülüb töküləcəkdir. Uryadnikin ağzı sulandı, tüklü əlinin dalı ilə dodaqlarının ucunu sildi. Lövhənin aşağısında, rusca və əyri-üyrü gürcü hərfləri ilə yazılmış sözlərin altında isə şərab və araq butulkaları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çəkilmişdi. Quduz bir iştah onun bütün bədənini bürüyüb çalxaladı. Dönüb ətrafına baxdı, heç kəsi görmədi: "Bir stəkan araq pis olmaz... Rozanın da kefini soruşaram" deyə özünü meyxanaya saldı.

Xoşbəxtlikdən meyxanada Roza tək idi. Aqva səhərlər bazarlığa getdiyindən, bu vaxtlar meyxana Rozanın ixtiyarında olurdu. İçəridən qalxan turşulu sarımsaq iyinə qarışıq rütubətli havadan uryadnik üz-gözünü turşudub başını buladı. Dib tərəfdə, bir az daha çökəkdə olan tağlı otağın stulları qarma-qarışıq halda idi; görünür gecədən yığışdırılmamışdı. Bəzi stolların üstündə yeyinti qırıntıları hələ də qalmış, boş butulkalar böyrü üstə yıxılmışdı. Gündüzlər kiçik pəncərə, gecələr isə tavanın tən ortasından asılmış qaz lampası ilə işıqlandırılan bu otaq meyxananın ən böyük və tünlük olan otağı idi. İndi öz sakitliyi ilə daha da miskin görünən bu üfunətli meyxana gecələr arı pətəyi kimi qaynaşırdı; ətrafı butulka və qədəhlərin cingiltisi, sərxoş gülüş və qəhqəhə, tez-tez eşidilən ən çılpaq söyüşlərlə qarışıq baş gicəlləndirici bir uğultu bürüyürdü. Arabir dalaşma da düşürdü. Əlibəy özü bir neçə dəfə belə dalaşmaların üstünə gəlib çıxmışdı. İri otaqdan o tərəfdə bir-birinin içində daha iki kiçik xəlvət otaq var idi ki, buraya əksər hallarda şəhərin çinovnik, ziyalı hissəsi gəlirdi. Onlar səssiz gəldikləri kimi, səssiz də çıxıb gedirdilər. İki-üç saat oturduqları müddətdə ya papiroslarını tüstülədə-tüstülədə səssizcə bir-birinin üzünə baxır, ya da pıçıltı ilə, nədənsə çəkinirmiş kimi, astadan danışırdılar. Uryadnik bələlərindən əsla xoşlanmazdı; həmişə gah pərişan, gah da nədənsə narazı görünən bu adamlar, Əlibəyin fikrincə, hökumətə çox laqeyddirlər. "Bunlara inanmaq olmaz, zatıqırıq adama oxşayırlar" deyə fikirləşirdi. Buna görə də onlarla ehtiyatlı olmağı uryadnik həmişə özünə vacib məsələ hesab edirdi.

Piştaxtanın dalında dolu butulkaları qədim bufetin geniş rəflərinə düzməklə məşğul olan Roza gecə yaxşıca yatmadığından qan çəkmiş iri, yaraşıqlı gözləri ilə uryadniki süzüb soruşdu:

– Nə var, kaftar, belə tezdən nə olub ki?

Roza pəncələri üstə qalxaraq, qollarını bufetin ən üst rəfinə uzatdığı üçün güllü paltarının ətəyi dizlərindən xeyli yuxarı qalxmışdı; onun cavanlığına sübut olan çəhrayı rəngli çılpaq baldırları, dizindən yuxarı mütənasib şəkildə yoğunlaşan budları tamam açıqda qalmışdı. Uryadnik qeyri-ixtiyari olaraq irəlilədi; piştaxtaya



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxınlaşıb gənc qadını aşağıdan yuxarı süzmək istədi. Roza onun niyyətini başa düşdüyü üçün üstünə çımxırdı:

– Kaftar, yerində dur, yoxsa!..

O, əlindəki qırmızı şərab butulkasını hirslə qolayladı. Uryadnik tez geri çəkildi. Qadının bərəlmiş gözləri daha məlahətli görünürdü.

Əlibəy iri əllərini bir-birinə sürtüb ovxaladı, dodaqlarını araladı, maxorkadan saralmış dişlərini ağardaraq xısın-xısın gülümsədi.

– Hi, hi... bir stəkan araq pis olmazdı, xanım, hə, hə, necə bilirsən... qızışmaq üçün...

Roza burnunun altında mızıldanıb aşağı endi; kiçik bir stəkana araq töküb onun qabağına itələdi:

– Al, araq qunduzu! – Uryadnikin onun sinəsinə zillənmiş ehtiraslı baxışlarını görüb, paltarının yaxasını qaldırdı. – Gözlərinə də içirtsən pis olmaz, kaftar! – deyə Roza hirslə dönüb işinə məşğul oldu.

Əlibəy arağı bir nəfəsə içib stəkanı yerə qoydu: ordlarını şişirtdi, başını əsdirərək, at kimi fınxırdı. Sonra bığlarını sığallayıb gəc-gəc Rozaya baxdı.

– Əlbəttə, bizi bəyənməzsən də... Onlar gələndən sonra... – Uryadnik başı ilə küçəyə tərəf işarə elədi.

Roza qanrılıb təəccüblə soruşdu:

– Onlar kimdir?

– Hi, hi... Bəs xəbərin yoxdur? Eşitməmisən ki, bir batalyon cavan, subay oğlanlar gəlib? Kefindir!.. Hamı sənin ixtiyarında olacaq.

Uryadnik danışdıqca qarnı atılıb-düşür, gözlərini qıyaraq, hiyləgərcəsinə Rozanı altdan-yuxarı süzürdü. Roza Əlibəyin bu kinayəli sözlərinə hirsləndi. Elə bu anda əlinə düşən hər bir şeyi qapıb onun başına çırpmaq, onu it kimi qovmaq istədi, lakin yenə özünü ələ aldı.

– Bəs necə bilirdin?! – Uryadnikin üstünə qışqırdı. – Heç olmazsa bilərik ki, bu şəhərdə kişi də vardır.

– Bəs biz? Yoxsa bundan sonra bizim kişiliyimizə şübhə edəcəksən?

Roza rişxəndlə başını yellədi:

– Siz? Püff! Siz də kişisiniz?! Əlinizdən nə gəlir... Madyan pristavın dalınca tula kimi gəzmək, vəssalam! Ha... ha... Kişiyə bax, həzz apar!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uryadnik kəkələdi:

– Ey, ey, həddini aşma! Hökumət adamına dolaşanın başı dar ağacından asılar.

– Xux, qorxdum!..

O, əsgi parçasını təzədən əlinə aldı və bufetin tozunu silməyə davam etdi. Əlibəy yerində mızıldana-mızıldana qaldı. Roza tez-tez oxuduğu bir mahnını zümzümə edərək onun dediyi sözləri eşitməməyə çalışdı. Uryadnik çox deyindi. Axırda dediyi sözlərdən bu gənc qadının heç qımıldanmadığını görüb, səssizcə meydandan çıxmaq istədi. Qapıya tərəf yönələndə Roza onun pul vermək istədiyini başa düşdü, tez piştaxtanın dalından çıxdı, yüyürüb uryadnikin qolundan yapışdı:

– Bəs pulu?!

– Sonra, indi xırda yoxdur.

Roza əl çəkmədi.

Uryadnik səs-küyə camaatın toplaşmasından ehtiyat edərək ciblərini axtardı, axırda köhnə, sürtülmüş bir sikkə çıxarıb meyxananın döşəməsinə tulladı. Roza onun bu hərəkətindən qəzəbləndi. Sikkəni yerdən qaldıraraq hirslə onun arxasına atdı.

– Al, təpənə vur, müftəxor!

Əlibəy onun dediyini eşitmədi; o, artıq küçədə idi.

* * *

Əlibəy oradan birbaşa pristavlığa yollandı. Rozanın arağından kefi durulmuş halda burnunun altında zümzümə edirdi. Küçədən ensiz bir döngə ilə ayrılan divanxana həyətinə girdi. Dustaqxananın qapısı ağzında çoxlu adam toplaşmışdı, keşikçi onları yaxın buraxmadığı üçün hamı ağız-ağıza verib deyinirdi. Çoxunun xurcunu hələ çiynində idi. Bir az aralıda, ağacın altında üç qadın oturmuşdu, onların yanında isə körpə bir uşaq totuq əllərini yerə dayayaraq, əzilmiş yaşıl ot üstündə iməkləyirdi. Qadınlardan biri, deyəsən, ağlayırdı. Başını aşağı dikib, örpəyinin ucu ilə gözlərinin yaşını silirdi.

Əlibəy yaxınlaşan kimi hamı susdu. Qadınlar səssiz ayağa qalxıb, qapı ağzındakı adamlara tərəf gəldi. Qoca bir qadın hey zarıldayırdı. O, qıçlarını güclə çəkərək irəlilədi, yaşmağını ağzına çəkib öz-özünə bərkdən deyindi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bala, bu vaxtadək dustaq ac qalar?

Bu sözdən hamı elə bil ürəkləndi; uryadniki araya alaraq, yer-yerdən onun üstünə düşdülər:

– Dörd saatdır gözləyirik.

– Ay qardaş, uzaq yoldan gəlmişik, rəhm elə.

Əlibəy qollarını açıb, adamları özündən araladı:

– Çəkilin deyirəm! Bayquş kimi ulamayın! – O, qabağa, dustaqxananın qapısına tərəf irəlilədi. – Şeyləri bura verin, yoxlayacağam.

Adamlar təzədən hərəkətə gəldi. Hərə gətirdiyi xurcunu tez yoxlatdırmaq üçün çiynindən yerə qoydu, bağlamaların düyünlərini açıb, hazır tutdular. Əlibəy eynəyini taxıb, fısıldaya-fısıldaya xurcundakı şeyləri bayıra çıxarır, çörəkləri iki bölüb baxır, xörək qablarının altına çırtıq vurub yoxlayırdı; az qala qoz-fındığı da sındırıb içinə baxmaq istəyirdi. Heç kim ona bir söz deyə bilmirdi; qorxurdular ki, qəzəblənib özündən çıxsın. Axır arvadlardan birinin səbri lap tükəndi:

– Ay qardaş, onlarda nə axtarırsan?

Uryadnik belə şeylərdə özünün qabil və bələd bir adam olduğunu toplaşanlara göstərmək üçün qaşlarını çatdı, ciddi bir tövr aldı:

– Bu sizin işiniz deyil! – dedi. – Yerinizdə durun! Elə şey var, dustağa vermək yaramaz. Onu özümüz bilirik. Sizdən hər şey gözləmək olar, nadürüstlər! Qaçaqları hər gecə evinizdə saxlayan siz deyilsinizmi? Əyə, yasavul...

O, boylanıb adamların arasına baxdı. Dustaqxana keşikçisi ona xəbər verdi ki, yasavul dünən, adamları təhvil verəndən sonra gecə ikən kəndə qayıdıb. Uryadnik başını buladı:

– Heyf ki, yasavul gedib. O sizə deyərdi ki, qaçaq Məhəmmədi necə gizlədirsiniz. Heyf...

Əlibəy dustaqların qohum-qardaşını bu sözlərlə qorxuda biləcəyini güman edərək, onlardan qəpik-quruş qoparmaq niyyətində idi. Buna görə də, şeylərin yoxlanılmasını bəhanə ilə ləngidir, vaxtı uzadırdı. Adamların səbri tükəndi. Onların içərisində arif olanlardan birisi uryadnikin niyyətini başa düşüb, cibinə gümüş bir onşahılıq saldı. Əlibəy özünü bilməməzliyə qoydu. O birilər də bunu görüb hərə cibini axtardı və əlinə keçəni xəlvətcə uryadnikin cibinə saldı. Əlibəy artıq öz arzusuna çatdığı üçün, gətirilən yeməklərin yoxlanışını sürətləndirdi, bəzisinin bağlaması isə heç açılmadı; necə vardısa, eləcə də dustağa çatdırıldı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## II fəsil

Batalyon çınqıllı, enli bir cığırla Kilsə meydançasından qərbdə, təpənin üstündə uzanıb gedən geniş yaşıl düzənliyə qalxdı; yerli əhali buranı Qala düzü adlandırırdı. Duman yenicə çəkilmiş, torpaq və zərif otlar, bahar sübhünün bərəkətli şeh və rütubətindən canlanıb nəfəs alırdı. Uzaqlardan, səmanın dərin qatlarından eşidilən köçəri quşların qarışıq səsləri, yaşıl donunu hələ geyinməmiş meşəli dağlara səs salmışdı. Qala düzünü üç tərəfdən dövrələyən sıldırımlı dərədən və dərənin sağ tərəfindən başlayan dağların ətəklərindən arabir qıy səsləri ucalaraq, xeyli müddət havada hərlənir, sonra haradasa ilişib birdən-birə boğulurdu. Şəhərdə də həyat qaynamağa başlayırdı: küçələrə toplaşmış adamlar evlərə, bazara, şəhərətrafı bağlara dağılışır, hər tərəfdə işgüzar hənirtilər eşidilir, getdikcə artıb çoxalırdı. Misgər dükanları cərgəsindən qalxan zəhlətökən yeknəsəq cingiltilər isə həmişəki kimi yenə də qarışıq, anlaşılmaz bir uğultu ilə ətrafa yayılırdı. Kilsə zəngləri aramsızcasına vuraraq, xaçpərəstləri səhər duasına çağırırdı.

Batalyon Qala düzünə qalxdıqdan sonra hazır vəziyyətdə durub, aşağıda hələ də pristavla bəzi mühüm məsələləri müzakirə edən podpolkovnik Dobrovolskini gözləyirdi. Bütün gecəni yol gəlmiş soldatlar ayaq üstə güclə durmuşdular, yuxusuzluqdan çoxlarının gözləri örtülürdü. Çiyinlərindəki ağır ləvazimat, bəzən elə bil, indicə onları aşağı basıb dizi üstə çökdürəcəkdi. On-on iki saat yol gəldikdən sonra indi də hazır durub, podpolkovniki gözləmək rotalardakı soldatları cana gətirmişdi; çoxları, rota komandirlərindən çəkinmədən hündürdən podpolkovnikin dalınca deyinirdi. Səslər bir-birinə qarışır, Qala düzü arı pətəyi kimi vızıldayırdı. Rota komandirlərinin hərdənbir ötəri çığırıb kəkələmələri də soldatlara təsir etmirdi, onlar da yorulmuşdular və buna görə də soldatların belə həyəcanlı hərəkətlərinə, hətta açıqdan-açığa onların ünvanına yağdırdıqları söyüş və təhqirlərə əhəmiyyət vermir, eşidə-eşidə qulaqardına vururdular.

Günəş xeyli boylanmışdı: ətrafda yaşıl otlar, yabanı çiçəklərin şehlə dolu kiçik, zərif kasaları parıldaşırdı. Aşağılarda, yuxarıdan yerə çökmüş kimi görünən damların köhnəlmiş və mamır bağlamış darçını kirəmitləri, həyətlərdə qaralan peyin tığları buxarlanır, bacalardan qalxan boz tüstüyə qarışıb bahar səmasında yox olurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Silsilə təşkil edən Kiçik Qafqaz sıra dağlarının qarlı başları da dumandan seyrəlməyə başlamışdı; təmizlənmiş aydın üfüqdə hər şey öz şəklini, öz rəngini almaqda idi.

Kilsə meydanına qalxan yoxuşda nəhayət, Dobrovolskinin atı göründü; bir yerə toplaşmış komandirlər dərhal öz rotalarına tərəf dağılışıb, hazır vəziyyətdə durdular. Hər tərəfdən "farağat!" səsləri ucaldı və dağlarda əks-səda verdi. Dobrovolski atını rotaların qabağından səyirdərək keçdi və qayıdıb, təxminən iki rotanın qarşısında – qabaqda durdu.

Batalyon sakitcə əmr gözləyirdi. Dobrovolski atdan enmədən hündürdən bildirdi:

– Batalyon öz son iqamətgahına çatmışdır. Beşinci və altıncı rotalar burada – Qalada, yeddinci və səkkizinci rotalar isə şəhərdə, xüsusi mənzillərdə qalacaqdır. Kapitan Smirnov və kapitan Qasse, öz rotalarınızı aparıb yerləşdirə bilərsiniz.

Batalyon komandiri atdan düşdü, cilovları yavərə verərək əlcəklərini çıxartdı. Yeddinci rotanın komandiri kapitan Smirnov irəli keçib əmr verdi:

– Rota, sağ-a-a dön! Addımla marş!

Rota addımlayıb, Qala düzündən uzaqlaşdı. Onun ardınca kapitan Qasse də öz səkkizinci rotasını çəkib apardı; batalyon komandiri isə beşinci və altıncı rotaların komandirləri ilə birlikdə Qalanın içində düzəlmiş qışlaları yoxlamağa getdi.

* * *

Qala düzünün şimalından cənubuna, sıldırım boyu uzanmış Zaqatala qalası 1830-cu ildə çar hökuməti tərəfindən tikilmişdi. Dağlılarla mübarizədə bu qala rus qoşunlarının əsas istinad məntəqələrindən biri idi. Qala strateji cəhətdən çox əlverişli yerdə tikilmişdi. Divarlarda qalan güllə izləri, bürclərdə uçulub dağılmış mazğallar və sınıq dişlər, burada qızğın vuruşmalar getdiyinə şəhadət verirdi. Dağlılar tamam tabe edildikdən sonra, yəni Şeyx Şamil hərəkatı yatırıldıqdan sonra Qala öz əhəmiyyətini itirmişdi.

Lakin belə bir qalanın, həm də Rusiyanın mərkəzindən çox uzaqlarda, ucqar bir yerdə olması, imperator II Nikolayın yadından çıxmamışdı; 1905-ci il inqilabi çaxnaşmaları Rusiyanın hər tərəfinin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bürüdüyü zaman bu qalanın mövcud olduğu təzədən yada düşmüşdü. Qara dəniz, Baltik dənizi, Sakit okean hərbi donanmalarında inqilabi çıxışları ilə çarizmi hədələyən matrosları susdurmaq, onların içindəki inqilabi əhvali-ruhiyyəni vurub çıxarmaq məsələsi mütləqiyyət üçün ən mühüm bir məsələ idi. Rusiyanın mərkəzlərindən bu xatanı tezliklə uzaqlaşdırmaq, onun fəhlə rayonlarına yoluxa bilməsi təhlükəsini aradan qaldırmaq üçün təcili tədbirlər görmək lazım gəlirdi. Rusiya göbəyindən partlamaq təhlükəsi qarşısında idi. 1905-ci ilin yayında "Potyomkin" zirehli gəmisinin qırmızı bayraq qaldıraraq, inqilabçı matrosların əlinə keçməsi çarizmə böyük bir zərbə idi. "Potyomkin" matroslarının üsyanı sirayətedici xəstəlik kimi imperiyanın başqa donanmalarına da yayılmışdı. 1906-1907-ci illərdə potyomkinçilərin ruhu yenə yaşayırdı. Donanmaları bu siyasi cəhətdən şübhəli matroslardan təmizləmək üçün çar öz xəfiyyələrinin hamısını zəncirdən açıb buraxmışdı. 1907-ci ilin əvvəllərində Xarkovun bütün həbsxanaları şübhəli matroslarla dolmuşdu. Bunların içərisində potyomkinçilərin yeni nəslindən olanlar daha çox idi. Məlum olduğu üzrə, "Potyomkin" zirehli gəmisi Rumıniya hakim dairələri tərəfindən Rusiyaya qaytarıldıqdan sonra onun adını bir daha xatırlatmamaq üçün gəmiyə yeni bir ad verilmişdi: "Svyatoy Panteleymon". Lakin gəminin adı dəyişdirildisə də onun matroslarını dəyişdirmək mümkün olmadı; 1907-ci ilin əvvəllərində "Svyatoy Panteleymon"da xidmət edən matroslar "Potyomkin"in yolu ilə getdilər. Xarkov həbsxanalarında saxlanan inqilabçı matrosların da əksəriyyəti "Svyatoy Panteleymon"dan idilər. Bu matrosların inqilabi ruhunu boğmaq, onları diz çökdürmək, Xarkov ətrafında, öz qəddarlığı ilə bütün kəndlilərə tanış olan kapitan Dobrovolskiyə tapşırıldı. İmperator II Nikolay Dobrovolskini tələsik öz yanına çağırtdırdı. Ona podpolkovnik rütbəsi, böyük miqdarda pul və külli-ixtiyar verildi. Dobrovolski imperatorun qarşısında diz çöküb and içdi ki, bütün qüvvəsini sərf edərək matroslarda inqilab adına nə varsa, hamısını son zərrəsinə qədər vurub çıxaracaq, onları imperiya qarşısında müti bir qul kimi diz çökdürəcəkdir və bu yolda heç bir şeyini əsirgəməyəcəkdir.

Dobrovolskinin batalyonunun yarısı piyada soldatlardan, yarısı da əyinlərinə boz soldat şineli geydirilmiş qara dəniz matroslarından ibarət idi. Sayı dörd yüzə çatan, bu matroslara silah etibar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edilmirdi. Lakin batalyonun keçdiyi yollarda, camaatda şübhə oyatmamaq üçün onlara da silah verilmiş, ancaq tüfənglərinin çaxmaq və süngüləri çıxarılmışdı.

Dobrovolski qədim qalanın qalın divarlarına tamaşa etdikcə imperatora verdiyi vədini burada – Rusiyanın mərkəzindən uzaqlarda yerinə yetirə biləcəyinə inamı daha da artırdı. Qafqaz onun üçün sınaq meydançası idi. O, ya imperatorun etimadını doğrultmalı, ya da onun gözünə görünməmək üçün başını cənub torpaqlarında əbədilik yerə qoymalı idi. Özünə bəslədiyi inama əsasən o, birinciliyə nail olacağını qət etmişdi. Qafqaz onu uğurla qarşıladığı kimi, uğurla da yola salmalı idi. Bu optimist hiss, xüsusilə indi, Qafqazda qaldığı müddətdə özünə mənzil edəcəyi bu qədim qalanı gəzərkən daha məğrurluqla onun bədənini bürüyüb, ürəyini isindirdi.

Qalanın içindəki tikililər soldat qışlaları üçün, demək olar ki, yararlı vəziyyətdə idi. Bunlardan bəzisi çoxdan tikildiyindən uçub-dağılmışdısa da, lap bu yaxınlarda şəhər pristavı tərəfindən təmir etdirilib sahmana salınmışdı; bürclərin uçuq yeri əvvəlki kimi bərpa edilmişdi. Qala hasarının yanı ilə uzanan, lakin ondan azca alçaq olan iç hasarın üstü keşikçinin rahat gəzməsi üçün malalanıb düzəldilmişdi. Dobrovolski rotalar üçün qışlaları müəyyən etdikdən sonra qalanın şimal tərəfindəki baş darvazanın bərabərində olan ağ binaya yaxınlaşdı; yarım saat qabaq pristavın ona vermiş olduğu açarı cibindən çıxarıb qapını açdı. Səliqə ilə döşənmiş dəhlizdən böyük bir otağa keçilirdi; qalanın içinə açılan pəncərədən hər tərəf aydın görünürdü. Podpolkovnik onun üçün məhz belə bir yer ayrıldığından çox razı qaldı.

Günortaya yaxın batalyonun arabaları, mətbəxi də gəlib çıxdı.

* * *

Axşamdan bir neçə saat ötmüş podpolkovnik Dobrovolski yavəri ilə birlikdə pristavın evindən qalaya qayıdırdı. Küçə qaranlıq idi. Hər tinin başında alçaq dirəkdən asılmış lampaların işığı sısqa bir şölə ilə közərirdi. Yavər podpolkovnikin düz yeriyə bilmədiyini hiss etdiyindən qaranlıqda küçələrin çökək yerlərini seçən kimi Dobrovolskiyə daha da yaxınlaşır, büdrəyib yıxılacağı zaman onu tutmağa çalışırdı. Xoşbəxtlikdən küçədə adam yox idi. Heç kəs



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

podpolkovnikin kefli olduğunu görə bilməzdi. Dobrovolski hərdənbir ayaq saxlayıb, burnunda nəsə mızıldayırdı. Yavər bu zaman onun qabağına keçib soruşurdu: "Nə buyurdunuz, cənab podpolkovnik?" Dobrovolski isə qaranlıqda onun sifətinə baxıb, əlini yelləyir və yoluna davam edirdi.

Xanım Aqvanın meyxanası qabağına çatdıqda Dobrovolski ayaq saxladı. İçəridən bayıra gur işıq düşmüşdü, iri qaz lampası ilə işıqlandırılan meyxanada Yavərin gözünə tanış olan adamlar sataşdı. Tez irəlilədi, üzünü pəncərəyə yapışdıraraq, içəri baxdı. Boğanaq papiros tüstüsü içində, dib stollardan birində oturmuş kapitan Smirnovla kapitan Qasseni tanıdı. Onların qabağına çoxlu butulka düzülmüşdü; kapitan Qassenin yaxası açıq idi, qolunu havada yelləyə-yelləyə danışırdı. Görünür ki, sərxoş idi, danışığı ilə o biri stollarda oturmuş adamların da diqqətini özünə cəlb etmişdi. Yavər pəncərədən ayrıla bilmirdi, şəhərdə yerləşmələrindən istifadə edən kapitan Smirnovla Qassenin belə hərəkətləri haqqında podpolkovnik soruşsa, ona nə cavab verəcəyini fikirləşirdi. Dobrovolskinin belə işlərdə çox qəti olduğuna bələd idi. Xarkovda meyxanada rast gəldiyi bir zabiti şillələyib, poqonunu hirslə çiynindən dartıb çıxarması yadından çıxmamışdı. Ancaq bir iş vardı ki, podpolkovnik özü də indi kefli idi, ayaqlarını güclə sürüyürdü.

– Ey, yavər! – deyə küçədə durub gözləyən podpolkovnik onu səslədi. Yavər onun yanına qaçdı:

– Cənab podpolkovnik, mən sizi dinləyirəm.

– Orada nə var?

– Meyxanadır, cənab podpolkovnik.

– Ehh... yaramaz... – deyə o, səsini uzatdı. – Yəqin ki, sulanırsan?

Yavərin bütün bədəni titrədi.

– Xeyr, cənab podpolkovnik, baxırdım ki, görüm bizimkilərdən orada yoxdur ki.

Podpolkovnik kükrədi, bığlarını əsdirib qabağa, meyxanaya tərəf irəliləmək istədi.

– Vardırmı? Kimdir?

Yavərin boğazı qurudu, udqundu. O, Dobrovolskinin meyxanaya girəcəyindən qorxdu; bununla hər iki kapitanın işi bitə bilərdi. Yavər onun yolunu kəsmək istəyirmiş kimi düz qabağında durub, ayaqlarını bir-birinə vurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç kəs yoxdur, cənab podpolkovnik, – dedi. – Yerlilərdir, kefləniblər.

Podpolkovnik bunu eşidən kimi kəskin hərəkətlə üzünü döndərdi və özünün kefli olduğunu sezdirməməyə çalışaraq, iri addımlarla alaqaranlıq küçədə yoluna davam etdi.

Kapitan Smirnovla, kapitan Qasse bayırda, meyxananın qapısı ağzında baş verən bu hadisədən xəbərsiz idilər. Hər ikisinin başı dumanlanmışdı. Tanımadıqları bu meyxanaya qədəm qoyarkən yalnız bir şeyə arxayın idilər ki, podpolkovnik pristavın qonaqlığından gecə yarısı qayıdacaqdır. Buna görə də yefreytorlara möhkəm tapşırıq verib, şəhəri gəzmək bəhanəsi ilə buraya gəlmişdilər. Kapitan Smirnov bu işə o qədər ürəklə girişməmişdisə də, Qassenin təkidlə yalnız bir stəkan araq içib geri qayıtmağa razılıq vermişdi. Lakin birinci stəkanı içəndən sonra başı qızışmışdı. Qasse də bundan istifadə edərək ona ikinci, üçüncü stəkanı da içirdə bilmişdi.

Bərabər içmələrinə baxmayaraq, Smirnovun gözləri artıq süzülürdü. Uzun sifətinin bütün cizgiləri, dodaqlarının ucları aşağı dartılıb, eybəcər bir şəkil almışdı. Hərdənbir qüvvəsini toplayıb, başını qaldırdığı zaman iri qan çəkmiş mavi gözləri vahimə içərisində ətrafı süzürdü. Qassenin təkcə ağ bənizi qızarmışdı. İçdikcə daha da həvəslənir, Smirnovun ona qulaq asıb-asmadığına əhəmiyyət vermədən hündürdən danışırdı.

Qasse batalyonun zabitləri arasında içkiyə aludəçiliyi ilə fərqlənirdi. Bunun üstündə dəfələrlə cəza da almışdı. Bir dəfə, hətta Peterburqda yaşayan qoca qrafinya nənəsi olmasaydı vəzifəsi də az qala aşağı salınacaqdı. Nənəsinin paytaxta yüksək dairələrdən olan köhnə tanışlarından, daha doğrusu, gənclik pərəstişkarlarından biri onun köməyinə çatmışdı. Podpolkovnik Dobrovolski Qafqaza yola düşəcək əlahiddə batalyonu təzədən düzəldərkən Qassenin də buraya göndərilməsi, yenə də nənəsinin əli ilə olmuşdu. Ən mühüm dövlət tapşırığını yerinə yetirmək üçün göndərilən və əlahəzrətin özü tərəfindən nəzərdən keçirilmiş bir batalyona düşmək o zaman hər bir zabitə müyəssər ola bilməzdi; çoxunun yuxusuna belə girməzdi. Lakin Qassenin təkcə nənəsi sayəsində bu dərəcəyə çatdığını demək o qədər də doğru olmazdı. Bu işdə onun öz şəxsi xidməti də vardı. Batalyonun zabit heyətinin siyahısını yoxlayan Xarkov jandarm idarəsi Qasse haqqında verdiyi xasiyyətnamədə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

göstərirdi ki, o, 1905-1906-cı illərdə Xarkov və onun kəndlərində baş vermiş şuluqlarının yatırılmasında özünü əlahəzrətin sadiq soldatı kimi doğrulda bilmişdir.

Əlbəttə, belə bir tərifnamənin yazılmasından Qasse özü də xəbərdar idi; buna görə batalyonda xidmət etməyə yenicə gəlmiş zabitlər içərisində özünün keçmiş fəaliyyətindən çox lovğalıqla danışır, Dobrovolskidən başqa hamıya yuxarıdan baxırdı. O, Dobrovolskinin də hörmətini qazanmışdı. Bu, bəlkə ondan irəli gəlmişdi ki, Dobrovolski Qassenin hələ I Nikolayın sarayında xidmət etmiş qədim alman Qasse nəslindən olduğunu öyrənmişdi, ya da Qasse ilə podpolkovnik arasında heç kəsə məlum olmayan bir sirr vardı. Arada belə bir söhbət də gəzirdi ki, guya Qasse hərdənbir podpolkovnikin mənzilinə gedərək onunla kart oynayır. Ancaq bunu hələ gözü ilə görən olmamışdı. Çoxusu güman eləyirdi; çünki Qassenin varlı, dul anasından aldığı külli miqdarda pulu haraya xərclədiyini heç kəs başa düşmürdü. Təkcə içki bu qədər pulu uda bilməzdi.

Qassenin bu məziyyətləri qarşısında Smirnov, əlbəttə, çox miskin görünürdü. Onun çinovnik ailəsindən olan atası vaxtilə Baltik donanmasında hərbi feldşer işləmişdi; yaşı altmışı addayandan sonra sağ tərəfini iflic vurmuş və onu ömürlük yorğan-döşəyə salmışdı. Lakin dayısı tərəfdən adlı-sanlı bir sülaləyə mənsubdu. Anasının böyük qardaşı Dmitri Maksimilyanoviç 90-cı illərədək böyük vəzifələrdə çalışmış, III Aleksandrın zamanında çarın etibarını qazanıb Fransada əvvəllər müşavir, sonralar isə səfir vəzifəsinə təyin edilmişdi. Smirnov Dmitri Maksimilyanoviçdən heç bir maddi kömək görməmişdi. Bacısı oğlunun harada işlədiyindən, demək olar ki, dayının xəbəri də yox idi. Lakin onun təkcə adı və şöhrəti hər yerdə – yeni mənsəb veriləndə ya da orduda təyinat məsələlərində öz bacısı oğlunu qartal qanadları ilə himayə edirdi. Elə bunun özü Smirnov üçün kifayət idi. Beləliklə, Smirnovun heç bir gəlir mənbəyi yox idi; aldığı maaşın yarısından çoxunu evə, xəstə atasına göndərirdi. Qasse bunu bilirdi. Buna görə də birgə içdikləri zaman o, Smirnovu bir dəfə də olsun əlini cibinə salmağa qoymamışdı.

Qassenin əksinə olaraq, Smirnov arıq və əsəbi idi. Qasse ilə dostluq etsə də, xasiyyəti və rəftarı etibarilə tamam başqa adamdı. İlk badədən bədəni süstləşir, uzun qolları yanına düşüb, qırılmış ağac budaqları kimi yellənirdi. Bir sözlə, Smirnovu yaxşı tanıyanlar,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onun ayıqlığı ilə sərxoşluğu arasındakı bu ziddiyyəti gördüyü zaman təəccüblənməyə bilməzdilər.

Qasse hey danışırdı. O, sanki Smirnovdan başqa heç kəsin eşitməməsi üçün yavaşcadan, az qala pıçıltı ilə dediyi sözlərin belə meyxanada oturan müştərilər tərəfindən eşidildiyini bilsəydi, bəlkə də susardı. Lakin başı qızışmışdı. Qapı ağzında, piştaxta dalında durmuş meyxana sahibəsi Aqva da qısa ətli qollarını çəlləyə oxşayan bədəninə qulp kimi dirəyib onların söhbətinə qulaq asırdı. O, təzə müştərilərin xətrinə dəymək istəmirdi; axı belə yağlı müştəri hər zaman əlinə düşmürdü; indi isə bilirdi ki, batalyon qalada özünə məskən saldığından, onlar meyxanaya tez-tez gələcəklər.

Bu axşam daha gözəl, lakin əndazəsiz geyinmiş Rozanı o, müxtəlif bəhanələrlə zabitlərin oturduğu stola tərəf göndərirdi. Əslində Aqvanın məqsədi başqa idi. O, Rozanın gözəlliyi ilə yeni müştərilərini birdəfəlik, necə deyərlər, yerli-dibli fəth etmək fikrində idi.

Rozanın geydiyi çəhrayı ipək paltar əyninə elə kip yapışmışdı ki, cavan bədəninin bütün çökək və qabarıq yerləri gözəl bir heykəl kimi aşkarda qalmışdı. Uzaqdan baxanda onun əynində paltar olduğunu demək olmazdı; elə bil, çılpaq bir qadın stolların arasında dolaşırdı. Roza sərxoş zabitləri ilk dəqiqədən maraqlandırmağa başlamışdı. Onun tez-tez yaxınlaşması üçün Qasse hər dəfə gah şərab, gah da kabab sifariş edirdi. Stolun üstündə daha boş yer qalmamışdı. İçki butulkalarından bir neçəsini Qasse döşəməyə, ayağının yanına düzmüşdü. Roza axırıncı dəfə onların yanına gələndə Qasse başını qaldırdı, ancaq heç bir söz demədi. O, içkidən xumarlanan ehtiraslı gözlərini Rozanın yarımaçıq, qabarıq sinəsinə zilləyib durdu. Əlini uzadıb, onun dolu qolundan yapışdı; güclə onu yanlarında əyləşdirmək istədi. Roza razı olmadı. İşi olduğunu söyləyib qolunu çəkdi. Aqva uzaqdan bunu görüb xısın-xısın gülümsədi.

Keflənmiş zabitlərin hərəkətini hamı maraqla izləyirdi; oturanlar üçün bu yeni bir şey idi. Meyxananın həyatında birinci dəfə idi ki, çiynində zərbaftalı poqon olan rus zabitləri burada, tanımadıqları yad, yerli adamların içərisində oturub şərab içir və yüksək adlarına ləkə toxunduracağından çəkinmədən sərbəst hərəkət edirdilər. Əlbəttə, iki rus zabitinin bu hərəkətləri hamıya eyni təsir bağışlamırdı: bəzisinin ancaq ağzı açıla qalmışdı. Beləlləri üçün zabitlərin hərəkətlərindən daha çox geyimləri, danışıqları maraqlı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

idi. Qaşqabaqlarını tökərək, zabitlərə nifrətlə baxdıqları açıqdan-açığa hiss olunan başqa müştərilər isə burada gördüklərini soyuqqanlılıqla qəbul edə bilmirdilər.

* * *

Zabitlərlə üz-üzə olan stolda iki nəfər oturmuşdu. Parçlara tökülmüş pivə, bir saatdan artıq idi ki, qabaqlarında qalmışdı.Zahirən dalğın görünürdülər, əslində isə hər ikisinin diqqəti kefli zabitlərdə idi; fürsət düşdüyü zaman Qasseyə baxıb gülümsəyir və başlarını əyərək, onun hərəkətlərindən həzz aldıqlarını bildirməyə çalışırdılar. Bunlardan biri şəhər müəllimi Ohan Kazaryan idi. Yaşı qırxdan artıq olmazdı, uzun, arıq bir adam idi. Uzana qalmış nazik boynunun damarları danışarkən şişir və bundan da ətsiz sifətinə boğuq bir qırmızılıq çökürdü. Sivri çənəsinin altında iri hülqumu qabarıq dirsək kimi qabağa çıxmışdı. İkincisi isə şişman, qırmızı yanaqlı bir adam idi. Kazaryanla bir yaşda olsa da, sifətdən çox cavan görünürdü, uzun, gur saç saxlayırdı; qısa boynu saçlarının içində itib batmışdı. Əsl adı Ayrapet Xaçaturyans idi; şəhərdə isə, onu keşiş Ayrapet çağırırdılar. Deyilənə görə, guya o, qabaqlar Tiflisdə bir neçə il keşiş olmuşdur. Sonralar daşnak partiyasına girmiş və keşişliyi ataraq, özünü bütünlüklə partiya işinə həsr etmişdi. Yöndəmsiz, piyli bədəni onu zahirən ədalətli və ləng bir adam kimi nəzərə çarpdırsa da, əslində çox diribaş və işgüzar idi. Köç-külfəti ilə birlikdə Tiflisdən Zaqatalaya gəldiyi zaman yerli partiyanın cəmi beş-altı üzvü vardı; onun buradakı ikiillik fəaliyyəti nəticəsində isə partiya üzvlərinin sayı əlliyə çatmışdı. Tiflis, Yerevan və Bakıdakı daşnak təşkilatları ilə sıx əlaqədə işləyirdi. Təbiəti etibarilə çox sakit olan Xaçaturyans az-az danışar, bəzən oturduğu yerdə mürgüləyərdi. Lakin belə hallarda, pensnesinin şüşələri parıldadığından onun xırdaca gözlərinin yumulduğunu heç kəs görə bilmirdi. Buna görə də, müsahiblərinə elə gəlirdi ki, o, qımıldanmadan dərin fikrə dalmışdır.

Ancaq bu gün, meyxanada sakit oturmasına baxmayaraq, Xaçaturyans çox həyəcan keçirirdi. O, şəhərə gəlmiş batalyonun məqsədini, qarşısında oturmuş bu iki kefli zabitdən öyrənmək üçün əlinə gözəl fürsət düşdüyünü hiss edirdi. Lakin bundan necə istifadə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etməyi düşünürdü: açıq-açığına hərəkət etmək, təbii ki, yaxşı nəticə verməzdi, bəlkə içindən xata da çıxa bilərdi. Başqa yolla da hərəkət etməyə cəsarət etmirdi. Yalnız bir yol vardı: başları dumanlanmış zabitlər onlara tərəf baxdıqları zaman üzlərinə gülümsəmək, mehribanlıqla baş əymək, beləliklə də, onların diqqətini özlərinə cəlb etmək... lakin nə gülümsəmələr, nə də baş əyib onların hərəkətlərini təqdir etmələr heç bir nəticə vermirdi.

Birdən onların gözləmədiyi bir təsadüf hər ikisini yerindən qalxmağa məcbur etdi. Qasse yekə qollarını ölçə-ölçə danışdığı zaman dirsəyi, stulun söykənəcəyinə keçirdiyi furajkasına toxundu, kiçik günlüklü furajka diyirlənib Kazaryanla Xaçaturyansın qabağına düşdü. Xaçaturyans iri qarnını dala verib, əyilənədək Kazaryan uzun qolunu uzadıb furajkanı tez yerdən qaldırdı və irəliləyib Qasseyə uzatdı. Zabit qeyri-ixtiyari olaraq ona baş əydi.

– Mersi!

Kazaryanın dişləri ağardı, vaxtdan istifadə edərək onların yanında yubandı və başını əyərək zabitə cavab verdi:

– Dəyməz, cənab zabit.

Zabitlərdən daha səs çıxmadı: heç biri ona nə oturmağı, nə də papiros təklif etdi. Dönüb yerinə qayıtmaq istəyirdi ki, arxasından Qassenin səsi eşidildi:

– Ey... cənab!

Kazaryan tez geri çevrildi:

– Buyurun. Məni çağırdınız?

– Bəli. Siz çox yaxşı adama oxşayırsınız. Oturun bizimlə...

Kazaryan əllərini sinəsində çarpazlayıb, başını azca irəli əydi:

– Təşəkkür edirəm, cənab zabit. Məmnuniyyətlə... ancaq... mən tək deyiləm, yoldaşım gözləyir.

Qasse Xaçaturyansa tərəf baxdı. Xaçaturyans barmaqlarını qarnının üstündə bir-birinə keçirib, sakitcə gözlərini döyürdü.

– Onu da dəvət ediniz, – deyə Qasse Xaçaturyansı göstərdi və Kazaryanın çağırmasını gözləmədən özü Xaçaturyansa müraciət etdi: Buyurun, cənab, siz də buyurun...

Xaçaturyans bu sözləri eşidən kimi sıçrayıb yerindən qalxdı və iki addım irəliləyib Kazaryanın yanında durdu, əmr gözləyən adamlar kimi gözlərini zabitlərdən ayırmadan tez-tez döyəclədi. Qasse onlara baxdı, əyilib Smirnovun qulağına nə isə pıçıldadı. Smirnov



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görünür ki, onun sözlərindən heç bir şey başa düşmədiyindən, ya da əhəmiyyət vermədiyindən qımıldanmadı. Qasse gözlərini yenə qarşısında durmuş iki dosta tərəf çevirdi. Xaçaturyansın seyrəlməyə başlayan təpəsini aydın görə bildi. Onun qarnı özündən yarım arşınadək irəli çıxmışdı. Kazaryanın aralı qoyulmuş uzun qıçları yanında Xaçaturyans basılıb yastılanmış yöndəmsiz bir təpəyə oxşayırdı. Qasseyə elə gəldi ki, Kazaryanın dar şalvarlı uzun, nazik qıçları indicə dizlərindən bükülüb, kötük kimi yanındaca bitmiş Xaçaturyansın üstünə yıxılacaqdır. O bundan ayrıca bir zövq duydu. Birdən, içini çəkib, bərkdən şaqqıldadı. Smirnov başını bir anlığa qaldırdı; dumanlanmış baxışlarını qəhqəhə çəkən Qasseyə zillədi. Onun üzündə əziyyətli bir təbəssümün əmələ gəlməsi ilə, başının ağır bir daş kimi təkrar sinəsinə düşməsi bir anda oldu. Qasse isə gülməkdə davam edirdi. Meyxanada oturanlar heyrət içərisində bir-birilə gözləşdilər. Qassenin məhz niyə güldüyünü, Kazaryanla Xaçaturyansı yerindən eləyib, ayağa qaldırmasına baxmayaraq, oturmaq üçün onlara nə üçün yer göstərmədiyini heç kəs başa düşmürdü; içkinin təsiri idimi, ya da onlarla əylənmək həvəsinə düşmüşdü – ayırd etmək mümkün deyildi. Kazaryanla Xaçaturyans özlərini əməllicə itirmişdilər. Hər tərəfdən onlara zillənmiş gözlərdən həya edir, vəziyyətdən necə çıxacaqlarını düşünürdülər. Nəhayət, Qasse sakitləşdi, cibindən yaylığını çıxartdı, uğunub gülməkdən yaşarmış gözlərini sildi.

– İnciməyin, cənablar, – dedi, – müqəssir özünüzsünüz. Bəli özünüz. Çox məzəli görünürsünüz. Molyenin komediyalarını oxumuşsunuzmu? Elə bil Molyen sizi yazmışdır. – O, əlini yelləyib yaylığını cibinə qoydu.

Kazaryan sərxoş zabitin səhvini düzəltmək fikrinə düşdü: “Cənab zabit, yəqin ki, Molyer demək istəyirsiniz. Cəsarət edirəm, bağışlayın“ demək istəyirdi. Nədənsə ehtiyat etdi. Ağzını açmadı.

– Ancaq... Siz yaxşı adama oxşayırsınız... Namusum haqqı. – Qasse səsini uzada-uzada əlini onlara tərəf açdı.

Xahiş edirəm... əyləşin. Bizimlə bir stolda. – Qasse öz yanındakını boş stullarda onlara yer göstərdi və şərab butulkasını boşaltmağa başladı, – şərab dostluğu, cənablar, əbədi dostluqdur. Elə deyilmi? Sizin Qafqaz şərabı mənim çox xoşuma gəlir.

Kazaryan və Xaçaturyans onun sözlərini başla təsdiq edib oturdular. Smirnov onların oturuşundan əsla xəbər tutmadı. Qasse



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

stəkanı qaldırdı; Kazaryan və Xaçaturyansın stəkanlarına, habelə Smirnovun bayaqdan bəri dolu qalmış stəkanına toxundurub, heç bir söz demədən dodaqlarına apardı. Zabitin yeni dostları, onun ehtimal ki, sağlıq deyəcəyini güman etdiklərindən stəkanları əllərində hazır tutub gözlədilər. Lakin Qassenin öz şərabını bir nəfəsə içdiyini görüb, tələsik əllərindəki stəkanları içib boşaltdılar. Zabit başını yırğalaya-yırğalaya ağzını marçıldatdı.

– Sizin bu şərabınız, – dedi, – mənə şampanskidən daha ləzzətlidir. Bəli, cənablar, sübhün özünədək içmək olar! – Sonra sərxoşlara xas olan bir hərəkətlə başını hərləyib qızarmış gözlərini Kazaryana zillədi:

– Cənabınız, görürəm, çinovnikdir?

Kazaryan tez özünü təqdim etdi:

– Xeyr, cənab zabit, – o, səsinə ədalı bir ifadə verməyə çalışdı. – Saatsazam.

– Çox yax...

Qasse sözünü axıradək deyə bilmədi, bərkdən gəyirdi və əlini sinəsinə qoydu. Oturanlar bununla onun üzr istədiyini güman edə bilərdilər. Əslində isə o, əlini sinəsinə qoymaqla gəyirməyinin qarşısını almaq istəyirdi. Sonra o, barmağını Xaçaturyansa uzadıb, hecaları sanki höccələyə-höccələyə soruşdu?

– Bə-ss siz cən-ab. Yəqin ki, qorodovoysunuz?

O bunu deyib, barmağını havada hərlədi: nə demək istədiyini heç kəs başa düşmədi. Kazaryan zabitin bununla Xaçaturyansı təhqir edə biləcəyini düşünərək, yoldaşına danışmağa macal vermədən söhbətə qarışdı:

– Xeyr, cənab zabit, cənabınız yanılır. Xaçaturyans bizim məhəlli partiyanın müvəkkilidir. Alicənab, ləyaqətli bir şəxsdir.

Bu sözləri eşidən kimi Qassenin gözləri bərəldi; üzü qorxunc bir ifadə aldı, yumruğunu bərkdən stola çırpdı. Stolun üstündəki bütün şeylər yerindən oynadı; Smirnovun dolu qalmış stəkanı çalxalanıb süfrənin üstünə səpələndi. Smirnov bu zərbədən diksinib gözlərini açdı, oturanları süzdü.

– Bolşevik? – deyə Qasse bərkdən bağırdı.

Xaçaturyansla, Kazaryan qorxmuş halda başlarını buladılar. Xaçaturyans, hətta stulunu azca kənara çəkdi.

– Menşevik?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar yenə də başlarını buladılar.

– Eser?

Təzə dostlardan yenə də cavab çıxmadı.

Qasse Rusiyada eşitdiyi bütün partiyaların adlarını sadaladı və hər dəfə onlardan müsbət cavab almadığını gördükdə səbri tükəndi və amiranə tərzdə soruşdu:

– Bəs kimsiniz? Cavab veriniz!

Hirslənmiş zabitin artıq soyuduğunu görən Xaçaturyans yavaşcadan dilləndi:

– Daşnaksutyun partiyasıdır, cənab zabit.

Qasse çiyinlərini təəccüblə qaldırdı:

– Daş-nak? Daş-nak... daş... – deyə təkrar edə-edə durdu və mürgüdən oyanıb stolun ətrafında oturan naməlum adamlara heyrətlə baxan Smirnovdan soruşdu:

– Sən eşitmisənmi? Daşnaksutyun, daşnak?

Smirnov fikrə getdi və birdən nəyi isə xatırlayıbmış kimi dedi:

– Tanıyıram. Görmüşəm.

– Harada?

– Petrovskidə gördüm. Xoruz döyüşdürürdülər. Xaçaturyansla Kazaryan bərk pərt oldular. Heç birisi onun cavabında bir söz deyə bilmədi. Kazaryan əvvəlcə, Smirnovun məzəlilik xatirinə belə dediyini güman etdi. Lakin sərxoş zabitin heç bir gülüş əlaməti sezə bilmədiyindən azca qalxıb dedi:

– Cənab zabitlər, siz bizim partiyanı təhqir edirsiniz. Cənab Xaçaturyans ən alicənab şəxsiyyətlərdən biridir. Onun ləyaqətinə belə sözlər yaraşmaz, cənab zabit!

Xaçaturyans da ayağa qalxdı. Smirnov başını stolun üstündən qaldırmadan onu altdan-yuxarı süzdü; əlini uzadıb, boçkaya oxşayan bu adamın çiynindən basmaq, yerə oturtmaq istədi. Lakin Xaçaturyans stoldan xeyli aralanmışdı.

Qasse onların həqiqətdə də stoldan qalxıb getmək istədiklərini gördükdə, işarə ilə oturmalarını xahiş etdi.

– Pardon, pardon, oturun, cənablar.

Kazaryanla Xaçaturyans isə əsəbi halda papaqlarını başlarına qoyub meyxanadan çıxdılar. Oturanların bəzisi onların dalınca baxıb dodaqucu gülümsədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Batalyonun yeddinci və səkkizinci rotaları qaladan kənarda ayrı-ayrı mənzillərdə yerləşdiyindən onların soldatlarına şəhərə çıxmaq üçün xüsusi buraxılış vərəqəsi verilmişdi. Kiçik, dördkünc kartondan qayırılıb üzərinə batalyonun iri möhürü basılmış bu buraxılış vərəqələri soldatlara əslində müvəqqəti mənzillə – qışlalarla qala arasında hərəkət etmək hüququndan başqa, heç bir şey vermirdi, lakin qışlalarla qala arasında olan bu yolu qısaltmaq mümkün olduğu kimi, şəhərin mərkəzi hissəsindən keçməklə dövrə vurub uzatmaq da imkan daxilində idi.

Yeddinci rotadan olan Viktor qalaya qədər uzanan bu az yolu şəhərin mərkəzi küçələrindən keçməklə uzatmaq fikrinə düşdü. Qoltuğundakı kiçik bağlama ilə etinasızcasına ötüb-keçmək istədikdə növbətçi onu saxladı.

– Soldat, bağlamanı göstər!

Viktor Bondarçuk saymazyana, köhnə qəhvəyi rəngə çalan patavanı açdı, səliqə ilə bükülmüş gimnastyorkanı çıxarıb göstərdi. Gimnastyorkadan kəsif tər iyi qalxıb ətrafa yayıldı. Növbətçi üz-gözünü turşutdu.

– Yaxşı, bağla! – dedi. Sonra Viktora göz vurub gülümsədi, – xırıd eləməyə?

Viktor kinayə ilə dodaqlarını büzdü:

– Xırıd eləməyə? Dəyəri nədir ki, xırıd da eləyəsən. – O, gimnastyorkanı yuxarı qaldırıb kürəyində və dirsəklərində olan yırtıqları növbətçinin nəzərinə çatdırmaq üçün bir neçə dəfə o yan-bu yana çevrildi. – Dərziyə aparıram, bəlkə babat düzəldə bildi.

Növbətçi başını buladı:

– Eh, soldat, – dedi, – qəpiyi qoru. Bura Qafqazdır. Dərziyə verəcəyin pula Tanyuşa üçün bir şey ala bilərsən. Ya da Mariya üçün...hi...hi...hansıdır?

Viktor, görünür ki, söhbətə böyük həvəsi olan növbətçidən tez yaxa qurtarmaq üçün gimnastyorkanı büküb bağlamanın içinə qoydu və başını buladı.

– Nə Tanyuşadır, nə də Mariya. Heç biri yoxdur.

Növbətçi dərindən ah çəkdi və həsrətlə Viktorun laqeyd baxışlarını süzdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Onda xoşbəxtsən.

– Niyə?

– Dərdin yoxdur.

Viktor bağlamaya düyün vurub aralandı. Növbətçi isə başını hələ də qeydkeşliklə yelləyib orduda öz işini bilməyən israfçı soldatlara məzəmmətlə deyindi: "Qəpiyi gör nə cür boş şeylərə sərf edirlər! Soldat zabit deyil ki, köynəyini dərzi qaydaya salsın. Heç nə istəmirəm; bircə gün mənə zabit rütbəsi verilsəydi mən onlara öyrədərdim ki, soldat necə olmalıdır... Qəpiyi gör nələrə sərf edirlər?! Lənət şeytana."

Viktor üzüaşağı enən küçə ilə bir neçə tin getdi, sonra sağ tərəfə buruldu; qarşısına əlvan kərpiclərdən tikilmiş uca bir minarə çıxdı. O, Krımda olduğu zaman belə minarələrdən çox görmüşdü. Hər səhər və axşam müəzzinin azanını da az eşitməmişdi. Lakin indi onun nəzərini cəlb edən başqa şeydi. Minarənin lap başında leylək yuvası vardı. Yuvanın tən ortasında bir ayağı üstə durub uzaqları qürurla süzən ana leyləyin şahanə görkəmi Viktora hər şeydən gözəl göründü. Cənub səhəri, ucaboylu minarə, bir qıçı üstə duran bu ana leylək qəflətən Viktorun daxilində qəribə bir hiss doğurdu. Sanki gizli bir əl sinəsinə soxulub ürəyini rəhmsizcəsinə sıxdı. Bu nə idi? Daxildə ildırım kimi çaxan bu anı Viktor özü doğru duya bildi: bu qəriblik hissi idi... Rusiyanın içərilərindən Qafqazın cənubuna sürgün edilmiş hər bir adam bu vəziyyəti keçirə bilər. O, bəzilərini, hətta coşqun bir sel kimi ağzına alıb özü ilə sürükləyir də. Viktorda isə bu ani parıltı sönən ulduz axını kimi ancaq həzin bir iz buraxdı.

İrəlidə uşaqlar çığırışırdılar. Minarənin dibində, məscid həyətinin qapısında qoca bir dilənçi oturub həzin-həzin oxuyurdu. Viktor gördüyü hər bir şeyə ötəri nəzər salaraq kilsə meydançasına tərəf buruldu. Meydançadan aşağıya tərəf enli bir küçə uzanırdı. O, cərgə ilə düzülmüş dükanların qabağından keçdi; rastına gələn yorğun, qaragözlü bir ermənidən yaxındakı dərzi dükanını xəbər aldı. Erməni uzun əsası ilə qarşıdakı alçaq dükanı göstərdi.

Viktor, şüşələrində qayçı şəkli rəsm edilmiş dükanın qabağına gəldi və qapını açıb içəri girdi. Başının tükü tökülmüş, qırmızı, şişmiş yanaqlı dükan sahibi gözlərini əlində biçdiyi parçadan ayırıb soldata baxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə lazımdır?

Viktor bağlamanı açdı, bozarmış gimnastyorkanı çıxarıb göstərdi:

– İstəyirəm ki, bunu düzəldəsiniz.

Dükan sahibi bir soldata, bir də dirsəkləri yırtılmış gimnastyorkaya baxıb başını buladı:

– Biz yamaq vurmuruq.

Bu sözləri deyib, əlində tutduğu iri qayçı ilə qalın mahud parçanı kəsməyə başladı. Viktor bayıra çıxdı. Küçədə rast gəldiyi adamlardan başqa dərzi dükanlarının yerini soruşdu. Birisi ona yaxınlıqda çinar ağacının altındakı dükanı göstərdi. Viktor çinar ağacını görən kimi Odessadakı söhbət yadına düşdü və çatılmış qaşlarının düyünü açıldı: "Yəqin ki, o olacaqdır" deyə öz-özünə düşündü və dükanın qapısını açıb içəri girdi. Kiçik dükanda enli piştaxta və dəmir peçdən başqa heç bir şey yoxdu; peçdən yuxarı dükanın divarları başdan-ayağa his çəkmişdi. Rəngi seçilməyən hisli bir pərdə dükanı iki hissəyə ayırırdı. Sağ tərəfdə, Nikolayın şəkli vurulmuş divarda, iki şalvar çoxlu karton ülgülər asılmışdı. Arıq, sümükləri çıxmış dərzinin özü piştaxtanın üstündə bardaş qurub oturduğu halda əlindəki parçaya kök atırdı. İçəri soldat girdiyini görən kimi təəccüblə baxıb ayağa qalxdı.

– Buyurun, nə lazımdır?

Viktor qoltuğundan gimnastyorkanı çıxarıb göstərdi və gözlərini dərzinin arıq, seyrək saqqalı üzündən ayırmadı. Dərzi gimnastyorkanı əlinə aldı; o yan-bu yanını yoxladı. İşığa tutub baxdı.

– Yamaq lazımdır?

– Bəli.

Viktor onun hər bir hərəkətini diqqətlə izləyirdi.

Dərzi dodaqlarını büzərək:

– Yamaq tutmaz, – dedi, – ancaq satmaq istəsən almağa hazıram.

Bu sözü eşidən kimi Viktorun gözləri işıldadı; dərzinin eyhamlı sözlərindən başa düşdü ki, axtardığı adamdır. Odessada ona xəbər verilən əlamətlər doğru çıxırdı. Lakin yenə ehtiyatı əlindən vermədi.

– Neçə verərsən?

– İki pişik qiyməti.

Artıq hər şey özünü doğrultdu. Qocanı hər ehtimala qarşı axırıncı sınaqdan da çıxarmaq lazım gəlirdi.

– Sizdə məgər pişik pula satılır?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəli. İşlər tərsinədir; quzunu peşkəş verir, pişiyi satırlar.

Viktor qapıdan bayıra çıxdı; dükana girdiyinin heç kəs tərəfindən sezilmədiyinə əmin olduqdan sonra yaxınlaşıb qocanın əlini sıxdı.

– Viktor Bondarçuk, – dedi və köksünü ötürdü.

Dərzi də yavaşcadan burnunun altında mızıldadı:

– Usub. Yaxşı, nə vaxt gələ bilərsən? Mən onlara xəbər verim.

Viktor əlləri ilə gimnastyorkanın cırıqlarını göstərərək deyirdi:

– Nə vaxt istəsən gələrəm. Ancaq nahardan sonra.

Usub gözlərini qıyıb azca fikrə getdi:

– Birisi gün gəlin. Burada sizi gözləyəcəklər.

## III fəsil

Bu hadisənin ikinci günü, gecədən xeyli ötmüş şəhərin ucqarında Bəhramgilin həyət qapısı iki dəfə çalındı. Gilənar ağacına bağlanmış ala köpək səs eşidən kimi zəncirini dartışdıra-dartışdıra bərkdən hürməyə başladı. Bəhramın anası Ayişə qarı səsə oyanıb yatağında oturdu. Qapı təkrar döyüldü. Gələn adam qonşuları oyatmamaq üçün qapını bu dəfə daha aramla və astadan döydü. Yan otaqda Bəhram bərk yuxuya getmişdi, hündürdən xoruldayırdı. Ayişə qarı oğlunu səslədi:

– Bəhram, a bala, dur, qapı döyülür.

Anasının səsinə yataqdan sərasimə qalxan Bəhram köhnə arxalığını çiyninə atıb tez həyətə endi, xamuş gecədə çalınan qapının səsi, elə bil haradansa, lap dərindən gəlirdi. Ala köpək Bəhramı görən kimi səsini kəsib zingildədi, qabaq ayaqlarını yerə diriyərək quyruğunu buladı. “Gecənin bu vaxtında kim ola bilər? – deyə Bəhramı təşviş bürüdü. – Uluxan olmasın?! Başında, yoxsa, bir qəza var, xəbər verməyə gəliblər?!” Qapının bir daha döyülməməsi üçün addımlarını yeyinlətdi: qaranlıqda əl havası ilə yeriyərək qapıya yaxınlaşdı:

– Kimdir? Nə lazımdır?

Boğuq bir səs eşidildi:

– Bəhram aç, balaca işimiz var!

Bəhram gələn adamı səsindən tanıya bilmədi; bir an fikrə getdi, qapını açmaq üçün qabağa uzatdığı əlini saxladı.

– Axı kimsiniz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəhram qapının arxasındakı hənirtidən gələn adamın tək olmadığını başa düşdü. Onlar öz aralarında nə isə məsləhətləşirdilər. Nəhayət, birisi ağzını qapının arasına tutub yalnız Bəhramın eşidə biləcəyi bir səslə dedi:

– Aç, qaçaq Məhəmmədin yanından gəlmişik. Sənə iltiması var.

Bəhram qaçaq Məhəmmədin adını eşidən kimi qapını açdı. Qarşısında üç yapıncılı adam göründü. Qaranlıqda sifətlərini ayırd etmək mümkün deyildi. Hər üçü dərhal içəri girdi. Gələnlərdən biri tez qapını örtdü. Bəhram onların bu hərəkətindən şübhəyə düşdü və bir neçə addım geri çəkildi. Bayaq qapı dalından danışan uca boylusu Bəhrama müraciətlə dedi:

– Geyin, bizimlə gedəcəksən!

– Haraya? – deyə Bəhram özünü itirmiş halda bir addım geri çəkildi.

– Lazımsan, Məhəmməd çağırtdırıb. Səhərə yaxın qayıdacaqsan.

– Axı nə üçün, nə iş var, deyin görək?

Lakin gələnlər ona heç bir izahat vermədilər. Bəhram da onları sorğu-suala tutmağın mənasız olduğunu başa düşüb evə döndü. Anası Bəhramın qayıtdığını və geyinməyə başladığını gördükdə təşvişə düşdü.

– Hara belə, a bala? Gecənin bu vaxtında səni hara aparırlar?.. Niyə demirsən?

Bəhram anasının sözlərinə əhəmiyyət vermədən uzunboğaz çəkmələrini geydi, kəmərini tarım çəkib, papağını gözlərinin üstünə basdı. Qapıdan çıxmaq istədikdə anası səndirləyə-səndirləyə onun qabağına yüyürdü.

– Səninlə deyiləmmi, a bala!? Gecənin bu vaxtı...

Arvadın gözləri yaşardı; qüssəli nəzərləri oğlunun sifətinə dikilərək, sanki yalvarır, miskin halına acımağı, ona rəhm etməyi aciz bir məxluq kimi oğlundan xahiş edirdi. Anasının bu halı Bəhramın ürəyinə od saldı; durduğu yerdə fikrə getdi. "İndi mən bu yazığa nə cavab verim? Axı hara getdiyimi özüm də bilmirəm..."

Vaxtilə hər təhlükəyə sinə gərmiş olan anasının qara tellərinə çoxdan boz rəng qonmuş, çallanmış, mehriban gözlərinin işığı sönmüşdü. Onun elə dərdli görkəmi vardı ki...

Bəhram anasını qucaqladı; arvadın başı oğlunun geniş sinəsinə düşdü, çiyinləri ehmalca atıldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yaxşı, ana bəsdir... Niyə ağlayırsan, nigaran olma, səhərə qayıdacağam.

Ana toranlaşmış gözlərini oğlunun sifətinə dikdi:

– Axı hara aparırlar?.. – O, sözünün gerisini deyə bilmədi, hıçqırıq onu boğurdu.

– Qaçaq Məhəmməd çağırtdırıb. Mənimlə işi var.

– Kim? – deyə Ayişə qarı bərkdən çığırdı və oğlunun ayaqlarına düşdü. – Yox, yox, buraxmaram, oğul, buraxmaram!..

Səni öldürəcəklər... Getmə, oğul!

O, qollarını Bəhramın ayaqlarına dolayaraq üzünü onun, rəngi sürtülüb bozarmış tozlu uzunboğaz çəkmələrinə sürtürdü. Bəhram əyilib onu yerdən qaldırdı.

– Dur, ana, gecikirəm, məni gözləyirlər.

Bu zaman qaçaqlardan biri evin qapısında göründü.

Bəhramın ləngidiyini gördükdə o, evə girməyə və Bəhramı tələsdirməyə məcbur olmuşdu; zəif lampa işığında, onun xırdaca gözləri tüklü üzündə pişik gözü kimi parıldayırdı. Saqqalı və bığı üzünü tamam örtmüşdü. Başı ilə Bəhrama işarə elədi.

– Bu saat, – deyə Bəhram anasını özündən araladı və qapıya tərəf yönəldi. Anası yenə də onun dalınca yüyürdü. Lakin qapıda yad adamı görcək donuxdu; şəhər əhlinə oxşamayan bu tüklü adamın görkəmi qarının canına vahimə saldı, nitqi tutuldu; səsi boğazında xırıldadı, ancaq əllərini oynadaraq havada qəribə işarələr göstərdi. Yad adam elə bil onun nə demək istədiyini başa düşdüyündən içəri keçdi və yavaşcadan qarıya dedi:

– Nigaran olma, qarı, oğlun səhər evdə olacaq.

O, Bəhramla birlikdə həyətə endi. Küçə qapısına çatdıqda soruşdu:

– Dəmirçixananın açarı yanındadırmı?

Bəhram əlini üstdən cibinə vurdu:

– Yanımdadır.

– Yaxşı gedək.

Qarı başını açıq qapının haşiyəsinə dayayıb, ümidsiz nəzərlərlə onların dalınca baxdı. Qapı astadan cırıltı ilə örtüldükdə, qarının dizlərində daha taqət qalmadı;, o haşiyəyə sürtünə-sürtünə çömbəlib astanada yerə oturdu. Gözləri, hərəkətsiz halda bir nöqtəyə zillənib qaldı. Küçədən ayaq səsləri kəsilmişdi; indi ancaq qonşu



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həyətlərdə arabir itlər hürüşürdü. Ay hələ də buludun dalında gizlənmişdi. Həyətin hər tərəfindən qara kölgələr elə bil qarının üzərinə hücum çəkirdi; hər şey onun təşvişini birə-ikiqat artırırdı. O indi tək-tənha qalmışdı. Körpə vaxtlarından yetim böyütdüyü iki oğlundan indi heç birisi yanında deyildi; heç birisi onun kövrəlmiş, darılmış ana qəlbini ovuda bilmək üçün böyrünə sıxılıb başını çiyninə dayamır, təsəlli vermirdi. Böyüyü Uluxan artıq on ilə yaxın idi ki, Bakı neft mədənlərində işləyirdi; onun başına gələn bəlaları ana ancaq beş-altı aydan, bəzən bir ildən sonra, o da başqalarından öyrənə bilirdi. Keçən il Uluxanın atlı kazaklarla əlbəyaxa vuruşmada yaralandığını, iki ay xəstəxanada yatdığını ancaq bir ay bundan qabaq Bəhram ona açıb demişdi. Oğlunun hökuməti xoşlamadığını yaxşı bilirdi; narahatlığı da bundan idi. Atlı kazakla toqquşmada bir gün ona xətər yetə biləcəyi fikri gecə-gündüz anaya rahatlıq vermirdi. Bakıdan qulağına pis-pis xəbərlər çatdıqda gecələr yuxusuz qalırdı; bəzisini Bəhramdan soruşur, bəzisini də soruşmağa ürəyi gəlmirdi. Onun qollu-budaqlı suallarına Bəhram bir və ya iki kəlmə ilə cavab verib söhbəti dəyişirdi. Bəhramı da böyük qardaşının tutduğu yoldan güclə qaytaran o özü olmamışdımı?

İki il qabaq Bəhram payız günlərinin birində çiyninə heybə salıb Bakıya, qardaşının yanına yollanmışdı. Bir müddətdən sonra ana xəbər tutdu ki, o da Uluxanla bir yerdə işə girib. Ayişə qarının ürəyi davam gətirə bilmədi. Uluxanın üstünə məktub yazdırdı. O, iltimas eləyirdi ki, heç olmazsa Bəhramı geri göndərsin: "Barı öləndə biriniz başımın üstündə olasınız". Anasının məktubu, görünür ki, Uluxana yer eləmişdi. Bu məktubdan sonra bir ay ötmədi ki, Bəhram çiynində heybəsi Zaqatalaya qayıtdı. O vaxtdan ananın ürəyi azca rahatlıq tapmışdı. Ancaq bu məşum gecə həmin səadəti də qarıya çox gördü; tanımadığı adamlar onun oğlunu qabaqlarına salıb apardılar. Ayişə özünü yenə kimsəsiz, qolsuz-qanadsız hiss etdi...

On beş gecəlik ay gümüş oraq kimi buludlardan sıyrılıb çıxdı; o, Ayişənin arıq, solğun sifətinin iztirabını, qüssəli, süst gözlərinin ümidsizliyini elə bil daha da artırırdı. O, hərəkətsiz düşdüyü halda, bahar gecəsinin sükunətini, hasardan tut ağacının uzanıb, onun üçün daha vahiməli görünən kölgələrini seyr edirdi; ala köpək də yorğun düşüb başını əllərinin üstünə qoymuşdu. Hər şey bu gecə elə bil ananın kədərinə şərik kəsilmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Qaçaqlar və Bəhram ucqar evlərin arası ilə keçib, dəmirçixanaya gəldilər. Bəhram qapını açıb içəri girdi və oradan beş-altı təzə at nalı götürüb qaçaqlara verdi, sonra yenə qapını bağladı. Qaçaqlardan biri Bəhramı yedəyinə aldı və onlar atlarını çapa-çapa şəhərdən uzaqlaşdılar.

Şamil cığırını aşdıqdan sonra qaçaqlar atlarını saxladılar. Bəhramı yedəyinə alan atlı cibindən iri bir yaylıq çıxartdı və ay işığında aydın seçilən iri qalın dodaqları ilə gülümsədi.

– Burayadək gözüaçıq gəldin, bəsdir, indi isə, gizlənqaç oyunu başlayır.

Bunu deyib, yaylıqla Bəhramın gözlərini möhkəm bağladı. Özü atdan düşüb, Bəhramı qabaqda oturtdu. Bəhram onun nə üçün belə etdiyini başa düşdü; arxada o, gözlərini aça bilərdi. Qollarını görünür, bağlamaq istəmirdilər.

Atlılar təzədən yola düşdülər. Bəhram gözləri bağlı olsa da, hara ilə getdiklərini hiss edirdi. Atlılar bir qədər getdikdən sonra sağa buruldular. Bayaqdan bəri çınqıllıqda atların dırnaqlarından qopan xırçıltı kəsildi; bir-birinə qarışan tappıltılar ağırlaşdı, kəsif rütubət Bəhramın burnunu qıdıqladı. Deməli, onlar meşəyə girmişdilər. Bəhram üçün hər şey qaranlıq bir pərdəyə bürünmüşdüsə də, o, meşənin məhz hansı yeri ilə getdiklərini bilirdi.

Atlar bir-birinin dalınca gedirdi; görünür ki, onlar meşə içərisinə uzanan dar cığıra girmişdilər. Qaçaqlardan biri nə isə dedi; başqası onun sözünə gülümsəyib Bəhrama söz atdı:

– Hə, Ərəz oğlu, darıxmırsan ki? Birdən yuxlarsan ha...

Bəhram cavab vermədi. Yoldaşları qaçağın sözünə gülüşdülər. Qabaqda qurbağalar vıqqıldamağa başladı. Bəhram başa düşdü ki, fıstıq meşəliyinin ortasındakı üfunətli bataqlığın kənarı ilə gedirlər; bataqlığı hər tərəfdən dövrələmiş qamış şaqqıltı ilə atların böyrünə toxunurdu. Bəhram qaçaqların bataqlıqlardan daha yuxarılarda yaşadıqlarını öyrəndiyinə sevindi və özlüyündə qaçaqların onun gözlərini bağlamaqla, izlərini itirə biləcəklərini düşündüklərinə rişxəndlə gülümsədi. Bu zaman uzaqdan fit səsi eşidildi; səs sakit meşənin üstündən keçərək qarşıdakı dağlarda əks-səda verdi. Onunla gedən qaçaqlardan biri fit səsinə uzun fitlə cavab verdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məlum oldu ki, onlar öz yerlərinə çatmışlar. Bir azdan yaxınlıqda həniriti eşidildi: "Niyə gecikdiniz?" – deyə kimsə soruşdu. Onun sözünə cavab verən olmadı. Qaçaqlar atdan düşdülər. Bəhramın arxasında oturmuş qaçaq da, onun gözlərini açdı və atdan yerə sıçradı.

Atlar ay işığının düşdüyü kiçik bir tarlada durmuşdular. Təzə çalınmış ot ətri hər tərəfi bürümüşdü. Bir az aralıda yastı-yapalaq bir komada, yerə döşənmiş yapıncının üstündə kimsə uzanıb bərkdən xoruldayırdı; onun qırxılmış başı komadan bayıra çıxdığı üçün, ay işığında kal yemiş kimi ağarırdı. Bəhramla gələn qaçaqlardan saqqallısı ehtiyatla komaya yaxınlaşdı; yatan adamın başı üstündə durdu və yavaşdan səsləndi:

– Məhəmməd qağa!

Bəhram yatan adamın qaçaq Məhəmməd olduğunu başa düşdü. Qorxusu bütün mahala səs salmış bu adamın adını eşidən kimi bədənini qəribə bir rəşə bürüdü. Qaçaq Məhəmməd səsə oyanıb dik qalxdı, onun enli kürəkləri, uzun qara bığları, qara nüfuzlu gözləri vardı. Məhəmməd onlara yaxınlaşdı; o gülümsəyirdi, iri gözləri ayın aydınlığında çox məlahətli görünürdü. Məhəmmədin igidliyi barədə Bəhram çox şeylər eşitmişdi, lakin belə gözəl olduğunu heç zaman güman etməzdi.

– Hə, Ərəz oğlu, gəldinmi?

Yaxınlaşıb iri əlini Bəhramın çiyninə qoydu. Bəhram dinmədi. Məhəmməd diqqətlə onun gözlərinə baxdı. Birdən enli alnı qırışlarla doldu, qaşları çatıldı.

– Yoxsa, – deyə zənlə ayaq üstə duran qaçaqlara baxdı, – səni incidiblər, hə?

Qaçaqların gözləri Bəhrama zillənmişdi. Elə bil onun ağzından çıxacaq hər bir söz, bircə kəlmə belə, intizar və təşviş içində səssizcə duraraq ona baxan bu adamların taleyini həll edəcəkdi. Onlar altı nəfər idilər. Hamıdan qorxunc görünən saqqallı qaçağın gözləri yenə də pişik gözləri kimi işıldayırdı, sanki öz ovunun üstünə atılmağa hazırlaşmışdı.

– Yox, yox, – deyə Bəhram araya çökmüş sükutu pozdu, – məni heç kəs incitməyib. – Sonra ciddi bir tərzdə soruşdu: – Ancaq deyin görüm məni buraya niyə gətiriblər?..

Qaçaq Məhəmməd bərkdən güldü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ərəz oğlu, bunu gərək özün biləsən ki, nalbəndi niyə çağırırlar? – O, boz rəngli nimdaş arxalığını səliqəyə saldı; bu zaman onun atdan belinə bağladığı gümüşdəstə xəncəri və kəmərinə keçirdiyi iri qara brauninq tapançası göründü. Məhəmməd talada otlayan atları göstərib gur səsi ilə əlavə etdi: – Bizim atları nallamağa gətirmişik. Hamısı dırnağını töküb. – O, gülümsəyib başını buladı. – Yəqin ki, şəhərdəkiləri sən də görmüşsən, üstümüzə böyük bir qoşun yeridirlər. Yazıq atları bu meşələrdə, deyəsən, çox çapmalı olacağıq.

Bəhram onun sözlərini əvvəlcə yaxşı dərk edə bilmədi, gözlərini döyəclədi.

– Qoşun? O nə qoşundur? – deyə soruşdu.

Qaçaq Məhəmməd ciddi görkəm aldı.

– Qalaya düşən qoşunu bəs görməmişsən? Hamısı yarlı-yaraqlı? Yəqin ki, topları da var! Sabah-birisi gün bir də görəcəksiniz ki, dağlara səs düşdü. Vurhavur onda olacaq!..

Bəhram söhbətin Qalaya düşən batalyondan getdiyini və qaçaqların da məhz bu xəbərdən vahiməyə gəldiklərini başa düşüb, ürəyində onlara acıdı:

– Qoşun sizin üstünüzə gəlməyib.

Qaçaqlar təəccüblə bir-birinə baxdılar, Bəhram onların dərindən nəfəs aldıqlarını da eşitdi. Qaçaq Məhəmməd kinayə ilə dedi:

– Bəlkə odun qırmağa gəliblər, hə? – Nikolayın Urusyətdə öz meşəsi çoxdur; axmaq deyil ki, qoşunu basa-basa bura göndərsin.

Bəhram başını buladı:

– Yox, elə deyil. Siz mətləbdən agah deyilsiz.

Məhəmmədin qaşqabağı çatıldı; yaxındakı kötüyün üstündə oturdu:

– Ərəz oğlu, deyəsən səndə təzə xəbər var?

– Təzə niyə. Elə siz eşidəndir.

– Başa düşmürəm, nəyi deyirsən, ə, bir adam kimi danışsana!

Məhəmməd ayağa qalxdı, Bəhramla üzbəüz durdu, qollarını belinə vurub gözlərini Bəhramın gözlərinə zillədi. Onun qara bığları əsirdi. Bəhram, özünün bu hərəkəti ilə onu qəzəbləndirə biləcəyini hiss etməmişdi.

– Qoşun sizin üstünüzə gəlməyib ki! – deyə o, tələsik təkrar etdi. – Bunu kim sizə xəbər verib?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Qaçaq Məhəmməd bu sözü eşidən kimi yenə kötüyün üstündə oturdu, böyük bir təhlükənin sovuşduğunu yəqin edən adamlar kimi, dərindən nəfəs aldı.

Yəqin bilirsən?

– Bəli.

– Haradan?

– Necə haradan? Öz gözlərimlə gördüm. Bütün camaat bilir ki, gələnlərin yarısı dustaqdır, buraya sürgün olunublar.

Ayaq üstə durub söhbətə qulaq asan qaçaqlar dönüb bir-birinə baxdılar. Hamının çatılmış qaşları açıldı. Məhəmməd isə narın tük basmış çənəsini ovuşdura-ovuşdura fikrə getdi. Ətrafa sakitlik çökdü; atlar talada sakitcə otlayır, tez-tez fınxırıq səsləri eşidilirdi. Bəhram gecənin bu vaxtında, meşənin ortasında, quldurlarla əhatə edilməsindən sıxıldı. Ona hər şey yuxu kimi gəlirdi; ay da əfsanəvi nağıllardakı kimi, öz işığı ilə hər tərəfə sehrli bir parıltı yaymışdı. Meşə yatırdı; otların arasından gecə cırcıramaları hərdənbir səslənir, aşağıda onların keçib gəlmiş olduqları bataqlıqdan qurbağaların vaqqıltısı kəsilmirdi. Sıx ağaclardan talanın ortasına düşən kölgə getdikcə onlara tərəf uzanırdı. Məhəmməd başını qaldırdı, üzünü qaçaqlara tərəf tutub dedi:

– Ərəz oğlunun dedikləri... doğru da ola bilər. Ancaq... Pristav Kukiyev dəridən çıxacaq ki, danışığa girişib onları bizim üstümüzə göndərsin. O, ayağa qalxdı, bir az fikirli halda gəzindi, sonra Bəhrama yaxınlaşdı.

– Yaxşı, – dedi, – sən işində ol! – Qaçaqlara başı ilə işarə etdi, – kömək eləyin!

Qaçaqlar Bəhramla birlikdə atları, daha aydınlıq yerə çəkdilər. Məhəmməd yenə də komasına getdi. Bəhram qaçaqların köməyi ilə altı atın hamısını nallayıb qurtardı. Qaçaqlardan biri, boydabuxunda, hətta sifətdən də Məhəmmədə oxşayanı mismarların mayaya çalınıb-çalınmadığını yoxlamaq üçün atının cilovundan yapışdı və onu bir xeyli talada gəzdirdi; at yaxşı yeriyirdi, heç bir axsaqlıq əlaməti hiss olunmurdu; bununla belə, qaçağın ürəyi sakit olmadı. O atın belinə sıçrayıb, onu talada bir neçə dəfə o yan-bu yana çapdı. Tappıltıya Məhəmməd başını komadan çıxarıb soruşdu:

– Nə olub orda?

Qaçaq atdan yerə sıçradı və əlini əda ilə atın dolu sağrısına çırpdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qorxdum ki, haramzada mismarı mayaya çalmış ola.

Bəhram tərs-tərs ona baxdı. Bu, qısa müddətdə qaçaqlardan eşitdiyi ilk ağır söz idi. Məhəmməd yerindən qalxmadan həman qaçağa müraciətlə:

– Rəsi, qonağı sən ötürərsən, – dedi.

Məhəmmədə oxşayan qaçaq Rəsi çatılmış enli qaşları altından qəzəblə Bəhrama baxıb, burnunun altında nəsə mızıldandı. Axırda naəlac, tüfəngini çiyninə atıb dedi:

– Hə, maymaq kimi daha niyə durmusan?! Düş qabağıma. Bəhram dinməzcə onun qabağına düşdü. Talada otlayan atlara yaxınlaşanda, Rəsi qəzəblə soruşdu:

– Cibində yaylığın var?

– Bəli, var.

– Bura ver!

Bəhram uzun haşiyəli yaylığını cibindən çıxarıb ona uzatdı. Rəsi hirslə yaylığı alıb Bəhramın gözlərini bağladı və yanlarındakı atlardan birinin yüyənindən yapışdı; eyni qəzəbli səslə Bəhramın üstünə çığırdı:

– Min! Tez ol!

Bəhrəm əl havası ilə atın yəhərindən yapışıb bir sıçrayışla üstünə qalxdı. Rəsi də öz kəhərini mindi. Bəhram cilovları əlinə alıb ata muşqurdu.

Onlar talanın ortası ilə keçib meşənin içinə girdilər. Bir xeyli yolu səssizcə getdilər. Hərdənbir Rəsi onun üstünə çımxıraraq deyirdi:

– Başını əy, yoxsa doğrudan da kor olarsan.

Bəhram onun tikanlı, acı sözlərindən hər dəfə diksinir, içəridən qəzəb onu boğurdu. Ancaq bununla belə, öz-özünə deyirdi: “Pərvərdigara, gör səsi də onun səsinə necə oxşayır!”

Atlar çınqıllıq enişlə enirdilər. Bəhram qaçağın onu başqa yolla geri qaytardığını hiss etdi. Başını ehtiyatla yana döndərib, gözü bağlı olsa da, hara ilə qayıtdıqlarını öyrənmək istəyirdi ki, Rəsinin səsini eşitdi:

– Ey, başını düz tut, yoxsa, qarnını!..

Atlar tez-tez büdrəyirdi. Bəhram yıxılmamaq üçün atın boynuna tərəf əyilmiş, onun gur yalından bərk-bərk yapışmışdı. Rəsi hey deyinirdi. Bəhram onun dolaşıq sözlərindən başa düşürdü ki, atlar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

meşənin qaranlıq yeri ilə gedir. Çox çəkmədi ki, düzənə çıxdılar. Atların ayaqları altında əzilən otlar bərkdən xışıldayırdı; Bəhramın atı bir neçə dəfə dodaqlarını yaşıl ota aparmaq istədikdə Rəsi onun cilovlarını dartdı. Uzaqdan meşənin sükutu içərisində Bəhramın qulağına zəif, qarışıq səslər gəldi. Diqqətlə qulaq verdi: uzaqda itlər hürüşürdü; demək, şəhərə yaxınlaşmışdılar. Bir müddət də belə səssiz-səmirsiz getdilər. Birdən Rəsi Bəhramın atının cilovlarını çəkdi. Atlar durdu.

Bəhram atdan yerə endi və əlini uzadıb, gözünü açmaq istədi.

– Əlini çək! – deyə Rəsi çığırdı. – Çox tələsmisən? Yolla düz get! Tez!

Bəhram gözləri bağlı halda on-on beş addım irəlilədi. Bu dəqiqələrdə onun başından çox fikirlər keçdi: ona elə gəldi ki, indicə Rəsinin gülləsi onun kürəyini qızdıracaq, o da, kötüyündən qırılmış ağac kimi, başıaşağı dərəyə yuvarlanacaqdır.

Belə bir xəyanət hər dəqiqə Rəsidən gözlənilə bilərdi. Bəhramın beyni belə düşüncələrlə məşğul ikən arxadan Rəsinin səsi eşidildi:

– Dur! İndi gözlərini aça bilərsən. Bax, deyirəm: əgər başını dala döndərsən, kürəyini odlayacağam!

Bəhram gözlərini açdı və yan-yörəsinə baxmadan iti addımlarla meşədən çıxan yol ilə irəlilədi. Dan yeri bozarmışdı, itlər indi daha yaxında hürüşürdü. O, Şamil cığırını aşdıqdan sonra, Tala çayına endi. Şəhərə yetişdiyi zaman artıq xoruzların üçüncü banı idi...

* * *

Qaçaqlar Bəhramı apardıqdan sonra, Ayişə qarı səhərədək yata bilmədi; başını qapının məhəccərinə dayayıb hərəkətsiz halda qaldı. Ay bir neçə dəfə göyün şimal-qərb hissəsinə səpələnmiş buludların dalına keçib çıxdı və qarının bulanıq gözlərindəki dilsiz kədərlə rastlaşdı. Həyətdə kölgələr uzanıb qısaldı. Kənar həyətlərin, bəlkə də Tala çayının o biri sahilində ocaq qurmuş çobanların itləri xeyli vaxt hürüşdü. Sonra onların da səsi kəsildi. Ayişə qarının isə gözləri qapanmadı, qırpım belə çalmadı. Bu kimsəsiz gecədə səksəkəli ürəyinin dərdinə şərik ola biləcək bir adam yoxdu. Hamı evində şirin yuxuda idi. Qapıbir qonşu olan Şuşanikgilin də işıqları bu gün ertədən keçirilmişdi. Bir neçə saat əvvəl qaçaqların qapını hündürdən döyməsi də nə Şuşaniki, nə də onun oğlu Arşakı yuxu-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dan oyada bilmişdi. Bəs bu yazıq qarı ürəyini kimə açıb boşaltsın. Kimdən kömək diləsin? Halbuki bu dəqiqələrdə bircə kəlmə, yalnız bircə kəlmə təsəlli verən söz onun ürəyinə toxtaq ola bilərdi!

Dan yeri sökülüb üfüq çil toyuğun qanadları kimi oradan-buradan bozarmağa başladıqda çəpərin o tərəfindən Şuşanikgilin həyətindən hənirti eşidildi. Qarı, əllərini taqəti kəsilmiş dizlərinə dayayıb dikəldi; başını qapıdan uzadaraq üstünə Şuşanik arvadın axşamdan paltar sərdiyi və alatoranda boz təpəyə oxşayan çəpərə boylandı. Kim isə eyvanda gəzinirdi; qarı nə qədər göz yetirdisə, onu ayırd edə bilmədi. Çağırmaq istədi xırıltılı bir səs boğazında qırıldı. Əlacsızlıqdan divarı tuta-tuta, ayaqlarını arxasınca sürüyə-sürüyə çəpərə yaxınlaşanda Arşakın səsi eşidildi:

– Ayişə xala, sənsən? Ürək-göbəyimi az qala salmışdın ki?..

Ayişə qarını görərkən həmişə zarafatla ona dediyi sözləri Arşak yenə də işə salmaq istəyirdi. Lakin qarının, arxasını çəpərə dayayıb səssiz-səmirsiz durduğunu gördükdə sözünü kəsdi. Qarının, hətta bərkdən ah çəkdiyini eşidəndə, əlindəki sabunu əlüzyuyanın üstünə qoyub, çəpərə yaxınlaşdı. Qarı taqətsiz halda durmuşdu. Yaxası açıq sinəsindən xırıltılı nəfəsi eşidilirdi. Arşak ona nə isə olduğunu başa düşdü, tez soruşdu:

– Ayişə xala, sənə nə olub? Bəhram haradadır?

Qarının qüssəli nəzərləri Arşaka tərəf çevrildi. Damarları çıxmış əli qeyri-ixtiyari uzanıb Arşakın qolunun üstünə düşdü; güclə bu sözləri deyə bildi:

– Onu apardılar.

– Arşak həyəcanla soruşdu:

– Kim?

Onun səsinə anası Şuşanik də eyvana çıxdı. Ayişə qarının çəpərə söykəndiyini görüb, onlara yaxınlaşdı. Qarı Şuşaniki görən kimi kövrəldi:

– Evim yıxıldı, Şuşanik. Uşağımı gözüm görə-görə əlimdən aldılar...

– Qadan alım, a bacı... kim apardı? Bir başa sal...

– Qaçaqlar... Məhəmmədin adamları...

“Qaçaqlar“ adını eşidən Arşak, rahat nəfəs aldı. Bayaqdan bəri Bəhramın qorodovoylar əlinə keçdiyini güman edən gənc bu xəbərdən bir az yüngüllük hiss etdi. “Deməк, iki-üç gün qabaq Tiflisdən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gətirilmiş vərəqələrə heç bir şey olmamışdır". Bəhramın qaçaqlar tərəfindən aparıldığına o qədər də narahat olmadı. "Yəqin atlarını nallatdırmaq istəyiblər". Üzünü qarıya tərəf tutub dedi:

– Narahat olma, ay xala, Bəhram qaçaqların nəyinə lazımdır, bir gün saxlayıb buraxacaqlar, özlərinə yemək tapmırlar, qonağa nə verəcəklər?!

– Uşağın başını batırarlar, bala, qalaram belə... Əlim heç yerə çatmaz.

– Heç nə olmaz, Ayişə xala. Məhəmməd kimə pislik eləyib ki?.. Onun işi varlılarladır. Bəhramın nəyi var?.. O da elə Məhəmmədin özü kimi, bir qarnı tox, bir qarnı acdır... Ürəyini sıxma! Yəqin atlarını nallatdırmağa aparıblar.

Şuşanik arvad da qarının ürəyini aldı, dil-ağız elədi...

– Düz deyir, bacı... Allah özü şahiddir ki, Bəhram qaçaqlara heç şey eləməyib... Qaçaqlar bir qırağa qalsın, başqasına nə pisliyi keçib? Kimin evinə daş atıb, kimin əyalına sataşıb? Tövbə, tövbə!

Ayişə qarı xeyirdə də, şərdə də bacıdan artıq saydığı Şuşanikin boynuna sarıldı.

– Şuşanik vallah, daha taqətim qalmayıb. Bakıdakından da heç bir xəbər yoxdur. Deyirlər atlı kazakla vuruşub, qolu yaralanıb. Ürəyim rahat durmur. Deyirəm, yəqin, onun da başında qəzası var. İndi də, bu biri getdi...

– Darıxma, bacı... Allahın köməkliyi ilə heç bir şey olmaz.

Şuşanik qarının qolundan, tutub, evinə apardı. Arşak isə tələsik yuyundu, pencəyini çiyninə atıb evdən çıxdı. O bu gün Hacı Xeyrinin Balakən yolu üstündə olan tütün karxanasına deyil, dalda küçələrlə burulub, faytonçu Uzun Həsənin evinə tərəf getdi. Uzaqdan fayton atlarının bayıra çıxarıldığını görüb, addımlarını yeyinlətdi.

Boyuna müvafiq olaraq uzun bığ saxlayan Həsən kişi deyinə-deyinə atların yan qayışlarını bağlayırdı. Arşak salam verib, susdu. Həsən kişi başını qaldırmadan onun salamını aldı və öz-özünə nə isə mızıldadı.

Arşak yavaşcadan soruşdu:

– Snoriyə gedirsən?

– Snoriyə getməmiş, bəs haraya gedəcəyəm!? Nuxalıların üzünü görməmək üçün lap Tiflisin özünə də gedərəm.

– Bəhram sənə dedimi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nəyi?

– Ehtiyatlı olmağı. Qoşun gələndən sonra işlər yəqin ki, yoğunlaşacaq.

Uzun Həsən başını narazılıqla əsdirdi:

– Sən də, rəhmətliyin oğlu, söz tapdın deməyə də. Nə vaxt ehtiyatı əldən buraxmışam ki, başıma uşaq kimi ağıl qoyursunuz?!

Arşak ətrafına baxınıb, daha da yaxınlaşdı.

– Həsən kişi, yenə olsun da... Fikrin əvvəlkilərə getməsin... Bu gün qoşun gəlir, sabah da dalısınca başqalarını göndərərlər... Dərzi Usubun dükanına girib-çıxanda bir az ehtiyatlı ol. Onsuz da heç bilmirəm, Bəhramın başına nə gələcək!

Bunu eşidən Uzun Həsən tez qanrılıb, təəccüblə Arşaka baxdı.

– Bəhrama nə olub ki?

– Gecə qaçaqlar gəlib evdən apardılar.

Faytonçu saqqalını və çənəsini ovuşdurub fikrə getdi.

– Bəhramın qaçaqlarla nə əlaqə-sələqəsi?

Arşak çiyinlərini çəkdi:

– Mən də bilmirəm. Görünür ki, onlara lazım olub. Bəlkə, atlarının nalları yeyilib. Uzaqdan, evlərin dalından kim isə göründü. Arşak ahəngini dəyişmədən davam etdi. – Həsən kişi, dediyimiz yadından çıxmasın ha! Ehtiyat igidin yaraşığıdır, deyərlər.

O, yeyin addımlarla uzaqlaşdı. Hacı Xeyrinin karxanasına çatmamışdı ki, Bəhramın uzaqdan gəldiyini gördü.

## IV fəsil

Gün hələ yatağından qalxmamış, Qala düzündə vzvodlarla məşq keçən poruçik və podporuçiklərin səsi bir-birinə qarışaraq, yuxudan ayılan şəhərin üzərinə yayılmışdı. Bir kənarda durub öz rotasının təliminə tamaşa edən kapitan Qasse kiçik zabitlərin yeknəsəq əmr və tənbehlərindən həzz alırmış kimi, papirosun tüstüsünü ləzzətlə sinəsinə çəkərək, elə bil fikrə getmişdi. O, gecəki kef məclisindən sonra özünü səhər-səhər çox gümrah hiss edirdi. Hər şey xariqüladə bir gözəlliklə ona təsir bağışlayaraq, daxilini mehribanlıqla oxşayırdı. Yanaqlarına həmişəki kimi xəfif bir çəhrayılıq çökmüşdü. Onu görənlərdən heç kəs zabitin səhərədək kef çəkib üç-dörd şüşə şərab içdiyini söyləyə bilməzdi. Yalnız nüfuzlu mavi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gözlərinə azca qan çökmüşdü. Xumarlıq dəqiqələrində də gözləri qıyıldığından, onların qızardığını yad nəzərlərdən məharətlə gizlədə bilirdi.

Səkkizinci rotanın komandiri ilə söhbət edən Smirnov isə xəstə kimi nəzərə çarpırdı. Sarışın sifəti bozumtul rəng almışdı. Yanaqları aşağı çökmüş, gözləri isitmə çəkən xəstələrin gözləri kimi üzüntülü bir ifadə ilə qeyri-ixtiyari süzülürdü. Uzunsürən içki məclislərindən sonra mütləq belə bir hala düşəcəyini özü əvvəlcədən bilsə də, stol dalına oturduqdan *sonra nəfsinə qalib gələ bilmirdi* – doyunca içirdi; ertəsi gün isə adətən, öz hərəkətinə peşman olurdu. Əlahiddə batalyona gəldikdən sonra zabit yoldaşları onun bu xasiyyətinə yaxından bələd olmuşdular. Bu gün də onun solğun bənizindən və verilən suallara həvəssiz, yalnız bir kəlmə ilə cavab verməsindən keçən gecə kefdə olduğu heç kəsin gözündən yayına bilmədi. Smirnov özü isə belə vəziyyəti ilə yalnız polkovnik Dobrovolskinin diqqətini cəlb edə biləcəyindən qorxurdu.

Zabitləri hər dəfə görərkən xırdaca, iti gözləri ilə başdan-ayağa süzən batalyon komandirinin nəzərindən yayınmağın nə qədər çətin olduğunu Smirnov bir neçə dəfə öz üzərində sınaqdan keçirmişdi. İndi də yalnız bundan ehtiyat edirdi. Dobrovolski ilə üz-üzə gələrsə, özünün xəstə olduğunu deməklə hər şey bitsəydi, bəlkə də bu barədə çox düşünməzdi. Lakin batalyon komandirinin dalbadal yağdıracağı suallardan birində yəqin ki, özünü itirib dolaşacağından qorxurdu. Belə düşüncələr, onun dumanı hələ də sovuşmamış başında hərlənərkən, arxa tərəfdən əmr eşidildi:

– Düzlən! Batalyon komandiri gəlir.

Komandirlər tələsik öz rotalarına tərəf irəlilədilər. Smirnovun ürəyi şiddətlə döyünməyə başladı. O, özünü gümrah göstərməyə çalışaraq üst-başını səliqəyə saldı və batalyon komandiri yaxınlaşacağı tərzdə, bacardıqca hündürdən və qıvraq bu hərəkətlə raport verməyə hazırlaşdı.

Dobrovolski yoxlamağa soldan, kənar tərəfdə durmuş rotadan başladı. Smirnov rota komandirinin batalyon komandirinə verdiyi raportu eşitsə də, *beynində onun dediyi sözlərin fərqinə vara bil*mirdi. Çünki bu dəqiqədə o, yalnız özü ilə məşğuldu; gah nazik bığlarını həyəcanla titrəyən barmaqları ilə tez-tez burur, gah da ovcunu sifətinin hər iki tərəfinə sürtərək, sanki solğun bənizinə bir növ qızartı çökdürməyə çalışırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Budur, Dobrovolski doqquzuncu rotanın qabağında duraraq, alçaqboylu bir soldatı irəli çağırdı. Soldat qabağa çıxıb, əlini alnına apardı. Lakin o, salam verməyə macal tapmamışdı ki, batalyon komandiri hirslə onun hər iki poqonunu çıxarıb yerə çırpdı, sonra rota komandirinin üstünə bərkdən çığırdı. Smirnov onun nə dediyini eşitmədi. O yalnız gözlərini geniş açaraq batalyon komandirinin hərəkətini izləyirdi. Qassenin rotası həmişəki kimi yenə də heç bir tənbeh almadı. Sanki hər şey öz qaydasında idi. Qasse şəstlə, podpolkovnikin qabağında durub gözləyirdi. Nəhayət, Dobrovolski əyri qıçlarını aramla ataraq qəzəbli halda ona tərəf irəlilədi. Smirnov üç addım qabağa yeriyərək, rotanın səhər məşqinə çıxmağı haqqında raport verdi. Dobrovolski başını əsdirərək elə bil onun dediyi sözləri ya eşitmir, ya da əhəmiyyət vermirdi. Smirnov raportu qurtardıqdan sonra rahat nəfəs aldı. Podpolkovnik ona əhəmiyyət vermədən, gözlərini soldatlara zillədiyi halda, rotanın qabağı ilə addımlayırdı. Smirnov bundan sevindi. Onun göyərmiş, solğun sifəti batalyon komandirinin nəzərini cəlb etməmişdi.

Təlim meydanına çökən sükutu Dobrovolskinin yoğun səsi pozdu. O, sağ tərəfdən altıncı soldatı irəli çağırdı. Smirnov dodaqlarını hirslə çeynədi. Komandirin çağırdığı soldat tez-tez tənbeh olan matros Poqrebnyuk idi. Soldat sürətli addımlarla irəli çıxıb, batalyon komandirinə yaxınlaşdı. Əlini furajkasına aparıb yerindəcə donub qaldı. Bir neçə dəfə udqundu. Bütün gözlər həyəcan içərisində ona zillənmişdi. Soldatın sifətində əmələ gəlmiş əziyyətli ifadədən hiss olunurdu ki, qorxusundan ağzında dili dolaşmışdır, sözləri deyə bilmir. Smirnov durduğu yerdə sarsıldı. Fürsət tapa bilsəydi o, Poqrebnyukun yaxasını dartışdırıb yerə çırpar, batalyon komandirinin qarşısında soldatın özünü necə aparacağını ona göstərərdi. Ancaq nə edə bilərdi? Dobrovolski qəzəbli gözlərini soldata zilləyib durmuşdu. Poqrebnyuk isə karıxıb udquna-udquna gözlərini döyəcləyirdi. Öz ovu üstünə atılmağa hazırlaşan şir kimi Dobrovolski birdən-birə Smirnova tərəf dönüb bağırdı:

– Kapitan Smirnov!

Smirnov durduğu yerdən qopub, qabağa cumdu.

– Mən sizi eşidirəm, cənab podpolkovnik.

Qəzəblənmiş batalyon komandiri başı ilə Poqrebnyuka tərəf işarə edərək soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən başa düşmürəm, cənab kapitan, qarşımda duran soldatdır, yoxsa kötük? Cavab veriniz!

– Soldat Poqrebnyukdur, cənab...

Dobrovolski kapitanın sözünü ağzında qoydu:

– Soldatdır? Hanı soldat? Göstəriniz! Ustavda belәmi deyilir?

Batalyon komandiri ilə rota komandiri arasında gedən bu söhbət Poqrebnyuku elə bil silkələyib yuxudan ayıltdı.

– Cənab podlpolkovnik, soldat Poqrebnyuk sizin əmrinizlə hüzurunuza gəlmişdi, – deyə o, dili dolaşa-dolaşa özünü təqdim etdi.

Dobrovolski ayağını yaşıl otun üstünə döyəclədi:

– Kötük, görünür ki, qara dənizin havası hələ də bədəninizdən çıxmamışdır. Yox, mən dərinizi diri-diri soyub bu inqilab havasını içinizdən çıxaracağam. – Sonra Smirnova müraciət etdi. – Kapitan Smirnov, onu tam yüklənmiş halda üç saat silah altında saxlayın.

Kapitan Smirnov ayaqlarını cütləşdirdi:

– Oldu, üç saat silah altında, cənab podpolkovnik.

Dobrovolski kapitanın cavabına etina etmədən, hətta gözünü qaldırıb onun solğun rənginə baxmadan belə, ötüb o biri rotanın vzvodlarına yaxınlaşdı. Smirnov onun dalınca baxa-baxa qalmışdı. O, batalyon komandirinin soldatlardan kiminsə kəmərini dartışdırdığını, başqa birisinin, görünür ki, silinməmiş düymələrini qırıb yerə tökdüyünü gördü. Beş-on dəqiqənin içərisində bir-birini təqiblə baş verən bu hadisələr onu heç zaman bugünkü kimi yormamışdı. Gördüklərinə qarşı içərisində acı bir ikrah duydu. Ancaq bu özü də ona qorxulu göründü. Bir an içində bu hissdən yaxa qurtarmağa başladı. Tez özünü öz rotasına tərəf çevirib vzvod komandirini çağırdı və Poqrebnyuk haqqında podpolkovnikin əmrini yerinə yetirməyi tapşırdı.

Bayaqkı həyəcan və təşviş qorxusu zahirən üzündən sovuşmuşdu; başının ağrısı isə hələ də kəsməmişdi. O, batalyon komandirinin təlim meydanından uzaqlaşmasınadək gözləməli oldu. Bundan sonra mənzilinə qayıdıb, heç olmazsa, bir neçə saatlığa istirahət etmək istəyirdi. Hətta özlüyündə necə dincələcəyini düşünürdü. Rostovu keçərkən təsadüfi olaraq çox ucuz qiymətə aldığı, indi isə mənzilində divara vurulmuş həzrət İsanın haşiyəli təsvirinə baxa-baxa çarpayıda uzanıb əllərini başının altında çarpazlayacaq və beləcə yuxuya getməyə çalışacaqdı. Bununla təsəlli tapacağını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

güman edirdi: özünün tez-tez təkrar etdiyi kimi onu günaha batmaqdan saxlayacaqdı. Bu səhər tezdən tələsik geyindiyi zaman həzrət İsanın mərhəmətli, ağıllı baxışlarında duyduğu fövqəladə cazibədarlıq ona nə isə çox şey vəd etmişdi. Qəribə bir hiss onu çox narahat edirdi: ona elə gəlirdi ki, bu müqəddəs adamı haradasa görmüşdür, hətta onunla danışmış və nə haqda isə onunla çənə də vurmuşdur. Sonradan xatırlamışdı ki, müqəddəs İsa, onların küçəsində uzun zaman köhnə kitab maqazini olan yəhudi Xaimə oxşayır. Seyrək saqqalı, iri, ağıllı gözləri boynunun ardına tökülmüş yumşaq, uzun saçları və nəhayət, sarışın bığları altında güclə sezilən nazik çəhrayı dodaqları hər ikisində eyni şəkildə və eyni quruluşda idi. Belə bir müqayisədən Smirnovun bədənini ürpərti də bürümüşdü. Şər qüvvələrinin bu ani təsirindən xilas olmaq üçün tez müqəddəs təsvirin qabağında diz çökərək xaç vurmuşdu. Lakin indi yenə də yəhudi Xaimin surəti birdən-birə onun gözlərinin qabağında canlandı. Sanki Xaim iri, ağıllı gözlərinin mülayim baxışları ilə sakitcə ona baxıb dururdu. Birdən çiyninə qoyulan əl onu diksindirdi. Müqəddəs İsa və Xaim haqqındakı düşüncələri bir-birinə qarışıb pozuldu. Kapitan Qasse hündürdən gülüb dedi:

– Bu fəlsəfi görkəm bəlkə də sənə yaraşır, deyə bilmərəm, ancaq onu bilirdim ki, pərişanlıq, nifrət etdiyim ən murdar şeydir.

Smirnov gecəki içkidən sonra özünü pis hiss etdiyini və dincəlmək üçün mənzilə getmək istədiyini bildirdi. Qasse istehza ilə güldü və dedi:

– Çünki az içmişsən. Bizim batalyon həkimi Vasili Vasilyeviç doğru deyir, içki haqqında mülahizə yürüdən adam, içki içəndən daha çox keflənir. Ha... ha... Sözün buxarı, deyilənə görə, spirtdən də qüvvətlidir. Birbaş beyinə vurur!

Smirnov Qassenin söhbəti uzatmağa hazır olduğunu görüb susdu. Qasse özü də belə qaradinməz, həmişə pərişan görkəmi ilə adamları ancaq əsnəməyə məcbur edən bir adamla söhbətdən həzz almayacağını başa düşdü və Dobrovolski təlim meydanını tərk etdikdən sonra hündürdən gülüb danışmağa başlamış zabitlərə tərəf getdi.

Smirnovun başının ağrısı daha da şiddətlənmişdi. Gicgahları yeyin-yeyin vururdu. Ürəyinin bulandığını da hiss edirdi. Vzvod komandirinə tələsik bəzi tapşırıqlar verdikdən sonra, ayaqlarını güclə sürüyərək Qala düzündən aşağı endi. Onlardan sol tərəfdə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

soldat Poqrebnyuk, onun üçün müəyyən edilmiş məsafədə silahlı halda addımlayırdı. Kürəyindəki şinel, yanından asılmış qazança və soldat lopatkasının ağırlığı altında onun alçaq boyu, elə bil daha da yerə qısılmışdı. Çil basmış sifəti tamam tər içində idi. Gündən yanmış nazik boynu yaxalığının altında parıldayırdı. Smirnovun yanından keçərkən gözlərini qaldırıb baxdı. Soldatın əziyyət dolu baxışlarında qəzəbdən daha çox dilsiz-ağılsız bir şikayət vardı. Onların baxışları bir anlığa toqquşdu. Smirnov tez üzünü yana çevirib yoluna davam etdi. Ona elə gəldi ki, Poqrebnyukun gözləri, nə isə dilsiz bir yalvarışla rəhm diləyir, köməyə çağırırdı. Smirnov bu baxışları unutmaq üçün başqa bir şey haqqında düşünməyə çalışdı; lakin şiddətlə vuran gicgahlarının ağrısından heç bir şey fikirləşə bilmədi. Poqrebnyukun baxışları ta mənzilinədək onun gözləri qabağından çəkilmədi. Denşikinə bir fincan isti qəhvə hazırlamağı tapşırıb yatağına uzandı. Gözlərini yumub yuxuya getməyə çalışdı. Yerində çox qurdalandı, ancaq yata bilmədi. Küçədə, pəncərənin qabağında çığır-bağırla oynayan uşaqların səsləri içərisi sanki boşaldılmış başında uğuldayırdı. Denşiki çağırıb, uşaqları qovmağı tapşırdı. Bir dəqiqə keçmədi ki, küçədən səs-səmir kəsildi. Smirnov yenə gözlərini yumdu. Bu dəfə Denşikin səsinə gözlərini açdı.

– Konstantin İvanoviç, yatmayın, – deyə Denşik yavaşdan səsləndi, – bu dəqiqə qəhvə hazır olacaq. Elə yatsanız başınızın ağrısı kəsməyəcək.

Smirnov onun dediklərinə əhəmiyyət vermədi. Gözlərini təkrar yumdu və heç bir şey eşitməsin deyə mələfəni də üzünə çəkdi. Xəyalında hər şey payız buludları kimi qaynayıb bir-birinə qarışırdı. Səssiz bir boşluq içində onlar ilan kimi qıvrılıb-açılır, uzanıb hörülürmüş kimi bir-birinin içinə soxulurdu. Bundan sonra boşluq özü də buludlarla birlikdə hərlənməyə başladı. Bu sürətli hərlənişdən Smirnovun ağrısı kəsməyən başı da fırlanırdı; onu elə bil haraya isə çəkib aparırdılar. Birdən, sanki hər şey alt-üst oldu, Smirnovda yerindən qopub, başıaşağı yuvarlandı, ürəyi sanki bu dəqiqə yerindən çıxıb ağzına gələcəkdi, tez gözlərini açdı. Denşik əlində qəhvə ayaq üstündə durmuşdu.

– Konstantin İvanoviç, qalxın... isti ikən için.

Smirnov dirsəklənib oturdu, fincanı əlinə alıb, qəhvəni iki qurtarma içdikdən sonra təkrar yerinə uzandı. Denşik otaqdan çıxmaq istəyirdi ki, onu səslədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Vasya, yanıma heç kəsi buraxma. Bir neçə saat yatmaq istəyirəm.

– Baş üstə!

Denşik pəncələrini asta-asta basaraq otaqdan çıxdı. Hər tərəfə dilsiz bir sükut çökdü. Yarım saatadək vaxt keçdi. Lakin Smirnovun gözünə yuxu getmirdi. İki saat əvvəl, təlim meydanında batalyon komandiri ilə soldat Poqrebnyuk arasında gedən söhbət təzədən onun beynini narahat etdi.

Batalyon komandirinin Poqrebnyuku sıradan çıxarmasının səbəbini o, hələ də özünə aydınlaşdıra bilmirdi. Axı Poqrebnyukun tənbeh edilməsinə səbəb olacaq tutarlı bir əsas yoxdu. Soldatın raport verməməsi də, batalyon komandirinin onların arasında yaratdığı vahimədən əmələ gələn bir şeydi. Nəinki soldatların, hətta zabitlərin belə podpolkovniklə danışanda çox zaman, özlərini itirərək belə bir vəziyyətə düşmələri nadir hadisə deyildi. Bəzən heç bir səbəb olmadan, podpolkovnik kükrəyib bağırırdı. Xüsusilə, matros-soldatların kiçicik bir hərəkəti onu dərhal özündən çıxarırdı. Əslində bu, onlara cəza verdirmək üçün ancaq bir bəhanə idi. Bu gün də onların üzərində daimi bir nəzarətin olduğunu bütün batalyon qabağında nümayiş etdirmək üçün Poqrebnyuk cəza almışdı.

O, gözlərini müqəddəs İsanın təsvirinə zilləyərək, baş vermiş hadisələr haqqında düşünərkən, qapı ağzında hənirti eşidildi. Smirnov tez gözlərini yumub, özünü yuxuluğa vurdu. Kimdisə, görünür ki, onun yanına gəlmək istəyirdi, ancaq Denşik onu içəri buraxmayaraq yavaşdan deyirdi:

– Cənab kapitan yenicə yuxuya gedibdir. Özünü yaxşı hiss etmir. Mümkünsə iki-üç saatdan sonra gəlin.

Səs-səmir yenə kəsildi. Smirnov gözlərini açdı. Həzrət İsanın qüssəli, mülayim baxışları yenə də ona zillənmişdi. O yenə də yəhudi Xaimə oxşayırdı. Hətta Smirnova görə, bu müqəddəs adamın Xaimə oxşarlığı indi daha da çoxalmışdı. Smirnov onun sifəti ilə Xaim arasında daha başqa oxşar cəhətlər axtarırkən müqəddəs İsanın təsviri birdən-birə dəyişib soldat Poqrebnyuka çevrildi. Kapitan gözlərini döyəclədi; bir anlığa yumub açdı. Yox, onu qara basmırdı. Kiçik haşiyədə həzrət İsanın yerində soldat Poqrebnyuk durmuşdu. Budur, o iztirab dolu nəzərləri ilə yenə də mərhəmət diləyir, günahsız yerə cəzalandığından şikayətlənirdi. Yox, Smirnov ürək parçala-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yan belə baxışlara heç zaman təsadüf etməmişdi. Heç bir yerdə insan gözləri bugünkü kimi onun içərisində qorxuya bürünmüş belə bir mərhəmət oyada bilməmişdi! Kömək diləyən soldat baxışları gözəgörünməz bağlarla onun qəlbinə nüfuz edir, iti xəncər kimi hər şeyi yararaq dərinliyə işləyirdi. Smirnovun bədənini titrətmə bürüdü və haşiyədəki iki adama oxşar təsviri görməmək üçün gözlərini yumdu...

Bir azdan Denşik qapını aralayaraq içəri baxdığı zaman kapitanın yuxuya getdiyini gördü.

* * *

Dobrovolski öz kabinetinə qayıtdıqdan sonra nə isə fikirləşib poruçik Varlamovu yanına çağırtdırdı. Varlamov içəri girib gümrah bir səslə raport verdi. O, iyirmi iki-iyirmi üç yaşlarında ancaq olardı. Gur sarışın saçları yana ayrıldığından, bir tərəfdən başından xeyli yuxarı qalxaraq, onun uzunsov sifətini daha uzun göstərirdi. Qonur gözləri əyri qaşları altında bir yerdə qərar tutmayaraq, batalyon komandirinin əmrini səbirsizliklə gözləyirdi. Dobrovolski isə başını aşağı dikib, başqa işlə məşğul idi. O, poruçikin üzünə baxmadan yavaşcadan mızıldandı:

– Otur, poruçik.

Varlamov stolun qabağındakı kreslonun kənarında oturub, nə üçün çağırıldığı haqda düşündü. Podpolkovnik Dobrovolskini o, Xarkovdan, hələ kapitan olduğu zamandan tanıyırdı və birgə iştirak etdikləri mühüm hərbi əməliyyatlarda kapitanı ondan çox razı qaldığını dəfələrlə hiss etmişdi. Xarkov ətrafında baş vermiş böyük siyasi tətili yatırtmaq üçün göndərildikdə hamıdan qabaq o, Varlamovun onunla birlikdə getməsinin qeydinə qalmışdı. Varlamov da bu əməliyyatda onun etibarını qazanaraq kapitanın həyatını tətilçilərin biri tərəfindən atılan güllədən xilas etmişdi. Bu hadisədən sonra hiss edirdi ki, Dobrovolskinin yanında hörməti daha da artmışdır. Kapitanın hər dəfə ona göstərdiyi qayğı, nəhayət, Varlamovun Qafqaza göndərilən bu əlahiddə batalyona daxil edilməsi ilə nəticələndi. Bu gün də o, buraya səbəbsiz yerə çağırılmadığını başa düşürdü. Dobrovolski başını qaldırıb qıyılmış gözləri ilə ona baxdıqda Varlamov tez ayağa qalxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Poruçik, əyləş, – deyə batalyon komandiri əli ilə ona oturmağı işarə elədi və sonra sınayıcı nəzərlə poruçikə baxıb sözünə davam etdi, – mən batalyonun mühafizəsini sənə tapşırıram. Əsl möhkəm bir ovçu dəstəsi yaratmalısan. Hər bir matrosu ov kimi ayrı-ayrılıqda izləməkdən çəkinmə. Lazım gələrsə gecələr çarpayıların altına da girin. Söz ovçusu! Başa düşdünmü!

Varlamov ayağa qalxdı.

– Başa düşdüm, cənab podpolkovnik!

– Əyləş, poruçik və sözlərimə diqqətlə qulaq as. Mən sənə inanıram və arxayınam ki, sən batalyonun bu şərəfli etimadını doğruldacaqsan. Şəhərdə xüsusi mənzillərdə yaşayanların üzərində isə hər dəqiqə nəzarət olmalıdır. Bunun üçün sənə külli-ixtiyar verirəm.

Dobrovolski sözünü qurtarıb sınayıcı baxışlarla Varlamovu süzdü. Sonra yerindən qalxıb ona yaxınlaşdı. Varlamov uzun qəddini düzəldərək onun qabağında quruyub qaldı. Dobrovolski sözünə davam edərək:

– Güman edirəm ki, batalyon içərisində özün kimi başqa etibarlı adamlar da tapa bilərsən, – dedi və otaqda gezişməyə başladı. Cibindən papiros çıxarıb damağına qoydu, yandırdı və nə isə fikirləşib yenə poruçikə yaxınlaşdı. – Etibar ikitərəfli olmalıdır. Elə adamlar tapmalısan ki, həm bizim, həm də matrosların etibarını qazanmış olsun. Qurd ağacı öz içərisindən yesə yaxşıdır. Heç kəsə görünmədən yeyər və günlərin birində ağacın kəlləsi yerə sancılar. Elədirmi?

– Elədir, cənab podpolkovnik!

– Elədir, elədir! – deyə batalyon komandiri təkrar edə-edə ondan uzaqlaşıb, stolun dalına keçdi. Tamamilə başqa, amiranə bir tərzdə əmr etdi. – Gediniz, əmri yerinə yetiriniz!

– Əlahəzrətə xidmət edirəm.

Bu sözləri deməsi ilə Varlomovun otaqdan çıxması, demək olar ki, bir anda baş verdi. Podpolkovnik ancaq yazı işləri ilə məşğul olarkən taxdığı qalın şüşəli pensnesinin üstündən iftixarla onun dalınca baxdı; belə mühüm bir işi məhz ona tapşırmasıyla yanılmadığına, həmişə olduğu kimi, Qafqazda da gec və ya tez, onun etimadını doğruldacağına arxayın idi.

Dobrovolski öz mülahizəsində haqlı idi. Varlamovun özünü doğrultmalı bir hadisə onun yadına düşmürdü. O həmişə öz koman-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dirinin ən kiçik tapşırığına belə, vaxtında əməl eləmək üçün dəridən çıxmağa hazırdı. İndi də batalyon komandirinin burada, bu meşəli dağlar arasında ona təzədən göstərdiyi etimadı doğrultmaq üçün vaxtının bir dəqiqəsini belə fövtə vermək istəmədi.

Oradan birbaşa Qalanın komandanlıq binasına gəldi və işə haradan başlamaq haqqında düşündü. Özünə yaxın və dost hesab etdiyi soldatların simalarını intəhasız şərid kimi gözünün qabağından keçirdi. Bunların bəzilərinə o, gözüyumulu etibar edə bilərdi. *Onlarla birlikdə Xarkov və Odessa şəhərlərinin ucqarlarındakı alçaq,* yarımuçuq evlərdə yaşayan qadınların kef məclislərində çox iştirak etmişdi. Bəzilərinə isə o qədər də bel bağlamaq olmazdı. Beləladmindən biri onu daha çox düşündürən öz yerlisi, uşaqlıqdan tanıdığı Sırojkin idi. Cod, sarışın saçlı, iri monqol sifətli, gözləri həmişə qıyılan bu gənc, zahirən çox pərişan görünürdü. Lakin Varlamov onun daxilində, başqalarının nəzərinə bəlkə də çarpa bilməyən əsl kişilik sifəti olduğuna heç şübhə etmirdi. Lakin işin çətini onu ələ almaqdan ibarət idi. Əgər o, Sırojkini ələ ala bilsəydi!

Varlamov özünün yeni mənsəbində tam müvəffəqiyyətli olacağına, necə deyərlər, heç kəsin ağlına gəlməyən xariqələr yaradacağına əmin idi. Sırojkinin təkcə bir sifəti ona əvvəlcədən böyük ümidlər vəd edirdi: bu da onun çəkinməzliyi idi. Varlamovun fikrində onun oddan, alovdan və hamının, o cümlədən də özünün çəkindiyi ölümdən də qorxusu yox idi. Belə bir adamı ələ almaq üçün Varlamov hər şeyə hazırdı.

Lakin hansı yolla? O bilirdi ki, Sırojkin hər cür söz və vədlərlə ipə-sapa yatan adam deyildir. Deməli, o başqa vasitələrə əl atmalı idi. Dayan, dayan!.. Bəs, soldatı şirnikləndirə biləcək şeylər nədir? Qadın, içki və pul! Birincilərin Sırojkinə nə cür yerdən qaldırıb gölməçəyə atdığını, indi də soldatlar məzə ilə danışıb-gülüşürdülər. Pul isə qadınların nifrət etdiyi cod tüklü bu yöndəmsiz soldatın, üstündən heç cür adlayıb keçə bilmədiyi bir nemətdi! Varlamov da onun bu zəif cəhətinə arxayın idi. Məhz, pulla o, bu harın soldatı kəməndə salıb buxovlaya biləcəyinə ümid bağlayırdı.

“Dəmir isti ikən döyülür“ deyə Varlamov onunla elə həmin gün, vzvodların təlim məşqi qurtarandan sonra danışmağı qərara aldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## V fəsil

Üç gündən sonra müəyyən edilmiş saatda Bondarçuk dərzi Usubun dükanına gəldi. Usta yenə də əvvəlki kimi, piştaxtanın üstündə bardaş qurub oturmuşdu. İçəri adam girdiyini görüncə, dərzi başını qaldırdı, qulaqlarına sapla keçirilmiş eynəyinin altından baxdı. Bondarçuku tanıdı, ancaq tövrünü pozmadı.

Bondarçuk nəzakətlə soruşdu:

– Usta mənim köynəyim hazırdırmı?

Usub gözünün ucu ilə bayırı – qapının ağzını nəzərdən keçirdi. Şagirdini görmədikdə başı ilə, dükanı iki hissəyə ayıran hisli pərdəyə tərəf işarə elədi:

– İçəri keçin, köynəyiniz də hazır olar.

Bondarçuk pərdənin dalına keçdi. Orada gözünə alçaq və ensiz qapıdan başqa heç bir şey dəymədi. İçəri keçmək üçün adamı ikiqat əyilməyə məcbur edən qapı azca aralı qoyulmuşdu. İlk nəzərdə divar şkafına oxşayan bu qapının dalından hənirti səsi gələn kimi Bondarçuk belini əyərək içəri keçdi. Alaqaranlıq, rütubətli otaqda iki nəfər köhnə xarrat dəzgahının üstündə oturmuşdu. Bunlardan biri Bəhram, o biri isə Bəhramla eyni yaşda olan, lakin saçları vaxtından qabaq çallaşmış Arşak idi.

Bondarçuk içəri keçdikdən sonra dərzi Usub piştaxtanın üstündən düşüb, qapını dal tərəfdən bağladı və yuxarıdan qapının haşiyəsinə vurulmuş mıxlardan bir neçə dənə hazır köynək-şalvar asdı. Qapı gözdən itdi. Sonra başını taxtaya dayayaraq dinlədi; səs-səmir eşidilmirdi. Usub arxayın olduqdan sonra yenə də piştaxtanın üstünə qalxdı, bardaş qurub əlindəki nimdaş döşlüyünə köbə vurmağa başladı.

İçəridəkilər, doğrudan da, pıçıltı ilə danışırdılar. Bəhram Bondarçukun dənizi xatırladan mavi gözlərinə baxaraq fərəhlə deyirdi:

– Sizin gələcəyinizi Tiflis komitəsindən bizə xəbər vermişdilər. Ancaq çox gecikdiniz!..

Bondarçuk onun sözlərini təsdiq etdi:

– Elədir, eşelonun hərəkət cədvəli elə qurulmuşdu ki, biz böyük stansiyalardan ancaq gecələr keçirdik. Komandanlıq stansiyalarda fəhlə mitinqlərindən qorxurdu. Buna görə də gündüzlər kiçik stansiyalarda on saatlarca gözləməli olurduq. Bizim eşolonda dustaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

matrosların aparıldığı, görünür ki, Cənubi Rusiyanın hər tərəfinə yayılmışdı.

Bondarçuk soldat furajkasının astarından dördqat bükülmüş bir məktub çıxarıb Bəhrama uzatdı.

– Bu, Xarkov komitəsindəndir, – dedi və narahat baxışlarla ətrafına baxındı. – Mən çox ləngiyə bilmərəm. Hər şeydən qabaq görüş yerimizi müəyyənləşdirək, etibarlı yer olsun!

Bəhram:

– Hələlik, ən etibarlı yer buradır, – dedi, – dərzi hər bir adama lazım olur: paltar tikdirməyə, yamaq vurmağa... Cürbəcür müştəri gəlib-gedir. Siz də onlardan biri. Usub don da tikir, şalvar da, çinovnik mundiri də, zabit şalvarı da. Şəhər camaatının arasında da hörməti var. Siz istədiyiniz vaxt buraya gələ bilərsiniz. Sizdə partiya üzvü çoxdurmu?

– Matroslardan altı-yeddi nəfər var. Piyadalardan hələlik yoxdur. Bizə rəğbət bəsləyənlərin sayı artır. Çalışarıq ki, onları öz tərəfimizə çəkək. İntəhası budur ki, ədəbiyyat sarıdan korluq çəkirik. Özümüzlə heç bir şey gətirə bilməmişik. Hər bir hərəkətimiz təqib olunur; addımbaaddım dalımızca gəlirlər.

– Narahat olmayın, – deyə Bəhram ilk görüşdən onda xoş təsir buraxmış Bondarçukun əlini sıxdı. – Tiflis komitəsi bizə vaxtlı-vaxtında ədəbiyyat göndərir. Siz də bir şeydən ehtiyatlı olun. Şəhərdə ermənilərin daşnak partiyası var. Çox qüvvətlidir. Soldatları özlərinə tərəf çəkə bilərlər. Bondarçuk getməyə tələsirdi.

– Mən çox ləngiyə bilmərəm, – dedi. – Sizinlə mən ya da Romanov familiyalı bir matros əlaqə saxlayacaq. Parolumuz “Ləpə“dir.

O, xudahafizləşib dükandan çıxdı.

* * *

Alaqaranlıqda, minarənin başından müəzzinin həzin səsi eşidildi: obaşdan idi. Yatanlar şirin yuxudan oyanıb obaşdanlıq tədarükünə başladılar.

Şəhərin ucqarında nahamar çay daşlarından tikilmiş alçaq, yastı-yapalaq bir evin his çəkmiş pəncərəsinə obaşdan duasından xeyli qabaq onluq bir lampa qoyulmuşdu. Eşiyə, pəncərənin qabağındakı nar pöhrəliyinə sarımtıl işıq yayılmışdı. Bu, bütün ömrünü



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bağbanlıqla keçirmiş qoca Veysəl kişinin evi idi. Yaşı yetmişdən ötsə də, hələ gümrah idi. Oğuldan-uşaqdan heç nəyi yoxdu. Cavanlıqda bir oğlu olmuş, onu da sel aparmışdı. Düz qırx il idi ki, arvadı Pəri ilə bir damın altında ömür sürürdü. Dünyada heç kəslə işi olmazdı. Hələ bu vaxtadək bir kimsənə onun ağzından pis söz eşitməmişdi. Qonşularının, onu tanıyanların arasında böyükdən-kiçiyə hamı hörmətini saxlayırdı. Çoxu açıqdan-açığa ona acıyırdı: "Allah övlad sarıdan qocanı məğmun eləyib." Arvadı Pəri də xoşsifət, mülayim bir arvaddı. Ərindən iyirmi yaş cavan olsa da, sir-sifətdən çox qoca görünürdü, dərd və xəstəlik onu sıxıb elə bir hala salmışdı ki, görənlər ona ərindən çox yaş verirdilər. İlin altı ayını yataqda keçirərdi. Cavanlığından tutulduğu yel xəstəliyi vaxtından qabaq belini əymişdi; pillələri uşaq kimi iməkləyib qalxardı. Müxtəsəri, Veysəl birgə ömür sürdükləri müddətdə onda sağ can görməmişdi. Bununla belə, çox mehriban dolanırdılar. Kişi olan bəndə bir dəfə də olsun, ağzını açıb arvadından giley vurmamışdı. Yalnız, hərdən-bir xəlvətə salıb ürəyində bəxtindən şikayətlənirdi: "Heç olmazsa, – deyərdi, – başı örpəklisi biri olaydı ki, belə gündə anasının dadına çataydı, balışının yanını kəsdirib oturaydı... Eh, pərvərdigara, daha nə deyim, özün hamıdan adilsən! Hər şeyi bizdən daha yaxşı görürsən! Görünür ki, belə məsləhət imiş... olacağa nə çarə!"

Bahar girib, gün havanı, quzeyləri, torpağın canını qızdıranda Pəri qarının da sümükləri isinərdi. Üzü yaya getdikcə o, yatağından *qalxıb oturar, belinin donqarını düzəldər və evin içində ayaqlarını* arxasınca sürüməyə başlardı. Sümükləri sancsa da, ağrısına dözüb, başqa arvadlar kimi deyinməzdi. Kürəyini saatlarla günə verib oturmaqdan həzz alardı.

Son aylar Veysəl kişi onun gündən-günə arıqladığını, üzünün dərisinin qat-qat qırış atıb, köhnə alma kimi büzüşdüyünü görürdüsə də, üzünə vurmur, içəridən çəkirdi. Bu tərəfdən də orucluq girmişdi. Veysəl kişinin təkidinə, bəzən də açıqdan-açığa hirslənib kükrəməsinə baxmayaraq, Pəri ətəyindəki daşı yerə tökməmişdi – uşaq kimi inad eləyib dururdu. Orucluğun elə birinci günündən başqaları kimi o da ağzını bağlayıb oturmuşdu. Veysəl mollanın, köhnə dindar kişilərin dili ilə neçə dəfə ona demişdi:

– Ay rəhmətliyin qızı! Molla Hüseyn özü minbərdən vəz elədi ki, naxoş adama oruc tutmaq haramdır, tutsa da, Allahın yanında

qəbul olunmaz. Sən nahaq yerə özünü üzürsən, gəl bu daşı ətəyindən tök. Özünə yazığın gəlsin!

Pəri qarı isə ərinin sözlərini qulaqardına salırdı. Bəzən Veysəl şədd eləyib özündən çıxanda onun zəif səsi eşidilirdi:

– Molla nə deyir, qoy öz payına desin. O dünyada heç kəs mənim yerimə cavab verməyəcək: nə molla, nə də sən. Nə qədər ki, adamın nəfəsi boğazından çıxmayıb, namaz, orucdan əl çəkə bilməz: Allah hansı naxoşun günahından keçib ki, mənimkindən keçə?

Veysəl arvadının bu inadı qarşısında daha bir söz dediməmiş, – "Can sənin, cəhənnəm Tanrının" deyə qollarını hirslə çırpmışdı.

Pəri qarı, beləliklə, ramazan ayını yarıdan ötürdü. Aclıqdan başının hərləndiyi dəqiqələrdə ərindən xəlvəti həyətdəki tut ağacının gövdəsi nə söykənib taqətsiz qalardı. Bu gün ərindən qabaq obaşdanlığa qalxanda da dizlərinin əsdiyini hiss etmişdi. Ona görə də samovara kiçik otağın içində – oturduğu yerdə od salıb qaynatdı. Veysəl kişi o biri otaqda dua ilə məşğul idi. Boğazında qaynada-qaynada oxuduğu duanın ahəngdar səsi sanki otaqdan deyil, haradansa dərin, uzaq bir yerdən, lap yarğanın dibindən qopub bacadan küləklə birlikdə içəri soxulurdu. Gəlinlik illərindən Veysəlin xoş avazla oxuduğu duaya, onun asta zümzüməsinə bağlanmış Pəri bir gün evdən o səsi eşitməyəndə qüssələnirdi. Hər dəfə Veysəlin zümzüməli nəfəsini eşidəndə, cavanlığını, sarı yelənli örpəyini başına dolayıb, bulağa getdiyini, pıqqapıqla qaynayan çeşmənin gözündən ovuclayıb su içdiyini, çeşmənin çalasında yığılan şəffaf suda qara tellərinə sığal verdiyini xatırladı. Bəzən də duadan, Veysəlin yanıqlı-yanıqlı dediyi sözlərdən gizli-gizli kövrələr, burnunu çəkib örpəyinin ucu ilə gözünün yaşını səssizcə qurudardı. İndi də qarı belə şirin bir xəyala getmişdi. Pəncərənin şüşəsi yavaşcadan taqqıldadı. Qarı əllərini yerə dayaq verib ayağa qalxdı, donqar belini düzəldə bilmədi, əyilə-əyilə pəncərəyə yaxınlaşdı. Bir adam boyundan hündürdə asılmış pərdəni qaldırdı, gözlərini qıyıb aşağıdan-yuxarı baxdı. Alatoran şüşədə yaşı ayırd eləyə bilmədiyi bir baş göründü. Qarı:

– Kimi istəyirsən, a bala? – deyə xırıltılı səsi ilə soruşdu.

Bayırda durmuş adam ovuclarını və ağzını şüşəyə dayayıb pıçıldadı:

– Mənəm, Pəri xala, açın! Məhəmməddir.

Pəri sümükləri çıxmış quru əlini gözünün üstünə qoyub bir də diqqətlə baxdı, Məhəmmədi tanıdı. Divardan tuta-tuta qapıya tərəf



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yeridi. Tük basmış üzü boynundan asılmış qara başlığının ucu ilə örtülü olan Məhəmməd, qapı açılan kimi özünü içəri saldı. Papağını yuxarı çəkdi. İri, qayğılı görünən gözləri ilə otağın içərisini süzdü, sonra Pəri qarıya tərəf dönüb mülayim bir səslə salamlaşdı:

– Sabahınız xeyir, Pəri xala.

– Aqibətin xeyir, oğul, keç otur, Veysəl də indicə qurtarar... Qarı samovarın yanında ona yer göstərdi. – Bax, buradaca əyləş. Məhəmməd tüfəngini evin küncünə dayadı, uzun arxalığının ətəklərini yığaraq, qarının göstərdiyi yerdə, döşəkçənin üstündə bardaş qurdu. Pəri kirpi kimi yumalana-yumalana qapının möhkəm bağlanıb-bağlanmadığını yoxladı; çay, çörək tədarükünə düşdü. O biri otaqda Veysəlin səsi kəsildi. Çox çəkmədi ki, o, arxalığını çiyninə atdığı halda, astanada göründü. Məhəmmədi görəndə, əvvəlcə gözlərinə inanmadı:

– Məhəmməd, sənsən? – deyə təəccüblə ona baxdı. – A bala, öz əl-ayağınla nə üçün odun içinə gəlmişsən? Bilmirsən ki, şəhər qoşunla qaynayır? Çomaq atsan, əsgərə dəyər. Un çuvalı kimi bir-birinə söykənib.

Məhəmməd gülümsədi:

– Xətəri yoxdur, Veysəl kişi. Nigaran qalma. Sirkə tünd olar, neylər? Öz qabını sındırar! İstəyir lap bir ləşkər gəlsin... Mənə nə istiliyi, nə sərinliyi?..

– Elə demə, Məhəmməd. İgid gərək ehtiyatın əldən qoymaya!

Məhəmmədin gözləri parıldadı.

– Veysəl kişi, Məhəmməd sən deyən də deyil ha, çomağını özündən aralı qoysun. Quş quşluğuyla, bir gözü açıq yatır. O ki biz olaq.

Veysəl süfrəyə əyləşdi. Pəri onlara çay süzdü. Araya yuxa, qatıq qoyuldu. Bir müddət heç biri dinmədi. Ər və arvad Məhəmmədin sakit sifətinə baxdıqca içəridən çəkir, təşvişə düşdüklərini üzə vurmurdular. Qorodovoylar hər bir dəqiqə bənd-bərəni kəsərək Məhəmmədin dalınca içəri soxula bilərdilər. Veysəlin üzüldüyü özü sarıdan deyil, Məhəmməd üçün idi. Məhəmməd isə eşikdə havanın bozarmasına baxmayaraq, tələsmədən çay horuldadır, söhbət üstünə söhbət qatırdı.

– Təzə nə xəbər var, Veysəl kişi? – deyə Məhəmməd sözünü əsl məqsəd üstünə gətirib çıxartdı. – Eşitdim ki, Çardaxlardan iki nəfər dustaq gətiriblər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Veysəl sınayıcı nəzərlərlə altdan-yuxarı Məhəmmədi süzdü:

– Qulağına, deyəsən, söz dəyib, hə? Nə eşitmisən ki?

– Guya, mənim yerimi bilirlər.

Veysəl sinə dolusu nəfəs alıb, başı ilə onun sözlərini təsdiq etdi:

– Elədir ki var, düz eşitmisən. Arvad-uşaqları da, iki gündür, köç-külfətlə düşüb qalıblar, divanxananın qapısında...

Məhəmmədin sakit sifətində indi gərgin bir ifadə vardı. Qaşları çatılmışdı.

– Pristavın fikri nədir? Nə eləmək istəyir?

Veysəl stəkanı horuldadıb bir qurtuma içdi. Əlini bığlarına çəkərək laqeydliklə:

– Guya, iki-üç gün burada saxlayandan sonra Lagedaxa göndərəcəklər, – dedi. – Yazıqların bir çətən uşağı var... ayaqyalın, başıaçıq...

Məhəmməd fikrə getdi. His çəkmiş pərdənin dalında, pəncərənin qırıq şüşələri xeyli bozarmışdı. Məhəmməd bunu görən kimi ayağa qalxdı. Başlığın uclarını yenə də ağzının üstündən çiyninə atdı. Papağını aşağı endirib, tüfəngini küncdən götürdü.

– Salamat qalın!

Veysəl onu qapıdan yola salanda yenə də xəbərdarlıq elədi:

– Ehtiyatını gözlə ha! Qoşunun yarısı evlərdə yerləşib.

– Qaya uçan günü toz qopar, Veysəl kişi, – deyə Məhəmməd həyətdə atın belinə sıçradı.

O, gözdən itənədək Veysəl kişi qapıda gözlədi.

## VI fəsil

Pristav Kukiyevin kefi o gün səhərdən heç durulmadı. Pristavlıqda da, evdə də nə bir kəlmə dinib-danışdı, nə də qaşqabağı açıldı. Hamıya, əlbəttə, birinci növbədə qorodovoylara yerli-yersiz çımxırdı! Öz-özünə mızıldana-mızıldana, otaqda, eşikdə vurnuxdu; süst və yorğun halda divanın üstünə düşüb, dünyanın işindən bezmiş adamlar kimi, məzlum bir görkəm alaraq qaradinməz oturdu. Ərinin bu vəziyyətinə Tamara Danilovna ürəyində acıdı: "Yenə də malxulyası tutub" deyə özlüyündə pıçıldadı. Pristavın xasiyyətinə yaxşı bələd olduğu üçün, ağzından artıq-əskik bir söz çıxarmırdı. Hətta onun uzandığı otağa pəncələri üstə daxil olaraq, ölü kimi hərəkətsiz düşmüş ərinin yanında səssizcə oturdu, sonra da qalxıb bayıra çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kukiyev çox tez-tez belə hala düşürdü. Doktorlar onu müalicə etməkdə aciz qalmışdılar – dava-dərman kömək etmirdi. "Bu, müalicəolunmaz malxulya xəstəliyidir. Narahat olmayın, öz dövranını sürüb gedəcək!" deyə hamı bir ağızdan Tamara Danilovnaya təsəlli verirdi. Yayda Zaqatalada yaşayan qoca anasını yoluxmağa gəlmiş erməni bir doktor isə Tamara Danilovnaya demişdi ki, belə xəstəlik, çox içənlərdə olur. "Əgər içməyi ona tərgidə bilsəniz, tezliklə sağalar". Lakin Kukiyevi içkidən əl çəkməyə məcbur etmək mümkündümü? Buna görə də Tamara Danilovna bu hörmətli doktorun sözlərinə əhəmiyyət verməmişdi. Əlindən ancaq o gəlirdi ki, birgə iştirak etdikləri məclislərdə onun ətəyini stolun altından tez-tez dartışdırıb həddini aşmağa qoymasın. Onsuz keçirilən məclislərdə isə pristav cənabları istisnasız olaraq həmişə qorodovoyların müşayiəti ilə keflənmiş halda evə qayıdardı. Danlamaqdan, eyham vurmaqdan Tamara Danilovnanın canı boğazına yığılmışdı – daha heç nəyə həvəsi gəlmirdi. Ərinin malxulyaçılığı tutduğu dəqiqələrdə, ancaq sakitcə oturub məlul baxışlarla ona baxırdı.

Tamara Danilovnanı narahat edən pristavın fanatizmi idi. O öz xəstəliyi haqqında az qala bütöv və çox qüssəli fəlsəfi bir sistem yaratmışdı və bunun haqqında Tamara Danilovna o qədər danışmışdı ki, indi ərinin xəstəliyə tutulduğu saatlarda üz verə biləcək bədbəxtlik qarşısında o da qorxuya düşməyə başlayırdı. Pristavın öz fikrincə, bu azara tutulması ona nə isə bir bədbəxtlik, ya da xoşagəlməz bir hadisə üz verəcəyini bildirir, guya o bunu dəfələrlə sınaqdan çıxarmışdır; kiçik, ya böyük olsun, fərqi yoxdur, hər halda demək bir hadisə üz verəcəkdir.

Tamara Danilovna qabaqlarda ərinin ağzından eşitdiyi bu sözləri demək olar ki, qulaqardına vurardı və hətta onun axmaq fikrə düşdüyünə xısın-xısın gülərdi də. Ancaq sonralar gördü ki, yox, burada doğrudan da nə isə bir sirr var... Özü şahidi olmuşdu ki, ərinin tutması gələndən beş-altı saat sonra onların evində mütləq narazılıq və ya savaşma baş verir. Bir-iki dəfə buna şahid olduqdan sonra, ərinin tutması başlayan kimi ondan qabaq öz bədənini vahimə bürüyürdü; qorxudan heç bir şeyə əl vurmaq, qonaq qəbul etmək, ya da gəzintiyə çıxmaq istəmirdi. Bütün günü hər şeydən imtina edirdi. Evin qulluqçuları xanımın da ərinin xəstəliyinə tutulduğunu güman edirdilər. Buna görə səhər ertə, xanımdan nə bişirməyi də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

soruşmadan bazar tədarükünü özləri görür, ev-eşiyi sahmana salırdılar.

Lakin axşamadək heç bir hadisə üz vermədi. Tamara Danilovna günün belə salamatlıqla başa vurulması üçün yataq otağında neçə dəfə diz çökərək xaç vurdu; ərinin də, özünün də kefi açıldı. Sanki bütün evdəkilərin oynadığı qaradinməz oyun, beləliklə, qurtardı. O gün axşam, qonaqları da gəldi. Süfrənin üstünə, hətta içki də gətirildi. Tamara Danilovna sevincindən ərinə iki kiçik badə araq içməyə də qadağan etmədi...

* * *

Qonaqlar gecədən xeyli ötmüş getdilər. Tamara Danilovna elə yorulmuşdu ki, süfrənin yığışdırılmasını belə gözləyə bilmədi. Yataqları açmağı tapşırdı. Xidmətçi qadın süfrəni eləcə qoyaraq tez yataq otağını sahmana salmağa getdi.Pristav da bu axşam müti bir uşaq kimi, arvadının heç bir sözünə etiraz etmədi. Onların qoşa qoyulmuş çarpayılarına uzanmaları ilə yuxuya getmələri bir o qədər çəkmədi. Bir azdan pristavın nəfəsli orkestri andıran xorultusu eşidildi və oradan bütün otaqlara yayıldı; açıq pəncərədən, hətta həyətə də keçərək, qapıda keşik çəkən qorodovoyun qulağına çatdı. Keşikçi bunu gözləyirmiş kimi, qılıncını dizlərinin üstünə uzadıb mürgü vurmağa başladı.

Gecəyarısı, Tamara Danilovna birdən dik atılıb durdu. Yuxunun içində ona elə gəldi ki, kim isə pəncərədən içəri tullandı. Ürəyi şiddətlə döyündü. Pristav isə hələ də "musiqisini" çalırdı. Tamara Danilovnanın ürəyi sakit olmurdu. Ərini silkələdi:

– Kolya... Kolya!

Pristav zorla gözlərini açdı. Arvadının yatağın içində oturub, gözləri bərəlmiş halda pəncərəyə tərəf baxdığını gördükdə, xorultu vurmaqdan tutulmuş səsi ilə soruşdu:

– Nə olub, nə üçün yatmırsan?

Tamara Danilovnanın bədəni əsim-əsim əsirdi:

– Kolya, yuxuda gördüm ki, pəncərədən evə adam tullandı... Görürsənmi, pərdə də tərpənir...

Pristav gözlərini ovxalayıb baxdı. Pərdə doğrudan da, ehmalca tərpənirdi. Lakin gözünə şübhəli heç bir şey dəymədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yat, canım, pərdə küləkdən də tərpənə bilər. Görmürsən, ağacların başı əsir?!

Əslində isə açıq pəncərədən görünən çinarların başı sakitcə durmuşdu. Bayırda tük belə tərpənmirdi. Bunu o, arvadını ancaq sakitləşdirmək məqsədilə dedi və inandırdı ki, doğrudan da, ağacın lap kəlləsindəki xırdaca budaqlar yavaşcadan yırğalanır.

– Uzan, uzan! Xaç vur, keçib gedər, səni qara basıb.

O, arvadının çılpaq, ətli qolundan tutub yatağa uzandırdı, açıq qalmış qabarıq ağ sinəsindən öpdü, başını tumarladı. Bir o qədər çəkmədi ki, otağı yenə də onun xorultusu doldurdu.

Tamara Danilovnanın gözləri yumulsa da, özü yuxuya gedə bilmədi. Ona elə gəlirdi ki, otaqda kim isə pəncəsi üstə gəzişir. Arabir dayanıb qulaq asır, ora-buranı axtarır. Budur, o, çarpayılara yaxınlaşır. Tamara qorxusundan nə gözlərini aça bilir, nə də xoruldayan ərini oyada bilir... Bir-iki addım aralıda, o, kiminsə nəfəs aldığını lap aydınca eşitdi. Daha dözə bilmədi; gözlərini açdı. Elə çığırdı ki, pristav sərasimə yerindən atılıb durdu. Çarpayının yanında ucaboylu, əli tapançalı bir adamın durduğunu gördükdə dili dolaşdı və kəkələməyə başladı:

– Ki-ki-ki... kimdir?

Papağını gözünün üstünə basmış yad adam, tapançanı düz onun ürəyinə tuşlamışdı. Tamara Danilovna yenə də çığırmaq istəyəndə yad adam mülayim bir tərzdə onu sakitləşdirməyə başladı:

– Xanım, heç narahat olmayın, sizinlə işim yoxdur. Qalxın, o biri otağa keçin. Ancaq tez!

O bunu deyib qadının yarımçılpaq bədənini görməmək üçün üzünü yana çevirdi. Tamara Danilovna isə ləngiyirdi. Bu dəfə yad adamın hədəli səsi eşidildi:

– Xanım, dedim axı tez olun!

Təkcə gecəköynəyində olan Tamara Danilovna əlləri ilə sinəsini örtərək, ağ yalın ayaqlarını döşəmənin üstündə tappıldada-tappıldada o biri otağa qaçdı. O gedəndən sonra yad adam üzünü pristavın yatdığı çarpayıya tərəf çevirdi:

– Hə, indi danışa bilərik! – dedi.

Qorxudan pristavın dili-dodağı qurumuşdu. Çənəsi yerində qərar tutmurdu.

– Ki-ki-ki... kimsən? – deyə yenə kəkələdi.

– Darıxma, bu saat bilərsən. Durun geyinin...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pristav yatağından qalxıb, uzun xalatını çiyninə saldı və gözünü tapançadan ayırmadan alaqaranlıqda ayaqqabılarını axtarıb tapdı. Yad adam dedi:

– Hə, mənim kim olduğumu bilmək istəyirdiniz. İndi deyə bilərəm. – O, gözlərinin üstünədək çəkdiyi iri, qıllı papağını yuxarı qaldırdı. Tük basmış üzü bütövlükdə aşkarda qaldı. – İndi tanıdınızmı?

Pristavın gözləri kəlləsinə çıxdı:

– Məhəmməd?!

– Özüdür ki var... Ancaq deyəsən heç gözləmirdiniz?.. – Məhəmməd qabağa gəldi. Pristav qorxusundan geri çəkilərək divara dayandı. – Qorxma, sizin murdar cəmdəyinizdən ötrü özümü qana salmayacağam... qulağıma çatdı ki, siz mənim yerimi öyrənmək istəyirsiniz. Ona görə də sizi gecənin yarısında narahat elədim... Özünüz bilirsiniz ki, qaçaq ancaq gecələr gələ bilər.

Pristav bığlarını əsdirdi.

– Sənə nə lazımdır?

Məhəmməd papağını bir az da peysərinə tərəf itələdi. Geniş alnı alaqaranlıq otaqda ağardı. Tüklü üzündə təbəssüm oynadı.

– Gərək ki, mən sizə lazımam. Ona görə də gəlmişəm. Pristavın titrəməsi hələ də kəsilməmişdi. Durduğu yerdə ayaqları hey əsirdi.

– Ba... ba... başa düşmürəm... Sənə nə... nə lazımdır?

– Heç tələsməyin, cənab pristav. – Məhəmməd əli ilə onu sakitləşdirdi. – Bu saat hamısını biləcəksiniz. Deyiniz görüm, çardaxlıları niyə dustaq saxlayırsınız? Mənim yerimi bildiklərindən ötrü? Budur, mən öz əl-ayağımla gəlmişəm. Cənab pristav, təvəqqe edirəm, onları açıb buraxınız. Yazıqların heç bir günahı yoxdur. Mənim yerimi də bilə bilməzlər. Nə sözünüz var özümə deyin. – Məhəmməd tapançası ilə stola tərəf işarə elədi. – Əyləşin, qələmi götürün!

Pristav sözünü itirmiş halda dinməz-söyləməz stolun arxasında oturdu. Titrəyən əlləri ilə stolun üstündə lap gözünün qabağında olan qələmi nə qədər axtardısa, tapa bilmədi. Məhəmməd gülümsəyib əlini uzatdı və qələmi qaldırıb ona verdi:

– Buyurun, dedi, – indi yazın. – Məhəmməd tapançanın lüləsi ilə papağını bir az da geriyə, peysərinə tərəf ataraq fikrə getdi. – Hə, yazın ki, çardaxlıların heç bir günahı yoxdur, onları qarasına tutublar. Tez qazamatdan buraxsınlar... aşağısında qol qoyun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pristav Məhəmmədin dedilklərini əli əsə-əsə qeyri-ixtiyari yazıb qələmi yerə qoydu. Məhəmməd kağızı əlinə alıb, pəncərədən bayıra boylandı. Başı ilə kiməsə işarə etdikdən sonra təkrar pristavın yanına qayıtdı. Bu zaman iki nəfər qaçaq, əli-qolu bağlanmış, ağzına yaylıq dürtülmüş bir qorodovoyu içəri gətirdi. Məhəmməd yaylığı onun ağzından çıxarıb, əlindəki kağızı gözlərinin qabağına tutdu:

– Oxu, bərkdən, biz də eşidək.

Qorodovoy əlindən günah iş çıxmış adam kimi, pristava baxdı. Məhəmməd onun ləngidiyini görüb, tapançanın lüləsini gicgahına tuşladı:

– Cəld ol!

Qorodovoy Məhəmmədin əlində saxladığı kağızda yazılanları höccələyə-höccələyə oxumağa başladı. "Çardaxlardan tutulub gətirilmiş dustaqları təcili azad edin."

Qorodovoy susdu və gözlərini yenə də pristava zillədi.

– Bəs, sonra nə yazılıb?

Qorodovoy qorxa-qorxa:

– Daha heç bir şey yazılmayıb – dedi. – Altdan cənab pristavın qolu var. Məhəmməd kağızı büküb qorodovoyun cibinə dürtdü:

– Başa düşdün? İndi get. Pristav cənabının əmrini yerinə yetir. Çardaxlıları tez açıb burax! Başa düşdün?!

– Başa düşdüm.

Məhəmməd öz adamlarına işarə elədi. Qaçaqlar qorodovoyu qabaqlarına salıb apardılar. Otağa sakitlik çökdü. Yan otaqda pristavın arvadı içini çəkə-çəkə yavaşdan ağlayırdı. Pristavın isə oturduğu yerdən qalxmağa taqəti qalmamışdı. Məhəmməd bir az da gözlədikdən sonra tapançasını pristava tərəf tuşladığı halda pəncərəyə tərəf geri çəkildi:

– Qorodovoy qayıtmayınca tərpənməyəcəksən, cənab pristav! – dedi. Qapıda adamlarım gözləyir. Səsiniz çıxan kimi öz bəxtinizdən küsün. Güllənin imanı yoxdur, deyərlər, hər dəqiqə açıla bilər. – Məhəmməd pəncərəyə sıçradı. – Yenə də deyirəm, əgər onları təzədən həbsə almaq fikrinə düşsəniz, özünüzü həmin gecə ölmüş biliniz! – Məhəmməd sinəsinədək pəncərədən bayıra sallandı, lakin pristav bir də xəbərdarlıq etmək və axırıncı sözlərini demək üçün içəriyə tərəf qanrıldı. – Mənim də yerimi daha axtarmayın, cənab



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

pristav. Deyirlər ki, yuvası dağılmış quşun ikinci yuvası olmaz. O hər dəfə bir yuvada gecələyər. Gecəniz xeyrə qalsın...

Məhəmməd pəncərənin qabağında bitmiş gövdəli çinarın budağından yapışıb bir göz qırpımında aşağı sürüşdü. Ağac bərk silkələndi və sonra yenə əvvəlki sakit vəziyyətini aldı.

Pristav hələ də quruyub qalmışdı. Yan otaqdan arvadı Tamaranın iniltisi eşidilirdi. Lakin onda arvadını ovutmaq, ürəyini almaq üçün taqət qalmamışdı. Bir azdan Tamaranın səsi tamam kəsildi. Pristav onun divanının üstündə üzüqoylu yuxuya getdiyini güman elədi. Daha da ağırlaşıb daşa dönmüş bədənini zorla oturduğu yerdən qaldırdı, o biri otağa keçmək istəyəndə, Tamara yarımçılpaq halda qapıda göründü, gecəköynəyinin geniş yaxasını əli ilə ikiyə parçaladığından dolu, ətli bədəni sinəsindən xeyli aşağıyadək aşkarda qalmışdı. Otağı diqqətlə süzdü, ərindən başqa heç kimin olmadığını yəqin etdikdə, birdən hikkə ilə çığırıb üzüüstə yatağa yıxıldı. Başı çiynində durmurdu, yumşaq balışın üstündə yırğalandıqca, gur saçları yelpik kimi gah üzünə, boynuna, gah da yarıçılpaq bədəninə sərilirdi.

– Vay!.. Mən sənə dedim axı malxulyan belə qalmaz. Demə görəcək günlərimiz varmış!.. Vay!.. Dizlərim əsir, ürəyim elə bir yerindən qopacaq... sənin malxulyan gör bir başımıza nə oyunlar açdı?!

Tamara çarpayının üstündə sudan çıxmış balıq kimi çapalayırdı. Pristav isə elə bil sehrlənmişdi. Nə edəcəyini bilmirdi. Gözünün qabağında arvadı paltarını parça-parça edib yerə tökdü, sonra yenə qəşş edib hərəkətsiz halda çarpayının üstünə sərildi. Pristav ancaq bu zaman qüvvət toplayıb yerindən qalxdı, çarpayıya yaxınlaşıb hər şeydən qabaq, nazik adyalla arvadının çılpaq bədənini örtdü...

* * *

Sübh tezdən altıncı və yeddinci rotaların piyadaları və soldat-matrosları şalvarlarını dizədək çırmalayaraq, Tala çayının nisbətən dayaz yerində döşəküzlərini yumaqla məşğul idilər. Çay öz suyunu dağlardan aldığı üçün, bahar səhərində soldatların çılpaq ayaqlarına iynə kimi sancılaraq gizildədirdi.

Onlardan bir az aralıda – təpənin üstündə bayaqdan bəri iki nəfər yerli oturmuşdu. Bondarçuk dikəlib belinin ağrısını almaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istədikdə, oturanlardan birinin qolunu oynadaraq ona tərəf işarə etdiyini gördü. Viktor əvvəlcə onun hərəkətindən heç bir şey başa düşmədi, bunu yerlilər tərəfindən soldatlara qarşı adi bir maraq sayıb, yenə də öz işinə məşğul oldu. Onun böyründəcə öz patavalarını yuyan Vasya Romanov dikəlib, sübh dumanı içindən baş vurub çıxan və başı hələ də qardan təmizlənməmiş dağlara baxmaq istərkən, təpənin üstündən oturan adamların qəribə işarələrlə onlara nə isə demək istədiklərini gördü. Bir an gözlərini qıyaraq diqqətlə baxdısa da, işarələrdən heç nə anlamadı. Bondarçuku dümsüklədi:

– Viktor, Viktor, bir təpənin üstünə bax! Bizə görünür nə isə demək istəyirlər... ancaq heç bir şey başa düşmürəm.

Bondarçuk əlindəki döşəküzünü sıxaraq çəpəki təpənin üstündəkilərə tərəf baxdı. Təpədə oturanların hər ikisi əllərini qorxa-qorxa onlara tərəf yelləyirdi. Bondarçuk ətrafına baxındı. Onlardan başqa, soldatlardan heç biri, görünür ki, təpənin üstündəkiləri sezə bilməmişdi – hamı öz işinə məşğuldu. Bondarçuk əyilib yavaşcadan Romanovun qulağına pıçıldadı:

– Bizi çağırırlar... İnadla çağırmalarından görünür ki, nə isə vacib bir iş var. Vasya, mən buradan aralansam hamının diqqətini cəlb edəcəyəm. Sənə fikir verən olmaz. Gəl bir bəhanə ilə onlara tərəf get. Yaxşı olar ki, ciblərini axtar, maxorkanın qurtardığını hündürdən xəbər ver. Sonra da guya papiros eşmək üçün onlara tərəf get.

Romanov Bondarçukun dediyi kimi də elədi. Yaş əllərini dizlərinə silərək ciblərini axtardı, maxorka kisəsini çıxarıb bir neçə dəfə o yan bu yana baxdı və təəssüflə əllərini yanına çırpdı. Bərkdən öz-özünə mızıldandı:

– Zəhrimar da qurtarıbdır ki... yaman da çəkmək istəyirəm, nə eləyim, hə? – deyə o, bir an fikrə getdi, üz-gözünü turşudub boynunun ardını qaşıdı və birdən qolunu yanına çırpıb gülümsədi. – Eh, gedib onlardan tütün istəyəcəyəm, nə olar ki? Yaxşı adamlardır. Çox xoşuma gəlirlər. Nə istəsən, canla-başla hazırdılar. Tütün istəmək, yəni bir əskiklikdir?.. Buraların tütünü çox əla olur.

Bu sözləri deyən Vasya balaqlarını dizinəcən çırmadı və dizlərini hündürdən qaldıra-qaldıra çayın ortasına tərəf irəlilədi. Soldatlardan kimsə onun dalınca çığırdı:

– Vasya, bir az çox al. Mənimki də qurtarıb, görək də şücaətini. – Romanov geriyə qanrılıb əlini qaldırdı və bununla, onun üçün də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tütün alıb gətirəcəyini bildirmək istədi, sonra yenə suyu şappıldadaraq yoluna davam etdi.

Hamı gözlərini ondan çəkib öz işinə məşğul oldu. Təkcə Bondarçuk çayın o biri sahilini, təpənin üstündə oturanları və artıq onlara yaxınlaşmaqda olan Romanovu gözdən qoymurdu. Budur, Romanov onlara yaxınlaşdı. Ancaq açıq sezdi ki, onların arasında söhbət uzun sürmədi. Romanov onlardan tütün alan kimi tələsik geri döndü.

Soldat yoldaşları Romanovun qayıtdığını görən kimi səsləndilər:

– Hə, bizə də gətirdinmi?

– Bəs mənim payım.

– Ver görək!..

– Yox, qardaş, – deyə Vasya donquldandı. – Görünür ki, səxavətlisinə rast gəlməmişəm. Bircə eşimdən artıq vermədi. Dedi ki, kimin ürəyi çəkirsə özü gəlsin. – O, ovcundakı tütünü qəzet parçasına eşib dodağına qoydu. Bondarçuka yaxınlaşdı, yavaşcadan, *yalnız onun* eşitməsi üçün pıçıldadı: – Səni çağırırlar. Birisi Usub adlı yerli dərzidir. Sənə deyəsi sözü var. Özünü onun yanına ver.

Usubun adını eşidən Bondarçukun qaşları çatıldı. "Yəqin mühüm bir iş baş verib. Yoxsa qoca sübhün gözü açılmamış buranı kəsdirib oturmazdı" deyə fikirləşdi və təpədə oturanların yanına getmək üçün bəhanə axtardı. Öz dostuna hirslənibmiş kimi ona hündürdən danlaq vurmağa başladı:

– Sən elə adamyarıtmazsan. Gönünü dabbağxanadan tanıyıram. Deyəydin ki, yoldaşım üçün də bir eşməlik tütün verin – verərdilər. Müsəlmanlar yaxşı deyib ki, Peyğəmbər də öz canına dua eləyib. Əlbəttə, özünü qoyub mənə ağlamayacaqdın ki! Nə olar, biz də günümüzə ağlarıq.

Bondarçuk yuyub sıxdığı döşəküzünü *sahildəki quru* çay daşlarının üstünə tulladı, qollarını ölçərək çayın o biri sahilinə tərəf yol aldı.

Təpənin üstündə oturanlardan biri, doğrudan da, dərzi Usub idi. Tanımadığı ikinci nəfər isə dərzinin oğlu yerində, sir-sifətdən elə özünə oxşayan cavan, qarayanız, qıyıq gözlü bir oğlandı. Bondarçuk yaxınlaşan kimi dərzi çayın içərisində duranlar görsün deyə, cibindən qırmızı çitdən olan tütün kisəsini çıxartdı və onu nümayişkaranə surətdə Viktora uzatdı.

– Buyurun... Tiflisdən təzə ədəbiyyat alınmışdır. Gəlib apara bilərsiniz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Viktor tütünü kağız arasına töküb eşə-eşə soruşdu:

– Sizin dükana?

– Yox.

– Nə üçün?

– Dünən sizin iki zabitiniz gəlmişdi. Özlərinə təzə frenç tikdirmək istəyirdilər. Bu gün gələcəklər. Bəlkə də sabah gəldilər, bilmək olmaz. Saatını demədikləri üçün dükana gəlməyi məsləhət bilmirəm.

– Bəs haranı məsləhət bilirsiniz?

Usub fikrə getdi. Bondarçuk gözaltı çaydakılara tərəf nəzər saldı, hərə öz işində idi, elə bil Bondarçukun buraya tütün üçün gəldiyini tamam unutmuşdular.

– Axşam meyxanada versək necə olar? – deyə dərzi çənəsini ovuşduraraq qayğılı bir tərzdə soruşdu. – Heç kəsin ağlına gəlməz ki, oraya siz ədəbiyyat almağa gəlmişsiniz. Meyxanaya məlumdur ki, hamı keflənmək üçün gedir.

Dərzinin dediyi görüş yerinə Bondarçuk birdən-birə razılıq verə bilmədi. Əvvəla, axşam vaxtı adi bir soldatın meyxanaya getməsi, orada yerlilərlə birlikdə bir stol dalında əyləşməsi o qədər də asan görüləsi iş deyildi. O biri tərəfdən, axşam vaxtı qışlaya gətirilən vərəqələri hamının gözü qabağında harada və nə cür gizlətmək olardı? Başqa yer də bilmirdi. Çarəsizlikdən razılaşmağa məcbur oldu.

– Vaxtına deyin.

– Axşam, hava qaralanda. Ancaq mən özüm gələ bilməyəcəyəm. Hamı bilir ki, bu yaşımadək dilimə məşrubatdan bir gilə də dəyməyib. Oğlum gələcək. – O, yanında oturmuş qıyıqgöz oğlana tərəf işarə elədi, oğlan gülümsədi, onun qıyıq gözləri daha da qıyıldı və sanki qaşlarının altında qara bir xəttə çevrilib görünməz oldu. Saf, ağ dişləri sapa düzülmüş sədəf kimi ağzında parıldadı.

– Meyxananın dib otağında oturarsınız! – deyə cavan da çəkingən bir tərzdə dilləndi, – ora həmişə xəlvət olur.

Bondarçuk papirosu eşib qurtardıqdan sonra damağına qoydu və əlini cibinə salıb kibrit qutusu axtardı. Cavan oğlan tez onu qabaqlayıb kibritini yandırdı və Viktorun papirosuna tərəf uzatdı. Bondarçuk papirosunu yandırıb, tüstünü ağız dolusu sinəsinə çəkdi.

– Məndən qabaq sizin yanınıza gəlmiş soldatı görsəniz, yəqin ki, tanıyarsınız? – deyə Viktor oğlana müraciət etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğlunun yerinə Usub cavab verdi:

– Əlbəttə, tanıyar... Nə üçün soruşursunuz?

– Vərəqələrin dalınca o gələcəkdir. Ancaq elə eləyin ki, o, meyxanada çox ləngiməsin. Bu saat patrullar göz verib, işıq vermirlər.

Oğlan yenə gülümsəyib Viktorun sözlərini başı ilə təsdiq etdi.

Bondarçuk ayrılıb geri dönmək istədikdə Usub onu saxladı.

– Bizim bu Fərman tək olmayacaq. Arşak da onunla gələcəkdir. Yəqin ki, onu tanıyırsınız. Dükanda görüşdüyünüz qarayanız erməni balası.

– Tanıyıram, – deyə Bondarçuk onlardan ayrılıb yoldaşlarının yanına qayıtdı.

Dağların dalından iki adam boyu qalxmış günün şüalarından çayın suyu şəfəq çalırdı. Şıltaq uşaqlar kimi bir-birini qovlayan ləpələr batıb-qalxır, qıvrılıb açılırdı. Onlar qabardıqda, günün şüasından parıldaşır və bu zaman adama elə gəlirdi ki, kiçik şamayı balığı belini bir anlığa göstərib yenə suya baş vurur.

Soldatlar paltar yumağı qurtarıb getməyə hazırlaşırdılar. Bondarçuk Romanov tərəfə əyildi:

– Qrişa, o qocanın yanında oturmuş cavanın sifəti yadında qalarmı?

Romanov təəccüblə dönüb Bondarçuka baxdı.

– Qalar, əlbəttə, qalar. Nə üçün?

Bondarçuk ağzını açıb cavab vermək istəyirdi ki, feldfebelin səsi eşidildi.

– Vzvodlar sıraya düzül!

Soldatlar yuduqları döşəküzlərini, alt pal-paltarlarını tələsik bürmələyib sudan çıxdılar.

Bondarçuk:

– Bu axşam sən meyxanaya getməlisən. Orada həmin oğlan sənə Tiflisdən yeni gətirilmiş vərəqələri verəcəkdir.

Romanov təəccüblə soruşdu:

– Mən?

– Bəli, sən.

Feldfebelin səsi təkrar eşidildikdə, Viktor Romanovu tələsdirdi.

– Gedək, yolda danışarıq.

Romanov qıraqda kələ-kötür çay daşlarının üstünə sərilmiş pal-paltarı yığışdıranda, onlardan xeyli aralıda səssiz-səmirsiz paltar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yuyan arvadlar tərəfə döndükdə çadraya bürünmüş bir qadının ayaqları dolaşa-dolaşa onlara tərəf qaçdığını gördülər. Qadının ardınca qara saqqalı bir kişi əlindəki əsasını qolaylayaraq onu qovurdu. O biri qadınlar da işlərini buraxmış, çığırışaraq kişinin dalınca qaçırdılar. Arabir qarasaqqal kişi hirsli-hirsli deyirdi:

– Köpəyin qızı, çənəm yoruldu sənə deməkdən... Gözdən qoyan kimi yayınırsan. Özü də bu qədər urusun içinə! Sənin gərək bu dəfə gözlərini oyub tökəm ki, astanadan eşiyə qədəm qoymayasan.

Qadın Bondarçukla Romanovun durduğu yerə – yumşaq qumsallıq sahilə yaxınlaşanda, iri qarnı motal kimi yırğalanan kişi özünü arxadan ona çatdırdı, əlini uzadıb qadının çadrasından yapışdı və onu özünə tərəf dartdı. Çadra havada yelkən kimi açılıb kişinin əlində qaldı. Başı açılmış qadın çaşbaş olub qaldı və utandığından yerə oturub əlləri ilə üzünü örtdü. Qırmızı, şiş yanaqlı kişi əlindəki ağacı başına endirmək istərkən, Bondarçuk yüyürüb daldan onun qolundan möhkəm yapışdı. Əsanı kişinin əlindən alıb uzağa tulladı.

– Siz nə edirsiniz?! Bu ki, vəhşilikdir!

Bondarçuk onun qolunu hələ də havada möhkəm sıxaraq buraxmırdı. Kişinin bərəlmiş gözləri qəzəblə Viktora dikildi. Qara saqqalı içərisində itib batan dodaqları əsdi, həyəcanından udquna-udquna pozuq rus dilində kəkələndi:

– Burax, urus, bu mənim arvadımdır. Evdən qaçıb. Əlimi burax...

Bondarçuk qeyri-ixtiyari olaraq onun qolunu buraxdı. Kişi tərs-tərs Viktora baxıb, burnunun altında nə isə mızıldandı, sonra əyilib içini çəkə-çəkə ağlayan arvadının qolundan tutdu və onu yerdən qaldırmağa çalışdı.

– Dur deyirəm, köpəyin qızı! Sifətini uruslara göstərmək istəyirdin, axır ki, arzuna çatdın, hə? Sənin kimilərin gözünə dağ basılmalıdır ki, naməhrəm üzünə sataşmasın!

Qadın yumruqları ilə gözünün yaşını silib məsum və günahsız baxışlarla ərinə tərəf döndü. Bu zaman Bondarçuk bir anlığa onun qorxu və həyəcanla dolu iri, ürkək, qara gözlərini, göz yaşından islanmış çəhrayı dodaqlarını və cavanlıq təravəti ilə şölə saçan şəffaf yanaqlarını gördü.

O, Qafqaza gəldiyi gündən ilk dəfə idi ki, belə gözəl, belə təravətli bir qadınla rastlaşırdı. Belə gözlərə, daha doğrusu, bu cür gözlərin təsvirinə o, ancaq ilk gənclik illərində – Hindistan haqqında



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oxuduğu nağıl və kitablarda rast gəlmişdi. Budur, indi şərq gözəllərinə məxsus bu füsunkar parıltılı gözlər onun qarşısında pırıl-pırıl baxır, bəlkə də, bir ulduz kimi yanırdı. Bu gözlər, qorxudulmuş bir uşaq gözləritək məsum və cazibəli idi.

Bondarçuk sanki sehrlənmişdi. Onun belə heyran-heyran baxdığını görən kişi yerə sərilmiş çadranı qaldırıb arvadının başına atdı. Bu zaman Viktor gənc qadının yalvarıcı baxışlarla ona nəzər saldığını sezdi. Lakin bu bir an, ancaq bir an oldu. Başına tullanan güllü çadra havada qanad çalıb Cənub gözəlinin məftunedici gözlərini ondan həmişəlik gizlətdi.

Kişi arvadının qolundan dartıb dalınca sürüyə-sürüyə apardı.

– Həyasız qızı! Axır ki, uruslara da üzünü göstərdin... – deyə o, hələ də mırıldanırdı.

Çığıra-çığıra yüyürüb gəlmiş, indi də yaxınlaşmağa qorxan o biri arvadlar soldatların köməyə çatdığını görüb susdular. İçərilərindən ən cəsarətlisi qabağa çıxıb, üzünü açmadan dilləndi:

– Başına dönüm, ay Hacı Xeyri, o yazığın günahı yoxdur... Biz onu gətirdik. Hacı onun üstünə çımxırdı və arvadını dalınca çəkib apardı.

Feldfebelin hədəli səsi bu dəfə daha hündürdən eşidildi. Bondarçukla Romanov tez sıraya düzülmüş vzvoda tərəf getdi. Vzvod sahildən uzaqlaşarkən Bondarçuk bir də dönüb geriyə baxdı. Kişi, arvadının əlini hələ də buraxmamışdı, onu darta-darta aparırdı.

## VII fəsil

Qriqori Romanov Aqvanın meyxanasına gəldikdə, tavandan bulud kimi sallanıb duran papiros tüstüsündən, əvvəlcə heç bir şey seçə bilmədi. Meyxanaya elə bil boz duman çökmüşdü. Kefli səslər bir-birinə qarışaraq, iki otaqdan ibarət meyxanaya elə bir uğultu salmışdı ki, içəri girənin başı çarx kimi hərlənirdi. Lap başda – piştaxtanın dalında duran Aqvanın piyli bədəni bu qarma-qarışıqlıq içində aydınca seçilirdi.

Qriqori bir-birinin böyrünə sıxılıb oturmuş adamların arasından ötərək o biri – dib otağa tərəf getdi. Xoşbəxtlikdən oturanlardan heç kim ona fikir vermədi. İçki hamının başını nehrə kimi çalxalayıb dumanlandırmışdı. Dib otaq, ona deyildiyi kimi doğrudan da, xəlvət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

idi. Stollardan yalnız üçünün dalında adam oturmuşdu. Burada papiros da nisbətən az çəkildiyindən müştəriləri bir-birindən ayırd eləmək çətin deyildi. Qriqori ətrafına ötəri nəzər salıb, axtardığı adamı görmədi. Kənarda boş stollardan birinin dalında oturdu. O biri otaqdan içəri dolan uğultu, yan-yörəsində oturan adamların da söhbətini eşitməyə mane olurdu. Qriqori cibindən tütün çıxarıb papiros eşdi və oğrun baxışlarla, oturanları bir də nəzərdən keçirdi, yəqin elədi ki, bu gün çay qırağında rastlaşdığı qıyıqgöz oğlan onların arasında deyildir. Nəfəs tutulan bu turşulu, rütubətli havada oturub gözləmək lazım gəlirdi.

Qırmızı çit paltarının üstündən kirlənmiş ağ önlük taxmış meyxana xidmətçisi Roza içəri girdi, Qriqorini görən kimi ona yaxınlaşdı. Xidmətçi qadının iri, mavi gözləri qüssəli görünsə də hələ heç bir qırış atmamış girdə sifətinə çox yaraşırdı. Qıvrım saçları, başına bağladığı qırmızı ləçəyin altından orada-burada pırtlayıb kiçik alnına və çılpaq ağ boynuna tökülmüşdü. O, bir anlığa Qriqoriyə baxıb heç bir söz demədi. Gənclik ehtirası ilə parıldayan gözləri xumarlanıb süzüldü. Dodaqlarında ani, lakin çox xoş bir təbəssüm oynadı. Köksünü ötürüb mülayim bir səslə soruşdu:

– Sizə nə lazımdır, cavan oğlan?.. Mən birinci dəfədir ki, buraya soldat gəldiyini görürəm.

Qriqori də istər-istəməz gülümsədi:

– Doğrudanmı?

– Bəli. Zabitləriniz gəlir, soldatları isə görməmişəm. Yəqin ki, sizə icazə vermirlər, eləmi? – Qriqori gülümsəyərək başı ilə onun sözlərini təsdiq etdi. – Özləri isə, gecəyarısınadək oturub kef çəkirlər. Axırda da bizi söyürlər, bəzən də butulkaları yerə çırpmaqdan həzz alırlar. – Roza fərəhli, cingiltili səsi ilə güldü, onun ensiz paltarı ilə sıxılmış gözəl sinəsi qalxıb-düşdü. – Sizi isə qoymurlar... Ona görə qoymurlar ki, paxırları açılar... Bəs siz qorxmursunuz ki, buraya gəlmişsiniz?

Romanov başını buladı:

– Bir adamın ki, başına içki düşdü... qorxunu tamam yadından çıxarır. Zəhrimara qalmış, adamı elə bil ovsunlayır, haraya istəsən sürüyüb aparır – ağına, bozuna baxmadan...

– Cavan oğlan, onu deyim ki, qorxaq adam üçün bunun heç fərqi yoxdur. Nahaq yerə özünüzə ləkə yaxmayın. Araq içmək üçün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dovşanın tazı üstünə cumduğunu eşitməmişəm... ha... ha... – O, ehtiraslı baxışları ilə Qriqorini süzüb bərkdən güldü. – Demək, sizə araq lazımdır?

– Xeyr, bir parç pivə.

Roza dodaqlarını büzdü və çiyinlərini təəccüblə çəkərək uzaqlaşdı. Qriqori onun açıq-saçıq danışığına və dürüst mühakiməsinə heyran qalmışdı. Adi meyxana xidmətçisinin, bəlkə də əxlaqca yüngül bir qadının belə məsələlərdə bu cür düzgün mühakimə yeritməsini o, birinci dəfə idi ki, görürdü. Soldat ürəyində bu gözəl qadının halına acıdı. "Taleyi onu gör haraya sürüyüb gətirmişdir. Vur-tut ikicə kəlmə söhbəti ilə özünü belə sevdirən qadın, yaxşı şəraitə ya da yaxşı bir ərin əlinə düşsəydi, nəcib bir ailənin bəzəyi ola bilməzdimi?!"

Qriqori Odessada qaraçı qızına fal açdırarkən onun dediyi sözləri xatırladı: "Gözəl qadına evlənmə, bütün gözəllər əxlaqsız olurlar!" Bu sözləri təkcə falçı qadın deyil, başqaları da təsdiq edirdilər. Bunda bəlkə də bir həqiqət vardı! Lakin Qriqorini düşündürən başqa şey idi. O, günahı qadınların özündə yox, gözəlliklərində görürdü. Qadının özü yox, gözəlliyi onu əxlaqsızlığa sürükləyir. Bu fikrini bir dəfə rastına çıxmış pozğun bir qadına söylərkən, o bərkdən qəhqəhə çəkərək istehza ilə demişdi: "Bunun fərqi nədir, zavallı çocuq... Qadınlara belə şeylər desən, sənə nifrət edərlər. Bizim kimi qadınlar bil ki, əxlaq nəsihəti verən kişilərdən həmişə uzaq qaçırıq." Qriqorinin başına birdən-birə belə bir fikir gəldi: "Bunun səbəbi nədir ki, ağıllı sözləri çox zaman pozğun qadınlardan eşitmək olur! Onlar özləri ağıllı olduqları halda, bəs nə üçün özlərini əxlaqsızlıqdan çəkindirə bilmirlər?"

Bu suala Qriqori cavab tapa bilmədi. Bu zaman Roza əlində pivə dolu parç içəri girdi. Pivəni stolun üstünə qoydu.

– Cavan oğlan, ancaq ehtiyatlı ol. Sizin patrullar buralara tez-tez baş soxurlar.

Roza bunu deyib uzaqlaşmaq istədikdə Qriqori onu saxlayıb pivənin pulunu verdi. Roza rədd etdi.

– Lazım deyil, bu dəfə mənə qonaq olun.

Qriqori təkid etdikdə Rozanın sifəti ciddi bir ifadə aldı, alnına tərəf atılmış qaşları kiçicik burnunun üstündə çatıldı. Gözləri isə elə bil gülümsəyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Xahiş edirəm, – dedi, – cibinizə qoyun. Siz bizə qonaq gəlmişsiniz.

Romanov daha təkid etmədi. Roza o biri otağa keçdi.

Meyxana xidmətçisinin bu hərəkəti ona çox qəribə, hətta bir az da şübhəli göründü.

Roza yenicə ayrılmışdı ki, iki nəfər içəri girdi. Qriqori onlardan birini dərhal tanıdı: gündüz təpənin üstündə oturmuş oğlandı. Oğlan da Qriqorini tanıdı. Hər ikisi Qriqorinin oturduğu stola yaxınlaşdı. İcazə istəyib oturdular. Dərzi Usubun oğlu ilə gəlmiş Arşak, o yan-bu yana boylandıqdan sonra əli ilə səliqəsiz saçlarını daraqlayıb, yana atdı öz-özünə danışırmış kimi yavaşcadan dedi:

– Vərəqələri stolun altından sizə ötürəcəyəm. Yaxşı olar ki, onları çəkmənizin boğazına dürtəsiniz.

Qriqori başı ilə razılığını bildirdi. Oturanları şübhəyə salmamaq üçün parçı dodaqlarına aparıb yerə qoydu, sonra əlini stolun altına uzatdı. Arşakın hazır tutduğu vərəqələri alıb çəkməsinin enli boğazına dürtdü. Bu əsnada Roza içəri girdi. Qriqori tərəfə ötəri nəzər salıb, sağ tərəfdə oturmuş müştərilərin yanına getdi. Qriqori onu görən kimi əlini çəkdi və oğlanın ikinci dəfə uzatdığı vərəqələr yerə səpələndi. Bu xışıltını Rozadan başqa eşidən olmadı. O, tez səsə dönüb baxdı. Vərəqələr stolun altına səpələnmişdi. Lakin bir anlığa nə fikirləşdisə, Roza gözlərini onlardan çəkdi və guya heç bir şey görməyibmiş kimi, gümrah halda sayğacının daşlarını şaqqıldadaraq müştərilərdən hesab çəkməyə başladı. Arada bircə dəfə oğrun nəzərlərlə Qriqoriyə tərəf baxdığı zaman gəncin yerə səpələnmiş vərəqələri necə sürətlə yığıb çəkməsinin boğazına dürtdüyünü gördü. Ancaq özünü yenə də görməməzliyə qoydu, müştərilərlə hesab çəkib qurtardıqdan sonra Arşakla Usubun oğlu Fərmana yaxınlaşdı:

– Nə buyurursunuz?

Arşak fikirləşmədən:

– İki piti ver, – dedi.

Roza istehza ilə gülümsədi:

– Siz ki, yerlisiniz və yaxşı bilirsiniz ki, axşamlar pitimiz olmur, başqa şey lazımsa verim?

Arşak əlini alnına vurdu:

– Eh, doğrudan da, yadımdan çıxıb. – Sonra üzünü Rozaya tutdu: – haradan bilək. Hər gün düşüb burada qalsaydıq, sizin qaydanı da



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

öyrənmiş olardıq. Mən pitidən başqa heç bir ət xörəyi sevmirəm, Fərman, gedək!

O, başı ilə Usubun oğluna işarə elədi. Qalxıb otaqdan çıxdılar. Roza onların dalınca baxa-baxa qaldı. Sonra şıltaq bir əda ilə Qriqoriyə gülümsəyib uzaqlaşdı.

Qriqori Arşakgilin dalınca dərhal çıxmaq istəmirdi. Ona görə bir az gözləməli oldu. Beş-altı dəqiqə keçəndən sonra Qriqori çəkməsinin boğazında vərəqələrin möhkəm yerləşdiyini yoxlayıb ayağa qalxdı. O, meyxananın böyük otağına keçmək istəyəndə Roza ilə rastlaşdı. Roza əli ilə onu geriyə itələdi və hövlnak halda pıçıldadı:

– Gözləyin, patrullarınız indicə içəri girdilər.

Qriqori geri çəkildi. Sifəti ağappaq ağardı. Roza soldatın təhlükə qarşısında durduğunu başa düşürdü: "Yəqin ki, indicə ona ötürülmüş vərəqələr çox qorxuludur. Yoxsa o, bu cür təşvişə düşməzdi. Yazığın rəngi nə yaman qaçdı!.. Mən ona kömək edəcəyəm." Bu qərarla da Roza ətrafına baxınıb yavaşcadan ona pıçıldadı:

– Narahat olmayın, bu tərəfdən ehtiyat qapısı vardır, dalımca gəlin.

Roza lampa işığının düşmədiyi və bir-birinin böyründəcə iki şkafın yan-yana qoyulduğu küncə tərəf irəlilədi. Şkafların yanında olan alçaq qapı dərhal açıldı və Roza gözdən itdi. Qriqori də sürətli addımlarla Rozanın keçdiyi qapıya yönəldi. O, ara qapının qabağından keçərkən Varlamovun iki nəfər soldatla birlikdə stolların arasında gəzişdiyini öz gözü ilə gördü. Tez əyilib özünü qapıya çatdırdı. İçəri keçib qapını arxasınca örtdü. Birdən-birə göz-gözü görməz bir qaranlığa düşdü. Ondan qabaq içəri girmiş Rozanın pilləkənlə qalxdığını eşitsə də, özünü görə bilmirdi.

Bir azdan Rozanın səsi gəldi:

– Bu saat kibrit yandıraram, gözləyin!

Bir o qədər keçmədi ki, yuxarıda Rozanın yandırdığı kibrit qaranlığı işıqlandırdı. Qriqorinin qarşısında hər iki tərəfdən köhnə taxtalarla hörülmüş ensiz bir pilləkən göründü. Pilləkənin yuxarısında Roza əlində kibrit dayanıb aşağı baxırdı. Onun tavana düşmüş uzunsov eybəcər kölgəsi, əyri-üyrü pillələr, alçaq, çürük tavan, nəhayət, qəbir kimi darısqal dəhliz Qriqorinin bədənində soyuq bir ürpərti doğurdu. Bu dəqiqədə yuxarıda durmuş Roza ona: "Qalxınız" deməsəydi özünü tamamilə həyatdan ayrılıb qaranlığa gömülmüş kimi hesab edəcəkdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qriqori vahiməyə düşmüş halda köhnə, xalxın pillələri sürətlə qalxdı. Qalxdıqca ona elə gəlirdi ki, pillələr indicə ayağının altında şaqqıltı ilə sınıb töküləcəkdir. Ağır hava nəfəsini darıxdırdı, boğazını qıdıqladı. Onu öskürək tutdu, ağzını ovcuna tutub özünü birtəhər saxladı. Pillələri qalxdıqdan sonra Roza onu alaqaranlıq kiçik bir otağa çağırdı. Ağ divarlar lampadanmı, yoxsa ocaqdanmı his çəkib qəhvəyi rəng almışdı. Bir tərəfdə köhnə dəmir bir çarpayı qoyulmuş, üstündən divara səliqəsiz halda düzünə və köndələninə yarımçılpaq qadın şəkilləri vurulmuşdu. Qapının ağzında köhnə bir kətil, üstündə tas vardı. Divara vurulmuş kiçik əlüzyuyandan tasa su damcılayırdı. Həyət tərəfə kiçik bir pəncərə açılırdı. Roza yaxınlaşıb pəncərənin pərdəsini saldı, Qriqoriyə tərəf dönərək:

– Bura mənim mənzilimdir, arxayın ola bilərsiniz. Sizin patrullar hər yerə baş soxsalar da, buraya qədəm basa bilməzlər. İstəyirsiniz qalın, istəyirsiniz sizi yola salım. Ancaq... – deyə Roza Qriqorinin çəkməsinin boğazında görünən vərəqələri ona göstərdi. – Özünüzü sahmana salsanız pis olmaz. Çəkmənizdən patavanız görünür.

Qriqori çəkməsinin boğazlığına baxıb özünü itirdi və tez əli ilə vərəqələri içəri dürtdü. Roza onun qızardığını hiss etdi.

– Xəcalət çəkməyinə dəyməz, – dedi, – belə hallar hamıda olar. O ki soldatlar ola, nə baxanları var, nə yuyanları... hə, indi nə deyirsiniz, qalırsınız?

Qriqori yuxudan diksinən kimi oldu:

– Yox, yox, gedirəm, gecikə bilmərəm. Yolu göstərin, gedim.

– Özünüz bilərsiniz, gedə də bilərsiniz, qala da bilərsiniz. Bax, bu qapıdan. – Roza otaqdan ensiz bir dəhlizə çıxdı və həyətə tərəf açılan qapının cəftəsini qaldırdı. – Bu qapıdan deyirəm. Həyətə keçərsiniz, oradan da birbaş küçəyə çıxır...

Qriqori daha ləngimək istəmədi. Xudahafizləşib qapıdan çıxmaq istərkən Roza gözlənilmədən atılıb onun üzündən öpdü. Qriqori təəccüb içində yerində donub qaldı:

– Siz nə edirsiniz?

– Bəs necə bilirsiniz? Belə bir qadının yanına gələn əliboş yola salanlar?! Qoy məndən sizə yadigar olsun. Başqa şeyə gücüm çatmadı... Elə deyilmi? Ancaq bir gənc üçün, məncə ən böyük hədiyyə – öpüşdür. Siz buna təəccüb etməyin... Gediniz, daha sizi saxlamayacağam...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qriqori özünü tamamilə əsrarəngiz bir aləmdə hiss edirdi. Qadının bayaqkı söhbətləri, indiki hərəkətləri və gördüyü bu miskin otaq onu sanki başqa bir mühitə gətirib çıxarmışdı. Daha heç bir söz deməyib həyətə endi, oradan da dalda küçələrdən birinə çıxdı.

Roza meyxanaya qayıtdıqda patrulları orada görmədi.

* * *

Qriqori Romanov qışlanın qapısında növbə çəkən keşikçinin gözünə görünməmək üçün qonşu evin çəpəri üstündən aşıb qışlanın alaqaranlıq həyətinə atıldı. Keşikçi tappıltı səsinə və çəpərin o tərəfindəki itin hürməsinə belə əhəmiyyət vermədən aramla gəzişirdi. Qriqori bir neçə dəqiqəliyə hasarın dibindəki qızılgül kolluğunun dalında gizləndi. Bir azdan boş-boşuna özünü yırtıb hürən it səsini kəsdi. Keşikçinin addımlarının səsi aydın eşidilirdi. O, qapı hasarının arxa tərəfinə keçdikdə Qriqori əyilə-əyilə həyətin ortasından keçib, özünü qışlanın qapısına saldı. İçəridən soldatların səsi eşidilirdi. Qapıdan boylanıb baxdıqda alaqaranlıqda soldatlardan bir neçə nəfərinin hay-küylə kart oynadığını gördü. Kim isə zümzümə edirdi.

Qriqori özünün uzaqdan gəldiyini sezdirməmək üçün köynəyinin yaxasını açdı, kəmərini çıxarıb cibinə soxdu və içəri keçdi. Onu hamıdan qabaq bir saatdan artıq intizar içində qıvrılan Bondarçuk gördü və dostunun sağ-salamat geri döndüyünə ürəkdən sevinib köksünü ötürdü.

Kart oynayanlardan bir az aralıda Poqrebnyuk çarpayısının üstündə oturaraq evdən yenicə aldığı məktubu oxuyurdu. O, məktubda yazılanları dördüncü dəfə idi ki, oxuyurdu. Hər dəfə də oxuyub qurtardıqdan sonra büküb cibinə qoymağa əli gəlmirdi. Zümzümə edən soldat isə Demeşko idi. Astadan kədərli bir rus mahnısını zümzümə edə-edə əlindəki cib bıçağı ilə nə isə yonurdu. Viktor Bondarçuk qollarını başının altında çarpazlayıb uzanmışdı. Qriqori gələndən sonra dikəlib oturdu. Romanov başı ilə ona anlatdı ki, hər şey öz qaydasındadır. Viktor rahat nəfəs alıb təkrar yatağına uzandı. Kart oynayanların başı bərk qarışdığından, heç biri Qriqorinin qışlaya gec qayıtmasının fərqinə varmadı. Yalnız Demeşko qalın pırpızlı qaşlarını dartaraq Qriqoriyə baxdı və yenə də öz işinə məşğul oldu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qriqori öz dəcəlliyi və hövsələsizliyi ilə şöhrət tapmış Demeşkonun bu işdən qabaqcadan xəbəri olduğunu yəqin etdi, buna görə də onun bu müəmmalı baxışından narahat olmadı.

Qriqori soyunmadan yatağına uzanaraq, yarım saat qabaq Roza ilə öz arasında baş vermiş söhbəti və Rozanın onun boynuna atılmasını xatırlayırdı. O, Rozanın əxlaqsız qadın olmasına şübhə etmirdi, lakin onun mərd hərəkəti və dediyi sözlər bu meyxana qadınını yuvarlanıb düşdüyü girdabdan nə qədər yüksəyə qaldırırdı... Birdən onun qulağında ayrılarkən Rozanın dediyi sözlər təkrar olundu: "İstəsəniz gələ də bilərsiniz." Bu sözlər pozğun bir qadının dili ilə deyilsə də, görəsən əsl mənası nə idi? Qriqori öz-özünə gülümsədi: "Pozğun qadın kişini öz yanına nə üçün çağıra bilər, axmaq! – deyə özünə məzəmmət vurdu. Bəs onun məni, patrulun əlindən qurtarması? Bunu da axı həmin əxlaqsız qadın etmişdi! Etməyə də bilərdi... Onu ki, heç kəs bu işə məcbur eləmədi?!" Qriqori bu fikirdə ikən soldat Poqrebnyuk əlini çarpayısının qabağındakı kiçik stola çırpıb ayağa qalxdı. Hamı, hətta kart oynayanlar da təəccüblə dönüb ona baxdılar. Bayaqdan bəri Poqrebnyukun əlində olan məktub indi çarpayının üstünə atılmışdı. Demeşko qaşları altından Poqrebnyuku süzdü. Onun yaşarmış gözlərini gördükdə istehza ilə bərkdən güldü:

– Hə, intelligent, yenə nə oldu? Göz yaşına bir az heyfin gəlsin. Nənənin qəbirinin üstünə axıtmaq üçün sonra damcısına da həsrət qalarsan. – Başını bulayıb köksünü dərindən ötürdü. – Lənətə gələsən, məhəbbət! Yenə də sızladır, yandırır...

Bunu deyib Demeşko bayaqdan bəri zümzümə etdiyi öz sevimli mahnısına davam etdi. Poqrebnyuk boğazı qəhərlənə-qəhərlənə danışırdı:

– Söz vermişdik ki, universiteti qurtaran kimi evlənək. İndi də yazır ki, qurtarmışam... eh!..

Demeşko altdan-altdan onu süzüb soruşdu:

– Bəs sən niyə qurtara bilmədin?

– İkinci kursda oxuyarkən tələbələrin tətillərində iştirak etdiyim üçün həbsə alındım. Sonra da soldatlığa göndərdilər... Yadımdadır o, vaqonun dalınca ağlaya-ağlaya gəlirdi. Mən...

O, sözünün gerisini deyə bilmədi, boğazı qəhərləndi, çiyinləri ehmalca atılıb düşdü. Başını stola dayayıb qaldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Demeşko etinasızcasına başını buladı:

– Eh, səni, intelligent!

Artıq gecədən çox keçirdi, lakin kart oynayanlar hələ də yorulmamışdılar; hay-küyləri qışlanı ağzına almışdı. Bondarçuk ayağa qalxıb Romanova yaxınlaşdı və pıçıltı ilə soruşdu:

– Haradadır?

– Çəkmələrimin içində.

Bondarçukun qaşları geniş alnında qeydkeşliklə çatıldı. Qriqori onun nə haqda düşündüyünü dərhal hiss etdi və əlini uzadıb dostunun barmaqlarını sıxdı.

– Narahat olma, çəkmələrimi bayırda soyunacağam, hamısını şalvarımın lifəsinə dürtəcəyəm.

– Yaxşı, ancaq tez ol, ləngimə. Drujinlə Sırojkinə də xəbər ver. Sabah günortadan sonra köhnə dəyirmanda görüşəcəyik.

Bondarçuk soyunub yatağına uzandı. Qriqori qaranlıq dəhlizə çıxdı. Bir azdan o, çəkmələri əlində ayaqyalın geri qayıtdı. Burada da ona ikinci bir xoşbəxtlik üz verdi. Dəhlizdən yenicə qayıdıb yatağına uzanmışdı ki, unter-zabit içəri girdi və hirslə kart oynayanların üstünə qışqırdı:

– Yatmaq üçün siqnal çoxdan verilmişdir, haydı!

Qışlada səs-küy kəsildi.

Qriqori dəhlizdən iki-üç dəqiqə gec qayıtsaydı, yəqin ki, unterzabitlə üz-üzə gələcək və bununla da hər şey bitəcəkdi. "Anam məni, görünür ki, xoşbəxt ulduz altında doğmuşdur" deyə o özlüyündə gülümsədi və bəxtindən razı halda gözlərini yumdu.

## VIII fəsil

Şəhərdə gözəl qamətli, lakin başdan-ayağa qara geyinmiş bir qadına tez-tez rast gəlmək olardı. Onu şəhər əhlinin böyüyündən-kiçiyinədək hamı tanıyırdı. Xüsusilə, yuxarı məhəllədə – Ağsu bulağından başlayıb, mərtəbəyarım qız məktəbi binasınadək olan məhəllələrdə onu nəinki tanıyır, hətta iki-üç il ərzində daim qara paltar geyərək matəm saxlamasının səbəbini də yaxşı bilirdilər. Bu qadının əri Orduxan Zaqataladan çox uzaqlarda, Çuvaşıstanda ölmüşdü. Harada basdırıldığı, qəbirinin olub-olmadığı da məlum deyildi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Orduxan şəhərin köhnə ziyalılarından idi. Kiyev şəhərində tibb institutunu bitirdikdən sonra öz vətəninə qayıdıb həkimlik edirdi. Tiflisdə onun yaxın həkim yoldaşları çox idi. Bunlardan bəzisi onunla bir ildə Kiyev universitetinin bitirənlər idi. Yay aylarında o, Tiflisə gedə bilmədiyi zamanlar yoldaşları onun yanına gələrdilər. Şəhər ziyalılarından çoxu onların dostluğuna həsəd aparırdı.

Universiteti bitirdikdən sonra Zaqatalaya subay qayıdan Orduxan bir ildən sonra burada qız məktəbində rus dili müəllimәsi olan Lalənzarla evlənmişdi. Uşaqları olmurdu. Orduxanın bacarıqlı bir həkim kimi şöhrəti Qaxa, Nuxaya və habelə Gürcüstanın kəndlərinə də yayılmışdı. Onun qapısına pənah gətirmiş yoxsul xəstələrdən heç birini rədd etməzdi. Maarifpərvər bir şəxs idi.

Deyildiyinə görə, Orduxan Kiyevdə bir neçə dəfə polis tərəfindən həbsə alınmışdı. Zahirən çox sakit və təmkinli olan bu şəxsin gizlində hökumət əleyhinə işləyə biləcəyini heç kəs ağlına gətirə bilməzdi. Bir gün səhər tezdən şəhərə səs yayıldı ki, gecə Tiflisdən gələn üç atlı kazak, həkimin qollarına zəncir vurub aparmışlar. Bu sirli həbsə hamı əvvəlcə təəccüb qaldı. Şəhərin adlı-sanlı varlılarından bir çoxu heç kəsə başını qaldırıb pis niyyətlə baxmamış bu alicənab şəxsin birdən-birə atlı kazak qabağında dustaqxanaya aparılmasına qəzəblənmişdi. Lakin sonralar hər şey aydınlaşdı. Tiflisdə düzəldilmiş açıq məhkəmənin xəbəri tezliklə Zaqatalaya da yayıldı. Məlum oldu ki, Orduxan hökumətin ən qəddar düşmənlərindənmiş. O, Tiflisdən həkim və başqa yoldaşları ilə əlbir olub altdan-altdan, hökumətin əleyhinə işləyirmiş. Guya kəndlərdə xəstələri müalicə etmək də bəhanə imiş. Əslində isə kəndliləri hökumətin əleyhinə qaldırmaq istəyirlərmiş.

Orduxan öz gürcü yoldaşları ilə birlikdə sürgün edildikdən sonra uzun müddət ondan heç bir xəbər-ətər çıxmadı. Hamı onu ölmüş bilirdi. Bir az keçdikdən sonra, onun ölməsi haqqında şəhərdə gedən şayiələr yalana çıxdı. Arvadı Lalənzar ondan, öz dəstixətti ilə yazılmış məktub aldıqda, yaxın dostları Orduxanın sağ-salamat olduğuna sevindilər. Lakin bu şad xəbərin ömrü uzun olmadı. Düz altı aydan sonra ikinci bir məktub alındı. Bu dəfə məktubu yazan başqa adam idi; o yazırdı ki, Orduxan birdən-birə gözlənilmədən düşən şaxtadan donmuşdur. Lakin harada donmuşdur, necə donmuşdur, qəbiri haradadır? – Bütün bunlar hamı üçün,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

birinci növbədə onun, vaxtından qabaq dul qalmış arvadı Lalənzar üçün bir sirr olaraq örtülü qaldı.

Lalənzar ərinin ölüm xəbərini aldığı zaman iyirmi beş yaşına yenicə girmişdi. Bu yaş qadın ömrünün ilk baharı hesab olunur. Şəhərin demək olar ki, gözəllərindən biri olan, hətta bəzi cavanların fikrincə, birinci gözəli olan Lalənzar məhz belə çağlarında, onun hələ açılmamış gözəlliyi qaraya tutuldu; gözlərinə həmişəlik qüssə qondu. Gözəl sifətinə məşum dulluğun rəngi çökdü.

Bu vaxtdan da o, adamlardan qaçmağa başladı. Onlara yovuşmadı, bir kəslə bir kəlmə dinib-danışmadı. Qız məktəbi ilə kilsə meydançasının böyründəki sakit evi arasında olan yol, onun hər gün keçdiyi, qət etdiyi yeganə yol oldu. Bunun nəticəsində də şəhərin hörmətli adamlarından bir *qismi ona yaxınlaşmağa və onunla gələ*cək ailə həyatı qurmaq haqqında söz açmağa cəsarət etmirdilər. Günlər keçdi. Öz sevimli qara paltarlarından ayrılmaq bilməyən bu qadın, beləliklə, bəziləri üçün yad bir məxluqa çevrildi; bəziləri də ona qovuşmaq həsrətilə qıvrılıb qaldı. Qapısı döyülməyən, astanasından içəri qədəm basılmayan bu pərişan qadının alçaq həyət qapısı, nəhayət, bir gün axşamdan azacıq keçmiş yavaşdan çalındı. Bu səs, sakit bir gölə atılmış iri qaya parçası kimi uğuldayaraq boğuq bir əks-səda verdi. Ürəyi bu səsdən diksinib, başı üzülmüş bir göyərçintək çapalamağa başladı. İçərisində elə bir çaxnaşma baş verdi ki, hər şey tərsinə çevrildi, alt-üst oldu. Əvvəlcə qulaqlarına inanmadı. Tək-tənha yaşayan adamların qulaqlarına adətən, belə səslər tez-tez gəldiyi üçün buna əhəmiyyət vermədi. Özünü ələ almağa çalışdı. Bir dəqiqə keçdi. Bayaq döyülən qapının səsi evin səssizliyi içində bir kölgə kimi əriyib yayıldı. Lalənzar qulaq verdi: on beş gecəlik ayın işığına qərq olmuş həyətə, ağacların kölgəliklərinə, həyət qapısının çıxdığı ensiz, daş döşəməli döngəyə elə bir sükut çökmüşdü ki, ağaclardan bir yarpaq belə qopub düşsəydi, dərhal eşidilərdi. Dilsiz bir sükut! Heç bir nəfəs duyulmurdu.

Lalənzar bir neçə dəqiqə qabaq eşitdiyi qapı döyülməsinin adi *qarabasma, ya da qulağın səslənməsi* güman edib sakitləşdi. Lakin bircə dəqiqə keçməmişdi ki, qapı yenidən döyüldü. Yox, bu daha qarabasma deyildi. Kim isə əllə qapını asta-asta döyürdü. Lalənzar eyvana çıxıb, tələsmədən pillələri endi. Xoş ətir saçan ağacların arası ilə keçib qapıya yaxınlaşdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kimdir?

Qapının dalından qız uşağının səsi eşidildi.

– Müəllimə, mənəm... Nəcibədir, açın!

– Nəcibə? – Lalənzar təəccübləndi. – Bu vaxt təkbaşına niyə gəlmisən, qızım?

– Müəllimə mən tək deyiləm. Qızın səsi bu dəfə daha alçaqdan eşidildi. O, elə bil ağzını qapının taxtaları arasına dayayıb, hər sözü uzada-uzada tələffüz edirdi. – İki nəfərik.

Lalənzar qapının dalına vurulan taxtanı cəld qaldırdı. Qapı aralandı və onun şagirdi Nəcibə astanada göründü. Qız içəri girməmişdən dönüb arxaya baxdı. Bu zaman döngənin qaranlığından ortaboylu bir adam çıxıb qapıya yaxınlaşdı. O, kölgədən ayın işığına keçsə də, Lalənzar onu yaxşı tanıya bilmədi. Qız başı ilə yaxınlaşan adama tərəf işarə elədi:

– Müəllimə, xanım dayımdır, sizinlə işi var.

Üzü-gözü tüklü olan adam yaxınlaşıb üzr istədi:

– Lalənzar xanım, bağışlayın ki, bivaxt sizi narahat elədim. Başqa çarəm yox idi. Gündüz sizin yanınıza gəlməyi münasib saymadım. Olarmı bir neçə kəlmə danışaq. Sizi çox ləngitməyəcəyəm.

Lalənzar könülsüz halda onları içəri dəvət etdi. Lampa işığında gələn adamın tərli sifəti aydın seçilirdi. Qadın üz-gözünü tük basmış, əslində isə cavan olan bu adamın körpü başında dəmirçilik edən Bəhram olduğunu tanıdı və tez fikrindən keçirdi: “Mənimlə onun nə söhbəti ola bilər? Bəlkə bacısı qızı haqqında nə isə demək istəyir?”

Bəhram söhbətə birdən-birə başlaya bilmədi. O, gözlərini otağın divarlarında gəzdirərək nədən və nə cür başlamağı fikirləşirdi.

Bir-birinin içinə yolu olan iki otaq, çox səliqəli bəzənmişdi. Açıq qapıdan o biri otaqdakı iri kitab dolabı və onun üstünə qoyulmuş alaqaranlıqda yaxşı seçilməyən iri bir quş müqəvvası nəzərə çarpırdı. O biri şeyləri isə ayırd eləmək çətindi. Bəhramgilin oturduğu yemək otağı daha böyük idi. Otağın başında həyətə açılan iki pəncərənin arasında, yuxarıdan həkimin – Orduxanın iri şəkli vurulmuşdu. Şəkil nazik, qara parça ilə haşiyələnmişdi. Bəhram şəkildəki adamı yaxşı tanıyırdı. İri, qayğılı gözləri, nazik burma bığları olan bu adam dəfələrlə küçədə, bazarda Bəhramın yanından ötüb keçərkən, ona salam verməyə macal tapmamış, o özü hörmətlə baş endirmişdi. Bir dəfə o, xəstə anasının üstünə də gəlmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmişə qüssəli görünən həkimin inqilabçı olduğuna heç kəsin gümanı gəlməzdi. Bəhramı da təəssüfləndirən o idi ki, nə üçün həkimlə sağlığında görüşməmiş, onun düşüncələri, niyyəti ilə tanış olmamışdı. Belə bir adam onların təşkilatında olsaydı! Bəli, heç bir qüvvə onu buradan qoparıb apara bilməzdi. Lakin görünür ki, o da, gürcü yoldaşları da çox ehtiyatsız hərəkət etmiş və günlərin birində hamını birlikdə ələ keçirə bilmişdilər. Onu bu düşüncələrdən Lalənzar xanımın sualı ayırdı.

– Buyurun, mənə nə sözünüz vardı?

Bəhram əlini stolun üstünə döşənmiş xovlu məxmər süfrənin üstündə gəzdirdi, şəhərin ən savadlı bir qadını ilə danışdığı üçün deyəcəyi sözləri əvvəlcədən ölçüb-biçirdi.

– Lalənzar xanım, siz bilirsiniz ki, Hacı Xeyrinin tütün karxanasında işləyən fəhlələrin çoxu savadsızdır? – deyə o, başını qaldırmadan sözə başladı. – Bizdə bir çox kitab və vərəqə vardır. Amma hamısı rus dilindədir. Fəhlələrdən də heç birisi rus dilini bilmir...

– Siz ki, Hacı Xeyrinin karxanasında işləmirsiniz? – deyə Lalənzar xanım onun sözünü kəsdi.

– Elədir, Lalənzar xanım. Mən dəmirçixanada oluram, yoldaşlarım isə orada işləyir; mən də onlardan ötrü çalışıram. Özüm azçox bu dili bilirəm. Bakıda öyrənmişəm... Buna görə. – O, əsl mətləbə keçdi. – Sizdən xahiş etmək istəyirdik ki, kitabda, vərəqələrdə yazılanı rus dilindən bizim dilə çevirəsiniz. Hamıya oxuya bilək, başa düşsünlər. Sizdən başqa bir kəsə gümanımız gəlmir. Şəhərin çinovniklərinə etibarımız yoxdur. Bir də onlar xatalı adamlardır.

Bəhramın sözlərindən Lalənzar başa düşürdü ki, qarşısında oturan bu adi dəmirçi oğlan onu, hər kəsə etibar edilə bilməyən, həm də gizlində görülə biləcək bir işə çağırır. Yaxından tanımadığı bir adamın evinin qapısını ərklə döyüb içəri girmək, ən təəccüblüsü, onunla birdən-birə belə söhbətə girişmək – Lalənzara ilk baxışda çox şübhəli göründü. "Bəlkə də pristav məni təzədən nəzarət altına alıb. Məni sınaqdan çıxarmaq fikrinə düşübdür?" deyə fikirləşdi.

O, biri tərəfdən ona yəqin idi ki, dəmirçi oğlanın böyük qardaşı Bakı inqilabçı fəhlələrindəndir, polislərlə toqquşmada dəfələrlə həbs edilib dustaqxanaya salınmışdır. Belə bir adamın qardaşı indi pristavın fitnəsinə uyub onun evinə göndərilə bilməzdi. Müsahibinin mehriban sifəti, çəkingən danışığı, söhbət zamanı bir dəfə də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olsun başını qaldırıb ona baxmaması da buna sübut ola bilərdi. Bununla belə, Lalənzar ehtiyatını əldən vermirdi:

– Sizin danışığınızdan belə çıxır ki, mən qadağan edilmiş qorxulu kitabları tərcümə etməliyəm? Yox, cavan oğlan, siz deyəsən çox qorxulu bir oyun başlamısınız. Mən bu işə razılıq verə bilməyəcəyəm.

Bəhram öz söhbəti müddətində birinci dəfə olaraq, gözlərini qaldırıb təəssüf dolu nəzərlərlə, iyirmibeşlik lampa işığında daha gözəl görünən müəlliməyə baxdı. Yuxarıda asılmış lampadan qadının gözləri altına xəfif bir kölgə düşmüşdü. Bundan onun gözləri daha iri və cazibədar görünürdü. Xırdaca sivri burnunun pərələri kövrəlmişdi. Dodaqları xəfif bir titrəyişlə, kölgədə qalmış çənəsinə tərəf dartılırdı. Bəhram onun daxilən həyəcan keçirdiyini hiss etdi.

– Onlarda qorxulu heç bir şey yoxdur, Lalənzar xanım. – Bəhram birdən-birə açıq söhbətə keçməklə qadını düşdüyü təşvişdən qurtarmaq istəyirdi. – Özünüz görəcəksiniz. Orada yazılanlar hər gün sizin və başqalarının eşitdiyi sözlərdir...

Lalənzar oturduğu yerdə hərəkətə gəldi. Bəhram bu zaman, onun həyəcanlı sifətində ani bir təbəssümün parıldayıb, dərhal da söndüyünü duya bildi.

– Mən özüm üçün qorxmuram və siz də nahaq elə güman edirsiniz ki, mən çəkinirəm. – O, başını aşağı dikib, köksünü ötürdü. – Mən əri inqilabi iş üstündə sürgündə ölmüş qadına yaxınlaşanlar üçün ehtiyat edirəm. Od özü üçün qorxulu deyil, deyərlər. Siz özünüzdən ötrü qorxun... Pristavın yəqin ki, hər dəqiqə mənim üstümdə gözü vardır.

Bəhram Lalənzarın sözlərindən ürəkləndi.

– Biz nəyimiz üçün qorxmalıyıq, Lalənzar xanım? Bundan ağır vəziyyət olmaz ki, düşmüşük... Kəndliləri soyub taladılar. Fəhlələr səhərdən axşamadək işləyir, bir doyumluq çörək pulu da qazana bilmir. Bu firavan həyatı itirəcəyimiz üçün qorxacağıq? Yox! Bizim qorxulası heç bir şeyimiz yoxdur!.. Ancaq bizim partiya bir şeyi öyrədir: işləməyi bacarmalı, ehtiyatla işləməyi! Əgər hər gün ehtiyatsız olub bir yoldaşımızı itirsək, onda başladığımız işi kim axıra çatdırar?.. Biz qorxmağı öyrətmirik... Həmişə ehtiyatlı olmağa çağırırıq...

Bəhram sözünü qurtarmamışdı ki, divardan asılmış qədim saatın xırdaca dəmir qapıları açıldı və içəridən taxta bir quş başını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çıxararaq on dəfə cükküldədi. Kiçik Nəcibə maraqla dönüb səs gələn tərəfə baxdı, başı yırğalanan taxta quşcuğazı görən kimi əllərini fərəhlə bir-birinə vurdu. Bəhram onun ətəyini dartdı.

– Sakit ol, – deyib, getməyə hazırlaşırmış kimi yerində qurdalandı.

Lalənzar hələ də əvvəlki tövrünü pozmadan sakitcə durmuşdu. Nə taxta quşun cükkültüsü, nə də Nəcibənin əllərini bir-birinə vurub sevinməsi onu fikirdən ayıra bilmirdi. Açıq-açığına hiss olunurdu ki, o hələ də qəti bir qərara gələ bilmir. Ya Bəhramdan ehtiyat edirdi, ya da ona tərəf gələn, ondan kömək istəyən adamlara qarışmaq, vaxtilə ərinin getdiyi qorxulu yolla getmək istəmirdi. Lakin qarşısında oturmuş bu adi dəmirçinin dediyi sözlərə də biganə deyildi. Bəlkə o da günlərin bir günündə ərinin getdiyi yollarla Sibirə göndəriləcəkdir... kim bilir? Qandallar... məşum məhbus paltarları... uzaq, şaxtalı, iztirablı yollar onu da öz tufanı içərisinə alacaqdır... Bu gün isə bu acı qisməti görmədən, odun-alovun içinə atılmağa hazırdır...

Bəhram Lalənzarın dinmədiyini gördükdə ayağa qalxdı. Özlüyündə belə bir qərara gəldi ki, qadın tərəddüd içindədir və vərəqələri götürməyə çətinlik çəkir.

– Lalənzar xanım, elə isə icazə verin, biz gedək, – dedi, – gecdir. – O, bacısı qızı Nəcibənin əlindən yapışıb qapıya tərəf yönəldi. – Xudahafiz, gecəniz xeyrə qalsın.

İki addım atmışdı ki, arxadan Lalənzarın səsi eşidildi:

– Dayanın!

Bəhram əlini qapıdan çəkərək arxaya tərəf qanrıldı. Lalənzar ayağa qalxmışdı. Lakin durduğu yerdən görünür ki, addım atmaq istəmirdi.

– Buyurun, – deyə Bəhram gözlərini ona zilləyib sakitcə baxan Lalənzara müraciət etdi.

– Bəs vərəqələri nə üçün qoymadınız?

Lalənzarın səsindəki qətiyyəti duymasaydı, bəlkə də Bəhram geri dönüb vərəqələri verməyəcəkdi. Qadının duruşundakı hər şeyə hazır olduğunu bildirən məğrur ifadə Bəhramın xoşuna gəldi, Nəcibəyə işarə elədi. Nəcibə cəld, çit paltarının üstündən geydiyi yun koftasının yaxasını açaraq, oradan üç-dörd qat bükülü bir neçə vərəqə çıxartdı və dayısına uzatdı. Bəhram vərəqələri alıb stolun



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üstünə qoydu. Lalənzar vərəqələrə ötəri nəzər salıb, stolun üstündən qaldırdı və iki pəncərənin arasında, ərinin şəkli altında qoyulmuş kamodun gözündə gizlətdi. Bəhram razılıq hissi ilə xudahafizləşib getdi.

* * *

Bu, Zaqafqaziya əlahiddə batalyonunun gəlməsindən cəmi on-on beş gün qabaq olmuşdu. Həmin gecə Lalənzar Bəhramgili yola saldıqdan sonra çırağın işığını azaldaraq, vərəqələrdəki yazıları diqqətlə oxudu. Əzilmiş, təhqir edilmiş adamları azadlıq yolunda vuruşmağa çağıran bu vərəqələrdəki sözləri oxuduqca ürəyindən gələn öz sözləri də ona qoşulur, onlarla birlikdə səslənirdi. Bu sözlərin hamısı elə bil ona çoxdan tanışdı, harada isə onları eşitmişdi. Aha, yadına düşdü. Vaxtilə bu sözləri ona Orduxan daha qollu-qanadlı şəkildə danışmış, gələcək xoş günlərdən ona əfsanələr kimi şirin nağıllar söyləmişdi.

Lalənzar indi başa düşürdü ki, əri haqlı imiş. O necə deyirdi? “Mənim əzizim, inan ki, insanı azad görmək arzusu, ən müqəddəs arzudur! Bu yolda insan hər cür əziyyət və işgəncələrə dözməlidir. Bu yolda qurbanlar da olacaqdır... Onu da, bilirəm ki, bir gün bu qurbanlardan biri də mən ola bilərəm. Ancaq təəssüflənmirəm və qol-qanadım da qırılmır. Çünki bu gün mən fəda olsam, başqa birisi mənim işimi davam etdirəcək. Təki məşəl sönməsin, onu axır mənzilə çatdıran adam olacaqdır!” Bəli, Orduxan haqlı idi! Onun matəm günləri qurtarmamış, başqaları, həm də Lalənzarın nəzərincə gözlənilməyən adamlar – adi bir dəmirçi ya da fəhlə onun işini davam etdirir. Ərinin ölümündən sonra hər şeyin bitdiyini güman edən Lalənzar, demək yanılmamışdır. Bəs nə üçün o, ərindən sonra onun yolu ilə gedən bu sadə adamları görməmiş, onlara qaynayıb-qarışmamışdı? Pristavın təqibimi onu qorxutmuşdu? Yox, o bu müddətdə heç bir təqibdən çəkinməmişdi. Ancaq təklik və pərişanlıq ona cəsarətli addımlar atmağa, ərinin yolu ilə gedən adamları axtarıb tapmağa, onlarla ünsiyyət bağlamağa qoymamışdı...

Gecədən xeyli ötənədək o, fikirləşdi və Bəhramın gətirdiyi vərəqələri aydın xətt və iri hərflərlə rus dilindən azərbaycan dilinə çevirdi. Səhər məktəbə getmək üçün yuxudan ayıldığı zaman, özünü



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hələ də bütün gecəni düşündüyü və dolaşdığı aləmdə hiss edirdi. Beləliklə, onun bürünmüş olduğu matəm və təklik pərdəsi yırtılmışdı. O, haradansa təzə bir hava gəldiyini duyur və onu həsrət çəkmiş bir adam kimi acgözlüklə ciyərlərinə udurdu. Xüsusilə, Bəhram ona tərcümə etdiyi vərəqələrin tütün karxanası fəhlələri tərəfindən axırıncı sözünədək yaxşı başa düşüldüyünü söylədikdə, elə bil təzə bir qüvvə onun bədəninə yol tapmışdı. Buna görə idi ki, Dobrovolskinin batalyonu şəhərə gəldikdən sonra tərk-silah edilmiş matrosların taleyi onu düşündürür, onların hər bir hərəkətini gizlindən də olsa izləyirdi.

## IX fəsil

Köhnə su dəyirmanından yuxarıda təpənin üstündə soldatlardan biri tək-tənha oturub qarmon çalırdı. Qədim və kədərli rus havası pərdə-pərdə aşağılara – şırıltı ilə axan arxın üstünə, oradan da köhnə, xılxın çarxı suyun içində hərəkətsiz durmuş dəyirmana yayılırdı. Dəyirman bu gün işləmirdi, lakin orada həmişəkindən daha çox adam vardı. Bondarçukla Bəhramın bir gün qabaqcadan təyin etdikləri bu yığıncağa həm soldatlar, həm də yerli sosial-demokrat təşkilatlarının üzvləri toplaşmışdı. Tiflisdən yenicə alınmış ədəbiyyatı birlikdə oxumağı qərara almışdılar. Təpənin üstündə oturan qarmonçu isə gözdən pərdə asmaq üçün idi. Əslində o, şübhəli bir şey nəzərinə dəyən kimi dəyirmandakıları xəbərdar etməli idi. Qarmonun dillərindən qopan dərdli, qüssəli səslər, dəyirmanda oxunan vərəqələrin ahənginə uyuşmasa da, qulaq asanlara elə gəlirdi ki, bayırda yoldaşlarının seçdiyi bu hava bəlkə də, məhz eşitdikləri bu sözlər üçün bəstələnmişdir.

Yarım saatdan artıq idi ki, qarmonçu eyni mahnını çalırdı. Birdən onun səsi gəldi. Vərəqəni əlində hündürdən oxuyan Bondarçuk da dərhal susdu. Hamının gözü narahatlıqla köhnə dəyirmanın çürük taxtaları arasından təpənin üstünə dikildi. Qarmonçunun yanında bir qorodovoy durmuşdu. Bondarçuk, Deməşko və Drujin dəyirmanın dal tərəfindən aşağı enib, sıx pöhrəlik içində gizlənməyi təklif etdilər. Bəhram razı olmadı.

– İnanmıram ki, bu bizim izimizə düşübdür. Yəqin yoldan keçirmiş. Yerimizdən tərpənməyək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə də etdilər: heç biri dəyirmandan çıxmadı. Təpənin üstündə qarmonçu ilə qorodovoy arasında gedən söhbəti hamı eşidirdi. Qorodovoy yanını yerə verib qarmonçunun yanında oturdu:

– Niyə susdun, qardaş? Çal, yaman dərdli çalırsan! Uzaqdan sənin səsini eşidib qarabaqara gəldim. Yaxşı ki, axırda tapdım.

Qarmonçu təzədən qarmonu dilləndirdi. Bu dəfə köhnə matros havalarından birini çaldı və özü də yavaşcadan zümzümə etməyə başladı. Bu mahnıda vaxtsız ölmüş bir matrosun qəbirindən bəhs olunurdu. Onu dənizdən hündürdə, şam ağacları arasında dəfn etmişlər... tək-tənha bir qəbir, uzaqdan ağarır; suları yara-yara keçən hər bir gəmi, hər bir qayıq üçün sanki qəbir darıxır. O, dənizin qabarmasını, şahə qalxıb yüksəlməsini arzu edir ki, göy sular bu qəbiri də öz qoynuna alıb aparsın, fırtınalar onu atıb tutsun, ləpələr onu oynatsın... Lakin sakit dəniz qabarmır, qabarsa da ləpələri qəbirə çata bilməyəcəkdir. Qəbir bunun üçün qüssəlidir. O, tək-tənha duraraq həsrətlə sulara, sulardan ötüb keçənlərə baxır... sular isə lal və dinməzdir.

Qorodovoy papağını çıxarıb, ayaqlarının arasına qoymuşdu, qarmonçunun zümzüməsindən ah çəkərək başını yelləyirdi.

– Qardaş, görürəm ki, sən də dərdlisən... ancaq dərdlilər belə oxuya bilərlər. Eh!.

Qarmonçu dinmirdi. Onun yalnız gözləri hərdənbir qıyılaraq dəyirmana tərəf zillənirdi.

– Sən özün də, qardaş, gözümə dərdli görünürsən, – deyə, nəhayət, qarmonçu da ondan soruşdu.

– Dərdliyəm, qardaş dərdliyəm!.. çoxdandır ki, belə yanıqlı mahnı eşitməmişdim. – O, başını sallayıb susdu. O kövrəlmişdi.

Qarmonçunun üzündə istehzalı bir təbəssüm gəzdi.

– Dərdin nədir, qardaş? Nə üz verib ki?

Qorodovoy öz gövdəsinə uyğun iri bir dəsmal çıxarıb gözlərini sildi.

– Marfam yadıma düşdü, qardaş... arvadımı deyirəm...

– Çoxdan ölüb?

– Qəbirinin torpağı hələ qurumayıb. Yenə də öz əcəli ilə ölsəydi, məni yandırmazdı... onu döyə-döyə mən zırı, mən yöndəmsiz öldürdüm... Yazıq hey deyərdi ki, bəsdir içdin, bu qədər yaramaz... Mən isə qulaq asmırdım, qoluma güc verirdim... Axırda da belə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oldu. Təqsir özümdədir, qardaş. Tövbə eləsəm də, o dünyada günahımdan keçməyəcəklər...

O yenə kövrəldi, yaylığı ilə burnunun suyunu silib susdu. Bir neçə dəqiqə dinməz-söyləməz oturdu, sonra qarmonçuya minnətdarlıq edib getdi.

Qarmonçunun barmaqları çalmaqdan yorulmuşdu. Dəyirmana tərəf nəzər salıb bərkdən gərnəşdi. Bu zaman içəridən kim isə zarafatla ona qışqırdı:

– Anatoli, bir az yavaş, az qala bizi udmuşdun.

Qarmonçu Demeşkonun səsini tanıdı və başa düşdü ki, dəyirmandakıların söhbəti qurtarmışdır. Buna görə də qarmonun aşırmasını çiynindən çıxarıb yanına qoydu, arxası üstə gündə uzanıb qamaşan gözlərini furajkası ilə örtdü. Bu dəfə Demeşkonun səsi onun lap qulağının dibində eşidildi.

– Axır ki, qorodovoyu da ağlatdın... – Demeşko onun başının üstündə durmuşdu. Təpiyini Anatolinin böyrünə toxundurdu. – Dursana! Kişini kövrəldib yola saldın, indi də atmaq fikrinə düşmüsən.

Anatoli papağını üzündən qaldırmadan:

– Stepan, əl çək, – dedi, – qoy bir az dincimi alım.

Arxadan Demeşkonu Bondarçuk çağırmasaydı, bəlkə də Stepan ondan əl çəkən deyildi.

– Stepan, kitapça, deyirəm, səndə qalsın. – Bondarçuk dəyirmanın içində oxuyub qurtara bilmədikləri kitabçanı ona tərəf uzatdı. Stepan bundan imtina etdi:

– Yox, qardaş, mən huşsuz adamam, qoy Drujin saxlasın. Ona heç kəsin gümanı gəlməz.

Drujin özü də buna etiraz etmədi. Bəhram və Arşak soldatlardan dördünü aşağıdan, qışlalara gedən, dalda yollarla ötürüb onlardan ayrıldılar. Dəyirmandan ən axırda Demeşko, Drujin və Sırojkin çıxdı. Sırojkin üzdən çox pərişan görünürdü.

* * *

Axşam yoxlanışından sonra zabitlər podpolkovnikin xüsusi əmrini gözləyərək, Qalada, Dobrovolskinin qəbul otağında toplaşmışdılar. Kapitan Smirnov bir həftə yatdıqdan sonra hələ də özünə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gəlməmişdi. Sifəti solmuş, gözlərinin altı xeyli çuxura düşmüşdü. Nazik bığlarının ucunu neçə gündən bəri vurdurmadığından, ağzının hər iki tərəfindən dodaqlarının üstünü örtmüşdü. O, bir kənarda duraraq zabitlərin gümrah danışıqlarına qulaq asmaqla kifayətlənirdi. Əslində o, bu danışıqlara qulaq asmaqdan da yorulmuşdu. Əgər imkan olsaydı, indicə otağına qayıdıb Denşikinə bir isti kofe hazırlatdırar və onu ləzzətlə içib yatağına uzanardı. Podpolkovnik onları içəri çağırmaqda ləngiyirdi. Deyilənə görə, Peterburqdan gəlmiş məktuba təcili cavab yazmaqla məşğul idi. Nəhayət, bu gün günortadan sonra Tiflisdən gəlmiş qasid onun yanından çıxdı və qəbul otağına toplaşmış zabitlərlə xudahafizləşib yola düşdü. Zabitlər bir neçə dəqiqədən sonra içəri çağırılacaqları fikrilə üst-başlarını səliqəyə salıb hazır durdular. Lakin onların gözlədiyi kimi olmadı, podpolkovnik özü kabinetindən çıxdı.

– Cənab zabitlər! – deyə onlara müraciət etdi, – bu gün yataqxanaları yoxlatmaq istəyirəm. Xahiş edirəm, arxamca gələsiniz!

Zabitlər onun arxasınca getdilər.

Yoxlama qalada yerləşən rotaların yataqxanalarından başlandı. Dobrovolski həmişəki kimi yenə də öz amansız hərəkəti ilə hamını vahiməyə salır, xoşuna gəlməyən bir şeylə rastlaşdıqda qızışıb kükrəyirdi. Kapitan Qasse ayıq düşdüyü üçün, özü Denşikini gözqaşla başa salmışdı ki, tez rotaya xəbər çatdırsın. Buna görə də hər zaman olduğu kimi, bu dəfə də onun rotasındakı səliqə və təmizlik podpolkovnikin rəğbətini qazana bildi. Kapitan Qassenin rotasındakı həyəcan və təşvişdən Smirnovun da soldatları, gec də olsa, hərəkətə gəlmişdilər. Yataqxanada tələsik səliqə-sahman yaradılmışdı. Drujin isə həyəcanda idi. Çəkməsinin boğazında saxladığı kitabça bir dəqiqə də olsun onu rahat buraxmırdı.

Budur, kapitan Smirnovla birlikdə podpolkovnik yeddinci rotanın yataqxanasının qapısında göründü. Feldfebelin səsi eşidildi. Hərə durduğu yerdə donub qaldı. Feldfebel batalyon komandirinə raport verdikdən sonra yoxlanış başlandı. Smirnovun xəstə, solğun sifətinin rəngi daha da ağarmışdı. O, Dobrovolskinin nəzərinə dəyə biləcək hər bir qüsur və səliqəsizliyin fikrini əvvəlcədən çəkirmiş kimi, çox həyəcan keçirirdi. Yataqxanada batalyon komandirini qəzəbləndirən yalnız bir şey oldu: soldatlardan ikisinin başı altından köhnə fransız romanı tapıldı. Smirnov bir şeyə sevindi ki, bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

romanlarda batalyon nizamnaməsinə müğayır olan heç bir şey yoxdu. Bununla belə, podpolkovnik onları görən kimi, gözləri az qaldı ki, kəlləsinə çıxsın. Kitabları elə oradaca parça-parça eləyib təpiklədi. Qəzəbli gözləri ilə Smirnovu başdan-ayağa süzdü. Sanki onu birinci dəfə idi ki, görürdü.

– Kapitan Smirnov – deyə o, sözləri heca-heca tələffüz etdi, – məlumunuz olsun ki, batalyonda mütaliə qadağan edilmişdir. Mütaliə soldat üçün zəhərdir. Bu haqda yoxsa eşitməmisiniz?

– Eşitmişəm, cənab batalyon komandiri!

– Eşitmisiniz, ancaq dərk etməmişsiniz, cənab kapitan! Dərk etmək lazımdır! Başla, kəllə ilə dərk etmək lazımdır!

Yataqxanadan çıxarkən, qapı ağzında qoyulmuş su vedrəsinin görkəmi nədənsə onun xoşuna gəlmədi. Ayağını vedrəyə elə vurdu ki, su çalxalanıb yataqxananın içinə səpələndi və podpolkovnikin qara lak çəkməsi də islandı. Bundan o, daha da qəzəbləndi. Yavəri əyilib onun ayaqqabılarını silmək istərkən, üstünə çımxırdı. Kapitan Smirnov Dobrovolski tərəfindən gözlənilməz bu basqının belə qurtarmasına ürəyində sevindi. Çünki bundan daha dəhşətli hadisələr baş verə bilərdi.

Hamıdan çox sevinən soldat Drujin oldu; üzə vurmasa da, yaman qorxmuşdu. Dobrovolskinin yataqxanaya gəlməsi xəbərini eşidən kimi, özlüyündə bu qərara gəlmişdi ki, gizli ədəbiyyat saxlamağını yəqin batalyon komandirinə xəbər vermişdilər, o da soldatı cinayət başında tutmağa gəlir. Bu dəqiqələrdə keçirdiyi həyəcanı o heç kəsə, hətta düşməninə belə arzulamırdı.

O gecə hamı yatanadək batalyon komandirinin bu basqınından danışırdı. Bəzisinin gözünə heç yuxu da getmirdi. Soldat Sırojkin gecədən xeyli keçənədək yerində qurcalandı, bir böyrü üstdən o biri böyrü üstə çevrildi, ancaq yata bilmədi. Onunla qonşu çarpayıda yatan soldat bunu hiss etdi.

– Sergey, sənə nə olub? Yerinə barıt səpiblər, nədir?

– Ciyərim yanır, içmək istəyirəm.

– Lənət şeytana, durub içsənə.

– Vedrədə su yoxdur. Görmədin podpolkovnik vurub dağıtdı.

– Keşikçidə olar, get istə.

Sırojkin elə bil soldatın bu sözünü gözləyirdi. Şinelini çiyninə salıb, bayıra çıxdı. Lakin çox ləngidi. Geri dönüb çarpayısına uzanarkən yoldaşı gözlərini açıb soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hə, necə oldu, içə bildin?

– İçdim, qardaş. Ciyərim lap yanırdı.

– Di rahat yat!

Sırojkin yerinə uzandı, içərisinə yumşaq küləş doldurulmuş döşəyin üstündə kirpi kimi yuvarlanıb, yerini rahatladıqdan sonra gözlərini yumdu.

Qışlanın o biri başında pəncərə tərəfdə soldatlardan kimsə yuxuda danışırdı. Burnunda mızıldadığı qarma-qarışıq sözləri ayırd eləmək mümkün olmasa da, görünür ki, özünü zabit rütbəsində hiss etdiyindən hündürdən çığırır, kiməsə hirslənir, qarışıq əmrlər verirdi. Bu tərəfdə isə iki soldat bərkdən xoruldayırdı, elə bil yarışa girmişdilər; biri alçaqdan – fasiləsiz olaraq, o biri isə hündürdən – qırıq-qırıq nəfəs alırdı. Sırojkin özünü insanlardan uzaq, yan-yörəsini yırtıcı heyvanların bürüdüyü bir heyvanxanada hiss etdi. Bu xorultular, bəzən bir-birinin üstünə atılıb didişməyə başlayan iki vəhşinin nəriltisindən heç də fərqlənmirdi. Beynini dəlib, əsəbiləşdirən bu iyrənc xorultular sanki indicə, bu saat içində onu öz gəmirici dişləri ilə, əzab içində didəcəkdir. Ayağa qalxmaq, heç olmazsa, qışlanın qapısında, həyətdə yay gecəsinin təmiz havasında gəzişmək, bəlkədə onu bu cəhənnəm əzabından xilas edə bilərdi. Bu mümkündürmü? Yox! Belə bir hərəkət onu burada, yorulub fısıltıyla rahatca yatan soldat yoldaşlarının yanında həmişəlik üzüqara edə bilərdi. Dözmək, ancaq dözmək lazımdır! Dözməyin özü də onun üçün, baş verəcək hadisədən az dəhşətli deyildi. Yuxusunun ərşə çəkildiyi bu dəqiqələrdə ürəyi sanki indicə saplağından üzülüb düşəcək, ağzına gələcəkdi. Elə bir bir atlı bayaqdan bəri sinəsinə daxil olub yeyin-yeyin çapır, boğuq, sağır gumbultular sinəsindən qalxıb beynində əks-səda verir, burulur, beyni hərlənib alt-üst olurdu. Bu üzüntülü dəqiqələr ona bir il qədər əzablı, uzandıqca daha neştərli, amansız görünürdü. Bəs niyə gecikirlər? Yoxsa ona etibar etmirlər? Bəlkə bunu bir fitilə çevrilib bütün qışlanı partlatmaq, adamları qırıb tökmək, onların qana bulaşacaq cəsədlərindən həzz almaq fikrinə düşmüşlər?

Sırojkin üçün artıq indi heç bir şeyin əhəmiyyəti yoxdu. O, ancaq bir şey arzulayırdı, nə olursa-olsun, tez, indicə sürətlə baş verib qurtarsın, onu bu əzablı intizar dəqiqələrinin neştərlərindən xilas etsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Bu zaman qonşu çarpayılardan biri bərkdən səsləndi. Sırojkin gözlərini azca, ehtiyatla araladı, səs gələn tərəfə baxdı. Soldat Poqrebnyuk yatağından qalxıb, ayaqqabılarını yuxusuna mane olmamaq üçün kobud soldat çəkmələrinin yeyilib getmiş pəncələri üstə otaqdan çıxdı. Sırojkin soldatın məhz bu dəqiqədə bayıra çıxmasına çox sevindi. Lakin bir şeyə təəssüfləndi ki, gecənin bu vaxtında Poqrebnyukun bayıra çıxdığını özündən başqa yatanlardan heç kəs görmədi. Yox, bununla belə, deyəsən bu gecə hər şey Sırojkinin arzusuna uyğun olaraq baş verirdi. Bir neçə dəqiqədən sonra Poqrebnyuk içəri qayıtdığı zaman ayağı podpolkovnikin ertədən vurub bir kənara atdığı boş vedrəyə toxundu, vedrə zərblə divara dəyib cingildədi. Yatanlardan bəzisi diksinib oyandı və gözlərini ovxalayaraq, Poqrebnyuku qapıda görən kimi mızıltılı, yuxulu səsləri oradan-buradan eşidildi, soldatın qabırğasına yer-yerdən ana söyüşü yağdırıldı. Poqrebnyuk ağzını açmadan səssiz-səmirsiz keçib yatağına uzandı. Yenə üzücü dəqiqələr!

Bir o qədər keçmədi ki, bayırda qapının ağzında ayaq səsləri eşidildi. Sırojkin yuxusuzluqdan qızarmış göz qapaqlarını yumaraq özünü yuxuluğa vurdu. Lakin o, gələnlərin içərisində Varlamovu ayaqlarının səsindən tanıdı, xrom çəkmələrinin cırıltısı eşidildi, sonra nədənsə birdən-birə kəsildi. "Bu nədir, yoxsa geri qayıtdılar?" Sırojkin nigaran gözlərini aralayıb qapıya tərəf baxdı. Ay işığının içəri süzüldüyü astanaya dörd nəfərin kölgəsi düşmüşdü. Varlamov özü ilə gələn soldatları qapının ağzında yerləşdirərək onlara yavaşcadan nə isə pıçıldayırdı. Sırojkin yenə gözlərini yumdu. Xrom çəkmələrin səsi yaxınlaşdı... Sırojkinin qulağının lap dibində Varlamovun vahiməli səsi hündürdən eşidildi.

– Qalx!..

Çoxdan gözlədiyi bu səsə Sırojkin birdən-birə qalxmaq istəmədi. Bədənini soyuq bir üşütmə bürüdü. Sağında, solunda yoldaşlarının gurultu ilə qalxdıqlarını eşidirdi. Varlamov çaxnaşmaya düşmüş qışlada ikinci dəfə hündürdən çığırdıqda o da yerindən qalxmağa məcbur oldu. Ayağa qalxmış soldatlar alt paltarda hərə öz çarpayısının yanında durmuşdu, bəzisi isə Sırojkin kimi yenicə qalxırdı. Hamı təəccüblə bir-birinə baxır, göz-qaş oynadır, çiyin çəkir,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu sirli basqının səbəbini öyrənməyə çalışırdı. Lakin heç kim açıq-açığına soruşmağa cəsarət etmirdi. Sırojkin də gözlərini ovuşdura-ovuşdura, təəccübdən ağzı açıla qalmış yoldaşından soruşdu:

– Nə qiyamətdir, nə olubdur ki?

Yoldaşı çiyinlərini çəkdi. Varlamov hamının qalxdığını yoxladıqdan sonra hündürdən bildirdi:

– Heç kəs öz çarpayısının yanından tərpənməyəcəkdir. Axtarış olacaq!

Bu sözdən Drujinin rəngi ağappaq ağardı. Arada xəyanət olduğunu başa düşüb dişlərini qıcadı. Belə hallarda özünü itirmək hər şeyin məhv olmasına səbəb ola bilərdi. Buna görə tez özünü ələ almağa çalışdı. Böyrü üstə yıxılmış köhnə çəkməsinin bir tayını ayağı ilə çarpayının altına, dib tərəfə itələdi. Keşikçilərdən iki nəfəri qabağa çıxıb, Varlamovun əmrini gözləyirdi. Poruçik onlara tərəf işarə eləyən kimi çarpayılara yaxınlaşdılar. Onlar sakitcə durmuş soldatları bir tərəfə itələyərək, çarpayıların üstündə, altında axtarışa başladılar.

Hər şey alt-üst olurdu. Drujin həyəcanını gizlədərək özünü sakit göstərməyə çalışırdı. Ancaq gözlərinin ucu ilə Varlamovun keşikçilərlə birlikdə balışları və küləş döşəkləri necə qaldırıb çırpdıqlarını, soldat sandıqçalarını nə cür alt-üst etdiklərini görürdü. Nəhayət, növbə ona yetişdi. Varlamov hər şeyi qabaqcadan bilirmiş kimi yoxlanışa birinci olaraq onun ayaqqabılarından başladı. Ayaqqabıları yerdən qaldırıb içinə baxmağı keşikçiyə əmr etdi. Keşikçi əyildi, əlini çəkmənin boğazına keçirib, barmaqlarını içində gəzdirdi. Başıaşağı tutub silkələdi. Bir şey tapmayıb yerə tulladı. Çəkmənin ikinci tayı yox idi. Soldat əyilib çarpayının altına baxdı, arxada künc tərəfdə çəkmənin o biri tayını görüb dizi üstə çökdü və əlini çəkməyə tərəf uzatdı.

Drujinin ona zillənmiş gözləri qəzəbdən az qala halqasından çıxacaqdı. Birdən beyninə qan vurdu, ayağını qaldırdı, çəkmənin o biri tayı üçün çarpayının altına uzanan soldata arxadan elə bir zərbə ilişdirmək istədi ki, bir daha oradan qalxa bilməsin, əli çəkmənin içinə çatmadan oradaca qana bulaşıb qalsın, öz soldat yoldaşını ələ vermək üçün bir də belə işə girişməsin. Belə bir anda özünü ələ almaq hər adama müyəssər olmasa da, Drujin bu böhranlı dəqiqədə də öz hissiyatına üstün gələ bildi. Dodağını dişlədi, arasında



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sıxdı, dodağından ağzına qan sızdı, bütün bədəni rəşə ilə sarsıldı, yumruqları düyünləndi.

Keşikçi çəkmənin o biri tayını yerlə sürüdərək dikəldi, qolunu boğazlığa keçirdi, barmaqlarının içində gəzdirəndə qulağına dəyən kağız xışıltısı onu diksindirdi; qanrılıb aşağıdan-yuxarı Varlamova baxdı və başını ehmalca tərpədərək qımışdı... Varlamovun gözləri işıldadı. Soldat boğazlığın içindən ikiqat bükülmüş bir kitabça çıxardaraq qatını açmadan poruçikə uzatdı. Varlamov həris bir çevikliklə kitabçanın qatını açdı və üstündəki yazıları tələsik, birnəfəsə oxuyub başa vurdu. Əvvəlcə axtardığını tapdığı üçün Drujinin üzərinə qəhqəhə çəkib acı-acı gülmək istədi. Sonra nə fikirləşdisə, pırpız qaşları çatıldı, burnunun altında soldata nə isə mızıldadı. Soldat Drujinə işarə edərək onu başa saldı ki, geyinib onlarla getməlidir.

Drujin şalvarını geydi, soldatın bir-birinin üstünə atdığı köhnə, altı yırtılmış çəkmələrini ayağına çəkdi və alt köynəkdə getməyə hazır olduğunu bildirdi. Yoldaşları baş vermiş bu hadisədən hələ də özlərinə gəlməmişdilər. Piyadalardan çoxu Drujində qorxulu və qadağan edilmiş ədəbiyyat tapılmasına təəccüb qalmışdı. Sırojkin isə gözlərini heyrətlə açaraq, guya yoldaşının halına yandığını yanında durmuş soldatın qulağına pıçıldayırdı. Poruçik Drujinin gimnastyorkasını geymək istədiyini gördükdə istehza ildə dodaqlarını büzüşdürdü:

– Gimnastyorkanı geyin! – deyə əmr etdi və gülümsədi. – Yoxsa yenə də buraya qayıdacağını güman edirsən?!

Drujin onunla höcətə girmək istəmədi; bunun mənası da yoxdu. Başını qaldırmadan gimnastyorkasını geydi. O, yoldaşlarının üzünə baxmaq istəmirdi. Heç şübhə etmirdi ki, onu məhz bu otaqda – birlikdə yatdıqları soldatlardan biri ələ vermişdir. Yalnız bir şeyin nigarançılığını çəkirdi: dal otaqda bəlkə də indi şirin yuxuda olan Bondarçukun bundan xəbəri yoxdur. Sübh açılanadək Bondarçuk məsələdən agah edilməli idi. Bəlkə onda başqa vərəqələr vardır? Xəbərdar edilməsə, onu da Drujin kimi qəflətən yaxalaya bilərlər. Bəs necə, hansı yolla? Drujin bunları düşünərkən Varlamovun əmri eşidildi:

– Gedək!

O biri soldatların çarpayılarında axtarış aparılmadığını gördükdə Drujin qəti inandı ki, burada xəyanət vardır. Dəyirmandakı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yığıncaqda iştirak edənləri bir-bir gözünün qabağına gətirdi. "Yox, onlardan heç biri ola bilməz! – deyə kəskin bir inamla öz-özünə səsləndi, – bəlkə də kiçik bir ehtiyatsızlıq belə bir nəticəyə gətirib çıxarmışdır. Soldatlardan yəqin ki, məni güdəni olub".

Drujini apardıqdan sonra soldatlar bir müddət baxa-baxa qaldılar, sonra birdən-birə mühakimələr, mülahizələr başlandı. Hərə baş vermiş hadisəni öz bildiyi kimi yozur, yoldaşınınkını heçə çıxarmağa, öz mülahizəsini güclə başqalarına bəyəndirməyə can atır, özünün düzgün düşündüyünə haqq qazandırmağa çalışırdı. Sırojkin isə bir tərəfdə başına toplaşmış soldatlara, Poqrebnyuku göstərərək, astadan nə isə danışırdı. Ona qulaq asanlar da arabir arxaya qanrılıb oğrun-oğrun Poqrebnyuka göz qoyurdu.

## X fəsil

Poruçik Varlamov səkkizinci rotanın qışlalarından birində gecəyarısı baş vermiş hadisəni həmin saat podpolkovnikə xəbər vermək üçün onu yuxudan oyatmağa ürək eləmədi. Əhvalat isə sübhün gözü açılan kimi bütün batalyona yayılmışdı. Varlamov özünün şəxsi təşəbbüsü ilə üstü açılmış bu məsələni podpolkovnikə danışmaq üçün hələ Dobrovolski yatağından qalxmamış onun qəbul otağının qapısını kəsdirdi. Lakin podpolkovnik gecəki əhvalatdan müxtəsər də olsa xəbər tutmuşdu; Varlamovu görən kimi, sorğu-sualsız, birdən-birə kələfin ucundan yapışdı:

– Hə, poruçik, məlumat ver! – deyə kabinetinə keçdi, Varlamov da onun dalınca içəri girdi.

– Zati-aliləri, gecədən keçmiş mənə xəbər verdilər ki, – deyə o, apardığı əməliyyatı təfsilatı ilə danışmaq üçün təmkinlə sözə başladı, – səkkizinci rotanın qışlalarından birində, soldat Drujində qadağan edilmiş ədəbiyyat vardır. Mən də vaxt itirmədən qışlada axtarış keçirtdim. Məlumatın düzgün verildiyi məlum oldu. Buyurun.

O, cibindən ikiqat bükülü kitabçanı çıxarıb stolun üstünə qoydu və Qafqaza gəldikdən sonra batalyon komandirinin etibarını ilk dəfə belə şərəflə yerinə yetirdiyinə qürurlanaraq, özünü çəkib dayandı. Dobrovolski kitabın qatını açdıqda, ilk sözdən gözləri çanağından oynayıb bərələ qaldı.

– Lenin...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hirsindən pensnesi az qala burnunun dərisindən qopub yerə düşəcəkdi. Lakin podpolkovnik başını əsəbiliklə silkələyərək, yumruqlarını stolun üstünə döyəclədikdə də pensnesi yerində qaldı, elə bil onu burnuna yapışdırmışdılar.

– Mən bunun üçün əlahəzrətin mübarək hüzurunda and içdim?! – deyə o, kükrəyib özündən çıxdı. Sifəti kürədən yenicə götürülmüş mis parçasına döndü. Danışdıqca boynunun damarları qabarıb qan sormaqdan şişmiş zəliyə oxşayırdı. – Siz də məni poruçik, çox inandırmağa çalışırdınız ki, sakitlikdir, salamatlıqdır... Bəs bu nədir? Yox, poruçik, siz buna başınızla cavab verməli olacaqsınız! Belə çıxır ki, onlar bolşevizm ürəklərindən başqa, ciblərində də buraya gətiriblər... Niyə susursunuz? Cavab veriniz!

Poruçik boğazını arıtdı:

– Zati-aliləri, güman eləmirəm ki, bu kitabçanı onlar özləri ilə buraya gətiriblər... Mənə elə...

Podpolkovnik yumruğunu elə çırpdı ki, stolun üstündə nə vardısa, hamısı bir zamanda atılıb cingildədi.

– Susun! Hələ bir mülahizə də yeridirsiniz?! Belə çıxır ki, bu vərəqələr göydən tökülüb... Bu Qafqaz göyündən, dağdan, daşdan... Bəlkə yağışla yağıb?

Podpolkovnikin son sözləri bir növ eyham kimi səsləndi.

– Zati-aliləri... zənn edirəm ki, onların yerlilərlə əlaqələri var.

– Bunu mənə niyə deyirsiniz? Özünüzə deyin! Aynanı qabağınıza qoyun, kəllənizə, beyninizə yeridin! Sizin hamınızdan bolşevizm iyi gəlir... Bəli, bəli, dəhşətli bolşevizm üfunəti! – O, hirsli addımlarla otaqda o baş-bu başa gəzişdi. Zəngə yaxınlaşıb hirslə basdı. Yavər içəri girən kimi ona qışqırdı. – Kapitan Smirnovu yanıma çağır!

Yavər bayıra çıxandan sonra, podpolkovnik arxası poruçikə tərəf duraraq pəncələri üstə qalxıb-endi, çiyni üstündən qanrılıb soruşdu:

– Soldat haradadır?

– Karserdədir, zati-aliləri.

Podpolkovnik bir yerdə qərar tutmurdu; bığlarını, dodaqlarını gəmirərək gəzişir, stola yaxınlaşır, hirslə nəyi isə götürüb çırpır, arada qəzəblə poruçiki süzür, yenə gəzişir, əlcəyini heç özü də bilmədən tez-tez dizlərinə vururdu. Varlamov nəfəsini çəkmədən durub gözləyirdi. Ən ağır cəza gözləyən adam kimi ürəyi şiddətlə çırpınırdı. Onu bu vəziyyətdən kapitan Smirnov qurtardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İcazə verin, zati-aliləri!

Dobrovolski ona cavab vermədi, əlcəklərini tələsik titrəyən əllərinə keçirib qabağa düşdü: – Gedək!

Varlamovla kapitan Smirnov da onun dalınca getdilər.

* * *

Karser Qalanın cənubunda, iki bürcün arasında yerləşirdi. Podpolkovnik qalanın içindən keçərkən heç kəs onun gözünə görünmək istəmirdi. Qəzəbli dəqiqələrində, gözünü qan tutmuş podpolkovnikin ağı qaradan seçmədiyini hamı bilirdi. Qabağına çıxanı təhqir etmək, ya da üstünə bağırmaq, caza vermək üçün ona bəhanə axtarmaq lazım gəlmirdi. Buna görə də uzaqdan görənlər onunla üz-üzə gəlməsin deyə tez geri qayıdır, yolunu dəyişirdi. Hətta səhra mətbəxinin yanında ocağını tüstülədərək səhər yeməyi hazırlamaq üçün vurnuxan aşpaz da onun gəldiyini görən kimi vedrələri əlinə alıb, su dalınca getmək bəhanəsi ilə aradan çıxdı.

Podpolkovnikin isə gözünə indi heç bir şey görünmürdü; fikri-xəyalı tamam başqa yerdə idi.

Karserin qapısında durmuş soldat onların yaxınlaşdığını görcək, tüfəngini sinəsinə basıb taxta müqəvvaya çevrildi. Varlamov qabağa çıxıb, karserin qapısındakı qıfılı açdı və rəqs edən adamlara məxsus qəribə bir reveransla kənara çəkilib batalyon komandirinə yol verdi. İçəridən gələn çürümüş zibil və kəsif rütubət iyi podpolkovnikin burnuna vurdu. Yaylığını çıxarıb burnuna, yanlara dirənən bığlarının altına tutdu və iti addımlarla içəri girdi, şüşəsi sınıq onluq lampa ilə işıqlandırılan ensiz dəhlizin yosunlu daş divarlarının dibi ilə karserə keçdi.

Səhərin çoxdan açılmasına baxmayaraq, karserdə hələ də, demək olar ki, gecə idi. Şəhərin cənubuna baxan kiçik dəmir barmaqlıqlı deşikdən içəriyə nazik bir işıq zolağı süzülürdü. Əl içi boyda görünən bozumtul səma, qaranlıqda harada isə, karserin divarına vurulmuş kirli boz əski parçasına oxşayırdı. Pəncərə ilə divarın arasında, qaranlıq küncdə qoyulmuş köhnə taxtın üstündə oturan Drujinin ancaq başı görünürdü.

Drujin heç gözünü qaldırıb içəri girənlərə nəzər də salmadı. Başını ovucları arasına alıb oturmuşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Podpolkovnik yaylığını burnundan ayırmadan dəhlizdəki lampanı içəri gətirməyi Varlamova əmr elədi. Bir azdan alaqaranlıq karser onluq lampanın sısqa işığı ilə aydınlaşdı. Pərişan saçları söyüd budağı kimi üzüaşağı tökülən Drujin üstünə küləş döşənmiş taxtın üstündə qımıldanmadan oturub fikirləşirdi. Sanki o nə içəri girənləri, nə də onların rütubətli divarlarda titrəşən eybəcər kölgələrini görürdü. Podpolkovnik kəsif havadan keyişən boğazını arıdıb irəli gəldi. Drujinin qabağında qıçlarını ayırıb durdu. Barmaqları gur saçlarının içinə daraq kimi ilişib qalmış Drujinin, bu sıravi soldatın belə etinasız hərəkəti batalyon komandirini hövsələdən çıxartdı.

– Qalx! – deyə o, üz-gözünü turşudub çığırdı.

Bu səs darısqal karserin köhnə, qədim divarlarına toxunub boğuq gumbultu qopartdı. Drujin başını qaldırdı və qarşısında ədəbsiz şəkildə ayaqlarını aralamış Dobrovolskiyə qəzəbli bir nəzər saldı, elə o anda da üzünü ikrahla yana çevirdi; qollarını sinəsində çarpazladı. Dobrovolskinin səbri tükəndi. Əyilib Drujinin yaxasından yapışdı və onu dartışdırıb silkələdi.

– İt uşağı! Bu kitabça səndə haradandır? Cavab ver! Bunun üstündə çoxlarının başı dar ağacında çürüyüb, qıçları havada rəqs eləyib.

Drujin podpolkovnikin qəzəbindən şabalıd qabığıtək partlamağa gələn xırdaca gözlərinə sakitcə, lakin təsvirə gəlməz bir qəzəblə baxıb susurdu. Dobrovolski içəridən qaynayan bağlı bir qazan kimi, sanki bu dəqiqə hirsindən partlayacaqdı. O, təkrar Drujinin yaxasını dartışdırdı:

– Cavab verəcəksənmi, rəzil?

Drujin tövrünü pozmadan, həmin sakit baxışlarını podpolkovnikin dərisi rəşəyə gəlmiş ətsiz sifətində gəzdirərək yavaşcadan, lakin qəti bir səslə dedi:

– Mənim ondan xəbərim yoxdur...

Sözü ağzından qurtarmamış, podpolkovnik yumruğunu Drujinin çənəsinə ilişdirdi. Soldat müvazinətini itirib arxası üstə küləşli taxtın üstünə sərələndi.

Kapitan Smirnovun bədəni durduğu yerdə lərzəyə gəldi. Podpolkovnikin dustağı öz yanına çağırmaması, özünün bu havasız rütubət qoxuyan qaranlıq karserə gəlməsinin səbəbi kapitan Smirnova indi yavaş-yavaş aydınlaşırdı. Orduda fiziki cəzanın qadağan edilməsi bir çoxlarının, o cümlədən Dobrovolskinin də ürəyindən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

deyildi. Bu əmrdən sonra podpolkovnikin iştahı bir növ küsmüşdü. Adət elədiyi vərdişlərdən, həm də ordudakı bütün xidməti boyu sevdiyi, məhəbbət bağladığı adətindən birdən-birə əl üzmək ona təbii ki, ağır gəlirdi. O, demək olar ki, keçmiş vərdişləri üçün bəzən açıqdan-açığa darıxırdı da. Lakin keçmiş adətini öz kabinetində hamının gözü qarşısında təzədən bərpa edə bilməzdi. Bu onun ali dərəcələrindən tutub, aşağı mənsəbli adamlaradək hamının yanında qazandığı şöhrətə böyük zərbə ola bilərdi. Məhz buna görə də o, çox təəssüflə ayrıldığı vərdişlərini burada, gözdən iraqda, bağlı qapılar arxasında – şahidsiz-sübutsuz həyata keçirmək üçün işıqlı kabinetini qoyub havasına dözülməsi mümkün olmayan karserə gəlmişdi.

Varlamova o, bütün həyatını etibar eləyə bilərdi. Kapitan Smirnovun da təbiətinə bələd olduğundan, belə hallarda onu həmişə canlı bir şahid deyil, dilsiz-ağılsız bir canlı kimi nəzərdə tuturdu. Buna görə də Dobrovoski indi istədiyini edə bilərdi.

Smirnov, Drujinin ağzından qan axdığını gördü. Bu vəhşi rəftar onlardan başqa kimin nəzərinə çarpacaq, kim sübut edə biləcəkdi ki, soldatın ağzı-burnu əzişdirilmişdir. Daş divarlar, ağır karser qapısı hər şeyi öz kölgəsi altına alıb gizlədəcəkdir. Onlar yarım saatadək karserdə ləngidikdən sonra bayıra çıxdılar. Varlamov qapını qıfıllayıb, açarı yenə cibinə qoydu! Beləliklə də, hər şey bir daş altda, bir daş üstə qaldı.

Poruçik Varlamov elə o gün, rotalar təlim meydanından çəkildikdən sonra istintaqa başladı. Qərargahın ən kiçik otaqlarından birində o, hava qaralanadək səkkizinci rotanın vzvodlarında gözünə şübhəli görünən soldatları dindirdi. Özünün bütün üsullarını işə saldı, lakin heç kimdən bir söz qopara bilmədi. Hədə-qorxusu da kömək etmədi. Ən axırda Sırojkini çağırdı.

Sırojkin istintaqa getməyə tələsmirdi. Bilirdi ki, onun istintaq edilməsi sadəcə bir oyundur, başqalarının gözündən pərdə asmaq üçündür. Buna görə də keşik binasına, Varlamovun yanına çox həvəssiz halda gedirdi.

Soldatlardan birində qadağan edilmiş ədəbiyyatın tapılması bütün batalyonu ayağa qaldırmışdı. Drujin yoldaşlarından heç birini ələ verməmişdi. Hər cür təhqir və hədələrə, gözdən uzaqda, qaranlıq karserin divarları arasında ona verilən əzab və işgəncələrə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mətanətlə dözürdü. Ondan, "xəbərim yoxdur"dan başqa heç bir söz ala bilmirdilər. Sırojkin isə Bondarçukdan tutmuş, yerli təşkilat üzvlərinədək hamısını bir-bir ələ verə bilərdi. Onunla nəfəs-nəfəsə verib pıçıldaşan, təhlükəli dəqiqələrdə bir yerdə sığınan yoldaşlarını satmaq onun üçün çətin iş deyildi. Təkcə gözünü yummaq onun üçün kifayətdir, ucdantutma hamını bir-bir Varlamovun ovcuna qoyardı. Ancaq qorxurdu, öz canı üçün qorxurdu. Matroslardan qorxurdu. Buna görə də Varlamovun yanına gedərkən yolda qəti qərara gəlmişdi ki, gizli təşkilatın üzvlərindən heç kimi qələmə verməyəcəkdir. Varlamov onun cibini pulla doldursa da, dırnaqlarını qızıla tutsa da susacaq, dodağını dodağının üstündən ayırmayacaqdır.

Hələlik Drujinin həbs edilməsində ondan şübhələnmək üçün bir əsas yox idi. Matros kitabçanı çəkməsinin içində gizlədərkən, onunla bir qışlada yatan soldatlardan hər biri bunu görə bilərdi və Varlamova da xəbər vermək çətin deyildi. Həmin gecə Varlamovun keşikçi dəstəsinin içəri soxulmasından qabaq, soldat Poqrebnyukun bayırdan gəldiyini hamı görmüşdü və bu şübhənin onun üzərindən yayındırılıb "intelligentin" üstünə yönəldilməsinə, sözsüz ki, kömək edəcəkdi. Şoxsən özü də bu məsələdə az iş görməmişdi, elə həmin gecə çoxlarına pıçıldamışdı ki, "gözüm intelligentdən su içmir".

Sırojkin Varlamovun oturduğu otağın dəhlizinə təzəcə daxil olmuşdu ki, poruçikin qapısı açıldı, onların rotasından olan bir soldat başdan-ayağa pörtmüş halda içəridən bayıra çıxdı, görünürdü ki, Varlamov onu çox bərkə-boşa çəkmişdi. O, gözünü qaldırıb Sırojkinə baxmadan dəhlizdən çıxdı. Sırojkin qapını döydü, Varlamovun səsini eşidən kimi içəri girdi. Stol dalında oturmuş poruçikin hirsi hələ də soyumamışdı. Yaylığını çıxarıb, köpüklənən cəhənglərini sildi. Sarı tüklü əllərini bir-birinin üstünə qoyub özünü stulun üstünə atdı, sərt uzunsov sifətində süni bir təbəssüm göründü.

– Hə, Sırojkin, təzə nə deyə bilərsən? – Zabitin gözləri qıyıldı; stolun altından çıxan ayaqları az qala Sırojkinin çəkmələrinə toxunacaqdı. Buna görə də soldat azacıq geri çəkildi. O, poruçikin sözlərindəki eyhamı başa düşmədiyi üçün cavab verməyə çətinlik çəkirdi. Ağırlığını bir ayağından o biri ayağının üstünə salır, fikirləşir, götür-qoy edir, cavab verməyə söz tapmırdı. – Hə, susursan... Yoxsa təzə xəbər var? Çəkinmə, de! – Zabit gözlərini soldatın tük



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

basmış sifətinə zillədi. – Sənin xidmətini layiqincə qiymətləndirəcəyik, arxayın ol! Hə, de görüm, təzə nə xəbər var?

Sırojkinin səsi quyu dibindən çıxan kimi oldu:

– Elə bir xəbər yoxdur, cənab...

– Deməkk, sən qəti sözünün üstündə durursan ki, kitabçanı çəkmənin içinə qoyanda görmüsən? – Varlamov barmaqlarını nazik bığlarında gəzdirib hiyləgərcəsinə Sırojkini altdan yuxarı süzdü. – Hə-ə?!

– Elədir ki, var, cənab zabit!

– Bəlkə, onu çəkmənin içində gizlətmək haqqında çıxarılan qərarı da eşitmisən? Bir şeyə inanıram ki, özün belə qərarın çıxarıldığı məclisdə iştirak etməzsən. Buna tam əminəm. Hə, Sırojkin, nə deyə bilərsən?

– Eşitməmişəm, cənab zabit!

– Bəlkə pıçıldaşanda, ya da təsadüfən ağızlarından qaçan bir kəlmə, bir söz?..

Sırojkin inkarla başını buladı.

Varlamov ayaqlarını stolun altından çəkib, ayağa qalxdı, otaqda gəzişdi, pəncərənin ağzında Sırojkinə tərəf çəpəki durdu:

– Yaxşı, sənin xatirinə Poqrebnyuka da toxunmadıq.

– Nə üçün? – deyə Sırojkin fikirləşmədən təəccüblə soruşdu. Varlamov pəncərədən ayrılıb, istehza ilə gülümsədi:

– Səfeh, onu həbs etsəydik şübhə sənin üstündə qalacaqdı. Biz onu səndən yayındırdıq. Yox, o həbs edilməməlidir. Əslində... – deyə o, hiyləgərcəsinə Sırojkinə baxdı, – bəlkə də o, Drujinlə əlbirdir. Gecə vaxtı, o nə üçün bayıra çıxmış olsun? Bilmirsən? Bəlkə də kitabçasını başqa yerdə gizlətmək istəyirmiş, fürsət olmayıb, hə? Necə bilirsən? Bunu Drujin özü edə bilməzdi. Çünki üstündə göz olduğunu yaxşı bilirdi... Bir sözlə, gözümüz görə-görə onu azad buraxdıq... ancaq sənin xatirinə. Həbsə alınsaydı, sənə şübhə daha da artardı, axı sən onlara yaxın dostluq eləyirsən. Yox, yox, biz elə eləcəyik ki, sənin üzərinə kölgə düşməsin. Bundan arxayın ol və arxayın da işlə... – Varlamov əlini cibinə atıb, təzə bir manatlıq çıxartdı və onu Sırojkinə uzatdı. – Al, bunu hələlik cib xərcliyi elə...

Sırojkin əlini uzadıb pulu aldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XI fəsil

Bir neçə gün idi ki, Bondarçukun tapşırığı ilə RSDFP Batalyon komitəsinin üzvləri ikilikdə belə görüşmürdülər. Varlamovun keşikçi dəstəsi onların hər bir addımını təqib edirdi. Drujinin ələ verilməsində kimin barmağı olduğu hələ qəti müəyyən edilməmişdi. Lakin hamı Poqrebnyukdan şübhələnirdi. Onun həmin gecə keşikçi dəstəsinin içəri soxulmasından qabaq eşikdə olması, çoxlarında belə bir qənaət hasil etmişdi ki, məhz o, xəbər vermək üçün hamını yuxuya verib bayıra çıxmışdır.

Vaxtilə dostluq etdiyi yaxın yoldaşlarının ondan üz çevirib uzaq gəzmələri Poqrebnyukun özünə əvvəlcə təəccüblü gəldi, sonra həmin gecə vedrəyə toxunub hamını yuxudan ayıltdığını xatırlayıb başa düşdü ki, yoldaşları o gecəki əhvalatı ondan bilirlər. Bundan o, çox narahat oldu, gecələr yata bilmədi. Ürəyini açıb boşaltmaq, heç bir günah işlətmədiyini and içərək inandırmağa bir adam axtarırdı. Yoldaşlarının inadkarlıq və amansızlığı onu heyrətdə buraxmışdı.

Həqiqətə qulaq asan bir adam tapılmayacaqmı? Nə üçün onlardan heç biri həqiqəti üzə çıxarmaq üçün ona beş dəqiqə qulaq asmaq istəmir. Ona atılan böhtan axıra qədər gizlin qalacaq? Hamıdan artıq hörmət etdiyi, savadı az olsa da, dostlarının içərisində hamıdan ağıllı hesab etdiyi Bondarçuk bəs nə üçün deyilənlərə inanıb ona yaxınlaşmaq istəmir? Nə üçün bir neçə dəfə ona yaxınlaşmağa cəhd etdikdə, o hər dəfə bir bəhanə ilə ondan uzaqlaşmışdır? "Belə çıxır ki, mən xainəm, öz yoldaşlarımı nifrət etdiyim adamlara satmışam?.. Əgər özümə yaxın hesab etdiyim adamlar da məndən belə üz döndərirsə, bundan sonra mən kiminlə oturub durmalıyam? Podporuçiklərləmi?" O, ağır düşüncələr içərisində çırpınırdı. Günlər keçdikcə hiss edirdi ki, ona qarşı nifrət daha da artır, heç üzünə baxan da yoxdur...

* * *

Drujini istintaq etmək üçün Tiflisdən xüsusi müstəntiq çağırılmışdı. Arada cürbəcür rəvayətlər gəzirdi. Gizlində bəzən də açıqdan-açığa söhbət gedirdi ki, Drujin hər gün karserdə döyülür. Gizli ədəbiyyatın batalyon içərisində yayılmasında onun tək olmadığını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zorla boynuna qoymaq istəyirlər. Poqrobnyuk bunları eşitdikcə içəridən qıvrılıb yanır, ona tez-tez qəzəblə dikilən yandırıcı baxışlarından yayınmaq, gizlənmək üçün yer axtarırdı. Artıq buna dözə bilmirdi. Nə olursa-olsun Bondarçukla danışmalı idi.

Bu niyyətlə də təlimdən sonra Bondarçukla danışmağı qət etdi. Təlim meydançasında onu bir dəqiqə də olsun gözdən qoymurdu. Lakin təlim qurtarıb soldatlar nahara getdikdə Bondarçuku gözdən itirdi; nə qədər axtarıb, özünü ora-bura vurdusa, heç yerdə onu tapa bilmədi. Yoldaşlarından Bondarçuku görüb-görmədiklərini soruşmaq istəmirdi, çünki bu onları təzədən şübhəyə sala bilərdi.

Poqrebnyuk tərəfindən axtarılmasından xəbəri olmayan Bondarçuk isə bu zaman bir gün qabaqcadan dərzi Usubla şərtləşdiyi kimi onun dükanında, pərdənin dalında oturub Bəhramı gözləyirdi. Bəhram ləngiyirdi. Yarım saatdan artıq idi ki, dərzi şagirdi onun dəmirçixanadan çıxdığını xəbər gətirmişdi. Buna görə də Usub şagirdi arxayınlıqla bazara göndərmiş, özü isə dükanda tək qalmışdı. Tez-tez pərdənin dalına keçir, Bəhramın öz işində səliqəli olduğunu, əgər gecikirsə, bunun bica yerə deyil, yəqin mühüm bir şeylə bağlı olduğunu Bondarçuka söyləyirdi.

– Cavan olsa da, öz işini bilən oğlandır – nigaran olmayın. Qazdan ayıqdır. Yatanda da dovşan kimi gözü açıq yatır. Tük əsən kimi duyuq düşür. Elə bil havadan iy çəkir... Darıxmayın, harada olsa indilərdə gəlib çıxar.

Usub yenə də pərdənin dalından çıxıb qapıya yaxınlaşdı. Bəhramın gəlib-gəlmədiyini yoxlamaq üçün boylanıb küçə yuxarı, sonra da dönüb aşağıda, misgər dükanları cərgəsinə tərəf baxdı; gözünə sağ tərəfdəki baqqal dükanlarının qabağı ilə gələn soldatdan başqa heç kəs dəymədi. Arıq boynunu uzadaraq, dimdik yeriyən sarışın soldat hər dükanın ağzına çatanda ayaq saxlayıb içəri baxırdı. Görünür ki, o nə isə almaq istəyir, ya da kimi isə axtarırdı. Soldatın bu hərəkətindən Usub şübhəyə düşdü. Tez özünü içəri salıb gördüyünü Bondarçuka danışdı. Bondarçuk məsləhət gördü ki, dərzi dükanının qabağında durub, özünü bir işlə məşğul kimi göstərsin. Küçədə vurnuxan soldat dükana yaxınlaşanda Bondarçuk onu pərdənin arasından görə biləcəkdir. Bu adam bəlkə də Bondarçukun izinə düşüb, onu təlim meydançasından haraya getdiyi ilə maraqlanıb... Hər halda izi azdırmaq lazım idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Usub iri ütünü əlinə alıb bayıra çıxdı, içindəki kömürləri közərtmək üçün dükanın qabağında onu sağına-soluna yelləməyə başladı. Bayaq baqqal dükanlarının qabağında küçəni eninə-uzununa ölçən soldat, görünür ki, axtardığını tapa bilməmişdi; birbaşa Usubun dükanına tərəf gəlirdi. Dərzi burnunun altında zümzümə edə-edə, guya heç şeyi görməyirmiş kimi, közərmiş ütünü yelləməkdə davam edirdi. Soldat dərzi dükanının qabağına çatıb irəli baxdı. Alçaq tavanı hislənmiş bu dükanda heç kəsi görmədikdə, yoluna düzəlib getmək istədi. Usub onun qabağını kəsdi.

– Buyurun içəri, soldat, tikdirməyə, yamamağa nəyiniz var? Sizin üçün ucuz qiymətə düzəldərəm, hə, buyur. – Usub səsini alçaltdı. – Bəlkə satdıq bir şeyiniz var? Nə olar ki, ona da baxarıq. Hə, çəkinməyin...

– Heç şey yoxdur, – deyə soldat Usubun sözlərinə axıradək qulaq asmadan, o yan-bu yana boylana-boylana sovuşub getdi.

İçəridə his çəkmiş pərdəni aralayaraq onlara baxan Bondarçuk soldatı tanımışdı: bu Poqrebnyuk idi. "Demək, deyilənlərin hamısı doğru imiş. İndi də görünür, mənim izimə düşmüşdür. Eh, adamları tanımaq nə qədər çətinmiş!"

O nə qədər fikirləşdisə Poqrebnyukun belə bir yola düşməsinə səbəb tapa bilmədi. Onu nə vadar edə bilərdi? Pulamı aldanmışdır? Əlbəttə, yox! Buna onun heç ehtiyacı da yoxdu, hər ay seminariya müəllimi olan atasının göndərdiyi pulları haraya xərcləməyini bilmirdi. Zabitlərlə də onun arasında olan gərgin münasibət, hər gün getdikcə qüvvətlənir, dərinə işləyirdi. Təlim zamanı səbəbli-səbəbsiz cəza alan, kiçik zabitlərdən tutub podpolkovnikin özünədək hamı tərəfindən incidilən, tez-tez təhqir edilən Poqrebnyuk indi nə oldu ki, canla-başla onlara xidmət etməyə başladı?! Bondarçuk buna inanmırdı! Burada açıq hiss olunurdu ki, poruçik Varlamovun əli vardır. Ehtimal ki, o, Poqrebnyuku toruna sala bilmişdi. Poqrebnyuk isə sevgilisinə qovuşmağa vəd edən bir adama bütün dünyanı bağışlamağa hazır idi. Varlamov da görünür, "intelligentin" məhz bu nazik damarından yapışmışdı. Poruçik ona ən azı bir aylıq məzuniyyət düzəltməyi vəd edibsə, demək, Poqrebnyuk bunun müqabilində öz üzərinə daha ağır vəzifələr götürübdür. İndi də, budur, o öz borcunu sədaqətlə yerinə yetirməyə başlamışdır. Dünən Drujini ələ vermiş, bu gün də başqasının izinə düşmüşdür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Usub pərdənin dalına keçdiyi zaman Bondarçuku çox fikirli gördü.

– Tanıdınmı? – deyə o, maraqla soruşdu.

– Tanıdım!

– Yaxşı adama oxşamır, eləmi? Bayaqdan göz qoyurdum, hər dükana baş salmamış dini-imanı yerinə gəlmirdi. – O, Bondarçukun birdən qüssələndiyini görüb təəccüblənmədi. – Sizə nə oldu? Yoxsa doğrudan da şübhəlidir?..

Bondarçuk qarşısında durmuş narahat dərzinin üzünə baxmadan təəssüflə başını yırğaladı. "Bəlkə də! Ehtiyatı əldən vermək olmaz. Bu saat Dobrovolski bütün gücünü işə salmışdır. Hamını bir-birinin üzərinə qaldırır".

Arxadan, qapının ağzından ayaq səsi eşidildi. Usub pərdənin ucunu qaldırıb baxdığı zaman, Bəhramın hövlnak içəri girdiyini gördü. Tez qabağa gəldi.

– Nə olub? – deyə o, sinəsi atılıb düşən Bəhramdan soruşdu. Bəhram onun sualına cavab vermək əvəzinə, başı ilə pərdəyə tərəf işarə elədi:

– Gəlib?

– Əlbəttə, gəlib! Yarım saatdan artıqdır ki, oturub səni gözləyir. Kişini də bu qədər incitmək olar? Özü də bu vaxt!.. Keç!

Bəhram Usubu başa saldı ki, əlinə bir iş alıb, özünü məşğul kimi göstərsin. Usub bir söz demədən bardaş qurub, yarımçıq qalan arxalığa kök atmaqla məşğul oldu. Bəhram arxası qapıya tərəf oturaraq, astadan xahiş etdi ki, Usub arabir qapıya tərəf nəzər salsın. Bayaqdan bəri küçədə, dükanların qabağında vurnuxan bir soldatın hərəkəti ona çox şübhəli görünmüşdü. Yəqin ki, o təkrar qayıdıb dükanın qabağından keçəcəkdir.

Usub Bəhramın dediyi adamın bayaq dükana başsalan soldat olduğunu yəqin etdi. Demək, o hələ də buralarda vurnuxur?! Axı onun qarnının ağrısı nədir? Bəlkə, Bəhram da elə buna görə gecikib?" – deyə özü də narahat oldu. Bəhram əlinə keçən biçili bir parçanın o yan-bu yanına baxa-baxa deyirdi:

– İndi o biri səkidən bir soldat keçəcəkdir. Fikir ver, gör sənin dükanına tərəf göz qoyur, ya yox!

Usub bir qulaqlığı qara sapla bərkidilmiş, şüşələri çalın-çarpaz cızılmış köhnə eynəyini biçilmiş parçaların altından axtarıb tapdı və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

burnunun üstündə möhkəmlətdi. Əlindəki iynəni saplaya-saplaya bayıra çıxdı. Bayaq onun dükanını diqqətlə süzüb keçən soldat, o biri səkidən ötürdü. O, yenə də qabağına çıxan hər dükana, hətta dəlləkxanaya da baş soxub baxır və axtardığını tapmadığı üçün ləngiməyib keçirdi.

– Ona görürəm ki, nə mənim, nə də başqalarının dükanı lazımdır. – Usub gözünü küçədən ayırmadan danışırdı, – bayaq buraya da baş çəkib gedib. Daha buraya nəyə baxsın; dədəsinin başı burada qalmayıb ki?.. Siz də başlamısınız ki, şübhəlidir... Hansı axmaq adamı belə axtarar? Elə bil gəmisi batıb... Özü də, odur bax, hamama tərəf buruldu.

Bəhram onu təşvişə salan bu soldatın küçədən çəkilib getdiyini eşidincə yerindən qalxıb pərdənin dalına keçdi. Bondarçukun səbri lap tükənmişdi. Lakin Bəhramın gecikməsinin soldat Poqrebnyukun küçədə dükan-dükan dolaşması ilə bağlı olduğunu öyrəndikdə sakitləşdi.

– Mənə elə gəlirdi ki, – deyə Bəhram gecikməsinin səbəbini yerli-yerində Bondarçuka danışmağa başladı, – o səni buraya girərkən görmüşdür. Buna görə də vaxtında gələ bilmədim, durub uzaqlaşmasını gözləyirdim.

– Bilirəm, – deyə Bondarçuk onun sözlərini təsdiq etdi. – Bizim rotadandır. Drujinin də ələ verilməsini çoxu ondan bilir.

– Məni də şübhəyə salan elə bu idi. Qaladakı əhvalatdan sonra günün günorta vaxtında onun sərbəst küçədə gezişməsi səbəbsiz ola bilməzdi. Halbuki eşitmişik ki, batalyonda möhkəm rejim yaradılmışdır.

Bondarçuk gülümsədi:

– Bu elə möhkəm rejim yaradılması deməkdir: bu saat soldatların şəhərə çıxmasına daha da tez-tez icazə verilir. Buraxırlar, sonra da dalınca göz qoyurlar. Təşkilatın izinə düşmək üçün! Poqrebnyukun da bugünkü hərəkəti ikisindən biridir, o ya açıqdan-açığa xəyanət yoluna düşüb, ya da onun sadəliyindən istifadə edirlər. Qarğa ilə şahin tutmaq fikrinə düşüblər... Ancaq – Bondarçukun gözləri qıyıldı. – Heç inanmıram ki, ona etibar eləməyə bilələr. Nə deyim?! Poqrebnyuk mənim üçün bir tapmacadır – baş aça bilmirəm.

Onlar əsl mətləbə keçdilər. Drujinin karserdə döyülməsi xəbərindən həyəcanlanan təkcə matroslar deyildi. Piyadalar içərisində



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də çaxnaşma və təşviş vardı. Sosial-demokrat qrupu soldatları ayağa qaldırmağa və Drujinin döyülüb-döyülməməsini öz gözləri ilə görmək üçün onlara göstərməyi tələb edirdi. Belə əhvali-ruhiyyə bütün rotalara sirayət edir, hamı pıçıldaşır, batalyon komandirinin vəhşi hərəkəti Dobrovolskinin inanılmış rotaları içərisində də rəxnə salırdı. Bondarçuk və onun yoldaşları bundan istifadə etmək üçün yerli sosial-demokrat təşkilatı ilə danışmağı qərara almışdılar. O, məhz bu məqsədlə dərzi Usubun dükanına gəlmişdi.

– Dəmiri isti ikən döyərlər, – deyə Bondarçuk fikrini Bəhrama izah etdi. – Hazırda, demək olar ki, piyadaların içərisində də Dobrovolskinin rejiminə qarşı qəzəb oyanmışdır. Narahatlıq tez-tez bizim qulağımıza da dəyir. Drujinin döyülməsi xəbəri elə bir partlayış olacaqdır ki, Dobrovolski peşmançılığını uzun müddət çəkib qurtara bilməyəcəkdir. Buna görə də sizin köməyinizə ehtiyacımız var.

Bəhram kömək üçün hər dəqiqə hazır olduqlarını bildirdi. Bondarçuk Drujinin onlara göstərilməsi haqqında xırdaca vərəqlərin yazılmasını xahiş edirdi. Bunu rotalarda etmək mümkün deyildi. Əgər hər rotaya dörd-beş vərəqə paylana bilsəydi, böyük təsiri olacaqdı. Bəhram Bondarçuku arxayın edib, vəd verdi ki, iki gündən sonra, həmin vərəqələri hazırlayıb onlara çatdıracaqdır. Bondarçuk elə oradaca mətni yazıb Bəhrama verdi. On-on beş kəlmədən ibarət olan bu mətndə Bondarçuk hər şeydən qabaq, piyadaların hisslərinə toxunmaqla, onları təsir altına almaq istəyirdi.

Drujinin döyülməsi Dobrovolskinin etibarlı soldatları arasında da batalyon rejiminə qarşı qəzəb doğurmağa başlamışdı. Onların dillənmələri çoxdan bəri daxildə qaynatdıqları etirazın partlaması üçün kiçik bir bəhanə lazım idi. Drujinin döyülməsi xəbəri bu partlayış üçün gözəl başlanğıc ola bilərdi.

Bəhramı indi bir məsələ düşündürürdü; görəsən Drujin ona verilən ağır əzab və işgəncələrə axıradək dözə biləcək ya yox? Bondarçuk dostunu tərifləməyə başladı:

– Mən arxayınam ki, son nəfəsində də onun dili dolaşıb yoldaşlarını ələ verməyəcək... Başqası olsaydı, bəlkə də bu əziyyətlərə dözməyəydi...

Onlar danışıb qurtardıqdan sonra Usub adət elədiyi kimi, ütünü əlinə alıb bayıra çıxdı, onu yelləyə-yelləyə o yan-bu yanı nəzərdən keçirdi. Gözünə şübhəli bir şey dəymədikdə başı ilə içəriyə işarə elədi. Dükandan birinci Viktor Bondarçuk çıxıb qışlaya tərəf yönəldi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, arxasına baxmadan gedirdi. Kilsə meydançasının alt tərəfində xəlvət döngələrə buruldu. Gün bərk qızmışdı.

Hər iki tərəfdən palçıq divarlarla hörülmüş tozlu döngələrdə ağıllı-başlı bürkü vardı. Yanından sürətlə keçən bir atlı elə tozanaq qopardı ki, Viktorun boğazı və burnu geyişdi; bir neçə anlığa toz buludu içərisində hərəkətsiz durub qaldı. Qabağı görmək mümkün deyildi. Toz divarların üstündən həyətlərə, oradan qol-qanadları görünən meyvə ağaclarının üstünə qonaraq çəkildiyi zaman Bondarçuk başdan-ayağa boz rəng almış üst-başını çırpdı və ikinci belə bir atlının qurbanı olmamaq üçün addımlarını yeyinlətdi, yolun narın tozlu yerini tez ötüb keçmək istədi. Bir neçə addım atmışdı ki, arxadan onu çağırdılar. Bondarçuk Poqrebnyuku səsindən tanıdı və buna görə də dönüb baxmadan yoluna davam etdi. Poqrebnyuk Bondarçukun ayaq saxlamasını, hətta ona baxmadan getdiyini gördükdə dalınca yüyürdü. Təngnəfəs özünü ona çatdırdı.

–Viktor, axı səni çağırıram. – Poqrebnyuk onunla yanbayan addımlasa da, Viktor gözucu belə ona baxmır, özlüyündə nə barədə isə fikirləşirdi. – Bayaqdan səni axtarıram. Səninlə sözüm var...

Bondarçuk təmkinlə addımlayaraq hasardan düşən kölgəliyə keçdi və kinayə ilə soruşdu:

– Axtarırsan, yoxsa izləyirsən? Qarabaqara indi də mənim dalımca düşmüsən? Deyəsən yamanca yağlı tikə vəd ediblər. Hə? Yoxsa, itmilçəyi kimi dalımca düşməyə cəsarət etməzdin!..

Viktorun üzündə əmələ gələn acı istehza, bundan daha betəri onun sözlərindəki nəştərlər Poqrebnyukun axırıncı ümidini də parçalayıb dağıtdı. Halbuki son günlərdə o, yalnız Bondarçuka arxalanmış, onunla dərdləşib ürəyini aça biləcəyi ilə təsəlli tapmışdı. Yoldaşları ona arxa çevirdikdə, onun yaxınlaşmasıyla, dilsiz bir daş parçasına dönüb, soyuq baxışları ilə onu dara çəkdikdə o, Bondarçuka bağladığı ümidinin hərarəti ilə isinmişdi. O, düşünmüşdü ki, Bondarçuk onu soyuqqanlılıqla axıradək dinləyəcək, özünün heç bir günah işləmədiyinə onu inandıra biləcəkdir. Lakin indi məlum oldu ki, Bondarçuk onlardan da rəhmsizdir. Ona nəinki qulaq asmaq istəmir, hətta qılınc kimi kəskin sözləri yara vurmaqdan da çəkinmir.

Poqrebnyuk üçün daha nə qabağa, nə də dala yol qalmışdı. İndi o lüzumsuz bir adam idi, yol üstünə atılmış qara, tozlu bir daş kimi! Buna görə də məhz indi elə bu tozlu döngənin ortasında öz taleyini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həll etməli idi: ya özünün yoldaşlarına qarşı heç bir xəyanət etmədiyini dəridən çıxınca isbat etməli, ya da tamam başqa bir yol seçib uzaqlaşmalı idi. Bəli, uzaqlaşmalı! Uzaqlaşmanın mənası və mahiyyəti hələ Poqrebnyukun özünə aydın deyildi. Necə uzaqlaşmalı? Bəlkə, onu yoldaşlarından uzaqlaşdıracaq, heç zaman geri döndərməyəcək bir yol seçməli idi, insan öz sədaqətini isbat edə bilmədiyi vaxt seçdiyi yolu?..

Bondarçukun etinasızcasına başını aşağı salıb öz yoluna davam etdiyini gördükdə Poqrebnyuk onun qolundan yapışıb çığırdı:

– Yox, getməyəcəksən! Mənimlə məsələni ayırd eləməmiş heç yerə getməyəcəksən! Buraxmayacağam da.

Bondarçuk Poqrebnyukun bu hərəkətindən təəccübləndi. Sakit, pərişan bir soldat kimi tanıdığı Poqrebnyukun hirsindən rəngi qaçmış dodaqları əsirdi, gözlərinə qan dolmuşdu, sanki indicə o, quduz bir heyvan kimi onun üzərinə atılacaqdı. Bondarçuk təmkinlə soruşdu:

– Sənə nə olub, başa düşmürəm? Nə istəyirsən?

– Mən heç nə istəmirəm. Siz məndən nə istəyirsiniz? Soruşuram, nə üçün məni görəndə üz çevirirsiniz? Elə bil tauna tutulmuşam, hamı məndən qaçır. Danışmaq belə istəmirlər. Nə üçün? Nədən ötrü?

Bondarçuk ona cavab vermək, bu haqda onunla yerli-dibli danışmaq fikrində deyildi. Buna görə də Poqrebnyukun dediklərinə təəssüflə başını yelləyib yaxasını qurtarmaq istədi:

– Əgər yoldaşların səndən üz çevirirsə, get bunun səbəbini onlardan soruş! Mən haradan bilim?

– Yox, bilirsən? Siz dilləşmisiniz ki, məni təkliyəsiniz. Nə olar ki? Eləməyin. Ancaq sən də, o biriləri də qoy bilsin! mən xain deyiləm...

Poqrebnyukun səsi titrədi. Boğazı qəhərlənib sözünün gerisini deyə bilmədi.

Bondarçuk söhbəti dəyişmək məqsədilə soruşdu:

– Mənim dalımca niyə gəzirsən?

– Danışmaq üçün. Vzvodları, şose yolunu düzəltməyə göndərdilər. Mən fürsət tapıb, səni axtarmağa başladım. Heç yerdə tapa bilmədim. Axırı Sırojkin dedi ki, səni bazara tərəf gedən görmüşdür.

Bondarçuk birdən çevrilib Poqrebnyukun dik gözlərinin içinə baxdı. Onu təqib edən soldatın gözlərində o, bu dəqiqədə məkrli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baxışlarla üzləşəcəyini güman edirdi. Lakin Bondarçuk yanılmışdı; Poqrebnyuk ürək xırpalayan yazıq bir görkəmlə durub gözlərini döyəcləyirdi. Nəm çəkmiş bu tünd-mavi rəngli gözlərdə riyakarlıq və məkrdən heç bir əsər-əlamət görünmürdü; əksinə o, gözlər payız səması kimi dolub tutulmuşdu – bircə iynəli söz belə onların suyunu axıtmağa hazırdı. Bondarçukun ona ağır söz deməyə dili gəlmədi. Onun Sırojkin haqqında dedikləri isə Bondarçuku narahat etdi.

Dərzi dükanının görüş yeri olmasını Bondarçukun özündən başqa heç kəs bilmirdi. Lakin Sırojkinin Poqrebnyuku məhz o tərəfə göndərməsi Bondarçukda şübhə oyatdı. "Deməк, Sırojkinə nə isə məlumdur..." Başqa cür ola bilməzdi. Çünki Bondarçuk vzvodlar şose yolunu düzəltməyə göndərildikdə, dalda küçələrə keçib, özünü dərzi Usubun dükanına çatdırmışdı; döngələri də arxasına baxa-baxa burulmuşdu. Bəs necə olur ki, Sırojkin onun məhz bu tərəfə gəldiyini görə bilir? Yoxsa gizli bir göz onun izinə düşmüşdür? Bondarçuk özlüyündə qəti qərara gəldi ki, Sırojkin görüş yerinin məhz dərzi Usubun dükanında olduğunu bilməsə də, bu məsələnin ucundan-bucağından ona nə isə məlumdur. "Bəlkə Poqrebnyuku da bu məqsədlə onun arxasınca göndərmişlər?" deyə o, döngənin içində çıxılmaz vəziyyətdə qaldı. Ehtiyatsız deyilmiş bir söz və ölçülməmiş bir hərəkət ona çox baha başa gələ bilərdi. Buna görə də yaxasını Poqrebnyukdan qurtarmaq istədi.

– Əl çək, – dedi, – heç başa düşmürəm nə istəyirsən?

Bondarçukun ona belə amansız cavab verməsindən Poqrebnyuk yenə də coşdu.

– Mən onu istəyirəm ki, siz başa düşəsiniz: mən xain deyiləm. Bax bunu, başqa heç bir şey istəmirəm!

Bondarçuk istehza ilə gülümsədi.

– Yaxşı da, xain olma! Bunun mənə nə dəxli var?! Bir də kim axı sənə xain demişdir?!

– Kim demişdir? Doğrudur, heç kəs deməmişdir, heç kəsin də dilindən, bax, bu qulaqlarımla eşitməmişəm. Ancaq sizin qəzəbli gözləriniz deyir, məni görərkən susan dilləriniz, mənə tərəf çevrilən kürəkləriniz deyir! Bunlar dillə deyilməkdən daha əzablıdır...

Bondarçuk ona cavab vermirdi. Addımlarını yeyinlədərək, özünü qışla tərəfdən şose yolunu təmir edən öz vzvodlarına çatdırmaq istəyirdi. Poqrebnyuk da onun yanınca, eyni ahənglə addımlayırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Siz mənə inanmırsınız. Nə olar ki, qoy olsun! Ancaq mən dirigözlü şahid tapacağam. Bəli, tapacağam! O sizə deyər ki, mən xain deyiləm...

Qabaq tərəfdən iki nəfər göründü. Bondarçuk hündürdən danışan Poqrebnyuka təpindi:

– Bəsdir, gələn var!

– Olsun! Mənim üçün hər nəyin fərqi yoxdur. Bəli, bəli, mənim şahidim var. O özü sizə deyər. Onda inanarsınız. İnanmasanız da inanmayın...

## XII fəsil

Yay yenicə girmişdi ki, yağışlar başladı... Gecə-gündüz ara vermədən tökürdü. Keçidləri su basdığından şəhərlə əlaqə kəsilmişdi. Qala düzündə iki addımlığı görmək olmurdu. Qara buludlar dağların üstündən aşaraq şəhərin üzərinə yayılır, boz bir pərdə kimi, göydən sallanaraq hər şeyi – iki gövdəli çinarları, kirəmit damları, rəngli kərpicdən tikilmiş minarəni, erməni kilsəsinin zəngli qülləsini öz içərisində gizlətmişdi. Sanki bu şəhərdə canlı adına nə vardısa, hamısı bu boz pərdənin soyuq nəfəsi içərisində əriyib getmişdi.

Zəhlətökən yağışlardan adamların da üzü açılmırdı. Sifətlər göyün üzü kimi tutqun və qaşqabaqlı idi. Bazarlardan qızğın alverçi hay-küyü, cingiltilər, öz malını tərifləyən baqqalların çığırtıları, kilsə meydançasındakı əvvəlki söhbətlər, şən qadın gülüşləri daha eşidilmirdi. Sel axan küçələrdə adamlar seyrəlmişdi. Yalnız bir yerdən – Qala düzündən sübh tezdən ta günortayadək təlim keçən kiçik zabitlərin səsləri kəsilmirdi.

Batalyon komandirinin əmrinə görə təlimin keçirilməsinə heç bir şey mane ola bilməzdi. Soldatlar taqətdən düşənədək addımlayır, sürüşkən otların ütündə büdrəyib yıxılır, yenə durub addımlayırdılar. Kiçik zabitlərin səsləri çığırmaqdan xırıldayırdı; vzvodlar onlardan beş addım aralanan kimi, tez bağırıb geriyə çağırırdılar. Soldatlar kimi, vzvod komandirləri olan kiçik zabitlərin də paltarları sıxılmalı idi. Nəm onların bədənlərinə işlədikcə tükləri ürpənir, gömgöy göyərərək dişləri bir-birinə dəyirdi. Buna görə də onlar tez-tez papaqlarını çıxarıb dizlərinə çırpırdılar.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Getdikcə qaralan havada ara-sıra ildırımlar ətraf göz qamaşdırıcı işığı ilə bir anlığa aydınladır və bu zaman soldatlar canlı insandan daha çox Qala düzünə səpələnmiş boz, işıltılı qaya parçalarına oxşayırdılar. Rota komandirlərindən heç biri təlim meydançasına gəlməmişdi. Belə hallarda onlar adətən, zabitlərdən birinin otağına yığışaraq gecə yarısınadək qumara qızışırdılar. Bəzi vaxtlar başları dan yeri söküləndə ancaq ayılırdı.

Əzablı təlim günortadan bir neçə saat ötmüş qurtardı. Soldatlar paltarlarını qurutmaq üçün qışlalara dağılışdılar. Bondarçuk da əvvəlcə onlarla birlikdə qışlaya gedib paltarlarını qurutmaq, sonra da üç gün qabaq Bəhramla sözləşdikləri vərəqələri almaq üçün dərzi Usubun yanına getmək istədi. Bir neçə gün idi ki, o, vərəqələrin dalınca getməyə imkan tapa bilmirdi. Qışlaya çatmamış fikrini dəyişdi. Yoldaşlarından bir bəhanə ilə geri qaldı. Divarların dibi ilə bazara tərəf endi.

Yağış daha da şiddətlənirdi. Uzaqlarda, meşəli dağların o tayında göy guruldayırdı, ildırımın şaqqıltısı dağdan-dağa, yarğandan-yarğana əks edərək şəhərdə elə vahimə ilə eşidilirdi ki, sanki indicə dağlar uçub şəhərin üstünə töküləcək, duman içərisində itən evləri sel ağzına alıb aparacaq, kiçik çay daşı kimi özü ilə aşağılara yuvarlayacaqdır. Bondarçuk küçələrdə tək-tək adama rast gəlirdi, hamı evlərə, dükanlara çəkilmişdi. Dar, ensiz döngələrdən topuğadək suyun içi ilə keçmək lazım gəlirdi. Çəkmələri su çəkdiyindən onun barmaqlarının ucu gizildəyir və bundan bütün bədənini soyuq bürüyürdü. Dərzi Usubun dükanına çatanadək, bədənində islanmamış yer qalmamışdı.

Bondarçuk dükanın örtülü olan şüşəbənd qapısından içəri nəzər saldı. Usub tək idi. Adəti üzrə piştaxtanın üstündə bardaş qurub işə məşğuldu. Bondarçuk içəri girdikdə Usub onu tanımadı. Paltarlarından, papağından və kerz ayaqqabılarından süzülən sudan bir an içərisində onun durduğu yerdə gölməçə əmələ gəldi və su nazik bir zolaqla süzülərək dükanın o biri başına getdi. Bondarçuk papağını çıxarıb çırpdı. Usub ancaq indi onun alnına yapışmış yaş saçlarından tanıdı.

– Belə tufanda necə gəldiniz?

– Dənizçi üçün belə yağış boş şeydir, usta! Bir də, necə deyərlər, islanmışın yağışdan nə arı. Matrosun dirisi də, ölüsü də balıq kimi suda olur. Ancaq sudan çıxdıqda onun axırı çatır...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Usub balıq kimi indicə sudan çıxmışa oxşayan Bondarçukun sözlərinə başını buladı.

– Yox, belə olmaz, balıq öz yerində, adam öz yerində. Xəstələnə bilərsən... Deyəsən bu gün axır ki, sənin gimnastyorkanı qaytarmalı olacağam...

Usub gimnastyorkanı gətirmək üçün pərdənin dalına keçmək istəyəndə Bondarçuk onun qolundan tutub saxladı.

– Tələsmə, usta Usub. Əvvəlcə de görüm Bəhram sizə bir şey veribmi?

– Bəli, verib. Sırağagündən məndədir.

– Bu başqa məsələ. İndi gimnastyorkamı verə bilərsən.

– Keçin pərdənin dalına dəyişin.

Onlar pərdənin dalına keçdilər. Usub çoxdan yamayıb hazırladığı, lakin Bondarçukun həmişə buraya gəlməsi üçün bir bəhanə kimi özündə saxladığı nimdaş gimnastyorkanı ona verib yerinə qayıtdı.

Bütün günü ağır təlim keçən, bəzən də şəhərdə ayrı-ayrı varlıların işlərini görən və tez-tez təhqir edilən soldatlarda nə qədər tükənməz qüvvət olduğuna Usub məəttəl qalmışdı. Onun ürəyi öz ev-eşiyindən ayrılaraq, dünyanın o başından buraya göndərilən bu adamların halına mərhəmət hissi ilə çırpındı. Ayaqlarını balaca əyri atmaq – onların hər birinə ağlagəlməz cəza vermək üçün kifayət idi. Ancaq bununla belə bu adamlar dözür, səbir edir, qüvvət toplamaq üçün işgəncələrə mərdliklə sinə gərirdilər. Axirətləri nə olacaq? Onları bu Qalanın qədim divarları içərisində çürüdəcəklərmi? Soldat şinelində buraya sürgün edilmiş gənc matrosların taleyi birinci dəfə idi ki, Usub kişini bu qədər dərindən düşündürürdü.

Bondarçuk quru gimnastyorkanı geyib pərdənin dalından çıxdı.

– Hə, usta Usub, əmanəti verin, ləngiyə bilmərəm.

Usta piştaxtanın altına əyildi, orada bir xeyli qurdalandıqdan sonra qırmızı haşiyəli yaylığa sarınmış kiçik bir bağlama çıxarıb piştaxtanın üstünə qoydu.

– Buyurun. Ancaq bunu necə aparacaqsınız ki, bilinməsin?

– Birtəhər apararam...

Bondarçuk bağlamanı götürüb təzədən pərdənin dalına keçdi, dəsmalı açdı. Əli ilə səliqəli yazılmış vərəqələri iki hissəyə ayırdı, bir hissəsini gimnastyorkanın qoltuğuna və ciblərinə, o biri hissəsini isə çəkmələrinin boğazlarına dürtdü və geri qayıtdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Usta, buyurun, bu yaylığı sahibinə verərsiniz.

Usub yaylığı almadı.

– Səndə qalsa yaxşıdır; bədənini, saçlarını qurutmaq üçün lazım olar.

* * *

Bayırda yağış hələ də kəsməmişdi. Bondarçuk dükana gəldiyi yolla deyil, başqa dolanbac döngələrlə qışlaya qayıdırdı – divarların dibinə sürtülə-sürtülə gedirdi. Çünki yolun ortalarında əmələ gəlmiş gölməçələrə dizədək sel suyu yığılmışdı. Bir döngəyə çatıb durmalı oldu. Yolu dizədək su basmışdı. Bondarçuk çıxılmaz vəziyyətdə qaldı. Qayıtsınmı? Bunun üçün gəldiyi yol qədər geri dönməli idi. Gölməçəni də beləcə ayaqla keçmək mümkün deyildi. Durub fikirləşərkən arxadan səs eşidildi. Onu səsləyən özü də, atları kimi, çim su içində olan bir faytonçu idi. Onun başına saldığı cecim, kəhər atların sağrıları, faytonun qaldırılmış dəri örtüyü yağışdan tutqun bir parıltıyla işıldayırdı. Bondarçuk faytona yol vermək üçün divara sığındı. Fayton onun lap yanından ayaq yerisi az qala dizlərinə toxunaraq ötdü. Bondarçuk faytonun içində qara geyimli gözəl bir qadının olduğunu gördü. Qadın da qaldırılmış örtüyün altından divara sığınıb durmuş soldata baxdı. Fayton Bondarçukdan iki addım aralanmışdı ki, içəridəki qadının səsi eşidildi:

– Həsən kişi, əylən!

Faytonçu atların cilovlarını çəkdi. Qadın boylanıb Bondarçuku çağırdı:

– Cavan oğlan, gəlin oturun!

Bondarçuk nə cavab verəcəyini bilmədi. Tanımadığı bu gözəl qadının heç bir şeydən çəkinmədən onu öz faytonuna çağırmasının mənasını başa düşmürdü. Qadının bu cəsarətli hərəkəti onu şübhəyə saldı. Üstündə yazılı vərəqələr olmasaydı, bəlkə də heç bir şübhəyə düşməzdi. Lakin belə vəziyyətdə hər cür hadisə baş verə bilərdi. Qadın soldatın çəkindiyini hiss edib təkrar səsləndi:

– Gəlin, sizi gölməçədən keçirə bilərik. – Bondarçuk qadının niyyətini ancaq indi başa düşdü və yaxınlaşıb faytonun ayaqlığında durdu. O, minnətdarlıq etmək istəyirdi ki, qadın gülümsədi: – Əyləşin. Orada dursanız faytonu böyrü üstə aşıra bilərsiniz. – Bondarçuk qadınla üzbəüz oturdu. – Həsən kişi, sür, gedə bilərik!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fayton hərəkətə gəldi. Çarxlar gölməçənin içinə girdi. İrəli getdikcə su qalxdı və o qədər çəkmədi ki, ayaq yeri səviyyəsinə çatdı. Fayton azca yırğalanıb ləngər vurduqda su faytonun lap içərisinə dolurdu.

Qadın yağışdan qızarmış yaraşıqlı üzünün hər iki yanından pırtlaşıb çıxmış yaş qıvrımlarını əli ilə qara örpəyinin altına verdi və soldatı dindirmək məqsədilə dedi:

– Siz bu gölməçəni necə keçəcəkdiniz? Baxınız, çarxlar yarıyadək suyun içindədir.

Bondarçuk qadının bu sözləri müqabilində "elədir"dən başqa bir söz tapmadı. Yad qadınla üzbəüz oturmaq onu sıxırdı. Papağından tökülən su alnına, qaşlarına, oradan da burnunun üstü ilə süzülərək damcı-damcı faytona düşürdü. Bu onu darıxdırdığından Usubun verdiyi yaylığı çıxarıb üzünü suyunu sildi. Yaylığı onun əlində görən qadının iri gözləri açıla qaldı. Bondarçuk üzünü silib, yaylığı cibinə qoydusa da, qadının ona belə təəccüblə baxmasından özünü çox narahat hiss etdi. Ömründə ilk dəfə gördüyü bu gözəl qadının gözləri nə qədər nüfuzedici və kəsici idi. "O nə üçün mənə bu cür təəccüblə baxır? Yoxsa vərəqələrdən xəbər tutmuşdur? Bəlkə bu Cənub gözəli də casusdur? Belə isə görəsən onun fikri nədir? Yoxsa faytonçu da onunla həmkardır? Yəqin onu yaxalamaq istəyirlər". – Bu düşüncələr sürətlə Bondarçukun beynindən ötüb keçdi. O bilirdi ki, belə qadınların yanında həmişə özləri kimi zərif tapança da olur. O indi bir dəqiqənin içində, koftasının içində gizlətdiyi tapançanın lüləsini onun ürəyinə dayayacaqdır. Lakin tapança atəşi yerinə üzrxahlıq bildirən lətif bir səs eşitdi:

– Soruşmaq ayıb olmasın, o yaylıq sizin üçün hardandır?

Qadının sualından Bondarçukun şübhəsi daha da artdı.

Udquna-udquna:

– Bazardan almışam, – dedi və yalan danışdığına özü də pərt oldu.

Bondarçukun cavabından sonra qadının göz qapaqları qeyri-ixtiyari örtüldü. Onun bu hərəkəti belə yağışlı havada faytonla təktənha getməsi, xüsusən yaylıq haqqında sual verməsi Bondarçuk üçün çox anlaşılmaz idi. Qadın soldatın cavabından sonra susmuş, gözlərini gölməçənin sarımtıl suyu içində hərlənən qabaq çarxlara dikərək nə isə fikirləşirdi. Bir an qabaq təəccüblə açılmış gözlər indi sakit, mülayim bir tərzdə qıyılmışdı. Faytonçunun da səsi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çıxmırdı. Yalnız arabir qolayladığı qamçılar atların yaş, aynatək parıldayan sağrılarında şappıldayırdı.

Löngər vuran faytonun asta yerişinə Bondarçukun acığı tutdu. Ona qalsaydı, dərhal faytonçunun yerinə qalxar, qamçıları kəhərlərin belinə şappıltı ilə endirərək, faytonu tez gölməçədən çəkib çıxarırdı. Bununla da özünün düşdüyü bu əsrarəngiz vəziyyətdən xilas olub azad nəfəs alardı. Bu fikirdə ikən birdən fayton böyrü üstə əyildi, suyun içində sağ tərəfin çarxları görünür ki, daşın üstünə çıxmışdı. Qadın çığırdı. Bondarçuk özünü tez suyun içinə atdı və dizinədək olan gölməçənin içində faytonun sol çarxlarından yapışaraq onu böyrü üstə sola tərəf yıxılmağa qoymadı.

Faytonçu da suyun içinə atıldı.

Bondarçuk dedi:

– Siz faytonu qabağa sürün, mən onu aşmağa qoymaram.

Faytonçu onun sözünə tabe olub atlara muşqurdu və əlindəki cilovun uclarını qolayladı. Fayton hərəkətə gəldi və bərk löngər vurub, daşın üstündən yerə endi. Faytonçu və Bondarçuk tez faytona atıldılar.

Hər ikisi dizə qədər zığa bulaşmışdı. Xoşbəxtlikdən soldatın kerz ayaqqabılarının boğazına qədər çatmamışdı. Yoxsa boğazlığın içində olan vərəqələr islanıb zay olacaqdı. Qadın mülayim bir təbəssümlə Bondarçuka tərəf döndü.

– Təşəkkür edirəm, cavan oğlan. Bir dəqiqə də geciksəydiniz, gölməçədə çimməli olacaqdıq. Ancaq siz yaman islandınız.

Bondarçuk əllərini yaş dizlərinin üstünə qoyaraq barmaqlarını açmışdı. Bunu o hər ehtimala qarşı, çəkməsinin boğazlığı içindən ucu-bucağı görünə biləcək vərəqələri qadının gözündən yayındırmaq üçün etmişdi.

– Onsuz da islanmışdım. İslanmışın da ki, yağışdan qorxusu olmaz.

Qadın daha bir söz demədi. Araya sükut çökdü.

Döngədə yoxuş başlayırdı. Atlar qayışları dartışdırırdı. Görünür ki, çarxlar suyun altında qatran kimi lilin içinə keçmişdi. Faytonçu mızıldandı və o dəqiqə qamçının vıyıltısı eşidildi. Bir-birinin dalınca endirilən qamçılardan atların islanmış məxməri andıran bellərində zol-zol izlər qaldı. Atlar qabağa dartılıb, faytonu bərk silkələdi. Su getdikcə azalırdı. Bayaqdan su altında qalan çarxların oxları üzə çıxmışdı. Bir azdan fayton özü də tamam suyun içindən çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bondarçuk bunu gözləyirmiş kimi qadına təşəkkür edib yerə atıldı. Qadın əli ilə faytonçuya işarə edərək atların cilovunu çəkməyi xahiş etdi. Sonra başını örtüyün altından çıxarıb, Bondarçuka müraciətlə dedi:

– Mən sizdən yenə bir şey xahiş etmək istərdim.

– Buyurun, xanım.

– Xahiş edirəm, mənə düzünü deyəydiniz. O yaylıq sizin üçün hardandır?

Bondarçuk qadının ondan belə inadkarlıqla söz almaq istədiyini gördükdə hirsləndi:

– Xanım, mən sizə bayaq dedim ki, almışam, bazardan almışam.

Bondarçuk elə o anda hiss etdi ki, çox kobud cavab verdi. Bəlkə də buna görə idi ki, xanımın qüssəli gözləri narazılıqla süzüldü və o, bir söz demədən kor-peşman halda öz yerinə çəkildi. Faytonu da soldatın bu hörmətli xanımla sərt rəftarından qəzəbləndiyi üçün qamçını hündürdən atlara endirdi: fayton bir an içində döngədə gözdən itdi...

Bədənini soyuq bürümüş Bondarçuku fikir götürmüşdü: doğrudanmı, bu qadın onu təqib edir, yoxsa bu adi bir təsadüfdür? Yox! Qadının inadlı sualları əbəs deyildi... Görünür ki, onun Bondarçukdan, vərəqələrdən xəbəri vardı. Bir xəyal kimi döngənin arxasında gözdən itən qadının mülayim baxışı, qüssəli gözləri ona hələ də bu dəqiqələrdə başqa şeylər pıçıldayırdı.

## XIII fəsil

Xaçaturyans qırx yaşını ötmüşdü, ancaq hələ də subay idi, evlənmək fikrində deyildi. Doğrudur, Tiflisdə olduğu zaman şəhərin varlı dul qadınlarından olan xanım Malxazyanla bir neçə ay həyat sürmüşdü, ancaq deyilənə görə Xaçaturyans bunu istəməyərəkdən bəzi adamların acığına etmişdi. Oradan-buradan onun qulağına çatmışdı ki, bəziləri gizlində öz aralarında danışır, xısın-xısın pıçıldaşıb şayiə ayırdılar ki, guya Xaçaturyans, necə deyərlər, evlənməyə qadir deyildir, kişiliyinə şübhə var. Əvvəllər bu danışıqlara əhəmiyyət verməzdi. Lakin sonradan bu sözlərin mərtəbə-mərtəbə artdığını, qol-budaq verdiyini, xüsusilə dost-aşnaların da bu haqda zarafatla ona atmacalar yedirtdiklərini gördükdə, nə olur-olsun



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

evlənmək qərarına gəldi. Bir həftənin içində hər şeyini qaydaya salıb evləndi. Tanışlar onun belə təcili evlənməsinə məəttəl qaldılar. Sonra hamıya məlum oldu ki, Xaçaturyans bu izdivacdan böyük qazanc da əldə etmişdir. Özündən on beş yaş böyük olan arvadı madam Malxazyan görünür ki, Xaçaturyansın bu hərəkətindən çox razı qalmış və əmlakının bir hissəsini notarial kontoru vasitəsilə onun adına saldırmışdı.

İraq, Türkiyə və İranla uzun müddət alver etmiş mərhum tacir ərindən, xanım Malxazyana çoxlu miras qalmışdı. Tiflisin mərkəzindəki bir cərgə dükandan və kirayəyə verdiyi iki yaşayış binasından illik gəlir o qədərdi ki, Xaçaturyans ömrünün axırınadək bilyardxanalarda uduzsaydı, yenə də pul cəhətdən korluq çəkməyəcəkdi. İlk zamanlar o, belə də etdi, girdə qarnını bilyard stolunun üstünə qoyub, ayaqlarını yerdən üzərək, şarı nişan aldıqda, ürəyi heç çırpınmır, udub-uduzacağının fərqinə varmırdı. Bütün bu firavan dolanacaq əvəzində isə, Xaçaturyans hər gün xanım Malxazyanın çuxura düşmüş bulanıq gözlərinə, dodağının üstünə əyilən hind toyuğunun qırmızı ətli pipiyini xatırladan əyri burnuna, qabağa çıxmış sivri, saqqalı çənəsinə, büzük nazik dodaqlarına tamaşa etməli, gündə azı iki dəfə onun damarları çıxmış qaxac əllərindən öpməli idi. Bundan başqa – daha dəhşətlisi bu idi ki, o, Avstriyadan gətirilmiş qırmızı qoz ağacından olan çarpayıda arvadı ilə böyür-böyürə yatmalı idi. Bu axırıncının dərdindən idi ki, çox vaxt o, ancaq sübh açılanda bilyardxanadan evə dönərdi.

Xaçaturyansda hər şeyə dözməyə kifayət qədər səbir vardı. Lakin madam Malxazyanın ailə içərisində müəyyən etdiyi rüsumat və qaydalara riayət etməkdən boyun qaçırmaq üçün Xaçaturyans arabir bəhanə də tapa bilirdi və bunu elə məharətlə edirdi ki, arvadı nə təklikdə, nə də hörmətli qonaqların qəbulu zamanı ondan zərrə qədər incik düşmürdü. Bu da vardı ki, madam Malxazyanın çox xoşladığı, ayrılmaq istəmədiyi bir arzusu qarşısında kişinin əli-qolu lap bağlanmışdı; burda heç bir bəhanəsi işə keçmirdi, istər-istəməz, xanımın arzusuna itaətkarlıqla əməl etməli idi. Bu, madam Malxazyanın öz əri ilə birlikdə faytona oturaraq tez-tez şəhərdə gəzintiyə çıxmaqdan xoşlanması idi. O bunu təmiz hava almaq ehtiyacından daha çox, şan-şövkət üçün, camaatın gözünə girməkdən ötrü edirdi. Cavan bir ər tapmağın özü vəziyyətdə olan xanımlardan hər kəsə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müyəssər olmadığını nümayiş elətdirmək üçün faytona minərkən, ya da küçənin ən çox izdihamlı bir bucağında faytondan düşərkən əlini yaşına yaraşmayan nazla Xaçaturyansa uzatması, qoluna girməyi ona məcbur etməsi, – bütün bunlar ancaq şəhər əhalisinin görməsi üçün düzəldilmiş sadəcə tamaşa idi. Xaçaturyans da bunu başa düşür, içəridən boğula-boğula qalırdı. Əlindən nə gələrdi? Hər tərəfdən onlara zillənmiş gözlər baxa-baxa, arvadının öpülmək üçün ona uzadılmış əlini rədd etməyəcəkdi ki! Faytonda yanaşı oturduqda madam Malxazyan həmişə çalışırdı ki, ərinin diqqətini küçədən ötən adamlardan yayındırıb özünə yönəltsin, başını nə ilə isə qatıb məşğul eləsin. Bu niyyətlə, tez-tez gah yelpiklə onu yelləməyi, gah da faytondan kənarda sallanan uzun qara paltarının ətəklərini yığmağı ərindən xahiş etdi.

* * *

Xaçaturyans arvadının getdikcə iyrənc şəkil alan nazlanmasına iki ay dözdü, axırda təngə gəlib hər şeyə tüpürdü, adına salınmış əmlakı dəyər-dəyməzinə satıb, madam Malxazyandan ayrıldı. Bu əhvalatdan sonra o, bir daha Malxazyanın gözünə görünmək istəmirdi. Buna görə Tİflisdən yığışıb getmək qərarına gəldi. Çox fikirləşdi, axırda Zaqatalada yaşayan bacısı Siranuşun yanına köçdü. Daşnak partiyasının Tiflisdəki yerli başçıları da onun bu niyyətini ürəkdən bəyəndilər. Xanım Malxazyanın əmlakından çoxlu pul ələ keçirmiş bir adamın Zaqatalada partiya işinə rəhbərlik etməsi çox sərfəli idi. Xaçaturyans da Zaqatalaya gəldikdən sonra, ona bəslənilən etimadı gözləndiyindən birə ikiqat artıq dərəcədə doğrultdu.

* * *

Xaçaturyans bacısının evinə bitişik bir mülkdə küçəyə və həyətə pəncərəsi olan iki gözdən ibarət bir otaq tutmuşdu. Evin günbatan tərəfində salınmış kiçik bağça-bağda ilin bütün fəsli müxtəlif güllər açardı. İlk qar düşdüyü zaman, Xaçaturyansın əli ilə qarı eşələyib altından iri çəhrayı papaqlı xrizantema topladığı az olmamışdı.

Bacısıgil ilə onu həyət tərəfdən alçaq bir barı ayırırdı ki, bu da Siranuşun tez-tez onu yoluxa bilməsinə, evini silib-süpürməsinə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xörək bişirib-düşürməsinə imkan verirdi. İnsafən Xaçaturyans buraya gəldiyi gündən bu cəhətdən bacısından bir dəfə də giley-güzar eləməmişdi. Mənzilində həmişə gül-gülü çağırırdı. Dul qardaşının işinə yaramaq üçün bacı dəridən çıxar, əlindən gələni əsirgəməzdi. Bəzən evdə öz işini yarımçıq qoyub, qardaşının çayını və xörəyini vaxtında vermək üçün onun mənzilinə yüyürərdi.

Əslinə baxsan Siranuşun öz evində işi o qədər də çox deyildi; bir əri idi, bir özü. Qızını keçən il tələsik Balakənə gəlin köçürmüşdü. Bunun da səbəbi vardı. Qulaqlarına xəbər çatmışdı ki, qızı qaçırmağa hazırlaşırlar. Bu biabırçılığa imkan verməmək üçün onu, qızdan xeyli yaşlı olan uzaq qohumlarından birinə vermişdilər. Oğlu Asatur isə Peterburq universitetində oxuyurdu. Əri isə səhər tezdən evdən çıxar, bir də günortadan xeyli ötmüş geri qayıdırdı. O, poçt idarəsində rəis işləyirdi. Kənardan baxan adama elə gəlirdi ki, poçtda "şunu qoy, şunu götür"dən başqa heç bir iş yoxdur. Di gəl ərindən soruşanda ki, nə iş görürsən, daş atıb, başını tutardı: iş əlindən macalı olmadığını deyib şikayətlənirdi. Buna görə də Siranuş qardaşının mənzilini sahmana salmaq üçün həmişə boş vaxt tapırdı; gündə iki-üç dəfə Xaçaturyansın otaqlarını silib-süpürməmiş ürəyi rahat olmurdu. Qonaqların biri gedib o biri gəlirdi, hər gələndə də qardaşı azından bir-iki saat oturub çənə vururdu; bəzən sözləri tərs gəlir; birinin dediyi o birinin beyninə batmır, söhbət uzanır, axırda bir də görürdün ki, qonaq papağını başına qoyub hirslə çıxıb getdi.

Qonaqlar dağlışandan sonra içəri girmək olmazdı. Papiros tüstüsündən Siranuşun lap nəfəsi tıxanırdı. O, bir şeyə təəccüb edirdi: onlar bu papiros tüstüsü boğanağına necə dözürlər? "Heç olmasa pəncərələri açsınlar, içəri bir təmiz hava gəlsin". Yox, deyəsən, pəncərələri açmaq heç yadlarına da düşmürdü.

Bir dəfə Siranuş bu barədə qardaşına xatırlatdı ki, canına heyfi gəlsin, bu papiros tüstüsünü ciyərlərinə az çəksin, barı pəncərələri açmağı yadından çıxartmasın. Qardaşının cavabı onu daha da təəccübləndirdi: "pəncərələri özümüz açmırıq. Niyə gərək camaat bizim danışığımızı eşitsin". Bundan sonra Siranuş bir də bu haqda ağzını açıb dinmədi. Bəzən qardaşının sanki heç kəs eşitməsin deyə qonaqlarla baş-başa verib pıçıldaşdığını da görürdü. Bir sözlə, qardaşının işi də, qonaqları da onun üçün ucu tapılmayan bir yumağa dönmüşdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Siranuşun tez-tez qardaşının mənzilinə getməsindən əri Nikolay o qədər razı deyildi. Üzə vurmasa da, atmacalarından başa düşürdü ki, əri nə üçünsə qardaşının işlərindən və qonaqlarından o qədər də xoşlanmır. Qapı-qonşu olmalarına baxmayaraq, Nikolay ayda ancaq bir və ya iki dəfə, o da ayaqüstə qaynının mənzilinə baş salır, bir stəkan çayını belə içmədən geri qayıdırdı. Ərinin doğma-dolama qaynına qarşı belə münasibəti Siranuşun ürəyini sıxırdı. Ancaq bunu o, bir dəfə də olsun ərinin üzünə vurmamışdı. Qardaşı Ayrapet də tərslik eləyir, inadından əl çəkmirdi; yeznəsinin belə soyuq rəftarı qarşısında o daha da rəhmsiz davranırdı. Bahar yenicə girəndə Nikolay tamam bir həftə xəstələnib yatdığı zaman, Ayrapet ayağını astanadan içəri basıb onun kefini soruşmadı. Bunların hamısı Siranuş üçün dərd olmuşdu. Yazıq arvad hər ikisinin: ərinin də, qardaşının da danlaq daşına dönmüşdü. Onlar bir-birinə üzbəüz durub deyə bilmədiklərini vaxtlı-vaxtsız Siranuşun başına çırpırdılar. Guya, onları belə qəzəbləndirən, bir-birinin üstünə saldıran Siranuşdur. Fürsət tapıb qardaşı ilə təklikdə bu barədə söhbət də eləyə bilməmişdi. O, evdə olduğu zaman qonaqlar mane olur, qonaqları olmayanda isə özü evdə tapılmırdı. Bu gün isə Siranuş qət etmişdi ki, səhər-sübhdən – qardaşı hələ yatağından qalxmamış yanına gedib məsələni ayırd eləsin. O öyrənmək istəyirdi ki, əri ilə onun arasındakı bu narazılıq haradan belə baş alıb gəlir?

Bu niyyətlə də qardaşının yaşadığı evin artırmasına qədəm basdıqda, Ayrapetin boynunda ağ mələfə, qarnını qabağa verərək yuyunmaq üçün bayıra çıxdığını gördü. Salamlaşıb içəri keçdi və həmişəki qaydada əvvəlcə çarpayının üstünü sahmana saldı, sonra da pəncərələri açıb otaqları süpürməyə başladı. Ayrapet yuyunub içəri keçdikdə otaqlarda, demək olar ki, hər şey sahmanda idi. Ayrapet geyinə-geyinə birdən nəyi isə xatırlayıb bacısına tərəf döndü:

– Dünən soruşmaq yadımdan çıxdı. Asatur necədir?

– Yaxşıdır, çox sağ ol!

– Nə yazır?

– Heç. Elə bir şey yazmır. Bir aya gələcəkdir.

Ayrapet pencəyini geyinərək burnunun altında mızıldandı:

– Yaxşı oğlandır, çox xoşuma gəlir. Şükür elə ki, atasına oxşamayıb.

Siranuş hirslə elə geri qanrıldı ki, toz silən əsgi əlindən yerə düşdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Niyə elə deyirsən, Ayrapet? O sənə nə eləyib axı?!

– Kimi deyirsən?

– Kimi deyəcəyəm? Özün çox yaxşı bilirsən ki, kimi deyirəm! Xəstələnib bir həftə üzü üstə düşdü, gəlib quru bir sözlə də kefini *soruşmadın. Mənzilinə gəlir – üzünə baxmırsan... – Siranuş öskü*rüb boğazını arıtdı. – Elə bu gün səhərdən gəlmişdim ki, səndən bunu soruşam: axı nə şərikli malınız var ki, ayırd eləyə bilmirsiniz? Necə olsa – yeznəndir... Baxan nə deyər?

Siranuş qardaşından dörd yaş böyük olsa da, bundan artıq ona məzəmmət vura bilməzdi. Uzun müddət bir-birindən uzaqda yaşamaları, bacı-qardaşlıq məhəbbətini bir növ qalın hörmət pərdəsinə bürümüşdü. Siranuş da bu pərdəni yırtmaq istəmirdi.

Xaçaturyans bacısının qəhərləndiyini görüb, ona təsəlli vermək niyyətilə araya zarafat qatdı:

– Bəsdir, Siranuş, aramızda şərikli nə ola bilər? Kişi ilə kişi arasında söz olar, söhbət olar, sən niyə buna qarışırsan? Yeznə mənim, mən yeznənin... Əgər yeznəmin ağzı boşsa, sözü qarnında saxlaya bilmirsə, yenə ağırlığı mənim üstümə düşər; deyərlər ki, dilini qoy qarnına, özün seçmişsən, bacını vermişsən, indi də başlayırsan, nə bilim, belə gəldi, belə getdi...

Siranuş qardaşının zarafata salıb dediyi sözlərin mənasını yaxşı dərk eləməsə də, onların hər birində ərinə qarşı yönəldilmiş tikanlı, ikibaşlı eyhamları hiss edirdi. Örpəyinin ucu ilə burnunu silib dedi:

– O mənə heç bir söz deməyib, Ayrapet. Sən nahaq elə güman eləyirsən ki, onun ağzı yırtıqdır.

Xaçaturyansın dəyirmi sifəti ciddi bir ifadə aldı. Xırdaca gözləri eynəyinin dalından işıldadı.

– Yırtıq deyilsə, bəs mənimlə nə haqda danışmağa gəlmişdin? – O, bacısına tərəf irəlilədi. – Hə?! Siz elə bilirsiniz ki, mən heç nə görmürəm? Bəlkə çörəyi burnuma yeyirəm?..

Siranuş qardaşının bu nahaq sözlərindən daha da odlandı.

– Düz demirsən, qardaş. Mənə heç bir söz deməyib. Özüm görürəm ki, yeri gələndə bir-birinizin kölgəsini qılınclayırsınız. Onun sözü sənin beyninə batmır, səninki onun. Bu necə yeznə qayınlıqdır? Vallah, başımı itirmişəm, heç nə başa düşmürəm. Qonşular da duyuq düşüblər... Hamı altdan-altdan sizə gülür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaçaturyans əllərini cibinə salıb otağın içində gəzindi. Bacısı onun ancaq hirsləndiyi dəqiqələrdə belə yayxana-yayxana var-gəl etdiyini bilirdi.

– Əlbəttə, duyuq düşərlər... gülərlər də! – deyə Ayrapet əllərini cibindən çıxarıb dalında çarpazladı və otağın tən ortasında durub qarnını qabağa verdi. – Özün deyirsən ki, necə yeznə qayınıq?! İndi de görüm: yeznə olan bəndə bir dəfə xahişimə əməl eləyib? Eləyibsə barmağını qatlasın. Başqalarından bir şey xahiş eləyəndə, ikisinə əməl eləyir. Di gəl, o, bir dəfə də olsun, boynuma minnət qoyub, xahişimi yerinə yetirməyib. Əlbəttə, onda qonşular da deyər ki, bunlar necə qohumdurlar... Xahişimə əməl eləməməsi bir kənarda qalsın, üstəlik, aramızda nə baş verirsə, sənin ovcuna da yazır...

Siranuş qardaşının açıqdan-açığa böhtana keçdiyinə dözə bilməyərək partladı:

– Ayrapet, bəsdir, bəsdir sən Allah! Ağzımda deyirəm ki, onun xəbəri yoxdur, sən yenə deyirsən ki, toyuq bir qıçlıdır ki, bir qıçlı.

Xaçaturyans Nikolayın acığını da qarşısında dayanıb onunla ağızbaağız verən, ərinin tərəfini saxlayan Siranuşdan çıxmaq istədi:

– Əlbəttə, ərinin tərəfini verməyəcəksən ki!.. Mən kiməm? Səninçün un çuvalı. Necə deyərlər, məndən çıxsın, dəysin un çuvalına...

– Eyib olsun sənə, Ayrapet! Gör bir nə danışırsan?

– Niyə eyib olsun? Sözün düzünü deyəndə məgər eyib olar? Mən buraya gələndə, ona arxalanırdım; deyirdim ki, sağ əlim olar, ələ verib işlərik. Demə o, millətini ağac qurdu kimi içindən yeyənlərdənmiş. Heyf, çox heyf ki, adını bir erməni qoyub.

Xaçaturyans papağını başına keçirib hirslə otaqdan çıxdı.

Siranuş qardaşı ilə söhbətinin belə qurtaracağını heç ağlına da gətirməzdi. Öz hərəkətinə peşman oldu. Necə olsa qardaşı idi. Onların arasında baş verən narazılığın əsl səbəblərini o ki, hələ yaxşı bilmirdi. Bəlkə, doğrudan da, əri müqəssirdir? Nə bilmək olar... Nikolayın sərt təbiəti və adamlarla soyuq davranmasından gileylənən təkcə Ayrapet deyildi ki! Bunu çoxları deyir... Şeytan işidir, bəlkə aralarında başqa cür şey olub, arvada deməli deyil?!

Bəs nə üçün o bütün bunları ayırd eləmədən, axirətinə çatıb öyrənmədən qardaşını, özü də Tiflisdən ona pənah gətirmiş yeganə qardaşını incitdi, özündən rəncidə saldı? Bəlkə, doğrudan da, o bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

işə qarışmamalı idi? Kişilər özləri bilərdilər; küsərdilər də, barışardılar da. Onun işə qarışması hər şeyi xarabladı, qaş qayırmaq əvəzinə gözü vurub çıxartdı...

O gün axşam Nikolay poçtdan evə qayıtdıqda arvadını çox bikef gördü. Səbəbini soruşsa da, Siranuş gah başının ağrıdığını, gah da çox yorulduğunu bəhanə gətirib Ayrapetlə söhbəti haqqında bir kəlmə də danışmadı. Axırda yenə özü səbir eləyə bilmədi; axşam yeməyi zamanı söhbət əsnasında ərindən soruşdu:

– Nikolay, sən nə üçün öz qaynına isinib yovuşmursan? Elə bil ki, yadsınız... nə xahiş eləyir, yerə salırsan.

Nikolay əlində tutduğu çay stəkanını yerə qoyub təəccüblə gözlərini döyəclədi:

– Sən bunu haradan bilirsən?

Siranuş ərinin narahat baxışlarından karıxan kimi oldu.

– Özü mənə gileyləndi. Deyir ki, başqalarından nə xahiş eləyirsə, can-başla yerinə yetirirlər, amma sən ona məhəl qoymursan, bir sözünü iki eləyirsən.

Nikolayın uzun, arıq sifətinin rəngi birdən-birə dəyişdi, dodaqları dartıldı. Stolun üstünə qoyduğu əli əsməyə başladı. Lakin hirsindən qəhərlənib heç bir söz deyə bilmədi.

Siranuş səhər qardaşı ilə olduğu kimi, indi də əri ilə bu haqda söhbət salmasına peşman oldu. O, çıxılmaz vəziyyətdə qalmışdı. Adi bir sözdən səhər qardaşının, indi də ərinin belə əsəbiləşməsi içəridən beynini ovur, şübhə onu ağzına alıb istədiyi səmtə çapırdı. Axı bu necə xahişdir ki, ondan danışıq getdikdə, Ayrapet də, Nikolay da kükrəyib əsəbiləşir, ovqatlarına soğan doğranır?

– Sənə nə oldu? – deyə Siranuş rəngi ağappaq ağarmış Nikolayın halına acıyıb yavaşcadan soruşdu.

Nikolay şübhəli baxışlarla arvadını süzdü.

– Onu qardaşından soruşsaydın, sənə deyərdi! Bəlkə elə o özü səni yanıma minnətə göndərib, hə? Məni yumşaldasan, yola gətirəsən, hə? Yox, onu görməyəcək! – O, yumruğunu stola çırpıb ayağa qalxdı. – Özünü millət qəhrəmanı kimi qələmə verir... Qəhrəmana bax, həzz apar!.. İş bərkə düşəndə isə yəqin ki, dabanına tüpürüb əkiləcək, ya da hamını qarışqa kimi tapdayıb keçəcəkdir. Qəhrəman!.. Cırtdan boyu ilə başımıza ağıl qoyacaq!

Siranuş ərini sakitləşdirməyə çalışdı:

– Yaxşı, sakit ol... Bir söz soruşmaq da olmazmış...



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Nikolay başa düşürdü ki, Ayrapet günahı onun boynuna yıxmaq üçün hər şeyi tərsinə, baş-ayaq Siranuşa izah etmişdir. Buna görə də Siranuş indi onu laqeydliklə, öz qaynına qarşı belə amansız münasibətdə təqsirləndirir.

– Sən bilsəydin ki, o nə xahiş eləyir, heç ağzını da açıb deməzdin; mən bir tərəfdə qalardım, özün, bəli, sən özün ona qayıdardın... O xahiş eləmir, qan-qan deyir. Dalımdan itələyib deyir ki, get cinayətə! Cibinin mənfəəti üçün!

– Cinayət? – Siranuş narahat halda ərinin sakitləşməmiş həyəcanlı sifətinə baxdı.

– Bəli, cinayət! – Bunu deyib, Nikolay arvadına tərəf irəlilədi və sanki heç kəs eşitməsin deyə yavaşcadan sözünə davam etdi. – O istəyir ki, pristavın adına gələn bəzi məktubların içində yazılanları ona xəbər verim. Bunun üçün gərək mən o məktubları açıb içinə baxım. Heç bilirsən bu nədir? Yəni mən gərək başqasının cibinə girəm, onu araşdıram. Bu cinayətdir!.. Poçtu mənə etibar eləyiblər, ona yox! Dar ağacının altında dursam da, bunu eləyə bilməyəcəyəm. Get qardaşına de: məndən əlini çəksin. Başqasının sirrini mənə etibar eləyiblər. Bəli. Əmanətə xəyanət olmaz!

Siranuş ərinin danışdıqca qızışmasından daha çox, onun dediyi sözlərdən vahiməyə gəlirdi: "Bu onun nəyinə lazımdır? – deyə təəccüblə öz-özündən soruşdu. – Başına hava gəlib nədir?" Nikolay isə deyirdi:

– Qardaşın millət qəhrəmanı olmaq istəyir! Guya millətə xidmət edir. Kim onun dalınca gedəcək? Oğurluqda, fitnə-fəsadlıqla millətə nicat vermək olar? Qoy nə deyir desin, mənim nə onun partiyasına, nə də özünə hörmətim var! Bununla belə ermənilikdən də çıxmıram. Qoy, onun fikrincə mən xain olum. Ancaq bir soruşan yoxdur ki, nə üçün mənə xain deyir? Ona görə ki, mən heç zaman bir yerdə yaşadığım müsəlman yoldaşlarıma xor baxmıram, onları da özüm kimi bir adam bilirəm? Buna görə? Mən qonşularımın çoxu ilə duz-çörək kəsmişəm. Pis gündə dadıma çatıblar. Qardaşının dediyindən isə belə çıxır ki, gərək mən – o, əlini uzadıb stolun üstündəki çörək bıçağını götürdü, – bu bıçaqla qonşumun qarnını yırtam. Nə var, nə var, o müsəlmandır... sonra da desinlər ki, mən millət qəhrəmanıyam... Tüpürüm belə qəhrəmanlığa! – Nikolay hirslə ayağa qalxdı. Bıçağı stolun üstünə tullayıb üzünü pəncərəyə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çevirdi və susdu. Siranuş duruxmuşdu. – İş o yerə çıxsa, deyə Nikolay yenə sözünə davam etdi, – vay onun öz halına! Bu bıçaqla müsəlman qonşumun yox, onun öz bağırsaqlarını doğrayıb yerə tökərəm. Vallah elərəm. Belələrinə elə də lazımdır.

Nikolayın əl-qolunu ata-ata hədə-qorxu gəlməsi Siranuşun canına titrəmə saldı; səsini çıxarmadan büzüşüb gözünün yaşını axıtdı. Nikolay isə meydan sulayırmış kimi, sözləri bir-birinin dalınca yağdırırdı:

– Nə qədər ki, ayağı bu şəhərə dəyməmişdi – asudəlik idi; İndi isə hamını bir-birinə çaxnaşdırıb... adamları yoldan çıxarır, onları erməni olmayanların üzərinə qızışdırır. Deyəsən burada da erməni-müsəlman qırğını törətmək istəyir. Ancaq olmayacaq! Boynunun ardını görəndə, onu da görər.

Siranuş dinmirdi. Əri də deyib-deyib axırda yoruldu. Siranuşa aydın oldu ki, əri ilə Ayrapetin arasında böyük bir uçurum, dibi görünməyən qaranlıq bir uçurum yaranmışdır; Siranuş da özünü araya qatmaqla heç zaman bu uçurumun üzərindən körpü sala bilməyəcəkdir.

* * *

Xaçaturyans evdən çıxdıqdan sonra yolunu Hacı Xeyrinin tütün karxanası tərəfdən saldı. Bu gün o, Arşakı tapmalı, onunla diz-dizə oturub, çoxdan bəri ürəyində qaynatdığı bir çox məsələlər haqqında söhbət açmalı idi. Arşakı dəfələrlə öz mənzilinə dəvət etmişdisə də, bir şey çıxmamışdı. Hər dəfə o, açıqdan-açığa bundan boyun qaçırmışdı. Cavan olmasına baxmayaraq, həmyaşıdları arasında hörməti saxlanılan belə bir adamdan vaz keçmək – Xaçaturyansın aləmində, öz bəxtinə güllə atmaq kimi bir şey idi. Dünən gecə, bəli, lap dünən gecə o, Arşakı sosial-demokrat təşkilatından ayırmaq üçün təzə bir şey düşünüb fikirləşmişdi və güman eləyirdi ki, bu axırıncı vasitə ilə ipə yatmayan Arşakın dilini-ağzını bağlayıb, onu itaətkar bir adam kimi özünə bağlaya biləcəkdir. Bu, Xaçaturyansın hər cür təbliği işə keçməyəndə, axırıncı üsulu idi; yəni adamları pulla almaq üsulu! Öz aləmində o, belə düşünürdü ki, tilovla hər cür balıq tutmaq mümkün olduğu kimi, müxtəlif etiqadda olan ən möhkəm adamları da pul vasitəsilə ələ almaq mümkündür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hacı Xeyrinin karxanası şəhərin köhnə hissəsində – yoxuşda salınmışdı. Birmərtəbəli divarları yay-qış rütubətli olan dörd-beş yanaşı dükanın içindən bir-birinə yol açılmış, beləliklə də, uzun, alaqaranlıq bir dəhliz əmələ gəlmişdi. Bunlardan üçündə kəndlərdən tay-tay daşınıb gətirilən tütün yarpaqları kəsilib doğranırdı. O biri iki gözdə isə doğranmış tütünlər irili-xırdalı kağızlara bükülüb bağlanırdı.

* * *

Hacı Xeyri karxanada tütün istehsalı ilə yanaşı, tütün yarpağı tayları ilə də alver edirdi. Hər il payızda tütün yığılandan sonra, karxanadan Tiflisə araba-araba yarpaq tayları daşınırdı. Hacının karxanasında, üst-üstə əlli nəfərə qədər fəhlə işləyirdi. Hacı Xeyri haqq-hesabını bilən adam olduğu üçün karxananın böyründəcə, özünə ikimərtəbəli, üstü dəmirli, eyvanlı bir mülk də tikdirmişdi. Karxana ilə onun arası on addım ancaq olardı. Hacı evdə tək oturanda, habelə qonaqlarını qəbul eləyəndə də pəncərədən karxanada nələr olduğunu ovcunun içi kimi görə bilirdi. Kontoru üçün də elə orada, evin birinci qatında iki otaq ayırmışdı.

Yayda bürkülü günlərdə, karxananın küçə tərəfə olan pəncərələri taybatay açılırdı. Bu zaman yoldan ötən hər bir adam, tütünün nə cür doğrandığını və kağızlara necə bükülüb bir küncdə tığ vurulduğunu görməyə bilməzdi.

Xaçaturyans da bu açıq pəncərələrdən birinin qabağına gəldi. Doğranmış tütünün xoş iyini ciyərlərinə çəkərək, boylana-boylana gözləri ilə içəridə Arşakı axtardı; tapa bilmədikdə, pəncərəyə yaxın yerdə qoyulmuş dəzgah dalında işləyən cavan bir fəhlədən xahiş etdi ki, Arşakı pəncərənin qabağına çağırsın.

Bir azdan Arşak içəridən çıxdı, pəncərəyə yaxınlaşdıqda onu çağıran adamın Xaçaturyans olduğunu görən kimi duruxdu. Onun nə məqsədlə gəldiyini bildiyi üçün geri dönmək istədi. Xaçaturyans dərhal əlini uzadıb onun kəmərindən yapışdı.

– Arşak, bir ayaq saxla, yanına tamam başqa işdən ötrü gəlmişəm...bir dəqiqəliyə.

Arşak naəlac ayaq saxladı. Xaçaturyans pəncərənin məhəccərinə dirsəklənərək, üzündə məkrli ifadə ilə nə isə fikirləşirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən, iş adamıyam, xahiş edirəm tez olun, – deyə Arşak narazılıqla dilləndi. – Hacı pəncərədən görsə özündən çıxacaq.

– Heç narahat olma, bu dəqiqə qurtarıram. – O, gözlərini Arşaka zillədi. – Bilirsən niyə gəlmişəm? Sənə yaxşı bir qulluq tapılıb. Muzdu burada aldığım maaşdan onqat artıqdır. İşin də o qədər çətin deyil. Hərdənbir Tiflisə gedəcəksən. Mən məsləhət...

– Ayrapet dayı, bilirsən nə var? – deyə Arşak onun sözünü kəsdi, – mən heç kimdən iş xahiş eləməmişəm. Pullu işsə, düzəlt öz adamlarına... Dövrəndə o qədər sülənən var ki...

– Əlbəttə, var, ancaq mənim sənə yazığım gəlir. Atan da qoca kişidir, o qədər köç-külfət düşüb üstünə. Bəs erməni erməniyə nə vaxt gərək olar?

Arşak əlini döşünə qoyub, istehza ilə ona minnətdarlıq elədi:

– Çox razıyam, Ayrapet dayı, siz ki, bizim qeydimizə belə qalırsınız, vallah, deməyə də söz tapmıram. Ancaq o ki, deyirsiniz – mən onu bacarmaram... Fəhlə adamam, qoy elə fəhləliyimi eləyim.

Xaçaturyans başını yellədi:

– Düz deyirlər ki, tale bəzisinin üzünə güləndə, o öz bəxtinə şıllaq atar... mən sənə bir qohum kimi yaxşılıq eləmək istəyirdim...

Arşak təəccüblə çiyinlərini çəkdi:

– Ayrapet dayı, sizə qohum olduğumu heç bilmirdim. Kim tərəfdən qohumuq?

Xaçaturyans qısa baş barmağını burnunun yanında tutaraq, nəsihət verməyə hazırlaşan bir adam duruşu aldı:

– Hər bir erməni bir-birinə qohumdur, – dedi, – xüsusilə o, vətənindən ayrı düşdükdə.

Arşak gülümsədi və başını buladı.

– Düzü, mən hələ vətənimdən ayrı düşməmişəm, atam da, anam da burada anadan olub – yurd-yuvaları da buradadır. Mən niyə vətənimdən ayrı düşdüm, başa düşmürəm?

– Əlbəttə, başa düşməzsən, çünki uşaqsan. Sənin vətənin Ermənistandır. Bütün ermənilərin vətəni Ermənistandır. Ora, Ararat dərəsi! – O, bayaq burnunun yanında tutduğu barmağını cənuba tərəf uzatdı.

Mən ki, oranı görməmişəm, cənab Xaçaturyans. Ancaq burada, Zaqatala torpağında və daşında ayağımın izi var; gedəndə görürəm ki, ayağımın ləpiri qalır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaçaturyansın xırdaca gözləri bərəldi. Altdan-yuxarı Arşakı süzdü, qırıq-qırıq öskürüb, totuq əlinin arxası ilə qırmızı qalın dodaqlarını sildi.

– Mən söz güləşdirməyi sevmirəm.

– Mən də sevmirəm, Ayrapet dayı!

Xaçaturyans hirsləndi. Ağ jiletinin cibində olan qızıl saatını bir-iki dəfə çıxarıb baxdı.

– Söhbəti uzatmayaq, nə deyirsən?

Arşak sakit-sakit:

– Mən sözümü dedim. Fəhləliyimdən şikayətlənmirəm, – dedi.

Xaçaturyans böyük ümid bəslədiyi son tədbirlərinin də bir nəticə vermədiyini əksinə, kiçik qardaşı yerində olan cavan bir oğlanın belə dikbaşlıq və söz güləşdirməklə hər sözünün qabağına çəpər çəkdiyini gördükdə çox pərtləşdi. Potaraq ayaqları üstə yerindən tərpənmədən sağına-soluna boylandı. Sonra hədələyici bir tərzdə dedi:

– Sənin nə işlə məşğul olduğunu bilirəm. Pristav qədəm-qədəm sənin izinə düşüb, xəbərin varmı? Buna görə gəldim ki, səni xatadan qurtarım. İndi ki, bunu başa düşmədin, görərsən! Soldatlar arasına təfriqə salanı güman eləyirsən ki, tanımırlar? Qoşulmuşsan o müsəlman gədəsinə, başınızı da soxmusunuz kola; daha bilmirsiniz ki, ovcumun içi kimi hər şey mənə aydındır. Ancaq peşman olacaqsan... gec-tezliyi var. İş-işdən keçəndən sonra da heç bir köməkliyimiz dəyməyəcək.

– Canınız sağ olsun, – deyə Arşak yenə gülümsədi.

Müsahibinin belə istehzalı hərəkəti Xaçaturyansı özündən lap çıxartdı. Gözləri bərələ qaldı.

– Sən bilirsənmi, kiminlə danışırsan? – deyə o, yumruqlarını pəncərədən Arşakın sinəsinə uzatdı.

Arşak təmkinlə:

– Əlbəttə, bilirəm, – dedi, – qohumum Xaçaturyansla. Başqası kim ola bilər?

Bundan Xaçaturyans daha da əsəbiləşdi, nə isə demək istəyirdi ki, dili dolaşdı. Bu zaman qarşıdakı eyvanlı evin pəncərəsindən hacının hədələyici səsi eşidildi:

– Adə, Arşak, yenə söhbətdir? Sən məni lap çurt-yurt elədin ki...

– Bu dəqiqə, hacı, bu dəqiqə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunu deyib Arşak əlini sinəsinə qoydu və Xaçaturyansdan, üzr istəyirmiş kimi belini azca əydi:

– Bağışlayın, – dedi və irişdi. – Görürsünüz ki, hacı qoymur, cibinə zərərdir. Yoxsa, sizinlə söhbət eləməyə hazırdım... İndi də məlum odu ki, arada qohumluq var, dayıları, bibiləri də bir xatırlardıq.

Arşak pəncərədən uzaqlaşdı. Xaçaturyans onun dalınca dodaqlarını çeynəyə-çeynəyə qaldı. Birdən yerə tüpürüb karxanadan uzaqlaşdı; hacının evinin qabağı ilə üzüaşağı – kilsə meydançasına tərəf endi. Hacı Xeyri pəncərədən onun dalınca uzun, qat kəsmiş boynunu uzadıb dodağının altında mızıldandı; fəhlələri işləməyə qoymayan, xəlvəti-xəlvəti qulaqlarını dolduran belə adamları görəndə o, sanki cavan arvadına yad bir adamın yanaşdığından duyuq düşərək diksinirdi.

Xaçaturyans isə Hacının onun dalınca hirslə baxaraq alıb-verməsini vecinə almadan xırdaca addımlarla, aşağıda zəngləri çalınan kilsəyə, səhər duasına tələsirdi.

## XIV fəsil

Poqrebnyuk hər yerdə: təlim meydanında, nahar vaxtı yeməkxanada, hətta gecələr soyunub yatağına girəndə belə yoldaşlarının ona tərəf çevrilən şübhəli baxışlarına dözə bilmirdi. Ən dəhşətlisi o idi ki, vaxtilə matrosları gözü götürməyən, Dobrovolskinin "etibarlı" soldatları kimi şöhrət tapmış piyadalardan da çoxu indi ondan üz çevirir, altdan-altdan onu süzür, öz aralarında onun haqqında nə isə pıçıldaşırdılar. Poqrebnyukun bütün günləri bu cür iztirab içində idi. Gecələr üzünü divara tərəf çevirib, yuxusunun ərşə çəkildiyini heç kəsə sezdirməmək üçün gözlərini yumduqda, dal çarpayılardan onun dalınca deyilənləri eşitdikcə içəridən boğulur, əsəbləri sim kimi tarıma çəkilirdi. Bəzən onun yerindən sıçrayaraq partlaması, ya da yoldaşlarının üzərinə atılması üçün ancaq bir an çatışmırdı.

Yeganə şahidi olan keşikçinin də danışmaqdan çəkinməsi bütün təsəlli qapılarını Poqrebnyukun üzünə bağlamışdı. Beş-altı gün qabaq Bondarçukla etdiyi söhbətində onu inandırmışdı ki, mütləq şahid tapacaq və o zaman haqqında deyilən şayiələrin hamısını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

puça çıxaracaqdır. Bəs nə oldu! Keşikçi nəinki danışmaq, hətta ona yaxınlaşmaq da istəmir. Bu da təbii bir hal idi. Varlamovun vahiməsi hamının başı üstündə ağır bir daş kimi sallandığı halda, kim cəsarət edib Poqrebnyuka şahid dura bilərdi? İndi Bondarçuk onun haqqında nə düşünsə haqlıdır. Yox, Poqrebnyuk buna dözə bilməzdi. O, təzədən keşikçi ilə danışmaq üçün ona yalvaracaq, lazım gəlsə hətta qabağında diz çökəcəkdir; təki onu yoldaşlarının yanındakı bu üzüqaralıqdan, hərəsi bir nəştər kimi ürəyinə sancılan bu danlaq və eyhamlardan qurtarsın.

Ağır, əziyyətli təlimdən sonra, o Qala həyətində keşikçini çox axtardı, onun bu gün heç yerdə keşik çəkmədiyini darvaza keşikçisindən öyrənə bilmişdi. O harada ola bilərdi?! Qala divarı dibində, səfər mətbəxində axşam naharı hazırlayan aşpaz soldat xəbər verdi ki, həmin keşikçi Laqodexi piyada polkundan xüsusi tapşırıqla gəlmiş bin unteri Balakən şosesinədək müşayiət etməyə getmişdir. Bu, Poqrebnyukdan ötrü yaxşı fürsət idi. Vaxt itirmədən dolanbac yollarla – gizlicə Balakən şosesinə tərəf yollandı. Gözü ağı-qaranı seçmirdi. Baş verə biləcək ən ağır cəzanı belə gözünün qabağına gətirib gedir, keşikçi ilə qəti danışmaq istəyirdi.

Tək-tənha bir soldatın şose yolunun tən ortası ilə getməsi, əlbəttə, hamıda şübhə doğura bilərdi. Ona görə Poqrebnyuk yolun kənarı ilə əkilmiş ağacların dal tərəfində uzanan kolların dibi ilə irəliləyir, arabir yoldan qulağına səs dəyən kimi, boylanıb qabağa baxırdı. Səkkiz saatlıq təlimdən sonra ayaqları bərk gizildəyirdi. Dizlərində də taqət qalmamışdı. Lakin heç bir şey onu bugünkü qərarından döndərə bilməyəcəkdi.

İrəlidə qoz və cökə ağaclarının arxasına çəkilmiş gün batmağa hazırlaşırdı. Yolun o tərəfindən tozanaq qopararaq geri dönən naxırçıların səsi gəlirdi. Bir azdan naxır şose yoluna çıxdı. Poqrebnyuk naxırın dalınca iri çarıqlı arıq bir oğlanın yanında asılmış yamaqlı dağarcığı yellədə-yellədə mahnı oxuduğunu eşitdi. Naxırın dalınca yolda qopmuş tozanaq irəlini görməyə mane olurdu.

Poqrebnyuk isə irəliləyirdi.

Şəhər ondan xeyli dalda qalmışdı. Keşikçidən hələ də heç bir xəbər yoxdu. Artıq hər tərəfə axşam sakitliyi çökür, kolların dibində cücülər zəhlətökən bir səslə ağız-ağıza verir, oradan-buradan quşlar qəflətən pırıltı ilə uçuşaraq, fikirli gedən Poqrebnyuku hər dəfə diksindirirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəhayət, qabaqda bir qaraltı göründü. Poqrebnyuk hələ də açıq yola çıxmağa tələsmədi. Yaxınlaşdıqca böyüyən qaraltı yolun ağaclarla əhatə edilməmiş hissəsinə çatdıqda Poqrebnyuk onu tanıdı və xiffətli ürəyində bir uşaq sevinci duyaraq kolların dalından şose yoluna çıxdı. Tək qayıdan keşikçi onun qəflətən kolun dalından sıçramasından qorxaraq geri çəkildi. Lakin Poqrebnyuku görən kimi sakitləşdi və çaxmağa atılmış əlini yanına saldı.

– Bu nədir, soldat, sən təkbaşına buralarda nə gəzirsən? – deyə o, təəccüblə soruşdu. – Olmaya beynin yerindən oynayıb, batalyondan qaçmaq fikrinə gəlibsən, hə?

Poqrebnyuk mülayim baxışlarla keşikçinin tozlu sifətinə baxıb *başını silkələdi və səssiz-səmirsiz ona qoşulub geri döndü.*

Poqrebnyukun pərişan görkəmi keşikçini düşündürdü. O, başını aşağı dikib sakitcə addımlayan öz soldat yoldaşının dərdini öyrənmək, ona şərik çıxmaq qayğısına qaldı.

– Bəlkə yenə şahidlik məsələsidir, hə? – Başını qeydkeşliklə tərpətdi. – Görürəm, qardaş, yaman dərddir, hamı, yəqin ki, səndən üz döndərib, eləmi? – Poqrebnyuk başı ilə onun sözlərini təsdiq etdi. – Yəni deyirsən ki, sənə şahid durum? Onların hamısını başa salım ki, günahın yoxdur? Bunu, axı mən necə edə bilərəm?.. Göz var, qulaq var... Birdən məni də dolaşdırdılar, qatdılar sizin o matrosun yanına. Qardaş, onda sən məni necə qurtara biləcəksən? Kim mənə kömək əli uzadar – heç kəs!

Poqrebnyuk dörd-beş gün bundan qabaq, onu yaxınlaşmağa belə qoymayan, ondan qaçan bir adamın indi birdən-birə onunla belə mülayim danışdığını gördükdə qəlbində bir əminlik, ümid hərarəti yarandı. Aramla başını qaldırıb keşikçinin üzünə baxa-baxa dedi:

– Mən tələb eləmirəm ki, sən hamının qabağında çığırasan. Bircə nəfərə deməyin kifayətdir. Ancaq bunu istəyirəm...

– Bir nəfərlə iş aşarmı, qardaş?

– Əlbəttə, aşar!.. Bir nəfər başqasına, başqası da o birilərinə xəbər verər. Keşikçi ondan gözlənilən köməyə, hansı mülahizədənsə, dərhal cavab vermək istəmirdi. Sifəti gah mülayim bir ifadə alır, gah da qaşları çatılaraq, narahatlıq içərisində gözucu, yanınca addımlayan Poqrebnyuka nəzər salırdı.

– Belə çıxır ki, qardaş, səndən şübhələnirlər? Səni rahat buraxmırlar...Yəni deyirlər ki, onu sən ələ vermişsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Poqrebnyuk keşikçinin söhbəti belə uzatmasından darıxmağa başlayırdı. Bununla belə onun hər sualına başını endirir, onu hər bir şeydə özündən narazı salmamağa çalışırdı.

– Düz başa düşmüşsünüz.

– Nə olar ki? – deyə keşikçi azca fikirləşdikdən sonra üzünü Poqrebnyuka tərəf çevirdi. – Mən nə görmüşəmsə, onu deyərəm. Əlbəttə, bundan heç bir günah iş yoxdur. Ancaq o biri tərəfə baxanda... O, sözünü kəsib başını buladı. – Qardaş, qaranlıq yerdə daş atmaq da elə günah kimi bir şeydir. Elə deyil, hə? Nə biləsən daş hərlənib kimə dəyəcək? Madam ki, bilmirsən kimə dəyəcək, demək günahdır. Bəlkə keşişlə bir məsləhətləşək, hə? Bəlkə mən dedim, bundan başqasına xətər gəldi? Ya da elə özümə deyərlər ki, qardaş, əgər belə bir şey bilirsənsə, demək, başqa şeylərdən də xəbərin ola bilər.

– Hansı şeylərdən? – deyə Poqrebnyuk təəccüblə soruşdu.

– Hansı şeydən olacaq? Əlbəttə, o kitabdan deyirəm... Qardaşımızın çəkmə boğazında gizlətdiyi kitabdan.

Poqrebnyuk əlini çırpdı. Keşikçinin söhbəti uzatmasından canı lap boğazına yığıldı.

– Canım, sən nə danışırsan? Bunun keşikçiyə nə dəxli var?

– Yox, qardaş, bir də gördün ki, iş baş-ayaq oldu. Onu deyirəm ki, mənə sual verən də tapılar. Soruşar ki, sən haradan bildin ki, qardaşımız Poqrebnyuk gecəyarısı su içmək üçün eşiyə çıxmışdı. Bəlkə də elə ikinci bir kitabı gizlətmək üçün yer axtarırmış, hə, deyə bilməzlər?

Poqrebnyuk bir anlığa ayaq saxlayıb, görünür ki, naqqallıqdan xoşlanan keşikçiyə tərs bir nəzər saldı. Keşikçi də dönüb soyuqqanlılıqla ona baxdı və başını tərpətdi:

– Belədir, qardaş, heç mənə tərs-tərs baxma! Deyə bilərlər... Xaç vura bilərəm ki, iş tərsinə də çevrilər...

Hava artıq qaralmışdı. Ətrafdakı ağaclar, kolluqlar və yaşıl zəmilər alatoran bir pərdəyə bürünsə də, tozlu yol, ağaran bir şəridtək qabaqlarında uzanmışdı. Araya çökmüş sükutu yenə keşikçi özü pozdu:

– Deməyinə, deyərəm. – O, əvvəlki təmkinlə söhbəti davam etdirdi. – Ancaq gərək boğazı o məsələ... – O, barmağı ilə boğazına



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çırtma vurdu, – bir az isladasan ki, dilinin dediyindən ürəyin rəncidə olmasın. Hə, sən necə bilirsən? Cibimizdə bir az olsaydı... sənin də işin düzələrdi, mənim də... görürəm çox təşvişdəsən.

Poqrebnyuk onun niyyətini, söhbəti də ancaq buna görə belə dolama yollara saldığını ancaq indi başa düşdü.

– Nə olar, qardaş, – dedi, – boğazımızı islada bilərik.

– Hə, əlbəttə... çoxdandır udquna-udquna qalmışıq. Zəhrimar, içəridən qaşınır, quru taxta parçasına dönüb... hə, cibini axtar...

Bunu deyib iştahla ağzını marçıldatdı və dilinin ucu ilə tozlu dodaqlarını yaladı.

– İndi cibimdə yoxdur, qardaş, bax, – Poqrebnyuk şalvarının ciblərini çevirib bayıra çıxartdı. – Görürsən? Ancaq, mənə evdən pul göndərilib, bizim feldfebeldədir. Elə günü sabah alıb verərəm...

– O da olar... bir az islatsaq daha boğazımız qurumaz. Qardaş, zəhrimar elə şeydir ki, başına düşdü – qurtardı. Lap kilsəyə gedib, dua edəsən də yadından çıxmayacaq; hey başında hərlənəcək. Ta isladanadək... hə, elədir, qardaş.

Kilsə meydançasında keşikçi Poqrebnyukdan ayrılıb Qalaya qalxdı.

## XV fəsil

Yağışlı gündə Bondarçukun çəkməsinin içində apardığı vərəqələr iki günün ərzində nəinki şəhərdə yerləşən rotalarda, habelə Dobravolskinin lap böyründəcə, Qalada da yayılıb əldən-ələ gəzirdi. Vərəqələr yayılandan sonra xəbər çıxmışdı ki, karserdə Drujinin ayağa durmağa taqəti qalmamışdır. Yeddinci rotada isə həyəcanla danışırdılar ki, Drujin verilən işgəncələrə davam gətirə bilməyib ölmüşdür. Gecə ikən onun ölüsünü araba ilə Qaladan çıxarıb harada isə Şamil dağının ətəyində dəfn ediblər. Əlbəttə, bu xəbərin əsli yoxdu. Çoxu vərəqələrdə yazılmış sözlərdən sonra belə nəticəyə gəlmişdi ki, bəlkə doğrudan da Drujin ölmüşdür və soldatlardan gizlədirlər.

Vərəqədə bu sözlər yazılmışdı:

“Çar ordusunda soldatın taleyi belədir: ya cəhənnəm əzabını xatırladan təlim zamanı ağır yüklənmiş halda can verir, ya da rütubətli karserdən gizlicə çıxarılıb gecə ikən dəfn edilir.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qardaşlar, soldatlar! Bilirsinizmi ki, bizim hamımızı belə acı bir tale gözləyir?"

Bütün ehtimallar da buradan başlayırdı. Vərəqəni oxuyanlardan kim isə belə qərara gəlmişdi ki, orada yazılanlar məhz Drujinin özü haqqındadır. Bu xəbər ildırım sürətilə bütün rotalara yayılmışdı. Qalada, həmçinin şəhərdə olan qışlalarda gərgin vəziyyət əmələ gəlmişdi. 8-ci rotanın soldatlarından biri günün günorta vaxtı açıqdan-açığa deyirdi:

– Heç yalan yazılmayıb, qardaşlar! Sizlərdən hansınız Drujinin heç olmazsa üzünü görmüşsünüz? On beş günə yaxındır, o, karserdədir, ancaq bir dəfə də onu görməmişik.

Onun ətrafına toplaşan soldatlar da yer-yerdən bunu təsdiq edirdilər.

– Doğru deyir!.. Əgər öldürməyiblərsə, qoy bizə göstərsinlər. Biz heç kəsə yox, ancaq öz gözlərimizə inanırıq! Nəyi gözləyirik, nə üçün susuruq, qardaşlar?

Bondarçuk bu etiraz səslərini yavaş-yavaş "etibarlı" soldatlara da sirayət etdiyini gördükcə vərəqələri matros soldatlardan alıb onların arasına ötürürdü. Bəzən özü, guya yerə düşmüş vərəqəni təsadüfi qaldıraraq hər şeydən xəbərsiz kimi, bərkdən oxumağa başlayırdı. Oxuduqca sözlər onun özünü də təzədən sehrləyir, sanki odlu bir soldat sinəsindən qopub gələn kəlmələr iti bir nizə kimi şinellərə bürünən bu zəhmətkeş adamların ürəyini qanadırdı.

Bondarçuk məhz soldat ürəyindən xəbər verən bu sözlərin, ancaq soldatlığın ağır, məşəqqətli yolunu keçmiş bir adam tərəfindən yazıla biləcəyini düşünürdü. Lakin onu təəccübləndirən bu idi ki, Bəhram ona bu vərəqələrin yerli müəllimə tərəfindən yazıldığını xəbər vermişdi. Bunları yazan adamın sinəsində görünürdü ki, soldat müsibətlərinə məhrəm olan bir qəlb ya da təhqir edilmiş bir ürək çarpırdı. Başqa cür mümkün də deyildi. Əgər vərəqələrin hər bir sözü soldat ürəklərində əks-səda verirdisə, bu eyni arzu, eyni ümidlə çırpınan ürəklərin bir odda yandığını göstərmirdimi? Bondarçuk bu adamı tapsaydı, böyük bir arxaya söykəndiyini güman edərdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Bu gün də hamının beynini məşğul edən bu idi. Təlim qurtarandan sonra məsələ birdən-birə gözlənilməz bir vüsət aldı. Axşama iki saat qalmış yeddinci və səkkizinci rotaların soldatları tufanlı dəniz kimi təlatümə gəldi; həyəcan, təşviş sürətlə coşdu və bir azdan qasırğa kimi onun qarşısını almaq mümkün olmadı – soldatlar Qalaya tərəf hərəkət etdilər. Bondarçuk dəstəsinin qabağında getməyə ehtiyat edərək, soldatların arasına girdi; bunu o biri yoldaşlarına da məsləhət gördü. Qabaqda getməyə, onsuz da ehtiyac yox idi.

İzdiham Qala darvazasına çatdıqda xəbər tutdular ki, beşinci və altıncı rotaları da həyəcan bürümüşdür, soldatlar Drujini onlara göstərməyi tələb edirdilər. Yeddinci və səkkizinci rotalar gurultu ilə darvazadan içəri girdikdə gördülər ki, Varlamov rəngi ağarmış halda soldatları sakitləşdirmək istəyir. Oradan-buradan səslər ucalırdı.

– Drujini öldürmüşsünüz...

– Onu öz gözümüzlə görmək istəyirik!

– Karserin qapısını açın! Onu göstərin!

Səslər bir-birinə qarışıb ətrafa qulaqbatırıcı bir uğultu yayırdı. Dobrovolski görünmürdü. Deyilənə görə o, xəstələnmişdi. Lakin onun "etibarlı" soldatlarının da belə coşub iğtişaş törətməsi podpolkovniki xəstə-xəstə yataqdan qalxmağa məcbur etdi. O öz otağının qapısında göründüyü zaman izdiham yavaş-yavaş kiridi. Rəngi solmuş batalyon komandiri xırıltılı bir səslə izdihama müraciət etdi:

– Nə olub? Nə lazımdır?

Arxa tərəfdən yoğun bir səs gəldi:

– Drujini bizə göstərin!

Dobrovolski təmkinini pozmadan əlini bığlarına çəkdi və yanında durmuş Varlamova əmr etdi: – Göstərin!

Bundan başqa o daha bir sıra sərəncam verdi. Lakin elə astadan danışırdı ki, səsini böyründə durmuş Varlamovdan başqa heç kəs eşitmirdi. O, yenə içəri keçdi. Varlamov onun yerini tutub bərkdən soldatlara müraciət etdi.

– Əmr olunmuşdur ki, bütün soldatlar Qalanın aşağısında çay yatağına ensinlər...

İzdiham bir anlığa duruxdu. Karserin qapısını açıb Drujini onlara göstərmək əvəzinə, çay yatağına enməyin mənası çoxuna aydın olmadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Biz, çimmək istəmirik. Özünüz çay yatağına enin!

– Doğrudur, bizə Drujini göstərin!..

Varlamov əlini qaldırıb hündürdən çığırdı:

– Drujini görmək üçün yatağa enəcəksiniz. Podpolkovnikin əmrinə görə, ancaq karserin pəncərəsindən ona baxmaq olar.

– Bəs nə üçün qapısından göstərmirsiniz? – deyə beşinci rotadan olan kürən bir soldat qabağa çıxıb soruşdu: – On addımlıq yolu qoyub, nə üçün bizi aşağıya göndərirsiniz!

Varlamovun çığırmaqdan xırıldayan səsi yenə eşidildi.

– Podpolkovnik belə əmr etmişdir!

Həyəcanlı soldatlar bir anlığa dönüb bir-birilərinin üzünə baxdılar. Birdən darvazaya tərəf hücum başlandı. Silahlı keşikçilər, darvazanın ağzında tüfənglərini çarpazlayaraq onların yolunu kəsdikdə, Deməşko irəli çıxıb yumruğu ilə onları hədələdi:

– Bu nədir?! Biz siçan-pişik oynamırıq, qapıdan çəkilin!.. Tez... qardaşlar...

Özünü qapıya çatdırmış Varlamovun səsi onun lap qulağı dibində bomba kimi açıldı:

– Səsini kəs, bağırma! Əmr olunmuşdur ki, vzvodlar hərbi qayda ilə Qaladan çıxsınlar. – Üzünü izdihama tərəf tutub, bir kənarda durmuş unterlərə müraciət etdi. – Vzvodlarınızı düzəldiniz!

Yenə hamı bir-birinə qarışdı. Unterlərin səsləri orada-burada eşidildi. Hərə öz soldatlarını bir kənarda sıraya düzmək üçün çağırırdı. Bondarçuk vaxtdan istifadə edib, soldatların arasında Deməşkonu tapdı və həmişəki kimi yenə xəbərdarlıq elədi:

– Özünü çox qabağa vermə! Varlamovun gözünə girmək yaxşı nəticə verməz. Biz izdihamın içində fərqlənməməliyik. Bizimki bu izdihama qədərdi. İndi onlar özləri hərəkət etməlidirlər... O birilərə də bunu çatdır...

Drujini görmək həsrəti ilə tələsən soldatlar, unterlərin çağırdıqları tərəfə çəkilib, sıraya düzüldülər. Bu o qədər də uzun çəkmədi. Hamı Drujinin doğrudan da, sağ olub-olmadığını öyrənməyə tələsirdi. Bir azdan Varlamovun işarəsi ilə keşikçilər darvazanı açdılar. Rotalar Qala düzündən aşağı endilər. Kilsə meydançasına çatar-çatmaz mahnı səsləri eşidildi:

Çürük, köhnə dünyanı rədd edəcəyik,
Siləcəyik tozunu ayağımızdan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vzvodların yanı ilə gedən qaşqabaqlı silahlı keşikçilər mahnı oxuyanları hədələyir, üzərlərinə çağırırdılar, mahnı isə susmurdu. Aşağıda, şəhərin bürkülü küçələrinə çatarkən səsini daha da uzadaraq, mahnının sözlərini oxuyan tək-tək soldatlara vzvodlar da qoşuldu. İndi mahnı mübariz bir himn kimi, axşam sakitliyində şəhərin üzərinə yayılırdı. Küçələrə çıxmış camaatın bir hissəsi soldatların dalına düşərək sanki onların haraya və nə məqsədlə getdiklərini öyrənmək istəyir, keşikçilərlə müşayiət olunan belə bir izdihamın nə ilə qurtaracağı ilə maraqlanırdı. Uşaqlar da çığırışa-çığırışa soldatların yanı ilə yüyürürdülər.

* * *

Soldatların bu təntənəli səfərinin məqsədi yerli əhalidən bəzisinə məlumdu. İki gün qabaq, şəhərin divarlarına, hətta məscid qapısına da yapışdırılmış vərəqələrdən bəzi şeyləri öyrənə bilmişdilər. Vərəqələr üç saatadək divarlarda qalmışdı, oxuyan oxumuş, oxumayanlar isə yanından ötüb keçmişdilər. Yalnız pristavın qulağına xəbər çatandan sonra o, acığını qorodovoyların üzərinə töküb əmr vermişdi ki, vərəqələr dərhal harada varsa çıxarılsın. Üstəlik belə bir göstəriş də vermişdi ki, kimdə həmin vərəqədən tapılarsa dərhal həbsə alınsın. Odur ki, qorodovoylar da ac qurd kimi, şəhərin canına düşüb məhəllə-məhəllə axtarır – bu başdan vurub o başdan çıxırdılar.

Onlar teleqraf dirəklərinə, kilsə meydançasındakı ağacların yoğun gövdələrinə yapışdırılmış iyirmiyə qədər vərəqəni qoparıb parça-parça eləyəndən sonra gözlərinə şübhəli görünən bəzi adamları da elə yerindəcə saxlatdırıb ciblərini axtardılar. Lakin artıq gec idi; qoparılıb cırılmış vərəqələr öz işini çoxdan görüb qurtarmışdı.

Bütün gözlər karserin kiçik pəncərəsinə zillənmişdi. Dağların dalına çəkilmiş günəşin qırmızı, alov rənginə boyadığı üfüqdən karserin xırdaca barmaqlığına zəif sarımtıl işıq əks etmişdi. Ürəklər intizar içində döyünürdü. Elə bil çay yatağını dolduran bu izdihamda, canlı adına heç bir şey yox idi. Nəfəslər də gizlədilmişdi.

Təbiətən səbirsiz olan Demeşko artıq əsəbiləşməyə başlayırdı. Romanovla yanaşı durduğunu gördükdə, əyilib onun qulağına nə isə pıçıldamaq istədi; birdən gözü Romanovdan bir addım geri durmuş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Poqrebnyukun solğun, xəstə sifətinə dəydi və bundan daha da əsəbiləşdi.

– Sən də buradasan, intelligent?.. Sənin belə!!! – deyə onu ağızdolusu söydü. – Yoxsa, öz əməlindən ləzzət almağa gəlmişsən? Qorxaq!..

Yumruğunu qaldırıb, Poqrebnyuku vurmaq istərkən Romanov onu qolundan tutub kənara çəkdi, hələ də söyüşü davam etdirdiyi üçün əli ilə onun ağzını yumdu.

Uzaqdan Demeşkonun hərəkətinə göz qoyan Bondarçuk soldatları aralaya-aralaya onlara yaxınlaşdı. O, Dobrovolskinin belə bir işə, yəni Drujini görmək üçün batalyonun buraya gəlməsinə icazə verməsini soldatlar arasında apardıqları işin böyük müvəffəqiyyəti hesab edirdi. Bondarçukun fikrincə, Dobrovolski bu işi görməklə çox ehtiyatlı davranmışdı; icazə vermədiyi təqdirdə, bütün batalyonun ayağa qalxıb xoşagəlməz bir hadisə törədə biləcəyini hiss etmişdi...Bununla belə Dobrovolski kimi çox hiyləgər bir adamın başqa nəqşələri də olmamış deyildi. Bondarçuku qorxudan da məhz bu cəhət idi. Demeşkonun lazım görünməyən kiçicik bir hərəkəti, bütün təşkilatın izinə düşmək üçün batalyon komandirinin əlinə əsas verə bilərdi. Bu məsələdə, Bondarçuk son dərəcə ehtiyatlı və ağıllı tərpənməyi hər bir təşkilat üzvünün başlıca vəzifəsi hesab edirdi.

Bondarçuk Demeşko ilə Romanovun durduqları yerə çatdıqda bir az aşağıda, təpənin ətəyində durmuş soldatlardan biri bərkdən çığırdı:

– Drujin!..

Bütün izdiham bir nəfər kimi dərindən nəfəs aldı. Xışıltılı bir hava cərəyanı bir an içərisində dərəni doldurdu. Dərə axşam sakitliyində arı pətəyi kimi boğuq bir səslə uğuldadı və bir az aşağılarda əks-səda verərək dərhal da kəsdi.

Drujin barmaqlığın dalında durmuşdu. Kiçik, qədim Qala divarında təsadüfən açılmış deşiyə bənzəyən pəncərədən onun ancaq pırtlaşıq saçlı başı görünürdü. Batan günəşin sarımtıl işığından onun solğun sifəti daha da saralıb, meyit rənginə çalırdı. O, sakitcə durub, aşağıda – çay yatağının qabarıq quru yerlərinə, habelə yoxuşda – alçaq yovşanlı təpələrin üstünə qarışqatək səpələnmiş soldatları yorğun gözləri ilə bir xeyli seyr etdi. Gözlərinə inanmırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun görüşünə öz matros yoldaşları ilə birlikdə piyadalar da, hətta Dobrovolskinin "sədaqətli" soldatları da gəlmişdilər.

Drujin sinə dolusu nəfəs aldı və qandallı qolunu barmaqlığın arasından çətinliklə eşiyə çıxararaq əlini aramla yellədi. Bayaqdan bəri sükut içərisində donub qalmış izdiham Drujinin bu hərəkəti ilə təzədən çalxalandı. Ətrafı lərzəli bir titrəyiş bürüdü. Oradan-buradan soldatlar bir-birinə səs verərək əlləri ağızlarında, Drujinin eşitməsi üçün bərkdən çığırırdılar.

– Drujin, möhkəm dur!?

– Biz, səninləyik. Drujin!

Bondarçukdan aşağıda, təpənin çınqıllı ətəyində durmuş bir soldat daha ucadan səsləndi:

– Drujin, bizim ürəyimiz səninlədir, arxayın ol, möhkəm dayan!

Bondarçuk bu sözləri çığıran soldatı tanımaq niyyəti ilə pəncələri üstə qalxdı, qabağında duran soldatların başı üstündən aşağı boylanıb gözləri ilə nə qədər axtardısa, izdihamın içində onu ayırd edə bilmədi.

Batan günəş aşağıya, üfüqün dalına endikcə Drujinin sakit üzündən də öz axırıncı sönük şüasını çəkib aparırdı. İndi məhbusun taqətsiz halda yellənən əlindən başqa heç bir şey ayırd eləmək mümkün olmurdu. Axırda əli də görünməz oldu. Drujin barmaqlığın dalından çəkilən kimi, batalyon komandiri tərəfindən külli-ixtiyar almış poruçik Varlamovun yoğun səsi dərəni və adamları silkələyib diksindirdi:

– Vzvodlar, düzlən!..

Bu səs Qala divarlarına dəyib, dərədə gurultulu əks-səda verdi.

Drujinin əzablı, solğun sifətini görəndən sonra durduğu yerdə sarsılmış Poqrebnyuk bu səsdən kaman kimi gərildi. İndi yəqin ki, qəzəbli nəzərlər yenə ona zillənəcəkdir – fikri şimşəktək beynində çaxdı.

Deməşko kimiləri də tapıla bilər ki, aranı qarışdıraraq, onu elə buradaca qanına qəltan eləsin... Bədənini soyuq bir üşütmə bürüdü. Dəhşətli baxışlarla rastlaşmamaq, onlarla nəştərlənməmək üçün hamıdan qabaq, təpənin üstündən yerə endi və özünü beşinci və altıncı rotaların soldatları içərisində gizlətməyə çalışdı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XVI fəsil

Rota komandirlərindən tutub unterlərədək bütün zabit heyəti batalyon komandirinin hərəkətinə təəccüb qalmışdı. İki-üç nəfər soldatın bir yerə toplanmasına dözə bilməyən Dobrovolski necə oldu ki, bütün rotaların inqilabi iş üstündə həbsə alınmış soldat-matrosla görüşmələrinə icazə verdi? Xəstələndiyi üçünmü ürəyi yumşalmışdır? Yoxsa onun kimi möhkəm adamın da canına, nəhayət, vahimə düşmüşdü?

Soldatların çay yatağından geriyə qayıtmasını həyəcan içərisində, səbirsizliklə gözləyən zabitlər qorxulu bir hadisə baş vermədiyini öyrəndikdən sonra sakit oldular. Rota komandirləri podporuçik və poruçiklərə, qışlalara qayıtmamış soldatların üzərində nəzarəti artırmağı və hər ehtimala qarşı ehtiyatlı olmağı tapşırdıqdan sonra, kapitan Qassenin kiçik mənzilinə toplaşdılar.

Hava çoxdan qaralmışdı. Qəribə hal orası idi ki, podpolkovnik bu hadisədən bir neçə saat keçdikdən sonra belə görüşün nə ilə nəticələndiyi ilə maraqlanmamışdı. Yalnız axşamdan xeyli ötmüş, o, keşik dəstəsinin rəisi poruçik Varlamovu öz yataq otağında qəbul etdi. Söhbət uzun çəkdi. Qassenin mənzilində toplaşmış zabitlər isə səbirsizliklə gözləyirdilər. Hər dəqiqə podpolkovnikin yanına çağırılmaq ehtimalı olduğundan, vaxtı öldürmək üçün əylənmək fikrinə də düşməmişdilər.

Bir saatdan sonra Qassenin Denşiki xəbər gətirdi ki, Varlamov on dəqiqə qabaq batalyon komandirinin yanından çıxıb getmişdir. Ondan sonra da adyutant bildirdi ki, podpolkovnikin baş ağrısı tutduğundan sabahadək heç kəsi qəbul etməyəcəkdir. Qasse bunu eşidən kimi əllərini ovuşduraraq, stolun üstünü sahmana salmağa başladı. Özünün "ehtiyat anbarı" adlandırdığı köhnə taxta şkafı açıb, stolun üstünə dörd şüşə əla çeşidli gürcü şərabı qoydu.

– Səhərədək, güman edirəm ki, cənablar, bizi narahat edən olmaz. – Bugünkü əhvalatdan sonra öz zabit yoldaşlarının kefini açmaq üçün yeşiyin gözündən kart çıxarıb şappıltı ilə stolun üstünə tulladı. – Nə olacaqsa olacaq! Fikir çəkməyinə dəyməz, mənim əzizlərim. Səhər hər şey məlum olacaqdır. Hər halda onu deyim ki, başımız sığallanmayacaqdır. Qaldırın içək hər şeyi. Lap özümüzü də unudaq.

Badələr həvəslə boşaldıldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Smirnov kart oynamaqdan imtina etdi. O, otaqda gəzişərək, pəncərədə bir-birinin üstünə yığılmış kitablara yaxınlaşdı; maraqlı bir roman tapmaq niyyəti ilə onları araşdırdı. Qalın, nazik, bəzisi də oxunmaqdan vərəqləri didilib tökülmüş kitabların arasında, gözünə köhnə və təzə nizamnamələrdən başqa heç bir şey dəymədi. Bir az da otağın içində vurnuxdu, sonra naəlac qalıb pəncərədəki nizamnamələrdən birini əlinə aldı və stolun bir kənarında oturaraq onu varaqlamağa başladı.

Qasse beşinci və altıncı rotanın komandirləri ilə oyuna qızışmışdı. O, adət etdiyi kimi, yenə də bərkdən çığırıb, otağı başına götürmüşdü.

– İçmək də yadınızdan çıxmasın, – deyə Qasse tez-tez dolu badələrə işarə edirdi. O birilər bir badə qaldırınca özü ikincisini töküb içirdi.

Smirnov doldurulub qarşısına qoyulmuş birinci badəni qaldırıb səssiz-səmirsiz içdi; elə bununla da kifayətlənmək fikrində idi – iştahı artıq çəkmirdi. Lakin şərabın turşməzə dadı bu dəfə xoşuna gəldi. Buna görə də Qassenin təkidini gözləmədən ikinci badəni də içdi.

Şüşələrin dördü də boşalmışdı. Qasse bunu görən kimi Denşikini səslədi.

Vasya dəhlizdə oturub zabitin uzunboğaz çəkmələrinin tozunu almaqla məşğul idi. Çil üzlü pota Denşik işini buraxıb tələsik içəri girdi. Zabitlərin başı bərk qızışmışdı. Oyunda iştirak etməyən, burnunu az qala əlində tutduğu kitabçaya dayayaraq hərəkətsiz oturan kapitan Smirnovun isə dua oxuyurmuş kimi yalnız dodaqları tərpənirdi. Qasse yenicə çəkdiyi üç kartı sinəsinə sıxaraq bir anlığa fikrə getdi, sonra şübhəli nəzərlərlə qarşısındakı ştabs-kapitana baxdı.

– Hə, özünə get! – dedi.

Ştabs-kapitan da çəkinə-çəkinə iki kart çəkdi və onları bir-birinin üstündən ehtiyatla sürüşdürərək, gözlərini döyəclədi. Birdən nə fikirləşdisə, bir kart da əlavə götürdü. Otağa bir anlığa dərin sükut çökdü. Ştabs-kapitan təzə çəkdiyi karta ötəri nəzər salan kimi kiçik dəyirmi sifəti, açıq mavi gözləri uşaq sevinci ilə parladı və kartları Qassenin qabağında yerə sərdi. Qasse öz kartlarını hirslə yerə çırpdı. Denşik fürsətdən istifadə edib özünün içəridə əmrə müntəzir durduğunu bildirmək üçün boğazını arıtdı. Uduzmuş Qasse ayağa qalxıb ona yaxınlaşdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İki şüşə çıxır, tez! Meyxana açıq olar... – dedi. Denşik yerindən tərpənmədi. Gözlərini döyəcləyə-döyəcləyə kapitana baxdı. Qasse təəccüblə soruşdu:

– Hə, getsənə! Nə gözlərini bərəldib durmusan?

Denşik əyilib yavaşcadan onun qulağına pıçıldadı:

– Cənab kapitan, pul qurtarmışdır.

Qasse sivri çənəsini ovuşduraraq fikrə getdi.

– Onda feldfebelin yanına get; soldatlar üçün göndərilmiş pullardan on manat sənə versin. Maaşda qaytararam.

Kapitan Qasse bu sözləri nə qədər yavaşdan deməyə cəhd etdisə də, sözlər nizamnamə oxumaqla məşğul olan Smirnovun qulağından yayına bilmədi. Denşik otaqdan çıxdı. Qasse zabitlərin oturduqları stola yaxınlaşdı və təntənə ilə dedi:

– Bu saat oyunu davam etdirəcəyik, cənablar, darıxmayın. O, keflənmiş halda boş butulkaları stolun üstündən götürüb otağın o biri başındakı köhnə divanın üstünə qoydu. Sonra, o otağın bir küncünə atılmış boş, patron gizlərini ovcuna dolduraraq, şüşələri nişan almağa başladı. Hər gilizlə bir şüşəni xıncım-xıncım eləyib yerə səpələdi. Şüşələr cingilti ilə qırıldıqca Qassenin də sərxoş gülüşləri otağı doldururdu.

– Bax, belə, bax belə, bir də...

Bütün şüşələri beləcə qırıb tökdü. Bu qəribə əyləncəsindən vəcdə gələn Qasse, əllərini bir-birinə vuraraq otağın içərisində gəzişdi.

– Artıq adamları da, bax, beləcə qırıb tökmək lazımdır. Boş butulkaların heç bir xeyri olmadığı kimi, onların da xeyri yoxdur! "Dünyada artıq yer tutanlar yaşamamalıdır!" Lap yaxşı sözdür, cənablar! Bu cəhətdən mən, yəhudilərin qırılmasına haqq verirəm. Deyirlər ki, yəhudilərin mövcudiyyəti həyatın müvazinətini pozur. Müvazinət pozulduqda isə Yer kürəsi də uça bilər. Axı nə üçün uçsun? Mən ki, yaşamaq istəyirəm!.. Madam ki, yaşamaq istəyirəm, demək, gərək müvazinət olsun, cənablar. Müvazinəti də saxlamaq üçün yəhudilər qırılmalıdır! Sadəcə bir arifmetika; iki dəfə iki – eylər dörd, beş yox, dörd! Bax belə! Müvazinət mənim anadangəlmə hüququmdur, mən də onu müdafiə etməliyəm – dişimlə, dırnağımla! Onu Allah mənə bəxş edib... Əgər bir ayağım olmasaydı – yıxılardım, bir gözüm olmasaydı – çaş görərdim, əlim tək olsaydı – səsi çıxmazdı... Belədir, cənablar...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qasse yaxınlaşıb Smirnovun qabağında durdu. Gözləri süzülürdü. Əlini dostunun çiyninə qoyub istehza ilə gülümsədi:

– Bəs, pərişan filosofumuz bu haqda nə düşünür, hə?!

Smirnov gözlərini bir anlığa kitabçadan ayılıb, altdan-yuxarı Qasseni süzdü. Qasse onun belə baxışlarına bərkdən qəhqəhə ilə güldü.

– Bilirəm, dostum, niyə mənə elə baxırsan! Yəqin deyəcəksən ki, içkinin buxarıdır, məni dindirir. Yox, əzizim, hələ ki, səni bir görürəm... Ancaq həqiqəti budur. Götür, elə bugünkü əhvalatı... Əgər Drujini vaxtında, – o, şəhadət barmağına alnına dayadı. – Bu gün o, müvazinəti pozmadı... Mən doğrusu podpolkovnikə təəccüb qalıram... Onun yerinə olsaydım lap birinci gün Drujini əcdadının yanına göndərərdim... Belədir, dostum!

Smirnov əlindəki nizamnaməni bir tərəfə atdı və yumruğunu hirslə stola çırpıb ayağa qalxdı. Qasse istər-istəməz geri çəkildi, o biri zabitlər də oturduqları yerdən dik atıldılar.

– Bəsdir!.. – deyə Smirnov oturanlar üçün tamamilə gözlənilməz bir qızğınlıqla çığırdı. – Öldürmək, kəsmək... görünür ki, cənablar, əlimizdən başqa heç bir şey gəlmir... Nə bilirsən sabah onlar səni güllələməyəcəklər? Bəlkə onlar deyəcəklər ki, müvazinəti siz pozursunuz? Bugünkü soldat nə bilirsiniz ki, sabah bizə əmr etməyəcək? Hə, kim bilir? Cavab verin!.. Dinmirsiniz?

Kapitan Smirnovun solğun rəngi ağappaq ağarmışdı. Dodaqları hirsindən əsirdi; mülayim mavi gözləri qan çəkib bərələ qalmışdı. Heç kəsdən cavab cıxmadığını gördükdə, yerinə oturdu, stola dirsəklənərək əlləri içərisinə aldı. Qasse dostunun xasiyyətinə yaxşı bələd olsa da, onu heç zaman bugünkü vəziyyətdə görməmişdi.

– Səfeh, – deyə ona müraciət etdi. – sabah ölməmək üçün bu gün sən öldürməlisən!.. Bu, həyatın qanunudur. Qılıncının dalı, qabağı da kəsməlidir.

Smirnov başını qaldırıb, qəzəblə Qasseyə baxdı. Qasseyə elə gəldi ki, onun ağlı yerindən oynamışdır, çünki belə bərəlmiş bəbəkləri o ancaq ruhi xəstəliyə tutulmuş adamlarda görmüşdü.

– Soldatın sabah səni soymaması üçün, bu gün onun cibinə girmək, qəpik-quruşunu almaq lazımdır, eləmi? Bu da həyatın qanunudur?

Qasse bir addım dostuna tərəf irəlilədi.

– Etiraf edirəm ki, dostum, axırıncı sözlərini başa düşmədim. Nə demək istəyirsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə demək istəyirəm? – Smirnov istehzalı bir təbəssümlə Qassenin üzünə baxdı. Bir az qabaq Denşikinə dediyin sözləri nə tez yadından çıxartdın? O pulları ki, sənin hesabına qazanmayıblar; evdən, bəlkə də uşaqlarının boğazından kəsib göndəriblər. Bu, ölü soymaqdır!

Qasse hirsindən özünü saxlaya bilməyib, Smirnovun yaxasından yapışdı, onu qüvvəsi çatdıqca silkələdi.

– Sən bilirsənmi ki, nə danışırsan, cənab kapitan?!

– *Bilirəm, hamısını bilirəm.*

– Alçaq! – deyə Qasse yumruğunu qolaylayıb, onun çiyninə endirmək istərkən, Smirnov onun biləyindən yapışıb, qolunu havada saxladı. Başları karta məşğul olan o biri komandirlər mübahisənin belə ciddi şəkil aldığını görən kimi, stolun arxasından qalxıb onları sakitləşdirməyə gəldilər. İkisi Qassedən yapışıb, onu Smirnovdan aralamağa çalışdı. Qasse isə dartınıb onların əllərindən çıxmağa, yumruqlarını qabağa uzadaraq, Smirnovun sinəsinə zərbə endirməyə cəhd edirdi.

– Yox, o əvvəl-axır tənbeh edilməlidir! – deyə Qasse ara vermədən Smirnovun üstünə çığırırdı. – Onda soldat xəstəliyi var. Bəli, bəli, qurd kimi bədənində gəzir.

Ştabs-kapitan güclü qolları ilə Qassenin dirsəklərini arxasına tərəf çəkib, möhkəm-möhkəm öz sinəsinə sıxmışdı.

Arabir deyirdi:

– Siz nə edirsiniz, cənablar!? Podpolkovnikin qulağına çatarsa, inanın ki, bugünkü hadisənin acığını da sizdən çıxacaqdır.

Kapitan Qasse ayaqlarını da işə salmışdı. Ancaq nə qədər çalışırdısa, yerindən bir qədəm də irəliyə keçə bilmirdi; Smirnovu vurmaq üçün qabağa uzatdığı xrom çəkməli ayaqları havada işıldayaraq qalxıb enirdi.

Smirnov qalxdığı yerdə sakitcə dayanıb Qassenin çığırtılarına laqeydliklə, acı-acı gülümsəyirdi.

– Qəhrəman! İndi təpiyə keçmişsən?!

Qasse bütün gücünü toplayıb, Smirnova tərəf dartındı, lakin özünü ştabs-kapitanın qüvvətli qolları arasından çıxara bilmədi.

Qucağında şərab şüşələri olduğu halda içəri girən Denşik təəccübündən astanadaca donub qaldı. Mehriban qoyub getdiyi zabitlər bir-birilə əlbəyaxa idilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XVII fəsil

Gecədən ötmüş, Poqrebnyuk yatağından qalxdı. Qapıdan çıxmaq istərkən qışlanın dib tərəfində kimin isə öskürdüyünü, yuxulu halda öz-özünə dediyini eşitdi. Deməк, arxa cərgədəki çarpayılardan birisində kim isə oyanmışdı.

Poqrebnyuk əvvəlcə ayaq saxlamaq, soldat yoldaşını təzədən yuxuya verənədək gözləmək istədi. Lakin tezliklə fikrini dəyişib, alt paltarında, yalın ayaqlarına çəkdiyi yöndəmsiz nimdaş uzunboğaz çəkmələrinin pəncəsi üstə həyətə endi. Hava qaranlıq olduğundan göz-gözü görmürdü. Qaranlığa alışmaq və həyətdəki şeyləri seçmək üçün gözlərini bir anlığa yumdu. Qapı tərəfdən, aramla gəzişən növbətçinin ayaq səsləri eşidilirdi. Poqrebnyuk gözünü açdıqda növbətçinin fiqurasını aydın seçə bildi. O gah durur, gah da gəzişirdi. Poqrebnyukun qulağına astadan oxunan kədərli bir mahnı səsi də çatdı. Ona elə gəldi ki, bunu qışlada oxuyurlar. Kim isə oyanıb yavaşcadan zümzümə edir. Bəlkə elə öskürən adamdır? Bu mahnını o harada isə eşitmişdi... Həzin-həzin oxunan mahnının ilk sözləri, ümid və təsəlli ilə yaşayan bir dəyirmançının həyatından bəhs edirdi: o, qüssəlidir... Onu doğma elindən ayırıb, bu tənha dəyirmana göndərmişlər. Lakin sevdiyi qız ona söz vermişdir, "gələcəyəm, qaçıb yanına gələcəyəm" demişdir. Gənc gözləyir, qız isə gəlib çıxmır. Dəyirmançının ümidi kəsilir, özünü burulğanlı çayın sularına atır. Qız çayın qırağı ilə dəyirmana qaçarkən, köpüklü sularda atılıb düşən bir qaraltı görür. Heyhat, o haradan biləydi ki, bu onun əlindən çıxmış məhəbbətidir!..

Poqrebnyuk astadan, bəlkə də lap mızıltı ilə oxunan bu mahnının sözlərindən sehrlənmiş kimi durub baxırdı. Axı bu mahnını o eşitmişdi. "Aha, yadıma düşdü..." Onun gözləri önündə, nəvəsi ilə birlikdə xutor-xutor gəzib dilənən qoca kor kobzarın, şir yalına oxşayan uzun çal saçları, sinəsinə tökülən saqqalı, yamaqlı köynəyi içərisində titrəyən arıq, sısqa bədəni canlandı. Bəli, o zaman Poqrebnyuk uşaq idi; kor kobzarın gəldiyini eşidib xutor uşaqları ilə birlikdə, ayaqyalın, başıaçıq ağalıq doqqazına tərəf qaçdılar. İndi qulaq asdığı mahnını da birinci dəfə o, həmin kobzardan eşitmişdi; göyün üzü ayna kimi təmizdi. Uzaqdan elə bil göyün lap dərinliklərindən durna qatarlarının şaqqıltısı gəlirdi. Kor çalğıçı bunları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görmürdü. Ancaq duymağa nə var ki? Qoca elə birinci mahnısını durnalara qoşdu.

Poqrebnyukun bədənini rəşə bürüdü. Yox, bu səs içəridən – qışladan gəlirdi. Onu kim isə lap yaxında oxuyurdu. Elədir ki, var... Sakit gecəyə qüssə verən bu doğma Ukrayna mahnısını qapıda aram-aram gəzişən növbətçi zümzümə edirdi. "Görəsən, o oxuduğu mahnıya, başqa birisinin qulaq asdığını bilirmi? Yox! Yəqin ki, yox! Çünki insan yalnız tək qaldığı zaman belə ürəkdən oxuya bilər..."

Poqrebnyukun gözləri artıq qaranlığa alışmışdı. Budur, o, nəinki həyətdəki kiçik taxta tikililəri görür, hətta alçaq hasarın üstündən boylanan evləri, bacaları, həyətlərdə ucalan qələmələrin qaraltısını da aydınca sezirdi. Ancaq bunların heç birinin bu dəqiqədə onun üçün əhəmiyyəti yoxdu. Onu maraqlandıran həyətdəki qol-budaqlı qoca tut ağacı idi. O, növbətçinin gözündən yayınmağa çalışaraq, gövdəsi ağaran tut ağacına tərəf getdi.

* * *

Sakitlikdi. Növbətçinin zümzüməsi daha eşidilmirdi. Bahar gecəsinin xumarlığı, deyəsən, onu da bürümüşdü. Addım səsləri arabir, özü də ağır-ağır eşidilirdi. Uzaqdan Tala çayının boğuq uğultusu gecənin sakitliyi içərisində xəfif bir titrəyişlə əriyirdi. Həyətlərdə itlər də susmuşdu. Hərdənbir vaxtı azdırmış xoruzlar banlayırdı. Bu qaranlıq aləmdə növbətçidən başqa elə bil hamı, dilsiz bir sükutun qoynunda dincəlirdi.

Növbətçi yuxusuzluqdan ağırlaşan gözlərini tez-tez döyəcləyir. Silahını çiynindən yerə qoyub, yuxusunu qaçırtmaq üçün qollarını havada oynadırdı. Bahar yuxusunu heç bir şey qaçıra bilməz! Növbətçinin də cəhdləri nahaqdı. Əgər birdən həyətdə gözünə sataşan ağartı olmasaydı, çətin ki, o, bir sehrkar kimi bütün bədənini tilsimləmiş bu yuxudan yaxa qurtara biləcəkdi. O, əvvəlcə gözlərinə inanmadı, şinelinin qolu ilə gözlərini silib bir də baxdı; budaqları qaranlıq havaya soxulub, gözdən itən tut ağacının altında uzun bir ağ kölgə yırğalanırdı. "Bu nədir, yoxsa məni qara basır? – Onun bədənini vahiməli bir rəşə bürüdü. – Yoxsa soldatlardan kim isə məni qorxutmaq niyyətinə düşmüşdür? O çığırmaq istədi; ancaq səsi çıxmadı, boğazında ilişib qaldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ey, orada duran kimdir? – deyə gücünü toplayıb bir də çığırdı. Səsinin çox qəribə, ilan fışıltısına oxşar bir şəkildə çıxmasından özü də vahiməyə düşdü.

Cavab yoxdu. Ağartı yenə də yırğalanır və sanki yavaşcadan xırıltılı bir səslə ona gülürdü.

– Hey, din, yoxsa vuracağam ha!

Növbətçi tüfəngini kölgəyə tərəf uzadıb çaxmağı şaqqıldatdı. Lakin yenə səs çıxmadı. Dilsiz-ağızsız ağartı onunla üzbəüzlükdə durub, elə bil ağacdan asılmışdı.

Yox bu, zarafat deyildi. Gecənin yarısında, gündüzün ağır və əziyyətli təlimindən sonra hamısının yorğun, əzgin halda yuxuladığı bir zamanda onunla zarafat etmək kimin ağlına gələ bilərdi və belə axmaq bir işdən ötrü kim öz yuxusuna xələl qatardı?

Növbətçi yenə də çığırdı:

– Özünü karlığa qoyma, cavab ver, yoxsa!.. – Çaxmağı yenidən şaqqıldatdı.

Bayaqdan bəri ahəstə yırğalanan kölgə indi ağacın altına mıxlanıb qalmışdı. Növbətçi onu hədələyən bu ağartıdan heç bir hərəkət görmədikdə yaxınlaşmağı qərara aldı. Tüfəngi sinəsinə qaldırıb irəlilədi, beş-altı addım atmamışdı ki, vahimə içərisində donub qaldı. Kimsə özünü asmışdı. Ağaran da onun əynindəki ağ paltar idi. Sinəsinə düşmüş başı, ayaqlarındakı qara çəkmələri gecənin qaranlığında seçilmirdi. Soldat bir an özünü itirmiş halda dayanıb baxdı!..

Harada isə it uladı; bundan növbətçinin bədənini qorxunc bir rəşə bürüdü. Əslində isə it deyil, yamacda canavar ulayırdı. Gecənin sükutu içərisində onun səsi yuxuya getmiş şəhərin üzərində məşum bir varlığın vahiməsini yayırdı. Soldatın bütün bədəni ürpəşdi və yerində dura bilməyib keşikçi budkasına tərəf qaçdı.

Bir azdan onun fit səsi qışlanın həyətinə çökmüş sükutu iti xəncər kimi yardı. Keşikçi budkasından onun harayına iki soldat çıxdı.

Növbətçi onları görən kimi dili dolaşa-dolaşa dedi:

– Tez, tez... işıq verin! Orada özünü asan var...tut ağacından. Tez!

Soldatlardan biri içəri keçib fənər gətirdi. Nəm torpağa və ətrafa boz və sarımtıl bir işıq yayıldı. Bu işıqda ağacdan asılmış adamın ağ paltarı da sarı rəngə çaldı. Onlar irəlilədilər. Soldatlardan biri yaxınlaşıb, özünü asmış matrosun qolunu qaldırdı, qol taxta parçası kimi meyitin yanına düşdü, boğuq bir səs çıxdı. Sonra fənəri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yuxarı qaldırıb, asılan adamın üzünə baxdılar. Bərəlmiş gözlərindən, şişib dalaq kimi göyərmiş dodaqlarından keşikçilər onu dərhal tanıya bilmədilər. Fənəri daha da yaxına gətirdilər. Soldatlardan biri təəssüflə səsləndi:

– Vay, bu ki, Poqrebnyukdur! Axmaq!

– Nəəə?

Fit səsinə oyanmış soldatlar da həyətə doluşdular. Ağacın altında daha adamları kölgələrindən seçmək olmurdu. Kölgələr gah uzanıb qısalır, gah da bir-birinə dolaşmış ilanlar kimi, qıvrılıb-açılırdı. Hənirti və danışıqlar da bir-birinə qarışmışdı. Bəzisi təəssüflənir, bəzisi isə hündürdən və heç kəsdən çəkinmədən qəzəblə komandanlığın adına ittihamlar yağdırırdı.

Viktor Bondarçuk gecikmişdi. O, həyəcanlanmış soldatları aralayıb qabağa keçdi.

– Kimdir?

– Poqrebnyuk!

O köksünü ötürdü. Çırmanmış qolunu qabağa uzadaraq, Poqrebnyukun yanından asılı qalmış əlini ovucunun içinə aldı və başını təəssüflə yelləyib buraxdı.

– Bədəni hələ də istidir.

Viktorun yanında durmuş boğazı sarıqlı soldat çiynindən sürüşüb düşən şinelini düzəldərək günahkarcasına təəssüfləndi:

– Bir gör ha!.. O buraya çıxanda mən oyaqdım, ancaq heç ağlıma gəlməzdi ki, özünü asmağa gedir... sonra da yuxuya getdim... xəbərim olmayıb. Yoxsa...

O, fikrini tamamlamadan yoldaşlarına baxdı.

* * *

Bondarçuku fikir götürmüşdü. Son günlər Poqrebnyukun göz qabağında keçirdiyi ruhi əzablara hamı şahid idi. Hiss olunurdu ki, o tutduğu işə peşman olmuşdur və yoldaşlarının ondan üz döndərmələrinə daha dözə bilmir. Belə bir işə onu vadar edən səbəb də ancaq bu ola bilər. “Əgər özünün dediyi kimi günahı yoxsa... o zaman vicdan əzabı hamımızı ağzına alıb gəmirəcəkdir...” Bondarçuk dərindən nəfəs aldı. Bu zaman ondan iki addım aralıda



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

durmuş arqac bir soldat boğazını arıtdı, ağacın altında dövrə vurub məyus dayanmış yoldaşlarına müraciət etdi:

– Niyə belə qəmgin durmuşsunuz? Xainin axırı elə belə olar da! Bəs siz nə gözləyirdiniz! Cəzasıdır, çəkdi.

Soldatlardan heç kim ağzını açıb ona bir söz demədi. Hərə öz aləmində Poqrebnyukun tutduğu bu işin təsiri altında onun doğrudan da, xain olub-olmadığını götür-qoy edir, fikirləşir, lakin qəti bir nəticəyə gələ bilmirdi.

Axır günlər soldatların onu gözümçıxdıya salmasından təəssüflənən də vardı. Bayaqdan bəri, meyitin yanında durub, tez-tez köks ötürən başqa bir soldat arqac soldatın sözlərindən sonra özünü saxlaya bilməyib, araya çökən sükutu pozdu.

Yox, o xain olduğu üçün özünü öldürməmişdir! Dünən onun başına açılan oyunu öz gözlərimlə gördüm. Siz də görsəydiniz ürəyinizə od düşərdi. Feldfebelin yanına gedib təkidlə pul istəyirdi. Bilirsiniz də, evdən ona göndərilən pulu. Feldfebel də deyirdi ki, hələ gəlməyib. Təsəvvür eləyin ki, iki ay qabaq ona pul göndərilib, hələ də batalyona gəlib çıxmayıb! Əlbəttə, onun inanmamağa haqqı vardı. Qızışdı, nə qızışdı! Ağzına gələni feldfebelin cəmdəyinə döşədi. "Siz oğrusunuz, – dedi, – bəli, oğru! Səndən tutmuş podpolkovnikədək hamınızın gözü soldatın qəpiyindədir".

Bunu eşidən feldfebel də özündən çıxdı, ana söyüşünə keçdi, sonra da podpolkovnikə xəbər verməyə getdi. Güman eləyirəm ki, o yazıq da elə qorxudan özünü asmışdır.

Romanov qışqırdı:

– Kapitan Smirnov necə? Onun da bundan xəbəri varmı?

– Haradan xəbər tutacaq! Gecə səhərədək kef məclisində olublar.

– Qoy gəlsin cavab versin!

– Gəlsin, gəlsin!..

Yuxulu, xırıltılı səslər bir-birinə qarışdı. Lakin birdən qışlanın qapısı ağzından eşidilən yoğun bir səs hamını susmağa məcbur etdi.

– Soldatlar, məktub! Poqrebnyukundur... Çarpayısının üstündən tapdım.

O, pillələri sürətlə enib yoldaşlarının yanına gəldi. Romanov onun yaxınlaşmasını gözləmədən tez qabağa çıxdı, məktubu əlindən qapıb tələsik oxudu. Sonra rahat nəfəs alıb arxayınlıqla Bondarçuka tərəf döndü. Bondarçuk onun baxışlarından hiss etdi ki, məktubda xatalı bir şey yoxdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Oxu, bərkdən oxu, – dedi, – qoy hamı eşitsin!

Romanov arxasını lampaya tərəf çevirərək məktubu özünə yaxınlaşdırdı və hündürdən oxumağa başladı. Səsi həyəcanından titrəyirdi.

"Soldatlar, mənim yoldaşlarım! Bilirəm, məni qınayacaqsınız, deyəcəksiniz ki, qorxaqdı – dözə bilmədi. Nə edəyə bilərdim? Başqa cür bacarmadım... dözə bilmədim. Sizin də üz döndərməniz mənə daha ağır dərd oldu. Mən xain deyiləm. Drujinin ələ verilməsindən qətiyyən xəbərim yoxdur, inanın!

Əlvida, dostlar! Salamat qalın. Poqrebnyuk."

Məktub oxunub qurtardı. Bu kiçik kağız parçasında karandaşla tələsik yazılmış sözlərin təsirindənmi, ya da bircə saat əvvəl, onlarla bir qışlada nəfəs almış canlı bir adamın indi taxta parçasıdək quruyub, ağacdan vahimə ilə asılı durduğundanmı, nədənsə heç kəs qımıldanmırdı, indi az adam tapılardı ki, Poqrebnyukun etirafına inanmamış olsun. İnanmayanlar da, Poqrebnyukun özünü qorxaqlıqdan asdığını deyənlərdi. Bu hadisədən sonra öz rəylərini açıq söyləməyə çəkinirdilər. Hər halda Poqrebnyuk özünü öldürmüşdü: bu da birinci növbədə, batalyonda qoyulmuş ağır, dözülməz rejimin nəticəsi idi. Drujinin həbsi, hər gün karserdə döyülməsi, ondan sonra da Poqrebnyukun özünü asması matros-soldatlardan başqa piyadaları da həyəcanlandırmışdı. Məktubun oxunmasından sonra araya çökən sükuta da əsas səbəb bu idi. Qapı ağzında keşikçi ilə söhbət edən kapitan Smirnov göründü. Kapitan ağ kitelini çiyninə atıb, əl-qolla danışan keşikçiyə qulaq asdıqdan sonra iti addımlarla soldatlara tərəf gəldi; soldatların arası ilə irəli keçib Poqrebnyuku altdan-yuxarı süzdü. Birdən hamının təəccübünə səbəb olan bir hərəkətlə geri çəkilib gözlərini yumdu; durduğu yerdə səntirlədi. Smirnova elə gəldi ki, neçə vaxtdan bəri, gecəli-gündüzlü ona həzrət İsanı xatırladan bu soldat indi də İsanın özü kimi çarmıxa çəkilmişdir. Bir anlığa beynində hər şey qarışıb alt-üst oldu, torpaq ayağının altında fırlanqıc kimi hərlənməyə başladı; onu da özü ilə birlikdə yüksək bir yerdən qoparıb sürətlə aşağıya – dərin bir yarğanın dibinə yuvarladı. Kapitan yıxılmamaq üçün əlini tut ağacının yoğun gövdəsinə dayayaraq hərəkətsiz qaldı. Soldatlardan biri istehza ilə gülümsəyərək dedi:

– Hə, qorxuncdur, cənab kapitan?..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu sözün kimin ağzından çıxdığını öyrənmək məqsədilə kapitan birdən-birə başını silkələyib gözlərini açdı, dövrəsində duran soldatların üzərinə bərkdən çığırdı.

– Sus! Kimdir o?

Dinən olmadı. Hamı qəzəbli nəzərlərini ona zilləyərək susmuşdu.

– Kimdir, soruşuram? Cavab verin! Yoxsa! – Onun ağzı köpüklənmiş, gözləri bərəlmişdi. Arxasını ağacın gövdəsinə dayayaraq cavab gözləyirdi. Heç kəsin dinmədiyini gördükdə təkrar dedi: – soruşuram ki, o dillənən kimdi? Cavab verin!

Arxadan bir səs eşidildi:

– Mən!

Kapitan göz gəzdirib, səsin haradan gəldiyini öyrənincə sağdan və soldan "Mən!" – deyə yer-yerdən bir-birinin dalınca çığırdılar. Smirnov dişlərini qıcıdı. Başını əsdirə-əsdirə baxdı. Hirsindən qırxılmamış sivri çənəsi yerində qərar tuta bilmirdi.

– Sus! – deyə o qolunu havada oynatdı. Bu saatca dağılışın, əmr edirəm!..

Bondarçuk, onun dalınca da başqa soldatlar iki addım geri çəkildilər; ancaq dağılışmadılar. Smirnov ruhi böhranı sovuşmuş xəstələr kimi, yavaş-yavaş özünə gəldi və keşikçini səslədi. Keşikçi budkasından, yenicə növbə dəyişməyə hazırlaşan iki keşikçi yüyürüb gəldi. Kapitan başı ilə asılı meyitə işarə etdi:

– Açın! Xərəyin üstündə tez Qalaya çatdırın!

Keşikçilər əmri yerinə yetirməyə tələsdilər: biri ağaca dırmandı, əyri budağa keçirilmiş kəndiri açdı, aşağıda durmuş keşikçi isə meyitin yerə düşməməsi üçün onu belindən qucaqlayıb durdu. Kəndir açıldı. Kənarda durmuş soldatlardan bir neçəsi irəli çıxıb aşağıda duran keşikçinin köməyinə gəldi. Meyit arxası üstə yerə uzadıldı. Kim isə cibindən kirli bir yaylıq çıxarıb Poqrebnyukun göyərmiş sifətini örtdü. Altdan-altdan kapitan Smirnova göz qoyan Bondarçuk, onun Poqrebnyukun bərələ qalmış ölü gözləri ilə rastlaşmamağa çalışdığını his edirdi. Buna görə də kapitan meyitin üzünü örtən soldata minnətdarlıq bildirən ötəri bir nəzər saldı. Keşikçilər meyiti yerə düşürdükdən sonra xərək dalınca getdilər. Tut ağacının altına yenə də sükut çökdü.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamı başını aşağı dikərək susmuşdu. Kapitan Smirnov da dərin xəyal içində idi. Xərək gələnədək o, başını qaldırıb, bir dəfə də olsun nə soldatlara, nə də meyitə baxdı.

## XVIII fəsil

Sakit havada Qala düzündən eşidilən şeypur səsi hamını qaldırdı. Hər gün səhərlər təlimə çağıran bu adi səs bu gün, xüsusilə çox həyəcanlı görünürdü. Şeypurçu nə isə fövqəladə bir hadisəni xəbər vermək üçün boğazı yırtılanadək şeypuru füləyir, bozaran səmada isə pərdə-pərdə əriyib evlərin, şehli bağların üzərinə yayılırdı.

Üfüq odlanıb tünd-qırmızı rəngə boyanmışdı. Bir azdan onun qırmızılılığı sarı rəngə çalmağa başladı və çox çəkmədi ki, günəşin ilk lələkli şüaları şəhərin üzərinə səpələndi. Bazar tərəfdən qarışıq hənirtilər eşidilməyə başladı; əvvəlcə yavaşdan tək-tək, sonra getdikcə bir-birinə qarışaraq anlaşılmayan uğultuya çevrildi.

Rota gecəki hadisədən sonra, hələ də özünə gəlməmişdi. Ağır addımlarla Qala düzünün yoxuşunu dinməz-söyləməz qalxsalar da, hərə özlüyündə Poqrebnyukun necə dəfn ediləcəyi haqqında götür-qoy edirdi: "Bəlkə də elə bu həyəcanlı onun dəfni üçün çalınır? Ola da bilər ki, lap təzə bir əhvalat baş vermişdir..." Ancaq burası var ki, podpolkovnik Dobrovolski sıravi soldat üçün belə təntənəli dəfn mərasimi düzəltməzdi.

Bəzilərinin ürəyində belə bir mülahizə vardı ki, guya Poqrebnyuk vaxtilə komandanlığın işinə yaradığından onun üçün ağıllı-başlı dəfn mərasimi təşkil etmək olar. Bu fikirdə olanlar, Poqrebnyukun özünü asmasını da ancaq peşmançılığında görürdü. Lakin döyəclənən təbilin sədası altında vzvodlar Qala düzünə toplaşdıqda bütün düşüncə və ehtimallar alt-üst oldu. Məlum oldu ki, adi səhər təliminə çağırışdan çox fərqlənən şeypur səsi heç də Poqrebnyukun dəfn edilməsini xəbər vermək üçün deyildir.

* * *

Bütün rotalar təlim meydançasında "P" hərfi şəklində düzülmüşdü. Təbillər hələ də döyəclənirdi. Bu gərgin intizardan hamının əsəbi, sim kimi gərilmiş, narahat nəzərləri Qalanın taxta darvazasına dikilmişdi. Dobrovolski xəstəlikdən hələ qalxmamışdı. Bəs bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həyəcana səbəb nədir? Poqrebnyukun özünü öldürməsi, doğrudanmı, zabitləri belə təşvişə salmışdır? Ancaq onlar özləri də gözə dəymirdilər.

Adətən, batalyon komandirini həmişə öz rotaları ilə birlikdə qarşılayan ştabs-kapitan və kapitanlar bu gün ertədən podpolkovnikin yanına çağırılmışdılar. Yarım saatdan çox idi ki, içəridə məşvərət gedirdi. Hiss olunurdu ki, nə isə mühüm bir hadisə baş vermişdir. Vaxt keçirdi. Feldfebel zabit cənablarının qalada ləngidiklərini görüb, qabağa çıxdı və yoğun səsi ilə bağırdı:

– Papaqları çıxarın, səhər duasına başlayırıq!

*Papaqlar çıxarıldı. Hamı bir ağızdan duaya başladı:*

"İlahi, öz bəndələrinə rəhm et!.. Atamız imperator Nikolay Aleksandroviçə qələbə əta et!.."

Bir ağızdan deyilən duanın sözləri gurultu ilə ətrafa yayılır, aşağıda yarğanlarda əks-səda verərək birdən eşidilir, birdən də kəsilirdi.

Dua yenicə qurtarmışdı ki, darvaza ağzından zabitlərin qarışıq hənirtisi eşidildi və o dəqiqə özləri də göründü. Dördü də dalğın və fikirli idi. Feldfebelin yoğun səsi gurladı:

– Farağat!

Bir-birinə toxunan ayaqqabı dabanlarından boğuq bir uğultu qopdu və elə o anda da kəsildi. Araya elə bir sakitlik çökdü ki, göy otları əzərək irəliləyən zabitlərin çəkmələrinin xışıltısını belə eşitmək olurdu. Zabitlər yaxınlaşaraq cərgələrin qabağında durdular. Batalyon növbətçisi ştabs-kapitan qabağa çıxıb, əlində tutduğu bürməli kağızı açdı və boğazını bir neçə dəfə arıtdı; boynunu dikəltdi, əlini sinəsindən qabaq tutaraq aramla, arabir ayrı-ayrı, sözləri daha ifadəli tələffüz etmək üçün səsini boğazında qaynada-qaynada batalyon komandirinin əmrini oxumağa başladı. Əmrin giriş hissəsində, batalyon daxilində axır zamanlar ayrı-ayrı soldatlarda əmələ gəlmiş zərərli əhvali-ruhiyyədən, qorxulu hərəkətlərdən bəhs edilirdi. Bundan sonra əmr hissəsi başlayırdı. Ştabs-kapitan bu yerə çatdıqda səsinin sanki daha gur çıxması üçün barmağını yaxalığına keçirib onu dartışdırdı və sözünə davam etdi:

– ...Yuxarıdakıları nəzərə alaraq əmr edirəm:

1) Soldat Drujin, batalyon içərisində zərərli fikirlər yaymaqla, əlahəzrət ordusunun hərbi qanunlarını pozduğundan Qafqaz hərbi-səhra məhkəməsinə verilsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2) Axşam 7-dən sonra rotalardan mürəxxəs edilmə halları ancaq mənim razılığımla olmalıdır.

3) Bu əmrin yerinə yetirilməsini keşik dəstəsi komandiri poruçik Varlamova tapşırıram.

201-ci Lebedinski ehtiyat piyada polkunun xüsusi batalyonu komandiri podpolkovnik Dobrovolski.

Əmr oxunub qurtardı. Təlim başlananda hamı heyrətə düşmüşdü. Bəs Varlamov hanı? Axı o belə hallarda özünü şəstlə çəkib durar və gözlərini yalnız podpolkovnikin hərəkətlərinə zilləyirdi. Amma bu gün nə olmuşdusa, o yox idi.

– Yəqin ki, öz keşikçiləri ilə Poqrebnyuku dəfn edir. – Bunu deyən soldat səsini ucaltmağa çəkindiyindən onun sözlərini beş-altı nəfər ancaq eşidə bildi. – Onlara nə var ki, iti basdıranda da iki nəfər...

Vzvod komandirinin səsləri bir-birinə qarışmışdı. Hərə öz dəstəsini meydançada təlim üçün əvvəlcədən müəyyən edilmiş tərəfə çağırırdı. Bondarçuk Varlamovun burada olmamasına adi bir şey kimi baxmırdı. Onun fikrincə, batalyon daxilində nə isə, ciddi bir tədbir görülür. Bu mülahizənin təsiri ilə o, sağ tərəfində addımlayan soldata baxıb soruşdu:

– Demeşko, səncə, Varlamov nə üçün görünmür?

Demeşko çiyinlərini çəkdi, Viktorun üzünə baxmayan batalyon komandirini qəliz sözlərlə söydü:

– ...Təkcə şeytan bilir ki, onlar kimin şorbasını qızdırırlar...

Bu zaman başqa vzvodun soldatlarından biri onların yanından ötəndə bu söhbəti eşidib bir anlığa ləngidi; ətrafına boylandı, vzvod nəfərləri ötüb keçəndən sonra, başını Bondarçuka tərəf əydi və tələsik bu sözləri dedi:

– Varlamov dünən gecə Loqodexiyə gedib. Bilirsinizmi niyə? Bu gecə Drujini xəlvətcə Tiflisə göndərmək istəyirlər. Onun keşiyini bizimkilərə etibar eləmirlər... Loqodexidəki Lorinski polkundan keşikçi dəstəsi istəyiblər.

Soldat bunları deyib, yoldaşlarına çatmaq üçün getmək istədikdə, Bondarçuk onun kəmərindən tutub saxladı:

– Bunu yəqin bilirsən?

– Əlbəttə. Keşikçi dostum mənə deyib, Varlamovun yanında böyük etibarı var. Bu nədir ki? Batalyonun bütün sirlərinə agahdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Özü də çox yaxşı oğlandır. – O, baş barmağını göstərdi. – Bax belə adamdır!..

Soldat iri addımlarla onlardan uzaqlaşdı və qabaqda gedən öz vzvoduna qoşuldu.

Bondarçuku narahat edən ehtimallar yavaş-yavaş doğrulurdu. Drujin təhlükədə idi...

## XIX fəsil

Ayağını tütün karxanasında sındırmış Qara Nəsirin arvadı iki gün idi ki, Hacı Xeyrini kontorunda tapa bilmirdi. Axırı bu gün günortadan keçmiş, hacının Nuxadan qayıtdığını ona xəbər verdilər. Qadın kontorun qapısındaca oturub gözləməli oldu. Hacı yorğunluğunu alıb, üç saatdan sonra kontora gəldi. Qara Nəsirin arvadı qalxıb içəri keçdi. İçəridəki adamlar hacı ilə işlərini qurtarıb gedənədək o, bir tərəfdə büzüşüb gözlədi. Hacı Xeyri hamını yola salandan sonra qadına tərəf dönüb üz-gözünü turşutdu:

– Hə, arvad, yenə nə istəyirsən? Deyəsən məni soyub talamamış yaxamdan əl çəkməyəcəksən?..

Qadın yaşmağını ağzından aşağı saldı və çəkinə-çəkinə mızıldandı:

– Hacı, ayağı sınmasaydı, heç yanınıza gəlməzdim, bir parça çörəyi, qapı-qapı dilənə də bilərdi... ancaq ayaqları...

Hacı hövsələdən çıxdı, dodaqlarını çeynəyərək arvadın sözünü ağzında qoydu:

– Mən nə eləyim ki, ayağını sındırıb?!. Tay qaldıranda gözü haradaydı? Baxaydı!.. İki aydır böyrünü yerə verib evində yatır... Mənsə xərcini çəkməliyəm. Niyə? Atam Seyfəli atasına borclu idi ki?

– Uşaqları var, ay hacı, bir çətən lüt-üryan... – arvad yenə sızıldadı. – Onlara rəhmin gəlsin.

– Mən nə eləyim ki, uşaqları var? Əkəndə, bəs çörəklərinin dərdini çəkmirdi? Yoxsa elə güman eləyirdi ki, o əkəcək, başqaları qarınlarını doyduracaqdır, hə? Yox, mənim küləyə verməyə artıq pulum yoxdur.

– Bəs, indi biz nə eləyək, hacı?

Hacı Xeyri qadının bu sualı qarşısında əllərini hirslə yanlarına çırpdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Onu məndən niyə soruşursan, anam, bacım? Qardaşın qaçaq Məhəmməddən soruş, ona de! Gedənin-gələnin qabağını kəsib ciblərini soyur. Ondan öz bacısı uşaqlarına bir qəpik verməz yəni?!

Qadın hacının sözlərindən kövrəlib yaşmağı ilə gözlərini sildi.

– Vallah, hacı, bir ildir ki, onun üzünü də görmürük, heç ölüsündən-dirisindən də xəbərimiz yoxdur...

Hacı əllərini iri, yumru qarnının üstünə qoyub güldü. Elə bil ki, o, gülməkdən yırğalanan qarnının partlayacağından qorxurdu.

– Xəbəriniz yoxdur?.. ha... ha... Yazıq pristav onun əlindən gözünü aça bilmir... buradan vurub, oradan çıxır. Sizin isə xəbəriniz yoxdur... Ha... ha... Bura bax ey, bu camaat çörəyi burnuna yemir, hər şeydən xəbəri var... günün günorta çağında yol üstündə adamları soyan bəs kimdir? Mənəm?

Son söz qadını qılınc kimi kəsdi.

– Hacı, qadan alım, Məhəmməd adam soyan deyil. Hələ bu yaşınadək onun dilinə bir loğma haram çörək dəyməyib. Deyənlərə siz qulaq asmayın, hacı...

– Qulaq asmayın, qulaq asmayın... – hacı qadının dediklərini istehza ilə təkrar etdi. – Qulaqlarımızı bağlayaq, qardaşın da bu camaatı soyub-talasın, hə? Birinə inanmadıq, ikisinə inanmadıq, bunu, axı hamı deyir: qulağı kəsilən də, kəsilməyən də... Yox, mənim qaçağın bacısı uşaqlarına veriləsi pulum yoxdur.

Hacını rəhmə gətirmək üçün qadın nə qədər dil tökdüsə, heç bir nəticə vermədi. Hacı Xeyri sözünün üstündə möhkəm durmuşdu. O, kiçik dənəli sədəf təsbehini çevirərək qadının yanıqlı yalvarışlarına laqeyd bir hərəkətlə gah sayğacın daşlarını yerbəyer edir, gah da qalın kontor dəftərini varaqlayaraq, öz-özünə nə isə danışırdı. Bəlkə də özünü zorlayaraq hirslənməmək, kükrəyib özündən çıxmamaq üçün belə edirdi. İri, qırmızı sifəti sakit və hərəkətsizdi.

Nəhayət, qadın bayaqdan bəri qoltuğunda, dördqat bükülü saxladığı kiçik xalçanı açıb hacının qabağında yerə sərdi və yalvarışlı bir ahənglə dedi:

– Hacı, heç olmazsa, bunu alın, uşaqlar əldən gedir... Evə əliboş qayıda bilmərəm...

Hacı Xeyri gözucu xalçaya nəzər saldı. Zərif, əlvan yundan toxunmuş kiçik xalçanın kənarları "Leyli və Məcnun"dan götürülmüş beytlərlə haşiyələnmişdi. Ortada isə vəhşi heyvanların arasında



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çılpaq oturmuş Məcnunun şəkli çəkilmişdi. Bir az yuxarıda, Məcnunun başı üstündə kiçik pəncərədən Leylinin başı görünürdü.

Hacı xalçanın dəyərini alçaltmaq niyyətilə, etinasızcasına üzünü yana çevirdi:

– Yaxşı, at o tərəfə qalsın... Faytonun içinə yarar.

Sonra hacı əlini uzadıb, daxıldan qat kəsməmiş bir üçlük çıxarıb qadının qabağına tulladı. Qadın üçlüyü qaldırıb baxdı; onun məhzun, nəmli gözləri birdən-birə hirslə parıldadı.

– Hacı, insafınız olsun, bu nədir?

Hacı Xeyri eyni laqeyd nəzərlərlə qadını süzüb çiyinlərini çəkdi:

– Anam, bacım, mal sənindir, pul mənim. Kefinə bax – sərf eləyir, pulu götür, eləmir, xalçanı apar. Əslində o, mənim heç gərəyim də deyil... deyirsən ki, uşaqlarım acdır, ona görə götürürəm...

Qadın yaşmağının altından hacını qəzəb dolu gözləri ilə bir xeyli süzdükdən sonra burnunun altında mızıldandı və xudahafizləşmədən kontordan çıxdı.

Hacı Xeyri açıq qapıdan göz qoyaraq qadının tini burulub uzaqlaşdığını yəqin etdikdən sonra xalçanın qatını açıb təzədən tamaşa etdi. Əli ilə onun ipək kimi yumşaq xovunu tumarladıqca, gözlərinə inanmırdı. Xalça öz toxunuşu ilə İsfahan və Kaşan xalçalarından qətiyyən fərqlənmirdi. Boyaları ləl kimi alışıb yanırdı. “Belə zərif ilmələr, ancaq İranda vurula bilər.” deyə o, özündən razı halda xalçanı büküb ortadan götürmək istəyirdi ki, karxananın fəhlələrindən bir neçəsi qapıda göründü. Hacı tez üzünü fəhlələrə tutub kəkələndi:

– Bu nədir, iş vaxtı burada nə qayırırsınız?

Əlləri biləyinədək tütündən sarı rəng bağlamış Arşak qabağa çıxdı, papağını başından götürüb ovcunda sıxdı.

– Hacı biz gəlmişik ki, səninlə danışaq.

Hacı Xeyri oturduğu döşəkçənin üstündən qalxdı:

– Danışmaq üçün indi niyə? İşdən sonra gəlin...

– Yox, hacı, biz indi danışmaq istəyirik.

Hacı onun beləərklə səslənməsinə dözə bilmədi.

– Əyə, Arşak, sən yenə başlamısan? Bu işlərindən əl çəkəcəksən ya yox?

Arşak tövrünü pozmadan, soyuqqanlılıqla hacını sakitləşdirməyə çalışdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hacı, heç darıxmayın, bu saat gedirik. Bir şeyi soruşmağa gəlmişik: Qara Nəsirin uşaqlarının nə təqsiri var ki, ac-susuz qalıblar? Özün bilirsən ki, o, ayağını burada, sənin karxananda sındırıbdır.

Hacı Arşakın söhbəti uzatmasını gördükdə lap hövsələdən çıxdı. Səliqə ilə vurulmuş qısa bığlarını əsəbiliklə ovxaladı.

– Bura bax ey, mənə vəzzariyyat oxuma! Qarnının ağrısını de; mənim işim-gücüm var. Durub ağzına baxmayacağam ki...

– Hacı, onu demək istəyirəm ki, siz gərək Qara Nəsirə kömək eləyəsiniz. Qanun belədir...

Hacı təsbehini hirslə çevirə-çevirə Arşakın sözünün qurtarmasını gözləyə bilməyib ağzından vurdu:

– Ədə, indicə arvadına pul verdim ki? Əl çəkməyəcəksiniz?!.

Cavan bir fəhlə Arşaka havadar çıxdı:

– Hacı, siz ona xalçanın pulunu vermişsiniz, biz isə deyirik ki, kişi şikəst olub, düşüb evin küncünə, tərpənə bilmir. Buna görə onlara kömək olunmalıdır.

– Əyə, siz elə bir-birinizin ağzına tüpürmüşsünüz ki... mən onlara borcluyam məgər? Sabah mən də getdiyim yerdə yıxılıb ayağamı sındırdım, tutacağam pristavın yaxasından ki, pristav ağa, sənin şəhərində yıxılıb qıçımı sındırmışam, pulumu ver?! Belə də haqq-hesab olar? Yox, yox, mən hələ artıq pul tapmamışam. Tapanda xəbər verərəm, gəlib apararsınız.

– Hacı, biz buraya ciddi danışmağa gəlmişik!

– Yoxsa, mən sizinlə zarafat eləyirəm? Tayımsınız? Mənim artıq pulum yoxdur. Bəs Allah gözü ona niyə verib, yaxşı baxaydı, ayağı da sınmayaydı! Sındırıb, canı çıxsın dözsün.

Fəhlələrdən bir başqası da ağzını açıb, nə isə demək istəyirdi ki, hacı onları kontordan qovmağa başladı:

– Gedin, gedin!..

Arşak hacıya kəc bir nəzər saldı:

– Hacı Xeyri əllərini belinə vurub, Arşakın qabağında xoruz kimi kəkələndi:

– Əyə, erməni balası, məni qorxudursan? Nə bilirsən, get elə!.. Bir bunun hərbə-zorbasına bax! Gedin, gedin!..

Fəhlələr hacı ilə söhbəti yoğunlaşdırmaq fikrində deyildilər. Buna görə də karxanaya qayıtdılar. Arşak dərzi Usubun karxana qapısının ağzında vurnuxduğunu görüb təəccübləndi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Usub dayı, xeyir ola! Nə xəbər var?

Usub o yan-bu yana boylandı, o biri fəhlələrin içəri keçməsini gözlədikdən sonra Arşaka dedi:

– Sizi axtarıram.

– Nə olub axı?

– Bondarçuk gəlmişdi. Təcili iş var. Bəhramı heç yerdə tapmadım. Bir tərəfə getməmiş ola?

Arşak Bəhramın ona xəbər vermədən şəhərdən çıxmayacağını bilirdi. Buna görə də arxayınlıqla bildirdi ki, o heç yerə gedə bilməz; şəhərdə harada isə yəqin ki, işi var. Usub Arşakdan xahiş etdi ki, işdən sonra Bəhramı axtarıb tapsın və birlikdə dükana gəlsinlər.

Karxananın yan-yörəsində baş verən bir hadisəni, kontorun açıq qapısından yerli-yerində görən hacını şübhəyə salmamaq üçün, Usub bərkdən deyinməyə başladı:

– Bala sifariş vermişsiniz, gəlin vaxtında aparın da!.. Nə qədər gözlərlər axı?! Mənim də bir sürü külfətim var, yemək istəyirlər. Heç dəxli var?! Mənim nə borcuma ki, pulun yoxdur... Yoxdu, niyə sifariş verirdin?

Hacının bu danışığa qulaq asdığını görən Arşak da ona bərkdən cavab verdi:

– Usub dayı, heç darıxma, iki-üç günə gəlib aparacağam; pulum olmasa da borc eləyib gələcəyəm.

– Daha bilmirəm, özün bil! İki-üç günə gəlib aparmasan, saxlamayacağam! Heç dəxli var? Sənin pulun olmayacaq, mənim uşaqlarım aclıq çəkəcək? Heç dəxli var!..

O, Hacı tərəfə baxmadan deyinə-deyinə geri qayıtdı.

* * *

O axşam dərzi Usub özünün his çəkmiş alçaq tavanlı dükanında Bəhramla Arşakı çox gözlədi. Qaş qaraldı. Küçələrdən adamların əl-ayağı yığışdı, lakin onların heç birindən xəbər çıxmadı. Qonşuluğundakı alverçilər də dükanlarının taxta qapılarını bağlayıb evlərinə getdilər. Sənətkarlar cərgəsində təkcə Usubun dükanının qapısı açıq idi. İçəridə göz-gözü görmədiyindən Usub lampanı yandırmağa məcbur oldu. Sonra fikirləşdi ki, dükanda ləngiməsi küçədən ötənləri şübhəyə sala bilər, ürəklərinə cürbəcür şeylər gələ



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilər: “Görəsən nə gözləməsi var...” Şübhəsi doğru çıxdı, onu tanıyanlardan biri Usubun belini donqarlaşdıraraq lampa işığında qurdalandığını gördükdə, qapı ağzında zarafatla dedi:

– Usta Usub, deyəsən qazancını sayıb qurtara bilmirsən, hə? Lazımsa, köməyə gəlim?..

Usta başını qaldırınca ona söz atan adam sovuşub getdi. Usub onun sözlərindən şübhələnən kimi oldu. Bir istədi çıxıb getsin. Ancaq gedə bilməzdi, gec də olsa, Bəhramgili gözləməli idi.

Onların ləngiməsi ustanı narahat etməyə, düşünüb-daşındırmağa başlamışdı. Arşaka ki, o öz dili ilə demişdi... Bəlkə ikisinin də başına eyni qəza gəlib? Usta bu fikirdə ikən qapıda, məhəllə qorodovoyunun aydın seçilməyən iri cüssəsi göründü. O, əlini işıqdan qamaşan gözlərinin üstünə qoyub dükanın içərisini nəzərdən keçirtdi. Usubun divara düşən kölgəsini görən kimi, ordunu hava ilə doldurub sallaq bığlarını üfürdü və xırıltılı səslə çığırdı:

– Niyə dükanı bağlamırsan? Yuxulamısan?

Usub tez ayağa qalxdı, eynəyinin altından qapıda duran və yoğun boynu çiyinləri içərisində batan qorodovoya tərəf döndü:

– Bu saat bağlayaram, bu saat. Yır-yığış eləyirəm.

Qorodovoy tüklü əlinin dalı ilə bığlarını tumarladı, belindən sallanan qılıncının köhnə kəmərini möhkəmlədərək, dükanın qapısına yaxınlaşmış Usubu barmağı ilə hədələdi.

– Hey, gecdir, tez bağla, evinə get!

– Bu saat, cənab qorodovoy, bu saat...

Qorodovoy əllərini əda ilə dalına qoydu, qarnını qabağa verərək bədənini yırğalaya-yırğalaya dükanın qapısından çəkildi. Qorodovoyun bu xəbərdarlığından sonra dükanda qalmaq mümkün deyildi. Usub həmişə gözləri qızaran və fısıldaya-fısıldaya ağzında nə isə çeynəyən bu qoca qorodovoyun xasiyyətinə yaxşı bələd idi. Yəqin ki, o bir neçə dəqiqədən sonra bir də qayıdıb gələcək və onun gedib-getməməsini yoxlayacaqdı. Buna görə də usta piştaxtanın üstündə biçilmiş parçaları və kök atılmış donluğu yığışdırıb aşağıya qoydu; his çəkən lampanı söndürüb bayıra çıxdı.

Usubun gözü hələ də o yan-bu yanda idi. Küçənin ortası ilə ağır-ağır addımlayan qorodovoydan başqa ətrafda heç kəs yoxdu. Gündüzlər adamla gur olan hay-küylü küçə indi boş və qaranlıqdı. Bəzi evlərdən küçənin ortasına ala-tala zəif işıq düşmüşdü. Buna



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görə də qorodovoyun yoğun bədəni alatoran içərisində gah görünür, gah da itib-batırdı.

Usub çıxılmaz vəziyyətdə qalmışdı. Nə eləsin? Hara getsin? Kimi tapıb, onunla bir kəlmə kəssin? Yox, nigarançılıq heç zaman onu bugünkü kimi ağır hala salmamışdı. Birbaşa Bəhramgilin evlərinə getməyi qərara aldı. "Bəlkə Bəhram anasına bir şey demişdir, – deyə fikirləşdi, – başqa cür necə ola bilər? Toyuq-cücə deyillər ki, oğurlayıb aparsınlar!"

* * *

Usub rastına çıxan tək-tək adamların üzünü yaxından görmək üçün səkidən-səkiyə keçirdi. Yaxınlaşdığı adamlar duruxub gözlərini döyəcləyə-döyəcləyə onun hərəkətinə təəccüb edir, üzr istəməli olurdu. Əllaf dükanları cərgəsini beləliklə, başa vurub yuxarı məhəllələrə tərəf buruldu.

Bəhramgilin yaşadığı səmtdə evlərin heç birindən işıq gəlmirdi. Tərslikdən ay da, elə bil bir-birinin böyrünə girib qəlizləşmiş qara buludun dalında sancılıb qalmışdı. Aşağı məhəllələrdə qabağına heç olmasa, tək-tük adam çıxırdı; bu tərəflər isə daha da xəlvətdi: ertədən çıraqları söndürülmüş həyətlərin, evlərin qapısında insan nəfəsi duyulmurdu. Kilsə meydançasının aşağı hissəsindəki xırda çay daşlı küçəsindən keçərkən boğuq at ayaqlarının tappıltısı eşidildi. Usub ayaq saxlayıb baxdı və dərin sükut içərisində atlının bir deyil, üç-dörd nəfər olduğunu müəyyən edə bildi. Bir azdan hənirti səsləri də eşidildi.

Usubu maraq bürümüşdü. O, atların yaxınlaşdığını hiss edib özünü tez yuxarıya, meydançaya çatdırdı. Meydançanın sağ tərəfindəki qoşa çinar ağacının dibinə yetişdikdə dörd nəfər atlının, qaranlıq havada zəng qülləsi aydın seçilən kilsənin arxasına keçdiyini, oradan da yoxuşla Qala tərəfə qalxdıqlarını gördü. Atlılardan birisini Usub dərhal tanıdı. Bu, şəhərin küçələrində tez-tez görünən və soldatların hər dəqiqə ehtiyat etdikləri ədalı və qəzəbli poruçik Varlamov idi. O biri üç nəfəri isə nə tanıdı, nə də yaxşı seçə bildi. Kəhər atlar çınqıllı yoxuşu çox aramla qalxırdılar. Onların uzaq yoldan gəldikləri dərhal hiss olunurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Usub gündüz Bondarçukun ona demiş olduğu sözləri xatırladı. İndi gördüyü atlıların da məhz onun həbsdəki dustaq yoldaşı üçün gəldiklərini yəqin etdi və bundan ürəyi sıxıldı.

Bondarçukun xahişini o vaxtında Bəhramgilə çatdıra bilməmişdi; əgər bu atlılar dustağı qabaqlarına qatıb aparsalar. Vicdan əzabı onu heç zaman sakit buraxmayacaqdı. Usub oradan hövlnak geri dönüb, Bəhramgilin evinə gəldi. Bəhramın anası evdə tək idi; yeddilik lampanın sönük işığında öz-özünə mızıldayaraq yun didirdi.

Qarının Usuba cavabından belə çıxdı ki, Bəhram iki saat qabaq Arşakla birlikdə Muxaq kəndinə – dostlarından birinin toyuna getmişdir, bəlkə də gecəni orada qaldılar. Bunu eşidəndə Usub astanaya söykəndiyi halda rahat nəfəs aldı. Əlbəttə, toya getmək bəhanə idi, qarını nigaran qoymamaq üçün deyilmişdi. Yəqin ki, onlar Bondarçukun xahişini yerinə yetirmək üçün getmişdilər. Usubun buna heç bir şübhəsi qalmadı. "Bəs, onlar işin təfsilatını haradan öyrəniblər? Usubu fikir bürüdü. – Mən ki, Arşaka ancaq ucundan-bucağından bir-iki söz demişəm... Qalanını kimdən öyrəniblər?.. Bilməsəydilər, dükana gəlib öyrənərdilər. Demək, bilirlər!"

Bu tərəfdən arxayın olduqdan sonra Usubu başqa bir məsələ narahat etməyə başladı: bir az qabaq gördüyü atlılar... "Görəsən onlardan da, xəbərləri varmı? Bəlkə dustağı Bondarçukun fikirləşdiyi vaxtdan qabaq aparacaqlar. Belə olsa, hamının ümidi boşa çıxmayacaqdırmı?"

Usub səhərədək yatağında qıvrılıb-açıldı, bu böyrü üstdən o biri böyrü üstə döndü; ilan vuran yatdı, o yatmadı – nigaran ürəyi bircə dəqiqə də dinclik bilmirdi.

## XX fəsil

Dərzi Usub ağcaqanadlardan qorunmaq üçün pəncərələrinə tənzif çəkilmiş kiçik otağında yuxulaya bilmədiyi zaman Bəhramla Arşak Qafqaz sıra dağlarının ətəyində yerləşmiş fıstıq, palıd, ağcaqayın meşəliyinin sıx ağacları arasında bir saatdan artıq idi ki, üzüyuxarı əlhavasına qalxırdılar. Meşəni kəsif rütubət iyi bürümüşdü.

Bəhram vaxtilə qaçaqlar tərəfindən gözübağlı aparılmış bu yerlərin hər bir kolunu və yaz-qış üfunət saçan sulu qamışlığı zehnində qədəm-qədəm xatırlamağa çalışaraq qabaqda irəliləyirdi. Onun



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dalınca gələn Arşak isə gecənin yarısında hər kolun, ağacın dibindən eşidilən xışıltıyla belə, həssaslıqla qulaq asırdı. Meşənin vəhşi heyvanlarla dolu olduğunu bildiyindən ehtiyat üçün götürdüyü berdankanın çaxmağını hazır vəziyyətdə tutmuşdu. Bəhram qaçaqların son günlərdə hələ də bu yerlərdə düşərgə saldıqlarını odunçulardan eşitmişdi. Və o, Bondarçuka söz verərkən də arxayın idi ki, qaçaq Məhəmmədi məhz buralarda tapa biləcəkdir.

Bura meşənin ən sıx yeri idi.

İri, qocaman ağcaqayınların qollu-budaqlı çətirləri, bir-birilə sarmaşıb qovuşmuş, cəngəllikləri xatırladan yoğun gövdəli sarmaşıqlar, yuxarıdan aşağı sırsıra kimi tökülərək içərilərə keçməyə mane olurdu. O biri tərəfdən meşənin bu yerində daldalanmaq üçün, daha əlverişli təbii şərait vardı. Hər addımbaşı torpaqdan çəpəkinə üzə çıxmış və üzərini tünd mamır basmış qayalıqlar bütün bir qoşunu yad gözlərdən gizlədə bilərdi. Bəhramı narahat edən yalnız gecənin qaranlığı idi. Göyün üzünü bürümüş qara bulud parçaları hərəkətsiz durduğu üçün neçə saat idi ki, ayı öz arxalarında gizlətmişdi. Meşənin içəri tərəflərindən eşidilən və bir dəqiqə ara verməyən canavar və çaqqal ulaşmaları bu qaranlığa daha əsrarəngiz bir vahimə yayırdı. Diksindirilmiş meşə quşları arabir parıltı ilə kolların dibindən qalxaraq, qaranlıq havada gözdən itirdi.

Gecəyarıya işləyirdi. Bəhramla Arşak, lap taqətdən düşmüşdülər, ancaq yenə də vaxtı itirmədən irəliləyirdilər. Birdən hardansa üfunətli bataqlıq iyi qalxıb onların burunlarına vurdu və vaqqıltı eşidildi. Bəhram sevincək halda ətrafına boylandı və kəsif qoxulu havanı tez-tez iylədi.

– Düz gəlmişik! – deyə Arşaka tərəf qanrıldı. – Bir azdan gərək qamışlıq başlasın.

Bəhramın dediyi doğru çıxdı. Yüz addımadək getdikdən sonra qarşılarında geniş qamışlıq başladı. İndi orada-burada qurbağalar onların lap böyründəcə vaqqıldayırdı. Arşak uşaqlıqdan dözə bilmədiyi bu səsə qulaqlarını tutdu, əyilib yerdən qaldırdığı daş parçasını var gücü ilə qamışlığın tən ortasına tulladı. Qurbağaların səsi dərhal kəsildi. Araya yenə də meşələrə xas olan əsrarəngiz sükut çökdü. Bəhramla Arşak nəfəslərini azca dərdikdən sonra qamışları şaqqıldada-şaqqıldada gölməçələrin sağ tərəfi ilə başlayan enişlə üzüaşağı enməyə başladılar. Bəhram tanış yerlərlə getdiyini gör-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dükdə: “Elədir, düz gəlmişik... İndicə gərək tala başlasın“ deyə öz-özünə pıçıldayırdı.

Xoşbəxtlikdən ay buludların dalından çıxdı. Ağacların budaqları və sıx yarpaqları arasından yerə süzülən işıqdan ətraf alatoran bir pərdəyə büründü. Sol tərəfdə, qamışlıqların arasında seyrək görünən gölməçənin səthi bir az aralıda qırıq ayna parçaları kimi qırpım çalmağa başladı, nəm torpağın üstü ilə irəliləmək asanlaşdı. Ayaqqabılarının altına yapışan palçıqdan hər ikisinin qıçı ağır daş parçasına dönmüşdü. Birdən sağ tərəfdə qaralan sıx alçaq kolluqların arxasında xəfif xışıltı eşidildi. Arşak diksinib berdankanı tez kolluğa tərəf tuşladı. Bəhram gözünü kolluqdan ayırmadan əlini uzadıb berdankanın lüləsini aşağı yatırtdı və barmağını dodaqlarına apararaq Arşaka susmasını işarə elədi.

Xışıltı kəsildi. Ancaq bir an keçmədi ki, tamam başqa tərəfdən yoğun bir səs eşidildi:

– Dayanın! Kimsiniz?

Bəhram və Arşak yerindəcə donub qaldılar. Səsin haradan gəldiyini müəyyən etmək çətindi. Onlara elə gəldi ki, bu səs kolluqdan deyil, yuxarıdan – havadan eşidildi. Buna görə, ağızlarını hansı tərəfə tutub cavab verməyə çətinlik çəkdilər.

– Kimsiniz, deyirəm? Səsinizi çıxarın, yoxsa odlayacağam!..

Səs onların başı üstündən, ağaclardan birinin sıx çətiri içərisindən gəlirdi.

– Məhəmmədi istəyirik, ona iltimasımız var.

Bəhram bunu deyib başını azca yuxarı qaldıranda ağacın budaqları arasında gizlənmiş adamın qaraltısını sezə bildi.

– Neçə nəfərsiniz?

– İki.

– Dalınızca gələn kimdir ki?

– Yoxdur, arxayın olun. Bizə Məhəmməd lazımdır. Sözümüz var.

Bu dəfə, bayaq xışıltı eşidilən kolun dibindən də başqa bir səs eşidildi:

– Tüfəngi yerə salın və beş addım geri çəkilin.

Bəhram Arşakı dürtmələdi. Arşak tüfəngini yerə qoydu, geri çəkildilər.

Səs-səmir kəsildi. Bir azdan kolluqların dalından şələ papaqlı, ucaboylu bir adam çıxdı. Bəhram alaqaranlıqda papağını gözlərinin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üstünə endirmiş qaçağı sifətindən və boyundan Məhəmmədə oxşatdı. O qabağa gəlib hirslə soruşdu:

– Kimsiniz?

– Mən, dəmirçi Bəhramam, bu da yoldaşımdır.

Bunu eşidən kimi qaçaq daha da yaxınlaşdı.

– Aha, Ərəz oğlu, yoxsa bizim izimizə düşmüsən?

Bəhram ancaq indi onun Məhəmməd deyil, qaçaq Rəsi olduğunu gördü.

– Dalınca qoşun gətirməmişsən ki? Ağzın yəqin bala dadanıb, hə?

Onun səsi də Məhəmmədin səsindən seçilmirdi.

Bəhram:

– Heç bir qoşun gətirməmişəm. Bizə Məhəmməd lazımdır. Ona deyiləsi sözüm var, – dedi.

Rəsi astadan fit verdi, yuxarıda ağacda oturub gözləyən qaçaq, tappıltı ilə yerə atıldı. Rəsinin işarəsi ilə Bəhramın, sonra da Arşakın ciblərini axtardı. Silahdan, bıçaqdan heç bir şey tapmadıqda, onların qabaqlarına qatıb apardılar.

Ay yenə buludun dalına keçmişdi. Bir xeyli keçdikdən sonra qaranlıqda ətrafı seçmək mümkün olmasa da, Bəhram əl havası ilə başa düşdü ki, qaçaqlar onları öz yerləşdikləri taladan uzaqlaşdırıb başqa səmtə aparırlar. Əvvəlcə dinmədi. Qaçaqların öz yerlərini dəyişərək başqa tərəfə köçdüklərini güman elədi. Lakin odunçuların sözünü xatırlayan kimi, ayaq saxlayıb, dallarınca gələn qaçaqlara tərəf qanrıldı. Qaçaq Rəsi onun aralıqda durduğunu görüb qışqırdı:

– Ləngimə, yoluna davam elə!

Bəhram üç-dörd addım onlardan aralıda durmuş Rəsini uzun kölgəsindən ayırd eləyə bildi.

– Siz bizi başqa tərəfə aparırsınız... Xahiş edirəm, bizi Məhəmmədin yanına aparın.

Rəsinin qəzəbli səsi gurladı:

– Ərəz oğlu, demək, sən bizim yerimizi də bilirsən? Yəqin ki, ananı ağlar qoymaq fikrinə düşübsən... Yoxsa, belə ağız bəhəm eləməzdin. Yeri, yeri ləngimə!..

Bəhram yerindən tərpənmək istəmirdi. Əlini uzadıb, səssiz-səmirsiz, heyrət içərisində qalmış Arşakın qolundan yapışdı və yavaşdan pıçıldadı:

– Yerindən tərpənmə! Heç nə eləyə bilməzlər.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rəsi onların tərpənmədiyini gördükdə yenə üstlərinə çığırdı. Lakin Bəhram hiss etdi ki, qaçaq bu dəfə səsini nisbətən astadan çıxarmağa çalışır. Yəqin ki, aralarında gedən söhbətin meşədə – ətrafa yayılmasını istəmirdi. Bundan Bəhram daha da ürəkləndi və Arşaka tərəf əyilərək eyni pıçıltı ilə onun qulağına dedi:

– Məhəmməd görünür ki, bu yaxınlardadır. Ondan ehtiyat edirlər. – Bəhram yenə də qaçaqların kölgəsinə tərəf döndü və var gücü ilə bərkdən çığırdı. – Bizi Məhəmmədin yanına aparın... Məhəmmədin! Ona iltimasımız var, vacibdir...

Yatmış meşə, dörd tərəflərini bürümüş hündür vələs və cökə ağacları, sanki bir-birinə dəyib səsləndi. Rəsi heç gözləmədiyi bu işdən özünü itirdi. Əvvəlcə qabağa şığıyıb Bəhramı bir göz qırpımında basmarlamaq, ağzını barmaqları ilə tıxamaq istədi. Ancaq nə isə fikirləşib yerindən tərpənmədi. "Kəs!" deyə Bəhramın üstünə çığırmaqla kifayətləndi.

Araya sakitlik çökdü; bu arada Bəhram Rəsinin öz yoldaşına tərəf əyilərək onunla nə isə pıçıldaşdığını gördü. Hər iki qaçağın kölgəsi baş-başa çatılmışdı. Bəhram qaçaqların, onların haqqında qorxulu bir tədbir tökdüklərini hiss etdi və fürsəti əldən verməməyə çalışaraq təzədən çığırmaq istədi. Ancaq macal tapmadı; lap yaxınlıqda, ardıc pöhrəliyi arxasından sürəkli fit eşidildi. Səs kəsiləndən sonra onların yanında durmuş qaçaqlardan biri iki barmağını ağzına apararaq qırıq-qırıq fitlə cavab verdi. Bir azdan fit səsləri uzaqdan və yaxından, sağdan və soldan ağızbaağıza vermiş canavar ulaşması kimi, bir-birinə qarışdı. Sanki dörd tərəfdən dövrəyə alınmışdılar. Qoca cökə və göyrüş ağaclarının gövdələri arasından xışıltı eşidildi və getdikcə bu səs qüvvətləndi. Çox keçmədi ki, elə o tərəfdən iki-üç qaraltı qabağa çıxaraq sürətlə onlara yaxınlaşdı.

– Nə olmuşdur, bunlar kimdir? – deyə gələn qaçaqlardan biri öz məlahətli səsi ilə soruşdu.

Bəhram qaçaq Məhəmmədi səsindən və boy-buxunundan tanıdı. Qaçaqların, əlbəttə, hamıdan qabaq qaçaq Rəsinin onların haqqında cürbəcür sözlər uydurub Məhəmmədə xəbər verəcəyindən ehtiyat edən Bəhram qabağa yeriyib onlara ağızlarını açmağa macal vermədi.

– Bizik, Məhəmməd qağa, səninlə vacib işimiz vardır... Məhəmməd başındakı iri papağını əli ilə peysərinə tərəf itələdi. Qarşısında

durmuş Arşakla Bəhramı alaqaranlıqda başdan-ayağa süzdü. Bəhramı tanıdı.

– Aha, Ərəz oğlu, sənsən? Sənin buralara gəlməyin biçiz ola bilməz... bəs bu kimdir?

Bəhram Məhəmmədin çəkinmədən onlara yaxınlaşıb belə mülayim danışdığını görcək içərisində ona gizli bir səmimiyyət hissinin baş qaldırdığını hiss etdi.

– Arşakdır. Yəqin ki, tanıyırsan, dəllək Asaturun oğlu.

– Niyə tanımıram? Rəhmətlik üzümü küt ülgüclə o qədər yolub ki... – Məhəmməd zarafatla dediyi bu sözlərdən sonra diqqətlə Arşaka baxdı və qeydkeşliklə soruşdu. – Onun ki gərək, çox uşağı olsun?

– Elədir, mən böyüyüyəm, – deyə Arşak tez dilləndi.

Uzaqda durub onların söhbətinə qulaq asan qaçaqlar hər ehtimala qarşı tüfənglərini əllərində hazır tutmuşdular. Bayaqdan bəri onların üstünə çımxıran və tüfəngi ilə hədələyən Rəsi də yaxınlaşmağa cəsarət etmirdi.

Məhəmməd soruşdu:

– Buyursana, Ərəz oğlu, de görək, nə vacib olub belə gecə vaxtı bizi yad elədin?..

Bəhram ətrafındakı qaçaqlara nəzər saldı.

– Mən təklikdə danışmaq istəyirəm.

– Paho... Belə çıxır ki, yekə söhbətdir, nə olar ki, gedək. Məhəmməd qabağa düşdü, Bəhramla Arşak da sıx ağacların arası ilə onun dalınca getdilər.

Bəhramla əl havası ilə tanış olan yerlər təzədən gözü qabağından açıldı: ensiz çınqıllı cığır, sıx qovaq və ardıc pöhrəlikləri... Bu da tanış meşə talası!

Bədirlənmiş ayın işığında tala Bəhrama daha geniş və hamar göründü.

* * *

Yarım saatdan artıq idi ki, çalın-çarpaz ağac budaqlarından qurulmuş və içərisi təzə çalınmış ot və yovşan ətri qoxuyan yastı-yapalaq talvarın ağzındakı kötüyün üstündə oturub Bəhramla Arşakı dinləyən Məhəmməd özünün qəti qərarını verə bilmirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qaçaqlar ayın aydınlığına qərq olmuş talada, yapıncı və köhnə arxalıqlarını yaşıl otun üstünə sərib dirsəklənmişdilər. Onların da yuxuları qaçmışdı, ya da gözlənilmədən gələn və gəlişlərinin də səbəbi hələlik məlum olmayan bu iki cavan qonağı yola salmayınca yatmaq istəmirdilər. Sarı limon rənginə çalan ay talanın üstündə dərin yay səmasının tən ortasına sancılıb hərəkətsiz durmuşdu. Özbaşına buraxılmış atlar uzaqda, yaxında talanın yaşıl otlarından qırparaq gövşəyir, tez-tez fınxırır, quyruqlarını işə salaraq zəhlətökən ağcaqanadlardan özlərini qorumağa çalışır, təpiklərindən sağır gumbultular eşidilirdi. Ara-sıra meşənin dərinliyindən eşidilən anlaşılmaz vəhşi heyvan bağırtıları bir anlığa havada çırpınır, meşəni öz ağzına alır, sonra lap uzaqlarda ağacların başları üzərində əriyib eşidilməz olurdu. Bu səsdən yalnız atlar qulaqlarını şəkləyərək arabir kişnəyirdilər.

Məhəmməd ətrafında – meşənin içərisində baş verən bütün bu hadisələrə laqeyd bir tərzdə oturaraq fikrə cummuşdu. Birdən başını qaldırıb Bəhramdan soruşdu:

– Sən yəqin bilirsən ki, üç-dörd soldatla aparacaqlar?

– Bəli, bəli... – Bəhram fikrindən ayrılmış Məhəmmədin bu sualını onun razılığı kimi qəbul etdi. – Bir nəfər dustaq üçün, daha bir qoşun soldat gəlməyəcək ki?.. Buna arxayın ola bilərsən...

Məhəmməd başını hərləyib sağ tərəfdə duran Bəhramı sınayıcı nəzərlərlə süzdü. Bəhramın ay işığında daha solğun görünən təmkinli, yorğun sifəti sakit və qayğılı idi. Məhəmməd onun gözlərində gənclik ehtirası ilə birlikdə soyuq bir inamın gizləndiyini görüb tez üzünü yana döndərdi. Bir az fikirləşdikdən sonra nəyi isə xatırlayıb soruşdu:

– Təqsiri nədir? Əlindən nə günah iş çıxıb ki?

– Sənin təqsirin nədir? Onunku da elə! Hamının dərdi bir deyilmi? Nə olsun ki, o, soldat, sən qaçaqsan! Axtarsan ikinizin də dərdiniz birdir. Soldatlara öyrədirmiş ki, bəla Allahdan yox, padşahdan gəlir. Bəsdir dözdük, deyir, gəlin çiynimizi-çiynimizə dayayaq, çarın üstünə birgə əl qaldırıb onu taxtından üzüaşağı endirək. O zaman, deyir, hamı rahat nəfəs alar... Ağ gün görərik.

Məhəmməd təəccüblə dönüb ona baxdı və qımışdı:

– Padşah qulağının dibindədir ki, əli çatsın... üstəlik onu hələ bir taxtından da üzmək isteyir?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əlbəttə, o tək olsaydı, sən deyən haqq söz olardı. Birlik olsa – hə, bu başqa məsələ! Buradakılar çiyin-çiyinə verib dursalar, sonra başqa şəhərlərdəki soldatlar da onlara qoşulsalar, hey... ucu gedib lap Peterburqa dirənər... Padşah gözün açınca... iş-işdən keçmiş olacaqdır. El gücü, sel gücü deyərlər... Yoxsa, daldan güllə atmaqla iş aşmaz. Burda gərək öküz kimi dal-dala verəsən ki, canavarı buynuzuna keçirə biləsən.

– Bəs qoluna zəncir çalınandan sonra nə deyir? Sözünün üstündə durur? Yoxsa...

– Əlbəttə, durur. Bəs necə ola bilər?! İnqilabçılar belə olur.

– Deyir, yəni toyuq birqıçlıdır ki, birqıçlı?

Bəhram başı ilə onun sözlərini təsdiq etdi.

– Boğazına kəndir keçirsələr necə? Yenə səsi çıxacaq, yenə deyəcək ki, padşahı yıxaq?

– Deyəcək. Ancaq biz də, yoldaşları da istəmirik ki, boğazına kəndir keçirsinlər. İstəyirik ki, beləlləri sağ qalsın – yaşasın, özləri ağaların boğazına kəndir keçirsin...

Söhbət kəsildi. Məhəmməd fikrə getdi. Qaçaqlar onların söhbətlərini eşitməsələr də, Məhəmmədin dalğın və narahat hərəkətlərindən hiss edirdilər ki, nə isə ciddi bir hadisə baş vermişdir və Məhəmməd buna birdən-birə girişmək qərarına gələ bilmir. Haçandan-haçana Məhəmməd başını qaldırdı və təmkinli bir tərzdə Bəhrama müraciət etdi:

– Yaxşı, mən razıyam, ancaq... onu bilin ki, Məhəmməd üçün tələ quran adam yaxasını qurtara bilməyəcək! Yerin dibində də olsa dartıb çıxaracağam... cəzasını, bax bu əlimlə verəcəyəm!

– Razıyıq, sənə xəyanət etsək, elə bu qaranlıq meşədə kürəyimizi odlat. Ancaq... biz də bir kişinin oğluyuq. Haram tikə yeməmişik. Arxayın ol. Bizdən namərdlik görməyəcəksən.

Məhəmməd başını geniş ovcunun içinə dayayıb, təzədən fikrə daldı. Sonra ayağa qalxıb gəzişdi. Yaxınlaşıb Bəhramın qabağında durdu, narın tük basmış çənəsini ovuşdura-ovuşdura soruşdu:

– Hansı yolla gedəcəklər?

– Əlbəttə, aşağı yolla. Yuxarıdan, çayı keçmək mümkün deyil.

– Niyə elə? – Məhəmmədin enli qaşları çatıldı – yəni atla da olmaz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Atla aparsaydılar – olardı. – Bəhram köksünü ötürdü. – Onlardan elə insaf gözləmə, ancaq özlərini atların tərkində görərsən: onu isə qabaqlarına qatıb, sürüdəcəklər... qolları bağlı...

Məhəmməd dodaqlarını hirslə gəmirdi, gözləri ətrafda dolaşdı. Otun üstündə dirsəklənən qaçaq yoldaşlarının arabir mürgü vurduqlarını görüb üzü qayğılı bir ifadə aldı:

– Nəyə gözləyirsiniz? Yatsanız! Gözünüzün ağrısını barı alın. Mən hələ yatmayacağam...

Qaçaqlar elə bil onun bu sözünə bənd idilər. Başlarını atıb, elə o dəqiqə yuxuya getdilər. Talanı bir azdan xorultu bürüdü...

Məhəmməd başını buladı.

– Çox yorulublar, – dedi və Bəhramla Arşaka baxıb, dərindən nəfəs aldı. – Neçə ildir ki, rahat yorğan-döşək üzü görməyiblər... Evdən-eşikdən didərgin düşəndən bəri rahat yuxuya da həsrətdirlər...

Məhəmmədin daxili həyəcan keçirtdiyi, içərisindən tüstülü bir burulğanın qat-qat açılıb yayıldığı onun narahat baxışlarından və bir yerdə qərar tuta bilməməsindən hiss olunurdu. Uzun sükutdan sonra o Bəhramdan soruşdu:

– Fikriniz nədir?

– Nə barədə, Məhəmməd?

– O barədə ki, biz soldatı qaçırdıqdan sonra o, nə olacaq? Bitib, ağac kimi meşədə ki, qalmaz!.. Bizim güzaranımızla onunku necə olacaq?.. Meşəni özünə ev-eşik eləyə bilər?!

– Yox. O burada qalmayacaqdır. Bir-iki gün keçdimi, onu o tərəfə, Dağıstan tərəfə addadacağıq... Dağlardan o yana daha qorxusu yoxdur. Çətini dərədən, yarğanlardan ötüb keçməsidir...

Ay ağacların kölgəsindən yana əyildiyi zaman Bəhramla Arşak, Məhəmmədin köməyə çatacağına arxayın olub geri döndülər.

Qaçaqlar hələ də şirin yuxuda idilər. Ağacların kölgələri yer-yerdən, talanın ortasına tərəf hücum çəkib uzanır, gecə cücüləri zəhlətökən bir cırıltı ilə səslənirdi. Atlar talanın kənarında otlayırdılar. Lap dərinlərdən eşidilən boğuq heyvan bağırtıları, arabir havada parıltı ilə uçuşaraq qıy vuran quşların səsinə qarışıb gecənin yarısında qəribə bir ahəng təşkil edirdi.

Məhəmməd yenə də fikirdə idi. Ətrafında bu əsrarəngiz uğultularla çalxalanan meşənin heç bir sədası onu nə xəyalından ayıra bilir, nə də qəti bir nəticəyə gəlməkdə ona kömək edirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başının üstündə tünd mavi rəngə bürünmüş ulduzlu yay səmasında boz zolaqlar çırtlayan zaman, o ayağa qalxdı. Şirin yuxuda olan yoldaşlarını oyadıb atların belinə qalxdılar.

Onlar meşə ilə üzüaşağı, Gürcüstan sərhəddi ilə uzanıb keçən və yay aylarında dağlardan gələn sellərdən daşıb ətrafındakı bütün kol-kosları su altında buraxan çınqıllı çaya tərəf endilər.

Birinci hissənin sonu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# İKİNCİ HİSSƏ

## I fəsil

Denşik Vasya bağırtıya yuxudan ayıldı. Gözlərini ovxalayaraq, bərəlmiş bəbəkləri ilə ətrafına baxındı, kəskin bir gizilti ilə bədənini bürümüş vahimədən sinəsində yeyin-yeyin vuran ürəyi, elə bil yerindən oynayıb, boğazında çırpınırdı. O udqundu. Lakin məngənə kimi getdikcə sıxılan boğazının qəhri açılmadı. Səsin əvvəlcə küçədən gəldiyini zənn edərək yatağından sıçradı. Qurşağa qədər pəncərədən sallanıb bayıra baxdı. Bürkülü xəfif gecədə, hər şey sakitcə mürgüləyirdi. Şırıltısı kəsilmiş arxın o tayında, qonşu həyətdən boylanmış iri meyvə ağaclarının qol-budağından düşən kölgəlikdə də şübhəli bir şey görmədi. Bağırtı yenə təkrar olundu. Vasya başını pəncərədən içəri çəkib, qaranlıq dəhlizdə hərəkətsiz donub qaldı; addım atmağa dizlərində sanki taqət qalmamışdı. Çığırmaq istədi, səsi çıxmadı. Bağırtı Smirnovun otağından gəlirdi. Vasyaya elə gəldi ki, o yuxuda ikən kimsə, gizlincə kapitanın otağına soxulmuş və ona qəsd etmək fikrinə düşmüşdür. Bağırtı üçüncü dəfə təzədən eşidildikdə Vasya özünü tamam itirdi; tükləri ürpərdi, bədəni elə bil təpədən-dırnağadək çalxalandı və özünü tez içəri atdı.

Otaq qaranlıqdı. Tez qapının haşiyəsindən asılmış onluq lampanı yandırdı. Divarlara, taxta döşəməyə sarımtıl, zəif, titrək bir işıq yayıldı. Kapitanın çarpayısı boş idi. Balış əzişdirilib, yumaq kimi bir tərəfə atılmışdı. Kraxmallı mələfə qədim çarpayının pas atmış nikelli başından sallanıb dururdu. Yatağın üstündə elə bil, bir neçə adam əlbəyaxa olub vuruşmuş, hər şey alt-üst edilmişdi. Denşik qeyri-ixtiyari çığırdı:

– Konstantin İvanoviç, haradasınız?

Ona səs verən olmadı. Haradansa ancaq boğuq xırıltı eşidildi. Denşik sağ tərəfdə, küncdə qoyulmuş şüşələri qırıq uzunsov dolaba tərəf nəzər salarkən bağırtı yenə də eşidildi. Səs dolabın dalından gəlirdi. Vasya özünü tez oraya atdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kapitan burada idi, o, alt paltarında divara qısılmışdı; nədənsə qorxurmuş kimi əllərini qabağa verərək, özünü qorumağa çalışırdı. Çanağından çıxmış gözləri döşəmədə bir nöqtəyə zillənmişdi.

Denşik döşəmənin üstündə heç bir şey görmədikdə çəkinə-çəkinə soruşdu:

– Konstantin İvanoviç, orada nə var ki, belə ehtiyat edirsiniz? Sizə nə olmuşdur? Burada qorxmalı mən heç bir şey görmürəm. Bəlkə sizi qara basmışdır? Hə, Konstantin İvanoviç?

Kapitan vəziyyətini pozmadan titrəyir, əllərini tez-tez havada oynadaraq, nəyi isə özündən rədd etməyə, uzaqlaşdırmağa çalışırdı. Onun ağzı da köpüklənmişdi; cəhənglərindən ağ köpükcüklər sırğa kimi sallanıb dururdu:

– Konstantin İvanoviç... cənab kapitan, axı sizə nə olmuşdur? – O təkrar soruşdu və ona yaxınlaşdı. Dizləri əsim-əsim əsən kapitan onun sözlərinə əhəmiyyət vermədən yenə də qollarını qabağa uzadaraq küncə sıxılır, kürəklərini divarla sürüşdürə-sürüşdürə pəncələri üstə qalxırdı. Denşik çaşıb qalmışdı. Kapitandan cavab çıxmadığını gördükdə yaxınlaşıb, onun qolundan tutmaq və yatağına uzandırmaq istədi. Bu zaman kapitan elə zarıldadı ki, Denşikin qulaqları cingildədi. Zabit indi çığırmaqdan əlavə, kimi isə köməyə də çağırırdı:

– Qoyma, öldürdülər! Bax, o, o... məni... məni öldürəcək... tüfəngi qaldırdı. Vay, gəlmə!.. gəlmə, vuracağam... dur... dur...

Kapitanın səsi titrəyirdi, dili dolaşa-dolaşa dediyi bəzi sözləri isə ayırd etmək olmurdu. Denşik onun ciddi xəstəliyə tutulduğunu və gözləməyin heç bir nəticə verməyəcəyini düşünüb, cəsarətlə kapitanın qolundan yapışdı və onu çarpayısına tərəf sürüdü:

– Gedək, Konstantin İvanoviç!.. Siz yorulmuşsunuz. Bunlar yorğunluq əlamətidir. Uzansanız, keçib gedər... arxayın olun. Bəlkə sizə qəhvə qızdırım, hə... yorğunluğunuzu çıxarar.

Kapitan müti bir uşaq kimi, Denşikə qısıldı. Gözlərini yumdu, başını Denşikin qoltuğuna soxmağa çalışdı. Vasya onun bədəninin hələ də qələmə yarpağı kimi əsdiyini, solğun sifətində əzələlərin əsəbiliklə dartıldığını, gərilib-açıldığını hiss edirdi.

Kapitanı sakitləşdirib, uzandırdıqdan sonra o, batalyon həkiminin arxasınca getməyi düşündü. Son günlər kapitanın süst hərəkətlərindən, iştahadan qalmasından, xüsusilə, təlimdən qayıtdıqdan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sonra onunla bir kəlmə də dinib-danışmadan yatağa uzanmasından başa düşmüşdü ki, ona bədbəxt bir hadisə üz vermiş və bu ucbatdan o, gecəli-gündüzlü daxili böhran keçirir. Kapitanın baxışları da sanki dəyişmişdi: ona buyruq verərkən bir dəfə də olsun başını qaldırıb üzünə baxmırdı. Ertədən, bəzən də soyunmadan yatağına uzanmağı özünə adət etmişdi. Adamlardan qaçırdı, hər vasitə ilə cəhd edirdi ki, xəlvət, tənha guşəyə çəkilib onların gözünə görünməsin. Son günlərdə, Denşikin kapitanda müşahidə etdiyi bu qəribə keyfiyyətlər onu çox düşündürürdü. Ancaq bu haqda kapitanın özünə heç bir söz deməmiş, tutulduğu xəstəliyin səbəbini öyrənməmişdi. İndi peşmançılıq çəkirdi: əgər o zaman özünü həkimə göstərməyi ondan xahiş etsəydi, təkid eləsəydi, bəlkə də xəstəliyi bu dərəcəyədək şiddətlənməzdi. Artıq iş-işdən keçmişdi. Zabitin ruhi xəstəliyə tutulduğuna daha şübhə yeri qalmırdı.

Denşik kapitanı çarpayısına uzatdı, mələfəni qaldırıb üstünə örtdü:

– *Konstantin İvanoviç*, dedi, – *çalışın, yuxuya gedəsiniz... bərk* yorulmusunuz... Qafqazın havası, görünür, sizə düşmür. Həkimə müraciət etsəniz pis olmaz... Eşidirsinizmi, Konstantin İvanoviç?

Kapitan gözlərini yumub, sakitcə uzanmışdı. Denşik onun yuxuya getdiyini güman edib barmaqları üstə bayıra çıxdı və hər ehtimala qarşı lampanı söndürmədi. Yalnız fitili azca aşağı endirdi.

Vasyanın gözünə daha yuxu getmədi; ürəyi çox narahatdı, açıq pəncərənin qabağında oturub, həyəcanlı nəzərlərini sakit cənub gecəsinin soyuq ulduzlarına zillədi. Beynində müxtəlif fikirlər bir-birinə hörülüb dolaşırdı. Çox fikirləşdikdən sonra Konstantin İvanoviçin belə əsəbi böhranlarının səbəbini ancaq podpolkovnikin zabitlərlə sərt, amansız rəftarında tapmışdı. Əslinə baxsan, batalyonun zabitləri içərisində, Vasyanın ən çox sevdiyi və hörmət etdiyi yeganə adam kapitan Smirnov idi. Öz yumşaq təbiəti ilə o biri zabitlərdən çox fərqlənirdi. Bəlkə elə buna görə də qəddar Qasse və başqaları axır zamanlarda Smirnovdan yan gəzməyə başlamışdılar. Bəziləri isə onu açıqdan-açığa boykot etmişdi.

Denşik yuxusuz gözlərini, göyün dərinliyində elə bil getdikcə seyrəlib əriyən ulduzlardan ayırmadan, öz zabitinin taleyi haqqında düşünürdü.

O, göy üzünün nə vaxt bozarmağa başladığını belə hiss etmədi. İçəridən təkrar eşidilən bağırtı səsinə diksindi və ayağa qalxıb içəri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçmək istəyirdi ki, kapitan Smirnovun çığıra-çığıra otaqdan çıxıb bayıra qaçdığını gördü.

Kapitan iniltili bir tərzdə çığırırdı:

– Aaaa...

Vasya da onun dalınca yüyürdü. Kapitan alt paltarında, ayaqyalın, həyətdən çıxıb, küçə ilə qaçırdı. Denşik küçəyə çıxanacan, kapitan qarşıdakı döngəni çoxdan burulub gözdən itmişdi. Xəlvət döngələrdə onların boğuq ayaq səsləri aydın sezilirdi. Denşik qarşıdakı döngədən kapitanın bağırtısını yenə də eşitdi və addımlarını yeyinlədərək özünü tez ona çatdırmağa çalışdı.

Kapitan xeyli aralıda idi. Denşik döngələri burularkən, onun ancaq iniltili bağırtılarını eşidir, özünü isə görə bilmirdi. Bir azdan hər ikisi döngələrin arasından şəhərin kənarına çıxdılar. Gur pərişan saçları yelpik kimi açılıb örtülən kapitan, indi onun iyirmi addımlığında qaçırdı. Təngnəfəs Vasya ondan çox sürətlə qaçan kapitana çata bilməyəcəyini hiss edirdi. Lakin çarəsi yoxdu. O, ağlı yerindən oynamış zabiti tək, kimsəsiz qoyub geri qayıda bilərdimi? Buna görə də nə olur-olsun, bütün gücünü toplayıb, Smirnova çatmalı və onu geri qaytarmalı idi. Onlar meşəli dağlara gedən kol-koslu cığıra girmişdilər. Kapitanın ara-sıra eşidilən xırıltılı bağırtıları indi qarşıdakı dağlara dəyib qayıdır, oks-sədaya çevrilirdi.

Dan yeri sökülmüşdü. Dağların əzəmətli gövdələri tünd boya ilə yavaş-yavaş bozaran üfüqdə ayırd olub boya-boy qalxırdı.

Bir saat olardı ki, Denşik fısıldayaraq kapitanın arxasınca yüyürməkdə idi. Taqətdən düşmüş, qüvvəsi tükənmişdi. Onun təqib etdiyi kapitan isə, elə bil dəqiqəbədəqiqə yeni qüvvə alırdı, xeyli aralanmışdı. Denşik daha ona çata bilməyəcəyini qət edib, ayaq saxladı. Nəfəsini dərib dalınca çığırdı:

– Konstantin İvanoviç, qayıdın! Siz nə edirsiniz? Buralar qorxulu yerlərdir, qayıdın...

Onun sözləri dağların sinəsinə dəyib özünə qayıdırdı:

– Qayıdın, Konstantin İvanoviç!

Tezliklə sıx meşəlik başlayacaqdı. Kapitan meşəyə girməyə macal taparsa, Denşik əlini ondan birdəfəlik üzməli olacaqdı. Çünki bir-birinin böyründə bitib, öz qol-budaqları ilə ağacların mamırlı gövdələrinə sarılan yabanı sarmaşıq bitkiləri kapitanı təqib etməyə, şübhəsiz ki, çətinlik törədəcəkdi. Lakin təsadüfi bir hadisə kapitanı



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

meşəyə girmədən ayaq saxlamağa məcbur etdi. O durdu və hətta bir neçə addım geri lədi. Denşik gözlərini qırpıb kapitanın düşdüyü vəziyyəti diqqətlə öyrənmək istəyirdi ki, qarşıdakı ağacların altında iki nəfər adam göründü. Vasya başa düşdü ki, kapitanın geri qayıtmasına onlar səbəb olmuşdur. Smirnov bir neçə dəqiqə geri çəkilə-çəkilə tanımadığı yad adama baxdı, sonra dəhşətli bir bağırtı ilə geri dönüb üzüaşağı qaçmağa başladı. Denşik buna sevindi və zabitin gözünə görünməmək üçün alçaq bir kolun dalında pusquda durdu. Bir azdan şehli torpaq üstündə onun gumbultu qoparan addım səsləri eşidildi. Denşik özünü yığışdırdı və Smirnov kola yaxınlaşarkən pusqudan çıxıb onun üstünə atıldı. Zabitdən qulaqbatırıcı, iniltili bir səs çıxdı. Bu səs meşənin sükunətini parçalayıb xeyli müddət havada dolaşdı. Sonra dərəyə çöküb qeyb oldu. Denşik, kapitanın qollarından yapışıb, arxasında çarpazlamaq istədi. Lakin zabitin vurduğu təkandan o müvazinətini itirib yerə yıxıldı və özü ilə bərabər kapitanı da dartıb yerə sərdi. Daş-kəsəkli yolun içində süpürləşdilər. Smirnov çırpınıb Vasyanın qolları arasından çıxmağa cəhd edir, Vasya isə mülayim səsi ilə onu sakitləşdirməyə çalışırdı.

– Sakit olun, Konstantin İvanoviç, – deyirdi, – özünüzü şikəst edə bilərsiniz! Belə təlaş nəyə lazımdır? Sakit olun, evə gedək.

Kapitan onun sözlərinə əhəmiyyət vermədən çırpınıb xilas olmağa çalışırdı. Meşənin ağzında görünən iki nəfər onların əlbəyaxa olub, süpürləşdiyini gördükdə özlərini tez çatdırdılar.

Bunlar qaçaq Məhəmmədin yanından qayıdan Bəhramla Arşak idi. Bəhram təəccüblə soruşdu:

– Nə olub? Siz nə edirsiniz?

Zəifləmiş qolları arasından Smirnovun indicə çırpınıb çıxacağını hiss edən Denşik, onun sualına cavab vermək əvəzinə, başı ilə işarə edərək köməyə çağırdı.

– Kömək edin, qollarını arxasında çarpazlayaq.

– Axı nə üçün, günahı nədir?

– Sonra deyərəm, siz kömək eləyin.

Bəhram və Arşak köməkləşib kapitanın qollarını burdular. Ağzı köpüklənmiş, gözləri bərələ qalmış zabit, dişlərini qıcırdadıb əsirdi. Qolları buruldıqda o, dizi üstə çökdü. Başı dərhal sinəsinə sallandı. Kapitanın arxasında duran Denşik, şəhadət barmağını gicgahına aparıb, zabitin başına hava gəldiyini Bəhramgilə bildirdi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəhram, Arşak və köynəyinin yaxalığı iki yerə parçalanmış Denşik kapitan Smirnovu dövrəyə alıb, geriyə, şəhərə döndülər. Vasya Smirnovun qollarını buraxsa da, hər ehtimala qarşı onun arxasınca gəlirdi ki, kapitan təzədən qaçmaq cəhdinə düşsə, onu dərhal qolları arasına ala bilsin. Lakin kapitanda daha qaçmağa taqət qalmamışdı. Böhran sovuşmuşdu. Süst, dinməz-söyləməz onların qabağınca irəliləyirdi.

Arabir başını qaldırmadan, qaşları altından Bəhram və Arşakı oğrun-oğrun süzürdü. Denşik addımlarına uyğun olaraq yavaşcadan aramla deyirdi:

– Konstantin İvanoviç, sizə çox istirahət lazımdır. Belə olsa, özünüzü taqətdən salarsınız...

Onlar şəhərə girdikdə xoruzların ilk banı idi. Yuxulu, xırıltılı hənirtilər, arabir eşidilən heyvan böyürtülərinə qarışıb, kənar məhəllələrdə adamların oynadığını xəbər verirdi.

Vasya kapitanı evdə rahatladıqdan sonra, qapının açarını yavaşcadan burdu və barmaqları üstə artırmadan həyətə enərək, Qalaya, batalyon həkiminin yanına getdi.

## II fəsil

Atların dırnaqları dayaz çaylaqların çınqıllı yataqlarında şaqqıldayırdı. Ən qabaqda gedən Məhəmməd özü idi. Çaylaqlardan sonra yoxuş başlayırdı. Çox keçmədi ki, onlar yoxuşu qalxıb sıx meşəliklərin içində gözdən itdilər. İki ağaclıqda meşənin içi ilə şose yolu keçirdi. Qoca vələs ağacları bu yerlərdə qollu-budaqlı yelpiklərini yaşıl pərdə kimi yolun üstünə tutmuşdu. Ayın aydınlığına baxmayaraq, yol qaranlıqdı. Qaçaqlar şose yolunun hər iki tərəfində, pöhrəlikdə pusquya girdilər. Məhəmməd özü gözlərinin acısını almaq üçün şose yolundan aralıda, meşənin dərinliyində kiçik bir talada arxası üstə uzandı. Kəsif rütubət iyindən heç cür mürgüləyə bilmədi. Birdən yaxınlıqda qaçaqlardan kiminsə səsi eşidildi:

– Gəlirlər!

Məhəmməd ayağa qalxdı. Pöhrəliyi aralaya-aralaya şose yoluna çıxdı. Daha qabaqda pusquda duran qaçaqlardan biri xəbər gətirdi ki, gələn təkcə bir faytondur. Məhəmməd bunu eşidən kimi əlini çırpdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Buraxın getsin.

Şose yolunun kənarına çıxıb, hazır durmuş o biri qaçaqlar yenə öz yerlərinə qayıdaraq, kimi ovcunun içində papiros tüstülətməyə, kimi isə belini ağacın yoğun gövdəsinə dirəyərək oturduğu yerdə mürgü vurmağa başladı.

Ay əyilərək işığını yarpaqların arasından çəpəki yolun içərisinə səpmişdi. Faytonçunun zümzüməsi eşidildi. Atların ayaqlarından qopan gumbultu qaçaqların rubərunda aydın eşidildikdə, Rəsi yavaşcadan yoldaşlarına pıçıldadı:

– Hacı Xeyrinin faytonudur. Yaxşıca əlimizə düşüb.

O, hirslə tüpürdü və yoldaşlarının cavabını gözləmədən qabağa çıxdı. Tüfəngini faytonun qozlasında qaralan faytonçuya tərəf tuşladı:

– Dayan bir görək, a kişi!

Faytonçu atların cilovunu çəkdi.

– Hacı Xeyrinin faytonudur?

Alaqaranlıqa faytonçunun yuxulu səsi eşidildi:

– Bəli, Hacı Xeyrinindir!

– Gecənin bu vaxtında, yoxsa başına bir fikir düşüb? Özü içindədir?

– Xeyr.

– Bəs haradadır?

– Gecə adam harada olar? Nə axmaq sözdür! Əlbəttə, evində yatır.

Rəsi tüfəngi çevirib, qundağı ilə faytonçunun böyrünə vurmaq istədi, özünü çatdırmış qaçaqlardan biri, qolundan yapışıb ona mane oldu:

– Bənd olma! Burax getsin.

Rəsi burnunun altında nə isə mızıldadı, sonra başını əyib faytonun içinə baxdı.

– De görüm, nə aparırsan?

– Heç bir şey!

Faytonçunu altdan-yuxarı qəzəblə süzən Rəsi hündürdən kəkələndi:

– Qurban olasan bu oğlana, yoxsa dilini yerindən qoparıb salardım... Düzünü de!

Faytonçu oturduğu yerdən tərpənmədən cavab qaytarırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yalan deyib nə qazanacağam? Dedim ki, heç bir şey aparmıram... Hacının Balakəndə qonağı var. Onun dalınca gedirəm... Mənim sözümü batil sayırsansa, özün yoxla, gör!

Rəsi əlini faytonun içində gəzdirdi. Oturacağa sərilmiş yumşaq xalının narın xovu ilə sürüşən barmaqlarına bir şey dəymədikdə əlini geri çəkdi. Lakin sonra nə fikirləşdisə təkrar əyilib oturacağı tumarladı və kəskin bir hərəkətlə kiçik xalını dartdı:

– Yaxşı əlimə düşdü, – dedi. – Üstündə yatmaq üçün mənə çoxdan yumşaq bir şey lazım idi...

O, xalını havada çırparaq bərkdən güldü:

– Donuzdan bir tük də qənimətdir... hə, indi qonağın dalınca gedə bilərsən. Bizi bağışlasın ki, ayaqlarını yumşaq xalının üstünə qoya bilməyəcəkdir. Eybi yoxdur, günahımızdan keçər...

Faytonçu dinmədi. Rəsi dişlərini qıcırdatdı. Onun yanında duran qaçaq, Rəsinin əlindən indicə xata baş verəcəyini, deyəsən, başa düşdüyü üçün faytonçunun üstünə çımxırdı:

– A kişi, sür get, daha niyə durmusan?

Qamçı şaqqıldadı. Faytonun çarxları xırçıltı ilə, sarı yarpaqların çürüyüb qarışdığı torpağın üstü ilə irəlilədi. Rəsi yumruğu ilə onu hədələyib dalınca çağırdı:

– Hacıya deynən ki, görüşəndə haqq-hesabımızı çürüdərik. Arxayın olsun, birdəfəlik çürüdərik. Ya o yanlıq, ya bu yanlıq...

Fayton baş-başa çatılmış ağacların altı ilə uzaqlaşdı.

Rəsinin, faytonu soyduğunu qaçaqlardan kim isə, bir az geridə ağacların altında dincələn Məhəmmədə xəbər vermişdi. Çox keçmədi ki, o, ağacların arasından çıxıb, Rəsiyə yaxınlaşdı:

– Genə camaatı soyursan?.. Nə qədər gec deyil, özünü ona çatdır, xalçanı qaytar.

Rəsi, xalçanı tutduğu halda, Məhəmməd onu yaxşı görsün deyə, yuxarıdan budaqların arasından süzülən işığa çıxdı. Kiçik xalçanı açdı və ayın işığında xalçanın bəzəkləri ovuc kimi aşkarda qaldı. Rəsi itaətkarlıqla dedi:

– Qaytarmağına qaytararam. Ancaq... heç insafdır belə xalçanı ayaq altına salasan, Hacı Xeyrinin təpikləri, tüpürcəyi altına... Üzərində “Leyli və Məcnun” dastanından kiçik bir səhnə nəqş edilmiş olan kənarları yazılarla haşiyələnən xalça öz əlvan naxışları ilə ay işığında qiymətli daş-qaş kimi rəngdən-rəngə çalırdı. Ancaq qaçaqları heyrətdə buraxan xalçanın gözəlliyi deyil, Məhəmmədin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vəziyyəti idi. O, gözlərini Rəsinin açıq tutduğu xalçaya tutub susmuşdu. Baxışları qüssəli və donuq idi. Elə bil sehrkar bir qüvvənin qarşısında dili-dodağı qurumuş və yerindəcə donuxub qalmışdı. Hər dəqiqə Məhəmməddən cəza alacağını gözləyən Rəsi özü də onun bu hərəkətinə təəccüb qalmışdı. "Görəsən, o nə fikirləşir. Yoxsa onun haqqında ən ağır bir tənbehmi düşünür? Başqa nə ola bilər? Onun birdən-birə susması yaxşı əlamətə bənzəmir". Rəsi bunları düşünərək altdan-altdan Məhəmmədə göz qoyurdu. Hamı susmuşdu. Nəhayət, Məhəmməd gözlərini xalçadan çəkib, yoldaşlarına tərəf qanrıldı.

– Mənim anamındır, – dedi və susdu. Onun öz-özü ilə danışırmış kimi pıçıltısı eşidildi: – Mən hələ uşaq idim, anam onu gecə-gündüz toxuyurdu. Bacım ərə gedəndə ona cehiz verdi... Yazıq qız... yəqin ki, aclıq onu vadar etmişdir ki, Hacı Xeyriyə satsın. Anasının təkcə yadigarını...

*Məhəmmədin əli xalçanın üstündə gəzdi. Gözləri işıldadı.* Dodaqları isə tərpənirdi: "Ana, yorğun, çəlimsiz barmaqlarınla ilmələr saldığın yaxşı yadımdadır. Sən onu bacıma cehiz hazırlayırdın. Gecə-gündüz hananın dalından qalxmadın. Yazıq ana! Haradan biləydin ki, o Hacı Xeyrinin ayağı altına döşənəcəkdir. Ana, isindir məni. Heç olmasa bu xalı ilə isindir".

O, əlvan xalçanı sinəsinə yaxınlaşdırdı. Yarpaqların arasından süzülən işıqda bir damcı göz yaşı onun tüklü yanağı ilə aşağı süzüldü.

– Gəlirlər!

Bu səs hamını diksindirdi. Tez dağılışıb pusquda oturdular. Qabaqda at üstündə gələn zabitin fiquru hamıdan daha aydın seçilirdi. Onun dalınca dustaq soldat, yanınca da iki silahlı irəliləyirdi. Zabit bir anlığa atının başını çəkib saxladı. Qaçaqlar onun qulağına səs dəydiyini güman etdilər. Lakin məlum oldu ki, o, papiros yandırmaq üçün durmuşdur. Papirosunu yandırıb damağına qoyduqdan sonra soldatlara nə isə dedi və yoluna davam etdi. Üç nəfər heç bir şey sezmədən qaçaqların gizləndiyi sarmaşıqlı ağacların qabağından ötüb keçdilər. Lakin iki-üç addım atmamışdılar ki, birdən sürəkli fit çalındı və qaçaqlar yerbəyerdən çıxaraq onların üstünə cumdular. Zabit tapançasına əl atmağa macal tapmadı. Məhəmmədin vurduğu güclü zərbə onu atın üstündən yerə aşırdı. At fınxırıb, dal ayaqları üstə qalxmaq istədikdə, Məhəmməd cilovdan yapışdı. Qaçaqlardan Rəsi yerə yıxılmış zabitin başının üstünü kəsdirdi. O biri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaçaqlar soldatları tərksilah etdilər. Dustaq Drujin isə baş verən bu hadisədən heç bir şey başa düşmədiyi üçün yerindən tərpənmirdi, onu xilas etməyə gəlmiş tanımadığı yad adamların hərəkətlərinə təəccüblə baxa-baxa qalmışdı. Qaçaqlar soldatların və zabitin qollarını bağladıqdan sonra Drujinə yaxınlaşdılar. Onun qollarındakı zənciri açmaq çox çətinliklə mümkün oldu. Drujin üz-gözlərini tük basmış bu iripapaqlı adamların onu nə məqsədlə xilas etmələrini düşünürdü. Məhəmməd qabağa gəlib əlini onun çiyninə qoydu. Tüklü, qarsalanmış sifətində ağ dişlərini ağardaraq gülümsədi.

– Hə, dost, – dedi, – indi daha azadsan.

O, soldatın əzik, bulaşıq əyin-başını, köhnə, yamaqlı ayaqqabılarını görüb, qaçaqlardan ikisinə nə isə işarə elədi. Onlar tez böyrü üstə yıxılmış zabiti soyundurmağa başladılar. Onun təzə xrom uzunboğaz çəkmələrini çıxarıb dustaq soldata geyindirdilər. Dustağın yırtıq ayaqqabılarını isə zabitin yanına qoydular. Başları ilə işarə edib tapşırdılar ki, onları geyə bilər.

Zabitin tapançasını Məhəmməd öz cibinə qoydu. Soldatların tüfənglərini isə Rəsi hər iki çiynindən aşırdı.

Onlar Drujini zabitin atına mindirib, yola düşdülər.

Göyün üzü bozarmağa başlamışdı. Qabaqdakı dağların ətəklərindən sərin meh əsirdi. Hündür cökə ağaclarının təpələri ehmalca yırğalanırdı. Uzaqlaşan at ayaqlarının səsi getdikcə zəiflədi.

## III fəsil

Gecə Balakən yolunda dustaq matrosun qaçırılması xəbəri dərhal şəhərə yayıldı. Pristav Kukiyev bu əhvalatı eşidəndən bəri, yerində qərar tuta bilmirdi. Dustağı hələ kimin tərəfindən qaçırılması barədə səhih məlumatı olması da, bütün qorodovoyları toplayıb qəzəblə onların üstünə çığırırdı:

– Əfəllər, burnunuzun yanından dustaq qaçırıblar sizin xəbəriniz yoxdur... Maymaqlar... yekəqarın boşboğazlar...

Qorodovoylardan heç kəs cəsarət edib, dustağın şəhərdən çox uzaqda, Balakən yolunda qaçırıldığını deyə bilmirdi. Pristav Kukiyevin özünün də bundan xəbərdar olması hamıya məlumdu. Ancaq cürət edib, bunu pristavın üzünə çırpmaq gözlənilməz bir qəhrəmanlıq ola bilərdi. Mundir isə belə qəhrəmanlığa həmişə aşılmaz maneədir: ucuz mahuddan tikilmiş qızılı düyməli adi bir mundir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəhər əhalisinin çoxu dustağın öz soldat yoldaşları tərəfindən qaçırıldığını güman edirdi. Onlardan heç birinin ağlına gəlməzdi ki, ev-eşiklərindən didərgin düşmüş qaçaqlar da bu işə baş qoşarlar. "Soldat qaçaqların nəyinə lazımdır?" Bir sözlə, bununla əlaqədar olaraq, iki-üç gün qəribə əhvali-ruhiyyə yaranmışdı. Elə bil nə isə gözlənilirdi. Qorodovoylar Kukıyevin əmri ilə bütün həyətlərə baş soxur, gözlərinə şübhəli görünən ot arabalarını araşdırır, şəhərə gələn və şəhərdən çıxan faytonçuları yolundan eləyib sorğu-suala tuturdular: "Yolda, bəlkə qabağımıza şübhəli bir şey çıxıb, hə?" ya da "dustağın qaçırılması haqqında o tərəflərdə nə danışırlar? Ucundan-bucağından bəlkə bir şey öyrənə bilmişsiniz?" Faytonçular isə dilləşiblərmiş kimi hamısı birağızdan "Heç nə görməmişik, heç bir şey eşitməmişik" – cavabı verir, belə cəncəlli işdən tez yaxa qurtarmağa çalışırdılar: "Bizim hökumət işlərinə baş qoşmağa halımız yoxdur. Nəyimizə də gərəkdir? Görməmişik, vəssalam. Hökumətin öz soldatıdır, özü də axtarıb tapsın. Daha bizi niyə bu işlə dolaşdırırlar".

Qorodovoyların iy duymaq üçün özlərini təşviş içərisində ora-bura vurmaları boşa çıxır, hər yerdə nəticəsiz qalırdı. Buna görə də pristavın qaşqabağı açılmırdı. O hər şeydən qabaq özündən ehtiyat edirdi. Bu xoşagəlməz hadisədən belə qənaətə gəlmişdi ki, çaxnaşma gec-tez onun başında partlayacaq, podpolkovnik Dobrovolskinin barmağı olan yerdə o, özünə heç bir bəhanə tapıb yaxasını qurtara bilməyəcəkdir. Ancaq podpolkovnik nədənsə dustağın qaçırıldığını bu iki gün ərzində, bir dəfə də olsun şəhərdə görünməmişdi. Hamıdan təəccüblüsü isə şəhər pristavının yanına gəlməsi idi. Belə sükut Kukiyevi daha dəhşətə gətirirdi. "Yəqin ki, gizlicə mühüm tədbirlər tökmək, plan cızmaqla məşğuldur. Onun qəzəbindən Allah özü saxlasın" – bunları düşündükcə onun gecələr yuxusu ərşə çəkilir, öz narahat ürəyi ilə gizli-gizli dinib-danışır, özünün təhlükə altında olan taleyinə yas tuturdu. Tamara Danilovna isə ərinin keçirdiyi üzüntülü dəqiqələrə biganə idi. Ona təsəlli vermək əvəzinə, əksinə, arabir üzərinə çımxırır və məzəmmətləyirdi:

– Yenə melanxoliyan gəlib!.. Dəhşət, mən səni belə gördükdə, əlim-qolum soyuyub, yanıma düşür. Deyirəm ki, pərvərdigara, görəsən bizi yenə də bədbəxtlik gözləyir?

Öz dərdinə güc-bəlayla dözə bilən Kukiyev, arvadının bu məzəmmətlərinə cavab vermək üçün özündə nə həvəs, nə də qüvvət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hiss edirdi. O ancaq əlini qeyri-ixtiyari sallayaraq yavaşcadan pıçıldayırdı:

– Tamara Danilovna, sakit olun. Əsəblərinizi əbəs yerə pozmayın... Heç bir şey olmaz...

Tamara Danilovna bundan daha da hirslənirdi:

– Mən uşaq deyiləm ki, təsəlli verəsən. Sənin melanxoliyan gəldimi, hər şey bitdi. Fələk də yerə qarın qoysa, üz verəcək fəlakəti bizdən sovuşdura bilməz. Ah... Yazıq canım... Nə qədər bədbəxtəm...

Kukiyev çox dinib-danışa bilmirdi. Əslinə baxsan, arvadına söz qaytarmaq özü də xatalı idi; belə ağır saatlarda, onun əvvəllər tutulduğu ürəkkeçmə təkrar olunsa, dərdinin üstünə təzə bir dərd qoyardı. Yox, indiki vəziyyətdə arvadının hikkəsinə dözməli halı yoxdu. Ən yaxşısı susmaq idi. Susmaq, dözmək, taleyin onun başına nə oyun açacağını gözləmək. Podpolkovnikin gizlincə hazırladığı sui-qəsd bəlkə də pristavın özünə qarşı çevrilmişdi. Allah bilir, o nə düşünür, nə götür-qoy edir! Pristava bu məlum olmasa da, bir şeyi özünə qəti yəqin etmişdi ki, Dobrovolski kimi cəlladın cəngindən yaxa qurtarmaq ona müyəssər olmayacaqdır... Bəli, podpolkovnikin təhlükəsi hər dəqiqə pristavın başı üzərində sallanıb dururdu.

Drujinin qaçırılmasının üçüncü günü səhər, pristavın gözlədiyi təhlükə baş verdi. Xəbər verdilər ki, podpolkovnik Dobrovolski gəlir. Kukiyevin ürəyinə elə bil xəncər sancıldı. Yerindən qalxıb, podpolkovniki astanada qarşılamaq üçün kabinetin qapısına tərəf bir addım atmamışdı ki, Dobrovolski ildırım sürəti ilə içəri soxuldu. Salam vermədən stolun yanına keçdi və əsəbilikdən titrəyən barmaqları ilə əlcəklərini çıxartdı. Hirslə yuxarıya çəkilmiş qaşlarının onun qəzəbli sifətinə verdiyi iblis ifadəsi, pristavın canına vahimə saldı. Podpolkovnik qəzəbli baxışlarını pristava zillədi. Lakin dinmədi. Pristav bu baxışlar altında özünü daha da itirdi.

– Buyurun əyləşin, cənab podpolkovnik, – dedi.

Podpolkovnik arxasını ona çevirərək etinasızcasına dedi:

– Mən buraya oturmaq üçün gəlməmişəm, cənab!

Onun belə ədalı sözləri pristava toxundu, lakin ona istehzalı cavab qaytarmağa cəsarəti çatmadı. Nikolayın xüsusi tapşırığı ilə cənuba göndərilmiş bu zabit bir dəqiqənin içərisində istədiyini edə bilərdi. Ona görə mülayim bir tərzdə soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Elə isə təşrif gətirməyinizin səbəbini öyrənə bilərəmmi, cənab podpolkovnik?

Podpolkovnik kəskin bir hərəkətlə ona tərəf qanrıldı:

– Bunu, siz, cənab pristav, gərək özünüz biləydiniz!

Pristav çiyinlərini çəkdi. Yekə başı, elə bil, piyli bədəninin içərisində gizlənib, donqar vəziyyətdə qaldı:

– Güman edirəm, cənab podpolkovnik, sizi dustağın qaçırılması narahat etmişdir. Bunu, dünən axşam təsadüfən eşitdim. Doğrusu inanmadım. Fikirləşdim ki, bu həqiqət olmasa cənab podpolkovnik mənə xəbər verməmiş olmazdı... həqiqət isə çox təəssüf...

– Təəssüflənməyi hər kəs bacarır. Bu ancaq aciz bir məxluqa məxsus hissdir. Siz isə tədbir görməli idiniz... Təəssüf... – o, istehza ilə gülümsədi.

Pristavın dili açıldı:

– Əlbəttə, əlbəttə, cənab podpolkovnik. Tədbir görməmiş deyilik. Siz elə güman etməyin ki, dustaq qaçsın, biz qollarımızı qoynumuza qoyub oturaq. Belə hərəkət bizim tərəfimizdən yalnız, sadəcə kütlük ola bilərdi, cənab podpolkovnik.

Podpolkovnik pristavın bu sözlərindən sonra ona tərəf irəlilədi və təəccüblə soruşdu:

– Nə tədbirlərdir, cənab?..

Pristav onun birdən-birə yumşaldığını və onun da köməyə ehtiyac hiss etdiyini başa düşüb sualına dərhal cavab vermək istəmədi. Öz-özlüyündə xısın-xısın gülümsədi: “Aha, axır ki, ipə-sapa yatırsan. Qızıb-qızıb axırda özün partlayacaqsan!”

Podpolkovnik onun ləngidiyinə dözə bilmədi:

– Mən sizi eşidirəm, cənab!

Pristav bığlarını tumarladı:

– Cənabınız bu haqda mənə xəbər verməsə də, mən ehtiyatı əldən qoymamışam. Məsələdən agah olan kimi, qorodovoyları ayıq salmışam. Güman gələn bütün yerləri axtarırlar. Dağ cığırlarını nəzarət altına almışlar. Hətta, cənab, bəzi şübhəli adamların evlərində də axtarış keçirilmişdir... lakin siz nahaq yerə məni vaxtında xəbərdar etməmisiniz...

Pristavın axtarışlarından nəticə çıxmadığını görən podpolkovnik başını yellədi. Sonra cibindən papiros çıxarıb damağına qoydu və titrək əlləri ilə onu yandırdı. Burun dəliklərindən sıx tüstü qalxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Biz güman eləyirdik ki, onlar bu tezliklə aradan çıxa bilməzlər... O bu sözləri sanki öz-özünə deyirdi. Otaqda özündən başqa pristavın da olduğunu saya almayaraq, gəzinə-gəzinə danışırdı: – İki rota gecəli-gündüzlü meşəni axtardı. İzlərinə düşmək mümkün olmadı.

Pristav isə özünün də otaqda olduğunu podpolkovnikə çatdırmaq üçün stolunun dalına keçdi. Əllərini belinə qoydu:

– Əlbəttə, dedi, – onları ələ keçirmək asan deyil. Yəqin ki, dağları o tərəfə aşıblar. Cənab, mən o zaman xahiş etdim ki, köməkləşib bu dağları qaçaq-quldurlardan təmizləyək. Siz razılıq vermədiniz... Bu da nəticəsi.

Pristavın sözləri podpolkovniki təzədən hövsələdən çıxartdı:

– Siz güman edirsiniz ki, onu qaçaqlar qaçırıblar?

– Əlbəttə, cənab.

Podpolkovnik başını əsdirdi:

– Yanılırsınız!

– Başa düşmürəm, cənab podpolkovnik. Başqa kim ola bilər... Bəlkə... sizin öz soldatlarınız... – O, sözünü tamamlamadı. Bununla podpolkovnikin şərəfinə toxuna biləcəyini hiss etdi. Podpolkovnik isə yenə də qəzəbli nəzərlərini ona zilləyib səsini ucaltdı:

– Siz nə qədər sadəlövh adamsınız, pristav. Bizi təşvişə salan qaçaqlar deyil. Onlar dağ adamlarıdır. Məhbusu qaçırdanlar isə, bax, bunlardır – o, cibindən bir dəstə vərəqə çıxarıb başının üstündə silkələdi – bunları yazanlardır. O adamlardır ki, sizin onlardan xəbəriniz yoxdur... Qala divarlarına, ağac gövdələrinə bu vərəqələri yapışdıranlar haqqında nə tədbir görmüsünüz? Onu söyləyin... Görürəm ki, bu adamlar sizi möhkəmcə yuxuya veriblər... Məhbusu da onlardan soruşmaq lazımdır. Siz isə qaçaqların yaxasını tutmuşsunuz...

Pristav yenə müvazinətini itirdi. Podpolkovnikin hədəsi altında qollarının sustaldığını, hətta boyca alçaldığını hiss etdi.

– Bacarmırsınız, cənab!

Dobrovolskinin bu sözləri ağır hökm kimi pristavın qulaqlarında guruldadı. Ancaq bununla belə, pristav qüvvəsini toplayıb soruşdu:

– Nəyi bacarmırıq, cənab?

Podpolkovnikin gözləri hədəqəsindən oynadı. Pristava elə gəldi ki, o indicə yumruğu ilə vurub onu yerə sərəcəkdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Şəhəri idarə etməyi! Aydındırmı? – Sonra səsini alçaldaraq sözünə davam etdi: – Tiflis quberniya jandarm idarəsinə raport göndərmişəm. Qoy sizə əlli-qollu bir köməkçi göndərsinlər. Belə getsə, şəhər tezliklə inqilab ocağına çevriləcək. Oturduğunuz yerdə altınızı odlayacaqlar. O zaman gec olacaq, iş-işdən keçəcəkdir. Biz onları inqilab mərkəzindən uzaqlaşdırıb buraya gətirdik. Demə, burada da sizin soyuqqanlılığınız nəticəsində yer od tutub yanır. Bundan ötrü unutmayın ki, əlahəzrət qarşısında başınızla cavab verməli olacaqsınız.

Pristavın nitqi qurumuşdu. Udquna-udquna qalaraq, nə cavab verəcəyini bilmirdi. O biri tərəfdən, podpolkovnikin sözlərindən canına vahimə düşdüyünü də büruzə vermək istəmirdi. Kiçik bir addım geriyə atarsa, podpolkovnik onun üzərində özünün üstünlüyünü qəti təmin edəcəkdi.

– Cənab, mənə rəsmi xəbər verilmədən öz vəzifəmi yerinə yetirmişəm. Bu işdə, əlbəttə, səhvə yol verilmişdir. Vaxtında xəbər verilsəydi, bəlkə də onların izinə düşmək mümkün olardı... İndi isə bir polk qoşun da gəlsə, xeyri yoxdur. Dağları o tərəfə aşıblarsa işişdən keçib...

Pristav özünə bəraət qazandırmaq niyyəti ilə, sözünün arasını kəsmədən vəziyyətin çətinliyini təsvir edir, dolayı yollarla eyhamlar atır, bu məsələdə buraxılmış səhvlərin kökünü, podpolkovnikin əhvalatı vaxtında ona xəbər verməməsində görürdü.

Pristavı heyrətə salan cəhət orasında idi ki, o, danışdıqca, Dobrovolski dinməzcə dabanları üstə qalxıb-enir, arabir ağ əlcəklərini dizlərinə çırpır və etinasızcasına pəncərədən bayıra boylanırdı. Sanki otaqda özündən başqa nə bir adam vardı, nə də pristavın dediklərini eşidirdi. "Bəlkə mənim sözlərim rəddedilməz qüvvə ilə onun qəzəbinin qarşısını ala bilmişdir, ya da bayaqdan bəri bir-birinin arxasınca həmləyə keçməsinin nahaq olduğunu, gülləsinin boşa çıxdığını hiss edib peşmançılığa qapılmışdır?"

Pristav bunları öz-özlüyündə götür-qoy edərək, başladığı əkshücumun təsirini azaltmamaq üçün yenə sözünə davam etdi:

– Mən əlahəzrətin etibarını həmişə doğrultmuşam, cənab, lazım gəlsə, sənədlərlə bunu sübut edə bilərəm. Siz nahaq güman edirsiniz ki, burada biz, dağların arasında qəlyan sormaqla məşğuluq. Tövbə, cənab, tövbə. Siz bilsəniz, biz bu qaçaqlarla mübarizəyə nə qədər qüvvə sərf edirik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dobrovolski qəzəbi soyumuş halda dönüb pristavı başdan-ayağa süzdü. Onun baxışlarında indi, ancaq sadəcə təəssüf hissi dolanırdı. Sanki yöndəmsiz bədəni ilə qarşısında durmuş pristavın halına acıyır, onun nə dərəcədə sadəlövh düşünməsinə içəridən yanırdı. Qapını açıb, qoltuğunda qovluq içəri girən mirzə, yüksək mənsəbli bu adamların qəribə duruşlarını eynəyi üstündən seyr edib, əvvəlcə donuxdu. Sualedici nəzərlərlə pristava baxdı. Lakin pristavın qımıldanmadığını gördükdə, üzr istəyib, geriyə döndü. Dobrovolski onun otaqdan çıxmasını gözləyirdi. Qapı örtüldüyü zaman pəncərədən aralanıb, otağın ortasına gəldi.

– Cənab, – dedi, – axı siz düşünün ki, qaçaq-quldur bu dəqiqədə bizim üçün təhlükə təşkil etmir. – O, boğazını arıtdı, – onları ələ keçirmək, dar ağacından da asmaq olar. Ancaq nə olsun? Bununla bu vərəqlərin kökünü kəsmək mümkündürmü? Bizi, bax bunlar narahat edir. Qaçaqların üstündə deyil, bu taun kimi qorxulu vərəqlərin üstündə bizi, sizinlə birlikdə hərbi tribunala verə bilərlər. Bu halda düşünmək lazımdır...

Qapı açıldı. Podpolkovnikin şıq geyimli yavəri içəri girib, surğuclu məktubu ona uzatdı. Dobrovolski, görünür, bu məktubu çoxdan, səbirsizliklə gözlədiyi üçün sözünü yarımçıq qoydu və onu elə oradaca tələsik açıb oxudu. Gözləri sürətlə sətirlərin üstündə gəzdikdən sonra üzü daha ciddi bir ifadə aldı və məktubu qatlayıb cibinə qoydu. Əlcəklərini taxaraq yavərə müraciətlə dedi:

– Gedək!

O, sürətli addımlarla qapıya yaxınlaşdı. Bayıra çıxmamışdan nə isə fikirləşib bir anlığa ayaq saxladı və sonra qanrılıb pristavla xudahafizləşmək əvəzinə soruşdu:

– Tamara Danilovnanın səhhəti necədir?

Pristav könülsüz və saymazyana cavab verdi:

– Yaxşıdır, təşəkkür edirəm.

– Mənim salamımı ona yetirin.

O, yenə də xudahafizləşmədən çıxdı. Yavər də pristava təzim edib, qapının dalında gözdən itdi.

Pristav bağlarını eşərək, onların dalınca istehza ilə gülümsədikdən sonra, stolun dalına keçdi və piyli bədəni ilə yumşaq kreslonun içinə çökdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## IV fəsil

Soldat Drujin təzə çalınmış otun üstündə dirsəklənmişdi. Qabağında çatırtı ilə yanan tonqalın nazik titrək alovları onun saqqallı sifətini tutqun bir qızartı ilə işıqlandırırdı. Nüfuzlu gözləri kölgələnib çökəyə enmişdi. Solğun, arıq sifətində qat-qat olmuş qırışıqlar sıxlaşıb onu vaxtından qabaq qocalmış adamlara bənzədirdi. O, əlindəki nazik çubuqla, ocağın közərmiş odlarını eşib, qarşı-qarşıya oturmuş Məhəmmədə baxdı. Qaçağın enli çiyinləri sallanmış, iri, qırxıq başı aşağı dikilmişdi. Gözlərini qıyaraq, o, gah ocaqda qaralıb-qızaran kösövlərə baxır, gah da uzun tüklü qaşlarını yuxarı dartaraq, Drujinə arabir göz qoyurdu. O biri qaçaqlar isə bir az aralıda, tonqalın işıqlandırdığı pöhrəlikdə əl-qollarını rahatca uzadaraq yuxuya getmişdilər. Birinin xorultusu kiçik talanı ağzına almışdı. Drujin Məhəmmədin dinmədiyini gördükdə qollarını başının altında çarpazlayaraq arxası üstə uzandı. Ulduzlar göyün dərinliyində fərəhlə parıldaşırdı. Onlardan biri, Drujinin lap başı üstündə sürətlə axıb tünd səmanın qaranlığı içərisində əriyib gözdən itdi. Drujin qeyri-ixtiyari köksünü ötürdü. Məhəmməd başını qaldırıb, dustaq dostunun üzünə baxdı.

– Qardaş, – dedi, – yəqin ev-eşiyin üçün darıxırsan?

Drujin vəziyyətini pozmadan, yenə köksünü ötürdü:

– Yox, dostum, ev-eşiyim üçün darıxmıram.

– Bəs niyə ah çəkirsən? Başqa dərdin olmaya?

Drujin üzünü Məhəmməd tərəfə çevirib, dirsəkləndi.

– Dostlarım üçün darıxıram, – dedi, – onlardan ayrı düşmək çox ağırdır. Üç il onlarla birlikdə duz-çörək kəsmişik. Qazamatlarda bir şinelin altına sığınıb isinmişik. Çiyin-çiyinə. Ölümün gözünün içinə də dəfələrlə bir baxmışıq... İndi onlar orada, mən isə burada tək-tənha... Ağırdır, dost, ağırdır.

Məhəmməd belini dikəldib, rütubətli meşə havasını ciyərlərinə çəkdi.

– Qəm çəkməyinə dəyməz, – dedi, – tək olsan da azadsan.

Drujin təəssüflə başını yırğaladı:

– Təklikdə azadlıq yoxdur, – dedi. – Sürüdən ayrı düşən qoyunu canavar tez parçalar. Sizin qədim bir Şərq məsəli çox xoşuma gəlir. Bir gənc ahıl bir qocanın yanına gəlib soruşur ki, basılmamağın sirri nədir? Qoca cavab vermək əvəzinə, onun qabağına bir dəstə çubuq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tökür və xahiş edir ki, onları bir yerdə götürüb sındırsın. Gənc çubuqları əlinə alır, ha güc eləyir, tər tökür, sındıra bilmir. Qoca bunu gördükdə deyir: indi çubuqları bir-bir sındır. Gənc çubuqları bir-bir qaldırıb sındırır, bir an içərisində hamısını qırıb yerə tökür...

Drujin susdu... onu maraqla dinləyən Məhəmməd, iri gözlərini qaldıraraq, sakitcə səmaya tamaşa edən Drujindən soruşdu:

– Bəs sonra?

– Sonrası daha nə olacaq? – Qoca heç bir söz demədən yoluna düzəlib gedir... Bəs sən bu məsəli eşitməmisən?

Məhəmməd başını yırğaladı:

– Yox, – dedi.

O, yanındaca yerə düşmüş başı qarsaqlı kösövü əlinə alıb ocağı qurdalamağa başladı. Odlar təzədən közərdi. Məhəmmədin tüklü sifəti, iri dalğın gözləri işıqlandı. Drujin gözlərinin ucu ilə ara-sıra onun qüvvətli çiyinlərinə, yaşıl otun üstünə düşmüş uzun kölgəsinə baxır, qaçağın daxilən həyəcan keçirdiyini hiss edirdi. Bir müddət ocağın başına sükut çökdü. Drujin, nəhayət, sanki öz-özünə danışırmış kimi dilləndi:

– Belədir... təklik hər yerdə ölümə məhkumdur. Adamlar bir-birinə arxalanmadıqda, öküz kimi dal-dala vermədikdə onları yemək bir qurtum su içmək qədər asandır...

Onun sözləri Məhəmmədi fikirdən ayırdı. Bir müddət Drujinə baxıb soruşdu:

– Tək əldən səs çıxmaz, deyirsiniz?

Drujin bu suala dərhal cavab vermədi. Məhəmmədə elə gəldi ki, müsahibi cavab verməyə çətinlik çəkdiyi üçün söhbətin üstündən keçmək istəyir. Lakin bir azdan Drujin mavi gözləri ilə gülümsəyərək dedi:

– Səs çıxmağına çıxar. Ancaq necə çıxar, birini vurub yıxarsan, o birisi onun yerinə keçər. Onu da vurub yıxarsan, başqası yerini tutar. Hamısını bir-bir qırmağa da, əlbəttə, vaxt çatmaz.

– Bəs necə lazımdır? – Məhəmməd maraqla soruşdu – Bir güllə ilə ki, hamısını biçilmiş taxıl kimi yerə sərmək də olmaz.

– Məsələ də ondadır ki, bir güllə ilə hamısını qırıb tökmək mümkün deyil. Gücün qabağına güclə çıxmalısan. Yumruğa yumruqla cavab verməsən, əziləcəksən... buna görə məğlub olmaq istəməyən adam təkliyə deyil, birliyə can atmalıdır...

Məhəmməd bir az fikrə gedib soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Belə çıxır ki, sən yoldaşlarından ayrılandan sonra heç bir şeyə yaramayacaqsan?

Drujin başı ilə onun sözlərini təsdiq etdi:

– Əlbəttə. Mən orada təzə yoldaşlarıma qovuşmasam, heç bir şeyə yaramayacağam. Ancaq mən bacardıqca bunu edəcəyəm. Çünki bu mənim məqsədimdir. Məqsədsiz yaşamaq isə həyatda mümkün deyildir. Məhəmməd uzun, tüklü barmaqları ilə alnını ovuşdurdu və sonra birdən başını qaldırıb soruşdu:

– Başa düşmədim, – dedi, – həyatda məqsəd dediyin şey nəyə yarayır?

– Ona yarayır ki, səni yaşadır. Əgər sənin bir məqsədin varsa, gözlərini yumub əlini həyatdan üzənədək özünü ona həsr etməlisən. Əgər yoxsa, insanın başqa canlılardan heç bir fərqi yoxdur. Sənin özünü götürək, belə bir arzun, məqsədin varmı?

– Əlbəttə var!

– Nədir?

– Mən istəyirəm ki, bizim mahalda qaniçən qəddar bir adam qalmasın.

– Nə yolla? – Drujin maraqla onun gözlərinin içinə baxdı.

– Bu, gün kimi aydındır. Əlbəttə, bununla, – o, əlini yanındaca yerə uzadılmış tüfənginə atdı, – bir-bir dənləməklə.

– Yenə bayaq dediyim söhbətin üstünə qayıtdıq. Zülm eləyənləri bir-bir dinləməklə ancaq tək-tək adamları aradan qaldıra bilərsən. Zülm isə yenə yerində baqi qalacaq. Zülmü kökündən uçurub dağıtsan o zaman, zülm eləyənlərin anaları qara geyər.

Məhəmməd əlini çənəsinə dayayıb fikrə getdi və sonra nəyə isə təəssüflənirmiş kimi dərindən ah çəkdi:

– Belə çıxır ki, – dedi, – mən bu dağlara nahaq çəkilmişəm...

Drujin onun sözünü kəsdi.

– Yox, nahaq çəkilməmisən. Sənin vəziyyətini başa düşürəm, başqa çarən olmayıb, yəqin ki, dözməmisən, əl qaldırmısan.

– Elədir. Kəndin bəyini öldürdüm. Ondan sonra bu dağlarda məskən saldım. Dalımca çox adam saldılar. Bir şey çıxmadı. Axırda özləri yorulub məni bir az dinc buraxdılar.

Drujin iki günün içərisində, mərdliyinə məftun olduğu Məhəmmədin həyatı ilə getdikcə daha yaxından tanış olmaq üçün onun söhbətinə saatlarla qulaq asır, danışarkən onun hər bir hərəkətini həssaslıq və diqqətlə izləyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nəyin üstündə bəyi öldürdün? – Drujin qaçağın qara saqqalına, iri almacıq sümükləri çıxmış tunc rəngli sifətinə, əsl igidlərə xas olan oturuşuna həsrətlə nəzər saldı.

– Nəyin üstündə olacaq? – dedi. – Bəyi nəyin üstündə öldürərlər? – O susdu və üç-dörd il əvvəl baş vermiş hadisəni təzədən xatırladı. – Bizim bu yerlər çaylaqlıqdır. Yağışlar tökəndə sel gəlir, çaylaqlar qaynayıb daşır. Bu zaman su ağacları yerindən qoparır, qayaları uçurur, adamları köçlü-külfətli qabağına qatıb üzüaşağı yuvarladır. Əl-qol atmaq mümkün olmur... – O yenə susdu, elə bil nəyi isə yadına salmağa çalışırdı. – Hə, belə bir gündə bəyin adamları kəndə doluşub xəbər verdilər ki, bəyin qoyunlarını sel aparır, qalxın kömək edin. Hamını çaylağa gətirdilər... mən də onların içindəydim. Bəy çaylağın qırağında durub çığırırdı. Burulan suların arasında başları batıb çıxan qoyunları xilas etmək üçün əmr verirdi. Heç kəs cəsarət edib, suya girmirdi. Çünki onu da qoyunların taleyi kimi, qara bir tale gözləyirdi. Qamçılar işə düşdü. İki nəfəri güclə dartışdırıb suya saldılar. Elə o dəqiqə, sel onları ağzına alıb apardı. Onlar qoyunlara çatmamış gözümün qabağında daşlara dəyib, burulğanda gözdən itdilər. Bəy qəzəblənmişdi. Çünki qoyunlar getdikcə uzaqlaşırdı. Yenə də iki nəfəri güclə suya itələdilər. Onlar da geri qayıtmadı. Mən hirsimdən dodaqlarımı gəmirirdim. Bu dəfə bəy özü kəndlilərdən birini dartışdıra-dartışdıra irəli çəkdi. Onu güclü qolları ilə suya itələmək istəyirdi ki, mən daha özümü saxlaya bilmədim. Qabağa cumub, bəyin qolundan yapışdım. Bəy məni itələdi. Mən arxası üstə yerə sərildim. Ancaq özümü itirmədim. Yerdən iri bir çay daşı alıb bəyin üstünə cumdum. Onu bəyinənginə nə cür ilişdirdiyimi özüm də hiss etmədim. Bəy bağırıb yerə sərildi... ancaq özümü itirmədim. Əlbəttə, elə o dəqiqə gəbərdi. Hamı mat-məəttəl durub baxırdı. Doğrusu, mən də çaşbaş olub qalmışdım. Bəyin adamlarının qəzəbli baxışları mənə zillənməsəydi, bəlkə də tezliklə özümə gəlməzdim. Birdən gözüm bəyin atına sataşdı. Nə vaxt onun belinə sıçradığımı bilmədim... O vaxtdan dağlardayam. O, boz ayğırı görürsənmi, – o bir az aralıda, alaqaranlıqda sakit-sakit otlayan atların içərisində boz ayğırı göstərdi, – bəyin atıdır. İnsafən, çox sədaqətlidir. Heç bəyin özünə oxşamayıb.

Drujin atlara tərəf baxdı. Əvvəlcə, heç nə sezə bilmədi. Gözləri alışandan sonra atlardan ayrılıb, bir az qabaqda, ocağa yaxın otlayan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

boz ayğırın yaraşıqlı başını seçə bildi. At da elə bil, söhbətin ondan getdiyini duyduğu üçün başını bir anlığa yuxarı qaldırıb, iri qara gözləri ilə Məhəmmədə baxdı və yenə otlamağına davam etdi.

– Bu uşaqlar da sonralar mənə qoşuldular. – O, ocaqdan sağ tərəfdə, uzun çuxalarını üstlərinə çəkib yuxuya getmiş iki qaçağı göstərdi. – Hərənin başı bir cür bəlalıdır... Cavandırlar. Bəzən onların halına acıyıram. Deyirəm ki, günahları nədir ki, evlərindən didərgin düşüblər? Nə var ki, ya bəyin suyunu gecə açıb bostanına buraxıb, ya da axırıncı inəyini əlindən alanda bəyin adamını əzişdirib. Bizdə bir inək bütöv bir ailəni dolandırır. İnək getdimi, o ailənin tifağı da dağıldı. – Məhəmməd başını qaldırıb təəssüflə sözünə davam etdi. – İndi sən nə deyirsən ki, nahaq dağlara çəkilmişik?

– Xeyir, mən elə demək istəmirəm.

– Səni başa düşürəm. Yəni gərək, biz öz kəndli yoldaşlarımızdan ayrılmayaq. Onlarla əlbir olaq. Yalquzaq kimi meşələrdə dolaşmayaq. Mən bunları başa düşürəm. Ancaq necə eləyək? Bizim üçün indi bütün yollar bağlıdır. Pristav hər dəqiqə göz-qulaqdadır. Əlinə keçən kimi bizi dara çəkdirəcək. Hərəmizin başına qiymət də qoyublar. Mənim başım üçün əlli qızıl vəd eləyiblər. İndi belə zamanda biz kəndə qayıda bilərikmi?.. qayıtmalı olsaq da əvvəlcə gərək pristavı öldürək.

Drujin gülümsədi:

– Yerində o qədər çiyni poqonlu pristav var ki... Rusiyanın hər tərəfinə baxsan onlara rast gələrsən. Yox, bu çarə yolu deyildir. Siz gərək...

Ağacların dalından eşidilən sürəkli fit səsi Drujinin sözünü ağzında qoydu. Sonra başqa tərəfdən də fit səsi yüksəlib birinciyə qoşuldu.

Drujin həyəcanla soruşdu:

– Bu nədir?

Məhəmməd yerindən tərpənmədən arxayınlıqla:

– Narahat olmayın, – dedi, – bizimkilərdir, şəhərdən qayıdırlar. Sizə paltar gətirmək üçün göndərmişdim.

Bunu deyib o, yenə laqeydliklə gözlərini ocağa dikdi. Bir azdan sarımtıl-qırmızı şəfəqlərlə titrəşən qaranlıqdan üç nəfər qaçağın başı göründü. Onlar ocağa yaxınlaşanda Məhəmməd başını qaldırmadan soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Rəsi, gətirdinmi?

Qucağında bağlama tutmuş olan ucaboylu qaçaq yavaşcadan dilləndi:

– Gətirdim, – dedi.

– Niyə ləngidin?

– Şəhərdə qorodovoylar vurnuxurdular. Gözləməli oldum. Elə bil burunlarına iy dəymişdi.

Məhəmməd başını qaldırıb, onun dediklərinin sanki doğru olub-olmadığını yoxlamaq məqsədi ilə altdan-yuxarı qaçağı süzdü. Qaçaq onun bu kəskin baxışlarına dözə bilməyib, üzünü dərhal yana çevirdi. Onların qamətdə, sifətdə bir-birinə oxşarlığı Drujini heyrətə saldı. Doğma qardaşlar da bir-birinin beləcə eyni ola bilməzdi. Məhəmmədin başı qırxıq olmasaydı kənar bir göz onları, yəqin ki, bir-birindən çətinliklə ayırd edə bilərdi. Qaçaq bağlamanı ocağın yanında Drujinin qabağına qoydu. Məhəmmədin yanından ehtiyatla keçib şirin yuxuda olan yoldaşlarının yanına getdi. Drujin onun ayağı ilə yoldaşlarının böyrünə vurub onları yuxudan oyatdıqlarını gördü. Yatanlar ayıldılar və aralarında Rəsiyə yer elədilər. Bir azdan onların arasında yuxulu səslər eşidildi. Qaçaqlar nəyin üstündə isə mübahisə edir, pıçıldaşırdılar. Drujin gözlərini onlardan çəkib, qabağına qoyulmuş bağlamanı açmağa başladı. Məhəmməd gülümsəyərək dedi:

– Bu paltarları geyəndən sonra səni bizim adamlardan heç kəs ayıra bilməz. Deyim ki, bizim kəndlərdə də sənin kimi sarı adamlar tək-tük tapılar. Onların gözləri də səninki kimi gömgöydür.

Drujin də dodaqucu gülümsəyib, bir söz demədi. Bağlamanı açıb oradan nimdaş bir köynək və bozarmış bağlı qara bir şalvar çıxartdı. Sonra ayağa qalxdı, onları öz boyuna ölçdü. Köynəyin qolları çox uzundu, şalvar isə ona qısa gəldi, balaqları topuğundan yuxarıda qalırdı:

– Hə, yarayırmı? – Məhəmməd yarızarafatla soruşdu.

– Əlbəttə, yarayır. Ancaq köynəyin qollarından kəsib şalvarın balaqlarına yamamaq lazım gələcək.

Məhəmməd gülümsədi. Drujin soyunub paltarları əyninə çəkdi. Doğrudan da, qəribə, gülməli bir görkəm aldı. Məhəmməd özünü gülməkdən zorla saxlaya bildi. Drujin bunu hiss etdi və zarafatla sanki öz-özünə təsəlli verirmiş kimi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Eyib etməz, – dedi. Uşaqlıqda da şalvarım həmişə qısa olardı. Öz köynəyim olmazdı. Buna görə ruhani atamın köhnə qara köynəyini geydiyimdən qolları həmişə dizlərimə dəyərdi.

O, yumşaq küləşin üstündə o yan-bu yana gəzişərək, üst-başına nəzər saldı.

– Hə, mən hazıram. Nə vaxt yola düşəcəyik? – deyə ciddi bir tərzdə soruşdu.

Məhəmməd başını qaldırdı, sayrışan ulduzlara, ağ zolaq kimi uzanan kəhkəşana baxdı. Ağacların başı sakit-sakit yuxuya getmişdi. Gah sağında, gah da solunda qarışıq heyvan bağırtıları birdən-birə eşidilir və dərhal da susurdu.

– Bir azdan, – dedi. Bəlkə bir stəkan çay içəsən... Yolun çox uzundur. Dağlı-dərəli. Susayarsan.

Drujin çaydan imtina etdi. Qaçaqların arasında baş verən mübahisə qızışmışdı. Onların indi bərkdən danışmasına Məhəmməd də qanrıldı. Bir az qulaq asdıqdan sonra hirslə yerindən qalxıb, onlara tərəf getdi. Onun yaxınlaşmasını görən Rəsi tez ovcunda tutduğu şeyi cibinə dürtdü. Lakin bu Məhəmmədin gözündən yayınmadı. O, Rəsinin başı üstündə durub yavaşcadan dedi:

– Ver bəri!

Rəsi çəkinə-çəkinə ayağa qalxdı. Əvvəlcə, vermək istəməyərək, cürbəcür bəhanələr gətirdi.

– Yaylıqdır, çayın qırağından tapmışam. Yəqin ki, arvadlar paltar yuyanda yaddan çıxarıb qoyublar. Mahiyyəti heç bir qəpiyə dəyməz.

Məhəmməd onun dediklərini sanki eşitmirmiş kimi gözlərini dik Rəsinin gözlərinin içinə zilləyib deyirdi:

– Bəri ver!

O biri qaçaqlar da ayağa qalxdılar. Hamı təşviş içində idi. Məhəmmədin gözündən heç bir şeyin yayınmadığını bildikləri üçün bayaqdan bəri Rəsiyə məsləhət görürdülər ki, özü öz xoşu ilə hər şeyi açıb Məhəmmədə desin. Rəsi isə bunu etmək istəmirdi. Məhəmmədi də şübhələndirən onların məhz bu söhbəti idi.

– Bəri ver! – Məhəmmədin səsi təkrar eşidildi.

Rəsi qorxu içində əlini cibinə atıb bir çəngə pul çıxartdı. Bunu görcək Məhəmmədin gözləri bərəldi. Əlini uzadıb, qaçaqlardan birinin tüfəngini aldı. Çaxmaq şaqqıldadı. Tüfəngin lüləsini Rəsinin sinəsinə dirədi. Drujin bunu görən kimi, yüyürüb gəldi və əlini uzadıb, tüfəngin lüləsini Rəsidən uzaqlaşdırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən nə edirsən? – dedi.

Məhəmmədin qolu yanına düşdü. Onun həlqələnmiş gözləri qəzəblə yanırdı. Yanında durmuş Drujinə tərəf çevrildi:

– O, adam soymuşdur, – dedi, – başqasının boğazından tikəsini oğurlamışdır.

Qəzəbindən boğazı qəhərləndi. Gözlərini Rəsidən ayırmadan, yaralanmış heyvan kimi qıvrıla-qıvrıla qaldı. Heç kəs dinmirdi. Drujin də sual verməyə cəsarət etmirdi. Bir müddətdən sonra o, sağ əli ilə meşədən çıxan yolu göstərib hündürdən çığırdı:

– Rədd ol, – dedi, – bu yerlərdə bir də ayağının izi-tozu qalmasın. Qanın halaldır. Bu kişi olmasaydı, səni öz əlimlə it kimi öldürərdim...

Rəsi ağarmış halda durub dinmirdi.

– Niyə durmusan? – Məhəmmədin səsi təkrar eşidildi. – Başqasının cibinə əl atanın aramızda yeri yoxdur. Bu namussuzluqdur. Rədd ol deyirəm... – O, təzədən qəzəbləndi və başı ilə qaçaqlara işarə etdi: – Tüfəngini alın, özünü isə ötürün.

Qaçaqlar tez onun tüfəngini əlindən aldılar. Ciblərini axtardılar. Sonra isə qabaqlarına qatıb taladan uzaqlaşdılar.

Məhəmməd gözlərini hələ də onun arxasından çəkə bilmirdi. Onlar ağacların arasında gözdən itdikdə Məhəmməd burnunun altında mızıldandı:

– Anadan əmdiyin süd burnundan gəlsin!

Yarım saatdan sonra qaçaqlar qayıdıb gəldilər. Məhəmməd bir gün əvvəl, Bəhramın gizlin yollarla ona çatdırdığı pasportu arxalığının cibindən çıxarıb Drujinə uzatdı:

– Bu sənin pasportun... İndi gedə bilərsən. Biz də yerimizi dəyişməliyik. Oğrunun əlindən hər bir şey gələr. Nə bilirsən bizi satmayacaq.

Qaçaqlar ocağı keçirdilər. Talada həyat sanki birdən-birə söndü. Dinməz-söyləməz atları yəhərləyib, yarım saatdan sonra yola düşdülər. Onlar Drujini Gürcüstana ötürməli idilər.

## V fəsil

Şəhərə bir neçə kilometr qalırdı. Faytonçu iri qoz ağaclarının kölgəliyindən düzənliyə çıxan kimi atların cilovunu çəkib faytonçu iki gün qabaqkı yağışdan əmələ gəlmiş palçığın içində saxladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Burnunun altında nə isə mızıldanaraq yerə atıldı. Ətrafa ötəri nəzər saldı. Sonra faytonun dalına keçdi və toza batmış uzun çuxasının ətəklərini qucağına toplayaraq arxa çarxlara tərəf əyildi. Bir xeyli baxdı, sonra elə oradaca, palçığın içində çömbəlib oturdu. Faytonun içindəki adamların üzünü görmək mümkün deyildi. Snoridən çıxandan bəri örtüyü qaldırılmış faytonda həmişəki kimi yenə də ancaq iki cüt ayaq görünürdü. Sürməyi ingilis şalından şalvar geymiş kişi ayağını bir-birinin üzərinə aşırmışdı, şalvarının ta balağınadək tikilmiş ensiz mavi kantdan çinovnik olduğunu müəyyən etmək çətin deyildi. Qadının isə nazik cansız ayaqlarına çəkdiyi ipək corab yolun tozundan öz rəngini tamam dəyişib bozarmışdı. Heç biri dinmirdi. Hərdənbir kişinin içəridə çəkdiyi papirosdan göy tüstü qalxmasaydı uzaqdan baxanlar onların bütün yol uzunu mürgülədiyini güman edərdilər.

Günün dağların arxasına çəkilməsinə hələ çox vardı. Bir az sağda görünən fındıq kolluqları qoca ağacların yosunlu gövdələri arxasında alçaq təpələr kimi sükuta dalmışdı. Çürümüş yarpaqlardan və kolluqların dibindəki lilliklərdən kəsif üfunət qalxırdı.

Faytonçu Həsən uzun qıçları üstə çöküb hələ də çarxlara baxırdı. Başını bulayır, burnunun altında hey mızıldanır və tez-tez oğrun nəzərlərlə teleqraf dirəyi arxasında olan cökə pöhrəliyinə göz qoyurdu. Bir neçə dəqiqədən sonra həmin bu yerdə dirəyin böyründə başıaçıq, əlində uzun qamçı tutmuş bir oğlan göründü. Belinə bağladığı köhnə uzun kəmərin bir ucu yerlə sürünürdü, oğlanı görən kimi faytonçunun üzündən ani bir razılıq ifadəsi ötüb keçdi. Oğlan böyründən asılmış iri naxırçı çantasını ovuşdura-ovuşdura durub gözləyirdi. Uzun Həsən sərnişinlərin bu zığ palçıq içində faytondan yerə enə bilməyəcəklərinə xatircəm olduğu üçün başı ilə oğlana işarə elədi.

– A bala, Əziz, niyə kənarda durub baxırsan, – deyə qoca faytonçu xırıltılı səslə oğlana tərəf çığırdı. – Gəlib kömək eləsənə. Bu yay da sınmağa vaxt tapdı da!

Oğlan cəld yerindən tərpəndi və iri çarıqlarını palçığın içində şappıldadaraq irəli gəldi:

– Nə olubdur ki, Həsən əmi, – dedi və əyilib faytonçunun baxdığı dal çarxlara nəzər saldı.

Faytonçu Həsən ürəyini boşaltmaq istəyirmiş kimi təzədən deyinməyə başladı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə olacaqdır, – dedi, – heç insafdır bu uzun yolu xatasız gələsən, çathaçatda üç yayın birdən sınsın? Eh, bu da bizim peşəmiz. Bütün ömrüm elə yollarda keçir. Gəl, oğul, gəl. Bu məftili birtəhər yaylara sarıyaq. Heç olmasa özümü şəhərə çatdırım.

Əziz bir söz demədən faytonun dalına keçdi və dal çarxların yanındaca çömbəlib oturdu. Faytonçu əlindəki paslı mis məftili oğlanın köməyi ilə salamat yaylara sarımağa başladı. Uzaqdan pöhrəliklərin dalından inək və buzov böyürtüsü gəlirdi.

– Mal-qara necədir? Qarınlarını doydura bilirsənmi? – deyə faytonçu diqqətlə oğlana baxıb soruşdu.

– Pis deyil, bu yağışdan sonra çöldə ot dizə qalxıb.

– Ölən-itəni olmayıb ki?

– Yox.

– Bizim arvadın da qaşqa kəlçəsi yəqin sağ-salamatdır? Uzun Həsən naxırçı oğlanın lap böyründə oturmasına baxmayaraq, sərnişinləri şübhələndirməməkdən ötrü bərkdən-bərkdən danışırdı.

– Deyirsən şəhərdə təzə xəbər yoxdur, hə?

– Yoxdur.

Faytonun içərisində oturan sərnişin bərkdən öskürdü və sonra boğazını arıtdı. Örtüyün altından papiros tüstüsü qalxdı. Görünür ki, kişi faytonçu ilə oğlanın söhbətinə mürgüdən ayılmışdı. Onun sinədən gələn xırıltılı səsi eşidildi:

– Nə olub? Niyə durmuşuq?

Uzun Həsən başını qaldırdı:

– Ağa, yayı sındırmışam, – dedi. – Darıxmayın, bu saat hazır olacaq.

Sərnişin daha heç bir söz demədi, faytonçu da dinməz-söyləməz öz işinə davam etdi. O, paslı mis məftili yaylara dolayıb qurtardı, sonra sağına, soluna boylandı, tez çarxların arasından, oxdan asılmış kiçik saman torbasının ağzını açdı. Əlini salıb samanı qurdaladı. Oradan bir yığın bükülü kağız çıxarıb naxırçı oğlana verdi. Oğlan da tez onları çantasına qoydu.

Faytonçu əyilib yavaşcadan onun qulağına pıçıldadı:

– Fayton yola düşənədək yerindən tərpənmə, biz aralanandan sonra qalxıb gedərsən.

Bunu deyib o, əllərinin palçığını uzun çuxasının ətəyinə sildi və yerinə qalxıb cilovları dartdı, fayton yerindən qopdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əziz də bir azdan çantasını sahmana salıb yoldan çıxdı. O yenə göründüyü yerdə teleqraf dirəyinin arxasındakı cökə pöhrəliyində gözdən itdi.

* * *

Hava qaralırdı. Faytonçu fənərlər yandırmağa tənbəllik edirdi. Şəhərin girəcəyindəki dərə-təpəli yolda köhnə fayton bərk silkələnməyə başladı. Çarxlar hər dəfə çuxura düşdükdə fayton böyrü üstə əyilir, yan çarxlar az qala havadan asılı qalırdı. Bu vaxt arxadan sərnişin xanımın əsəbi səsi eşidilirdi. Qoca faytonçu isə özünü eşitməməzliyə vurur, şəhərə tez çatmaq üçün atları qovurdu.

Sərnişin xanımın canı boğazına yığılmışdı. O, Snoridən buraya kimi əri ilə ancaq bir neçə kəlmə söhbət etmişdi. İndi isə elə bil qızışır, əsəbiləşir, kəskin sözlərlə öz narazılığını ərinə bildirirdi:

– Mən sənə dedim ki, razılıq vermə! Suxumi kimi yeri qoyub buraya gələnə nə deyərlər? Ağlı olan da buna razı olardımı? – O, qrammofon kimi sözləri bir-birinə peyvənd edib ərinin üzünə çırpırdı.

Əri isə dinmirdi. Bundan arvad daha ürəklənir və azca kəkələyə-kəkələyə səsini ucaldırdı.

– Hələ Allah bilir şəhərin özü necədir? – Vay mənim əsəblərim, heyif mənim əsəblərim. Bu yerlərə əsəblərim davam gətirərmi? Gözəl dəniz havasından sonra bu dərələrdə mənim ürəyim partlayacaqdır. Sənə nə var ki, sinəni orden ilə bəzəyəcəklər, mənimsə əsəblərim əldən gedir... Ah, mənim əsəblərim! – Arvad getdikcə qızışırdı. – Mən buna lap məəttəl qalmışam, bütün Tiflisdə başqa bir adam tapılmadı, yəni yaxşı yer olsaydı heç səni göndərməzdilər. Eşitdin ki, deyirlər hər gün şuluqluqdur. Potyomkinçilərlə Rusiyada bacarmadılar, sən bacaracaqsan?

Kişinin səbri tükəndi. O, arvadının həddini aşdığını, bəlkə də danışılması lazım gəlməyən məsələləri açıb-tökdüyünü gördükdə hirslə dedi:

– Yaxşı, bəsdir. Hər sözün yeri var, bu da sənin üçün əsəblərin deyil ki, bütün dünyaya car çəkəsən. Kişinin iynəli sözləri, arvadına qəzəblənməsi heç bir nəticə vermədi. Arvad getdikcə daha da hirslənir, əsəbiləşdiyindənmi, ya faytonun içinə dolan tozdanmı boğazı qəhərlənirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ərlə arvad ara verdikdə faytonçunun kədərli zümzüməsi aydın eşidilirdi.

Şəhərin üzərinə qatı qaranlıq çökmüşdü. Qabaqda, küçələrin tinində tək-tük yandırılmış fənərlərin zəif işığı göründü. Darısqal küçələrdə faytonu sürüyüb aparan atlar tər içində idi. Şəhərin baş küçəsinə burulanda Uzun Həsən arxaya tərəf çevrilib soruşdu:

– Ağa, haraya buyurdunuz sürüm?

Sərnişinin yoğun səsi eşidildi:

– Pristav Kukiyevin evinə.

Bir neçə dəqiqədən sonra fayton şəhər pristavının yaşadığı ikimərtəbəli, şəbəkə balkonlu təzə binanın qabağında durdu. İçəridən 11–13 yaşında başıaçıq, sarışın bir oğlan uşağı faytonun səsinə bayıra çıxdı.

## VI fəsil

Faytonçunun canı qaradinməz sərnişinlərdən qurtardı, sinədolusu rahat nəfəs aldı. Yorğun atları şəhərin baş küçəsi ilə yuxarıya, evinə tərəf sürdü.

Erməni kilsəsinin qabağında çox qələbəliqdi, adamlar axşam duasından qayıdırdılar. Fənərləri yandırmağa tənbəllik etdiyindən o, hündürdən çığıraraq meydançadan ötənləri xəbərdar edirdi. Təkcə atlar deyil, özü də bərk yorulmuşdu. Gecəni yuxusuz qaldığından başı çiyinində durmurdu. Bərk də acmışdı. Yol uzunu ağzına bir tikə vurmamışdı, dili-dodağı quruyub elə bil palçıq bağlamışdı. Darvazaya çatdıqda haradansa gələn təzə çörək iyi onu ilan kimi çaldı: “Yəqin Vəsilə təndir salıb”, – deyə fikirləşdi və ağzını iştahla marçıldadaraq qozladan yerə tullandı. Darvazanı açdı, atları içəri sürdü. Ancaq qabağına çıxan olmadı. Atların qayışlarını açıb rahatladı. Tövlənin ağzındakı vedrələri əlinə alıb, məhəllədəki bulaqdan su gətirməyə getmək istəyirdi ki, arvadı içəri girdi.

– Gəlib çıxdınmı, a kişi? – deyə həyəcanla soruşdu.

– Gəlib çıxmamış yolda ağac olub bitməyəcəkdim ki, – o narazı halda vedrələri cingildədərək darvazaya tərəf yönəldi, – gün haradan çıxıb ki, belə nigaran qalmısan?

– Kim olsa idi, nigaran qalardı.

– Nə olub ki? – deyə faytonçu ayaq saxladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu gün qorodovoy iki dəfə gəlmişdi, səni soruşurdu.

– Qorodovoy! – O, vedrələri yerə qoydu və təəccüblə arvadına baxdı. – Mən onların nəyinə lazımam?

– Mən hardan bilim? Nigarançılıqdan heç bilmədim günü necə axşam elədim, dedim bəlkə Murtuz bir şey bilir. Evlərinə getdim, onu da tapa bilmədim. Arvadı dedi ki, Nuxa yolunda faytonun çarxını sındırıbdır. Bəlkə bu gün heç gəlmədi.

Uzun Həsəni fikir bürüdü. Hətta aclığı da yadından çıxdı.

– Bəs nə dedi? Başqa bir zad soruşmadı?

– Yox, elə soruşdu ki, ərin gəlib çıxmayıb?

– Sonra?

– Sonra, ikinci dəfə gəldi. Yenə soruşdu. Dedim ki, gəlməyib. Həsən darvazanın ağzında durub fikirləşirdi: "Nə ola bilər? Nə üçün məni axtarırlar?" Birdən vedrələri arvadına uzatdı:

– Sən atları sula, mən bu saat qayıdıram.

O, tövlənin qapısı ağzında çoxdan atılıb qalmış paslı fayton çarxını çiyninə alıb tələsik həyətdən çıxdı. Qaranlıq küçədə gözünə heç kəs dəymədi. Qorodovoyların gözündən yayınmaq üçün ancaq dalda küçələrlə keçib gözdən itdi.

Xoşbəxtlikdən ay buluda girmişdi. Nuxa tərəfdə göyün üzünə getdikcə sıx buludlar yayılır, göy daralıb sanki aşağı enirdi. Həsən körpü başına çatıb ayaq saxladı. Uzaqdan dəmirçixananın işığı göründü. Faytonçu dərindən nəfəs aldı: – Yaxşı ki getməyiblər, – dedi.

Dəmirçixananın iri qapısından içəri girdikdə Bəhram didilib bir neçə yerdən dəlik-dəlik olmuş dəri önlüyünü çıxarıb mıxdan asırdı. Getməyə hazırlaşırdı. Şüşəsi his çəkib, boğazlığı tamamilə sınmış yeddilik lampanın işığında Həsən Bəhramın tərdən işıldayan dolğun gənc sifətindəki təbəssümü görüb sakitləşdi.

– Həsən kişi, deyəsən, bu gün yükün yamanca ağır olub hə, eləmi? Yazıq çarx da davam gətirməyib.

Faytonçu alaqaranlıq dükanın hər tərəfini gözdən keçirdi. Bəhramdan savayı heç kəsin olmadığını yəqin etdikdən sonra yavaşcadan pıçıldadı:

– Yox, yüküm ağır deyildi, – dedi. Sonra udqunub daha da yavaşcadan, hətta azca Bəhrama tərəf əyilib əlavə etdi. – Mən başqa şey üçün gəlmişəm.

Bəhram əlini onun çiyninə qoyub zarafatla:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Eh, Həsən kişi, – dedi, – gəl düzünü danışaq, sənin bu dəfəki yükün həmişəkindən çox ağır olub. Nahaq yerə gizlədirsən. Çarx boş yerə sınmaz.

Bəhram gülümsəyə-gülümsəyə öz sözündə inad edir, faytonçu da onu inandırmağa çalışırdı ki, yükü əksinə heç zaman bu dəfəki kimi yüngül olmamışdır.

– Bala, bu köhnə çarxdır, əlimə keçdi gətirdim. Yüküm isə bu dəfə lap yüngül idi. Cəmi iki nəfərdi. Özləri də mənə elə gəldi ki, ər-arvaddırlar. İkisi də mənim kimi quru balığa oxşayırdı. Onları bir-birinə calasaydın heç bir adam da çıxmazdı.

Bəhram tutduğunu buraxmırdı:

– Yox, Həsən kişi, inanmıram, mənə deyiblər ki, yükün çox ağırmış.

Həsən kişi onun təkidlə dediyi sözlərdən baş açmayaraq gözlərini döyəcləyə-döyəcləyə qalmışdı. Bəhram qollarını uzadıb faytonçunun çiyinlərini sıxdı və bərkdən güldü.

– A kişi, – dedi, – heç bilirsən, sən kimi gətirmisən?

Həsən təəccüblə çiyinlərini çəkdi:

– Yox!

– Sənin bu gün gətirdiyin sərnişin məşhur xəfiyyə başçısıdır. Bizim fəaliyyətimiz Tiflis jandarm idarəsinin görünür ki, yaman təşvişə salıbdır. – Bəhram gülümsəyib əlavə etdi: – Ancaq heç *zərəri yoxdur, fikir çəkmə, bombası da öz altında gəlib.*

Həsən Bəhramın faytonun altında gətirdiyi vərəqlərə işarə etdiyini başa düşdü.

– Yaxşı, sonra nə var, nə yox. Quşları yolda uçurtdunmu?

– Uçurtdum.

– Sağ-salamat?

– Sağ-salamat!

– Bəs niyə belə həyəcanlısan?

Həsən kişi udqunub dodaqlarını yaladı.

– Bu gün evə iki dəfə qorodovoy gəlib, məni soruşub.

Bəhramın qaşları çatılıb alnında düyünləndi. Gözlərindəki bayaqkı fərəh birdən-birə çəkildi, üzü qayğılı ifadə aldı. Həsən kişi onun işıldayan yanaqlarına, narahat nəzərlərinə baxır, oğlu yerində olan bu gəncin deyəcəyi hər bir sözdə təskinlik, ümid tapacağına



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

inanırdı. Qoca faytonçuya elə gəlirdi ki, insan gözlərində sevinclə qüssənin belə ani şəkildə bir-birini əvəz etməsinə, gənclik ehtirası ilə parıldayan gözlərdə onların belə amansız çarpışmasına heç zaman, bəlkə də bütün ömrü boyu rast gəlməmişdir.

Bəhram haçandan-haçana fikirdən ayılıb qeydkeşliklə faytonçunun qolunu sıxdı.

– Sən narahat olma, Həsən kişi, onlara sən yox, sənin gətirdiyin sərnişin lazımdır. Ona görə də, əl-ayağa düşüblər. Madam ki, onu gətirib çıxarmısan, daha nigarançılıqları qurtarıb. Səni indi itirib-axtaran olmayacaq. Arxayın ol.

O, Həsən kişinin qapı ağzında divara dayadığı çarxı qaldırıb ona uzatdı:

– Çarxı da gec gətirmisən, qayırmağa vaxt olmayacaq, geri apara bilərsən.

O bu sözləri deyib gülümsədi. Sonra keçib çırağı söndürdü, bayıra çıxdıqdan sonra iri girvənkəlik qıfılı qapıdan asıb bağladı. Körpü başınadək birgə gəldilər. Yolda faytonçu gətirdiyi sərnişinlərin qaradinməz olduqlarını və hətta arvadın öz ərinə necə çımxırdığını da Bəhrama danışdı. Həsən kişi danışdıqca Bəhram gah fikrə gedir, gah da onun məzəli söhbətindən özünü saxlaya bilməyib gülümsəyirdi.

* * *

Göyün üzünü qara buludlar bürümüşdü. Bircə dənə də ulduz görünmürdü. Tala çayı tərəfdən xoş sərinlik qalxıb şəhərin boş küçələrinə yayılırdı. Əziz mal-qaranı həyətlərə qovduqdan sonra evə gəldi. Nənəsinin bişirdiyi horradan bir-iki qaşıq ağzına apardı. Lakin buludların getdikcə sıxlaşdığını görüb, narahat oldu, çantasını tez çiyninə atıb həyətə çıxdı.

Onların məhəlləsində həmişəki kimi yenə də, göz-gözü görmürdü, döngələr qapqaranlıq bir pərdəyə çulğalanmışdı. Bu tərəflərdə yerli-dibli fənər yandırılmırdı. Şüşələrini toz və his basmış pəncərələrdən küçəyə yayılan zəif işıqda, evlər arası daş-kəsəkli yollarda bəzən ayağın altını ancaq görmək mümkün olurdu. Bu gün isə tərs kimi mığmığadan yaxa qurtarmaq üçün evlərin heç birində işıq da yandırılmamışdı. Oğlan birtəhər əlhavasına irəliləyib, iki fənərlə işıqlandırılan şəhər meydançasına çatdı. Nəzəri cəlb elə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məmək üçün çinar ağaclarının kölgəsi ilə dövrə vurub kilsənin dal tərəfinə keçdi. Axşam duası qurtardığı üçün kilsənin işıqları söndürülmüşdü. Qoşa zənglər qaranlıqda ağaran zəng qülləsinin təpəsinə sancılıbmış kimi sakitcə dururdu. Beşik kimi yırğalanaraq şəhəri vaxtlı-vaxtsız yeknəsəq və qulaqbatırıcı səslərlə dolduran bu zənglər indi elə bil heç zaman hərəkətə gəlib yırğalanmamış, vurulub çalınmamışdı.

Əziz Qala düzünün sıldırım yoxuşuyla qalxdı. Üzünə dağların sinəsindən qopmuş sərin külək vurdu. Aşağıda çinarların başı xışıldadı. Oğlan geriyə qanrılıb, aşağıya baxdıqda meydanda kimin isə hərəkət edən uzun kölgəsini gördü. Bunun ardınca ağır addım səsləri eşidildi. Əziz gözlərini qıyıb bir də diqqətlə baxdı. Qorodovoyun iri bədəni göründü. O, meydançada gəzişirdi.

Əziz onun gözündən yayınmaq üçün yerindən qopub, birnəfəsə kolluqlara sarı cumdu. Burada, Qala düzündə də qaranlıqda ətraf çətin seçilirdi. Təkcə sol tərəfdə, qalanın aşağıya tərəf uzanan dik bürclü divarı qara parça üzərinə sərilmiş ağ bir zolağı xatırladırdı. Başqa şeylərsə seçilmirdi, bir-birinə qaynayıb-qarışmışdı. Aşağılardan it hürüşməsindən, bəzən də qıy vurub uşaqları çağıran qadın səslərindən başqa bir şey eşidilmirdi. Əziz kolluqların səmtiylə sağ tərəfə irəliləməyə başladı. Qaranlıq olsa da Qalanın dibi ilə getmək xatalı idi. İçəri tərəfdən divarın üstü ilə gəzişən keşikçilər onu görə bilməsə də, yaxınlaşan canlı bir məxluqun nəfəsini sakit, xamuş gecədə duymaq o qədər də çətin deyildi. Seyrək moruq kolluqlarının dibi ilə getmək hər ehtimala qarşı daha əlverişli idi. Əziz belə də etdi. Çox keçmədi ki, o özünü Qalanın birinci darvazasına çatdırdı. Bu tərəfdə kolluq tamam seyrəkləşirdi. Yaxındakı kola otuz addıma qədər məsafə vardı. Əziz Qala divarı üstündə keşikçini görmədikdə sürətlə sıçrayıb yaxındakı kolluğa qaçdı. Buradan Qala divarına lap az qalırdı. İndi oturub keşikçinin ikinci bürcə tərəf ötüb-keçməsini gözləmək lazımdı. O, yerə uzandı və gözlərini Qala divarına zillədi.

Yarım saatdan artıq vaxt keçmişdi. Əzizin gözləri bir nöqtəyə baxmaqdan sulanır, boğazı elə bil quruyurdu. Budur, birdən boz səmada qalanın divarı üzərində keşikçinin kölgəsi göründü. O, Əzizin gizlənmiş olduğu kolun bərabərinə çatıb dayandı. Oğlan gözlərinə inanmırmış kimi kirpiklərini çaldı: "Niyə durdu, yoxsa məni görmüşdür?" Lakin kölgə yenə hərəkətə gəldi və ağır-ağır sovuşub sağ tərəfə keçdi. Əziz onun bir qədər uzaqlaşmasını gözlədikdən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sonra cumub divara yaxınlaşdı. Arxasını divara söykəyib nəfəsini içərisinə saldı, divarın üstündən eşidilən ağır addım səsləri tamam eşidilməz oldu. O yavaş-yavaş irəliləyərək Qala divarının ovulmuş, ağzı kəsək daşla hörülmüş çaxçasına yaxınlaşmışdı ki, sağ tərəfdəki quru yataqlı dərədə boğuq bir gurultu əks-səda verdi. Bürclərdən daşlar qopub bir-birinin dalınca dərənin təkinə yuvarlandı. Durduğu yerdə Əzizin bədəni ürpəşdi, o vaxtı itirmədən tez geriyə dönüb, yenə kolluğun dalına uzandı. Çox keçmədi ki, dərə tərəfdəki bürcün ətrafında çınqıllıq xırçıldadı. Onun üstü ilə kimsə addımlayırdı. Əziz nəfəsini çəkib gizlətmişdi. Bir azdan bürcün dibi ilə, aşağıdan-yuxarıya bir adamın qalxdığı göründü. Oğlanın bədənini titrəmə bürüdü. Yad adam irəliləyib bürcdəki çaxçanın yanında durdu. Əyilib düzəldi, bir xeyli müddət qurdalandıqdan sonra kibrit yandırdı və təzədən çaxçanın yanında xeyli vurnuxdu. Sonra, görünür ki, bir şey tapmadığından geri qayıdıb gəldiyi yolla da aşağı endi. Yenə də dərədə boğuq əks-səda eşidildi. Bir azdan sonra isə tam bir sakitlik çökdü. Tək-tük atan yağış damcılarından otlar və kollar xəfifcə xışıldayırdı. Uzaqlarda tez-tez ildırım çaxsa da göyün gurultusu eşidilmirdi. Əzizin sifətinə iki-üç damcı yağış səpələndi. Oğlan gördüklərinə inanmırmış kimi, oturduğu yerdən tərpənmək istəmirdi. Qala divarındakı bu çaxçanı və onun orada tez-tez gizlətdiyi vərəqələrin yerini bir onun özündən, bir də yaxşı tanıdığı alçaqboylu arıq soldatdan başqa heç kəs bilmirdi. Bəs gecəyarısı oğrun-oğrun çaxçaya sürünən uzunboylu bu adam kimdi və buraya gəlməkdə məqsədi nədir? Yoxsa onların işindən xəbər tutan olmuşdur? Beş-altı gün qabaq Əzizin öz əli ilə çaxçada gizlətdiyi vərəqələri də bəlkə alçaqboylu soldat deyil, bu gecə oğrusu götürmüşdür. Əziz öz-özlüyündə düşündüyü bu ehtimala inanmadı. Çünki belə bir şey olsaydı, soldatlar tez əhvalatı Bəhrama xəbər verərdilər. Gecə oğrusu, yəqin ki, bu yaxınlarda onların izinə düşmüşdü. Əziz bu gün faytonçu Həsənin ona verdiyi vərəqləri çaxçada gizlətməyə macal tapmamasına çox sevindi. Əgər on-on beş dəqiqə irəli düşüb onları çaxçaya qoymağa imkan tapsaydı, yəqin ki, onun hamısı tanımadığı o gecə oğrusunun əlinə keçəcəkdi. Evdən gec çıxmasına sevindi.

Oğlan dura bilmədi. Gördüklərini xəbər vermək üçün sürünə-sürünə kolluqların dalından çıxıb, keşikçinin gözünə görünmədən qaranlığın içində gözdən itdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, Bəhramgilin həyət qapısını döydükdə yağış əməlli-başlı bərkimişdi. Qapını Bəhram özü açdı, başdan-ayağa islanmış Əzizi gördükdə təəccübləndi və onu tez içəri çağırdı.

– Nə olub? – soruşdu.

Əziz təngnəfəs idi, onun sualına dərhal cavab verə bilmədi. Qırıq-qırıq nəfəs alaraq Qala düzündə gördüklərini tələm-tələsik Bəhrama danışdı. Bəhram onun sözlərindən həyəcana düşdü. Gözləri qeyri-ixtiyari olaraq oğlanın belindən asılmış yamaqlı çantaya sancıldı.

– Səndəkilər yerindədirmi?

Oğlan başı ilə işarə edərək çantadakıların sağ-salamat olduğunu bildirdi.

– Yerindədir. Mən onları çaxçaya qoymaq istəyirdim ki, haman adamın yaxınlaşdığını gördüm, tez kolun dalında gizləndim.

Bəhram onların izinə düşüldüyünü hiss etdi. Gec deyilkən tədbir görülməliydi. Buna görə heç olmazsa bu gün gətirilmiş vərəqələri xilas etmək üçün etibarlı bir yer düşünüb tapmaq lazım gəlirdi.

– Bura gələndə səni görən olmadı ki?

– Yox, küçədə məndən başqa heç kəs yoxdu. Gələ-gələ dönüb dala baxırdım.

Bəhram fikrə getdi, vərəqələrin qoyulduğu çaxça yad gözləri özünə cəlb edibsə, elə bu gecə, kim bilir, başqa hadisələr də baş verə bilərdi. Axşamüstü faytonçu Həsənin təşvişə düşdüyünü də, o indi öz-özlüyündə haqq qazandırırdı. "Bəlkə doğrudan da bir iş olub, xəbərimiz yoxdur!" Bəhram vaxtı itirmədən Əzizi gecə ikən Lalənzargilə göndərdi və vərəqələri ona verməyi tapşırdı. Eyni zamanda Əzizlə şərtləşdilər ki, əgər o, vərəqələri sağ-salamat Lalənzara çatdıra bilsə, qayıdan baş mütləq Bəhramgilin qapılarından zümzümə edə-edə keçsin.

Əziz getdi, Bəhram işığı söndürüb yatağına uzandı. Əzizin zümzüməsini eşitmək üçün evin qapısını açıq qoydu.

*Vaxt keçirdi... həyət-bacaya, küçəyə sükut çökmüşdü.* Bəhram yataqda dirsəklənib, qaranlıqda papirosun odunu közərdə-közərdə Əzizin zümzüməsini gözləyirdi. Küçədən isə səs-səmir eşidilmirdi. Bəhramın zənnincə Əziz çoxdan gəlib qapıdan ötməli idi. "O, niyə geciksin? Başında qəza-qədər olmaya?" Nigarançılıq onu narahat



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etməyə başladı. Anası qaranlıqda oğlunun tez-tez közərən papirosunun işığını görüb soruşdu:

– Bala, niyə yatmırsan? Yoxsa bir yerin nasazdır?

Bəhramın səsi yavaşcadan eşidildi:

– Arvad, heç yerim nasaz deyil, – dedi. – Yat, nigaran qalma.

– Bəs niyə yatmırsan?

– Elə-belə... Yuxum gəlmir...

Ana həmişəki kimi oğlundan ağıllı-başlı bir cavab almadığından dodağının altında öz-özünə mızıldandı. Yatağında bir xeyli qurdalandıqdan sonra kiridi.

Gecəyarısı birdən həyət qapısından Əzizin xoş uşaq səsi oxuduğu mahnısı eşidildi. Gecənin sakitliyində bu səs sanki bir təskinlik və rahatlıq yayaraq pərdə-pərdə ətrafa işlədi. Bəhram rahat nəfəs aldı. Demək hər şey qaydasındadır, vərəqələr etibarlı əllərə tapşırılmışdı.

## VII fəsil

Pristav Kukiyev hörmətli qonaqla birlikdə bürkülü, boğanaq otaqlardan həyətə endi. Evdə oturmaq mümkün deyildi. Mığmığaya görə həyətə, güllüklərə və habelə küçə tərəfə açılan pəncərələrdən asılmış uzun, səliqəli tənzif pərdələr içəri hava buraxmırdı. Həyətdə çiçəklənmiş maqnoliya ağacının altındakı yumşaq taxtın üstündə oturmaq isə yayın bütün bürkülü axşamlarında olduğu kimi bu gün də çox səfalı idi. Kukiyev özünün ləbbadəyəbənzər nazik zərbaftalı xələtində ağır, cüssəli bədəni ilə taxtın üstünə çöküb oturduqdan sonra, qəlyanın muştuğunu ağzına alaraq sümürməyə başladı. Qədim, minalı qəlyanın içində su pıqqapıqla qaynadı. Qonaq isə taxtın yanındaca, qara rəngi sürtülüb getmiş toxuma Vyana kreslosunda oturmuşdu. Onun arıq bədəni köhnəlib qarın vermiş oturacağın içinə çökdüyündən ayaqları yerdən üzülmüşdü. Pristav gözucu nəzər salıb onun oturuşuna qımışdı, qonağın bu vəziyyəti ona o qədər əyləncəli və məzəli göründü ki, pristav gülməkdən özünü güclə saxladı. Boğazını arıdıb soruşdu:

– Cənab Tayts, – dedi, – gözümə yorğun görünürsünüz?

Qonaq kresloda qurcalandı, özünü qabağa verib, ayaqlarını yerə toxundurmağa çalışdı.

– Bəli, – dedi, – bir az əzginəm. Çox gəzmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pristavın üzündə bir an içərisində yenə istehzalı bir ifadə parlayıb söndü.

– Əlbəttə, canınıza qəsd etmişsiniz, – dedi. – Bizim şəhərin enişi-yoxuşu çoxdur. Yəni əslində bütün Qafqaz şəhərləri elə belə olur. Gərək, bir neçə gün dincələydiniz, sonra başlayaydınız gəzməyə. – Pristav qəlyanın muştuğunu ağzından çıxarıb öskürdü. – Gəldiyiniz cəmisi bircə gün olmaz, ancaq özünüzü belə yormusunuz, İqnati İqnatiç, doğrusu, tələsmisiniz... Çox tələsmisiniz, seyrə bir-iki gün sonra da çıxa bilərdiniz.

Taytsın sifətindəki qırışlar sıxlaşdı. Qaşları paz kimi alnına soxulmuş, cod saçlarına tərəf yuxarı dartıldı, nazik dodaqları isə kip bağlanıb, öz şəklini itirdi. Pristavın sözlərindən onun narazı qaldığı məlum oldu.

– Mühüm dövlət xidməti ilə seyr tutmaz, – dedi. – Əlbəttə, mən bunu sizin tərəfinizdən ancaq məzə kimi qəbul edirəm. Güman edə bilmərəm ki, siz bu mühüm işi seyr kimi düşünəsiniz.

– Əlbəttə, əlbəttə. Siz doğru mülahizə buyurursunuz. Ancaq mən onu sizin hörmətli nəzərinizə çatdırmaq istərdim ki, belə hallarda xəbər verəsiniz, mən sizə fayton hazırlatdıraram. Bu qədər enişyoxuşu qalxıb-enmək səhhətinizə xətər yetirə bilər.

Pristavın sözlərindəki açıqdan-açığa sezilən kinayəni duymamaq mümkün deyildi. Buna görə Tayts hirsindən arıq, ətsiz çənəsini oynadıb quru dodaqlarını gəmirdi. Yerindən laxlamış pensnesini əsəbiliklə möhkəmlədib, pristava qəzəbli nəzər saldı.

– O yerləri mən ancaq piyada gəzməli idim, cənab, – dedi, – gələcək fəaliyyətimiz üçün bunun əhəmiyyəti çoxdur.

Pristav, Taytsın “gələcək fəaliyyətimiz” dedikdə nəyə işarə etdiyini başa düşüb qaşlarını çatdı. O qarşısında əyləşmiş bu quru adamı şəxsən tanımasa da, onun haqqında qulağına bəzi gizli danışıqlar dəymişdi. Tiflisdə və onun ətrafında aparılan xəfiyyə işlərində Tayts öz xidməti ilə məşhur idi. Heç bir mühüm xəfiyyə əməliyyatı, pristavın eşitdiyinə görə, onsuz keçirilmirdi. Bütün bunları düşündükcə, pristav podpolkovnik Dobrovolskinin Qafqazda da böyük nüfuz qazandığını öz-özünə aydınlaşdırır və başa düşürdü ki, bu cür məşhur xəfiyyə işçisinin, Zaqatala şəhərinə göndərilməsi, şübhəsiz ki, yalnız podpolkovnikin israrı nəticəsində mümkün olmuşdur. Taytsın Zaqatala pristavlığına katib vəzifəsinə təyin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edilməsi, əlbəttə, onun burada görəcəyi işi pərdələməkdən başqa bir şey deyildi. "Bəlkə elə mənim üzərimdə də nəzarət qoyulmuşdur? – Birdən pristavı şübhəli bir fikir çulğadı. – Bəlkə elə mənim işimdən də narazıdırlar?.." Kukiyev içərisində öz qonağına qarşı gizli bir ikrah hissinin doğduğunu, bu hissin əvvəlcə tənbəl-tənbəl gərildiyini, sonra öcəşkənliklə qurcalandığını duydu. "Yox, – deyə o öz-özünə təsəlli verdi, – mənim əlahəzrətin yanında başım aşağı deyil, şənimə toxunan bir qəbahətdə də olmamışam. Buna görə də, yüz belə xəfiyyə başçıları yandan-yörədən tökülüb gəlsə də, özümü onlardan qat-qat yuxarı, ali tuturam. Əcdad məsələsini də qabağa çəksələr, onda görərlər ki, mənim yeddi əqrəbamdan belə hamısı mütləqiyyətə sadiq adam olmuşlar... İndi, bu dərisi sümüyünə yapışmış adamdan qorxacağam?.. – Xi... xi... – xısın-xısın gülümsədi. – Yox, cənablar, mən sizin güman etdiyiniz gözükölgəli adamlardan deyiləm. Qarşınızda da səcdə etməyəcəyəm... Yox, məni bağışlayın, bu qocadan onu gözləməyin".

Pristav bunları düşünərək, qəlyanın muştuğunu sinədolusu sümürdü və Taytsa təkəbbürlü bir nəzər saldı. Qonağın ayağı yenə də havadan asılı qalmışdı. Qonşu həyətdən həzin bir səs eşidildi. Kimsə səsini uzadaraq məlahətlə zümzümə edirdi. Pristav yerlilər arasında böyüdüyündən, bu Şərq musiqisini, onun kədərli nalə ilə dolu ruhunu hiss edir, bəzən ondan həzz almağı bacarırdı. Başını ağır-ağır yırğaladı. "Heyf ki, səsini gizlədib, içərisinə salmışdır..." Təəssüfləndi. O yenə Taytsa nəzər saldı. Qonaq, burnunun dövrəsində vızıldaşan ağcaqanadlarla əlbəyaxa idi. Onun bu vəziyyətinə pristavı yenə gülmək tutdu.

Araya sükut çökmüşdü. Hava qaralırdı. Qonşu evlərdə uşaqların çığır-bağırı çoxdan kəsilmişdi. Həyət, maqnoliya çiçəklərinin ətri ilə dolmuşdu. Pristav qonağın susub oturmasından cana gəldi. O, bir bəhanə ilə yerindən qalxıb içəri keçmək istədi. Elə bu zaman aynabəndin eşiyə açılan qapısı cırıldadı. Xidmətçi qadınlardan biri bağçaya endi, podpolkovnik Dobrovolskinin gəlib qonaq otağında onları gözlədiyini xəbər verdi. Pristav bundan narahat oldu. Dobrovolskinin belə qəflətən gəlişi, yəqin ki, mühüm bir məsələ ilə əlaqədardı. Onunla əvvəlki görüşlərində olduğu kimi, Kukiyev bu dəfə də özünün həyəcanlarını gizlətməyə çalışaraq, birinci ayağa qalxdı, xələtinin gen ətəklərini yığışdırdı və Taytsa saymazyana işarə elədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İçəri keçək! – dedi.

Onlar kiçik taxta pillələri qalxıb bürkülü qonaq otağına girdikdə, podpolkovnik ilə Tamara Danilovna çox məhrəmanə söhbət edirdilər. Tamara nazlanaraq xəfif səslə, astadan gülürdü. Əvvəlcə pristav onlara yaxınlaşdı, sonra da Tayts arıq qamətini uzadaraq özünü taxta kimi qurutdu və bu ali rütbəli zabitlə görüşmək üçün hazır vəziyyət aldı. Lakin podpolkovnik Tamara ilə söhbətini yarımçıq qoymaq istəmədi. Qadına qarşı nəzakəti bunu ondan tələb edirdi və başqa cür də ola bilməzdi. Pristav isə podpolkovnikin bu hərəkətini başqa cür yozdu. Burada o, qadına qarşı nəzakətdən daha çox, podpolkovnikin onlara, birinci növbədə pristavın özünə kəmiltifat, saymazyana münasibətini görürdü. Podpolkovnikin bunu son dərəcə çılpaq bir ədabazlıqla onların özlərinə sezdirmək istəməsindən Kukiyev daha çox qəzəbləndi, dodaqlarını gəmirməyə başladı. Tayts Kukiyevin arxasında durduğundan onun üzünün eybəcər ifadələrlə şəkildən-şəklə düşdüyünü görə bilmirdi. Podpolkovnik də bundan xəbərsizdi. Çünki hələ də arxası onlara tərəf Tamara Danilovna ilə söhbətini davam etdirirdi. Dəqiqələr keçdi... Podpolkovnik haçandan-haçana, dabanları üstə divara vuraraq üzünü pristava çevirdi, özünə xas təkəbbürlə onunla görüşdü. Sonra Taytsın əlini sıxaraq hal-əhval tutub dedi:

– Cənab Tayts, sizinlə söhbət etmək istərdim.

Taytsın üzündə süni bir təbəssüm əmələ gəldi:

– Buyurun, – dedi.

– Ancaq ikilikdə.

Tayts pristava baxdı, sönük nəzərləri ilə sanki görüşmək üçün onlara xəlvət yer göstərilməsini bildirdi. Pristav bunu hiss etdi, ancaq özünü bilməməzliyə vurdu. Əlacsız qalmış Tayts podpolkovniki bağçaya dəvət etdi.

– Buyurun, bağçaya enək.

Onlar otaqdan çıxdılar. Pristav dişlərini qıcırdaraq onların dalınca baxa-baxa qaldı. Hirsini boğduğundan çənəsi və əlləri əsirdi. Arvadı bunu görüb onun qolundan yapışdı?

– Kostya sənə nə olub?

Pristav başını əsəbiliklə qaldırıb dinmədi. Tamara Danilovna da dərinə getmədi. O, ərinə sığınaraq, əlini qayğıkeşliklə onun çənəsinə tərəf apardı və sifətini özünə tərəf çevirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kostya, sən nə edirsən? Niyə durmuşuq? Deyim, bu saat süfrə açsınlar. Yamanca bizi qəflətən yaxaladı, heç gözləmirdik, elə deyilmi?..

Bunu deyib ərinin cavabını gözləmədən o biri otağa keçdi. Oradan onun xidmətçi qadınlara hündürdən verdiyi tapşırıqlar qonaq otağında aydın eşidilirdi. Bir azdan o, əlində ağ süfrə içəri girdiyi zaman Kukiyevin hələ də evin ortasında hərəkətsiz durduğunu görüb məzəmmətlə gileyləndi.

– Kostya, səninləyəm axı, – dedi. – Gəl kömək elə, bu süfrəni salaq.

O, ərini düşdüyü vəziyyətdən xilas etmək üçün bundan artıq bir şey düşünüb tapa bilmədi. Pristav arvadının sözü ilə yaxınlaşıb itaətkarcasına süfrənin bir başından yapışdı və onu stolun üstünə döşədilər. Tamara əlini qar kimi ağ süfrənin üstündə gəzdirərək oğrun nəzərlərlə ərini süzdü. Hirsli dəqiqələrində olduğu kimi, ərinin ətli, sallaq yanaqları süzmə torbası kimi yenə də əsirdi. Ərini sakitləşdirmək üçün sözün indi heç bir xeyri olmayacaqdı. Belə hallarda o, adətən başqa bir adamın köməyinə ehtiyac hiss edirdi. Buna görə də, xidmətçi qadınlara tapşırıq vermək üçün o biri otağa keçdikdə yataq otağında uzanıb dincələn Taytsın arvadına podpolkovnikin gəldiyini xəbər verdi. Qadın bunu eşidən kimi tez ayağa qalxıb, aynanın qabağına keçdi, səliqəsi pozulmuş tualetini səliqəyə salmaqla məşğul oldu. Bir o qədər keçmədi ki, o, ərlə arvadın stolun üstünü səliqəyə salmaqla məşğul olduqları otağa keçdi. Onun içəri girməsi ilə qonaq otağını kəsif ətir rahiyəsi bürüdü. Pristav özünü zorla şən göstərməyə çalışaraq, yaxınlaşıb qadının arıq əlini öpdü. Tamara Danilovna bununla da hər şeyin bitdiyinə sevindi. Böyük həvəslə işə girişdi.

Podpolkovniklə Tayts qayıdıb içəri girdikləri zaman məəttəl qaldılar. Otağı tərk etdikləri beş-on dəqiqənin içərisində stolun üstü hər cür şirniyyat və meyvə ilə bəzədilmişdi. Podpolkovnik qollarını açıb heyrətini bildirdi:

– Xanım, bizə xəcalət verirsiniz!

Tamara Danilovna işvəli bir əda ilə gülümsədi.

– Heç bir xəcaləti yoxdur. Buyurun əyləşin, şam edin!

Süfrəyə içki də gətirildi. Hamı stola oturdu və bir azdan, qaldırılan ilk piyalələrin cingiltisi eşidildi. Podpolkovnik ikinci qədəhi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

içdikdən sonra otağın sağ tərəfində qoyulmuş royala nəzər saldı. Sonra üzünü Tamara Danilovnaya tərəf tutub soruşdu:

– Siz çalırsınız?

Tamara çəkingən bir hərəkətlə:

– Bəli, – dedi və gözlərini yumdu. Sanki nəyi isə xatırlamağa çalışdı. Sonra göz qapaqlarını xüsusi bir əda ilə qaldıraraq sözünə davam etdi. – Vaxtında yaxşı çalırdım. İndi isə unutmuşam... barmaqlarım səriştədən düşüb.

İçki badələri qaldırılandan sonra dəyişilib tamamilə başqa adam olmuş pristav Dobrovolskiyə müraciətlə yerindən səsləndi:

– Siz ona inanmayınız, cənab, – dedi, – indi də əvvəlki kimi gözəl çalır, doğru sözümdür...

Tayts bunu eşidən kimi ayağa qalxdı, əllərini şıppıltı ilə bir-birinə vuraraq nazik səsini uzatdı:

– Braaavo...

Podpolkovnik də başını əyərək onun fikri ilə razı olduğunu bildirdi. Tamara Danilovna oturduğu yerdə nazlanırdı. Dobrovolski yerindən qalxıb Tamaraya yaxınlaşdı, onun bilərzikli qolundan tutub, ayaqlarını əsgəri tərzdə birləşdirdi. Qadının əlini dodaqlarına apardı. Sonra onu royala tərəf dəvət etdi. Tamara hələ də nazından əl çəkmirdi.

– Cənab podpolkovnik, – dedi, – qorxuram ki, sizin zövqünüzə xidmət edə bilməyim... məndən narazı qalasınız...

– Siz nə danışırsınız, Tamara Danilovna, – dedi, – sizdən narazı qalmağı heç ağlıma sığdırmıram. Əksinə... Bizə zövq verəcəyiniz üçün əvvəlcədən sizə minnətdarıq!..

Tamara Danilovna işvəkarlıqla gülümsəyərək, royalın qarşısında oturdu. Ağ, dolu biləkləri havada oynadı. Götürdüyü yüksək akkordların məlahətli ahəngi dərhal otağı bürüdü. O, qədim rus romansını çalırdı. Otaqdakılar əllərini süfrədən çəkərək sükut içində durdular. Təkcə pristav hələ iri qarnını stola dayayıb ağzında nə isə çeynəyirdi. Arada xəlvətə salıb doldurulmuş qədəhini də birnəfəsə içdi. Romansın kədərli təranəsi, bir neçə müddət otaqda dolandıqdan sonra susdu. Hamıdan qabaq yenə Tayts əllərini bir-birinə vuraraq çığırdı:

– Bravo, Tamara Danilovna!

Tamara Danilovna ehtiramla başını əydi. Bayaqdan bəri qaşları çatılmış halda təkəbbürlə romansa qulaq asan Dobrovolski təkrar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayağa qalxdı, Tamara Danilovnanın əlindən tutub onu yerində oturtdu, qadın əyləşəndən sonra podpolkovnik bir anlığa onun qarşısında başını əyib durdu:

– Tamara Danilovna, – deyə rəsmi bir tonla sözə başladı. – İcazə verin, sizin məharətinizə heyran qaldığımı bildirim. Böyük məmnuniyyətlə sizi yorulmadan dinləmək olar...

Tamara Danilovna gözlərini süzdürərək, ehtiraslı baxışlarla öz narazılığını bildirdi.

– Bunu siz yalnız nəzakət xatirinə edirsiniz, bilirəm. Məndə istedad yoxdur. Bəlkə qabaqlar olmuşdur, onu deyə bilmərəm. Ancaq indi yoxdur, yəqin əminəm. Əgər mənim ifam sizin xoşunuza gəlibsə, bunun yalnız bir səbəbi vardır. Siz rus romanslarını pravinsiyada dinləyirsiniz. Qərib yerdə hər mahnı özünün hətta ən pis ifasında da adamın könlünü oxşaya bilər... Elə deyilmi?

Tamara Danilovna Taytsın arvadına müraciət etdi. Bu qurumuş qadının simasında o, pravinsiya həyatına nifrət edən bir adam tapdığı üçün sözlərinin onun tərəfindən təsdiq ediləcəyini güman edirdi. Lakin Taytsın arvadı eynəyinin arxasından daha iri görünən sönük, mənasız gözlərini yumaraq onun sualını cavabsız buraxdı. Tamara onun mürgüyə getdiyini güman elədi. Lakin nəyi isə fikirləşib tapmış adamlar kimi qadın birdən dilləndi:

– Xeyr, Tamara Danilovna, sizin fikrinizlə şərik deyiləm. Sizdə musiqi istedadının olmasına heç bir şübhəm yoxdur. Çalınan musiqinin hörmət xatirinə dinləyənlər çox olur. Mən isə sizin musiqinizdən əsl zövq aldım. İqnati İqnatiç də təsdiq edər ki, biz çoxdandır, belə bir musiqi dinləməmişik. Siz özünüz deyin, İqnati İqnatiç!..

Tayts arvadının sözlərini təsdiq etmək əvəzinə, adəti üzrə əllərini yenə şappıldadaraq pristavın arvadına tərəf əyildi.

– Bravo... bravo, – dedi.

Tamara Danilovna öz təravəti ilə artıq podpolkovniki getdikcə özünə cəlb etməyə başlamışdı. Budur, bir vaxtlar qadın ehtiraslarına nifrət edəcəyinə and içmiş bu zabit, indi pristav arvadının füsunkarlığı qarşısında əsir düşmüşdü. Nəzərləri tez-tez bu cənublu qadınının dolğun, açıq sinəsinə ilişib qalırdı. Tamara Danilovna da bunu hər dəfə duyduqca məkrlə gülümsəyib, özünü bilməməzliyə vururdu. Lakin odlu, ehtiraslı baxışlarına mane olmadıqda o daha da alovlanırdı. Dobrovolski ilə Tamara Danilovna da özlərini başqa üç nəfərin arasında tək-tənha, sezilməz hiss edirdilər. Pristavla



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Taytsın başı içkiyə qarışmışdı. Taytsın arvadı isə yarıyuxulu idi. Birdən Dobrovolskinin qızarmış gözlərində sanki bir yanğın başladı. Bu yanğının parıltısından pristav arvadının gözləri qamaşdı. Yanaqları odlanıb qızardı. Podpolkovnik barmağı ilə boyunluğunu açıb rahatladı.

– İstidir, – dedi və mənalı nəzərlərlə Tamara Danilovnaya baxdı.

Tamara Danilovna gözaltı ətrafı süzdü:

– Cənab podpolkovnik, sərinləmək istəyirsinizsə, həyətə enək, – dedi, – sizə bağçamızı da göstərərəm.

– Məmnuniyyətlə.

Podpolkovnik ayağa qalxıb Tamaranın qolundan tutdu. Onlar birlikdə otaqdan çıxarkən Tamara bir anlığa çiyni üstündən qonaqlara tərəf qanrılıb qeydkeşliklə dedi:

– Xahiş edirəm darıxmayasınız. Kostya, sən də qonaqlarla məşğul ol. Mən bağçanı podpolkovnik cənablarına göstərim. İndicə qayıdırıq.

Podpolkovnik oturanlara müraciət etdi:

– Xanım və ağalar, əgər icazə verirsinizsə?

– Buyurun, buyurun.

Onlar həyətə endilər.

Pristav podpolkovnikin arxasınca laqeyd bir nəzər salıb, yenə öz işi ilə məşğul oldu. Dolu qədəhi Taytsın qədəhinə toxundurmaq üçün azca ayağa qalxıb irəli əyildikdə qarnı qarşısındakı qırmızı çaxır qrafininə toxundu, qrafin böyrü üstə yıxıldı. Ağ süfrənin bir tərəfi tamam bulaşdı. Pristav kefini pozmadan əlini çırpdı:

– Heç narahat olmayın, – dedi, – mənim əqidəmcə çaxır dağılan evdə həmişə xoşbəxtlik baş verər.

Taytsın arvadı bir qadın kimi tez əl-ayağa düşərək süfrəni qurutmaq üçün tədbir görmək istədikdə pristav ona mane oldu.

– Xahiş edirəm ki, siz narahat olmayasınız. Bu dəqiqə gəlib sahmana salarlar.

O, xidmətçi qadınları səslədi. İki nəfər yaşlı qadın gəldi və süfrəni dəyişməklə məşğul oldular. Bulaşmış ağ süfrənin əvəzinə təzə çəhrayı süfrə salındı. Yeməklər təzədən onun üstünə düzüldü. Podpolkovniklə Tamaranın soyumuş qəhvələri təzələndi. Bu müddətdə pristav Kukiyev qonaqların darıxmaması üçün onları divardan, xalça üzərindən asılmış silahların tarixi ilə tanış etdi. Vaxtilə dağlıların tabe edilməsində babasının işlətdiyi, indi isə köhnəlib



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

divardan asılmış tüfəng haqqında xeyli danışdı, hətta tüfəngin qundağında, xırda gümüş hərflərlə yazılmış sözləri də onlara oxudu:

– Görürsünüzmü, – dedi, – əla atıcılığı üçün komandanlığın ona minnətdarlığıdır. Sözlər elə o zaman tüfəngin qundağına həkk olunmuşdur.

O, müxtəlif formalı əyri, qısa xəncərlərin də hərəsinin öz tarixi olduğunu qonaqlara bildirdi.

Xidmətçi qadınlar süfrənin hazır olduğunu bildirdikdə, pristav sözünü qurtarmadan, qonaqları stola dəvət etdi.

Süfrənin dəyişilməsinə sərf olunan bu müddət podpolkovniklə Tamaranın xeyrinə oldu. Otaqdakıların başı elə qarışdı ki, bağçadakıların xeyli ləngidiklərinin fərqinə varmadı.

* * *

Bağçaya enən kimi Dobrovolskinin diqqətini birinci növbədə, taxtın üstündəki bəzəkli qəlyan cəlb etdi. Yaxınlaşıb onun uzun, burmalı muştuğunu əlləşdirdi, gövdəsindəki minalı bəzəklə haşiyələnmiş şəklə baxdı. Sallaqbığlı papağında şir və xurşid nişanı olan İran şahının əksini görüb soruşdu:

– Yəqin İrandan gətirilmişdir? Eləmi?

– Bəli, düz buyurursunuz, – deyə Tamara Danilovna fərəhlə cavab verdi. – Konstantin Konstantinoviçə bəxşiş veriblər. Yerli tacirlərdə belə şeylər nə qədər istəsəniz var. Onların sevdiyi şeydir... Bilmirəm, nə ləzzət aparırlar...

– Görünür ki, azardır.

– Bəli, daha deməyiniz! Kostya da yaman vərdiş eləyib.

– Qafqazda olan adam üçün onun dadını bilmək pis olmazdı. Bəlkə də bəziləri üçün siqareti əvəz eləyə bilir.

Tamara Danilovna ərklə ona etiraz etdi:

– Elə deməyiniz, xahiş edirəm. Siz də Qafqaza gəlmişsiniz. Heç gör, onu sizə məsləhət bilərdimmi?

– Nə üçün? – deyə Dobrovolski təəccüblə soruşdu.

*Tamara Danilovna körpə bir uşaq şıltaqlığı ilə ona qısıldı, lakin* başını sinəsinə qoymağa ehtiyat etdi. Podpolkovnik ehtiraslı, odlu baxışlarla onu aşağıdan-yuxarı süzdü:

– Mən razı olmaram ki, sizin dodaqlarınız onun muştuğuna toxunsun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qadının belə açıq hərəkətindən şövqə gələn Dobrovolskinin gözləri xumarlandı:

– Nə üçün razı olmazsınız? – deyə soruşdu.

Tamara Danilovna podpolkovnikin sinəsinin titrədiyini hiss etdi. Evin həyətə açılan aynabənd qapısına tərəf oğrun bir nəzər saldı. Sonra başını aşağı dikib, sanki öz-özünə danışırmış kimi yavaşcadan dedi:

– Məgər sizin dodaqlarınız onun üçün yaranmışdır?

Dobrovolskiyə hər şey aydın olsa da, bəzi incə hisslərin açıq ifadəsini qadınların öz dilindən eşitməyə adət etdiyindən və bundan xüsusi ləzzət aldığı üçün təkrar soruşdu:

– Bəs nə üçün yaranmışdır, Tamara Danilovna? Hə? Mən sizi dinləyirəm! Niyə susursunuz!

Tamara Danilovna cavab vermədi. Süzgün, odlu baxışlarını Dobrovolskinin üzündə gəzdirdi və dolğun sinəsini dərindən ötürdü. Sonra birdən-birə nəyi isə xatırlayıb ətrafına baxındı:

– Biz niyə burada durmuşuq? – dedi, – axı mən sizə bağçanı göstərməliyəm. Buyurun! – O, bağçanın içəri tərəfini göstərdi.

Onlar bağçanın cərgə ilə qızılgül kolları əkilmiş tərəfinə keçdilər. Dobrovolski öz sualı ilə şölələnməyə başlayan odun üstünə su səpərək, gözəl bir imkanı əldən buraxdığına peşman oldu.

Tamara Danilovna qızılgül kolları arxasındakı xəlvət xiyabanda qoyulmuş skamyanın üstündə oturmağı təklif etdikdə Dobrovolski üçün hər şey aydınlaşdı. Od söndürülməmişdi. Bağçanın bu yeri çox səfalı və xəlvət idi. Ağ və çəhrayı rəngli qızılgüllər salxım-salxım skamyanın üzərinə əyilmişdi. İnsanı burada hər şey məftun edirdi. Xiyaban boyu dirəklərdən asılmış qəfəslər, qəfəslərdəki xardaca sarı bülbüllər, iki əlvan tüklü tutuquşu, daş hasara dırmanmış sıx sarmaşıq elə bil onları bu dünyadan tədric edib xəyali, füsunkar bir aləmə gətirib çıxarmışdı. Tamara Danilovna susub Dobrovolskiyə baxırdı; onun bağçanı heyrətlə süzməsindən xoşlanıb soruşdu:

– Gözəldirmi? Xoşunuza gəlirmi?

Dobrovolski gözlərini qəfəsdən çəkdi. Onların odlu baxışları yenə də toqquşdu.

– Çox gözəldir! – deyə, Tamaranın yumşaq əlindən tutub, bir an sakitcə, onun ay işığında daha füsunkar görünən sifətinə baxdı, – lakin inanınız ki, siz onlardan qat-qat gözəlsiniz, siz olmasay-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dınız, bunlar mənə bəlkə də elə gözəl görünməzdilər. Bu gözəllik onlara sizdən əks etmişdir. Tamara gözlərini aşağı dikdi:

– Bəzən belə sözlər qadınlara təsəlli məqsədi ilə də deyilir.

Dobrovolski Tamaranın hər iki əlini ovucları arasına aldı; bədəni ilə ona tərəf qantılıb, dizlərini dizlərinə toxundurdu.

– Əsla! – dedi, – mənim sözlərimdə heç bir təsəlli yoxdur. Zatən sizə təsəlli verməyə ehtiyac da duymuram. Bu dəqiqə də mən sizə ancaq "gözəllik kraliçası" adı verə bilərəm.

Tamara başını qaldırdı: gözləri podpolkovnikin sanki indicə alovlanıb yanacaq baxışları ilə rastlaşdı, podpolkovnikin ovucları içərisində sıxılmış əlləri titrədi; ürəyi şiddətlə çırpınmağa başladı.

– Tamara... – Dobrovolskinin səsi titrədi. Bir an içərisində Tamaranın dodaqları elə bil odlandı. Onun başı qeyri-ixtiyari olaraq podpolkovnikin sinəsinə düşdü, lakin Dobrovolski dodaqlarını onun dodaqlarından ayırmadı; bu anda Tamaranın sanki iki ürəyi vardı; biri öz sinəsində, o biri isə Dobrovolskinin ovucları içərisində çırpınırdı: onlar hər şeyi unudaraq, bir neçə dəqiqə beləcə qaldılar. Nəhayət, Tamara dodaqlarını çəkdi və üzünə tökülmüş saçlarını yığaraq ətrafına baxdı. Bağçada özlərindən başqa heç kəs yoxdu. Podpolkovnik onun əllərini buraxmadan dedi:

– Tamara Danilovna, indi inandınızmı ki, mən sizə təsəlli vermirəm. Tamara başı ilə onun sözlərini təsdiq etdi.

– İnandım, – dedi və sonra başını aşağı dikib, məkrlə gülümsədi, – mən də sizin bayaq təkidlə verdiyiniz suala cavab verdim.

Dobrovolski təzədən Tamaranı özünə tərəf çəkib, onun dodaqlarından, gözlərindən, açıq boynundan dönə-dönə öpdü:

– Gördüm, əzizim, gördüm.

Tamara əlini qaldırıb, yaşarmış gözlərini sildi. Bunu görən Dobrovolski təəccüblə soruşdu:

– Sizə nə oldu? Yoxsa narazısınız?

Tamara başını yırğaladı:

– Xeyr, əksinə.

– Bəs niyə belə?

Tamara sinəsində gəzdirdiyi yaylığı ilə gözlərini sildi.

– Xahiş edirəm, məni üzrlü tutasınız, – dedi. – Hərəkətlərimdə məni qınamayasınız. Mən belə nəvazişləri az-az duyuram. Açıq deyim ki, onları unutmuşam. İndi isə siz mənə uzaq gəncliyimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xatırlatdınız. Onu təzədən mənə qaytardınız. Bunun üçün sizə minnətdaram.

– Siz nə danışırsınız, Tamara Danilovna? Sizin qarşınızda minnətdar mənəm.

Tamara başını minnətdarlıqla əydi:

– Siz, çox alicənabsınız...

Dobrovolski daha dinmədi. Yanında başını aşağı dikib oturmuş bu gözəl qadını, ehtiraslarının həvəsdən düşdüyü bir zamanda, özünə sövq etdirdiyindən həm qürrələndi, həm də təəssüfləndi. O, əlini cibinə salıb saatını çıxartdı, onu azca yuxarı qaldırıb ay işığında baxdı. Qaşları təəccüblə yuxarı dartıldı:

– Oho, yarım saatdan çoxdur ki, buradayıq! Əriniz, yəqin, sizdən nigaran qalıb. Tamara etinasızcasına pıçıldadı:

– Bunun mənim üçün əhəmiyyəti yoxdur. Dobrovolski gülümsədi:

– Siz çox cəsarətlisiniz!.. – dedi. – Ancaq hər halda ehtiyatlı hərəkət bizim xeyrimizə olmalıdır. Bunu unutmayın! Elə deyilmi?

Tamara dalğın nəzərlərlə podpolkovnikə baxdı və sonra birdən dik ayağa qalxdı.

– Siz haqlısınız! Gedək!..

İçəri girdikdə Tamara çox xoşbəxt görünürdü. Podpolkovnik isə əvvəlki kimi təkəbbürlü idi. Tamaranın gözlərindəki fərəh heç kəsin nəzərini cəlb edə bilmədi. Təkcə Tayts, arvadının və pristavın sezə bilmədiyi bir əlaməti dərhal tuta bildi. Tamaranın çəhrayı rəngli yüngül axşam paltarının üstündən taxdığı kraxmallı zərif yaxalığı əzilmişdi. Görünür ki, pristav çaxırı süfrəyə dağıdarkən haqqında söylədiyi xoşbəxtliyi podpolkovnik öz gizli hərəkəti ilə həqiqətə çevirmişdi. Əlbəttə, Tamaranın sinəsindəki bu dəyişikliyi ancaq Tayts kimi casusların diqqətli nəzərləri tuta bilərdi.

Podpolkovnik çox oturmadı. Sonradan tökülmüş isti qəhvəsini içdikdən sonra qalxıb məclisi tərk etməli olduğu üçün Tamaradan üzr istədi. Hamı ayağa qalxıb onu qapıyadək ötürmək istədi. Tamara onlara müraciətlə narahat olmamalarını xahiş edərək, özü tək podpolkovniki dəhlizədək ötürdü. Dəhlizdə xidmətçi qadınların nə ilə isə məşğul olmalarından razı qalmadı. Onları dəhlizdən bayıra çıxarmaq da yersiz düşərdi. Buna görə Tamara otağa, qonaqların yanına döndüyü zaman kefi azca pozulmuşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VIII fəsil

Sınıqçılar və ara həkimi Qara Nəsirin ayağını sağalda bilmədilər. Dizindən yuxarı sınmış ayaq get-gedə şişməyə, göyərməyə başladı. Xəstənin hərarəti artdı. Halı qarışdı. Nuxadan gəlmiş həkim onun ümidsiz olduğunu söylədikdə, arvadı əlini saçlarına, sinəsinə atdı. Heç cür onu sakitləşdirə bilmədilər. "Dörd balam yetim qalır" deyə yaşlı gözləri ilə xəstənin yanına gələn adamlardan kömək diləyir, içəridən yanıb-göynəyir, əli qoynunda otağın içində hərlənirdi. Bir gün səhər tezdən qadının çəkdiyi haraya bütün qonşular tökülüşüb gəldi. Qara Nəsir keçinmişdi. Arvadın iniltili naləsi yaxın məhəllələri başına götürmüşdü. Arada bir Məhəmmədin də adını çəkir, qəhərlənmiş boğazından qopan xırıltılı, qarışıq, anlaşılmaz sözlərlə onu yetimlərini qanadının altına almağa, Nəsirin intiqamını yerdə qoymamağa səsləyirdi.

Ölü yerinə hamıdan qabaq Bəhram gəldi. Tez uşaq göndərib, Uzun Həsəni də çağırtdırdı. Həsən gəldi, Bəhram onu bir kənara çəkib dedi:

– Həsən kişi, bilirsən ki, onların Məhəmməddən başqa kimsəsi yoxdur.

– Bilirəm, bunu mənə niyə deyirsən?

– Deyirəm, onlara bəlkə kömək eləyəsən.

Uzun Həsən Bəhramın ondan nə xahiş eləyəcəyini dərhal başa düşdü:

– Əlbəttə, bu nə sözdür, – sən deməsən də bunu gərək biz eləyək. Bu saat gedib bel, külüng taparam.

Bəhram faytonçunun onu düz başa düşdüyünü yəqin etdikdən sonra arxayınlıqla dedi:

– Tələsmə, səhər tezdən də qaza bilərsən! Bu gün başqa işlərimiz də olacaq! Qara Nəsirə qəbir qazmağı Bəhramın məhz Uzun Həsənə tapşırması təsadüfi deyildi. Həsən kişi faytonçuluqla məşğul olmaqdan hələ çox-çox əvvəl, şəhərdə qəbir qazmaq, qəbir üstü düzəltmək işində ən yaxşı usta hesab olunurdu. Ancaq sonralar vur-tut bircə oğluna da öz əli ilə qəbir qazdıqdan sonra bel-külüngünü sındırıb atdı və başqa peşə ilə məşğul olmağı qərara aldı. Çox götür-qoy etdi. Axırda borca düşüb iki at və köhnə, xılxın fayton aldı. Birinci günlər qozlada oturmaq, hətta hündürdən atlara muşqurmaq da ona çox qəribə göründü. Ancaq sonralar günlər ötdükcə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

buna alışdı. Təzə peşəsi oğlunu birtəhər ona unutdurdu. Bununla belə, yolu hər dəfə qəbiristanlığın yanından düşdükdə, doğma balasının xatirəsi yenə onu gizli-gizli yaxıb-yandırırdı.

Bəhramın bu xahişi onun bu xəyalını bir anlığa keçmiş günlərə sürükləyib apardı. Bəhram onu bu peşədən nə üçün əl çəkməsindən xəbərsiz idi. Çünki Bəhramın o zamanlar ancaq üç-dörd yaşı ola-olmayaydı. Buna görə Uzun Həsənin nəzərlərini naməlum bir nöqtəyə ilişib qalması, üzündə birdən-birə cilvələnən kədər Bəhramı narahat etdi.

– Niyə fikrə getdin, Həsən kişi, – dedi, – bəlkə başqa işin var?

Uzun Həsəni elə bil silkələyib xəyaldan ayırdılar.

– Nə işim olacaq, rəhmətliyin oğlu? – dedi və istehza ilə gülümsədi, – deyirəm axı, müştəri tökülüb qalıb?!. Yığıb-yığışdırmaq olmur. Yadıma bizim uşaq düşdü...

Ertəsi gün tezdən Həsən kişi bel və külüng tapıb qəbiristanlığa qalxdı.

Hələ təzə qəbirlərə çatmamış haradansa qulağına zəif bir inilti gəldi; kim isə yavaşdan içini çəkə-çəkə ağlayırdı. Həsən kişi boylanıb o yan-bu yana baxdı, yaxınlıqda heç kəs gözə görünmürdü; hər tərəfdə yalnız böyrü üstə əyilmiş qəbir daşları, tək-tük əkilmiş ağaclar sübh dumanı içərisində qüssəli-qüssəli durub, elə bil qəbiristanlıqdan eşidilən bu əsrarəngiz iniltini aram-aram dinləyirdi. Faytonçuya elə gəldi ki, sakit, boş qəbiristanlıqda inildəyən elə bu qəbir daşlarının özüdür, bu kədərli zümzümə də onların soyuq böyürlərindən qoparaq, bu boşluq dünyasına ağır bir hüzn yayırdı. "Bəlkə ölülərin səhər duasıdır?" deyə qoca fikirləşdi, onun arıq, cansız bədənini soyuq bir rəşə bürüdü. Köhnə arxalığının içində büzüşdü, gedib-gəlməz məchul bir dünyanın vahiməsi sanki birdən-birə qollu-qanadlı üstünə çökdü; qulaqlarında səs saldı. Xəyalını burada, səhərin bu erkən vaxtında, əbədi yuxuya dalan ölülər aləminin qara düşüncələri çulğadı. Bundan o diksinən kimi oldu; başını silkələyib özünü ələ aldı. Uzaqda hələ aydın seçilməyən qəbirlərin arasına göz gəzdirdi. Yenə də heç kəsi görmədi; həzin inilti isə əvvəlki qayda üzrə, səssiz, sağır bir çay kimi qəbiristanlığa axıb qəmginlik gətirirdi.

Həsən dizədək bitmiş gicitkən və əvəliyin içi ilə irəlilədi, yarıuçuq və torpağa qarışaraq itmiş köhnə qəbirlərin arasında iki arşınlıq boş bir yer tapa bilmədi; bir az da yuxarılara qalxdı; səs getdikcə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxınlaşırdı: nisbətən təzə olan və hətta bəzilərinin başdaşı yenicə rənglənmiş təzə qəbirlərin cərgəsində gəzərkən, irəlidəki bir qəbirin üstündə qara bir yumaq göründü. Səs də oradan gəlirdi; faytonçu qəbirə yaxınlaşarkən arıq bir qadının öz qara şalını başını çəkərək oturduğunu gördü. Başını qəbirin təzə, yaş torpağına qoyduğundan qadının üzü görünmürdü: yavaşcadan ağı deyərək sızıldayırdı. Sözlərini ayırd etmək çətindi. Çox ağladığından səsi də tutulmuşdu. Qadın ayaq səsinə heç qımıldanmadı da. Bu dəqiqədə onun üçün dünyada hər şeydən sanki yalnız bir şey əziz idi; bu da üzü üstə düşdüyü yaş torpağın altında yatan adam!

Faytonçu fikrə gedib, bu təzə qəbirin kimin olduğunu yadına salmaq istədi; təzə atılmış torpaqdan məlum olurdu ki, buradakı yalnız bir neçə gün qabaq dəfn edilmişdir. Üç gün irəli arvadının tələsik ona dediyi sözləri xatırladı və yəqin etdi ki, dəfn edilən Gülsabah qarının oğludur. Dəyirmandan gələrkən çayda boğulmuşdu. O da anasının təkcə oğlu idi; ağlayan da Gülsabah qarı özü idi.

Həsənin yadına yenə də öz balası düşdü; öz əli ilə onu qəbirə qoyub, üstünü hördüyünü acı bir kədərlə xatırladı. Ancaq heyf ki, balasının qəbiri köhnə qəbiristanlıqdadır. Burada olsaydı o da elə bu qarı kimi, üzü üstə qəbirin yovşanlı torpağına qapanıb ağlardı.

Həsən kişi qəbirə fatihə oxuyub yoluna davam etdi. Buradan o tərəfə qəbiristanlığın yaraşıqlı hissəsi başlayırdı; səliqə ilə yonulmuş başdaşıları, malalanmış sandıqçalar, hətta ağ mərmərdən düzəldilmiş qəbir daşları, bir-birinin böyründə səliqə ilə düzülmüşdü. Burada daha çox, şəhər varlılarının ölüləri basdırılırdı. Ayrı-ayrı qəbirlərin yanında kölgəlik üçün əkilmiş söyüdlər qol-budaq atmışdı. Faytonçu bu tərəfdə də qəbir qazmaq üçün yer tapa bilmədi. "Eh, dünya! – deyə dərindən ah çəkdi. – Kasıba qəbiristanlıqda yer yoxdur. Çarxın dönsün görüm, belə dünya!.."

Üfüq qızarıb evlərin damları və onların arasından boylanan ağacların təpələri günəşin ilk şüaları ilə qızardığı zaman Həsən kişi qəbiristanın lap yuxarısında boş bir yer tapıb işə başladı. İndi ətrafı təkcə onun çaldığı külüng səsi doldurmuşdu. Hərdənbir boylanıb ağlayan qarıya tərəf də baxırdı. Qarı hələ də üzü üstə düşüb qəbirin üstündə qalmışdı; ancaq səsi daha eşidilmirdi.

Həsən kişi qəbiri qazıb qurtardı. Hava artıq qızmışdı. Gün qarının belini də qızdırdığından o da hərəkətə gəldi, ayağa qalxıb,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şalını başında sahmana saldı və qəbirlərin arası ilə yırğalana-yırğalana şəhərə tərəf yollandı.

Həsən kişi də onun dalınca qəbiristanlıqdan çıxdı. Birbaşa Qara Nəsirgilə gəldi. Evdə Bəhramdan başqa tütün karxanası fəhlələrindən də on-on beş adam vardı. O biri otaqda isə arvadlar ağlaşırdılar. Qara Nəsirin uşaqları isə həyətdə tut ağacının altında oturub təəccüblə gəlib-gedənlərə baxırdılar.

Tütün karxanası fəhlələrindən biri içəri girib, Bəhrama yaxınlaşdı. Yavaşcadan nə isə qulağına pıçıldadı. Bəhram isə hirslə hündürdən dedi:

– Gəlmir, gəlməsin! Heç lazım da deyil!

Uzun Həsən məsələdən agah olmaq üçün Bəhramın yanına keçdi.

– Nə olub? – deyə soruşdu.

– Nə olacaq! Kəblə Səfər gəlmək istəmir. Kasıb olduğunu bilən kimi, özünü azarlılığa vurub; molla tayfasını tanımırsan?

Həsən kişi bunu eşidən kimi, tələsik evdən çıxmaq istədi. Bəhram onun qolundan yapışdı.

– Haraya?! – deyə soruşdu.

– Mən başqasını taparam, misgər Cəfərqulu yaxşı Quran oxuyur. Minnətsiz gələr, fağır əlindən tutan adamdır.

– Yox, lazım deyil, getmə.

Həsən kişi gözlərini döyəcləyib təəccüblə Bəhrama baxdı:

– Bəs mollasız?

Bəhram başını aşağı endirdi. O biri evdə ağlamaqdan yorğun düşüb susmuş arvadların eşitməməsi üçün yavaşcadan əlavə etdi:

– Mollasız da keçinə bilərik.

Təəccübdən Həsən kişinin gözləri bərəldi.

– Camaat nə deyər? – deyə Həsən kişi narahat halda evdəkilərə baxdı. Adamlardan heç biri dinmədi. Onlar da Bəhramın fikri ilə şərik olduqları üçün ona etiraz etmək istəmədilər. Həsən kişi üçün isə bu çox qəribə və təəccüblü idi. O, hələ bu vaxtadək mollasız ölü basdırıldığını nəinki görməmiş, heç yerli dibli eşitməmişdi də. Çiyinlərini çəkib, özü-özünə mızıldandı:

– Başa düşmürəm, bu necə ola bilər? Camaat nə deyər? Elin ağzına düşməkmi istəyirsən?

Tütün karxanası fəhlələrindən Ramazan həyəcanlı halda içəri girib üzünü Bəhrama tutdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu nə xəbərdir? – dedi. – Heç bilirsən şəhərdə nə danışırlar?

Hamı susub Ramazana tərəf döndü. Bəhram Ramazanın deyəcəyi xəbərin təsirini azaltmaq və oturanları təşvişə salmamaq üçün Ramazanı qabaqladı:

– El ağzı, sel ağzı, – dedi, – qoy nə deyirlər desinlər.

Sonra o yerindən qalxıb, bir bəhanə ilə bayıra çıxmaq istədi.

– Ramazan, yaxşı gəlmisən, bayıra çıxaq, sənə sözüm var. Onlar həyətə çıxdılar. Uzun Həsən də onlara qoşuldu. Tut ağacının dibində iki nəfər qoca oturmuşdu. Bəhramgildə onların yanında alçaq daş başının üstündə əyləşdilər.

Həsən kişi daha çox narahat idi. Səbir eləyə bilməyib sorğu-suala birinci o başladı.

– Sən də oxunu atıb, yayını gizlətmə. De görək bəlkə biz bilən bir şey də var. Mollanı deyirlərsə mən indicə onu dartıb buraya gətirim...

Ramazan başını buladı:

– Yox, söhbət mollada deyil, – dedi, – uryadnik Əlibəy deyirlər əmr eləyib ki, Qara Nəsiri basdırmağa çox adam getməsin. Guya pristavın tapşırığıdır.

Həsən kişi hirslə yerə tüpürdü:

– Tfu, kaftar, bircə o qalmışdı ki, ölülərimizə də əl atsın. Bu, yəni səhih xəbərdir?

– Mən eşitdiyimi deyirəm.

Həsən kişi əllərini bir-birinə vurdu:

– Bu da, deyəsən, o dördgözün işidir. Şəhərə qədəm qoyandan qəribə-qəribə işlər törəyir. Vücuduna baxırsan, qara qəpiyə dəyməz, gəl bir əməlinə bax! Yəni ölünü basdırmaq da qadağan bir işdir? Düz adamdırlar, qarınlarına sancı niyə düşüb? Burada yəni bir iş var?..

Bayaqdan bəri susub oturmuş Bəhram sözə qarışdı:

– Əlbəttə, var, – dedi. – Yoxsa belə əl-ayağa düşməzlər.

– Nə var ki, bir şey bilirsən, de!

– Qorxurlar ki, qəbir üstündə danışıq olar. Hökuməti söyərlər.

– Deyirəm axı molla niyə gəlməyib? – deyə Həsən kişi əlini dizinə vurdu, – vallah qorxudan. A kişi, mən belə qorxaq görməmişəm, az qalıb, suyu da üfləyə-üfləyə içsin.

Həyət qapısı tez-tez açılıb örtülürdü, ölünü dəfn etməyə gələnlərin sayı xeyli artmışdı. Eşikdə, qapı ağzında duranlar da çox idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəhram ilə Həsən kişi hələ də barının üstündə oturmuşdular. Bəhram fikrə dalmışdı. Bir azdan gəlib xəbər verdilər ki, bayırda evdən azca aralı uryadnik Əlibəy bir neçə qorodovoyla dayanıb, cənazənin çıxarılmasını gözləyir. Hamı təşvişə düşdü. Həsən kişi bunu eşidən kimi özündən çıxıb bərk-bərk deyinməyə başladı:

– Yazığı rahat dəfn eləməyə də yəni qoymayacaqlar?!. Bir onlardan soruşan lazımdır ki, burunlarını nə üçün hər şeyə soxurlar. Bəlkə bir iş var, biz bilmirik? Buyursunlar, gəlsinlər, görək nə deyirlər!

Bəhram yeridən tərpənmədən başı ilə ona işarə elədi:

– İşin olmasın, – dedi, – qoy dursunlar.

Bəhram özü isə üzə vurmasa da içəridən bərk həyəcan keçirirdi. Bir azdan oturduğu yerdən qalxıb bayıra çıxdı. Qapının ağzı tünlük idi. Tütün karxanasının bütün işçiləri gəlmişdi. Əlibəy küçənin ağzında, doğrudan da, ayaqlarını aralayıb durmuşdu; yanındakı iki nəfər qorodovoyla baş-başa verib danışırdılar. Bəhram çox göz gəzdirdi. Hacı Xeyrini görmədi: "Qorxusundan gəlməyib" – deyə fikirləşdi. Lakin onu daha çox narahat edən Arşakın hələ də gəlib çıxmaması idi. O, gəlməmiş, cənazəni qaldırmaq istəmirdilər. Bir az da gözləmək məqsədi ilə Bəhram həyətə keçdi. Arvadlar bərkdən ağlaşırdılar. O keçib Həsən kişinin yanında oturmaq istəyirdi ki, Arşak içəri girdi. Bəhram başı ilə ona işarə edib başa saldı ki, otağa keçsin. Arşak kişilərin oturduğu otağa girdi. İçəridə adam az idi. Hamı həyətə və qapı ağzına çıxmışdı.

Bəhramla Arşak bir-birinin yanında oturdular.

– Nə oldu? – deyə Bəhram yavaşdan soruşdu.

– Təzə heç bir xəbər yoxdur. Lalənzarı gördüm. Vərəqələri etibarlı yerdə gizlətmişdir. Qalada da hələlik heç bir vərəqə ələ keçməmişdir.

Bəhram azad nəfəs aldı.

– Gələndə uryadniklə qorodovoyları gördünmü?

– Gördüm. Qorodovoylar çıxıb getdilər. Uryadnik tək qalmışdır.

Bəhram heyrətlə soruşdu:

– O nə üçündür?

– Bilmirəm. Əlibəy yəqin özünə arxayındır.

Bəhram fikrə getdi.

– Yox, – dedi, – onlar qorxurlar ki, dəfndə onların başını qarışdıraq, şəhərdə isə başqa işlərlə məşğul olaq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arşak gülümsədi:

– Bəlkə də elədir, – dedi.

Günortadan xeyli keçdiyindən Bəhram həyətə çıxıb Həsən kişini və karxana fəhlələrindən bir neçəsini içəri çağırdı:

– Vaxtdır, – dedi, – qaldıraq.

Həsən kişi o biri otağa keçdi. Cənazənin başına toplaşmış arvadlara çığırdı:

– Yaxşı, bəsdir, – dedi, – qaldırırıq. Yol verin.

Arvadlar elə bil bu dəqiqəni gözləyirmiş kimi, ağız-ağıza verib təzədən hönkürtü çalmağa başladılar. Həsən kişi üç-dörd nəfərlə birlikdə gəlib arvadları güclə cənazədən ayırdı. Nəsirin arvadı sinəsini cırmağa, saçlarını yolmağa başladı. Sonra əlləri ilə cənazədən yapışıb buraxmaq istəmədi. Arvadlar onu zorla kənara çəkib bihuş halda yerə uzatdılar.

Cənazə həyət qapısından çıxarıldıqda Bəhram gözucu Əlibəyin durduğu tərəfə baxdı. O, tək-tənha kənarda durmuşdu. Cənazənin çıxarıldığını görən kimi hərəkətə gəldi. Bəhram üzünü tez yana çevirdi və çiynini tabutun altına verdi. Həsən kişi tabutun o tərəfində onunla yanaşı gedirdi. O ancaq Bəhramın eşidə bilməsi üçün yavaşcadan mızıldandı:

– Mollasız heç yaxşı olmadı: camaat eyib tutacaq.

Bəhram addımlarının ahənginə uyğun bir tərzdə aramla dedi:

– Kasıbın elə hər şeyinə eyib tuturlar. Ölüsünə eyib tutanda nə olar ki? Fikir vermə. Belə də dəfn etmək olar. Nə fərqi var!

Küçə ilə gedən camaatdan da çoxu qəbiristanlığa gedən yolda mərasimə qoşuldu. Qala düzü yoxuşunu qalxarkən cənazənin dalınca gedən adamların sayı iki yüzdən artıqdı.

Bəhram Əlibəyin hər bir hərəkətinə göz qoyurdu. Hiss edirdi ki, qəbiristanlığa yaxınlaşdıqca Əlibəy ona yan alıb nə isə demək istəyir, qəbiristanlığın lap girəcəyində Bəhram çiynini tabutun altından çəkərək öz yerini başqa adama verdiyi zaman arxasından Əlibəyin səsini eşitdi.

– Hey, Ərəz oğlu, – dedi.

Bəhram geri qanrıldı. Qaşlarını çataraq soruşdu:

– Nə var, nə olub?

Əlibəy əlini uzun qılıncının ağ sümük sapına vurub dedi:

– Şuluqluq olmayacaq ha!

Bəhram istehza ilə gülümsədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Başa düşmürəm, nə deyirsiniz? Biz buraya nağara vurmağa yox, ölü basdırmağa gəlmişik.

Bu sözləri deyib, yoluna davam etdi.

Havanın istiliyi hələ sovuşmamışdı. Yuxarı qəbiristan düzünə yaxınlaşdıqca, nəfəsi tıxayan tozanağı irəli dağların sinəsindən əsən meh dağıdır, qəmli, kədərli sinələri xəfif tumarla oxşayırdı: adamlar cənazəni qəbirlərin arasıyla burula-burula yuxarıya, qəbirlərin xeyli seyrək olduğu yerə apardılar. Bu zaman yenicə qazılmış qəbirin yaş torpağı üstündə başını aşağı dikib gözləyən bir nəfər uzaqdan hamının diqqətini cəlb etdi. Ona yaxınlaşanda camaat təəccübə gəldi. Bu, qaçaq Məhəmməd idi. Başını aşağı dikib çəkinmədən durmuşdu. Adamlar bir-birinə dəydi, aradan pıçıltılı bir uğultu dalğası ötüb keçdi. Gözləri bərələ qalmış Əlibəy özünü itirmişdi. Əvvəlcə adamların arxasında gizlənib onu nişan almaq fikrinə düşdü. Ancaq camaatdan çəkindi. Belə zamanda, güllə atmaq hamıda ancaq qəzəb doğura bilərdi və bundan başqa, bərk ayaqda heç kəs Məhəmmədi qoyub onun tərəfində durmazdı. Məhəmmədin başı üçün verilən vədləri xatırladıqda isə, Əlibəy içindən təzədən odlanır və imkan düşən kimi sərrast güllə ilə göz qırpımında onu yerə sərməyi düşünürdü. Fikirləşdiklərini özlüyündə götür-qoy etməklə məşğul ikən bədəninin titrətməyə düşdüyünü hiss etdi. “Bu nədir? Olmaya Məhəmmədin vahiməsidir, içəridən ürəyinin tellərindən başlayıb barmaqlarının ucunadək yayılaraq bədənini lərzəyə gətirmişdir?”

Məhəmməd Əlibəyi hələ görməmişdi. Aşağı dikilmiş qüssəli gözlərinə qəflətən ona hücum edəcək düşmənlərini axtarır, nə də onların niyyətini öyrənməyə cəhd edirdi. Adamlar meyiti qaldırıb qəbirə qoymamışdan qabaq Məhəmmədlə yanaşı durmuş Bəhram qabağa keçdi və ətrafındakılara baxıb köksünü ötürdü:

– Camaat, – dedi, – biz Nəsiri vaxtından qabaq itirdik. Bunun müqəssiri var, siz onu tanıyırsınız. Onun balalarını atasız qoyan adam yaxasını cəzadan qurtara bilməyəcəkdir. Bir gün gələr, o cavab verməli olar. Zülm yerdə qalmaz. Adamlar bir gün susar, iki gün susar, dözərlər. Ancaq intiqam yaddan çıxmaz... Qoy Nəsiri öldürənlər güman eləməsinlər ki, onun balaları yetim, başlı-başına qalacaqdır. Yox, Nəsirin balaları bizim balalarımızdır...

Bəhram danışdıqca Məhəmməd altdan-altdan onu süzürdü. Birinci dəfə idi ki, o, bu gənc dəmirçinin belə dilli-dilavər olduğu-



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nu görür, sözlərinin ürəklərə yol açaraq, hamını içəridən göynətdiyinə şahid olurdu. Məhəmmədə elə gəldi ki, bacısı uşaqları atalarının ölümündən sonra, doğrudan da, yetim qalmayacaqdır. Onlar ağır günlərdə Ərəz oğluna arxalana biləcəklər. Əlibəy Bəhramın sözlərindən zəncir çeynəyirdi. Məhəmmədin ağzına dil atdığı üçün onu elə indicə bir güllə ilə yerə sərib, Nəsirlə birlikdə o biri dünyaya göndərərdi. Ancaq bu dəqiqə onun üçün Məhəmməd ceyran südü kimi ələ düşməz qənimət idi. O nə olursa-olsun Məhəmmədi öldürməyi, ya da yaralayıb pristavın əlinə verməyi qət etdi. Buna görə də Məhəmmədin gözünə görünməməyə, adamların arasında nəzərə çarpmamağa çalışaraq, fürsət gözləməyə başladı.

Meyiti qəbirə salladıqdan sonra üstünü torpaqlamağa başladılar. Məhəmməd əyilib torpaqdan bir ovuc qaldırdı və qəbirin üstünə atdı. Əlibəy onun ən əlverişli fürsət hesab edib tapançasını ona tuşladı. Güllə açıldı, sakit qəbiristanlıqda şiddətlə şaqqıldadı. Adamlar dönüb baxdıqda Əlibəyin tapançasını yerdə gördülər. O, əlindən yaralanmışdı. Onu kim vurdu? Məhəmməd ki, nə gözünü qaldırıb adamlara baxmış, nə də ki, tüfəngini qaldırıb bir adamı nişan almışdı? Oradaca məlum oldu ki, Əlibəy Məhəmmədə güllə atmaq istəyəndə başqa bir adam bunu görüb, ondan qabaq Əlibəyin əlini yaralayıb, tapançasını yerə salmışdır. Bəs bunu kim etmişdi? Bir azdan hər şey aydınlaşdı. Qəbiristanlığın sağındakı qoşa ağacların budaqları tərpəşdi. Orada adamların gizləndiyi gözdən yayına bilmədi. Güllə də bu ağaclardan açılmışdı. Məhəmməd tövrünü pozmadan yenə qüssəli durmuşdu. Adamlar dağılışana yaxın o irəliləyib, atalarının qəbiri üstünə gəlmiş Nəsirin iki oğlunu qucaqlayıb bağrına basdı və yavaşdan nə isə dedi. Sonra tələsmədən ağacların altında durmuş atlardan birinin üstünə sıçradı, bir anın içində çapıb gözdən itdi. Ağacların başındakı iki nəfər qaçaq da yuxarıdan atlarının bellərinə tullandılar və Məhəmmədin arxasınca çapdılar.

Əlibəy cib yaylığını yaralı əlinin üstünə basaraq, qaçaqların dalınca baxa-baxa qaldı. Günün günorta vaxtında Məhəmmədi əldən buraxdığı üçün özünü məzəmmətlədi. Hələ pristavın ona nə deyəcəyini düşünmürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## IX fəsil

Dəfn mərasimində iştirak etmiş cavanlardan bir dəstə, qəbir üstündən Hacı Xeyrinin karxanası qabağına gəldilər. Bəhram onların buraya nə məqsədlə toplaşdıqlarından xəbərsiz idi. Lakin onların hərəkətlərindən, öz aralarında pıçıldaşmalarından hiss etdi ki, nə isə mühüm bir iş görmək fikrinə düşmüşlər. Bu məqsədlə qəbir üstündən qayıtdıqdan sonra Arşakla sözləşib, cavanların dalınca getdilər. Cavanlar qapıları və pəncərələri bağlanmış karxanaya yaxınlaşan kimi, onu daşqalaq etməyə başladılar. Pəncərələrin şüşələri cingilti ilə qırılıb töküldü. Yağdırılan daşların ardı-arası kəsilmirdi. Bəhramla Arşak işi bu yerdə görüb qabağa cumdular və həyəcanla əllərini yellətdilər.

– Siz nə edirsiniz? – deyə Bəhramın səsi eşidildi.

Cavanlardan biri əlində hazır tutduğu daş parçasını qolaylayıb bərkdən çığırdı:

– Çəkil, oradan, – dedi, – tütün maşınlarını dağıdıb tökəcəyik. Qoy görsün ki, başqasının balalarını ağlar qoymaq necə olur!

Bəhram qollarını açıb durmuşdu. O, bir addım yaxınlaşaraq gözlərini hələ də əlindəki daşı qolaylayıb durmuş oğlana zillədi.

– Yox, – dedi, – qoymayacağam. Pəncərələrin, maşınların nə günahı var?.. Tökün yerə daşları.

O biri gənclər də əllərində daş parçaları, hazır gözləyirdilər. Arşak tez Bəhramın yanına keçdi. Bir tərəfdə on-on beş nəfər gənc oğlan, o biri tərəfdə isə Bəhramla Arşak üz-üzə durmuşdular. Heç biri dinmirdi. Bəhram gənclərin sakitcə durub heç bir qərara gələ bilmədiklərini gördükdə mülayim səslə onlara müraciət etdi:

– Bizim düşmənlərimiz maşınlar deyil. Sözümüzü Hacı Xeyri kimi adamlara deməliyik...Onunla biz özümüz danışacağıq... Sizin əvəzinizə də biz deyərik... nahaq yerə özünüzü xataya salmayın... Nə qədər gec deyil, dağılışın. Gecikséniz qorodovoylar özlərini buraya çatdırıb sizi tuta bilərlər.

Cavanlar Bəhramın sözlərindən sonra bir anlığa fikrə gedib, hərəkətsiz vəziyyətdə qaldılar. Gözləri Bəhrama zillənsə də, daxilən Bəhramın sözlərini düşünür, öz hərəkətlərinin nə dərəcədə Qara Nəsirin ailəsinə kömək edə biləcəyini götür-qoy edirdilər. Qolları yanlarına düşdü, bir-birilə baxışdılar. Sonra sakitcə hadisə yerindən uzaqlaşıb getdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar yenicə döngələri burulub gözdən itmişdilər ki, Hacı Xeyri qısa qıçlarını güclə arxasınca sürüyə-sürüyə təngnəfəs küçədə göründü. O yaxınlaşıb mat qaldı. Gözlərini bərəldərək gah şüşələri qırılmış pəncərələrə, gah da Bəhramla Arşaka baxaraq, əllərini dizlərinə çırpırdı. Nə isə demək istədi. Ancaq xırıltı qarışıq fit səsindən başqa heç bir şey eşidilmədi. Öskürdü, boğazını arıtdı. Əllərini ölçə-ölçə Bəhramla Arşakın üstünə yeridi.

– Ada, siz and içmişsiniz ki, mənim axırıma çıxasınız? Hər şeydən qurtardınız, indi şüşələrə əl atdınız? Balam, nə istəyirsiniz?

O, yumruqlarını havada qolaylayaraq, qəzəblə irəli hücum çəkirdi. Dükanın daşqalaq edilməsi səsinə hamıdan qabaq öz dükanından çıxıb baş vermiş hadisəni gözləri ilə görmüş yoğun qəssab, bədəninə uyğun səsini ucaltdı:

– Hacı, sən bunların üstünə nahaq qızırsan, – dedi, – insafla danış. Axı onlar olmasaydı, sənin karxanandan heç bir şey ələ gəlməyəcəkdi. Mən öz gözlərimlə gördüm, bu Ərəz oğlu sinəsini qabağa verib durdu. O daşlardan biri elə özünü də yerə sərə bilərdi. Ancaq kişi oğlu qoymadı. Sözü bütöv adammış...

Hacının bədəni əsirdi. Gözlərini döyəcləyərək, qəribə vəziyyətdə qalmışdı. O, heç yuxusunda da inanmazdı ki, Ərəz oğlu Arşakla birləşib onun malını qoruyar. Dünənə qədər hacının kölgəsini qılınclayan onlar deyildimi? Hələ bu gün qəbir üstə, eşitdiyinə görə, onun bostanına atılmış atmacaları yadına salmaq istəmirdi. Bəs necə oldu ki, indi birləşib, onun karxanasının qeydinə qaldılar? Yox, bu inanmalı şey deyildi. Yəqin ki, bunu gözdən pərdə asmaq üçün eləyiblər... Buna görə də qəssaba tərəf qanrıldı:

– Sən də onlara inandın? – deyə başını yellədi. – Onların məni görməyə gözü yoxdur, o ki, malım ola. Nə bilirsən ki, bunu da özləri düzəltməyiblər, hə?.. Mən onların dabbağda gönlərinə balədəm.

Karxananın dövrəsinə toplaşmış başqaları da hacının insafsız, acı atmacalarına dözə bilmədi. Kimsə istehza ilə hacıya söz atdı:

– Bu adamlar çörəyi burunlarına yemirlər ki. Təqsir axı Ərəz oğlundadır, niyə onların qabağını kəsdi, qoyaydı, sındırıb tökəydilər, bəlkə onda hacı rahat olaydı.

Başqa səslər də eşidildi. Bəhram və Arşak burada çox durmağı daha lazım bilməyib getmək istədilər. Əli üzülmüş hacı onların qabağını kəsdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Barı deyin görüm daşqalaq eləyən kim idi? Gedim yapışım yaxasından. Bu qədər xərcin altından mən necə çıxacağam?..

Bəhram çiyinlərini çəkdi, hacının yanından ötüb-keçərkən yavaşcadan dedi:

– Tanımadım, cavan uşaqlardı. Ancaq hacı, sən gərək Nəsirin uşaqlarına kömək edəsən... Əl tutmasan, karxanada heç kəs işə çıxmayacaq. Sənin özün üçün də pis olar...

Bəhramla Arşak yeyin addımlarla uzaqlaşdılar. Hacı yenə yoğun qəssaba tərəf qanrılıb, əllərini dizlərinə vurdu:

– Sizə deyirəm, inanmırsınız, bütün bu kələyi düzəldən onlar özləyirmiş. Görmürsən məni necə qorxudur... İşə çıxmırlar, cəhənnəmə çıxsınlar! Mən adam taparam. Bilirəm də, onlara od qoyan elə bu iki nəfərdir...

Hacı qollarını açıb toplaşanlara müraciətlə soruşdu:

– Bəs, qorodovoylardan heç biri görmədi?.. Heç olmazsa, onlar şahid olardı.

Kim isə dilləndi:

– Qorodovoyların burada nə işi var? Onlar kilsə meydanından kənara çıxırlar ki?

Hacının əli hər yerdən kəsildi. Ayaqlarını sürüyərək karxanaya yaxınlaşdı. Şüşələri qırılmış pəncərələrdən boylanıb, qorxa-qorxa içəri baxdı. Kərpic döşəmənin üstü şüşə qırıntıları ilə dolu idi. İri daş parçaları da orda-burda düşüb qalmışdı. Bir daş parçası tavandan asılmış otuzluq lampanın başını aparmışdı. Hacı dibdəki tütün taylarını da nəzərdən keçirdi. Qüvvətlə atılmış daşlardan bir neçəsini orada da gördü. İçəriyə böyük zərər vurulmadığını yəqin etdikdən sonra ürəyi azca toxtadı. Bununla belə, Əroz oğlundan heyf çıxacağına and içdi: "Atamın oğlu deyiləm, bütün xərcləri onun belindən çıxmasam".

O ləngiməyib birbaşa pristavın divanxanasına yollandı. Pristav yerində idi. Əhvalatı yerli-yerində ona danışdı. Pristav gah qaşlarını çatdı, gah bığlarını gəmirdi. Bəhramın adını eşitdikdə isə lap özündən çıxdı. Bu gün qəbir üstündə günün günorta çağı qaçaq Məhəmmədin Əlibəyin başına açdığı oyunun acığını bu dəmirçi oğlundan almaq istədi. Əlini qəzəblə stola çırpdı. Qorodovoylardan birini tez hadisə yerinə göndərib, akt bağlamağı tapşırdı. Akt bağlandı. Ancaq orada yazılanların hamısı Bəhramın xeyrinə çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məlum oldu ki, Bəhram olmasaymış uşaqlar Hacı Xeyrinin karxanasının axırına çıxacaqlarmış. Bunu şahidlərin hamısı təsdiq edirdi. Pristav aktı oxuduqdan sonra ancaq təəssüf etməli oldu.

## X fəsil

İyun ayının əvvəlləri idi. Yağışların arası kəsildiyindən torpağın canından rütubət buxarlanmış, ağacların budaqlarında yarpaqların üzərini zərif toz örtüyü bürümüşdü. On-on beş gün qabaq göyün mavi dərinliyində üzən qalaq-qalaq ağ buludlardan indi əsər görünmürdü, göyü sanki birdəfəlik tərk etmişdilər. Belə havalarda, şəhərə yuxarıdan baxılsaydı küçələrdən, döngələrdən, şəhərə gələn yollardan, ağacların sakitcə mürgüyə dalmış təpələri arasından göyə boz toz buludlarının qalxdığını görmək olardı. Gövdəli çinarların, qollu-budaqlı iydələrin çətirləri arası ilə gedən fayton çarxlarından da burum-burum toz qalxırdı. Bu gün günortadan sonra da körpü başından qalxan tozanaq sanki əl-ayaq tutub öz yüngül çəkisi ilə şəhərin içərisinə doğru addımlayırdı. Vzvod məşqdən qayıdırdı. Şəhərin içərisinə daxil olduğu zaman soldatlardan biri zil səsini uzadaraq oxumağa başladı. O biri soldatlar da ona qoşuldular və döyüşkən bir hücum marşı şəhərin üzərində bürkülü havada qanad çalmağa başladı.

Vzvod küçələri burulub qız məktəbinin açıq pəncərələri qabağından keçərkən qızlar yüyürüşüb bayıra boylandılar. Dərs ilinin axırıncı günləri olduğundan müəllimə Lalənzar da buna etiraz etmədi. O özü də qızların arxasında durub, yolla ötən soldatlara tamaşa etdi. Soldatların günəşdə qarsalanmış üzləri tərləmişdi, kürəkləri islanıb, köynəkləri bədənlərinə yapışmışdı. Soldatlar qızların qışqırığına pəncərələrə tərəf ani bir nəzər salıb yollarına davam etdilər. Onlardan yalnız bir nəfəri gözlərini məktəbin pəncərələrindən çəkə bilmədi. O, addımlarını yavaşıtdı. Özü də bilmədən yoldaşlarından geri qaldı. Vzvod döngəni buruldu. Soldat isə yerində mıxlanıb gözlərini pəncərədən çəkmirdi. Qızlar onun hərəkətlərinə gülüşərək öz aralarında bir-birilərinə söz atdılar. Lalənzar da soldatın hərəkətinə təəccübləndi. Ona nə olmuşdur? Niyə beləcə yerində donuxub onlara tərəfə baxır? Birdən Lalənzar durduğu yerdə sarsıldı. “Özüdür, – deyə dodaqaltı pıçıldadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yağışlı havada faytona mindirdiyim soldatdır". O öz pıçıltısından diksindi və qızları ayıq salacağından ehtiyat edərək, gizlincə onları süzdü. Yox, duymamışdılar. Onlar küçənin ortasında durub gözlərini bu tərəfdən çəkməyən soldata gülüşürdülər. Qızlardan biri, hətta Lalənzara tərəf qanrılıb soruşdu:

– Müəllimə, ona nə olub belə? Niyə duruxub gözlərini bizdən çəkmir?

Lalənzar dinmədi. İndi o da donuxmuş soldatın özü kimi yerindəcə elə bil sehrlənmişdi. Ürəyinin çırpındığını, başı üzülmüş quş kimi sinəsində yeyin-yeyin çapaladığını hiss edirdi. Birdən ona elə gəldi ki, ürəyinin bu həyəcanlı döyüntüsünü yanındakı qızlar da eşidir. Karıxmış halda pəncərədən geri çəkildi. Qızlar onun hərəkətinə əhəmiyyət vermədilər. Hələ də zarafatla soldatın ünvanına sözlər düzəldir, pıçıldaşır və bəzisi, hətta əlini pəncərədən ona sallayırdı da. Soldat nə qımıldanır, nə bir tərpənişdə olur, nə də qızların hərəkətlərinə cavab verirdi. Onlardan biri dedi:

– Vallah dəli olub!

Başqa birisi öz yoldaşının sözünü kəsdi.

– Yox, onu gün vurub, görmürsən, dili-ağzı necə quruyub? Babam deyir ki, gün vuran adam keyləşər, yerindən tərpənə bilməz.

– Bəlkə bizə aşiq olub?

Ağbənizli qırmızı totuq qızın dediyi bu sözlərə qızlar birağızdan gülüşdü. Cingiltili qız qəhqəhələri ətrafa yayılıb soldatın da qulağına çatdı. Ağbənizli qız özü isə müəllimənin onların arxasında duraraq, qüssəli nəzərlərlə baxdığını gördükdə tutuldu və başını tez yoldaşlarının arasında gizlətdi. Lalənzar heykəl kimi hərəkətsiz idi. Bir azdan soldat, nəhayət, hərəkətə gəldi. Əlini cibinə atıb, iri bir yaylıq çıxartdı. Tərləmiş boynunu, üzünü sildi. Onu qoxulayırmış kimi burnunda saxladı, sonra qəribə bir hərəkətlə sinəsinə dürtdü. Lalənzarın sinəsindən təzədən iztirablı bir dalğa atılıb keçdi. Onun yaylığı idi. İlk dəfə yağışlı gündə bu yaylığı məhz bu soldatın əlində görmüşdü. Təkidli suallarına qarşı soldat yalnız: "Bazardan almışam" demişdi. Yalnız. Başqa heç bir söz ondan qopara bilməmişdi. O zaman soldatın hərəkətindən şübhələnmişdi də. Bəs indi necə? Yox, indi onun ürəyində heç bir şübhə, dumanlı ehtimal yoxdu. Yaylığı təzədən bu soldatın əlində görərkən elə bil qəribə bir duyğu onun qəlbini gözəgörünməz gizli yollarla, tanımadığı, ikicə dəfə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gördüyü bu sarışın gəncin taleyinə bağlamağa sövq edirdi. Nüfuzedici, ağıllı, iri mavi gözlər sanki ona çoxdan tanışdı. "O kimdir? Yaylıq onun əlinə necə düşmüşdür?! Belə munis hisslər birdənbirə hardan əmələ gəldi?"

Bu düşüncələr Lalənzarı elə çulğadı ki, o, sinifdə qızların yanında olduğunu belə unutdu. Vərəqə bükülmüş yaylığı dəmirçi Bəhrama verdiyi yaxşı yadında idi. Görsən, bunu ona Bəhrammı vermişdir? Əgər belə isə bəs Bəhram nə üçün bu barədə ona heç bir söz deməmişdir? Qalada hamını ayağa qaldıran gənc matros budurmu?

Soldat yaylığı sinəsindən çıxarıb təzədən cibinə qoyduqdan sonra qolunu qaldıraraq, əlini pəncərəyə tərəf salladı. Lalənzar da qeyri-ixtiyari başını sinəsinə tərəf əyərək onunla xudahafizləşdi. Bunu qızlardan heç biri sezə bilmədi. Soldat iri, gümrah addımlarla yoluna davam etdi.

Lalənzar soldatın adını bilmirdi. Oxucular isə, yəqin ki, onu tanıdılar. O, Bondarçuk idi.

Qızlar pəncərədən uzaqlaşıb, yerlərində oturdular. Onlardan birisi barmağını qaldırdı:

– Müəllimə, bir söz soruşum?

– Buyur.

– Müəllimə, deyirlər, buraya göndərilən soldatlar Nikolay padşahın gəmisini oğurlayıb, Rumıniyaya satıblar, doğrudur?

Qabaq cərgədə oturan bir qız müəlliməyə ağzını açmağa macal vermədən geriyə qanrıldı:

– Əlbəttə, doğrudur. Oğru, qaçaq olmasaydılar, onları buraya sürməzdilər! Rusiyyətdən buraya!

Üçüncü qız söhbətə qarışdı:

– Düz deyir. Adamı boş yerə qürbətə göndərərlər? Özü də nə az, nə azacıq, beş yüz nəfər. – O, dodaqlarını büzdü.

Lalənzar dalğın-dalğın otaqda gəzişirdi. Tərini onun yaylığı ilə silən mavi gözlü soldatın surəti hələ də xəyalından silinməmişdi. O, yaxınlaşıb sual verən qızın qabağında durdu:

– Doğru demirlər, qızım, – dedi. – Onlar gəmini oğurlamayıblar və oğru da deyillər. Onlar üsyan etmişdilər. Buraya sürgün olunanlar da belə matroslardandır. Onlar qəhrəmandırlar... diz çökməyən qəhrəmanlar isə heç yerdə, qürbətdə də ölmürlər... Onlar hər yerdə qəhrəmandırlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, yenə irəliləyib pəncərəyə yaxınlaşdı. Bir neçə dəqiqə qabaq matrosun durduğu yerdə, tozlu yolun ortasında soldat çəkmələrinin izi hələ də silinməmişdi. Lalənzar daxilində qərib, çoxdan unutduğu bir hissin çəkingənliklə özünü sezdirdiyini duydu. Bu, doğrudan da qəribə idi. Həm tanış, həm də ağır, üzüntülü illərdə tamamilə unutduğu bu yad hissin belə tələşlı, həyəcanlı tərpənişi Lalənzarın bədənində ani parıltılı bir şölə saçıb keçdi. Qadın özü də bundan xəcalət çəkdi. Ətrafındakı hər şey, cansız şeylər belə, elə bil ona tənə vurdu. O, bütün gəncliyini həsr etdiyi adamın müqəddəs xatirəsinə xəyanət edir, nədir? Yox, o bu saat ürəyini, ən iti bir bıçaqla kəsib atmağa hazırdı. O, belə düşünür, ürək isə öz işində idi, əlçatmaz ürək!.. Qarışıq xəyallar içərisində Lalənzar öz qəlbi ilə çırpınarkən, arxasından pıçıltı ilə deyilən istehzalı bir səs eşitdi:

– Bəs öz əri qürbətdə ölməyibmi? Buna nə söz deyə bilər? Bu sözlər iti bir xəncər kimi qəflətən arxadan onun ürəyinə sancıldı. Çiyni üstündən qanrılıb geri baxdı. Bütün bədənini sarsıtmış bu sözlərin kim tərəfindən deyildiyini gözləri ilə axtardı. Qızların ürkək nəzərləri ona zillənmişdi. Bəzisinin üzündə təbəssüm hiss olunurdu. Lalənzarın gileyli baxışları altında bu təbəssüm bir an içərisində əriyib yoxa çıxdı. "Onlardan kim cəsarət edib demişdir?" Lalənzar öz-özünə soruşdu və üç-dörd il müddətində onları savadlandırmaq üçün gecəli-gündüzlü heç şeyini əsirgəmədiyini, əziyyətə qatlaşaraq onların gələcəyi ilə yaşadığını ürək ağrısı ilə xatırladı. Başı sinəsinə düşdü. Neçə dəqiqə beləcə durduğunu özü də hiss etmədi. Sinfə çökən səssizlikdən qulaqları cingildədi. Qurğuşuna dönmüş başını qaldırdığı zaman bütün qızların sifətində yalnız bir şey oxunurdu: peşmançılıq. Düşünülməmiş bir qəbahətdən doğan peşmançılıq. Bəlkə elə buna görə idi ki, bəziləri başını qaldırıb, Lalənzarın üzünə baxmağa cəsarət etmirdilər. Bəs onlardan hansıdır? Hansının ürəyində ona qarşı belə tikanlı, tənəli sözlər yuva sala bilər? Təsəvvürünə sığışdıra bilmədiyi bu sözlər, görəsən düşünülmədən deyilmişdimi? Yoxsa bir şeylə əlaqədardır? Lalənzarın bilmədiyi, gizli niyyətlə? Axı kimdir? Yəqin ki, bir nəfərdir? Hamısı ki, birağızdan çığırmadı! Bəs kimdir, hansıdır? Atılan daş geri qayıtmaz, xüsusilə hədəfə sərrast atıldığı zaman. Buna görə də onun kim tərəfindən atıldığının fərqinə varmağın mənası yoxdur. Lalənzar işgüzar addımlarla yazı taxtasına yaxınlaşdı. Bir azdan yazı taxta-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sında iri hərflərlə yazılmış "İnsan necə yaşamalıdır?" sözləri sinifdə yenidən dilsiz – darıxdırıcı sükutun dərinləşməsinə səbəb oldu. Qızlardan birisi içini çəkdi. Bəziləri təəccüblə dönüb bir-birinin üzünə baxdılar. Lalənzar bunu hiss etsə də etinasızcasına sinifdə gəzişməyə başladı. Pəncərəyə yaxınlaşdı. Bir az əvvəl Bondarçukun durduğu yerə bir də nəzər saldı. Onun qüssəli mavi gözlərini xəyalında canlandırdı. İçərisindən səslər eşitdi. Bu səslər gənc soldatın hərəkətlərini yozurdular; hərəsi bir cür, özünə görə!.. Ən inadkar bir səs isə qəlbi tərpədən hisslərdən dəm vururdu. Bu axırıncı səs, Lalənzara məsum bir körpə nəfəsi tək təravətli göründü. O, bu səsi sanki ciyərlərinə çəkdi, onu öz nəfəsi ilə isindirdi. Səs riqqətli qəlbinə munis kəsildi. Bu, bəlkə onun səsi idi. Çünki onda öz nəfəsinin duyulduğunu hiss etdi. Lalənzar daxilində püskürməyə hazırlaşan bir vulkanın titrəyişini sezdiyi üçün ona qarşı amansız mübarizəyə hazır vəziyyət aldı... "Bu heç cür ola bilməz... Onun əziz xatirəsinə xəyanətmi edirəm? Yox, yox, heç cür..." Yaxıcı bir əl sanki onun çiyinlərindən yapışıb, arxaya tərəf çevirdi. Qızların nəzəri ona çevrilmişdi. Heç biri qələmi əlinə alıb yazmırdı. Təəccüblü, anlaşılmaz nəzərlər bir-birinə qarışmışdı. Yer-yerdən sanki soruşurdular: "Bu nə mövzudur? Sən bizi haralara çəkib aparırsan? Bir dəfə büdrədiyin bəs deyilmi?" Lalənzar zorla gülümsədi:

– Nə olub? Niyə yazmırsınız? Bəlkə mövzu aydın deyil, hə?

Qızlardan dinən olmadı. Lalənzar vəziyyətin ciddiləşdiyini duyub mövzunu aydınlaşdırmaq istədi: – İnsan necə yaşamalıdır, həyat məsələsidir. Hərcayi ömür sürmək yaşamaq demək deyil. İnsan həyatda yaşadığı zaman özünün gözəl sifətlərini aşkara çıxarmazsa, onun həyatının mənası olmaz. İnsan gözəl yaşamalıdır. Gözəlliyi isə əsl yaşayanlar başa düşür...Görürsünüzmü, bu məsələnin öhdəsindən gəlmək o qədər də çətin deyildir...

Qızlar baxışıb qələmi ələ aldılar. Bəzisinin sifətindən bir az əvvəlki təəccüb hələ də çəkilməmişdi. Nəzərlərində təəccüb duyulan qaşları çatıq qızlar isə hələ də fikirləşirdilər. Lalənzar onlara etina etmədən, yenə sinifdə gəzişməyə başladı. Kağızların üzəri ilə hərəkət edən qələmlərin xırçıltısı sinfi ağzına almışdı. Bayırdan uşaqların çığır-bağırtısı eşidilsə də qızların yazısına mane olmurdu. Bir neçə dəqiqədən sonra mövzunu yazmayan bir nəfər də qalmamışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lalənzar yazıları yoxlamaq üçün axşam özü ilə bərabər evə gətirdi. Dəhlizdən qonaq otağına keçdikdə ərinin şəkli əvvəlki kimi iri, ağıllı gözləri ilə onu qarşıladı. Gənc qadın həmişə bu gözlərə baxdığı zaman, ötən günləri bir anlığa təzədən yaşayırdı. Sevdiyi ilk gündən başlayaraq, ərini sürgünə yola saldığı qara günlərədək, bir-birinin üzərinə yüklənən xatirələr onun gözü qabağından ötüb keçdikcə, mərd sifətli bu gəncin xatirəsi onun üçün daha əziz və müqəddəs kəsilirdi. Şəklə baxdıqca otuz yaşına çatmamış ərinin gözləri elə bil qıyılır, dodaqlarında təbəssüm görüşüb ayrılmışdı. Əbədi, silinməz təbəssüm! Lalənzar şəklin qarşısında ayaq saxladı. O yenə də cansız şəkildən belə bir təbəssüm, təskinlik gözləyirdi... Lakin iri gözlər ona zillənsə də, cansız və hərəkətsiz idi. Hətta bu gün onlar Lalənzara bir az qüssəli və gileyli göründü. Giley nə üçündür? Nə üçün həmişəki oynaq, fərəhli şərarələr bu gün özünü göstərmir? Onlara nə olmuşdur, nə üçün bu gün sönükdürlər? Yoxsa, Lalənzar xəyanətli bir iş tutmuşdur? Yoxsa ərini müqəddəs sanıb, and içdiyi xatirəsinə toxunmuş, ona açıq, ya gizli ləkə vurmuşdur? Qadın barmaqları ilə saçlarına daraq çəkib, şəklə tərəf irəlilədi. Onun gözləri bərəlmişdi. Dodaqları tərpənirdi. Öz-özünə sual verirmiş kimi yavaşcadan səsləndi. “Mən nə etmişəm?” – Cəmi iki-üç saat qabaq, sinif pəncərəsindən gördüyü soldatı xatırladı. Bu, ürəyinin yerindən oyanıb, çırpınması ilə bir zamanda oldu. “Yox, – dedi, – mən sənin xatirinə xəyanət etmədim. Mən bu mərd insanları gördüyüm zaman yalnız bir şeyi, sənin mərdliyini xatırlayıram, vəssalam. Axı başqaları səni mənə xatırladırsa, qəlbimdə sən daha yeni üfüqlərə qalxırsan, böyüyürsən, heç bir şeylə əvəzedilməz fövqəladə bir qüvvəyə çevrilirsən! Mənim əzizim, bu o deməkdirmi ki, mən qəlbimi başqasına verirəm? Yox, yüz dəfə yox, min dəfə yox. Mənim qəlbim səninlə gömülmüşdür, yerini bilmədiyim, tanımadığım yerdə, bəlkə kol-kos basmış bir təpənin üstündə. Bəlkə də bir çay kənarında. Ya da yağışların tez-tez yuduğu yolların üstündə. Bəli, harada gömüldüyünü bilmirəm. Ancaq bir şeylə fəxr edirəm ki, sənin qəlbinlə bir yerdə böyür-böyürə həmişəlik dəfn edilmişdir. Əgər, o indi sinəmdə çırpınırsa, bu ancaq quru bir əks-sədadır, ruhsuz bir əks-səda, mənim əzizim. İnsan da məgər ağaclar kimi ayaq üstə ölmürmü? İnan ki, bizim aramızda yalnız bir fərq vardır. Sən torpağın altında rahatca uzanıb gözlərini yummuşsan, mən isə torpağın üstündə, ayaq üstə, əziy-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yətlə ölmüşəm. İndi inandınmı mən sənin xatirənə ləkə vurmamışam!.. Mənim səcdəgahım... mənə elə tənəli, nisgilli baxma, qəlbimi yaxma, gülümsün, o təbəssümü də məndən əsirgəmə... axı mənim indi bu dünyada yeganə dövlətim yalnız odur! Sənin dodaqlarındakı təbəssüm..."

Lalənzar çox gözlədi... nəhayət, qadın sanki ərinin dodaqlarında ağır-ağır sezilən təbəssümü sezdi...ürəyi toxtadı... Ərinin ruhu ondan razı qalmışdı.

## XI fəsil

Lalənzar ərinin xatirəsi ilə qarşı-qarşıya durub vicdanı ilə söhbət etdiyi zaman, matros Bondarçuk qışlada çarpayısına uzanıb bu cənublu qadın haqqında tamam başqa mülahizələr yürüdürdü. Qarışıq, ziddiyyətli düşüncələr beynində toqquşur, cənub gözəlinin simasında gah onların hərəkətini izləyən gizli xəfiyyə adamı, gah da yalnız sevilmək üçün yaranmış sevimli bir qadın surəti canlanırdı. Matrosun düşüncələri qayalara hücum çəkib parçalanan ləpələri andırırdı. O, yalnız iki dəfə gördüyü bu qadın haqqında, müəyyən bir qərara gəldiyi zaman dərhal fikirləri qarışıb parçalanır, mühakiməsi yenidən başqa istiqamətdə işləməyə başlayırdı. Ancaq düşüncələr qarğaşalığında Bondarçuk üçün açılan aydın bir məntiq ona fikirləşdiyi qadın haqqında düzgün təsəvvürə gəlməyə kömək edirdi. Bu da ondan ibarət idi ki, cəmi iki dəfə gördüyü bu qadının simasında yalnız nəcib çarpa bilən bir qəlbin açıq-aydın təzahürü vardı. Bondarçuk özü də sezmədən qadına daha munis hisslərlə yanaşmağa başladı. İndi o, Bondarçuku öz hərəkətləri ilə şübhəyə salan müəmmalı bir qadından, gözəl qaraya bürünmüş füsunkar bir məxluqa çevrilmişdi. İri, cazibədar gözlərinin həzin baxışları ilə o üzərinə düşə bilən şübhələri ecazkarcasına özündən uzaqlaşdırmağa qabildi. Yad qadın Bondarçukun nəzərində daha da yüksəldi. Ona qarşı qəlbində, hələ aydın olmayan dumanlı bir hissin də baş qaldırdığını duydu. Yox, belə qadınlar ancaq sevilməyə, onların haqqında ürək çırpıntısı ilə düşünməyə layiqdirlər. Viktor özözlüyündə gəldiyi belə bir qənaətə baxmayaraq, bu cənublu qadın haqqında Bəhramdan soruşmağı lazım bildi...

Qonşu çarpayıdan eşidilən səs onu düşüncələrdən ayırdı.

– Viktor, deyəsən intelligent öz yerini sənə verir axı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu, Viktorun həmişə hörmətini saxladığı soldat idi. Özünün dediyinə görə, Viktorla həmyerli idi. Yaşca Viktorla onun arasında xeyli fərq olsa da, çox təvazökar və sadə idi. Matroslara rəğbəti vardı. Viktor onun sözünü əvvəlcə başa düşmədi:

– Necə intelligent? – soruşdu.

– Poqrebnyuku deyirəm də. O qədər fikirləşdi ki, axırda ağacdan asıla qaldı. Deyirəm, yəni fikirləşməyin xeyri yoxdur.

Viktor gülümsədi:

– Mən çalışacağam, – dedi, – fikirləşdiklərim ağacın altında qurtarmasın. Ağacın altında qurtarmaq üçün heç fikirləşmək lazım da deyil.

Soldat ətrafına baxıb başını Viktora tərəf uzatdı.

– Bu saat fikirləşmək Rusiyanın hər tərəfində qorxuludur, – dedi. Başını saxlamaq istəyirsənsə fikirləşmə.

– Fikirləşməyəndə də olmur, axı ay yerli!

– Olur, olur. Siz çalışın ki, fikirləşməyəsiniz. Mənim sizə yazığım gəlir... gözünüz baxa-baxa özünüzü ölümə verirsiniz. Məgər, xaliq buna görə sizi yaradıb? Mariyski polkunda eşitmisən nə olub?

Viktor dikəlib oturdu:

– Eşitməmişəm, nə olub ki?

Soldat başını yırğaladı.

– Eh, – dedi, – birdən-birə beş nəfərə ölüm cəzası kəsilib. *Polkun soldatları hökmü yerinə yetirməkdən boyun qaçırıblar.* Əhsən, uşaqlar, sözü bir yerə qoyublar, axıradək də sözlərinin üstündə durublar.

Viktor təəccüblə soruşdu:

– Bunu yəqin bilirsən?

Soldat başı ilə təsdiq etdi:

– Səhihdir. Hətta... – soldat səsini bir az da yavaşıtdı, – iki saat qabaq növbətçi gizlicə mənə dedi ki, Mariyski polkunun yefreytoru gəlmişdir.

– Nə üçün?

– Nə üçün olacaq? Aydın şeydir ki, bizlərdən aparmaq istəyirlər.

– Yəni deyirsən, bizim əlimizlə onları güllələmək istəyirlər?

– Bəs necə? Madam ki, öz soldatları güllələmək istəmir, gərək başqalarını çağırsınlar. Aydın şeydir ki...

Bondarçukun qaşları çatıldı. Soldatın sözləri arxasında gizlənmiş qanlı cinayət onun gözləri qarşısında qorxunc bir səhnə kimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəhşətli boyalarla canlandı. Yaylım atəşi ilə sinələri qana bulanmış öz silah dostlarının mərdliklə torpağa yıxıldıqlarını sanki gözləri ilə gördü, onların qürurlu səsini qulaqları ilə eşitdi. "Yox, olmayacaq, – içərisindən gələn üsyankar bir səs onu köməyə çağırdı – öz qardaşlarımızı öz silahlarımızlamı? Yox..."

Bondarçuku daha çox narahat edən, xəbərin ona gec çatdırılması idi. Dobrovolski şübhəsiz ki, ona təklif ediləcək bu işdən boyun qaçırmayacaqdı və əksinə, onu daha da sürətləndirmək üçün, bəlkə də gecəyarısı, heç kəsin xəbəri olmadan soldatları Mariyski polkuna göndərməyə tələsəcəkdi. Bu fəlakət idi və onun qarşısı alınmalı idi. Ancaq necə? Hansı yollarla? Gec deyildimi?

Bondarçuk yerində otura bilmədi. Soldatların çoxusu, gündüzün əziyyətli təlimindən sonra, ağır yuxuya getmişdi. Künc tərəfdə uzanmış Demeşko isə yatmamışdı. Nə işlə isə məşğuldu. Bondarçuk ayağa qalxıb ona yaxınlaşdığı zaman Demeşkonun tikişləri sökülmüş köhnə şalvarına kök atdığını gördü. Dinməz keçib onun yanında oturdu. Demeşko təəccüblə dönüb baxdı:

– Viktor, nə olub belə? Qaş-qabağın dumanlıdır.

Bondarçuk dalğın gözlərini onun tərli sifətində gəzdirdi, dinmədi. Demeşko dərhal hiss etdi ki, mühüm bir hadisə üz vermişdir.

– Nə olub axı? – Demeşko təkrar, lakin inadla soruşdu.

Bondarçuk ancaq ikisinin eşidəcəyi bir tərzdə pıçıldadı:

– Bizdən soldat aparmağa gəliblər?

Demeşko iynəni əlindən yerə qoyub, təəccüblə Bondarçuka baxdı.

– Haraya aparacaqlar?

– Mariyski polkuna.

– Nə üçün?

Bondarçukun üzündə açıqdan-açığa qəzəb duyulurdu.

– Onlarda ölümə məhkum olmuş soldatlar var, – dedi.

Demeşkonun enli çiyinləri aramla qalxıb-endi:

– Məlumdur, – dedi. – Polkun öz soldatları, yəqin ki, güllələnməkdən imtina etmişlər.

– Elədir!

Demeşko əlindəki şalvarı bir tərəfə atıb ayağa qalxdı. Yatmış soldatların çarpayıları arasında hirslə gəzişməyə başladı. Bondarçuk onun əsəbi gəzişini aşağıdan-yuxarı sezib əhvalatı ona açıb deməsindən peşman oldu. Demeşko həmişəki kimi, burnunun altında



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

öz-özünə nə isə mızıldanırdı. O bir az gəzişdikdən sonra, yaxınlaşıb, başını hələ də aşağı dikib oturmuş Bondarçukun qabağında durdu.

– Mən əminəm ki, Dobrovolski bundan boyun qaçırmayacaqdır.

Bondarçukun sözlərinə hirsi tutdu:

– Günah kimdədir? Hə, kimdədir? – deyə təkidlə soruşdu və özü də öz sualına cavab verdi. – Əlbəttə, bizdə. Bizim özümüzdə. Nahaq yerə indi hirsimiz tutur. Mən neçə dəfə sizə dedim ki, onu öldürməmiş, heç bir şey edə bilməyəcəyik.

Bondarçuk Demeşkonun qəzəbləndiyi zaman ağına-bozuna baxmadan danışdığını bildiyi üçün yan-yörəsinə baxındı və barmağını dodaqlarına apardı.

– Yavaşcadan, – dedi, – bəlkə yatmayanlar var. Səsini ucaltma...

Demeşko itaətkarlıqla səsini kəsdi. Gəzişməsi ilə yatanları oyada biləcəyindən ehtiyat edərək, çarpayıda Bondarçukun yanında oturdu. O, tez qızdığı kimi tez də soyudu. Bondarçuk da onun bu cəhətinə yaxşı bələd idi. Bir müddət heç biri dinmədi. Onlardan başqa qışlada oyaq olan yox idi. Bondarçuk ikilikdə oturmağın başqalarını şübhəyə sala biləcəyini başa düşürdü. Ancaq bu qanlı cinayətin qarşısını almaq üçün bir şey düşünməli idilər. Həm də tez, ləngimədən. Demeşko Bondarçukun dinmədiyini gördükdə soruşdu:

– Necə edək?

Bondarçuk dirsəklərini dizlərindən ayırmadan çiyinlərini çəkdi.

– Mən də onu fikirləşirəm, – dedi, – bu elə işdir ki, bütün batalyonu ayağa qaldırmasaq, mümkün olmayacaq. Səhər duası zamanı hamıya çatdırmalıyıq. Elə bilirəm ki, soldatlar da bizə qoşulacaqlar. Hamını ayağa qaldırmalıyıq.

Demeşko acı-acı gülümsədi:

– Əgər, duaya qədər Dobrovolski soldatları göndərməmiş olsa.

Bondarçuk dinmədi...

Soldatların yatıb-yatmadığını yoxlamaq üçün gələn növbətçi zabitin ayaq səsləri eşidildi. Demeşko ilə Bondarçuk tez yataqlarına uzandılar.

Mariyski polkuna soldat göndərilməsi haqqında xəbər sübh tezdən bütün batalyona yayıldı. Nəinki matroslar, hətta soldatlar da bundan qəzəbə gəldilər. Bir şey də məlum oldu ki, Dobrovolski göndəriləcək soldatları dünən axşam yola salmağa macal tapmamışdır. Batalyon komandiri bu gün səhər, hamının bundan xəbər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tutduğunu eşitdikdə ləngidiyinə peşman oldu. Ancaq bununla belə Varlamaova əmr etdi ki, səhər duasından sonra, rotalar məşqə başladıqda iyirmi nəfər soldat təcili yola salınsın.

Bir saatdan sonra Varlamov hər şeyi hazırladı və əmrin yerinə yetirildiyini Dobrovolskiyə xəbər vermək üçün onun yanına getdikdə, Qala qapısından eşidilən səs onu çox narahat etdi. Buna görə də Dobrovolskinin mənzil qərargahının qapısından geri qayıtdı. Səs Qalanın bayır tərəfindən gəlirdi. Varlamov addımlarını yeyinlətdi. Qala darvazasından bayıra çıxarkən gözlərinə inanmadı. Soldatlar qol-qola verib darvazanı dövrəyə almışdılar. Mariyski polkuna göndərilən soldatlar isə, polkun kiçik zabiti ilə birlikdə darvazanın ağzında durub, irəli addım atmağa ehtiyat edirdilər. Qapını dövrələyən soldatlar yer-yerdən çığırırdılar:

– Qardaşlar, heç bilirsinizmi sizi haraya aparırlar? Sizi cinayətə sürükləyirlər! Gözünüz görə-görə.

Arıq, çəlimsiz bir soldat qolunu yoldaşlarının qolundan ayırmadan zil səsi ilə bərkdən çığırırdı:

– Onlar öz yoldaşlarını öldürməkdən boyun qaçırmışlar. Biz niyə əlimizi günahsız qana batıraq? Eyib olsun sizə!

Varlamovun gözləri bərələ qalmışdı. Elə bil indicə çanağından çıxacaqdı. O daha dözə bilmədi, silahlı soldatları aralayıb qabağa çıxdı.

– Çəkilin deyirəm, – deyə hasar kimi bir-birinə söykənib dayanmış soldatlara çığırdı, – çəkilməsəniz atəş açacayıq.

– Açın, bizi atəşlə qorxutmayın...

Bu sözləri deyən yenə də həmin çəlimsiz soldat idi. O biri soldatlar da öz səslərini ona qoşduğundan çəlimsiz soldatın sözləri daha eşidilməz oldu. Qala düzü lərzəyə gəldi. İndi qəzəblənib özündən çıxmış Varlamovun əl-qolunu ata-ata dediyi sözləri eşitmək mümkün deyildi. Hamı çığırırdı. Demeşko ilə Sırojkinin qollarından tutmuş Bondarçuk, soldatların belə yekdilliyindən ruhlanaraq, qüvvəsi çatdıqca hündürdən çığırdı:

– Qardaşlar, qayıdın geri! Öz qardaşlarımızın sinəsini bizim güllələr qızartmamalıdır!

Varlamovun ağzı köpüklənmişdi. Hədə-qorxusu heç bir nəticə vermirdi. Soldatlardan bir nəfəri də olsun geri çəkilmədi. Əksinə, dəstə darvazanın ağzında getdikcə dəmir məngənə kimi sıxılırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Varlamov bunu gördükdə, tələsik içəriyə, podpolkovnikin yanına qayıtdı. Bir neçə dəqiqə keçməmişdi ki, o, pörtmüş halda geri döndü və Mariyski polkundan gəlmiş kiçik zabitin qulağına nə isə pıçıldadı və hər ikisi silahlı soldatlarla birlikdə darvazadan içəri keçdilər. Bununla da darvaza ağzındakı gurultu dərhal kəsildi. Dobrovolski öz mənzilini alçaq dəmir barmaqlı pəncərəsindən silahlı soldatların Qalanın içinə qayıtdıqlarını, Mariyski polkundan gəlmiş kiçik zabitin əl-qolunu ataraq, Varlamova nəyi isə izah etdiyini görürdü.

İşin belə uğursuzluqla nəticələnməsi podpolkovnikin əsəblərini tamam pozmuşdu. Dodaqlarını gəmirirdi. Qabaqcadan düşünübdaşındığı planı belə pozulduğu yadına gəlmirdi. Əlbəttə o, başlıca təqsiri rota komandirlərinin özündə görürdü. Mühüm hərbi tapşırığın yerinə yetirildiyi məqsədəuyğun olmayacağını rota komandirləri dərk etməli idi. Bu yalnız onların günahıdır. Qəzəbini soyutmaq üçün rota komandirlərini tələsik yanına çağırtdı. Onların üstünə qızdı, kükrədi, hətta rütbələrini aşağı salmaqla da qorxutdu. Rota komandirləri özlərini üzdən günahkar kimi göstərsələr də, daxilən ürəkləri rahat idi. Çünki batalyon komandirinin xüsusi əmri vardı ki, ayrıca göstəriş olmadan təlimlər Qala meydançasından kənarda keçirilməməlidir. Bu da müəyyən məqsədlə edilmişdi. Podpolkovnik batalyonda heç bir şeyi gözündən kənar qoymaq istəmirdi. Podpolkovnikin verdiyi bu əmr özünün də yaxşı yadındaydı. Lakin böyük mənsəblilər uğursuzluğa tutulmalarının səbəbini həmişə özlərindən kiçiklərin hərəkətlərində görməyə çalışırdılar. Dobrovolski də belələrindən idi. Təkəbbürlü şəxsiyyəti, özünün də səhv buraxa biləcəyini mənliyinə sığdıra bilmirdi. Podpolkovnikin bığlarını çeynəyərək, otaqda yaralanmış heyvan kimi çırpına-çırpına vurduğu tənələri dinlədikdən sonra rota komandirləri təzə sərəncamı yerinə yetirmək – vzvodların təlimini meydançadan başqa yerə keçirmək üçün dağılışdılar. Podpolkovnikin məqsədi başqa idi və bunu rota komandirlərinə demək istəmirdi. Buna görə də yola düşmək üçün ayrılmış soldatları iki saat günün altında saxlamalı oldu. Mariyski polkundan gəlmiş kiçik zabit darıxırdı. Ona bu gün necə olursa-olsun polka qayıtmaq əmr olunmuşdu. Podpolkovnikin niyyəti isə ona məlum deyildi.

Günortaya az qalırdı. Rota komandirləri, vzvodların təliminin çay qırağına və dağların ətəyinə tərəf keçirmişdilər. Meydança



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

boşalmışdı. Dobrovolski öz niyyətinin yerinə keçirilməsi vaxtının çatdığını görüb Mariyski polkunun kiçik zabitini və Varlamovu yanına çağırtdırdı:

– İndi gedə bilərsiniz, – dedi və bir az fikrə getdikdən sonra əlavə etdi, – bu dəfə cənub darvazasından gedin.

Varlamovla kiçik zabit otaqdan çıxdılar. Dobrovolski pəncərənin qabağına keçərək, silahlı soldatların Qalanın içərisi ilə cənub darvazasına tərəf uzaqlaşdıqlarını və qalanın içərisindəki tikililərin arxasında gözdən itdiklərini görüb rahat nəfəs aldı. Stoluna yaxınlaşdı, yeşiyi açıb rom şüşəsini çıxartdı, kiçik stəkana töküb içdi və əlinin arxası ilə islanmış dodaqlarını sildi.

Son günlər batalyon içərisində baş verən və bir komandir kimi ağlına sığışdıra bilmədiyi hadisələr əsəblərini burulğan kimi oyub yerindən oynatmışdı. O, bunlardan bəzisini dərindən, gərginliklə yanaşmadan, ancaq fövri tədbirlər görməklə öz yoluna salmağa çalışmışdı. Onların haqqında, nə hadisələr baş verdiyi zaman və nə də onların zərərli nəticələri göz qabağında əyan olduqda çox düşünüb-daşınmaq istəmirdi. Səbrinin tükənməsindən və batalyona rəhbərliyində, özü də sezmədən yüksək mənsəbi üçün xətərli, kəskin tədbirlərə əl atacağından ehtiyat edirdi. Bu gün də məhz belə mülahizə nöqteyi-nəzərindən əlini, sakitləşdirici bir vasitə kimi rom şüşəsinə atmışdı.

Batalyonun nəbzi isə onun arzu etdiyi kimi vurmurdu. Podpolkovnik düşüncələrində yanılmışdı. Xəyalında götür-qoy etdiyi planların əksinə, bu gün gözləri baxa-baxa elə bir hadisə qızışdı ki, qarşısını almaq daha heç cür mümkün olmadı. Dobrovolski ağız-burnunu silib, rom şüşəsi qoyulmuş kiçik stoldan bir addım aralanmamışdı ki, həyətdə eşidilən hənirti onu pəncərə tərəfə qanrılmağa məcbur etdi. Qabaqda Varlamov və Mariyski polkunun kiçik zabiti, göndərilmək üçün ayrılmış soldatlar təkrar Qala həyətinə qayıdırdılar. Podpolkovnik sanki yerindəcə mıxlanıb qaldı, düşündüyü axırıncı tədbirin də belə puça çıxacağını o, heç təsəvvürünə gətirməzdi.

Soldatlar birbaşa onun qərargah mənzilinə tərəf irəliləyirdilər. Qabaqda gələn Varlamov çox pərt idi. Başını aşağı dikmişdi. Demək, Cənub qapıdan çıxmaq da onlara müyəssər olmamışdı.

Dobrovolski həyatında ilk dəfə olaraq, özünü aciz və fərasətsiz hiss etdi. Həmişə havada oynadaraq, qəzəb və hiddət bildirən qolları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da, deyəsən iradəsinə xilaf çıxmışdı; cansız taxta parçası tək, hissiz, duyğusuz yanından asılı qalmışdı. Onlar sanki bundan belə ömrü boyu beləcə qalacaq, bir daha hərəkətə gəlib, sahibinin əvvəlki vahiməsinin varlığını nümayiş etdirə bilməyəcəkdi. Dobrovolskini indi narahat edən bir şey idi. O, Mariyski polkundan gələn gənc zabitə nə deməli idi?.. Burada, cənubda, başqa qoşun hissələrinin də bərk ayaqda ona arxalanmaq istədikləri bir zamanda batalyonun belə dönüklüyü onun şöhrətinə şərəfsiz bir damğa vura bilməzdimi? Xəbər hətta Peterburqa da çata bilərdi. İmperatorun qulağına çatarsa, Dobrovolskinin bircə şeyə gümanı gəlirdi: gicgahına qurşun bir güllə!.. Əlbəttə, yalnız ehtimal olunan belə qərardan Dobrovolskinin bədənini soyuq bir rəşə bürüdü... amansız apatiya, demək, onu öz pəncəsinə keçirə bilmişdir... "Yox, – deyə onun daxilində birdənbirə amiranə bir səs eşidildi. – Bəzən daşa dönmək lazım gəldikdə, cansız daşa dönmüş, dəmir kimi kəsilmək ehtiyacı hiss etdikdə soyuq metala çevrilmiş podpolkovnik, sən nələr düşünürsən? Hanı sənin fanatik inamın, hanı sənin insan qanına susamış həris nəfəsin? Nəhayət, bütün bunlar bir tərəfə, bəs sənin əlahəzrət qarşısındakı andın, şərəfin?! Yoxsa bütün bunlar əzəldən səndə bir sərab, bir xülya imiş?! Ya da ancaq zahirən aldadıcı bir parıltı, hə?.."

Bu sarsıntıdan Dobrovolskinin bədəni ürpəşdi. Soyuq tər basmış alnını sildi. Cəmi bir anın içərisində keçirdiyi böhranlı sarsıntıdan hələ də özünə gəlməmişdi ki, Varlamovla Mariyski polkunun gənc zabiti astanada göründülər.

– İcazə verin, – deyə Varlamovun yoğun səsi eşidildi.

– Lazım deyil!..

Bunu deyib, Dobrovolski yazı stolunun dalına keçdi. Qələmi əlinə alıb, tələsik nə isə yazmağa başladı. O, yaza-yaza dedi:

– Gediniz, gözləyiniz. Bu saat sizə paket hazırlayıram.

Kiçik zabitlər mahmızlarını cingildədərək otaqdan çıxdılar. Onlardan on beş dəqiqə sonra podpolkovnik özü əlində surğuclu paket dəhlizdə göründü. Paketi gənc zabitə uzatdı.

– Gediniz, – dedi, – orada hər şey yazılmışdır.

O bu ağır vəziyyətdən bəlkə də çıxış yolu tapmışdı.

Lakin bununla belə, bugünkü hadisəni özünün Qafqaz fəaliyyətində dəhşətli uğursuzluq hesab etməyə bilməzdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XII fəsil

İqnati İqnatiç Taytsın Zaqatalaya gizli niyyətlə gəldiyini etibarlı mənbələrdən öyrənən Xaçaturyans dərhal ona yaxınlıq etmək üçün fürsət axtarmağa başladı. Tiflisdən aldığı bir məktubda ona xəbərdarlıq edilirdi ki, bu qoca ilə ehtiyatlı dolansın, eyni zamanda ondan uzaq qaçmasın. Öz təşkilatları xətti ilə müvəffəq ola bilmədikləri bəzi məsələlərin həllində Taytsdan istifadə etməyə nəinki icazə verilirdi, hətta bu, təkidlə tələb edilirdi. Bir azdan sonra isə Tiflisdən Tayts haqqında daha ətraflı məlumat gəldi. Məlum oldu ki, Batumda və Suxumda gizli fəaliyyət göstərən fəhlə təşkilatlarının aşkara çıxarılmasında Taytsın böyük xidməti olmuşdur.

Xaçaturyans Zaqatalaya məhz belə bir adamın göndərilməsinə sevindi. Fikirləşdi ki, ona arxalanıb, matroslarla yerli sosial-demokratları addım-addım təqib edəcək, onların gizli fəaliyyətlərinin üstünü açacaq. Tayts haqqında ətraflı məlumat alan gündən o, rahat ola bilmirdi. Fürsət tapıb, onunla tanış olacağı günü səbirsizliklə gözləyirdi. Arşakla Bəhramın son günlərdə camaatın nəzərində onu hörmətdən salmağa çalışmaları Xaçaturyansı bərk qəzəbləndirmişdi. Ancaq bunu üzə vurmurdu. Küçədə onları görərkən özünü elə aparırdı ki, guya aralarında heç bir narazılıq olmamış, ya da olub-keçən inciklikləri ürəyindən tamam silib atmışdır. Hətta bir neçə dəfə Arşakı görərkən qımışaraq hal-əhval da tutmaq istəmişdi, ancaq Arşak tez sovuşub keçmiş, başını qaldırıb ona heç gözünün ucu ilə də baxmamışdı.

Qara Nəsirin ölümündən cəmi beş-altı gün keçmişdi ki, Hacı Xeyrinin karxanasında fəhlələrin tətil etdikləri xəbəri şəhərə yayıldı. Deyirdilər ki, hacı mərhumun uşaqlarına vəd etdiyi pulu verməyincə fəhlələr işə çıxmamağı qərara almışlar.

O gün hava qaralanadək, doğrudan da, bir nəfər də karxanaya qədəm basmadı. Hacı əlləri qoynunda, öz kontorunun pəncərəsindən ürəyinə dağ çəkilmiş adamlar kimi karxananın bağlı qapılarına baxırdı. Yola salınacaq tütün tayları qapının ağzına tığlanmışdı. Ertəsi gün də işə çıxan olmadı. Xaçaturyans günortayadək gözlədi. Sonra havanın bulaşacağını görüb tez geyindi. Yolunu hacının karxanasına tərəf saldı. Qapıların hələ də bağlı olduğunu uzaqdan gördü. Ağır addımlarla oraya yaxınlaşdı və guya heç bir şeydən xəbəri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yoxmuş kimi, hacının kontoru qabağından ötüb-keçmək istədi. Hacı içəridə, pəncərənin qabağında oturmuşdu. Onun diqqətini özünə cəlb etmək üçün Xaçaturyans addımlarını daha da yavaşıtdı, bununla kifayətlənməyib, üstəlik boğazını da bir neçə dəfə arıtdı. Hacı isə qəm dəryasına batmışdı. Məyus gözlərini küçəyə zilləsə də, heç kəsi görmürdü. Xaçaturyans, nəhayət, özü ona baş endirməli oldu.

– Hacı, kefiniz necədir? – dedi.

Hacının üstünə elə bil od ələndi. Kişi birdən-birə odlandı.

– Necə olacaq? – dedi, – görürsən də. Allah mərdimazarın evini yıxsın! Bəhramla sizin Arşak yaman yıxdılar evimi...Allah özü onların cəzasını versin. Biri öldü, Allah rəhmət eləsin, daha cəriməsini niyə mən çəkim?.. Onlar bir bəhanə axtarırlar ki, məni soysunlar. Hələ keçən həftə vurduqları zərəri demirəm. Bir ətək pul verib, şüşələri təzədən saldırmışam... camaat deyir ki, Bəhramla Arşak olmasaydı, bütün karxananı dağıtmışdılar. Biz bəyəm çörəyi burnumuza yeyirik, bilmirik ki, bu fitva kimindir? Oddayırlar, sonra özləri çəkilib dururlar bir kənarda. O Ərəz oğluna, ya da o erməni dığasına nə düşüb ki, ürəkləri mənim üçün yansın? Bəhlul Danəndəyə dedilər ki, Əzrail uşaq paylayır, dedi ki, mənimkinə dəyməsin, özünkü özünə qalsın... Fəhlələri də elə onlar oddayıblar, bilirəm. Yoxsa nə oldu, hamı dilbir olub işə çıxmadı...

Xaçaturyans pəncərəyə yaxınlaşdı, ağırlığını əsasına yıxaraq, qarnını qabağa verdi.

– Siz düz buyurursunuz, hacı, – dedi, – saman altından su yeritmək onların peşəsidir. Başqalarını verirlər güdaza, özləri isə sudan quru çıxmaq istəyirlər. Ancaq daha xəbərləri yoxdur ki, camaat da, hökumət adamları da hər şeyi görürlər. Dəvəquşu kimi başlarını soxurlar kola, dallarından xəbərləri olmur. Gör bu iki gündə sizə nə qədər zərər olub...

Hacı Xeyri xırda ala gözləri ilə Xaçaturyansı təpədən dırnağadək süzdü. Ona toxtaqlıq verən bu adamın əsl niyyətini başa düşmədiyi üçün əvvəlcə çəkinib bir söz demədi. Xaçaturyans da hacının onun sözlərinə inanmadığını hiss etdi. Ancaq tez vəziyyətdən çıxış yolu tapdı.

– Hacı, mən sizin yerinizdə olsaydım, onların hamısının daşını atardım.

Hacı gözlərini təəccüblə döyəclədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Cənab Xaçaturyans, mən sizi yaxşı başa düşmədim.

Xaçaturyansın iri ətli sifətində ani bir təbəssüm göründü.

– Yəni deyirəm ki, işləmirlər işləməsinlər... O qədər fəhlə var ki. Elə soldatlar. Həm tez işləyirlər, həm də sizə ucuz başa gələr. Qoy gəlib tayları daşısınlar. Ondan sonra fəhlələr özləri peşman olub, ayağına yıxılacaqlar. Burunları hələ ovulmayıb. Belə eləsən ipə-sapa tez yatarlar.

Hacı fikrə getdi. Ömründə hələ bir qəpik xeyir görmədiyi bu adamın dediyi sözlər ağlına batdı. Əgər soldatlar razılıq versəydilər, üç-dörd saatın içərisində bütün təcili işlərini onlara gördürüb qurtarardı. Ancaq soldatların ixtiyarı onda idi ki? Kimə desin, kimdən icazə alsın? Əgər gedib desə, onun üstünə çığırmazlar ki? Deməzlərmi ki, sən hökumətin soldatlarına özün üçün yük daşıtdırmaq istəyirsən? Sonra qənbərqulusu çıxmaz ki? Əgər işdir, bundan onların acıqları tutsa, onda dərdinin üstünə bir dərd də gələr.

– Hökumətin soldatı mənim hamballarımdır ki, gəlib yük altına girsinlər? – O, əlini təəssüflə salladı.

– Hambal niyə? – Xaçaturyans bir az da pəncərəyə tərəf yaxınlaşdı. – Puluna minnət. Ancaq sənin xeyrin o olar ki, bir fəhləyə verdiyin pula iki soldat işlədərsən.

Hacı Xeyri hökumət işlərinə yaxın hesab etdiyi bu adamın sizlərindən elə bil həvəsə gəldi.

– Yəqin deyirsən razılıq verərlər?

– Əlbəttə, verərlər. Üstəlik bir sənə yalvararlar da. Hacı, onlar bu saat belə şey üçün gəzirlər. Məsləhətim budur ki, onlara müraciət eləyəsən. Ondan sonra gör fəhlələrin sənin ayağına düşürlər ya yox.

Hacının qaşları çatıldı. Fikrə getdi. Özlüyündə nə isə götür-qoy elədi. Sonra birdən Xaçaturyansa tərəf dönüb, başını tərpətdi.

– Düz buyurursunuz, cənab Ayrapet. Başaq çarəm yoxdur. Gərək üzümü ayağımın altına salıb, böyüklərinin yanına gedim. Allah kərimdir, bəlkə baş tutdu...

Xaçaturyans hacını yerindən elədiyinə sevindi. O öz aləmində bununla Bəhramdan da, Arşakdan da intiqam alacağını düşünürdü. Bilirdi ki, fəhlələrin işə çıxmaması ancaq onların əli ilə təşkil edilmişdir. Özünün bugünkü səfərindən məmnun halda hacının kontorundan uzaqlaşdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O gün axşamadək dodağının altında zümzümə edə-edə küçələrdə, kilsə meydançasında veyIləndi. Evə dönərkən onun üçün nahar hazırlayan bacısı xəbər verdi ki, Kazaryan onu axtarır, vacib işi vardır.

– Deyəydin kilsə meydançasındadır. – Ayrapet çesunça pencəyini soyunub asdı və eyni parçadan tikilmiş jiletinin cibindən qara qaytanlı saatını da çıxarıb baxdı. Başını buladı. – Bu gün, deyəsən, lap çox gəzmişəm.

Bacısı stolun üstünü səliqəyə sala-sala qardaşını məzəmmət etməyə başladı.

– Sənə elə çox gəzmək lazımdır. Belə getsə, heç yerindən tərpənə bilməyəcəksən. Piylənmək nəyinə lazımdır? Qocalanda nə eylərsən?

Ayrapet bacısından həmişə eşitdiyi sözləri qulaqardına vuraraq, əllərini yumaq üçün artırmaya çıxdı. Siranuş isə əl çəkmədi. İçəridən ağzı bayıra sözünə davam etdi:

– Vallah, Ayrapet, lap məəttəl qalmışam. Sən bayıra çıxmaqdan niyə qorxursan? Nə görmüsən bu evin küncündə? Yanına gələn adamlara nə var ki! Eşikdə özləri üçün gəzirlər də, hava da alırlar, sonra gəlirlər sənin yanına mırt vurmağa. Daha bir demirlər bu kişi, axı səhərdən bayıra çıxmayıb, bir az qoy getsin havasını dəyişsin... sənin də ki, öz canına yazığın gəlmir.

Ayrapet bacısının sözlərindən təngə gəlsə də, qayıdıb, ona ağır bir söz deməyə ürək eləmirdi. Bunun əvəzində o, əllərini silə-silə içəri qayıdıb, bacısından soruşdu:

– Deyirsən Kazaryanın vacib işi vardı?

– Elə dedi.

– Məni axtarıb tapa bilməzdi? Şəhərimiz də o qədər böyük deyil ki, deyim, hə, axtardığın adamı tapmaq olmur.

Siranuş xörəyi çəkib, stolun üstünə qoydu.

– Əyləş, soyuyur.

Ayrapet stola oturdu. Qaşığı əlinə alıb, ağzına aparmaq istəyirdi ki, Kazaryan içəri girdi.

– Axır ki, səni tapa bildim, – dedi və təklifsiz stolun dalına keçdi. Papağını çıxarıb, tərini sildi. Siranuş rəfdən ikinci boşqab da götürüb, Kazaryan üçün xörək çəkdi. O, qardaşının həmişə qonağı olduğunu bildiyi üçün xörək bişirəndə iki-üç pay artıq hazırlardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kazaryan onun üçün xörək çəkilməsinə etiraz eləmədi. Əksinə, lap vaxtında gəlib çıxdığını söylədi:

– Siranuşun xarçosundan keçmə. İyi, deyim ki, lap yeddi məhəlləyə gedir.

O, boşqabı qabağına çəkdi və iştahla yeməyə başladı. Xaçaturyans onun nə deyəcəyini gözləyirdi. Kazaryanın isə yeməkdən başı ayrılmırdı. Axırda Ayrapetin səbri tükəndi.

– Nə işin vardı? – deyə soruşdu.

Kazaryan başını qaldırıb, Siranuşa baxdı. Ayrapet başa düşdü ki, onun xəbər verəcəyi şey bacısının yanında deyiləsi söz deyildir. Siranuş da qardaşının onun yanında başqaları ilə danışmağı sevmədiyini bildiyi üçün otaqda çox ləngimədi.

– Başqa işin yoxdur ki? – deyə qardaşına müraciətlə soruşdu.

Ayrapet başını qaldırmadan:

– Yoxdur, – dedi, – gedə bilərsən.

Siranuş getdi. Kazaryan o çıxan kimi Ayrapetə tərəf əyildi və otaqda başqa adam varmış kimi, yavaşcadan pıçıldadı:

– Heç bilirsən, kim gəlib?

– Kim?

– Bəhramın qardaşı. Yəqin eşitmisən. Bakıda fəhlələrin arasında böyük hörməti var.

Ayrapet tikəsi ağzında tez soruşdu:

– Nəyə gəlib?

– Deyilənə görə, qoca anası ölüm ayağındadır, ona görə gəlib, – Kazaryan başını yellədi. – Ancaq bəhanədir. Əgər anasına görə gəlibsə, bəs gizlin niyə?

– Gizli gəlibsə, sən haradan xəbər tutdun?

– Lap təsadüfi. Bizim arvad səhər tezdən qonşu divarın üstünə qoyduğu süd bardağını götürəndə görüb ki, Uluxan ağacın dibində oturub, iki-üç nəfərlə söhbət edir. Bizim arvadı görən kimi o tez üzünü örtüb.

Ayrapet qaşığı əlindən yerə qoydu.

– Bəlkə arvadın səhv salıb?

– Yox, səhv sala bilməz. Beş-altı il qapı-qonşu olmuşuq. Marqarita onu lap qaranlıqda da görsə tanıyar.

Xaçaturyansın gözləri qıyıldı. Nə isə fikirləşdi.

– Gəlsəydi, öz evlərinə düşərdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kazaryan başını istehza ilə tərpətdi.

– Ağzımda deyirəm ki, o buraya açıq gələ bilməz. Pristav onun cikinə də bələddir, bikinə də. Ona görə söz çıxardıblar ki, xəstə anasına köməyə gəlmişdir. Əgər işdir, çaşıb onu görsələr qoy elə bilsinlər ki, naxoş anası çağırtdırıbdır. Həqiqətdə isə bunlar hamısı üçlükdür. O yəqin ki, gizli tapşırıqla gəlib.

Kazaryanın sözlərindən Ayrapetin sifəti birdən-birə aydınlaşdı. Əhəmiyyətli bir şey kəşf etmiş adamlar kimi gözləri parıldadı. Yan-yörəsinə baxıb, ayağa qalxdı. Otaqda fərəhlə gəzişdi. O çoxdan bəri Taytsla görüşmək üçün axtardığı bəhanə indi özü öz ələyağı ilə onun qapısına gəlmişdi.

– Düz deyirlər, Asatur. Matrosların Tiflislə əlaqəsi kəsildiyi üçün, indi Bakı komitəsi onlarla əlaqəyə girmək istəyir. Əhsən! – Bir az beləcə otaqda gəzişdikdən sonra birdən əlini yanına çırpdı.

– Ancaq heyf, – dedi. – Onun gəlməsini səhih bilsəm, qiyamət olar. Əsl sensasiyadır...

– Sən nə qəribə adamsan? Ağzımda deyirəm ki, Marqarita səhv eləməz, gəl mənə inan. Özüdür ki, var. O buradadır. Yəqin bir neçə gün qalıb gedəcəkdir.

Xaçaturyans otaqda gəzişə-gəzişə əllərini ovuşdurdu. Başına parlaq fikir gəldiyi üçün oturub, xörəyini böyük iştahla yedi.

O, nələr düşündüyünü heç Kazaryana da açıb deməndi. Dostu gedəndən sonra səliqə ilə geyindi. Adətən rəsmi görüşlərə getdiyi zaman özü ilə götürdüyü pensnesini də nazik pencəyinin üst cibinə qoydu. Hava qaralmışdı. Taytsın harada yaşadığını bildiyi üçün küçələri sürətlə burulub, yuxarı məhəllələrə qalxdı. Çoxdan bəri tanış olmaq arzusu ilə yaşadığı adamın yanına böyük bir sürprizlə gedirdi. Arabir keçdiyi küçələri xəlvət gördükdə əsasını əlində oynada-oynada fit də çalırdı. Xəyalında çox şeylər götür-qoy edir, özünü ilk dəfə tanış olacağı adama təqdim etmək üçün xəyalında altı-üstü bəzəkli sözləri seçirdi.

O, dar döngələrdən birində alçaq balkonu aşkar görünən bir həyətin qapısında durdu. Üst-başını bir də nəzərdən keçirdi, cibindən görünən ikiqat ətirli yaylığını çıxarıb, təzədən səliqə ilə yerinə qoydu. İçəri girə bilməsi üçün tam hazır vəziyyət aldıqdan sonra əsanın ucu ilə qapını döydü. Döymək üçün qapının üstünə dəmir çaxçax vurulmuşdu. Lakin Xaçaturyans qapını məhz əsa ilə döyməyi lazım bildi. Gözlədi. Həyətdən səs-səmir gəlmədi. Bir də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

döyməyə məcbur oldu. Bu dəfə cəsarətə gəlib, bir az bərk döydü. Haçandan-haçana içəridən zəif qadın səsi eşidildi. Bu, Taytsın arvadı idi. Xaçaturyans içəri girməmişdən qabaq ətrafına gizli bir nəzər saldı. Sonra həyət qapısını aralayıb içəri keçdi. Arvad artırmada durmuşdu. O gələn adamı yaxşı görmək üçün qaytanı boynuna bağlanmış pensnesini gözlərinə yaxınlaşdırdı. Xaçaturyansın iri gövdəsini görüb təəccüblə soruşdu:

– Cənab, sizə kim lazımdır?

Xaçaturyans çiçək ləklərinin arası ilə bir addım irəli getdi.

– Madam, mən İqnati İqnatiçi görmək istəyirəm.

Arvad pensnesinin qalın şüşələri arxasından Xaçaturyansı şübhə ilə süzdü. Şəhərə köçdükləri müddətdə onların qapısını ilk dəfə idi ki, tanımadığı bir adam döyürdü.

– Siz özünüz kimsiniz?

Xaçaturyans öskürüb, boğazını arıtdı. Sonra centlmenlərə xas bir əda ilə başını piyli qarnına tərəf əydi.

– Madam, özümü sizə təqdim etməyi şərəf bilirəm. Yerli ziyalılardan Xaçaturyans Ayrapet...

Arvad yenə də hərəkətsiz duraraq, nə haqda isə fikirləşdi və sonra Xaçaturyansa heç bir söz demədən içəri keçdi. Xaçaturyans ləklərin arasında gəzişməyə başladı. Bir şeydən arxayın idi ki, buraya gələrkən onu heç kəs görməmişdir. Onun qorxusu Bəhramla Arşakdan idi. Bilirdi ki, onun Taytsın yanına gəldiyini bilən kimi bütün şəhərə car çəkib xəbər verəcəklər ki, pristavın katibi adı ilə gəlmiş xəfiyyə başçısı ilə əlaqəyə girmişdir. Bir azdan Taytsın arvadı yenə artırmada göründü.

– Cənab, buyurun içəri, – İqnati İqnatiç sizi gözləyir. Xaçaturyans şəstlə pillələri qalxdı. Taytsın arvadının yanından keçərkən papağını çıxarıb, başını əydi. Arvad əli ilə işarə edərək, onu içəri dəvət etdi.

## XIII fəsil

Üfüq yenicə qızarırdı. Oradan-buradan kolların dibindən qırqovullar pırıltı ilə havaya qalxırdılar. Zəmilər şehli idi. Veysəl kişi şəhərdən çıxıb kəsmə cığırlar və zəmiarası yollarla öz arpa zəmisinə yetişdiyi zaman şehdən şalvarının balaqları tamam islanmışdı. Bu gün çölə ondan qabaq heç kəs çıxmamışdı. Yetişib dənə dolmuş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sünbüllər boyunlarını bükərək salxım-salxım sallanmışdı. Bir azdan uzaqda, qonşu kəndlərə gedən yolların ayrıcında qıy səsləri eşidildi. Naxırçı oğlanların səsi idi. Sübh gözü səslərindən özləri də sanki xoşlanırmış kimi tez-tez bəhsə girişərək ağız-ağıza vermişdilər. Tala çayı tərəfdən suyun həzin şırıltısı eşidilirdi. Veysəl kişi arxalığını soyunub, dünənki dərzlərin böyrünə qoydu və orağı əlinə alaraq, biçinə başladı.

Gün boylanırdı. Sağ tərəfdəki sıra cökə ağaclarından zəmiyə tərəf kölgələr uzanırdı. Bir azdan qonşu zəmilərdə də biçinçilər göründü. Yüz addımlıqdakı kənd yolu ilə eşşəkçilər Muxaq və Tala kəndlərindən satmaq üçün şəhərə meyvə və tərəvəz aparırdılar. Onların qarışıq hənirtiləri Veysəl kişinin qulağına yetişirdi. Qonşu zəmidə bir çağa bərkdən ağladı. Veysəl o tərəfə boylandı. Zəmidə, başı yaylıqlı, ağzı yaşmaqlı təkcə bir qadın biçin biçirdi. O, dərzlərin yanında qoyulmuş qundaqlı çağanın ağlamasını elə bil eşitmirdi. Qanrılıb çağa tərəfə baxmağa da tənbəllik edirdi. Çağa ağlayıb-ağlayıb axırda kiridi. O yenicə susmuşdu ki, şəhər tərəfdən gələn soldatların səsləri eşidildi. Hündürdən oxuyurdular. Veysəl kişi dikəlib baxdı. İyirmi nəfərədək soldatdı. Tala çayına tərəf gedirdilər. Bütün çöllərə səs düşdü. Bundan qonşu zəmidəki çağa yenə də ağlamağa başladı. Bu dəfə ana, deyəsən, insafa gələrək dərzlərə yaxınlaşdı və qundağı qucağına götürərək, döşünü onun ağzına saldı. Çağa dərhal kiridi. Soldatlar ötüb gedəndən sonra onun səsi daha çıxmadı.

Hava istiləşirdi. Bayaqdan zəmilərdə parıldayan şeh damcılarından bir əsər qalmamışdı. Uzaqlarda görünən meşəli dağların da başları sübh dumanından təmizlənirdi. Hava qızdıqca küləş kövrəkləşir, xışıldayır, orağın ağzından yerə tökülürdü. Gün günorta yerinə sancılanda Veysəl orağı yerə qoyub, dərzlərin kölgəsində dincəlmək istədi... İçi bulaq suyu ilə dolu kuzənin təri hələ qurumamışdı. Veysəl onu ağzına tutub ürək yanğısı ilə içdi. Sərin su cəhənglərindən tökülərək, saqqalını islatdı. Bundan o daha artıq sərinlik duydu.

Bir azdan yolda Əlibəyin iri gövdəsi göründü. Onun yanında da Veysəlin tanımadığı bir adam gedirdi. Birdən Əlibəy yanınca gedən adama nə isə dedi və hər ikisi yoldan kənara çıxıb zəmiyə, Veysələ tərəf gəlməyə başladılar. Onlar yaxınlaşanadək Veysəl süfrəsini açıb özü ilə gətirmiş olduğu qatığı, lavaşı və göy soğanı qabağına



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qoydu. Lavaşı qatığın içinə doğrayıb doğramac düzəltdi. Üstünə də azca duz səpdi. Günorta istisində biçinçi üçün bundan dadlı şey ola bilməz. Əlibəy yanındakı adamla yaxınlaşıb salam verdi.

– Allah qüvvət versin.

Veysəl gəvələyə-gəvələyə dedi:

– Xoş gəldin.

Əlibəy papağını çıxarıb, alnının tərini sildi. Sonra kuzəyə tərəf baxıb, dili ilə dodaqlarını yaladı.

– Veysəl kişi, orada suyun varmı?

Veysəl kuzəni saymazyana Əlibəyə tərəf itələdi.

– Var.

Əlibəy kuzəni qaldırıb ağzına dayadı. Bərkdən xortuldadaraq, qurtum-qurtum içdi. Nəhayət, nəfəsi qaralmış halda kuzəni dodaqlarından ayırıb yerə qoydu. tüklü əlinin dalı ilə dodaqlarını, bığlarının uclarını sildi. Onunla gəlmiş adam isə bir kənarda duraraq baxırdı.

– Ciyərim lap odlanmışdı. Allah bu Məhəmmədə lənət eləsin.

Veysəl altdan-altdan ona baxdı.

– Əlibəy, Məhəmməd yəni su içməyə də qoymur? Onu bilirəm ki, əlini yaralayıb. İndi səndən nə istəyir?

Əlibəy əlinin Məhəmmədin adamları tərəfindən yaralandığını hər dəfə başqalarının ağzından eşidəndə elə bil dədəsini söyürdülər.

– Veysəl kişi, sən elə bilirsən ki, mən bunu Məhəmməddə qoyacağam? Yox, görər ki, mən də atamın oğluyam. Neçə adamı soyduğunu bir-bir hökumətə xəbər verirəm. Pristav axırda podpolkovnikdən xahiş eləyəcək ki, bir günlüyə bütün qoşunu versin Məhəmmədi axtarmağa. Onda Məhəmməd görər ki, adamı necə nərildədərlər. – O, başı ilə yanında durmuş adama işarə edib sözünə davam etdi. – Bu kişi ilə doqquzuncu adamdır ki, günün günorta vaxtı soyub var-yoxunu əlindən alıb.

Veysəl Əlibəyin yanında durmuş kişini diqqətlə süzdü. Üst-başdan tökülmüş kişi qüssəli halda boynunu büküb durmuşdu. Veysəlin ona baxdığını gördükdə başı ilə Əlibəyin sözlərini təsdiq etdi.

– Cibimdə cəmi iki abbası pulum vardı, onu da əlimdən aldı...

Veysəl gündən qamaşan gözlərini qıyaraq soruşdu:

– A bala, – dedi, – sən Məhəmmədi sifətdən tanıyırsan? Üzünü heç görmüsənmi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kişi əlləri döşündə başını buladı:

– Yox, – dedi, – görməmişəm. Nişanlarını xəbər verən də hamı birağızdan dedi ki, Məhəmməddir. Əlibəy də deyir ki, elə odur ki, var. Hündür, şaqqalı oğlandır. Qara saqqalı var. Ancaq gözlərini başlığı ilə örtmüşdü ki, onu tanıya bilməyim.

Veysəl yırtıq arxalıqlı kişini axıradək dilindəkindən sonra tərəddüd içində qaldı. Kişinin dediyi nişanlardan belə çıxardı ki, onun qabağını kəsən, doğrudan da Məhəmməddir. Ancaq yenə də inana bilmirdi.

– Əlibəy, mən heç inanmıram ki, o Məhəmməd ola. Neçə ildir qaçaqlıq eləyir, heç eşitmisən ki, bir adamın bir qəpiyini alsın? İndi nə oldu ki, o qabağına çıxanı soyub buraxır?

Əlibəy hirslə Veysəl kişinin üstünə kəkələdi.

– Veysəl kişi, siz ağsaqqallar, həmişə onun tərəfini saxlayırsınız, o da qudurub bildiyini eləyir. Deyirsən ki, nə üçün qabaqlar yol kəsmirdi indi kəsir. Əlbəttə indi kəsər, qabaqlar gecələr hansı evə getsəydi, qapısı üzünə açıqdı. İndi qorxusundan heç kəs onu yaxına buraxmır. Acından ölməyəcək ki? Gərək dolansın, ya yox? Buna görə də qurşanıb quldurluğa. Heyf, gərək Qara Nəsirin dəfnində onun işini bitirəydim. Yenə camaatdan haya elədim, deyərdilər ki, Əlibəy öz yerlisini pristava satdı. Bundan sonra daha heç kəsdən çəkinməyəcəyəm, qoy məndən lap üz döndərsinlər, onun işini elə bitirəcəyəm ki, özü də mənə afərin desin.

Veysəl kişi bığının altında qımışdı.

– Əlibəy, deyirlər, axı sən onu öldürmək istəmisən, onun adamları isə qabaqlayıb səni əlindən yaralayıblar. Burada daha camaat nə eləsin?..

Əlibəy Veysəl kişiyə deməyə söz tapa bilmədi. Kəmərini bərkidərək, yanındakı kişiyə başı ilə işarə etdi:

– Gedək, – dedi, – qoy cənab pristav görsün ki, Məhəmməd hələ də soyğunçuluğundan əl çəkməyib.

Onlar biçilmiş zəminin içi ilə keçib tozlu kənd yoluna çıxdılar. Öz aralarında danışa-danışa şəhərə tərəf getdilər. Veysəl onların dalınca bir xeyli baxdıqdan sonra biçinə başladı. Göydən od yağırdı, qonşu zəmidəki arvad isə dincini almadan arpa biçirdi. Veysəl Əlibəylə danışarkən Məhəmmədin tərəfində dursa da, o gedəndən sonra yenə bu haqda fikirləşdi. Bir neçə ayın içində soyulan adam-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ların biri səhv etdi, ikisi səhv etdi, daha hamısı səhv edə bilməz ki?! Hamı birağızdan deyir ki, onun qabağını kəsən Məhəmməddir. Bəlkə doğrudan da o bu yola düşmüşdür? Bəlkə özünə və yoldaşlarına ağır keçir? Ancaq nə üçün ağır keçsin? Hansı evə getsə bir parça çörəyi heç kəs ondan əsirgəmir. Axı Əlibəyin dediyi kimi də deyil. Məhəmməd gecələr bəzi etibarlı adamların evlərinə yenə də gəlib-gedir və heç kəs də bundan çəkinmir. Bəs nə üçün o bu yola düşsün?..

Bu düşüncələr içində o, arpa zəmisini kənd yolunun ağzınadək başa vurdu. Arpanın üçdə biri biçilib qurtarmışdı. Veysəl biçdiklərini dərz bağladı və sonra yol tərəfdən təzədən biçməyə başladı.

Gün günorta yerindən əyilmişdi. Uzaqda yenə soldatların səsi eşidildi və bir azdan tozlu yolda Veysəl onların geri qayıtdıqlarını gördü. Hamısı başdan-ayağa tər içində idi. Zəminin bərabərinə yetişdikdə içərilərindən bir nəfəri ayaq saxlayıb, qan-tər içində işləyən Veysələ baxdı. Bu Viktor Bondarçuk idi. Yoldaşları yollarına davam edib ondan aralandılar. O isə yolun ortasında durub bir xeyli baxdıqdan sonra birdən yoldaşlarının dalınca bərkdən çığırdı:

– Qardaşlar, gəlin bu qocaya kömək əli uzadaq! – dedi. – Təkbaşına, əlbəttə, bu zəminin öhdəsindən gələ bilməyəcəkdir. Hə, necə bilirsiniz?.. gücümüzü bir yoxlayaqmı?..

Uzaqlaşan soldatlar birdən ayaq saxladılar. Hamı Viktorun göstərdiyi qocaya tərəf döndü və aralarında nə isə danışıb, zəminin içinə girdilər. Yefreytor çığıraraq mane olmaq istədisə də heç kəs onun dediklərini saya salmadı. Bəziləri köynəklərini çıxarıb bir tərəfə qoydular, bəziləri isə əyinlərində zolaqlı mayka biçinə girişdilər. Onların içərisində Mustafa adlı bir tatar var idi. O, Veysələ başa saldı ki, yoldaşları ona kömək etmək istəyirlər. Veysəl minnətdarlıq elədi və Mustafaya dedi ki, əgər kömək eləmək istəyirlərsə, onda qonşu zəmidəki südəmər uşaqlı arvada eləsinlər. Mustafa qocanın sözlərini yoldaşlarına yetirdi. Viktorun məsləhəti ilə soldatların onu, tək arvadın işlədiyi zəminin mərzinə tərəf getdilər. Veysəl də onlara qoşuldu. Ağız-burnu yaşmaqlı qadın başını aşağı salıb biçirdi. O, soldatların zəmiyə girdiklərini də görmədi.

– Qızım, bu soldatlar bizə kömək etmək istəyirlər, – deyə Veysəl gənc qadına yaxınlaşdı, – dedim ki, qoy əvvəlcə sənə əl tutsunlar. İstəyirsən, sən dur, gedək bizim mərzdəki cökənin altında otur. Onlar yarım saata sənin arpanı yolub qurtaracaqlar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qadın şəhərdə ağsaqqal kimi hamının hörmət etdiyi qocanın sözlərindən sonra dinməzcə yerindən qalxdı, dərzlərin böyründəki çağasını qucağına götürdü və cökənin kölgəsinə getdi. O hələ zəmidən uzaqlaşmamış soldatlar işə başladılar. On nəfər bəhsə girişərək, hərəsi zəminin bir tərəfindən yolurdu. Veysəl də öz zəmisinə qayıtdı.

Sağlam cavanların həvəsi qarşısında elə bil torpaq da, zəmi də təslim olmuşdu.

Bayaqdan yolun ortasında durmuş yefreytor, nəhayət, zəmiyə, soldatların yanına gəlməyə məcbur oldu. Lakin o, soldatlar kimi nə köynəyini çıxartdı nə də qollarını çırmadı. Birbaş Veysəl kişinin bir-birinin böyrünə yığdığı dərzlərin yanına gəldi. Özünü kölgə yerə verib oturdu. Ancaq burnunun altında hey mırıldanırdı. Veysəl arada fürsət tapıb Mustafadan onun nə üçün işləmədiyini soruşdu. Mustafa gülümsədi.

– O bizim böyüklərdəndir, onlar əllərini ağdan-qaraya vurmurlar. Ancaq əmr eləməyi bacarırlar.

– Səhərdən bəri elə hey eşidirəm ki, nə isə deyinir. Oğul, yəqin ki, mənə kömək eləmənizə razı deyildir.

Mustafa yenə gülümsəyib, əlini yellətdi.

– Qoy deyinsin. Nə qədər kefi istəyir, danışsın.

– Axı nə deyir? Deyəsən sizi qorxudur?

– Deyir ki, qalaya çatan kimi bizim böyüyə deyəcək ki, təlimi buraxıb, biçin biçirdilər.

– Desə sizin işiniz yaxşı olmaz?

– Heç bir qələt eləyə bilməz. O, tək biz çox.

– Belə ayaqda bir-birinizin dalında durursunuz?

– Bəs necə? – deyə Mustafa fəxrlə səsləndi. – Bir-birimizin dalında durmasaydıq bizi çoxdan dənləmişdilər. Amma belədə gücləri çatmır. Qəzəblənirlər, çığırırlar, bağırırlar, əllərindən bir şey gəlmir...

Bir saat keçməmişdi ki, Veysəl kişinin də, uşaqlı qadının da arpa zəmiləri yolunub qurtardı. Veysəl soldatları sərin bulaq suyundan başqa heç bir şeyə qonaq edə bilmədi. Onlar zəmidən çıxıb yola düzəldikləri zaman dərzlərin dalında mürgü vuran yefreytoru səslədilər.

– Yefreytor, oyan, yuxuya qalarsan.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yefreytor gözlərini açıb zəmiyə baxdıqda, soldatlar çoxdan tozlu yola çıxmışdılar. O yüyürə-yüyürə onların dalınca qaçdı. Veysəl kişi onun dalınca gileyləndi:

– Uçulasan belə zəmanə! Bir axmağın birini iyirmi nəfər qızıl kimi oğlanın üstünə böyük qoyublar. Bu dünyanın işi görəsən nə vaxt yoluna düşəcək?.. Mən yaxşı adamları həmişə zillətdə gördüm.

## XIV fəsil

Uluxan şəhərə səhərə yaxın, yuxunun ən şirin vaxtında gəldi. Məhz bu vaxt ən sayıq qorodovoylar da yuxunun hücumuna davam gətirə bilməyib mürgüyə gedirlər. Onu şəhərə iki-üç kilometr qalmış Muxağın kənarında Bəhramla tütün karxanasının işçisi Gəray qarşıladı. O öz evlərinə deyil, Gərayın evinə düşdü. Ancaq onların heç ağlına gəlməzdi ki, vaxtilə qapıbir qonşuları olan Kazaryanın arvadı onu burada görə bilər. Hamı pərt oldu. Ancaq olacağa çarə yoxdur. İntəhası o idi ki, Uluxan anasını görməyə gedə bilməyəcəkdi. Bəhram təkidlə xahiş edirdi ki, heç olmazsa bir dəqiqəliyə onun yanına getsin, gözləri qapıda intizar içində qalmış qarının gözlərinə görünsün, öləndə nigaran və nisgilli getməsin. Gəray isə buna qəti etiraz edirdi.

– Əgər Kazaryanın arvadı gördüsə, iş bitdi. Bütün qonşulara car çəkəcəkdir. Siz onu tanımırsınız. Hər yerə burnunu soxan arvaddır. Ərinə xəbər versə...

Uluxan da onun fikri ilə razılaşdı. Elə bu axşam işini qurtarıb, şəhərə yola düşməyi qərara aldı. Buna görə də matroslarla da gündüz görüşmək istədi. Bəhramla danışdılar, günortanın cırhacırında camaat evlərində sərinləndiyi zaman dalda küçələrlə Gəray onu heç kəsin gümanı gəlməyən bir yerə – öz bacısının evinə apardı.

Xaçaturyans Taytsın yanında oturanda Uluxan, Bondarçuk və başqaları ilə çoxdan görüşüb danışmışdı. O indi oturub, gecəyarısını gözləyirdi. Hava qaralanda xəbər gəldi ki, qorodovoylar Bəhramgilin evinə basqın edərək, Uluxanı axtarmışlar. Bəhram özü də evdə imiş. Qoca anası onların Uluxanı axtardıqlarını eşidib, ağlaya-ağlayam demişdir:

– A bala, o haradadır, tapsanız mənim də yanıma göndərin. Heç olmasa qəbirə gedəndə bir üzünü görüm...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uluxan anasının halına acıdı. Yazıq arvad!

Gərayın təklifi bu idi ki, Uluxan bu gecə getməsin.

– Yəqin ki, hər yerə bu saat göz qoyublar. Bir neçə gündən sonra gedərsən. Burada lap fələk də yerə qarın qoysa, səni tapa bilməzlər. Küçədə isə ac qurd kimi yəqin ki, hər yerə baş soxurlar. Mənim məsləhətim budur ki, qalasan. Ara sakitləşəndən sonra gedərsən.

Uluxan qala bilməyəcəyini söyləmişdi. Bəhramla da o daha görüşə bilməyəcəkdi. Onu bu saat addımbaaddım izləyirdilər. Çox danışdıqdan sonra gecəni onunla keçirənlər axırda belə qərara gəldilər ki, o geri qayıdarkən Nuxa yolu ilə deyil, Tiflis tərəfdən getsin.

Bu fikirlə Uluxan özü də razılaşdı. İndi onlar oturub, gecəyarısını gözləyirdilər. Saatlar keçirdi, küçələrdə əl-ayaq, səs-səmir kəsilmişdi...

Uluxangilin oturub gözlədiyi bu dəqiqələrdə şəhərin kənarında Veysəl kişinin qapısı yavaşcadan döyüldü. Gələn qaçaq Məhəmməd idi. Yenə də pəncərəyə qoyulan lampanın piltəsi tez aşağı salındı. Pəri qarı göz-qulaqda olmaq üçün tez-tez bayıra çıxır, gah da içəri girirdi. Məhəmmədin qoltuğunda bir bağlama da vardı. O, salam verib, evin yuxarı başına keçdi və pəncərədən aralı oturdu. Həmişə söhbətə birinci girişərək, Məhəmməddən hal-əhval tutan Veysəl kişi bu dəfə çox bikef görünürdü. Qonağın suallarına da qısa və soyuq cavablar verməklə kifayətlənirdi. Bu, Məhəmmədi şübhəyə saldı.

– Veysəl kişi, gözümə birtəhər dəyirsən? Bir şey-zad olmayıb ki?

Veysəl qaşqabaqlı halda oturduğu yerdə qurcalandı. Məhəmmədin üzünə baxmadan burnunun altında mızıldandı:

– Nə ola bilər?

– Deyirəm bəlkə mənim üstümdə pristavın adamları səni incidir? Bəlkə buraya gəlib-getməyimi onlara çatdırıblar, o qədər iş ola bilər ki...

– Pristavın mənimlə işi yoxdur.

Məhəmməd rahat nəfəs aldı. Demək, qocanı fikrə salan məsələ onunla əlaqədar deyildir. Nigarançılığı isə ancaq bu sarıdan idi.

– Bəs niyə belə bikefsən? – deyə Məhəmməd qapıdan içəri girən Pəri qarıya da göz yetirdi. Onun üzündə nə isə bir narazılıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

duyulurdu. Məhəmməd başa düşdü ki, bu ailənin mütləq nə isə bir əndişəsi var. Buna görə Veysəl kişi ilə açıq danışmaq istədi.

– Veysəl kişi, gəl məndən gizlətmə, – dedi. – Əgər mənim buraya gəlib-getməyim səni narahat eləyirsə, ayağımı üzərəm. Ancaq mənə düzünü de, görüm nə olub?

Veysəl kişi qüssə dolu gözlərini qaldırıb, məzəmmətlə Məhəmmədin tüklü üzündə gəzdirdi. Eşitdiyini, adamlar arasında danışılan sözləri daha ondan gizlətmək istəmədi. Fikirləşdi ki, qoy Məhəmməd camaat onun hər işindən xəbərdar olduğunu bilsin və bəlkə bundan belə adamları bezara gətirməsin, bəd əməllərdən əl çəksin. Lakin bunu ona deməyə dili gəlmirdi. Necə desin? Deyilənlərə əgər o özü inanmırsa, bunu onun üzünə necə çırpsın? O, qüssəli gözlərini Məhəmmədə zilləmişdi. Məhəmməd də hiss edirdi ki, qoca ürəyindəkiləri deməyə çətinlik çəkir.

– Veysəl kişi, ürəyində nə varsa, aç de, gizlətmə.

Veysəl kişi dərindən ah çəkdi.

– Mənim ürəyimdəkini yox, camaatın dilindəkini sənə çatdırmaq istəyirəm.

Məhəmməd hər şeyi, hətta bu evdə rahat oturduğu vaxt hər dəqiqə yaxalana biləcəyini də unudaraq, arxayınlıqla əllərini dizlərinin üstünə qoydu və azca irəli əyilib həyəcanlı halda soruşdu:

– Camaatın dilindəki nədir? Onlar nə istəyirlər? Deyirlər ki, onu öldürüm bununla iş düzəlir ki? Onu öldürsəm, yerinə başqasını qoyacaqlar...

Veysəl kişi başını buladı.

– Yox, – dedi, – camaat onu istəmir.

– Bəs nə istəyir?

Veysəl kişi dik Məhəmmədin gözlərinin içinə baxdı.

– Yol kəsməkdən əl çək.

Məhəmmədin gözləri bərələ qaldı. Eşitdiyi sözlərə inanmaq istəmədi.

– Yol kəsmək nədir, Veysəl kişi? Bir az açıq danış, başa düşək.

Veysəl Pəri qarının süzdüyü çayı Məhəmmədin qabağına qoydu. Sonra aramla sözünün gerisinə davam etdi:

– Deyirlər ki, günün günorta vaxtında yoldan ötənlərin qabağını kəsirsən, var-yoxlarını əllərindən alırsan...

Qoca danışdıqca Məhəmməd qızarır, boğazı sanki qəhər bağlayırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Axı məni gözü ilə görən olubmu? Bir kimsənə üzümə deyə bilərmi ki, mən onun bir şeyini əlindən almışam... ya pulunu... malını?..

Veysəl Məhəmmədin belə həyəcanlanmasından sonra başını qaldırıb, onu üzünə daha baxa bilmədi. O, eşitdiklərinə əvvəllər də inanmırdı, indi isə deyilənlər boş şayiədir, Məhəmməd belə işlərlə məşğul olan adam deyil. Onu belə iş görməyə nə məcbur edə bilərdi? Bir qarın çörəkmi? Tez-tez eşşək belinə çatılıb, gizlicə onun üçün göndərilən çörək, yuxa, yavanlıq Məhəmmədə də, yoldaşlarına da bəs etmirdimi?

– Guya görənlər deyirlər ki, sən üzünü bərk-bərk bağlayırsan ki, tanıyan olmasın.

Qəzəb Məhəmmədi yerindən oynatdı. Səbri tükəndi.

– Heç olmasa bir nəfəri göstərin görüm, kimdir? Harada mən onu soymuşam?

Veysəl Əlibəyin qabağına qatıb apardığı adamı xatırladı və onun dediklərini yerli-yerində Məhəmmədə danışdı. Bu zaman Məhəmməd bir anlığa fikrə getdi. Xəyalında istər-istəməz Rəsinin surəti canlandı. Onu öldürməməsinə təəssüfləndi. O heç şübhə etmirdi ki, bütün bu soyğunçuluğu eləyən odur. Onu qovandan sonra yəqin ki, yol kəsməyə başlamışdır. Görkəmindən də ona oxşadığı üçün hamı onu Məhəmməd güman edir.

– Veysəl kişi, sən də inanırsan ki, mən adam soya bilərəm?

Veysəl başını buladı.

– Mən inanmıram, – dedi. – Ancaq başqalarını necə inandırım ki, yol kəsən sən deyilsən... O gün səni tanıyan ağsaqqalların bir neçəsi mənə xəlvəti dedi ki, səninlə danışım, bu pis yoldan dönəsən... camaatı rahat buraxasan. Məhəmməd ayağa qalxıb, getməyə hazırlaşdı. Pəri qarı bayıra çıxıb ətrafa göz gəzdirdi. Şübhəli heç bir şey görmədikdə içəri keçib, Məhəmmədə başı ilə işarə elədi.

Məhəmməd özü ilə gətirdiyi bağlamanı göstərib Veysəl kişiyə dedi:

– Bu mənim bacımındır, ona çatdırarsan... Adamları isə soyanın kim olduğunu mən sizə göstərərəm. Onu yerin dibindən də olsa tapıb çıxaracağam...

O, qaranlıq həyətə çıxdı. Yenicə əsməyə başlayan xəfif küləkdən ağacların kəllələri tərpənirdi. Məhəmməd həyət qapısını açıb,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

küçəyə çıxmaq istəyəndə yaxınlıqda bir-birinin dalınca iki güllə açıldı. Onun səsi sakit gecədə yatmış şəhərin üzərində ildırım kimi şaqqıldadı. Bunun ardınca boğuq hənirtilər eşidildi. Məhəmməd qapını örtüb, içəri tərəfdən arxasını ona dayadı. Güllə səsinə hövlnak içəridən çıxan Veysəl kişi özünü tez Məhəmmədə çatdırdı.

– Gözlə, – dedi, – yəqin ki, soldatlardır, görəsən yenə nə fikirləri var. Belə qarışıqda göz-qulaq ol, dolaşa bilərsən. Gedək içəri.

Məhəmməd içəri keçmək istəmədi. Veysəl kişiyə də dedi ki, evə keçib qapını bağlasın.

– Sən narahat olma. Get çırağını söndür, yat.

O, uzaqdan eşidilən hənirtinin kəsildiyini görüb küçəyə çıxdı. Tez özünü şəhərin kənarında, güman gəlməyən bir yerdə atını saxlayıb, onu gözləyən qaçaq yoldaşına çatdırmaq istədi. Atı altında olandan sonra onun üçün qorxu deyilən şey yoxdu.

Küçələr sükut içində idi. Həyətlərdən ancaq atların arabir fınxırtıları eşidilirdi. Məhəmməd divarların dibi ilə irəliləyə-irəliləyə döngələrdən çıxdı. Dayaz çayı keçdi. Uzaqda qaralan Qoşa qarağacın dalındakı kolluqlara tərəf yeridi.

Yoldaşı, onu hələ uzaqdan gördüyü üçün fit verdi. Məhəmməd də ona fitlə cavab verdi. Kolluqlara yaxınlaşanda qaçaq yoldaşı güllə səslərindən narahat olduğunu bildirdi. Az qala onun dalınca şəhərə çapacaqmış. Onlar atlandılar.

Bir azdan meşəyə qalxan yoxuşda sürətlə çapan atların ayaq səsləri eşidildi.

* * *

Xaçaturyansla söhbətindən sonra Tayts birbaşa pristavın evinə getdi. Əhvalatı ona danışdı və xahiş etdi ki, bu gecə onun sərəncamına beş nəfər qorodovoy versin. Yarım saatdan sonra beş nəfər qorodovoy Taytsın xidmətində hazır oldu. O öz planını onlara danışdı. Tayts həyətə arxa tərəfdən hasarı aşıb keçəcəkdi. Kazaryan işığını ertədən söndürüb, qonşu həyətdə baş verən hadisələri izləmiş idi. Uluxan onların həyəti tərəfdən qaça bilərdi. Əgər belə bir şey olsaydı, o tez həyətə çıxıb bərkdən öskürməli və onların həyət qapısında pusquda duran qorodovoyu xəbərdar etməli idi. O biri qorodovoylar isə Gəraygilin küçə qapısının kəsdirib, durmalı idilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tayts arxa tərəfdən hasardan həyətə boylanıb onları qorxutmalı idi ki, Uluxan küçə qapısından bayıra qaçsın. Bu zaman Taytsın tapşırığına görə hazır dayanmış qorodovoylar iri kisəni qapıdan bayıra çıxacaq adamın başına keçirməli idilər. Camaatı şübhəyə salmamaq üçün güllə atılmamalı idi. Başına torba keçirilmiş adamı isə dərhal torbaqarışıq aparıb qazamata atmalı idilər. Yalnız Tayts özü səhər tezdən qazamata gəlib, məhbusu dindirməli idi.

Gərayın həyətinə basqın etməzdən qabaq Taytsın tapşırığına görə əvvəlcə Bəhramgilin öz evlərinə baxmalı idilər. Çünki anası ölüm ayağında olduğu üçün Taytsın fikrincə o heç olmasa bir neçə dəqiqəliyə ona baş çəkə bilərdi.

Gecə saat ikidə onlar Bəhramgilin qapısında görüşmək üçün şərtləşib ayrıldılar.

Müəyyən edilmiş vaxtda hamı Bəhramgilin qapısında hazır oldu. Qabaqda Tayts, onun dalınca da qorodovoylar birdən həyət qapısını döymədən hasarın üstündən içəri doluşdular. Bəhram hələ yatmamışdı. O gözləyirdi ki, bir azdan küçələrdə əl-ayaq tamam yığışandan sonra qardaşının görüşünə getsin. Xəstə arvad içəri soxulan qorodovoyları görən kimi Bəhramı tutmağa gəldiklərini güman etdi. Sonra onların Bəhramı deyil, Uluxanı axtardıqlarını bildikdə zarıltılı bir səslə yalvarmağa başladı:

– Onu tapsanız, mənim də yanıma gətirin... Ölərkən heç olmasa üzünü görüm...Neçə illərdir ki, üzünə həsrətəm.

Onlar Uluxanın buraya gəlmədiyini başa düşüb, oradan birbaşa Gəraygilə yollandılar. Bundan Bəhram təşvişə düşdü: görünür kim isə Uluxanın gəldiyini onlara xəbər vermişdir, lakin xoşbəxtlikdən onun harada olduğunu yəqin bilmirlər. Bəs indi haraya getdilər? Bəlkə gizləndiyi yeri bilirlər? Uluxangili tez xəbərdar etmək üçün geyinib, getmək istədi. Həyət qapısından bayıra çıxanda döngədə gözünə qaraltı göründü. Başa düşdü ki, onu pusan var. Tez geri döndü. İzinə düşüb, Uluxanın yerini öyrənə bilərdilər. Qardaşı ilə bir daha görüşə bilmək ümidi boşa çıxdı.

Taytsın dəstəsi Gəraygilin qapısına çatdıqda qorodovoylar şərtləşdikləri kimi qapıda gözlədilər. Tayts özü isə həyət tərəfdən hasarı aşmaq üçün getdi. Göz-gözü görmürdü. Qorodovoylar cəmi iki addım aralı durmalarına baxmayaraq, qaranlıqda bir-birilərini yaxşı seçə bilmirdilər. Onlardan hətta birisi məşəl yandırmağı təklif



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etdi. Yoldaşları razı olmadılar. Hamı gözlərini qapıya zilləyib durmuşdu. Ehtiyat edirdilər ki, qaranlıqda içəridən çıxan adamı əldən buraxa bilərlər. Vaxt keçirdi. Taytsdan isə heç bir xəbər çıxmırdı. Bir nöqtəyə baxmaqdan qorodovoyların gözləri yaşarırdı. Qaranlıqda onların gözləri qarşısında ağartılar titrəşir, qəribə kölgələr dolaşırdı. (Veysəlgildən çıxan Məhəmməd də həmin bu güllə səslərinə ayaq saxlayıb, qapının dalına sığınmışdı) Qorodovoylar tez əl-ayağa düşdülər. Onlar əvvəlcə həyətə soxulmaq istədilər. Lakin Taytsın tapşırığını xatırlayıb, yerlərindən tərpənmədilər. İçəridən tappıltı səsi eşidildi. Onlardan biri dedi:

– Gəlir. Hazırlaşın. Mən tez ağzını bağlayacağam, qoy səsi çıxmasın. Siz torbanı hazır tutun, ləngiməyin.

O, cibindən yaylığını çıxarıb, əlində hazır tutdu. Tappıltı yaxınlaşırdı. Birdən qapı cırıltı ilə açıldı. İçəridən hövlnak çıxan adam qorodovoyları görüb nə isə çığırmaq istəyirdi ki, tez yaylığı ağzına tıxadılar. O. çırpınıb onların əlindən çıxmağa çalışdı, ancaq o biri qorodovoylar tez torbanı onun başına keçirə bildilər. Üstündən də kəndirlə möhkəm çəkib bağladılar. İndi torbanın içindən ancaq boş xırıltı eşidilirdi. Onlar daha Taytsın bayıra çıxmasını gözləməyib birbaşa qazamata yollandılar. Qazamat keşikçisi tez boş kameralardan birini açdı. Qorodovoylar kisəni içəri yuvarlatdılar.

– İt oğlu, it, cəzandır, çək! – deyə qorodovoylardan biri onun böyrünə bir təpik də ilişdirdi və sonra keşikçiyə tərəf dönüb dedi:

– Cənab Tayts gəlməyincə torbanı başından çıxarma.

Keşikçi:

– Bilirəm, – dedi, – cənab Tayts özü mənə tapşırmışdır. Qorodovoylar evlərinə dağılışdılar. Bir azdan səhər açıldı. Haradansa şəhər içərisinə xəbər yayıldı ki, gecə kimi isə tutublar. Gecəyarısı güllə atanlar da onlar imiş. Bəhram bunu eşidən kimi özünü itirdi və gecə qardaşının köməyinə getmədiyinə görə özünü danladı. Arşak da bu xəbəri eşidən kimi onun yanına gəldi. Hər ikisi bir-birinə qoşulub Gəraygilə getdilər. Lakin onların qapısına çatmamış qorodovoyların o aranı axtardıqlarını uzaqdan görüb ayaq saxladılar.

– Bəlkə Gərayı da tutmaq istəyirlər? – deyə yavaşcadan Bəhram pıçıldadı.

– Gedək! – Arşak Bəhramın qolundan tutub geri çəkdi. – Qoy səni burada görməsinlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəhram da belə yerdə durmağın xatalı olduğunu bilirdi. Lakin qardaşının ələ keçməsi onu içəridən elə yandırmışdı ki, özünün həbs edilməsi haqqında heç fikirləşmirdi də. "Bu xəbər yazıq anamın qulağına çatsa, elə o dəqiqə canı çıxacaq" – deyə o, yanıqlı-yanıqlı Arşaka söyləndi.

Şəhərdə isə hər dəqiqə təzə xəbər çıxırdı. İndi deyirdilər ki, cənab Tayts yoxa çıxmışdır, onu gecəki atışmada öldürüblər, meyitini də haraya atıblarsa tapılmır. Bəhram bunu eşidəndə Gəraygilin evlərinin nə üçün axtarıldığını başa düşdü. "Yəqin ki, Uluxanı qoruyarkən Gəray Taytsı öldürmüşdür. Əgər həqiqətdə belə isə Uluxanın işi daha ağır olacaq" Bütün bu fikirlər içərisində dolaşıb qalmış Bəhram nə edəcəyini bilmirdi. Gərayı görməyincə sakit ola bilməzdi. Əgər Gəray tutulubsa onda hər şey, Bəhramın fikrincə, məhv olmuşdur.

Taytsın gecə əməliyyatından qayıtmamasını pristava xəbər verəndə o əvvəlcə buna o qədər də əhəmiyyət vermədi. Sonra qorodovoylardan biri gecəyarısı həyətdə güllə açıldığını dedikdə bundan o narahat olmağa başladı. Tez əmr etdi ki, gecə onların olduğu həyət axtarılsın. Buna görə də qorodovoylar Gərayın evini dövrəyə aldılar, hər yeri axtardılar. Məlum oldu ki, gecə evdən ev sahibi Gəray, onun arvadı və uşağından başqa heç kimsə olmamışdır. Gecəyarısı həyətlərində güllə açılanda da onlar bayıra çıxmağa qorxmuşlar. Buna görə də həyətdə nə baş verdiyindən heç bir xəbərləri yoxdur. Qorodovoylar isə buna inanmayıb, hər ehtimala qarşı Gərayı həbs etdilər. Taytsın isə nə ölüsü, nə də dirisi heç yerdə tapılmadı. Qəzəbindən əsən pristav özü qazamata gəldi. Gecə tutulan adamdan bir şey öyrənmək məqsədilə kameraya, onun yanına endi.

Torbaya salınmış adam hərəkətsiz halda kameranın bir küncündə qalmışdı. Nəfəsi hiss edilməsəydi, onun öldüyünü də güman etmək olardı. Pristav əmr etdi ki, torbanı açsınlar. İki nəfər tez qabağa gəlib əvvəlcə torbanın üstündən sarınmış kəndiri açdılar. Sonra torbanın ağzını açıb onu yarıyadək aşağı saldıqda hamı çaşıb qaldı. Torbanı açan qorodovoylar sanki yerlərindəcə sehrləndi. Dilləri söz tutmadı. Pristavın gözləri isə alacalındı. Bığlarını əsdirib, at kimi fınxırdı. O, gördüyünə inanmaq istəmirdi. Torbanın içindəki Tayts idi. Ağzına yaylıq tıxanmışdı. Gözləri yumulu idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pristav və onun ətrafındakılar özlərini elə itirmişdilər ki, Taytsın ağzındakı yaylığı çıxarmaq heç birinin ağlına gəlmirdi. Haçandan-haçana pristav özünə gəlib, qorodovoyların üstünə çığırdı:

– Maymaqlar, niyə durmusunuz? Tez yaylığı ağzından çıxarın!

Qorodovoylardan biri əyilib yaylığı Taytsın dişlərinin arasından çəkib çıxardı. Taytsın cəhəngləri köpüklənmişdi. Sonra köməkləşib, onu torbanın içindən çıxardılar. Huşunu itirmişdi. Tez yerə uzatdılar. Pristavın tapşırığı ilə qorodovoylardan biri xərək dalınca qaçdı. Bir azdan qazamatda hamı bir-birinə dəydi. Pristavın bağırtısı küçədə eşidilirdi.

–Axmaqlar! Maymaqlar, bundan ötrü sizi güllələmək də azdır... Dardan asmaq lazımdır, dardan! Qoy başqalarına da dərs olsun... Maymaqlar...

Xəbər gətirildi. Qorodovoylar onu, camaatdan gizlətməyə çalışaraq, təcili xəstəxanaya apardılar.

Xəstəxanada Tayts yalnız bir saatdan sonra özünə gəldi. Pristav da orada Taytsın çarpayısı yanında idi. Tayts gözlərini açıb, taqətsiz halda ətrafına baxındı. Kim isə axtarırdı. Lakin danışa bilmirdi. Pristavın ağlına gəldi ki, arvadını axtarır. Tez onun dalınca adam göndərdi. Çox çəkmədi ki, arvadı gəldi və ərini bu halda görüb ağlamağa başladı. Tayts isə gözlərini döyəcləyərək matdım-matdım baxırdı. Həkim dedi ki, qorxulu bir şey yoxdur, bir azdan özünə gələr. Pristav arxayın olduqdan sonra getdi. Dəftərxanada, gecə əməliyyatına Taytsla birlikdə getmiş qorodovoyları toplayıb, onlara bərk təpindi. Xüsusilə yaylıq sahibini işdən qovmaqla hədələdi. Lakin qorodovoylar birağızdan dedilər ki, onlarda heç bir günah yoxdur, onlar ancaq cənab Taytsın əmrini yerinə yetirmişlər.

– Torbaya salınmağı da o özü əmr etmişdir, maymaqlar?

Qorodovoylardan biri onların öz aralarında nə cür şərtləşdiklərini yerli-yerində pristava nəql etdi. Pristav onlara diqqətlə qulaq asandan sonra, guya Taytsı öldürmək üstündə həbs edilmiş adamları tez açıb buraxmağı əmr etdi.

Bir saatdan sonra Gərayı həbsxanadan açıb buraxdılar. O, birinci növbədə Bəhramı axtarıb tapdı. Gecəki əhvalatı ona danışdı. Məlum oldu ki, Gəray gecə Uluxanı bacısıgilə yola salıb evə qayıtdıqdan yarım saat sonra pəncərədən görür ki, bir nəfər hasarı aşıb həyətə tullandı. Diqqətlə baxıb Taytsı tanıyır, məsələnin nə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yerdə olduğunu başa düşür. Əvvəlcə dinmək istəmir. Sonra onu biabır etmək üçün həyətə çıxır. "Ay köpək oğlu sən mənim evimə oğurluğa gəlmisən" deyib əlinə keçən beli ona tolazlayır. Qorxuya düşən Tayts havaya iki güllə atır. Gəray bunu görən kimi qaçıb, həyət qapısının yanındakı ayaqyoluna girir. Tayts isə onun ayaqyolu ilə yanaşı həyət qapısından qaçdığını güman edərək, küçəyə çıxır. Burada qorodovoylar onu torbaya salıb aparırlar. Bəhram gülməkdən uğunub getdi.

## XV fəsil

Xaçaturyansın sözləri Hacı Xeyrini, doğrudan da yerindən oynatdı. O üç gün çəkdiyi zərərin yerini doldurmaq üçün soldatları çağırmağı lazım bildi. Bu məqsədlə o günortadan sonra Qala düzünə yollandı. Qala qapısında durmuş əli tüfəngli soldatdan xahiş etdi ki, onu podpolkovnikin yanına buraxsın, onunla vacib işi var. Keşikçi soldat tez növbətçi zabitə xəbər göndərdi. Çox çəkmədi ki, kiçik zabitlərdən biri bayıra çıxdı. Hacının nə üçün gəldiyini öyrənəndən sonra batalyon komandirinə xəbər vermək üçün yenə də içəri keçdi. Zabitin içəridən çıxması uzun sürdü. Hacı lap darıxmışdı. Arada bir çıxıb getmək istədi. Ancaq yenə də səbrini basıb gözlədi. Zabit, nəhayət qapıda göründü və keşikçiyə tapşırdı ki, hacını içəri buraxsın. Hacı işin baş tutduğuna sevinərək içəri keçdi. Qalanın içərisində soldatlar nə isə tikirdilər. Hacı onu içəri çağırmış zabitin dalınca batalyon komandirinin kabineti qabağındakı kiçik dəhlizə daxil oldu. Zabit Hacıya gözləməyi tapşıraraq, içəriyə podpolkovnikin yanına keçdi və bir azdan qapını açıb hacını da içəri çağırdı.

Podpolkovnik Dobrovolski otağında tək idi. O, hacını irəli çağırıb, ona oturmaq üçün yer göstərdi.

– Buyurun! – dedi.

Hacı sözlərin qol-qanadını sındıra-sındıra nə üçün gəldiyini başa saldı. Podpolkovnik qaşqabağını tökərək onu dinlədi. Sonra Varlamovu yanına çağırtdırdı və ona tapşırıq verdi ki, hacı ilə danışsın və qiymət kəsişib sabah səhər təlimdən sonra onun karxanasına matroslardan on nəfər göndərsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Podpolkovnikin yanından çıxandan sonra hacı ilə Varlamov arasında bir xeyli müddət əmək muzdu haqqında danışmaq getdi və axırda bir dil tapa bildilər. Hacı pulun yarısını qabaqcadan verdi.

Ertəsi gün vəd edildiyi vaxtda soldatlar gəldilər. Romanovla Demeşko da onların arasında idi. Yefreytor hacıdan nə etmək lazım gəldiyini soruşub öyrəndi. Sonra soldatlara başa saldı ki, tütün taylarını içəri daşıyıb, sıxıcı dəzgahlarında möhkəm sıxmalıdırlar, sonra təzədən tay şəklində, bağlayıb, belinə dəmir vurmalıdırlar...

İş başlandı, hacının matroslarla danışıb işi onlara gördürməsi bütün şəhərə yayıldı. İki-üç gündən bəri işə çıxmayan fəhlələr axışıb gəldilər.

Onlar əlləri qoynunda kənarda durub həsrətlə baxırdılar. Matroslar isə heç bir şeyə əhəmiyyət vermədən tayları içəri daşıyırdılar. Karxananın içərisində olanlar isə tütün yarpaqlarını dəzgahlarda sıxırdılar. Demeşko içəri tay daşıyırdı. O, adamların qüssəli halda durub onlara baxdıqlarını gördükdə şübhəyə düşdü. Qaşları çatıldı. Hacı isə arada qollarını ata-ata gəzişirdi. İşin qızğın getdiyini görən hacı üzünü fəhlələrə tutub lovğalıqla dedi:

– Hə, nə oldu? Siz elə bildiniz ki, işə çıxmayanda mənim əlim-qolum bağlanacaqdır? İndi necəsiniz?

Demeşko hacının hərəkətindən dərhal başa düşdü ki, fəhlələr işləməkdən boyun qaçırmışlar. İndi isə sahibkar soldatların onların yerinə işləməsi ilə fəhlələrə acıq verir. Demeşko tez içəri keçdi və hündürdən matroslara müraciətlə dedi:

– Qardaşlar, heç bilirsinizmi biz nə edirik? Onlar tətil etmişlər. Biz isə sahibkara yaranırıq. Buraxın işi! Qardaşlar, görün bizdən nə üçün istifadə edirlər?!

Matroslar işi buraxdılar. Hamı bayıra çıxdı, yefreytora bildirdilər ki, işləməyəcəklər. Yefreytor onları karserlə hədələdi, heç bir nəticə vermədi. Hacı çaşıb qalmışdı. Matrosların birdən-birə işi buraxmasına heç bir səbəb görmürdü. Güman elədi ki, Arşakdan ya, Bəhramdan yəqin bir nəfər matrosların qulağına nə isə pıçıldaşmışdır. Ancaq adamların içərisində onların heç birini görmədi. Yefreytora yaxınlaşdı, işləməmələrinin səbəbini soruşdu. Yefreytor ona cavab vermək əvəzinə, matrosların üstünə kəkələnməkdə davam edirdi. Demeşko, Romanov və başqaları sinələrini qabağa verib dedilər:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qoy bizi güllələsinlər, ancaq biz onların boğazlarının tikəsini kəsə bilmərik! Qoy səhərdən biri sinəsinə döyüb, fəhlələrə acıq verən sahibkar özünə başqa adamlar tapsın. Biz işləməyəcəyik!..

Yefreytor onları şirin dilə də tutdu. Lakin matroslardan heç biri yumşalmadı. Demeşkonun işarəsi ilə hamı sıraya düzüldü. Əllərini onlara baxan fəhlələrə tərəf qaldıraraq xudahafizləşdilər. Sonra hündürdən oxuya-oxuya yola düşdülər. Naəlac qalmış yefreytor da onların yanınca addımlamağa məcbur oldu. Hacı dizlərinə vura-vura pulun yarısını əvvəlcədən verməsinə yanırdı.

– Evini Allah yıxsın, mərdimazar! Kaş pulu əvvəlcədən verməyəydim.

Matroslar uzaqlaşıb getdilər. Hacı qapının ağzına tökülmüş tayaları qaldırıb içəri yuvarlatmaq istədi. Lakin nə qədər güc elədisə bacarmadı.

Kənarda durub baxan fəhlələr gülüşdülər. Onlardan biri, hətta bərkdən çığırdı:

– Hacı, ehtiyatlı ol, gücə düşərsən...

Hacı adamların arasına göz gəzdirdi, ancaq bu sözləri deyəni öyrənə bilmədi. Axırda kontorundan mühasibini səslədi. Dazbaşlı mühasib yüyürə-yüyürə gəldi. İkisi birləşib, tənbəki tayasını birtəhər sürüyüb içəri apardılar. Sonra hacı karxananın qapısını qıfıllayıb, mərdimazarı söyə-söyə kontoruna qayıtdı.

Bu hadisədən bir saat sonra Xaçaturyans hacının karxanasında matrosların işlədiyini eşidib, yolunu o tərəfdən saldı. Lakin karxananı bağlı görüb təəccübləndi. Kontora yaxınlaşdı.

– Salam, hacı, bəs niyə belə tez qurtardılar? – dedi.

Hacı Xeyri acığını tökmək üçün bir adam axtarırdı. Xaçaturyansı görən kimi ağzı açıldı:

– Cənab, əlin belə yağlı idisə öz başına çəkəydin! Mənə deyən yoxdu, axı sən niyə belə düdələrin sözü ilə oturub durursan. Mərdimazarı axtarmaqla deyil ha.

Xaçaturyans çiyinlərini çəkdi, qısa boynu yaxalığının arasında itdi. Gözləri qurbağa gözləri kimi elə bil indicə yerindən pırtlayıb çıxacaqdı.

– Hacı nə olub ki, – dedi? – Bu mənim yaxşılığımın əvəzidir?

– Hacı, hövsələdən çıxdı.

– Sənin yaxşılığın təpənə dəysin, cənab. Hansı yaxşılıqdan danışırsan? Pulum da getdi, fəhlələr də üstümə ayaqlandı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Başa düşmürəm, hacı, sən nə danışırsan?

– Cənab, başa düşməsən yaxşıdır. Görəsən başa düşsəydin mənə xeyrin-zadın toxunacaqdı?.. Yeznən səndən nə xeyir görüb ki, mən də görüm! Sovuş get, cənab.

Xaçaturyans nə isə demək istəyirdi ki, hacı onun ağzından vurdu.

– Atam-anam, sovuş get! Nə xeyrini istəyirəm, nə zərərini. Sovuş, sən dədəyin goru, sovuş!

Xaçaturyans üz-gözünü turşutdu. Öz-özünə: "Qəribə adamdır, bu hacı" deyib qarnını yırğalaya-yırğalaya oradan uzaqlaşdı. Hacı onun dalınca söydü, hətta hirsini soyutmaq üçün tüpürdü də.

*Xaçaturyans kilsə meydançasına tərəf getdi.* Evdən indicə çıxdığı üçün dünən Taytsa xəbər verdiyi məsələni nə ilə qurtardığını öyrənmək istədi. Birbaşa onun yanına getməyə nədənsə çəkindi. Fikirləşdi ki, əgər Bakıdan gəlmiş qonağı ələ keçiriblərsə, yəqin ki, bunu şəhərdə bilməmiş olmazlar.

Kilsə meydançasında Kazaryanı gördü.

– Ayrapet, xəbərin varmı? – deyə Kazaryan ona yaxınlaşdı.

– Nədən?

– Dünən gecə qorodovoylar səhvən cənab Taytsı tutub torbaya salıblar. Kişi indi xəstəxanada yatır. Deyirlər ki, bir az da gec xəbər tutsaydılar ölərdi.

Xaçaturyansın bədənini elə bil üşütmə basdı.

– Necə olub ki, onu torbaya salıblar?

Kazaryan camaat arasında gedən söhbəti ona danışdı.

– Deyirlər ki, onlar gecə kimi isə tutmaq istəyiblər. Qaranlıq olduğundan səhvən Taytsın özünün başına torba keçirib atıblar qazamata. Tayts səhərədək orada qalıb.

Xaçaturyans qorxuya düşdü və onların kimi tutmaq istədiklərini heç açıb Kazaryana da demədi. Yaxşısı budur ki, bu məsələ Taytsla onun arasında qalsın. Xaçaturyans narahat olmağa başladı. "Görəsən niyə Uluxanı tuta bilməyiblər? Yoxsa onun Zaqatalaya gəlməsi yalanmış? Kazaryanın arvadı bəlkə dolaşıq salıb? Əgər doğrudan da, belə isə, o Taytsın gözünə necə görünəcək?" Bu fikirlərdən başı hərləndi. Uluxanın şəhərə gəlib-gəlməməsini yəqin etmək üçün bir də bu barədə Kazaryandan soruşmağa cəsarət eləmədi. Kazaryanı şübhəyə salacağından ehtiyat edirdi. Yox, Taytsın da gözünə daha görünə bilməzdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaçaturyans bir günün içində iki uğursuzluğa tutulmasından çox pərt halda evə qayıtdı. Mənzilinə girərkən bacısı onun rəngindən qorxuya düşdü.

– Ayrapet, sənə nə olub belə? Rəng-ruhundan xəbərin var? Xaçaturyans başının bərk ağrıdığını bəhanə etdi.

* * *

Tayts xəstəxanada çoxdan özünə gəlmişdi. Arvadı onun yanından ayrılmırdı. Axşamüstü pristav da onu yoluxmağa getdi. Tayts pristavın yanında özünü gümrah göstərməyə çalışsa da bacarmadı. Dirsəklənib oturmağa belə taqəti qalmamışdı. Arvadı tez-tez təzə meyvələrdən hazırlanmış müxtəlif şirələri güclə ona içirirdi. Tayts pristavın istehzalarından qorxurdu. Onun hər bir uğursuz təşəbbüsü, hiss edirdi ki, pristavın sevincinə səbəb olur. Ancaq bu dəfə o, pristavın üzündə nə istehza, nə də sevinc əlaməti gördü. Bu cansız adamı yataqda gördükdə pristavın ona doğrudan da, ürəyi yanırdı. Gimnaziyanın üçüncü sinfində ikən oxuduğu Don Kixotu xatırladı. Tayts da onun kimi cılız, cansız və gülünc idi. Axırıncı macərası ilə o, hətta Don Kixotu da ötüb keçmişdi. Onun vaxtı ilə göstərdiyi xidmətlərdən əgər xəbəri olmasaydı, heç zaman inana bilməzdi ki, bu cücə kimi ütük, zəif bir məxluq vaxtı ilə bir çox gizli inqilabi təşkilatların üstünü açmışdır. Nə qədər aciz məxluq imiş bu cənab! Yox, indi pristavın daha əvvəlki kimi ona gülməyi gəlmirdi. Ancaq bununla belə, daxilində istər-istəməz gizli bir hiss ona xatırladırdı ki, bu, səninlə ötkəmliklə danışan, mənəm-mənəm deyən həmin Taytsdır. Qoy indi sənin qarşında nə dərəcədə zəif olduğunu başa düşsün. Təkcə o deyil, təşəbbüs göstərib, onu buraya gətirtdirən də, ona bir pristav kimi etibarını itirmiş adam kimi baxanlar – bu zavallı bir vücudu buraya göndərənlər də xəcalət çəksinlər. Bir çeçələ barmağı ilə boğa biləcəyi bir adam ona nə kömək edəcəkdi? Bağışlayın ağalar, səhviniz var! Aslan cavanlığında da, qocalığında da aslandır.

Pristav Taytsın özünün də tutduğu işdən xəcalət çəkdiyini hiss edirdi. Buna görə də ona bu barədə suallar verib yarasının gözünü qopartmaq istəmədi. Əksinə, ona təsəlli verməyə başladı.

– Xəstəxanadan çıxmağa tələsməyin... Bir neçə gün dincəlin!

Arvadı da pristavın sözlərinə qüvvət verdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Konstantin Konstantinoviç düz deyir. Əlində qaşığı saxlamağa taqətin qalmamışdır... Mən sənə buraya gələndə dedim ki, nahaq bu işə razılıq verirsən, fikrin əvvəlki vaxtına getməsin... Gördünmü, bu da axırı...

Ərinin göz ağartmasına baxmayaraq, arvadı birnəfəsə özünün buraya gələrkən qabaqcadan düşündüklərinin doğruluğunu sübuta çalışırdı. Arvadının üstünə qəzəblənməyə, bozarıb kükrəməyə onda taqət qalmamışdı. Arvad da sanki bunu bildiyi üçün sözünə arabərə vermirdi.

Pristav gedəndən sonra da Tayts arvadını danlamaq üçün özündə taqət hiss etmədi.

## XVI fəsil

Məhəmməd Veysəl kişinin yanından gedən gecədən Rəsini axtarmaqda idi. Rəsi meşənin yuxarı sıx tərəflərində yaşaya bilməzdi. Bilirdi ki, Məhəmməd və onun yoldaşları həmişə bu yerlərdə dolaşırlar. Buna görə də onu kəndlərə və şəhərə yaxın meşəli yoxuşlarda, yol qıraqlarında axtarırdı. Günlərlə kolların dibində pusquda əyləşirdi. Axşam hava qaralandan sonra ya da sübh tezdən özünü xəlvəti yolların ağzına verib, gözə görünməyən yerlərdə gizlənirdi. Bir neçə gün belə keçdi. Rəsi elə bil iy duyduğu üçün heç yerdə görünmürdü. Məhəmməd bundan şübhələndi: "Bəlkə onu duyuq salıblar?.. Yox, qaçaq yoldaşlarından heç biri onu Rəsinin ayağına verməzdi. Onlar özləri də Rəsinin hərəkətlərindən narazı idilər. Məhəmməd onu qovduğu zaman onlardan heç birisi ağzını açıb narazılıq eləməmişdi. Məhəmməd onlara arxayın idi. Bərk ayaqda heç biri ona xəyanət etməmişdi. Başı üçün pul kəsildiyi günlərdə də onlar sübhədək yuxularına haram qatıb, gecələr Məhəmmədin başı üstündən, gündüzlər isə yanından ayrılmırdılar. Bərkdə-boşda sınaqdan çıxmış uşaqlardı.

Onlar Məhəmmədin Rəsini nə üçün axtardığını bilirdilər. Lakin ehtiyat etdikləri bir şey vardı: o da bu idi ki, Rəsinin əlindən xata baş verə bilərdi. Buna görə də onlar Məhəmmədin dalınca qarabaqara, oğrun-oğrun sürünür, uzaqdan-uzağa onu himayə edirdilər. Çox zaman da Məhəmmədin bundan xəbəri olmurdu. Məhəmmədin başına bir iş gəlsəydi, onların çoxu əmin idi ki, pristav min kələk qurub hamısını bir-bir dinləyəcəkdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəmməd şəhər və kənd yerlərinə yaxınlaşdıqca qaçaq yoldaşlarının narahatlığı daha da artırdı. Onlar Məhəmmədin bu gün pusquya girdiyi yol ağzının da dörd dövrəsini nəzarət altına almışdılar.

Rəsi isə görünmürdü. Altıncı gün idi ki, Məhəmməd səbirlə onun yolunu gözləyirdi. Əlbəttə, əgər o öz qaçaq yoldaşlarının onu mühafizə etmək üçün həyatlarını belə təhlükə altına qoyduqlarını bilsəydi, çox narahat olacaqdı. Çünki bu yerlər, bu yol kənarı kollar hər dəqiqə qorxulu idi.

Yeddinci gün sübh vaxtı Məhəmməd qarşı tərəfdəki kolluğun tərpəndiyini gördü. Diqqətlə baxdı. Rəsi idi. O, kolun dibində özünə yer rahatlayırdı. Görünürdü ki, niyyəti yoldan ötəcək adamın qabağını kəsməkdir. Məhəmməd onu oturduğu yerdə nişan alıb, öldürə bilərdi. Ancaq bunu istəmirdi. O, bu namussuz qaçağı camaatın gözü qabağında, bir soyğunçu kimi gəbərdib, öz üzərinə atılan böhtanı, qara ləkəni silmək istəyirdi.

Rəsi öz yerini rahatlayandan sonra yanındakı ağacdan budaqlar qoparıb qabağına düzdü və beləliklə, özünü kənar gözdən möhkəm gizlədə bildi.

Məhəmməd kolların arası ilə ehtiyatla sürüşüb geriyə çıxdı. Arxa tərəfdəki ağacların dibi ilə əyilə-əyilə keçdikdən sonra xeyli uzaqda dəyirman yoluna düşdü. Bir neçə gündən bəri əyninə geydiyi köhnə, yırtıq paltarların, Rəsini şübhəyə salmamaq üçün əynində necə oturduğunu yoxladı, zağarası getmiş tüklü papağı gözlərinin üstünə çəkdi. Guya dişi ağrıdığı üçün yaylıqla üzünü möhkəm çəkib bağladı. Sonra yanında gətirdiyi torbanı ağacın dibindəcə torpaqla doldurub çiyninə atdı. Uzaqdan görən olsaydı, onu dəyirmana buğda üyütməyə gedən adi yoxsul bir kəndlidən seçə bilməzdi.

O, Rəsinin gizləndiyi kola tərəf ağır-ağır addımlayırdı. Arabir qaşları altından kola tərəf nəzər də salırdı. Kolda bir yarpaq da tərpənmirdi. Məhəmməd Rəsini şübhəyə salmamaq üçün pəsdən zümzümə etməyə başladı. Ancaq səsindən Rəsinin onu tanıya biləcəyini düşünüb susdu.

Kola bir neçə addım qalmış yarpaq xışıltısı eşidildi, kolun budaqları yavaşcadan tərpəndi. Bir o qədər çəkmədi ki, Rəsi birdən pişik kimi koldan sıçrayıb yola çıxdı. Məhəmməd onu görüb, guya qorxub qaçmaq istədi. Rəsinin bağırtısı eşidildi:

– Dayan, yoxsa kürəyini odlaram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəmməd əllərini əsdirməyə başladı. Səsini dəyişərək yalvardı:

– Vallah, heç bir şeyim yoxdur, – dedi. – Yalvarıram... Balalarım var!

Rəsi əlini onun ciblərinə atıb axtarmaq istədi.

– Səsini kəs, elə bilirsən yalvarmaqla əlini Məhəmmədlin əlindən qurtara biləcəksən?

Məhəmməd bunu eşidən kimi daha səbir edə bilmədi, güclü bir hərəkətlə onun qolunu vurub, tüfəngini yerə saldı. Rəsi əyilib onu qaldırmaq istədi

Məhəmməd bunu eşidən kimi daha səbir edə bilmədi, güclü bir hərəkətlə onun qolunu vurub, tüfəngini yerə saldı. Rəsi əyilib onu qaldırmaq istərkən Məhəmməd ayağını tüfəngin üstünə basdı və üzünə bağladığı yaylığı çəkib atdı. Qaçaq əyildiyi halda aşağıdan yuxarı baxanda dəhşətə gəldi. Gözləri bərəldi:

– Məhəmməd... – deyə çığırdı.

O özünü itirdiyindən ayağa qalxa da bilmədi.

– Qalx, – Məhəmməd təmkinlə ona çığırdı.

Rəsi heç bir söz demədən qalxdı. Onun dili-ağzı söz tutmurdu, nitqi qurumuşdu. Məhəmmədə zillənmiş gözləri ilə yalvarır, günahından keçməsini dilsiz-ağızsız xahiş edirdi. Məhəmməd isə onun gözlərindəki yalvarışı hiss etdiyi üçün ona baxmamağa çalışırdı.

– Düş qabağıma!

– Haraya? – Rəsi dili dolaş-dolaşa soruşdu.

– Düş qabağıma dedim...

Rəsi naəlac qalıb onun qabağına düşdü. Ancaq bir gözü elə həmişə dalda idi. İndicə kürəyinin odlanacağını gözləyirdi. Məhəmməd isə deyəsən, onu öldürmək fikrində deyildi. Rəsi qalın qaşları altından ona arabir qəzəbli nəzər salaraq qabağınca addımlayırdı. Məhəmməd dinmir, Rəsi də qorxusundan səsini çıxarmırdı.

Meşəyə gedən yoxuşu qalxdılar, sonra böyürtkənli cığırla aşağı endilər. Rəsiyə elə gəldi ki, Məhəmməd onu elə buradaca, dərədə öldürüb, meyitini gözdən uzaq, bu ağacların dibinə atacaqdır. Ancaq Rəsinin düşündüyü kimi olmadı. Məlum oldu ki, Məhəmməd dərənin dibi ilə axan bulağa su içməyə enmişdir. O, bulağa çatıb Rəsiyə tərəf səsləndi:

– Dur!..



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Rəsi ayaq saxladı. Məhəmmədin məqsədini bilmək üçün geri qanrılmağa cəsarət etmədi. Məhəmməd bulağın gözünə əyilib, dodaqlarını qayanın arasından sızan soyuq su şırnağının altına tutdu. Doyunca içdi. Sonra əllərini, üzünü yudu.

Bir azdan onun səsi eşidildi:

– İçmək istəyirsənsə, gəl iç!

Rəsi dinmədi. Arxasını ona çevirərək, sakitcə durmuşdu.

– Gözlərini qan tutub, qulaqların ki, eşidir. Susuzluğun varsa keç iç dedim.

– İçmirəm.

Məhəmməd tənbəki kisəsini çıxarıb papiros eşdi. Sonra ona tərəf uzatdı.

– Tütün eş.

Rəsi yenə ötkəmcəsinə onun təklifini rədd etdi.

– Eşmirəm.

Onlar indi dərəni təzədən başıyuxarı qalxırdılar. Quşlar hərdənbir civildəşirdi. Günün şüaları vələs, cökə, cır armud ağaclarının arasından süzülərək, çəpəki onların qalxdığı cığıra yayılırdı. Talalarda rütubət torpaq buxarlanmağa başlamışdı. Yosunlu gövdələr buxarın bu zəif boz örtüsü içərisində əriyib görünməz olmuşdu.

Sübh tezdən meşənin oyanmasını Rəsi sanki heç bir zaman belə gözəl görməmişdi. Buralarda yaşadığı bu illərdə o nə üçün bu gözəlliyi duymamışdı? Nə üçün quşların civiltisi indiki kimi ona ləzzət verməmişdi? Sübhün gözündə meşənin bu rütubətli nəfəsi nə xoş imiş?! Bəlkə bu gün həyatla vidalaşacağı üçün hər şey ona gözəl görünür? O doğurdanmı iki-üç il içərisində özünə məskən saldığı meşənin üzünə həmişəlik həsrət qalacaqdır? Ayaqları bir də bu torpağın üstündə gəzməyəcəkmi? Anasını bağrına basmayacaqmı? Bu suallardan o sanki dəhşətə gəldi. Əsəbləri gərilmiş halda geri qanrılıb çığırdı:

– Yox, sən məni öldürməyəcəksən, yox, sən bunu bacarmazsan!.. Mən bilirəm ki, əlindən gəlməz...Yox!..

Məhəmməd isə onun bu əsəbiliyi qarşısında yalnız bir söz dedi:

– Yoluna düzəl!

Rəsi bir an yerindən tərpənmədi. Sonra öz-özlüyündə nə fikirləşdisə əlini hirslə yellədib, yoluna davam etdi. Dik yoxuşu qalxmaq getdikcə çətinləşirdi. Məhəmməd üçün daha ağırdı. Çünki



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rəsinin tüfəngi də onun çiynindən asılmışdı. Heç biri dinmirdi. Məhəmməd tamam başqa şey haqqında düşünürdü. Bu dəqiqə onu narahat edən bacısı uşaqlarının halı idi. Onlar Nəsirdən sonra necə dolanacaqlar? Yeməyə bir tikə çörək tapacaqlarmı? Bu haqda fikirləşərkən həmişə olduğu kimi indi də Bəhramın gənc surəti onun gözləri qabağında canlandı. Cavan oğlan birdən nəzərlərində yekəlib dağa, yenilməz bir dağa çevrildi. Budur, o öz sinəsini qabağa verərək, onun bacısı uşaqlarını tufandan, bəladan qoruyur, onların taleyinə uzanan yad əlləri qüvvətli qolları ilə burub geriyə qaytarır. Görəsən, onları həmişə beləcə qoruya bilərmi, pristavdan, qorodovoylardan, lap Nikolay padşahdan da çəkinmədən?..

Arxadan gələn at ayaqlarının səsi onu xəyaldan ayırdı. Atlılar dolamac yoxuşa çıxırdılar. Məhəmməd onların dalınca atlı-kazak salındığını güman etdi. Özünü itirməyərək, tez Rəsiyə sağ əldəki kolluğun dalına keçməyi əmr etdi. Özü də kolluğa girib, Rəsinin arxasında oturdu. Tüfənginin lüləsi Rəsinin kürəyinə tuşlanmışdı. Səsini çıxaran kimi odlayacaqdı... Atlılar yaxınlaşırdı. Məhəmməd gözlərini nə yoldan, nə də qarşısındakı Rəsidən çəkirdi. Yoxuşu burulan atlılar on addımlıqda göründüyü zaman Məhəmməd öz yoldaşlarını tanıyıb təəccüb qaldı. "Onlar buralarda nə gəzirlər? Başlarında bəlkə qovğa var?"

O, Rəsini də qaldırıb, yola çıxdı. Qaçaqlar Məhəmmədi görən kimi karıxıb atlarının başını çəkdilər. Hamı duruxdu.

– Siz burada nə qayırırsınız?

Onlardan heç biri cürət edib, nə üçün gəldiklərini deyə bilmədi. Axırda yenə gödəkboylu, kötüyə oxşayan Murad dilləndi.

– Səndən nigaran qalmışıq, – dedi. – Bildik ki, şəhərin yaxınlığındasan, uzaqdan da olsa hayanlıq eləyirdik.

Məhəmməd dinmədi. Rəsi başını aşağı dikib durmuşdu. Qaçaqlar Məhəmmədin onu öldürməsinə təəccüb qaldılar. Məqsədi nə idi? Onu haraya aparır? Dərədə onu öldürmək olmazdımı? Ağzı belə, yolu ha tərəfədir? Onlardan heç biri Məhəmməddən bu suallara cavab almaq niyyətində deyildi və bunu soruşmağa da ürək eləməzdilər.

Məhəmməd başı ilə işarə elədi:

– Gedin! – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun danlaqlarından yaxşı qurtardıqlarını görən qaçaqlar üzüyuxarı qalxdılar. Onlar uzaqlaşandan sonra Rəsi elə bil yuxudan ayılıb özünə gəldi:

– Murad, Həmdi... kömək eləyin... – deyə dallarınca çığırdı.

Onun səsinə ancaq meşə əks-səda verdi. Qaçaqlar isə onu eşitmədilər. Bəlkə də özlərini eşitməməzliyə vurdular. Atlarını çapıb gözdən itdilər.

Dərin meşənin dilsiz sükutu içərisində yenə onlar ikisi qaldı... İndi kimdən kömək gözləmək olardı? Hər dəqiqə rəngdən-rəngə girən, hər dəfə yeni səslər çıxaran, səssiz çalxanıb, səssiz mürgüləyən meşə sağırdı, sükut içində idi. Ondanmı kömək umacaqdı?!

Yoxuş hələ də qurtarmamışdı. Bir azdan yol haçalandı. Biri yenə meşənin içərisinə, o biri isə yuxarı Suvagil kəndinə gedirdi. Məhəmməd yolayrıcına çatan kimi arxadan səsləndi:

– Sağa burul!

Rəsi də sağa buruldu. Ancaq təəccüb etdi. "Onu kənd tərəfə niyə aparır? Yoxsa ürəyinə rəhm dolub, onu camaatın əlinə vermək istəyir?" bundan Rəsinin ürəyi azca toxtaqlıq tapdı. "Camaat Məhəmməd kimi qəddar olmaz. Onların içərisində rəhmlisi tapılar."

Yenə dar meşə cığırı, yenə ağır, yorğun addımlar... Yenə də kəsif rütubət... Yenə də iztirablı düşüncələr.

Bir azdan Suvagilin alçaq, yastı-yapalaq evləri, sükut içində duran ağacları göründü. Oradan, bu miskin görkəmli evlərin arasından zurna-balaban səsi ucalırdı. Yəqin ki, toy idi.

"Belə şad gündə hamı onun günahından keçəcəkdir. Onun üzünə tüpürsələr də öldürməzlər, bağışlarlar. Bəli, yəqin ki, bağışlarlar... Bircə Məhəmməd onu camaata tapşırıb getsəydi, o özü dil tapardı, yalvarardı, yaxarardı, ağlayardı da, ancaq qoymazdı ki, onu öldürsünlər... Bəlkə pristavın əlinə verdilər? Onda necə olsun? Onda da çarə tapılardı. Yalnız Məhəmməd arada olmasaydı..."

Rəsi bu qarışıq fikirlər içərisində ikən yolun ortasında iri bir daş parçası gözünə sataşdı. Onu elə indicə qaldırıb qəflətən Məhəmmədin başına çaxmaq istədi... Bir anda hər şey qurtarardı. Bir an! O yerə əyildi. Əli daşa çatmamış Məhəmmədin səsi şimşək kimi guruldadı:

– Əlini çək!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rəsiyə doğrudan da, elə gəldi ki, aşağılarda hansı dərədə isə şimşək şaqqıldayıb, əks-səda verdi. Dərə guruldadı. Ağaclar da sanki lərzəyə gəldi. O, əlini daşdan çəkib, ağır-ağır belini düzəltdi. Yoluna davam etdi. Son ümidi də boşa çıxdı.

Addımları daş kimi ağırlaşmışdı. Kənd evləri artıq ovcunun içi kimi görünürdü, alçaq, bir-birinə bitişik, fərəhsiz, miskin... Zurnanın zil səsi isə yaxın dağlara səs salmışdı.

Hər ikisi ayaqlarını güclə çəkirdi, hər ikisi yorulmuşdu. Lakin onlardan biri ölməyə, o biri isə öldürməyə gedirdi...

## XVII fəsil

Həkim Taytsın arvadına tapşırdı ki, ərini, zəif olmasına baxmayaraq, hər gün səhər xəstəxananın həyətinə çıxarıb bir saat gəzdirsin.

– Ona dava-dərmandansa, ancaq təmiz hava lazımdır...

Arvadı da həkimin tapşırıqlarına itaətkarlıqla əməl edərək bu gün səhər tezdən onu bağçaya çıxarmışdı. Bir az gezişdikdən sonra Tayts özünü zəif hiss etməsindən şikayətləndi və maqnoliya ağacının altındakı skamyada oturmağa məcbur oldu. Arvadı təzə meyvədən hazırladığı kompotu da özü ilə onun dalınca gəzdirirdi. Tayts oturan kimi o, əlində hazır tutduğu qaşığı və kompotu ərinə tərəf uzatdı:

– Ye, ürəyinə dayaqdır, xalis qlükozadır. İçinə azı yarım girvənkə şəkər tökmüşəm.

Tayts iştahası olmaya-olmaya arvadının təkidi ilə ağzına doldurduğu meyvə parçalarını güclə udurdu. Şirninin çoxluğundan boğazı tovlandı. Onu öskürək tutdu. Arvadı arıq adamın öskürərkən nə qədər eybəcərləşdiyini bilirdisə də, əritək iyrənc şəkil alacaq ikinci bir adamı heç cür təsəvvürünə gətirə bilmirdi. Tayts öskürüb qurtarandan sonra arvadı qaşığı yenə ona uzatdı. Bu dəfə Tayts onun əlini hirslə itələdi. Döşünə döyəcləyərək işarə ilə başa saldı ki, sinəsini yandırır, yeyə bilmir. Sümükləri çıxmış sifəti məzlum bir ifadə aldı. Başını çiyninə tərəf əyib yalvarıcı nəzərlərlə arvadından bir papiros xahiş etdi. Arvadı üzünü bozartdı. Tükləri pırpızlaşmış xoruz kimi kəkələndi:

– Olmaz! – dedi. – Həkim tapşırıb ki, sənə qəti papiros yaramaz, ömürlük. Başa düş!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Eh, – deyə Tayts əlini hirslə yellədi və güclə ayağa qalxaraq, ləklərin arası ilə gəzişməyə başladı. Bu zaman qoca tibb bacısı bağçaya enərək, ağacların arasında kimi isə axtarmağa başladı. O, ər və arvadı görcək sürətli addımlarla onlara yaxınlaşdı.

– Cənab Tayts, bir cənab sizi yoluxmağa gəlmişdir. Özünün dediyinə görə, sizinlə çox mühüm bir məsələ haqqında söhbəti də var.

Tayts körpə uşaq ayaqları kimi bir-birinə dolaşan taqətsiz qıçlarını güclə arxasınca sürüyüb, özünü təzədən skamyanın üstünə yıxdı. Cavab gözləyən tibb bacısından isə onun əvəzinə arvadı başını qaldırıb soruşdu:

– Kimdir, madam, familiyasını öyrəndinizmi?

– Xeyr. Familiyasını demədi. Yerli ziyalılardandır.

Tayts üz-gözünü turşutdu. Arvadı başa düşdü ki, o, gələn adamı qəbul etmək istəmir. Əslində o da ərinin yanına adam buraxılmasına razı deyildi. Çünki bu saat onda oturub söhbət etməyə taqət qalmamışdı. Ancaq iş-işdən keçmişdi. Tibb bacısı durub hələ də onlardan cavab gözlədiyi vaxt Xaçaturyans taxta pillələrlə bağçaya enirdi. Tayts Xaçaturyansı gördükdə burnunun altında mızıldandı.

– Sırtıq! Təklifsiz içəri soxulan həyasız!..

Xaçaturyans yaxınlaşdı, əvvəlcə xanıma, sonra da Taytsa tərəf baş əydi. Tayts hələ də deyinirdi.

– İqnati İqnatiç, inanınız ki, bu xəbəri eşidəndən sonra bütün gecələri yata bilmirdim. Həkimlər də cənabınızın yanına adam buraxılmasını qadağan etmişdilər. Şükür Allaha ki, nəhayət, bu gün sizi görə bildim. Cənabınızı gümrah görmək bizim arzumuzdur... Şükür, çox şükür yaxşısınız...

Tayts cavab vermədi. Tibb bacısı ədəblə baş əyib getdi. Taytsın arvadı isə oturduğu yerdən tərpənmirdi. Gələn adamı ərinin bu günə düşməsində başlıca günahkar bildiyi üçün, qəzəbli gözlərini ona zilləmişdi. Elə bil indicə onun üstünə sıçrayacaq, iti dırnaqlarını ətli yanaqlarına batıraraq, qanını soracaqdı. Xaçaturyans arvadın vahiməli baxışlarından yayınmağa çalışdı, ancaq heç cür mümkün olmadı. Arvad ərinin intiqamını almaq məqsədi ilə, gözləri ilə onu dara çəkməyə hazırdı.

Xaçaturyans qapıda tibb bacısına dediyi kimi, Taytsla mühüm bir məsələ haqqında danışmaq istəyir. Ancaq arvadının hüzurunda söhbəti açmağa çəkinirdi. Arvad da bunu hiss edirdi, buna görə də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilə-bilə hikkəsini yeridərək onun acığına nə çıxıb gedir, nə də onların xəlvəti danışmalarına macal verirdi. Qorxurdu ki, durub gedən kimi Xaçaturyans ərini başqa bir macəraya sövq edib onu təzədən bütün şəhər əhalisi qarşısında gülünc vəziyyətə salsın. Yox, hələ birinin xəcalətindən qurtarmamış ikinci bir rüsvayçılığa o heç zaman yol verə bilməzdi. Heç yerə tərpənməyəcəkdi. Nə sözü var-sa, qoy onun yanında desin.

Xaçaturyans bir xeyli gözlədi, boş-boş şeylərdən söhbət saldı, sözü uzatdı, ancaq Taytsın arvadı ərini tərk etmədi. Axırda Xaça-turyans söhbəti elə arvadın yanında açmağa məcbur oldu.

– İqnati İqnatiç, səhih öyrəndim ki, haqqında sizə dediyim adam şəhərimizdə olmuşdur.

Taytsın çuxura düşmüş gözləri sönük bir parıltı ilə bərəldi. Ərini əsəbiləşdirmək niyyətinə düşmüş bu cənabın cavabını arvadı ondan qabaq vermək üçün hazırlaşırdı ki, Xaçaturyans cibindən səliqə ilə bükülmüş kiçik bir kağız parçası çıxarıb Taytsa göstərdi.

– İqnati İqnatiç, güman edirəm ki, bu mənim sözümə sübut ola bilər.

Xaçaturyans kağızın qatını açmadığından Tayts da, arvadı da onun orada yazılanlar haqqında nə deyəcəyini səbirsizliklə gözlə-yirdilər.

– Heç şübhəm yoxdur ki, İqnati İqnatiç, bu ancaq onun vasitəsi ilə buraya gətirilə bilər, – deyə o, sözləri ibarə ilə uzadaraq davam etdi. – O, mütləq Bakıdan gətirilib. Özü də bu günlərdə. Mən buna əminəm...

Ərlə arvadın səbri lap tükəndi. Tayts təklifsiz onu yoluxmağa gəlmiş bu cənabın indi də onunla tapmaca oyununa başladığını güman edərək narazılıqla soruşdu:

– Cənab, mətləbi niyə uzadırsınız? Birdəfəlik deyin görək o kağız nədir?

Taytsın sözlərindən sonra Xaçaturyans qatlanmış kağızı açdı və onu yenə də xəstəyə göstərməmişdən qabaq öz mülahizələrini izah etməyə başladı:

– Burada yazılanlardan məlum olur ki, Bakı Komitəsi Xəzər dənizçilərinin tətillərini bizim bu Qaladakı soldatlarla da bağlamaq istəyirlər. Orası da sizə məlumdur ki, Xəzər dənizçilərinin tətili cəmi bir həftə bundan qabaq olmuşdur... Deməli, bu ancaq bu gün-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lərdə buraya gətirilə bilər... Orası da aydındır ki, belə şeyləri poçtla göndərmirlər.

Deməli, sizin ələ keçirə bilmədiyiniz adam bizim şəhərə ancaq bu məqsədlə gəlmişdir...

Tayts Xaçaturyansın sözlərində özünə aid eyhamlar olduğunu hiss edib qəzəbləndi.

– Cənab Xaçaturyans, siz bayaqdan bəri hər şeydən danışdınız, ancaq əlinizdəki kağızı göstərmədiniz ki, biz də ondan agah olaq. Məni bağışlayın, sübutsuz, sənədsiz laqqırtılara qulaq asmağı mən sevmirəm.

– Bunumu deyirsiniz? Buyurun! – deyə o, bayaqdan bəri əlində tutub silkələdiyi vərəqi Taytsa uzatdı.

Tayts eynəyini taxdı və gözlərini sürətlə kağızda çap olunmuş sətirlərin üzərində gəzdirdi. O oxuduqca, dərisi sümüyünə yapışmış sifətinin əzələləri əsəbiliklə dartıldı. Solğun rəngi bir az da ağarmışdı. Arvadı onun əllərinin əsdiyini gördükdə təşvişə düşdü. Acığını Xaçaturyansdan çıxmağa çalışdı.

– Cənab, siz nahaq belə şeylər göstərirsiniz. Axı o xəstədir, bilirsiniz ki, həkimlər onun yanına adam buraxmağı qadağan etmişlər.

Xaçaturyans Taytsın arvadından üzr istəməli oldu. Tayts hər şeyi unudaraq əlindəki vərəqini dönə-dönə oxumaqla məşğuldu.

Nəhayət, o gözlərini vərəqdən çəkdi və kağız parçasını büküb Xaçaturyansa vermək əvəzinə, öz xələtinin cibinə qoydu.

– Cənab, indi deyin görüm, bu sizin əlinizə necə keçmişdir?

Xaçaturyans Taytsı, axır ki, maraqlandırıb diqqətini cəlb edə bilməsinə ürəyində sevindi. Buna görə də onun sualına bir kəlmə ilə cavab verib, məsələnin üstündən tələsik ötüb keçmək istəmədi.

– İqnati İqnatiç, – deyə o, istehza ilə gülümsədi. – Desəm inanmazsınız ki, heç təsəvvürünüzə gətirə bilməzsiniz ki, o kimdən tapılmışdır... Adamlara zahirən baxanda deyirsən ki, nəcib və alicənab adamlardır, ancaq di gəl onların içinə bələd olanda dərhal görürsən ki, tamam yanılmışsınız... Bizim zəmanədə adamları tanımaq çox çətin olmuşdur... Mən özüm bunu dəfələrlə duymuşam.

Tayts Xaçaturyansın yenə mətləbi uzatdığını görüb sıxıldı. Xəstələr, adətən, çoxdanışan adamı sevməzlər. Naqqallığı sevən Xaçaturyansı isə Tayts lap boğmağa hazırdı, elə indicə barmaqlarını onun batıq, piyli boğazına keçirib, nəfəsi qırılanadək məngənə kimi sıxar və sıxardı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tibb bacısı yenə bağçaya enib, onlara yaxınlaşdı. Üzünü Xaçaturyansa tutaraq dedi:

– Cənab, həkimin buyurduğuna görə xəstənin yanında on dəqiqədən artıq oturmaq olmaz. Siz iyirmi dəqiqəyə yaxındır ki, buradasınız... xahiş edirik ki, söhbətinizi tez qurtarasınız.

– Üzr istəyirəm, madam. Bu saat! – deyə Xaçaturyans getməyə hazırlaşdı. Tibb bacısı xahişini edib getdiyi üçün Xaçaturyans heç olmasa bir neçə dəqiqəliyə xəstənin yanında ləngiyə bilərdi. Taytsı maraq götürmüşdü. Ona kələfin ucunu tapmaq lazımdı.

– Kimdən tapılmışdır, cənab? – deyə Tayts səbirsizliklə soruşdu.

– Qız məktəbinin müəllimi Lalənzar xanımdan.

– O gözəl qadından? – deyə Taytsın arvadı heyrətlə soruşdu.

– Bəli, madam, ondan. Heç gümanınız gəlməzdi, eləmi? Ancaq unutmayın ki, onun əri sürgündə ölmüşdür...

Tayts fikrə getdi. O buraya gələndən bir müddət sonra müəllim Lalənzar xanımın fəaliyyəti onu çox maraqlandırmışdı. İndi o bu cənabın dediklərini eşidərkən ehtimallarında yanılmadığına bir daha inandı. "Bu qadın üzdən çox sakit və qüssəli görünsə də, daxilən onun qəlbi çox narahatdır, o nəyə isə can atır, bəlkə elə bunun üçün də o öz enerjisini bu sakitlik içərisində hifz edib saxlayır..."

Taytsı bir şey də maraqlandırırdı. Bu da həmin vərəqənin hansı yolla tapılması idi.

– Cənab Xaçaturyans, xahiş edirəm ki, vərəqənin hansı vasitə ilə sizin əlinizə keçməsini də izah edəsiniz. Müəllimin evində axtarışmı aparılmışdır? Bəlkə mən burada yatarkən belə bir şey olmuşdur, – deyə o, nədənsə üzünü arvadına tərəf tutdu.

Xaçaturyans öz işindən razı bir tərzdə gülümsədi:

– Xeyr, cənab. Siz hansı axtarışdan danışırsınız? Axtarışın mənə nə dəxli? Mən onu müəllimin şagirdləri ilə ələ keçirmişəm. Təsadüfi olaraq müəllimin dəftərləri arasından tapılmışdır.

– Təkcə bir dənə?

– Bəli, təkcə bir dənədir. Ancaq bu bir dənə göstərir ki, o bir dənə deyilmiş.

Tayts bu cavabı ilə onun yenə başqalarına nə isə öyrətmək niyyətində olduğunu görüb həddini aşmış bu adamı səssiz-səmirsiz bir şapalaqla yerinə oturtmaq istədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Cənab, biz hardan biləк ki bu sizin özünüzdən tapılmayıbdır? Onu sizin nəzərinizə çatdırmaq istəyirəm ki, lazım gəldiyi zaman sizdən belə bir şey soruşa bilərlər.

Xaçaturyans özünü itirdi. Təşvişə düşərək ona vurulan bu ləkəni tez üzərindən silib atmağa tələsdi.

– İqnati İqnatiç, mən heç gözləməzdim ki, cənabınız mənim haqqımda bu fikrə düşə! Əgər belə bir şey olsaydı, onu öz əlimlə gətirib sizə verərdimmi? Əlbəttə, güman eləyirəm ki, bunu siz, ancaq şuluq xatirinə dediniz. Necə deyərlər, məzə üçün...

Tayts ya cavab vermək istəmir, ya da onu eşitmirdi. Onun qabarıq, damarlı alnında qaytan kimi nazik qaşları baş-başa verib çatılmışdı.

Bayaqdan özündən razılıqla lovğa-lovğa danışan Xaçaturyansın indi birdən-birə belə təşvişə düşməsi Taytsı qətiyyən narahat etmədi.

– Bəlkə müəllimin dəftərləri arasından tapılmamışdır? Şagirdlərin dəftərləri arasında belə bir şey qoyan adam gərək ağlını itirmiş olsun... – Taytsın səsi boğazından güclə çıxır və getdikcə zəifləyirdi. – Hər halda onu tapan şagirdin valideynləri ilə maraqlanmaq lazımdır... Bunu təkcə müəllimin üstünə yıxmaqla iş aşmaz...

O, gözlərini yumub, başını skamyanın söykənəcəyinə dayadı. Arvadı Xaçaturyansa işarə ilə anlatdı ki, söhbəti qurtarsın.

Xaçaturyans ayağa qalxdı, xanımdan və gözlərini hələ də yumub oturmuş Taytsdan üzr istədi. Tayts yenə də gözlərini açmadı. Xaçaturyans xudahafizləşib yekə qarnını yırğalaya-yırğalaya getdi.

Xəstəxanada çıxandan sonra onu fikir götürdü. Əgər vərəqəni tapan şagirdin valideyni ilə maraqlansaydılar, onun bir ucu Kazaryana gəlib çıxacaqdı. "Bəlkə Lalənzar xanımın deyil, Kazaryanın öz şagirdlərindən tapılmışdır? Kazaryan onu bu cür çıxılmaz vəziyyətdə qoyarmı?" deyə fikirləşdi. Bu məqsədlə o, birbaşa Kazaryanın yanına getdi.

Məktəblilərin buraxılmasına bir neçə gün qalırdı. Dərslərsə çoxdan kəsilmişdi. Bununla belə, müəllimlər hər gün məktəbdə idilər. Xaçaturyans məktəbin qapısından içəri girməyib, Kazaryanı bayıra çağırtdırdı.

Kazaryan küçəyə çıxdıqda, Xaçaturyansın həyəcanlı sifətindən nə isə baş verdiyini hiss etdi.

– Ayrapet, yenə nə olub? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaçaturyans gözlərini döyəcləyərək, Taytsla onun arasında getmiş söhbətin yerli-yerində Kazaryana danışdı. Kazaryan başını buladı:

– Ayrapet, axı nə olmuşdu ki, belə tezdən ona xəbər verdin? Qoy bir axırına çataydıq, sonra kimə istəsəydin, deyərdin. Mən səndən sonra bacım qızından yenə soruşdum. Dedi ki, guya müəllimin verdiyi dəftərin içindən deyil, dükandan aldığı dəftərin arasından çıxmışdır.

Xaçaturyans bunu eşidən kimi əlləri ilə başını tutdu.

– Ay Allah, o kişi düz deyirmiş! İndi belə çıxır ki, yalançı yerində mən qalıram... Axı sən mənə dedin ki, müəllimin payladığı dəftərin arasından tapmışdır.

– Düzdür, demişəm. Ancaq mən onu yaxşı başa düşməmişəm. Səndən sonra yenə soruşdum, dedi ki, yoldaşının dükandan aldığı dəftərin arasından düşdü.

Xaçaturyans lap özünü itirdi.

– Demək, sənin bacın qızının dəftərindən düşməyib?

– Yox, yoldaşının dəftərinin arasından.

Xaçaturyans yaylığını çıxarıb tərini sildi. Udqundu. Boğazında yenə elə bil bir şey qalmışdı.

– Sən məni o kişinin yanında tamam etibardan saldın. bundan sonra mənim daha hansı sözümə inanar?

– Ayrapet, qəribə adamsan. Mən sənə dedim ki, get xəbər ver? Vərəqəni sənə göstərdim, soruşdum ki, bu haradan ola bilər. Sən isə canına yel dəyməyə qoymamısan, o saat qaçmısan Taytsın yanına. Özün də bilirsən ki, o cənabdan heç xoşum gəlmir...

Xaçaturyans çıxılmaz vəziyyətdə qalmışdı. O, məktəbin qapısında yumurtası tərs gəlmiş toyuq kimi vurnuxurdu. Öz dilindən bəlaya düşmüşdü.

## XVIII fəsil

Məhəmmədlə Rəsi kəndə yetişdikdə hamı birağızdan çığırdı:

– Məhəmməd... Məhəmməd...

Bu xəbər bəzisini sevindirdi, bəzisini qorxuya saldı, bəzisi də ağzını açaraq, mat qaldı. Toy məclisindəkilər də bunu eşidən kimi toyxanadan bayıra səpələndilər. Axırda zurnaçılar tək qaldıqlarını görüb susdular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Adamlar bir-birini sıxışdıra-sıxışdıra qabağa soxulmağa, Məhəmmədi yaxından görməyə can atırdılar. Ancaq qəribəsi o idi ki, hamının gözü adi kəndli paltarında olan Məhəmmədə deyil, Rəsiyə zillənmişdi, görünür ki, onu Məhəmmədə oxşatmışdılar. Təkcə qocalar Məhəmmədi tanıdılar. Rəsi başını aşağı dikib durmuşdu.

Bayaqdan bəri qoşa zurnanın səsindən çalxalanan kəndə, indi dilsiz və heyrətli bir sükut çökmüşdü. Camaat Məhəmmədlə Rəsini çənbər kimi dövrəyə almışdılar. İki qaçağın arasında nə baş verdiyindən hələ heç kəsin xəbəri yoxdu, hamı heyrət və təəccüblə baxırdı.

Məhəmməddən heç bir hərəkət görməyən Rəsi başını azca yuxarı qaldırıb, qaşları altından baxdı. Məhəmməd meydançanın ortasında dirək kimi dilsiz durmuşdu. O, nə isə gözləyirdi.

Toyxanadan başqa, evlərdə və kənd içində olanlar da qaçaqların gəlməsindən xəbər tutmuşdular; ardı-arası kəsilmədən hər tərəfdən axışıb gəlirdilər. Onların içərisində əl ağacına dayanaraq, ayaq üstə güclə duran qocalar da, burnu zılıqlı, ayağı tumansız uşaqlar da vardı. Toyxana kəndin nisbətən hamar yerində salındığından, ətrafdakı bütün evlərdən orada nə baş verdiyi aydın görünürdü. Əlindəki işini yarımçıq qoymaq istəməyib evdə ləngimiş əli xəmirli, qolları çırmaqlı, dalı uşaqlı arvadlar toyxananın salındığı meydançanın yoxuşunu büdrəyə-büdrəyə qalxırdılar. Evlərdə ancaq xəstələr, gözləri görməyə qocalar və beşiklərdə yuxuya getmiş çağalar qalmışdı. Hamı nə isə səbirsizliklə gözləyirdi. Madam ki, bu iki qaçaq heç bir şeydən çəkinmədən günün günorta vaxtında biri o birinin qabağına qatıb gətirmişdir, deməli, nə isə olacaqdır. Məhəmməd toplaşanları sezilmədən ötəri nəzərdən keçirdi. Dövrə vurub durmuş adamların arxasında ona iş vura biləcək adamlar da tapılırdı. Qəfil bir güllənin açmağa nə var ki?! Lakin ona zillənmiş gözlərdə Məhəmməd gizli, bədxah bir niyyət, qəzəb və nifrət duymadı.

O bu sarıdan arxayın olandan sonra üzünü camaata tutdu:

– Bunu tanıyanınız varmı? – O, Rəsini göstərdi. Tanıyan varsa, qabağa çıxsın, desin ki, kimdir.

Heç kəsdən səs çıxmadı. Onu tanıyanlar susur, tanımayanlar isə gözlərini təəccüblə döyəcləyirdilər. Bir azdan dalda duranları aralaya-aralaya qabağa orta yaşlarında bir kişi çıxdı. Ağır addımlarla meydançanın ortasına gəldi. Rəsiyə diqqətlə baxıb dedi:

– Mən onu tanıyıram. Bunu eşidən kimi Rəsi qaşlarının altında kəndliyə qəzəbli bir nəzər saldı. Məhəmmədin gur səsi eşidildi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kimdir?

Kəndli çəkinə-çəkinə dedi:

– Murtuza oğlu Rəsidir... Bir ay əvvəl şəhərdən gələndə qabağımı kəsib məni soymuşdur... mən onu tanıyırdım. Bir dəfə də gecə vaxtı qardaşımın evinə gəlib onun atının yəhərini apardı. Mənim qabağımı kəsəndə isə özünü Məhəmməd kimi qələmə verdi. Mən onun sözlərinə inanmadım.

Rəsinin gözləri qəzəbindən bərələ qalmışdı. Bu kişini nə vaxt soyduğu heç yadına gəlmirdi:

– Yalan deyirsən, heç olmasa saqqalından utan!

Kəndli isə saymazyana çiyinlərini çəkdi:

– Saqqalımdan niyə utanım, sözün düzünü dediyim üçün?..

Mən səni lap yaxşı tanıyıram. Yadına gəlirmi qardaşımgildə sənin qabağına çay-çörək qoydum? Sən mənim qabağımı kəsəndə də özümü nişan verdim. Sən nə etdin? Dedin ki, Rəsi kimdir, mən Məhəmmədəm...

Kəndli sözünü deyib yenə də adamları yara-yara aradan çıxdı.

– Yenə də tanıyan varmı? – deyə Məhəmməd öz aralarında pıçıldaşan, qurcalanan adamlara müraciət etdi.

Adamların arasından kim isə çığırdı:

– Vəlini də soyublar. Keçən həftə dəyirmana gedəndə...

– Özü hanı?

– Tezdən şəhərə getdi.

– Onu kim soyub? Bəlkə biləniniz var?..

Cavab verən, dillənən olmadı. Yenə öz aralarında pıçıldaşdılar, hiss olundu ki, deməyə çəkinirlər. Axırda cavanlardan biri qabaqda durmuş sürməyi arxalıqlı bir oğlanı göstərib dedi:

– Oğlu burdadır, qoy desin. – Sonra oğlanın özünə müraciətlə soruşdu: – A Həsən, niyə dinmirsən, bilmirsən atanı kim soymuşdur?

Həsən elə bil böyüklərin icazəsini gözləyirdi. Ona müraciət edildiyini eşidən kimi yaşlılara xas olan bir əda ilə qürurlandı.

– Niyə bilmirəm? – dedi, – bütün kənd bilir ki, onu bazardan gələndə Məhəmməd soyub. Atam onun atını da görüb. Qaşqa kəhərmiş, onu ağacların dalında gizlədibmiş ki, görən olmasın...

Oğlan düz deyirdi. Məhəmməd kəndlərdən birisindən belə bir at oğurlandığını eşitmişdi. Rəsi isə Məhəmmədin həmişə boz ata mindiyindən camaatın xəbərdar olduğunu bildiyi üçün, atını həmişə gizlədirmiş ki, görənlər şübhəyə düşməsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəmməd onların tamaşasına yığılan adamları ləngitmək və toy şənliyini pozmaq istəmirdi.

– Camaat, sizin qabağınızda deyirəm. – O, əlini Rəsiyə tərəf uzadıb sözünə davam etdi. – O, yoldan ötənləri soyanda, kasıbın axırıncı xərcliyini də cibindən çıxaranda mənim adımı verərmiş. O soyurdu, mən isə camaatın gözündən düşürdüm. Məhəmməd mənəm. Bu isə özünü mənə oxşadan quldur, oğrudur. Oğrunun qolunu Allah qurutmasa da, bəndə qurudar. Tifilin, ahıl-qocanın, kasıbın boğazından kəsilən tikə axırda adamın gözünü tutar... Mən də sizin qabağınızda onu məhşər ayağına çəkmişəm. Deyin görüm, o dünyada əliəyrinin yeri haradadır?..

– Cəhənnəmdə, cəhənnəmdə...

Rəsi bunları eşitdikcə bədəni titrəməyə başladı. Məhəmmədin qabağına düşüb buraya gələrkən o yalnız camaatın rəhmdilliyinə ümid bağlamışdı. İndi onlar da onun cəhənnəmlik olmasını istərkən bircə çıxış yolu qalırdı: Məhəmməd üzünü yana çevirdiyi zaman özünü adamların arasına vurmaq, nəfəsi qırılınca qaçmaq. İndi ancaq qıçları onu xilas edə bilərdi. Ancaq öz qıçları. Daha heç kəsdən, heç kimdən pənah yoxdu.

– Buraya toplaşanlar mən sizin toyunuzu pozmaq istəmirəm. Burada nə olacaqsa, siz ona əhəmiyyət verməyin. İşimizi qurtaran kimi toyunuzda olun. Mən bunu orada, meşənin içərisində də edə bilərdim, ancaq istədim ki, siz də öz gözünüzlə şahid olasınız. Görəsiniz ki, sizin çörəyinizə əl uzadan adamın haqq-hesabını necə verdim.

Rəsi ölümün haradansa, bəlkə də irəlidəki meşəli dağların arxasından bağıra-bağıra dəhşətli addımlarla yaxınlaşdığını, nərə çəkdiyini və indicə onu bir ildırım kimi biçib külə döndərəcəyini hiss edirdi. O, yerindən qopub onun qabağından qaçmasa, daha fələk özü də onu xilas edə bilməz. Qaçmaq, yerindən qopmaq, elə indicə, bu dəqiqə, bu saniyə, bu an... Onun şüuru birdən-birə elə bil daşa döndü, beynini qaranlıq bir zülmət çulğadı. Ağlı ancaq bir şey dərk edirdi: qaçmaq! Bu vaxtadək həyatda dərk etmiş olduğu hər şeyi unutdu. Ancaq qaçmaq...

Məhəmmədin axırıncı demək istədiyi söz ağzından qurtarmamışdı ki, Rəsi vəhşi heyvan kimi özünü adamların içərisinə soxdu və onların arxasından keçərək əyilə-əyilə üzüaşağı qaçdı. Məhəmməd də onun dalınca şığıdı. Camaat bir-birinə qarışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəmməd adamların arasından çıxarkən Rəsinin arxasına baxa-baxa aşağı qaçdığını gördü. Onu elə oradaca öldürmək olardı.

Ancaq Rəsi qabağına çıxan tək-tük adamların dalına keçdiyi üçün ona atəş açmaq xatalı idi. Güllə başqalarını da öldürə bilərdi. Məhəmməd gözlədi. Rəsi adamlardan aralanıb yolun ortasında tək qaçdıqda onu nişan aldı. Bir-birinin dalınca iki güllə açıldı. Yolda toz qopdu. Bir an sonra yolun enişində yerə sərələnmiş qaraltı göründü. Məhəmməd rahat nəfəs aldı. Ancaq o yenə bir dəqiqə durub gözlədi. Qaraltı tərpənmirdi. Camaatdan bəzisi Məhəmmədin amansızlığına təəccüb qaldı. Qocalar isə onun bu işini bəyəndilər.

Rəsinin öldüyünü yəqin etdikdən sonra Məhəmməd toyxana meydançasına qayıtdı. Camaat gözləri qarşısında baş vermiş bu hadisədən hələ də özünə gəlməmişdi. Məhəmməd toy məclisinin sahibini qüssələndirməmək üçün zurnaçılara çığırdı:

– Niyə dayanmışsınız? Toyxanaya keçin. Qoşazurna, başla!..

Zurnaçılar toyxanaya keçdilər. Bir azdan içəridən qoşazurnanın zil səsi təzədən eşidildi. Adamlar da içəri doluşdu. Bununla belə, Məhəmməd hiss edirdi ki, bəziləri cəmi bir neçə dəqiqə qabaq gördükləri hadisənin təsirindən hələ də xilas ola bilməmişlər. Odur ki, onları əyləndirmək, gördüklərini onlara unutdurmaq istədi. Üzünü zurnaçılara tutub çığırdı:

– Hündürdən. Oyun havası çalın!

Zurnaçılar oyun havasına keçdilər. Məhəmməd arxalığının qollarını çırmadı və toyxananın ortasına çıxdı. Uzun qollarını havada geniş açaraq, ortada oynamağa başladı. O, adamların qabağından süzüb keçdikcə bərkdən çığırırdı:

– Əl çalın, niyə durmuşsunuz?

Adamlar da həvəsə gəlib çəpik vururdular. Məclis bir azdan əvvəlki kimi qızışdı. Zurnaçılar ordlarını şişirdərək üfürür, adamlar əl vurur, Məhəmməd isə ortada təkbaşına yorulmadan süzürdü. O, oturanların üzündən qaçırılmış fərəhin qayıdaraq, öz yerini tutduğunu gördükdə, toyxananın aşağı başında oturmuş cavanlardan da bir neçəsini ayağa qaldırdı.

İndi ortada Məhəmmədlə birlikdə üç nəfər oynayırdı. Gəbə və cecimlərin üstündə yerə döyəclənən ayaqlardan toz qalxırdı. Hamının gözü Məhəmməddə idi. O bayaqdan bəri onunla oynayan oğlanlardan ikisini yordu. Bir nəfəri qalmışdı. Toyxana pərdəsinin dalına toplanmış qadınlar da gizli-gizli içəri baxırdılar. Onların ancaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gözləri görünürdü. Məhəmməd ona zillənmiş bu iri, qara gözlərin içərisində naməlum, lakin məstedici bir titrəyiş duydu. Bir az qabaqda qəzəblə odlanmış qəlbinə təravətli bir sərinlik yayıldı. Bundan o sanki daha da həvəsə gəldi, onunla qarşı-qarşıya oynayan üçüncü gənc oğlanı da yorub yerində oturtdu. Başqalarını qaldırdı. Zurnaçılar təzədən başladılar. Onların tərli üzləri, qızarmış gözləri qan çəkmişdi, nağaraçının əlləri döyənək olub gizildəyirdi. Bu Məhəmməd nə insafsızmış?! Oynamaqda ara-bərə vermir. Ona nə olmuşdur. Rəsini öldürməkdənmi belə sevincək olmuşdur?

O indi belə həvəslə oynaması ilə oturanları təzədən təəccübə gətirmişdi.

Məhəmməd yarım saatdan artıq idi ki, toyxananın ortasında ayaqlarını yerə döyəcləyərək, ayağa qaldırdığı bütün cavanları yorub yerlərinə oturtmuş və zurnaçıları əldən-dildən salmışdı. Bunun əvəzində isə məclisi elə qızışdırmışdı ki, az qala hamı Rəsinin öldürülməsini yaddan çıxartmışdı. Bərkdən əl çalaraq, sevinənlərin fərəhli nidaları Məhəmmədin yorub oturtduğu cavanların ünvanına deyilən eyhamlı sözlərə qarışaraq, aranı əsl toy məclisi kimi qızışdırmışdı.

Hər şeyin öz qaydasına düşdüyünü görəndən sonra Məhəmməd ortadan çıxıb, aşağı başda adamların arasında bardaş qurub oturdu. Arada yanında oturmuş cavanlardan birinin qulağına əyilib, nə dedisə, oğlan qalxıb, toyxanadan çıxdı. Hamını maraq götürmüşdü. Oğlan gedəndən sonra Məhəmməd yenə fərəhlə əl çalır, oynayanları qızışdırmaq üçün onlara söz atırdı. Adamlardan daha yetik olanları isə oğlanın nə üçün göndərildiyini öyrənmək üçün yerlərindən qalxıb, eşiyə çıxdılar. Beləsi ancaq iki-üç nəfər oldu. Qalanlarının isə başları oynayanlara qarışmışdı.

Məhəmmədin göndərdiyi oğlan çox çəkmədi ki, qayıdıb gəldi. Onun əlində papaq vardı. Bu, öldürülmüş qaçağın papağı idi. Məhəmməd onu əlində hərləyib baxdı. Yanılmamışdı, ikinci güllə onun papağını ortadan deşmişdi. O razı halda gülümsədi və papağı sinəsinə dürtdü. Bundan başqa, oğlan Məhəmmədin qulağına nə isə pıçıldadı. Məhəmmədin qalın qaşları açıq alnında birdən-birə çatıldı və ləngimədən yerindən qalxıb toyxanadan çıxdı.

Toyxananın ağzında iki-üç nəfər qoca dayanıb onu gözləyirdi. Məhəmməd içəridən çıxdıqda onlar söhbəti kəsdilər və biri Məhəmmədə yan aldı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Burada çox ləngimə, – dedi.

– Nə üçün?

Qoca günah işləyən adamlar kimi başını yırğaladı.

– Bizim xəbərimiz olmayıb, kəndxuda öz oğlunu hökumət adamlarının dalınca göndərib... təqsir bizdə olub, gərək göz-qulaqda olaydıq.

Məhəmməd gülümsədi:

– Elə buna görə narahatsınız? – dedi. – Heç bir şey olmaz. Özünüzü də nahaq yerə günahkar hesab edirsiniz. Kəndxudanın borcu idi, gərək eləyəydi. Narahat olmayın, heç bir qələt eləyə bilməz. Çoxdan göndərib?

– Sən kəndə girən kimi.

Məhəmməd əlini çırpdı. O yenə içəri, toyxanaya keçmək istəyirdi ki, qoca onun biləyindən yapışdı.

– Yox, bəsdir, – dedi, – çox ləngimə. Biz sənin üçün at da hazırlamışıq...

Məhəmməd qocaların onun haqqında belə qayğıya qalmalarından his etdi ki, kəndxuda adam göndərməkdən başqa daha nə isə tədbir görmüşdür. Qocalar bunu açıq deməsələr də, Məhəmməd onların narahatlığının nahaq olmadığını başa düşürdü.

– Çox razıyam, – dedi. – Ancaq mənə at lazım deyil. Mən meşənin içi ilə gedəcəyəm. Siz narahat olmayın.

Məhəmməd boylanıb bayaq Rəsini öldürdüyü yerə baxdı. Meyit orada yox idi. Qoca dedi:

– Tapşırdıq ki, aparıb dəfn etsinlər.

Məhəmməd onların bu işindən də çox razı qaldı. Onlarla xudahafizləşib gəldiyi yoxuşla meşəyə tərəf yönəldi. Bir dəfə də olsun qayıdıb arxasına baxmadı. Qocalar isə o gedəndən sonra hələ də narahatlıq içərisində onun dalınca baxırdılar. Ağsaqqallar qorxurdular ki, kəndxuda bir nəfəri öyrədib, onu daldan vurdura bilər. Buna görə də Məhəmməd meşənin ağacları arxasında gözdən itənədək durub gözləyirdilər.

Məhəmməd gəldiyi yolla qayıdırdı. Meşə sərin idi. Rütubət qoxuyan ağacların dibi ilə bir xeyli gedərək, o, kəsmə yolla dərəyə enmək istəyirdi. Haradansa qulağına hənirti gəldi. Ona elə göründü ki, dərəyə enən cığırın ağzında kim isə pusquya girmişdir. Qocaların da narahatçılığı yəqin bundan ötrü imiş. Tez tüfəngin çaxmağını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayağa çəkdi. Hənirti yenə də eşidilirdi. Səslər ona tanış gəlirdi. Çürük yarpaqları xışıldatmamaq üçün barmaqlarının ucunda yavaş-yavaş irəlilədi.

Bir az qulaq asandan sonra Məhəmməd öz qaçaq yoldaşlarını səslərindən tanıdı. Bununla belə, özünü onlara birdən-birə göstərmək istəmədi. Murad kimə isə deyirdi:

– Atan güman eləyirmiş ki, bunun üçün ona pul verəcəklər?.. Sən axmaq da pula aldandın? İndi necədir, sənin işini elə buradaca bitirək?

Birdən kim isə bərkdən zarıldadı. Görünür ki, Murad söhbət etdiyi adama ilişdirmişdi. Məhəmməd özünü daha saxlaya bilmədi. Onları qorxutmaq üçün çığırdı:

– Tərpənməyin! Odlayaram!

Məhəmmədin kələyi tutmadı. Qaçaqlar onu dərhal səsindən tanıdılar və buna görə də heç kəs yerindən qımıldanmadı. Yalnız yenə Muradın səsi eşidildi:

– Budur, Məhəmməd özü də gəldi.

Kimin isə ağzını bağlayıb, yerə yıxmışdılar. Bir-iki addımlıqda isə yəhərsiz bir at ağaca bağlanmışdı. Ağzına yaylıq dürtülmüş adamın idi.

– Bu kimdir? – deyə Məhəmməd təəccüblə soruşdu.

Murad hamıdan qabaq dilləndi.

– Kəndxudanın oğludur, xəbər eləməyə gedirmiş ki, Məhəmməd Suvagildədir.

Məhəmməd onların yanında yerə oturdu. Onun tapşırığı ilə oğlanın ağzını və qollarını açdılar. On yeddi-on səkkiz yaşlarında bir gəncdi. Qorxusundan rəngi ağarmışdı, dodaqları əsirdi. Məhəmməd onu yanına çağırdı:

– Atan hökumət dalınca nahaq səni göndərmişdir. Meşədə qabağına birdən ayı çıxsaydı nə edəcəkdin? O daha adam kimi də dil bilmir ki, yalvarıb yaxarasan?

Qaçaqlar astadan gülüşdülər. Onlardan biri dedi:

– Səhərdən bəri bizə çoxlu pul vəd edir. Deyir ki, məni buraxın, gedib atamın nəyi varsa sizin üçün gətirim...

Məhəmməd istehza ilə gülümsədi.

– Yaxşı, get atana denən ki, Məhəmməd özü söz verdi ki, hökumət adamlarını kəndə göndərsin! Get!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğlan yerindən qalxdı. Ancaq qaçaqlardan uzaqlaşmağa ürək eləmədi. Onu daldan vuracaqlarından qorxurdu. Gözlərini qaçaqlardan çəkmədən bir neçə addım gerilədi. Məhəmmədin qəzəbli baxışları ona zillənmişdi.

– Qorxma, – dedi, – sənə heç kəs toxunmayacaqdır. Get! Oğlan Məhəmmədin sözlərindən sonra ürəkləndi və üzünü kəndə tərəf çevirib, addımlarını yeyinlətdi. Bir az da getdikdən sonra ağacların arasına keçdi və ayaqları dolaşa-dolaşa qaçmağa başladı. Qaçaqlar onun dalınca baxıb gülüşürdülər.

Məhəmmədin əyninə geydiyi yırtıq arxalığın sinəsindən Rəsinin tüklü papağı görünürdü. Qaçaqlar onun Rəsini öldürdüyünü yəqin etdilər. Ancaq heç biri cürət edib, bu barədə ondan bir söz soruşa bilmədi.

Yan-yörədə meşənin nəfəsi duyulurdu. Aşağıda dərənin dibində isə çeşmənin şırıltısı meşənin sakitliyi içərisinə yayılıb əriyirdi. Məhəmməd ağacların budaqları arasından göyə baxdı və ayağa qalxdı. Onun atı da qaçaqların atları ilə yanaşı ağaca bağlanmışdı. Məhəmmədin dalınca gəzdikləri müddətdə yoldaşları onun atını da həmişə özləri ilə gəzdirirdilər. Qaçaqlardan biri atı ağacdan açıb gətirdi. Məhəmməd atlandı.

– Siz gedin, mənim şəhərdə balaca işim var, Şəmil cığırında sizi haxlaram...

Məhəmməd atının başını enişə tərəf döndərdi və bir anın içində dərədə gözdən itdi...

## XIX fəsil

Kazaryanın bacısı qızının dəftərinin arasından doğrudan da, qadağan olunmuş vərəqə tapılmışdı. Vərəqə hələ də Taytsın cibində idi. Vərəqəni Xaçaturyansdan alandan iki gün sonra Tayts xəstəxanadan çıxdı.

Arvadının gileyi isə hələ də kəsilməmişdi. Gündüzlər ərini evdə görmədiyi üçün axşam evə dönən kimi üstünə hücum çəkirdi. Ağzı açıldımı, gecəyarısınadək kəsən deyildi. Tayts bəzən məxfi işləri olduğunu bəhanə edərək, evdən onun əlindən qaçmaq üçün cürbəcür bəhanələr uydurduğunu da başa düşdüyündən, Taytsı daha axşamlar da bayıra buraxmadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Demək, mənim əlimdən zara gəlmisən? Əlbəttə, xeyiri ilə şərini başa düşməyənlər belə şeyləri heç zaman dərk edə bilməzlər, o ki, sən olasan. Dedim sənə xəstəxanadan çıxmağa tələsmə, dedin ki, bacarmaram, hökumət qulluğundayam. İndi də bəhanə ilə evdən qaçırsan. Mən sənin səhhətini qoruyurdum, indi ki, bunu başa düşmədin, haraya və nə vaxt istəyirsən, get! Danışsam kilsə mənə qənim olsun. Ancaq sonra təzədən sənin başına torba keçirsələr, daha günlərlə xəstəxanada sənin yanında oturmağa taqətim yoxdur. Arvadının hər sözü Taytsı əsəbiləşdirirdi. Arvad da buna alışmışdı. İndi onun uzun, arıq barmaqlarının əsdiyini, papirosu bir-birinə peyvənd edərək otaqda gəzişdiyini heç saya almırdı.

Dəftər səhifələrinin arasından tapılmış vərəqə Taytsa bir dəqiqə də rahatlıq vermirdi. Bu məsələ ilə əlaqədar olaraq, Xaçaturyans ikinci dəfə onun yanına gələrək, vərəqə haqqında əldə etdiyi səhih məlumatı xəbər verdi və birinci dəfə səhvən dediyi sözlər üçün üzr istədi.

Xəstəxanadan çıxdığı günün axşamı, o, yazı ləvazimatı satan dükançını axtarıb tapdı. Onu xeyli sorğu-sual elədi. Dükan sahibi and içərək, onun heç nədən xəbəri olmadığını söyləyirdisə də, Tayts əl çəkmirdi. Axırda kişi ilə birlikdə dükana getməyə məcbur oldu.

Hava qaralmışdı. Onlar dükanı açıb içəri girdikdə göz-gözü görmürdü. Tayts dükanın taxta qapılarını çəkdirərək içəridə şam yandırdı. Alaqaranlıqda dükanın yöndəmsiz qəfəslərindəki dəftərlər, kağız bağlamalar, müxtəlif rəngli qovluqlar Taytsı şübhəyə saldı. Yaxınlaşıb dəftərlərdən bir dəstəsini əlinə aldı və ötəri səhifələyərək bir yana atdı, kağız barmaqlıqlarını götürdü. Onları da tələsik nəzərdən keçirdikdən sonra, dükanın divarlarını, qəfəslərin arxasını, taxta döşəməni yoxladı. Dükan sahibi bir kənarda duraraq, təəccüb içərisində onun hərəkətlərini izləyirdi.

– Cənab, oralarda nə axtarırsınız? – deyə o maraqla soruşdu. Tayts dinmədi. Dükanın künc-bucağında bir deşik qalmadı ki, o, əsasının ucu ilə eşib baxmasın. İmkanı olsaydı bütün dəftərləri səhifələyib, gözdən keçirər, qutuların içinə, çin-çin yığılmış qələmlərin arasına baxardı. Şam işığında hər şeyi yaxşı seçmək də olmurdu. Tayts yuxarıda, dükanın tən ortasında asılmış iyirmibeşlik lampanı görüb soruşdu:

– Gecələr də dükanı açırsınız?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Taytsın bu qəribə sualı dükan sahibini lap təəccübləndirdi. O belə bir sualın nə üçün verildiyini və müqabilində nə cavab verəcəyi haqqında fikirləşdiyi üçün dərhal cavab verə bilmədi. Tayts onun ləngiməsindən şübhəyə düşdü.

* * *

– Niyə dinmirsiniz?

– Fikirləşirəm ki, cənabınız, bu sualla nə demək istəyirsiniz? Çünki dəftər-kağız çörək deyil ki, gecələr naqafil gələn qonağa lazım olsun. Axşam yeddi olan kimi dükanı bağlayıb gedirəm evə...

– Bəs bu iyirmibeşlik lampa niyə buradan asılı durur?

– Cənab, Allah haqqı, çox qəribə şey soruşursunuz! Lampa məgər ancaq gecələr alver eləmək üçündür? İşdir, qəzadır, bir də görürsən, bir şeyin yadından çıxıb, qalıb dükanda. Gəlirsən aparmağa. Gərəkməz ki, gözün bir şey görə, heç olmasa, ayağının altını seçə! Bütün dükanlara, zəhmət çəkin, nəzər salın. Görəcəksiniz ki, hər yerdə belə bir lampa asılmışdır, bərayi-ehtiyat üçün.

– Sizin dükana kimlər gəlir?

Səhərdən bəri öz qəribə hərəkətləri ilə onun səbrini tükəndirib hövsələdən çıxarmış olan Taytsın bu sualına birdən-birə lap gülməyi tutdu. Öz-özlüyündə qərara aldı ki, bu kişinin başına xəstəxanadan çıxandan sonra ya hava gəlmişdir, ya da çəlimsiz vücudu ilə onu dolamaq fikrindədir.

– Cənab Tayts, sizin sualınızı başa düşmədim? Necə yəni dükana kimlər gəlir? Dükana kim gələr? Kağıza, qələmə ehtiyacı olan. Hansını deyim? Böyük də gəlir, kiçik də. Arvad da gəlir, kişi də. Mən bilmirəm ki, sizi maraqlandıran kişilərdir, ya arvadlar?

– Soldatlardan gələn olurmu?

– Çox.

– Nə üçün gəlirlər?

– Necə yəni nə üçün gəlirlər? Kağız almağa, qələm almağa. Soldat adam ki, evinə hər həftə məktub yazmadı, bağrı çatlar.

– Axırıncı dəfə nə vaxt onlardan buraya gələn olub?

Dükan sahibi fikrə getdi. Beş gün qabaq dükana gəlmiş, dəftər, kağızı vərəqləyib baxan, lakin heç bir şey almayıb gedən sarışın soldatı xatırladı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bir həftə olar. Tayts eynəyinin altından dükan sahibinə sınayıcı nəzərlə baxdı.

– Səhv etmirsiniz ki, düz bir həftə qabaq gəlib?

– Səhv niyə edirəm?

– Kim idi?

– Bir nəfər cavan soldat idi.

– Nə aldı?

– Heç bir şey.

– Bəs nə üçün gəlmişdi?

– Heç özüm də bilmirəm. Kağızlarıma baxdı, görünür ki, xoşuna gəlmədiyi üçün almadı.

– Çox ləngidi?

– Ləngidiyi o qədər olmadı.

Tayts barmaqları ilə bığlarını tumarladı, gözlərini qıyıb, sanki nəyin haqqında isə fikrə getdi. Sonra üzünü dükan sahibinə tutub, qaşları çatılmış halda soruşdu:

– Ondan başqa da dükanda adam var idi?

– Əlbəttə.

– Soldatın hərəkətləri sizə qəribə gəlmədi ki? Yəni o, kağızları araşdırarkən onların arasına bəlkə bir şey qoymuşdur?

Dükançı təəccübləndi:

– Cənab, oraya nə qoya bilər? Başa düşmürəm, xahiş edirəm bir açıq danışasınız.

– Ola bilər ki, o sizin satdığınız bu dəftərlərin arasına zərərli bir vərəqə qoymuş olsun. Siz də görməyəsiniz!

Dükan sahibi Taytsın söhbəti bu yerə gətirib çıxarmasından qorxuya düşdü. Onu birdən-birə qəribə bir hiss bürüdü:

Soldatların əlindən baş vermiş xatalı bir işə görünür ki, onu da qatmaq istəyirlər. Bir həftə qabaq dükanına soldatın gəlməsini xəbər verməsinə peşman oldu. "Kaş deməyəydim. Deməsəydim, sorğu-sualların da axırı gəlib bu yerə də dirənməzdi!" İş işdən keçmişdi, dediyi sözü daha

Dana bilməzdi. O öz dilindən xataya düşmüşdü.

– Siz o soldatı görsəniz tanıya bilərsiniz?

Dükan sahibi nə cavab verəcəyinə çətinlik çəkirdi. Tanıdığını söyləsə, yəqin ki, üzləşdirəcək, onu bir şahid kimi ora-bura çəkəcəklər. Üstəlik özünü də dolaşdıra bilərlər.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Siz nə danışırsınız, cənab, onları bir-birindən seçmək olur ki! Hamısı elə bir-birinə oxşayır, onların içində bircə nəfərini ayırd edə bilərəm. O da ibarət olsun böyüklərindən, o zərbaftalı podpolkovnikdən. Onun da poqonları zərli olmasaydı, yenə seçə bilməzdim...

Tayts onun çəkindiyini dərhal hiss etdi. Buna görə də indi onunla başqa cür danışmağı qərara aldı. Mülayim danışıqdan hədəyə keçmək vaxtı çatmışdı.

– Bilirsiniz nə olub? – deyə o, Xaçaturyansdan aldığı vərəqəni qoltuğundan çıxarıb, dükan sahibinə göstərdi. – Hökumətin əleyhinə belə vərəqələr yayırlar. Bilirsinizmi, bu vərəqə haradan tapılmışdır? Sizin satdığınız dəftərlərin arasından. Demək bir əl, yəqin ki, onu dəftərlərin arasına qoymuşdur. Əlbəttə, belə şeyi siz etməzsiniz, bunu bilirəm. Ancaq kim isə sizin gözünüzün qabağında bu işi görmüşdür.

Tayts vərəqəni yenə qatlayıb, cibinə qoydu və müəmmalı nəzərlərlə dükan sahibini süzdü. Kişi özünü tamam itirmişdi, boğazı qurumuşdu. Bir neçə dəfə udqunub, dodaqlarını islatdı.

– Cənab, çox təəssüflənirəm ki, ona fikir verməmişəm. Diqqətlə baxsaydım, yəqin ki, yadımda qalardı... Ancaq indi, onu başqalarının içərisindən seçə bilmərəm... İnanın...

Dükan sahibi sözünü qurtara bilmədi. Küçədən eşidilən səs-küyə Tayts tez özünü bayıra atdı. Dükan sahibi də bundan istifadə edib onun dalınca çıxdı və dükanın qapısını bağladı.

Küçədə adamlar alaqaranlıqda bərkdən danışırdılar. Onların söhbətindən məlum oldu ki, indicə qaçaq Məhəmməd atını çapa-çapa buradan keçmişdir.

Bu məsələ Taytsın fikrini məşğul etdiyi üçün dükan sahibinin öz dükanını bağlamasına heç bir söz demədi. Ona yalnız qəzəbli nəzər yetirdi.

– Siz hər halda onun sifətini xəyalınızda canlandırmağa çalışın. Bəlkə onu görəndə tanıdınız...

O, alaqaranlıqda elə bil yaxşı görmədiyi üçün əsasını yerə döyəcləyə-döyəcləyə getdi. Dükan sahibi rahat nəfəs aldı. Bu çəlimsiz adamın çəngindən qurtardısa da, onun vurduğu eyhamların mənasını düşündükcə bədənini bürkülü havada titrətmə bürüyürdü.

Tayts bir neçə tin getdikdən sonra baş küçəyə buruldu. Cərgə ilə durmuş dükanların hamısı bağlı idi. Bura baş küçə hesab olunsa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da, o biri xəlvət küçələrdən o qədər də fərqlənmirdi. Bütün küçə boyu yalnız iki yerdə fənər yandırılmışdı, onların da işıqları üç arşın uzağı ancaq işıqlandırırdı. Bir dükanın səkisindən enib o biri səkiyə keçmək istədikdə, Tayts elə büdrədi ki, gözündən pensnesi yerə düşdü. Qranlıqda əyilib, onu əl havasına axtarıb tapdı. Şəhər rəisinin ünvanına burnun altında mızıldandı, ətrafına bazındı və heç kəsi görmədikdə iti addımlarla yoluna davam etdi.

Qabaqkı dükanlardan birisindən işıq gəlirdi. Bu Taytsın diqqətini cəlb etdi. Çoxluğun içərisində təklik həmişə onun nəzərindən yayınmadığı kimi, bağlı dükanlar içərisində açıq olan, qaranlıqda işığı gələn bu tək dükan da onun beynini qıdıqladı, düşüncəsini oynatdı. Yaxınlaşıb, dükanın qapısından içəri baxdı. Lampa işığında piştaxtanın üstündə bardaş qurub, işləyən arıq dərzi Usubu gördü. Buraya gəldiyi günlərdə ona təqdim edilmiş siyahıda bu dərzinin də adı var idi. Soldatlar onun yanında daha çox olurdular. Paltarlarına yamaq vurdurmaq üçün gələn bu soldatlar üzdən heç kəsin yadında qalmamışdı, çünki bu, onların şəhərə gəldikləri ilk günlərdə olmuşdu. Sonralar soldatların arası kəsilmiş, son zamanlarda isə ayaqlarını demək olar ki, dükandan tamam üzmüşdülər. Tayts da ona verilən siyahıda buna görə usta Usubun adının qabağında heç bir işarə qoymamışdı. Bu, o demək idi ki, dərzi artıq şübhə altından çıxmışdır.

Bu gün isə dərzinin belə ləngiməsinə sakit baxa bilmədi. Bir neçə dəfə dükanın qabağından o yan-bu yana keçdi. Gözünə şübhəli heç bir şey dəymədi. Dərzi başını qaldırmadan işinə məşğuldu. Tayts bir dövrə də vurub getmək istəyirdi ki, dərzi dükanına bir oğlan uşağı gəldi. O içəri girən kimi dərzi əlindəki işi yarımçıq bir tərəfə qoydu, ayağa qalxıb dükanın qapısından ətrafa boylandı. Tayts özünü tez ağacın dalına verdi. Dərzi Usub görünür ki, arxayın olduqdan sonra dükana keçib pərdənin dalından nə isə götürdü. Ancaq nə fikirləşdisə dükanın qapılarını içəri tərəfdən örtdü. Tayts bir anlığa nə edəcəyini düşündü. Axırda dükanın içərisinə soxulmağı qərara aldı. Bu məqsədlə yaxınlaşmaq istəyirdi ki, oğlan uşağı içəridən çıxdı. Tayts onun köynəyinin altında nə isə olduğunu dərhal sezdi. Oğlanı ayıq saxlamaq üçün dükana yaxınlaşmadı. Ayaq saxlayıb onun uzaqlaşmasını gözlədi.

Oğlan dükandan bir az aralanandan sonra Tayts onun dalınca düşdü. Oğlan arxayın gedirdi. O, baş küçədən keçib qaranlıq döngələrə girəndə, Tayts onu itirəcəyindən ehtiyat edərək addımlarını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yeyinlətdi. Oğlan onun dalınca adam gəldiyindən hələ də xəbərsizdi. Bir neçə döngəni burulub, Balakən yoluna çıxdıqda arxadan eşidilən xışıltıya geri qanrıldı: dalınca gələn qaraltını gördü və qorxuya düşdü. Addımlarını yeyinlədib qaçmaq istədi. Ancaq bununla tanımadığı adamı daha da şübhəyə salacağını düşünüb, yenə əvvəlki qayda ilə yoluna davam etdi. Bununla belə, hiss edirdi ki, dalınca gələn adam ona yaxınlaşmağa çalışır. Daha durmaq zamanı deyildi. Oğlan birdən, onun dalınca gələn adam üçün gözlənilmədən, yol kənarındakı kolların dalına keçdi və qaçmağa başladı. Dalınca gələn adamın da qaçmağa başladığını hiss etdi. Onu azdırmaq fikrinə düşdü. Kolların dibi ilə bir az qaçdıqdan sonra yenə yola çıxdı, şəhərə tərəf gəlmək əvəzinə, Balakənə tərəf yönəldi. Lakin bir neçə addım qaçmamışdı ki, dalınca gələn adam özünü ona çatdırıb, ətəyindən yapışdı. Oğlan bərkdən çığırdı.

Bu zaman kolların dal tərəfi ilə gələn bir atlı, səsə atının başını çəkib saxladı. Səs təkrar eşidildi. Elə bil kimi isə boğurdular. Atlı bir an qulaq asıb səs gələn tərəfə çapdı. Yaşlı bir kişi ilə bir oğlan uşağının boğuşduğunu gördü. Yaşlı adam oğlandan nə isə almaq istəyirdi, oğlan isə əlləri ilə qarnından yapışaraq köynəyinin altında gizlətdiyi şeyi vermək istəmirdi. Atlı yaxınlaşıb atdan endi. Kişinin qolundan yapışıb elə burdu ki, alaqaranlıqda bərkdən zarıltı eşidildi. Oğlan onun köməyinə gələn adamı görüb ürəkləndi:

– Təzə köynək tikdirmişəm, əlimdən almaq istəyir.

Atlı kişinin qolunu hələ də buraxmamışdı. Oğlan bunu görüb, daha bir söz demədən qaçmağa başladı. Zarıltısı hələ də eşidilən Tayts yad adama altdan-yuxarı baxıb soruşdu:

– Qolumu niyə burursunuz? Buraxın. Siz kimisiniz?

Qaranlıqda üzü aydın seçilməyən atlı qolunu burduğu adamın o biri əli ilə cibindən nə isə çıxarmaq istədiyini gördü. Tez təkan vurub onu, əlini cibindən çıxarmağa məcbur etdi. Atlı onun iki cansız biləyini bir əlinə aldı. O biri əli ilə çırpınıb əlindən çıxmaq istəyən adamın cibini araşdırdı. Əlinə soyuq dəmir toxundu.

– Buna görə çırpınırdın?

Atlı tapançanı onun cibindən çıxarıb qaranlıqda baxdı və öz cibinə qoydu.

– Başqasının malına göz dikən alçaq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Atlı təpiyini ilişdirib onu qabağa itələdi. Tayts üzü üstə yerə sərələndi. Xeyli müddət yerindəcə qaldı. Ayağa qalxa bilmədi. Atlı isə durub baxırdı.

– Hə, necədir? Uşağı aciz görmüşdün?

Tayts birtəhər ayağa qalxıb əsası ilə atlını hədələdi:

– Mən sənə göstərərəm. Heç bilirsən, kimə əl qaldırmısan!

Atlı bərkdən güldü:

– Deyərsən bilərik. Tayts dinmədi. Qaranlıqda onun sifətini görməyə çalışdı. Bu hündürboylu adamın görkəmindən vahimə yağırdı. Ancaq nə nişana gələrdi! Tapançasını almasaydı, indicə onu köklü ağac kimi yerə sərmişdi. Təəssüf ki, nə tapançası yanında idi, nə də onu yerə sərməyə gücü çatardı.

– Hə, niyə susdun? – deyə atlının səsi yenə eşidildi. – De bilək!

Tayts yenə dinmədi. Uzaqdan oğlanın səsi eşidildi.

– Əmi, onu hələ buraxma, yoxsa genə mənim yaxamdan əl çəkməz. Mən onu tanıyıram, pristavın mirzəsidir.

Atlı uşağın sözlərindən sonra istehza ilə gülümsədi:

– Belə de. Mən bilməmişəm sən ağa pristavın dilmancısan.

Tayts yenə dinmədi. Məhəmməd bərkdən güldü.

– Hə, səsin çıxmır? Burada az idi arıq-yoruq, sən də bir yandan gəldin dabanı yarıq! Deyin görüm niyə axışıb gəlirsiniz? Bu soldatları öz ev-eşiklərindən didərgin saldınız, indi burada da onlardan əl çəkmirsiniz? Yaxşı, soldatlardan əl çəkmirsiniz, sözüm yox, bəs bu camaatdan nə istəyirsiniz? Uşağın günahı nə idi ki, bu axşam vaxtı onu qabağına salıb qovurdun?..

Taytsın nitqi qurumuşdu. Ağzını açıb bir kəlmə də olsun cavab vermək istəmirdi. Qorxurdu ki, dèyəcəyi söz atlının xoşuna gəlməyə, elə oradaca böyrünü odlaya. Buna görə də susmağı üstün tuturdu.

Atlı onun durduğu yerdə quruduğunu hiss edib. Əlini çırpdı, rişxəndlə gülümsədi.

– Əlinizə fürsət düşəndə adamın lap dərisini soyursunuz. Belə ayaqda isə özünüzü elə aparırsınız ki, guya imamsınız.

Tayts yenə dinmədi. Lap axıradək susmağı qərara aldı. Atlı onun qorxudan dinmədiyini başa düşdüyü üçün burnunun altında onların adına nə isə söyüb dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yaxşı, get, bir az da dursan, qorxuram ki, işləri korlayasan.

Atlı atın belinə sıçrayıb, yolla uzanan kolların dalında gözdən itdi. Tayts ürəyi keçmiş adamlar kimi özünə gəlib, ətrafına baxırdı. Bir neçə dəqiqə qabaq olmuş hadisəni xatırlatmaq istədi, ancaq yadına heç bir şey düşmədi. Bədənini soyuq tər basmışdı. Əlini alnına sürtüb, olub keçənləri bir də xatırlamağa çalışdı. Onun qabağına çıxıb qolunu möhkəm burmuş sonra isə onu üzü üstə itələmiş adamın saqqallı sifəti çox dumanlı şəkildə yadına düşdü. Çalışdığı da bu idi ki, tapançasını almış bu atlının sifətini yadında möhkəm saxlasın, adamlar içərisində onu görən kimi dərhal tanısın.

O, üst-başını çırpıb şəhərə qayıtdığı zaman da ancaq bu haqda fikirləşirdi. Hafizəsi isə ona heç cür tabe olmaq istəmir, bir sərab kimi onu aldadaraq ümidlərini puça çıxarırdı. Taytsa elə gəlirdi ki, onun oxşar cizgilərini: enli qaşlarını, iri qara gözlərini, qüvvətli çiyinlərini şəhərdə rastına çıxacaq gənclərin hər birində görəcəkdir. O, qəti qənaətdə idi ki, huşu birdəfəlik xarablaşmışdır. Xüsusilə, başına torba keçiriləndən sonra yaddaşı tamam korlanmışdır.

Evə gəldikdə, arvadı onun cızılmış alnını görüb əlini sinəsinə atdı, bərkdən çığırdı:

– Vay, gör səni nə günə qoyublar? Genə o qarnıyoğunun felinə düşdün? Belə getsə əvvəl-axır sənin axirətinə çıxacaqlar...

Arvadı inildəyib, özünü taxtın üstünə yıxdı. Tayts onu heç zaman belə əsəbi görməmişdi. Arvadın gözləri süzülüb yumuldu. Dodaqları əsirdi. Tayts onun ürəyinin keçdiyini güman etdi və tez su gətirib üzünə çırpdı. Arvadı başını silkələyib gözlərini açdı. Ağlını itirmiş adamlar kimi otaqda təşvişlə gezişdi, əlini sinəsinə döyəcləyərək, öz-özünə nə isə deyirdi: gözləri yenə də axırdı. Özünü o tərəf-bu tərəfə vurduqdan sonra taxtın üstünə yıxıldı. Başını yelləyərək yanıqlı ah çəkdi.

– Pərvərdigara, gör başıma nələr gəlir! Elə bil ürəyimə dammışdı ki, burada mənim üzüm gülməyəcəkdir. Yox, deyəsən səni əcəl buraya sürükləyib gətirib. Yığış, sabah gedək. Mən daha burada qala bilmərəm. Günü sabah... eşidirsənmi?

Ərinin dinmədiyini gördükdə səsini bir az da ucaltdı:

– Eşidirsənmi, günü sabah!..

Tayts arvadının sözlərini saya almadan o biri otağa keçib aynada cızılmış alnına baxdı. Belə vəziyyətdə sabah işə necə çıxacağını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fikirləşirdi. O tanımadığı atlıya rast gəldiyini və onu bu günə saldığını heç kəsə deyə bilməzdi. Torba haqqında söhbət hələ bitməmiş camaatın ağzına təzə xəbər salmaq istəmirdi. Hamı ucundan tutub ucuzluğa gedəcək, Allah bilir, hələ üstünə bir neçəsini də qoyacaqdılar. Arvadının üzünə deməsə də gizlində, öz-özlüyündə ona haqq verirdi. Buraya gəldiyi gündən bütün təşəbbüsləri bir-birinin ardınca, bir-birindən biabırçı şəkildə müvəffəqiyyətsizliyə tutulmuşdu. Qocalıq artıq öz işini görürdü. Bütün fəaliyyəti müddətində belə vəziyyətə düşdüyü heç zaman olmamışdı. Arvadının hikkəsi də onu digər tərəfdən lap boğaza yığırdı. Buradan köçüb getmək haqqında dediyi sözü, yəqin ki, bundan sonra dilində əzbər eləyəcək, kor tutduğunu buraxmadığı kimi, dəqiqəbaşı onun zəhləsini tökəcəkdi.

Tayts buraya gəldiyi günün sabahısı ona təqdim edilmiş şübhəli adamların siyahısını axtarıb tapdı. Onu başdan-ayağa bir də nəzərdən keçirdi. Dərzi Usubun adının qabağına böyük bir sual işarəsi qoydu. Siyahının axırına isə yazı ləvazimatı satan dükançının adını da əlavə etdi. Dərzi Usubun üzərinə bu vaxtadək göz qoymamasına təəssüfləndi. Günü sabahdan dərzini yanına çağırtdırıb, onun işi ilə məşğul olmağı qət etdi. O, yazı ləvazimatı satan dükançı ilə dərzinin əlaqəsi olduğunu şübhələndirdi.

## XX fəsil

Uluxanın Zaqatalaya gəlib-getməsindən sonra Bakı Komitəsinin inqilabçı soldatlarla əlaqəsi möhkəmləndi. Hələ birinci gün Uluxanın özü ilə gətirdiyi vərəqələr Gərayın və Bəhramın vasitəsi ilə soldatlara çatdırılası idi. Ancaq bu zaman çox qəribə hadisələr baş verdi. Uluxanın qaçdığı günün səhəri Taytsın öldürüldüyünü zənn edən pristav Gərayın evində axtarış aparılmasını əmr etmişdi. Lakin Taytsın ölüsünü heç yerdə tapmadıqda, Əlibəy və başqa qorodovoylar həmin küçədə daha başqa bir neçə şübhəli evləri axtarışa gedərkən yazı ləvazimatı satılan dükanın qabağında soldat Qriqoriyə rast gəldilər. Qriqori onları hələ uzaqdan gördüyü üçün tez dükana keçə bildi. Yaxınlaşıb kağız, qələm almaq bəhanəsi ilə dəftər və kağızları vərəqləməyə başladı. Gözünün isə dükanın qapısından çəkmirdi. Qorodovoyların səkidən enərək, dükana tərəf addımladıqlarını gördü. Onun dalınca gəldiklərini zənn edərək, yarım



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

saat qabaq Gərayın bacısı ərindən aldığı vərəqələri harada gizlətməyi düşündü. Bir an karıxıb qaldı. Birdən vərəqələri cibindən çıxarıb çin-çin yığılmış dəftərlərin içərisinə dürtdü. Əlibəy və onunla gələn qorodovoylar dükanın qapısından içəri baxıb ötdülər. Qriqori rahat nəfəs aldı. Dükançının üzü o biri tərəfə olduğu üçün vərəqələri yenə tələsik götürüb, cibinə qoydu. Bu zaman vərəqələrdən biri dəftərin arasında qaldı.

Sonralar Kazaryanın bacısı qızının dəftərinin içərisindən çıxan vərəqə də həmin vərəqə idi. Tayts da boş yerə şübhələnməmişdi. Qriqori o gün yazı ləvazimatı dükanından təkcə bir dənə zərf alaraq qışlaya qayıtmağa məcbur oldu. Ancaq yenə də gözlənilməz bir hadisə onu qəflətən yaxaladı. Qışlanın qapısına çatmamış uzaqdan qapı ağzında Varlamovun durduğunu gördü. "Nə olmuşdur ki, Varlamov buradadır?" – deyə fikirləşdi. Bir tində ayaq saxlayıb ləngidi. Ondan qabaq gedən soldatın qapıya çatmasını gözlədi. Soldat yaxınlaşıb içəri keçmək istərkən Varlamov onu saxlatdırdı. Sonra əlini ataraq onun ciblərini araşdırmağa başladı.

Qriqori məsələnin nə yerdə olduğunu başa düşüb, dərhal durduğu yerdən uzaqlaşdı. Ancaq hara getsin, yanındakıları necə etsin? O yəqin etdi ki, kim isə bu gün qışlaya vərəqə gətiriləcəyini xəbər vermişdir. Qriqorini fikir bürüdü. Bundan ancaq dörd nəfərin xəbəri vardı: Viktorun, Deməşkonun, Sırojkinin və bir də özünün. Kim xəbər verə bilər? Yaxşıdır ki, vərəqələri qışlaya onun gətirəcəyini yalnız Viktor bilirdi. "Yəqin ki, buna görə də içəri girən soldatların hamısını yoxlayırlar". Demək, bunu yalnız Deməşko, ya da Sırojkin edə bilər. O bir dəfə Viktorun ötəri dediyi bir sözü xatırladı: "Uşaqlar, mənə birtəhər gəlir." Ancaq sonralar Viktor bu məsələnin üstünə daha qayıtmamış və sanki dediyinə də peşman olmuşdu. Çünki yoldaşları Sırojkindən hələ heç bir xəyanət görməmişdilər. "Əgər o xəbər verməmişsə, demək bunu Deməşko etmişdir, – deyə Qriqori öz-özünə düşündü. – Yox, o, Deməşko üçün lap başını verər. Onun boğazına kəndir də keçirsələr belə şey etməzdi".

O, qışladan uzaqlaşdı, ancaq haraya gedəcəyini özü də bilmirdi. İndi küçədə görünmək də qorxulu idi. O, xəlvət küçələri burula-burula cibindəki vərəqələr haqında fikirləşirdi. Onları kimə versin? Viktorun dediyi dərzi yadına düşdü. Ehtiyatla gəlib onun dükanının qabağına çıxdı. Lakin dükanda yekəpər bir qorodovoy boyuna nə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

isə biçdirirdi. Onun gözünə görünmədən uzaqlaşdı. Başqa ümid yeri yoxdu. Birdən Roza yadına düşdü. Ondan etibarlısını tapmaq mümkün olmayacaqdı. Addımlarını yeyinlətdi. Meyxananın qapısında dörd tərəfə boylanaraq, içəri keçdi. Otaqda adam az idi. Bir azdan Roza onu gördü və əlindəki işi qoyub yaxınlaşdı. Gülümsəyib salam verdi.

– Mən sizi belə bivəfa bilməzdim... – O dərindən ah çəkdi. – Nə lazımdır?

– Heç bir şey lazım deyil. Səninlə xəlvəti işim var.

Rozanın gözləri parıldadı.

– Həyət tərəfdən yolu tanıyırsan! Mənzilimə qalx. Mən arada macal tapıb yanına qalxaram.

Qriqori çıxdı. Həyətdən köhnə taxta pilləkənlərlə Rozanın mənzilinə qalxdı.

Kiçik otaq onun ilk dəfə gördüyü kimi idi: həmin ağır hava, həmin his çəkmiş divarlar. Çarpayının üstündə divara vurulmuş çılpaq qadın şəkillərinə də əl dəyilməmişdi. Yenə də divardakı əlüzyuyandan tasa su damcılayırdı... Qriqori həyət tərəfə açılan pəncərənin pərdəsini azca aralayıb baxdı. Həyətdə heç kəs görünmürdü. Köhnə saatın zənciri az qala yerə dəyəcəkdi. Yaxınlaşıb onu yuxarı çəkdi. Çarpayının baş tərəfindəki çılpaq qadınların şəkillərinə baxdı. Bunların bəziləri jurnallardan kəsilmişdi, bəziləri isə foto idi. Qadınların gözəlliyinə söz ola bilməzdi. Çılpaq bədənləri sanki ağ mərmərdən yonulmuşdu. Qriqori həsrətlə onlara tamaşa edərkən birdən səsə geri qanrılıb baxdı. Roza idi. Onun otağa nə vaxt girdiyinə təəccüb qaldı. Roza qolları qoynunda ona baxır və gülümsəyirdi:

– Gözəldirlərmi? Xoşuna gəlirmi?

O yaxınlaşdı. Qollarını Qriqorinin boynuna keçirib, həsrətlə onun mavi gözlərinə baxdı:

– Bəs mən gözəl deyiləmmi, sənin xoşuna gəlmirəmmi, mənim əzizim?

O, qolları ilə Qriqorinin boynunu sıxıb, onun başını özünə tərəf əydi və dodaqlarından öpmək istədi. Qriqori başını kənara çəkdi. Roza köksünü ötürdü:

– Sən nə amansızsan, Qriqori!.. Siz niyə belə insafsız olursunuz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O yenə Qriqorini öpmək istədi. Qriqori isə onun sifətini ovucları arasına alıb diqqətlə baxdı.

– Roza, mənə kömək edərsənmi?

– Mən sənin üçün ölümə də gedərəm.

– İnanımmı?

– İnan! And içə bilərəm ki, sənin üçün canımı verməyə hazıram.

Qriqori onun kiçik əllərini ovucları içərisində sıxdı.

– Çox razıyam, Roza... səni heç zaman yaddan çıxara bilməyəcəyəm.

– Eləmi? – deyə Roza birdən atılıb onun boynundan öpdü. – Mən də özümü dünyanın ən xoşbəxti hesab edəcəyəm! Elə biləcəyəm ki, bütün yer üzü mənə həsəd çəkir, hamı barmağı ilə məni göstərib deyir ki, görün o nə xoşbəxtdir, çünki onu sevən var... Sevirsən, elə deyilmi, Qriqori?

Qriqori onun əllərini buraxmadan dedi:

– Roza, əzizim, sonra danışarıq... Hələlik mənim vaxtım yoxdur. Hər bir dəqiqənin əhəmiyyəti var.

– Yenəmi səni təqib edirlər? O sərxoş zərbaftalılar niyə səndən əl çəkmirlər? Nə üçün yaxşı adamları həmişə təqib edirlər? Pis adamlar isə istədiklərini edir, heç kəs də onlara demir ki, niyə belə edirsiniz?

– Roza, mənim yanımda bəzi kağızlar var, onları məndə tapsalar yəqin ki, katorqaya göndərərlər.

– Ay aman, sən nə danışırsan? Yox, qoymaram, qoy məni öldürsünlər, səni qoymaram.

Onun gözləri yaşardı. Başını Qriqorinin sinəsinə qoydu.

– Ömrümdə ilk sevdiyim adam sənsən. Səni də mənim əlimdən alacaqlarmı? Yox, qoymaram.

Qriqori onun atılıb düşən çiyinlərini, saçlarını tumarladı, Rozanın onu, doğrudan da sevdiyinə inandı. "Bəlkə də doğru deyir" – deyə fikirləşdi, – ilk sevdiyi adam, bəlkə də, elə mənəm.

– Roza, o vərəqələri sənə versəm saxlaya bilərsənmi?

Roza başını qaldırıb məzəmmətedici nəzərlərlə ona baxdı.

– Mən onları sənin qəlbin kimi sinəmdə, döşlərimin arasında gəzdirirəm. Sənin iyini heç olmasa onlardan alaram.

– Axı heç soruşmursan bunlar nə vərəqələrdir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə olsun ki, madam ki, sənindir, onları canım kimi qoruyaram. Elə güman eləyəcəm ki, onları yox, səni qoruyuram. Axı mən səni...

Onun gözləri yenə yaşardı. Dolu, yaraşıqlı çiyinləri xəfif bir tərzdə atılıb düşdü. Qriqori bir anlığa onun taleyini düşündü. Sonra başını sinəsinə basıb, sarışın qıvrım saçlarını oxşadı.

Roza bundan daha da kövrəldi.

– Yaxşı, bəsdir, Roza... sakit ol.

– Nə üçün sən mənə bir söz demirsən?

– Nə söz, Roza?

– ...Qıza nə deyərlər? Siz doğrudanmı hər şeyi belə gec başa düşürsünüz? Biz qadınlar ürəkdən deyilən şirin sözlərə möhtacıq. Mənə deyəcəyin bir kəlmə söz mənim üçün böyük xoşbəxtlik olacaqdır.

Qriqori onun başını sinəsindən qaldırıb, yaşarmış mavi gözlərinə, islanmış təravətli yanaqlarına baxdı.

– Deyərəm, Roza vaxtımız hələ çoxdur. İndi isə mən tələsirəm.

Roza gözlərini sildi, hazır durub, Qriqorinin ona nə tapşıracağını gözlədi. Qriqori qoltuğundan bir dəstə vərəqə çıxarıb, ona uzatdı.

– Roza, onu bil ki, bunlar ələ düşərsə, sən də, biz də, hamımız ağır cəzaya məhkumuq.

– Başa düşürəm. Özündən artıq mənə inan.

– Əgər iki günədək onların dalınca gəlməsəm, yenə səndən bir xahişim var.

– Buyur.

– Baş küçədə iri qarağacın yanında bir dərzi dükanı var.

– Qoca, arıq dərzinin dükanını deyirsən? Gözlərində eynəyi də var.

– Elədir. Adı Usubdur. Əgər mən gəlməsəm, üçüncü gün səhər tezdən onları aparıb ona ver. Ancaq ehtiyatlı ol, heç kəs görməsin.

Roza vərəqələri alıb, çarpayısının döşəyini qaldırdı və vərəqələri döşəyin içinə dürtdü.

– İndi isə araq gətir.

Roza eşitdiyinə inanmırmış kimi, təəccüblə Qriqoriyə baxdı.

– Hə, araq. Bu gün mən içməliyəm. Ağzımdan araq iyi gəlməlidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu saat, – deyə Roza sevincək aşağı qaçdı. Qriqori xılxın pilləl追lə onun necə aşağı qaçdığını eşitdi. Bir o qədər çəkmədi ki, o, önlüyünün altında yarım şüşə araq və bir dənə duza qoyulmuş xiyar gətirdi.

– Al, hamısını sənə gətirmişəm, – dedi.

Roza araqdan tökdü, Qriqori onu birnəfəsə içib üstündən xiyarı yedi. Sonra həyətdə adam olub-olmadığını yoxlamaq üçün pəncərənin pərdəsini qaldırıb baxdı. Aqvanı həyətdə görüb təəccübləndi:

– O, həyətdə nə axtarır?

Roza da yaxınlaşıb Aqvanın həyətin o tərəf-bu tərəfinə boylandığını gördü.

– Məni axtarır. Mən getdim, yoxsa buraya qalxar.

Roza pillələrlə tələsik aşağı endi. Qriqori pərdənin dalından Rozanın həyətə endiyini, orada Aqva ilə nə haqda isə danışdıqdan sonra içəri keçdiklərini gördü. Bir az gözləyib, o da həyətə endi və gözə görünmədən divarın dibi ilə gedərək küçəyə çıxdı.

Patrulun gözündən yayınmaqdan ötrü gəldiyi dalda küçələrlə də geri qayıtdı. Qışlanın qapısına birdən-birə yaxınlaşmadı. Uzaqdan baxdı. Varlamovu görsəydi, özünü sərxoşluğa vuracaqdı. Bundan ötrü uzaqbaşı üç gün karserə salınacaqdı. Qoy olsun! Şübhədən yayınmaq üçün başqa heç bir çarə qalmamışdı. Bir xeyli gözlədi. Qapıda keşikçidən başqa adam olmadığını yəqin etdikdən sonra cürətli addımlarla irəlilədi. Keşikçi onun yaxın dostlarından idi. Qriqori yaxınlaşan kimi onu başa saldı ki, Varlamov içəridədir, yataqları, çarpayıların altını axtarmaqla məşğuldur. O hələ sözünü deyib qurtarmamışdı ki, Varlamov hirsli addımlarla darvazaya yaxınlaşdı. Qriqori özünü itirmədi. Bir anın içində sərxoşlara xas bir görkəm aldı. Qıçları dolaşa-dolaşa burnunu altında nə isə mızıldanaraq onlara tərəf yeridi. Varlamov onu görən kimi hirsindən elə bağırdı ki, yanındakı soldatlar dik atıldılar. Qriqori isə tövrünü pozmadı. Burunun altında zümzümə edərək, birbaşa Varlamovun üstünə yeridi. İçəridən, qışlanın qapısından darvaza ağzında baş verən hadisəni ürək çırpıntısı ilə izləyənlər, Qriqorinin belə bir şey düşündüyünə sevindilər. Viktor yəqin etdi ki, onun ciblərində heç bir şey yoxdur.

Varlamov Qriqorinin üstünə çığırdı:

– Kəs, it oğlu.

Qriqori heç bir şey eşitmirmiş kimi zümzüməsində davam edir, gah o tərəfə, gah bu tərəfə səndirləyərək ayaq üstə dura bilmirdi. Varlamov onun yaxasından yapışdı. Qriqori başını hərlətdi. Varlamov onun ağzını iyləməyə çalışdı. Qriqori isə özünü onun üstünə yıxdı. Varlamov onu özündən kənara itələyərək üz-gözünü turşutdu.

– Harada isə bərk vurub. Ciblərini axtarın.

Onun yanında durmuş iki soldat tez əllərini salıb, Qriqorinin ciblərini araşdırdılar. Şalvar cibindən yarısı yeyilmiş duzlu xiyardan başqa heç bir şey tapılmadı. Varlamov gözlədiyini tapa bilmədiyi üçün soldatlara çığırdı.

– Karserə aparın, əmr olmayınca, buraxmayın.

Soldatlar onun qoluna girərək, sürüyə-sürüyə apardılar. Qriqori şəhərə buraxılmış axırıncı soldat olduğu üçün Varlamov oradan birbaşa podpolkovnikin yanına gəldi. Ona axtarışın nəticələri haqqında məlumat verdi. Sonra Qriqorinin şəhərdən sərxoş döndüyünü və buna görə də onu karserə göndərdiyini xəbər verdi.

Qriqoriyə beş gün həbs cəzası kəsildi.

Yoldaşının tədbirindən çox razı qalmış Viktor yavaşcadan Demeşkonun qulağına pıçıldadı:

– Əhsən, Qriqori. Vəziyyətdən yaxşı çıxış yolu tapmışdır.

Bununla belə, onlar yenə narahat idilər: "Bəs vərəqələri o kimə vermişdir?"

Demeşko güman eləyirdi ki, o, vərəqələri cırıb atmışdır. Viktor isə buna inanmırdı. O, ağlına sığışdırmırdı ki, Qriqori belə iş tuta bilər, çünki ən ağır dəqiqələrdə belə Qriqori, həmişə ona tapşırılmış əmanəti müxtəlif yollarla hifz edib aradan çıxara bilmişdir. Bəs indi o, gözlənilmədən yaranmış belə bir vəziyyətdə vərəqələri kimə verə bilərdi?

Bu haqda onlar çox düşünmədilər. Madam ki, onlar Qriqorinin cibində tapılmamışdır, deməк, hər halda etibarlı əllərdədir.

İki gündən sonra Viktor öyrəndi ki, Tayts hələ xəstəxanada ikən pristav podpolkovnikə məktub yazaraq, Bakıdan Zaqatalaya şübhəli bir nəfərin gəldiyini və çox güman ki, soldatların da bundan xəbərləri olduğunu məlumat vermişdir. Bundan sonra Dobrovolski bir sıra təcili tədbirlər görmüşdü. Onlardan biri də şəhərə çıxmağa icazə verilmiş soldatların qışlaya geri dönərkən yoxlanılmaları idi. Lakin yoxlanışdan heç bir şey çıxmadığı üçün Dobrovolski əvvəlki



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kimi hirsindən bütün günü rota komandirlərinə bir-birinin dalınca yeni əmrlər verirdi. Rotalarda intizamın yenə də lazımi dərəcədə olmamasını komandirlərin nəzərinə çatdırır və onları ağır cəzalarla hədələyirdi. Əmrin axırında isə qəti qadağan olunurdu ki, batalyon komandirinin icazəsi olmadan şəhərə bir neçə gün heç bir kəs buraxılmasın.

Viktoru və onun yoldaşlarını əmrin yalnız bu axırıncı maddəsi narahat edirdi. Tiflis ilə əlaqə kəsiləndən sonra işləri yenicə yoluna düşdüyü belə bir zamanda şəhərə buraxılmamaq onların düşündükləri planın həyata keçirilməsini xeyli ləngidə bilərdi. Demeşko yenə qızdı.

– Mən sizə deyəndə, siz həmişə mane olursunuz. Yenə də bu qənaətdəyəm ki, onu aradan qaldırmasaq əlimiz-qolumuz açılmayacaqdır. Bu dəfə razılaşdınız-razılaşmadınız mən onun işini bitirəcəyəm. Nə olur-olsun.

– Demeşko, sən yenə əvvəlki havaları çalırsan. Onu bil ki, bu hava ilə heç kəs oynaya bilməyəcəkdir... Bir adamın aradan qaldırılması ilə heç bir şey həll etmək mümkün deyil!..

Viktorun bu sözlərindən həmişə olduğu kimi indi də narazı qalan Demeşko qəti etiraz etdi.

– Qoy mən onun işini bitirim, onda görərsiniz ki, bir nəfərin getməsi nə deməkdir. Anadan doğularkən qəddar doğulmuş Dobrovolski kimi ikinci amansız bir adam təsəvvür edə bilmirəm. O, şəxsi şöhrət xatirinə bütün batalyonu qırğına verməyə hazırdır... Siz isə gözləyirsiniz ki, hamınızın boğazına diri-diri kəndir keçirsin.

Demeşkonun belə danışıqlarına birdəfəlik son qoymaq üçün Viktor əlini stola çırparaq, ciddi bir tərzdə Demeşkoya xəbərdarlıq etdi:

– Sən bu söhbətlərini qurtar! Elə et ki, bir daha eşitməyək. Terror bizim hərəkət proqramımıza ziddir. Heç zaman buna razılıq verə bilməyəcək.

Ətrafdakılar Viktorun əsəbiləşdiyini hiss etdilər. O əsəbiləşəndə alt dodağı əsirdi. Demeşko onu ancaq bu dərəcəyədək qaldırandan sonra susardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XXI fəsil

Roza Qriqorini iki gün gözlədi. Üçüncü gün səhər tezdən meyxananı silib-süpürdükdən sonra poçta getmək bəhanəsi ilə şəhərə çıxdı. Qriqorinin nişan verdiyi dərzi dükanını axtarıb tapdı. İçəridə dərzinin yanında adam olduğu üçün bayırda ləngidi. Küçədə vurnuxdu. Müştərilər dükandan çıxdıqdan sonra tez dükana keçdi. Əlindəki şalvarı ütüləyən dərzi Usub onu görən kimi dayanıb təəccüblə baxdı. O, bu qadını harada gördüyünü xatırladı. Sonradan yadına düşdü ki, Aqvanın meyxanasında işləyir.

– Xanım, sizə nə lazımdır?

Roza onun həqiqətdə də Qriqorinin dediyi dərzi olub-olmamasını yoxlamaq üçün soruşdu:

– Dərzi Usub sizsiniz?

– Bəli mənəm. Nə qulluğunuz var?

Roza vərəqələri qoltuğundan çıxarmadan dərzinin soldatları tanıyıb-tanımadığını da öyrənmək istədi.

– Siz soldat Qriqorini tanıyırsınızmı?

Usub qadının belə açıq sual verməsindən şübhəyə düşdü. Onun söz almaq üçün göndərildiyini güman etdi.

– Xanım, hansı soldatı deyirsiniz. Qriqori kimdir?

Roza bir anlığa çaş-baş olub qaldı. Buna görə də qoltuğunda gətirdiklərini ona göstərmədiyinə sevindi. Bəlkə səhv salmışdır? Ancaq necə səhv ola bilər? Kişinin adı Qriqorinin dediyi kimidir. Roza dərzini bir də yoxlamaq istədi.

– Məni soldatlardan biri sizin yanınıza göndərmişdir. Sizə deyiləsi sözüm var.

O yenə vərəqələr haqqında deməyə çəkindi. Dərzi Usub bu dəfə narahatlıqla eynəyini gözündən çıxartdı və qarşısındakı gənc gözəl qadını diqqətlə süzdü.

– Yoxsa başlarında bir bəla var?

– Heç bir şey yoxdur, narahat olmayın. Mənə tapşırdı ki, sizin yanınıza gəlim.

– Nə tapşırıqdır? Axı mən dünən eşitdim ki, onları şəhərə buraxmırlar.

Roza Qriqorinin ayrılarkən, narahatlığından və bəlkə də gələ bilməməsi haqqındakı xəbərdarlığından belə bir şey ola biləcəyini təsəvvürünə gətirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ola da bilər. Ancaq mən onu üç gün qabaq görmüşəm. Tapşırdı ki, iki günədək gəlməsə sizin yanınıza gəlim.

– Tapşırığı nədir? – deyə Usub artıq təşvişə düşdü.

Roza onun narahat baxışlarından anladı ki, soldatlarla onun yaxın əlaqəsi vardır. Buna görə də nə üçün gəldiyini gizlətməyə daha ehtiyac qalmadı. O, koftasının qoltuğunda gizlətdiyi vərəqələri çıxarıb dərziyə uzatdı.

– Tapşırdı ki, bunları sizə verim.

Vərəqələri görən kimi Usubun gözləri alacalandı. Onları aldı, piştaxtanın altına dürtdü və narahat baxışlarla küçəyə nəzər saldı.

– Bunları necə olub, sizə verib?

– Görünür, haraya isə aparırmış. Küçədə onu təqib etdikləri üçün mənim yanıma gəlib.

– Yaxşı. Deyin görüm buraya gələndə sizi görən olubmu?

– Xeyr. Heç kəs görmədi. Gözlədim ki, yanınızdakı adamlar getsin, sonra gəlim.

– Daha başqa söz tapşırmadı ki?

– Xeyr.

– Elə isə siz burada çoxləngiməyin, çünki mənim dükanıma qadınlar gəlmir. Sizi burada görsələr şübhələnərlər.

Roza dükandan çıxdı. O gedən kimi Usub piştaxtanın altına dürtdüyü vərəqələri açıb baxdı və yenə bürmələdi. Onları Etibarlı bir yerdə gizlətmək qeydinə qaldı. Çox fikirləşdi, axırda onları dükandan bayıra çıxan köhnə su yoluna qoyub üstünü kəsəklə örtdü. O yalnız burada bir şey gizlətdiyi zaman ürəyi sakit olurdu. Onun fikrincə fələk də gəlsəydi, onu tapa bilməzdi.

Günorta yeməyinə evə getdiyi zaman yolunu Bəhramın dəmirçi dükanının qabağından saldı. Rozanın gətirdiyi vərəqələr haqqında ona danışarkən, Bəhram əvvəlcə təəccübləndi, ancaq son həftə içərisində Qalada baş vermiş hadisələri düşündükdə, soldatların bu hərəkətini təsvib etdi:

– Usub kişi, – dedi, – meyxanada işləyən qız etibarlı olmasa bu işi ona tapşırmazlar. Görünür ki, onu bərkdən-boşdan, necə deyərlər, sınaqdan çıxarıblar.

– Bəs mən onları nə eləyim? Bilirsən ki, dükanda çox saxlaya bilmərəm...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Elədir. Dükanda saxlamağı məsləhət bilirəm. Sabah Əzizi naxırdan qayıdan kimi sənin yanına göndərərəm. Hamısını ona verərsən.

Onlar aralarında belə qərara gəldikdən sonra Usub ayrılıb getdi.

Ertəsi gün axşam yan-yörəsindəki bütün dükançılar alverlərini qurtarıb, dükanları bağladığı halda, Usub hələ də oturub gözləyirdi. Əziz tərs kimi bu gün naxırdan gec qayıtmışdı. Usub piştaxtasının üstündə bardaş quraraq, sabaha qoyduğu bütün işlərini görüb qurtardı. Əziz yenə gəlib çıxmadı. O yalnız axşamdan xeyli keçəndən sonra gəldi. Usub ayağa qalxıb dükanın qapısını içəri tərəfdən bağladı və köhnə su yolunda gizlətdiyi vərəqələri ehtiyatla çıxartdı. Əziz onları köynəyinin altına dürtdü. Bir azdan dükanın qapısı yenə açıldı. Usub Əzizi yola saldı.

Tayts da Əzizi elə bu zaman görmüş və onun dalınca düşmüşdü. Rəsinin papağını Veysəl kişiyə verib, meşəyə qayıdan Məhəmməd isə onu Taytsın əlindən qurtarmışdı.

* * *

Naxırçı oğlan Balakən yolundan şəhərin yuxarı hissəsinə, birnəfəsə qaça-qaça gəldi. Vərəqələri Bəhramın tapşırdığı kimi Lalənzara verdikdən sonra rahat nəfəs aldı və evlərinə qayıtdı. Nənəsi evdə ondan bərk nigarandı. Qarı çırağı söndürüb yatağına girənədək deyindi. Əziz onun bu xasiyyətinə yaxşı bələd olduğu üçün cavab vermirdi. Əslinə baxsan, cavab verməyə həvəsi də yox idi. Onun xəyalını başqa şeylər məşğul etmişdi. Lalənzar xanımın evinə gedərkən yolda başına gəlmiş əhvalatı indimi gedib Bəhrama xəbər versin, ya da səhər desə də olar? Nənə onun yatdığını güman etdiyi üçün səsini kəsmişdi. Taytsın onu tanıyıb-tanımaması Əzizi daha çox narahat edirdi. Belə qarışıq fikirlər içərisində nə vaxt yuxuya getdiyini bilmədi.

Səhər nənəsinin səsinə oyandı. Gün pəncərədən içəri boylanırdı. Başa düşdü ki, yuxuya qalmışdır. Çay-çörək yeməmişdən qabaq evlərinin yuxarı başından asılmış köhnə, parıltısı getmiş qoşa aynanın qabağına gəldi. Allah bilir, nə zamandan qalma, yəqin ki, nənəsinin gəlinlik illərinin hər yeri ləkə-ləkə idi. Boynunun ardına tökülmüş tüklərini görmək üçün aynada o çox çətinliklə salamat



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir yer tapdı. Qayçını əlinə alaraq, qarasına boynunun tüklərini tamam qayçıladı. Bir azdan elə şəklə düşdü ki, heç öz-özünü tanımadı. Boynu, gicgahları ala-bula qırxılmış keçi dərisinə oxşayırdı. Nənəsi onun aynanın qabağında özünə belə səliqə verdiyini görüb təəccübləndi.

– Bala, heç bəzək-düzək vaxtıdır? Gün bir boy qalxıb, sən hələ də evdən çıxmamışsan. Camaatın ağzını açmaq istəyirsən? Saçını qırxmağa vaxt qəhətdir bəyəm?

Əziz papağını başına qoymazdan qabaq yenə də aynanın qabağında özünə nəzər saldı. Birtəhər üzünü və başını görə bildi. Tamam dəyişmişdi. O, süfrə düzəltməklə məşğul olan nənəsinə müraciətlə dedi:

– Nənə, təzə paltarım hardadır?

Nənəsi ona tərs-tərs nəzər saldı.

– Naxıra təzə paltar geyib gedəcəksən? Adaxlıbazlığa gedənlər də heç sənin kimi qələt eləməyiblər...

– Eybi yoxdur, ver. Hara qoymusan, yerini de, mən özüm götürüm.

Nənə hirslə köhnə sandığa tərəf işarə elədi.

– Oradadır. İstəyirsən lap götür yırt. Daha sonra məndən təzə paltar istəmə!

Əziz sandığın qapağını qaldırıb, nənənin səliqə ilə büküb qoyduğu və xüsusi iy tutmuş təzə paltarını çıxartdı. Əyninə geydi. Nənəsi hələ də deyinirdi:

– Heç bəy oğlu da belə qələt eləməz... Kasıb elə işini bilmədiyi üçün kasıb olur da...

Əziz nənəsinin qınamırdı. O haradan biləydi ki, nəvəsi bu gün naxıra gedərkən nə üçün təzə paltar geyməyə məcbur olmuşdur? Onun yerinə başqası da olsaydı, belə düşünərdi. "Eh, eybi yoxdur, bir vaxt gələr, hər şeyi açıb ona deyərəm. Qarı o zaman başa düşər ki, bəzən naxıra gedəndə də təzə paltar geymək lazım gəlir".

Əziz geyinib qurtardı, çantasına bir tikə çörək və bir baş soğan qoyub tələsik evdən çıxdı.

Adamlar mal-qaralarını çoxdan döngələrə, küçələrə çıxarmışdılar. İnəklər qapıların ağzında durub gövşək vururdu. Əziz tez onları qabağına qataraq yolunu Bəhramgilin qapısından saldı. Bir dəqiqəliyə Bəhramın yanına keçdi. Bəhram onu görəndə az qaldı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tanımasın, naxıra təzə paltarda getməsinə və saçlarını qırxmasına təəccüb qaldı. Əziz əhvalatı danışandan sonra isə hər şey ona məlum oldu. Bununla belə, ona tapşırdı ki, bir neçə gün Taytsın gözünə görünməsin.

Əzizi xilas etmiş atlının kim olduğu Bəhramı düşündürdü. Əgər Əziz onu tanımırsa, deməк, o buralı deyildir.

Birdən dünən şəhərdə yayılmış xəbəri xatırladı. Qaçaq Məhəmməd şəhərdə olmuşdur. Onu lap gözü ilə görənlər də vardı. Deyilənə görə, şəhərin küçələrindən elə sürətlə çapıb getmişdir ki, itlər də hürüşüb dalınca düşüblər. Bəhram nə qədər fikirləşdisə də, onun şəhərə nə məqsədlə gəlməsini özünə heç cür aydınlaşdıra bilmirdi. Əzizdən onu xilas etmiş adamın nişanələrini xəbər aldı. Özü idi ki, vardı. Məhəmməd imiş.

Küçədə inəklərin böyürtüsü bir-birinə qarışmışdı. Hənirtilər də eşidilirdi. Əziz həyətdən bayıra çıxdığı zaman yolla keçən adamlar yer-yerdən onun üstünə düşdülər:

– Niyə naxırı burada saxlamısan? Bilmirsən ki, yolla keçənlər var, səhərdən məəttəl olub qalmışıq.

Oğlan dinməz mal-qaranı sürüb apardı. Həmişə onun üstünə çığıran adamlarla yekbəyek gələn Əziz bu gün itaətkarlıqla başını aşağı dikib naxırın dalınca getdi, çünki bir şeydən çəkinirdi ki, əgər onlarla ağızbaağız versə, o saat üzünə çırpacaqlar ki, özünü tülkülüyə qoymasın. Buna görə də oğlanın dişi içəridən bağırsaqlarını kəssə də dinmir, dözürdü.

## XXII fəsil

Viktor beş gündən sonra karserdən buraxılmış Qriqoridən vərəqələrin taleyini eşidib, qaşqabağını çatdı. Qriqori onun nədən narahat olduğunu, əlbəttə, başa düşmüşdü.

– Viktor, sən yenə də nahaq onun haqqında pis düşünürsən, – dedi. – Mən onun sədaqətinə inanıram. Nə olsun ki, meyxanada işləyir. Yaxından bələd olsan görərsən ki, nə qədər faciəli həyatı var. O, qolu bağlı bir qul vəziyyətindədir. Tamam hüquqsuz bir qul! Ürəkdən ona acıyıram. Qadınlar arasında beləsinə çox nadir hallarda rast gələrsən, Allah haqqı düz sözümdür. Mən arxayınam ki, o, vərəqələri çoxdan aparıb dərziyə çatdırmışdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təlimdən sonra şəhərə buraxılmaq qadağan olunduğu üçün onlar bütün günü qışlalarda oturub, vəziyyətdən çıxış yolu düşünürdülər. Əlbəttə, Viktor başda olmaqla inqilabçı soldatlar üçün bu çox ağır günlər idi. Yerli inqilabçılarla neçə gün idi ki, əlaqələri tamam kəsilmişdi. Orada nə baş verdiyindən xəbərsiz idilər. Halbuki bu günlərdə onlar Bakıdan yeni xəbərlər gözləyirdilər. Bakı Komitəsinin nümayəndəsi Uluxanın vədindən görəsən bir şey çıxdımı? Viktoru hər şeydən çox bu maraqlandırırdı. Əgər Bakı və Tiflis komitələri onlara silah göndərməyə başlasalar silahlı üsyan məsələsi tezliklə həll edilə biləcəkdir. Bəlkə də onlardan artıq müsbət cavab alınmışdır? Nə vasitə ilə bunu öyrənsinlər?

Uluxanın gəlib-getməsindən sonra pristav və onun adamları elə bil birdən-birə ayılmışdılar. Dobrovolskinin gördüyü yeni tədbirlər də bununla əlaqədar idi. Gələcəkdə vəziyyət daha da ağırlaşa bilərdi. İndidən bəzi məsələlər yoluna salınmasa, batalyonda üsyan məsələsi pozulmaq təhlükəsi altında idi.

Günlər bir-birindən ağır keçirdi. Soldatlar təlim meydanı ilə qışladan başqa heç yerə buraxılmırdı. Təlimlər şəhərdən çox kənarda, Tala çayının sağ tərəfində keçirilirdi. Vzvodların üzərində kiçik zabitlərin nəzarəti onqat artırılmışdı.

Bir gün Viktorgilin rotası şəhərdən çıxıb, tozlu yolla təlimə gedərkən onlar yolun ortasında dayanmış naxıra rast gəldilər. Naxırçı Əziz də yolun kənarındakı iri bir daşın üstündə çömbəlib oturmuşdu. O, başını çomağına dayayaraq, elə bil mürgü döyürdü. Əslində isə onun başı çomağa dayandığı halda gözləri ona tərəf gələn rotada idi.

Əzizin gözləri soldatların arasında Viktoru axtarırdı. Lakin soldatların hamısı bir-birinə oxşayırdı. Hamısının başı qırxıq, hamısı gündən qarsalanmış...

Rota yaxınlaşırdı. Əziz yenə də başını qaldırmadan özünü mürgüləyirmiş kimi göstərdi. Qıyılmış gözü isə hey axtarırdı. O, Viktoru iki dəfə görmüşdü. Buna görə də arxayın idi ki, görən kimi tanıyacaqdı. Soldatlar artıq onun iyirmi addımlığına çatmışdılar. Birdən Viktoru gördü. Xoşbəxtlikdən o arxa sıralarda idi. Arxayın olandan sonra Əziz gözlərini doğrudan da yumdu. Elə o dəqiqə on addımlığında səs-küy qopdu. Kiçik zabitlərdən biri bərkdən çığırırdı. Əziz gözlərini açıb sərasimə ayağa qalxdı. Soldatlara tərəf



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baxdı. Kiçik zabit əli ilə onu hədələyərək başa saldı ki, naxırı yolun ortasından çıxarsın.

Əziz çomağını qolayladı və yatmış inəkləri yoldan kənara çıxarmağa başladı. Yolun ortası azca boşalan kimi soldatlar addımlayıb keçdilər. Əziz lap irəlidə dayanmışdı. Belə ki, ötüb keçən soldatların köynəkləri üz-gözünə sürtülürdü. Nəhayət, Viktor onun iki-üç addımlığında göründü. Əziz əlini çantasına atıb hazır tutdu. Viktor sırada ikinci yerdə idi. O yaxınlaşan kimi Əziz çantadan çıxardığı çörək tikəsini ona uzatdı.

– Tut, soldat, çörəkdir... yaxşı çörək!

Viktor almadı. Əziz bir neçə addım onunla yanaşı getdi. Əlini Viktora uzadıb deyirdi:

– Al, yaxşı çörəkdir. Dadlıdır.

Onunla yanaşı addımlayan soldat üzünü Viktora tərəf çevirdi:

– Al, onlar bundan xoşlanırlar.

Birdən oğlanın sifəti Viktora tanış gəldi və çörəyi məhz ona vermək istəməsindən şübhələndi. Tez əlini uzadıb aldı. Yanındakı soldatlar gülümsədilər. Viktor zarafata saldı:

– Bəlkə, doğrudan da, ləzzətli çörəkdir! Dadına baxarıq. O, çörəyi burnuna tutub iylədi və cibinə qoydu. naxırçı oğlanın hərəkətinin mənasını düşünürdü. “Yəqin ki, çörəyin içində bir şey var. Yoxsa oğlan təkidlə ona uzatmazdı”.

Oğlanın üzünü, onu harada gördüyünü xatırlamağa çalışdı. Yadına düşdü ki, yerlilərin evlərində gizli yığıncaq keçirdikləri zaman bu oğlanı iki dəfə qapıda keşik çəkən görmüşdür.

Viktorun Əzizi gec tanımasına səbəb, əlbəttə, Əzizin saçlarının qırxılması idi.

Soldatlar tamam uzaqlaşandan sonra Əziz naxırı yoldan uzaqlaşdırıb, bağlara tərəf apardı.

Viktor təlim yerinə çatdıqda çörəyin arasına baxmaq üçün imkan axtardı. Lakin kiçik zabitlərin əlindən göz açmaq mümkün deyildi. Buna görə çörəyi cibində bir əli ilə xırda-xırda doğramağa başladı. Barmaqları kağıza toxunan kimi sanki bütün bədəninə od yayıldı. Kağızda nə yazılmasından hələ xəbəri olmasa da, oğlanı düz başa düşüb, çörəyi ondan almasına sevindi. Ürəyi tələsirdi. Kağızda yəqin ki, şad xəbər yazılmışdır, çünki bəd xəbərin səsi çoxdan çıxmış olardı. Arada beş dəqiqə dincə buraxıldıqları zaman



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Viktor imkan tapıb kağızı çıxartdı. Maxorka bükürmüş kimi onu əlində eşə-eşə oxudu. Ürəyinə damdığı kimi idi. Əvvəla, vərəqələrin çatdırıldığı yazılırdı. İkinci xəbər isə bundan daha fərəhli idi! Bakıdan bu günlərdə onlar üçün silah yola salınmışdı.

Kağızdakıları oxuyub qurtardıqdan sonra

Maxorka büküb yandırdı. Tüstünü həvəslə burnundan havaya buraxdı.

Qışlaya qayıdanda Viktorun simasında əmələ gəlmiş dəyişiyi birinci dəfə Deməşko sezdi. Son həftə ərzində qaşqabağı açılmayan Viktora birdən-birə nə olmuşdur? Bugünkü təlimmi ona ləzzət vermişdir? Əlbəttə, Deməşko onunla bir sırada getsəydi, bunun səbəbini dərhal öyrənərdi. Təəssüf ki, ondan yeddi sıra aralı idi. Uzaqdan-uzağa Viktora göz qoyur, onun yanındakı soldatlarla gülə-gülə danışdığını görürdü. Hamının taqətdən düşdüyü və ağır təlimdən sonra ayaqlarını arxasınca güclə sürüdükləri bir vaxtda bu gülüş, bu zarafat nədir? Qriqori və Viktorun bir neçə saatın içərisində tamam dəyişdiyini görürdü. Ancaq heç ağlına gəlməzdi ki, naxırın yanından ötərkən, o xoş bir xəbər eşitmişdir.

Viktor bu fərəhli xəbərin sevinci ilə yaşayarkən Yevlaxdan Zaqatalaya bir furqon gəlirdi. Furqon qarpızla dolu idi. Furqonçu malakansayağı saqqal qoymuş orta yaşlarında bir rus idi. İri qara çubuğu bütün yol uzunu dodaqlarından düşməmişdi. Tez-tez sümürürdü. Azca qıyılan gözləri qüssəli idi. Ancaq hərəkətlərində cəld olduğu üçün heç kəs onu dərdli hesab etməzdi. Arabir zümzümə də vururdu. Furqona tökülmüş küləşin arasından iri qarpızların ala-bula böyürləri Aşkarda qalmışdı.

O, sabahkı həftəbazarına gəldiyi üçün o qədər də tələsmirdi: şəhərə gecə çatmaq onun üçün daha əlverişli idi. Günortanın istisində qızmış qarpızlar gecənin şehində səhərədək sərinləyirdi.

Atların belləri istidə məxmər kimi işıldayırdı. Furqonçu Yevlaxdan çıxandan bəri onların dolu sağrılarına bir qamçı da ilişdirməmişdi. Buna görə elə bil bu uzun yolu gələn onlar deyildi. Nə qarınlarının altı tərləmiş, nə ağızları köpüklənmişdi. Uzaqdan baxan olsaydı, furqonçunun səyahətə çıxdığını güman edərdi. Nuxaya qədər olan yolda o, azı on dəfə dincini almış və atları yemləmişdi. Nuxadan Zaqatalayadək olan yolda isə sürətini elə azaltmışdı ki, daha atları saxlayıb dincəlməyə ehtiyac da qalmırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hava qaralmağa başlayanda o, Zaqatalanın on verstliyində idi. Furqonçu yolu düz ölçüb-biçdiyi üçün şəhərə axşamdan xeyli keçmiş çatacaqdı. Arzuladığı da elə bu idi.

O, qoz ağaclarının altından çıxıb furqonu sağ əldəki böyürtkən və moruq kollarının dibi ilə sürüdüyü zaman irəlidə bir atlı göründü. Furqonçu onu dərhal tanıdı. Atlı isə ona əhəmiyyət verməyib, yanından ötüb keçdi. Furqonçu onu səslədi:

– Bir əylən, a kişi, yaxşı sərin qarpızım var.

Atlı qulaqardına vurdu, furqonçu atların başını çəkib saxladı və geri qanrılıb, atlının dalınca çığırdı:

– Ay kişi, səninləyəm axı, gəl qarpız ye, sərinlən. İstəsən heç pul da vermə...

Atlıdan yenə cavab çıxmadı. Bu dəfə furqonçu onu öz adı ilə çağırmağa məcbur oldu.

– Məhəmməd!

Atlı kəskin bir hərəkətlə atın başını çəkdi. At qabaq ayaqları üstə qalxdı. Atı döndərib furqonçuya tərəf sürdü. Sarı saqqalı furqonçu ona baxıb gülümsəyirdi. Məhəmməd onu tanıyan bu rusun kim olduğuna təəccübləndi:

– Tanımadın? – deyə furqonçu Məhəmmədin fikrə getdiyini görüb, gülə-gülə soruşdu.

Məhəmməd gözlərini döyəcləyib baxırdı. Bu adamı harada gördüyü heç yadına gəlmirdi. Furqonçu isə dişlərini ağardıb gülümsəyirdi. Birdən Məhəmməd atdan yerə atıldı və qollarını açaraq, furqonçunun üstünə yüyürdü.

– Drujin! – dedi və qollarını onun boynuna sarıyıb saqqalı sifətindən öpdü. – Heç tanımadım. Sən nə qədər dəyişmisən! Mən də deyirəm ki, bu saqqalı rus məni haradan tanıyır!

– Sən də dəyişmisən! Gözlərin mənə qüssəli görünür. Bir şey olmayıb ki?

– Heç bir şey olmayıb?

Məhəmməd geri çəkilib dostunu başdan-ayağa süzdü.

– Bu nədir? Deyəsən əkinçiliklə məşğulsan? Belə görünür ki, həmişəlik bizim yerlərdə qalmalı olmuşsan? Qarpızdan sənə bir şey çıxır yəni?

– Pis deyil. Hələlik ki, yaşaya bilirik.

Drujin yan-yörəsinə baxındı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Burada durmaq yaxşı deyil, gəl kolların dalına keçək. Bir az söhbət eləyək, sonra gedərsən.

Drujin furqonu, Məhəmməd isə atını böyürtkən kollarının dalına çəkdilər. Hər ikisi yumşaq otun üstündə dirsəkləndi. Məhəmməd şəhərdə olan yeni əhvalatlardan dostuna danışdı. Drujin də ondan ayrıldıqdan sonra haralarda olduğundan və nə iş gördüyündən söhbət etdi. Axırda Zaqatalaya nə məqsədlə getdiyini də açıb söylədi. Ayağa qalxıb Məhəmmədə qarpız kəsdi.

Ayrılarkən Drujin qarpızlardan bir neçəsini aralayıb altda uzadılmış tüfəngləri dostuna göstərdi.

– Hə, necədir, xoşuna gəlirmi? Mənim bostanımda belə şeylər də yetişir.

– Bunları satırsan? – deyə Məhəmməd təəccübləndi. Drujin başını buladı.

– Yox, yoldaşlarım üçün aparıram! Yadına gəlirmi, mən sənə o zaman dedim ki, gərək yoldaşlarıma kömək edim. Mənim köməyim bundan ibarətdir. Onlar ancaq bunun vasitəsi ilə azad ola bilərlər.

– Bəs bunları onlara nə cür çatdıracaqsan?

– Hələlik başqa yerlərdə gizlədərik, lazım gələndə isə oradan götürərlər.

Məhəmməd onun öz yoldaşlarına olan belə sədaqətinə məəttəl qaldı. Bu qədər uzun yolu çəkinmədən silah daşımaq adamdan şir ürəyi istəyirdi. Qarşısında durmuş bu arıq, solğun bənizli adamda görünür ki, məhz bu ürək vardı.

Onlar yüzillik dost kimi öpüşüb ayrıldılar. Məhəmməd Qaxa, Drujin isə Zaqatalaya tərəf yola düşdü.

Drujin yol uzunu sevinirdi ki, Məhəmməd onu tanıya bilməmişdir. Demək, Zaqatalada da onu tanıya bilməzlər. Heç olmasa dostlarından bir neçəsini görəydi, onlarla dərdləşəydi!.

Şəhərə çatdıqda dükan-bazar çoxdan bağlanmışdı. Bəhramla olan gizli məktublaşmada şərtləşdikləri kimi o, atları nallatmaq məqsədi ilə furqonu dəmirçixananın dal tərəfinə çəkib saxlamalı idi. Belə də etdi. Dəmirçixananın qapısında iki nəfər oturmuşdu. Drujin onlara müraciətlə soruşdu:

– Görəsən mən atları nallatdıra bilərəm?

Oturanlardan biri:

– Niyə olmur, – dedi. – Ancaq gərək səhərəcən gözləyəsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Olar ki, furqonu elə burada saxlayım?

– Olar. Dəmirçixananın dal tərəfinə çək.

Drujin furqonunu dəmirçixananın dal tərəfindəki iri söyüd ağacının altına çəkdi. O, yerini rahatlamışdı ki, bir az əvvəl dükanın qabağında oturanlar dəmirçixananın arxa tərəfinə keçdilər. Köməkləşib üstə olan qarpızları yerə düzdülər və sonra onların altına yığılmış silahları çıxarıb bağların arası ilə daşıdılar...

Ay buludun dalından çıxanadək onlar öz işlərini görüb qurtarmışdılar. Drujin qarpızları yenə furqona yığıb, elə orada, dəmirçixananın dalında söyüd ağacının altında gecələdi.

Sübhün gözü açılan kimi oyanıb, furqonu bazara tərəf sürdü. Camaat yenicə toplaşırdı. Drujin furqonu gözdən-qulaqdan uzaq bir yerdə saxladı. Güman edirdi ki, axşamadək qarpızı ancaq satıb qurtarar və bu müddətdə şəhərə çıxmış dostlarından birisinə rast gələr.

Drujin axşamadək şəhərdə nə bəhanə ilə dolaşacağını düşünürdü. Onu qəribə bir hiss bürümüşdü. Yoldaşlarının ondan cəmi bir verst aralı olmalarına baxmayaraq, onların üzünə həsrət qalmışdı. Qalanın ətrafına da yaxın düşə bilməzdi.

O, yoldaşlarını tənəffüs etdiyi hava ilə tənəffüs edir, onların ayaqlarının izi olan yerdə gəzir, eyni sudan içir, ancaq üzlərini görə bilmirdi. Heç olmasa birini görəydi! Onların iyini ondan alaydı. Ürəyi ilə düşüncəsi arasında tez-tez çarpışma gedirdi: biri deyirdi get, qışlaların yanında dolaş, bəlkə dostlarından birinə rast gəldin. O biri xatırladır, belə bir iş tutarsa hər şeyin bir an içində alt-üst olacağını söyləyir, onu belə bir addım atmaqdan çəkindirirdi.

Qarpızları satıb qurtarandan bir xeyli sonra Bəhram bazarda ona yaxınlaşdı.

– Qarpızın var?

– Xeyr. Bir az tez gəlsəydiniz olardı. Bəhram səsini yavaşıtdı:

– Onları sağ-salamat gətirdiyiniz üçün çox sağ olun. Mənim adım Bəhramdır.

Drujin heç olmasa bu sözdən rahat nəfəs aldı.

– Bizim uşaqlardan, görəsən, heç olmasa birini görə biləcəyəmmi?

Bəhram təəssüflə başını yırğaladı.

– Mümkün deyil. Səkkiz gündü ki, soldatlardan heç birinə bayıra çıxmağa icazə verilmir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən onları çox görmək istərdim.

– Ehtiyatlı olun. Belə bir arzu böyük xata gətirə bilər. Nə vaxt qayıdırsınız?

– Elə bu axşam.

– Elə yaxşıdır. Çox yubanmayın. Bu saat şəhərdə hər yerə baş soxurlar. Yoldaşlarınıza sözünüz varsa, mənə deyin.

– Nə sözüm ola bilər? Mən onları ancaq görmək istəyirdim.

– Başa düşürəm. Təəssüf ki, bu mümkün deyil. Bakılı yoldaşlara məndən salam deyərsiniz. Qardaşımı, yəqin onu tanıyırsınız, görsəniz, deyin ki, anasından nigaran qalmasın, indi yaxşılaşıb. O gəlib-gedəndən sonra çox yerlərdə axtarış aparıldı.

– Deyərəm.

– Başqa sözünüz olsa, dəmirçixanada olacağam, deyərsiniz. Bağışlayın, sizin yanınızda çox dura bilmərəm, hələlik.

*Onlar bir-birinin əlini sıxmadan ayrıldılar.*

## XXIII fəsil

Siranuş qonşudan süd alıb, evə döndüyü zaman əri Nikolay hələ də qalxmamışdı. O, ərinin çarpayısına yaxınlaşıb, onu oyatmaq istədi. Nikolay gözlərini açdı.

– Bəs niyə qalxmırsan, işə getməyəcəksən?

Nikolay əlini atıb başının üstündən, divardan asdığı cib saatını götürdü və hələ səkkizin yarısı olduğunu görüb, o biri böyrü üstə çevrildi.

– Bıy, bəs niyə durmursan?

– Mən səhər poçta getməyəcəyəm.

– Nə üçün? Yoxsa bir yerin nasazdır?

– Arvad, heç yerim nasaz deyil. Dövlətindən hələ canım sağdır. Tezdən pristav yanına çağırtdırıb. Birbaş oraya gedəcəyəm.

Siranuş təşvişə düşdü.

– *Pristav belə ertədən səni nə eləyir? Xeyir olsun.*

– Mən nə bilim, ay arvad, xeyirdir ya yox. Çağırtdırıb, getməliyəm.

Bunu deyib, üzünü divara çevirdi və bir az da mürgü vurmaq istədi, çünki pristavın yanına düz bir saatdan sonra gedəcəkdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Siranuş südü ocağın üstünə qoydu, samovara od saldı. Bunları edəndən sonra həyətə enib, səkinin altını süpürdü, qoca tut ağacının neçə gündən bəri əl dəyməmiş budağını silkələdi. İri ağ tutlar ağ örtüyün üstünə səpələndi. Bu ağacın axırıncı tutu idi. Qonşu həyətlərdə tut çoxdan qurtarmışdı. Siranuş isə ərinin səhərlər süfrədə tutu xoşladığını bildiyi üçün ondan ötrü həmişə tut ehtiyatı görərdi.

Yarım saatdan sonra süfrə hazır idi. Kənardan baxan olsaydı, ev sahibəsinin səliqəsinə heyran qalardı. Stolun üstündəki səliqə: dönə-dönə seçilib boşqaba qoyulmuş şirəli tut, təzə kəsilmiş şan bal xəstəni də iştaha gətirərdi. Stol balkonda qoyulmuşdu. Tut ağacının bir budağı balkona tərəf əyildiyi üçün bura günortaya qədər çox sərin olurdu. Siranuş samovarı gətirib, stolun üstünə qoyduqdan sonra Nikolayı səslədi.

Nikolay çoxdan oyanıb yatağından qalxmışdı. O yuyunmaq üçün balkona çıxdı. Süfrənin üstündə tutu görüb təəccübləndi:

– Bu tut haradandır?

– Haradan olacaq, öz ağacımızdan, – deyə Siranuş gülümsədi.

Nikolay çiyinlərini çəkdi.

– Mən elə bilirdim ki, tut çoxdan qurtarıb... Bilsəydim... Nikolayın gözləri qeydkeşliklə qıyıldı. Tutdan bir dənəsini götürüb ağzına qoydu.

– Qiyamətdir. Siranuş, bəlkə çağıraq? – deyə birdən arvadına tərəf döndü.

– Kimi deyirsən?

– Lalənzar xanımı. O gün poçtda ərindən söhbət düşdü. Danışdı ki, əri həmişə bizim tutu xoşlarmış, həmişə arvadına deyərmiş ki, Nikolaygilin tutunun ayrıca şirinliyi var. Deyirəm ki, axırıncı tutdur. Qoy ərinin əvəzinə gəlib bizimlə yesin.

Siranuş ərinin fikri ilə razılaşdı. Hasara tərəf gedib o biri taydan Lalənzar xanımı səslədi. Çox xahişdən sonra o gəlməyə razılıq verdi. Siranuş süfrəyə bir stəkan da əlavə tut qoydu. Bir azdan Lalənzar ara qapıdan keçib onların həyətinə girdikdə yuyunub qurtarmış Nikolay özü ayağa qalxıb onu süfrəyə dəvət etdi.

– Lalənzar xanım, srağagün poçtdakı söhbəti xatırladım, Siranuşa dedim ki, sizi tut yeməyə çağırsın.

Lalənzar gülümsəyib minnətdarlığını bildirdi. O, süfrəyə oturdu. Nikolay tutdan ayrı bir qaba töküb Lalənzar üçün qoydu. Lalənzar gülümsəyib, üzünü Nikolaya tərəf tutdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nikolay Qrantoviç, siz yəqin Orduxanın sözlərini xatırlamısınız, eləmi?

– Bəli, bəli.

– Sizin tutun tərifi dilindən heç düşmürdü. Hətta yadımdadır, deyirdi ki, gərək Nikolay Qrantoviçə deyim, ağacın bir budağını bizim eyvana tərəf aşırsın.

Nikolay köksünü ötürdü.

– Çox mərd adamdı. İndi belələrinə az rast gəlmək olar. Xəstələrə çox zaman öz pulu ilə dərman alırdı. Bir dəfə bərk çovğun ilində ona Muxaq yolunda rast gəldim, dedi ki, bir xəstə var, onun yanına gedirəm. Başqası onun yerində olsaydı, elə havada heç yerindən tərpənməzdi... O isə gedirdi, kasıb olsun, varlı olsun, onun üçün fərqi yoxdu. O yaşca məndən çox kiçik olardı, ancaq mən ona həmişə böyük qardaşım kimi baxırdım. Heyf ondan... Bizim dövrdə yaxşı adamlar elə bil göz çıxardır. Pisləri isə o qədər var ki...

Söhbət zamanı Lalənzar xanım Nikolayın bu vaxtadək evdə ləngiməsinə təəccüb qaldı.

– Nikolay Qrantoviç, sizdən nə əcəb bu vaxtadək evdəsiniz, xəstə deyilsiniz ki? Axı siz həmişə saat yeddidə poçtda olursunuz.

– Elədir, bu gün ləngimişəm. Xəstəliyim yoxdur. Məsələ orasındadır ki, bu gün səhər tezdən məni pristav çağırtdırıb, onun yanına getməliyəm. Onlar da işə gec başlayırlar... Mən qorxuram ki, bizim Ayrapet əlindən bir xəta çıxarmış ola. Düzünü deyim ki, mən Tiflisdən gəlməsinə əvvəldən razı deyildim. Başını aşağı dikib, bir parça çörək pulunu qazansa camaatın da canı rahat olar.

O, cib saatına baxıb süfrədən ayağa qalxdı və Lalənzardan üzr istəyib pencəyini geyindi.

– Lalənzar xanım, siz oturun, narahat olmayın.

O getdi, Siranuşla Lalənzar hələ bir xeyli oturub söhbət etdilər. Siranuş aradabir bağçaya enib təzə açmış qızılgüllərdən bir dəstə dərdi. Onları səliqə ilə bağlayıb, Lalənzara verdi. Sonra bağçada əkdiyi lobyadan söhbət saldı.

– Bu il lobyalar yaxşı boy atıblar. Yaxşı ki, Nikolayın sözünə baxmayıb əkdim. İndi məhsulunu heç yığıb-yığışdıra bilmirəm.

– Hansı tərəfdə əkmişsiniz? – deyə Lalənzar maraqlandı.

– Pristavın həyəti tərəfdə. Elə onun hasarının dibi ilə. Görməmisiniz?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Xeyr.

– İstəyirsiniz, gedək göstərim.

– Gedək.

Onlar bağçaya endilər. Uzunboylu, şehli qarğıdalıları aralaya-aralaya bağçanın içərisinə keçdilər. Qızılgül kolluqları göründü. Ətrafda arılar vızıldaşırdı. Onlar əyilə-əyilə gilənar ağaclarının altından keçib pristavın həyətinin divarına yaxınlaşdılar. Burada bütün divar boyu üç cərgə lobya əkilmişdi. Onların qıvrım saplaqları cərgələr arasında basdırılmış payalara sarmaşıq kimi sarılaraq uzun bir talvar əmələ gətirmişdi. Lalənzar talvarın altı ilə gəzişərkən doğrudan da, hər tərəfdən salxım kimi sallanan lobyalara heyran qaldı. O da öz həyətində lobya əkdirmişdi. Lakin bunları heç müqayisə etmək olmazdı. Siranuşun hər kolundan azı bir batman lobya toplamaq olardı.

– Keçən il Nikolay burada dirrik salmışdı. Bu il təkid elədim ki, lobya əkək, – deyə Siranuş öz işindən razı halda danışırdı. – İndi özü də deyir ki, yaxşı elədik, lobya əkdik.

– Yəqin ki, tez-tez sulayırsınız ki, belə qol-budaq atıb?

– Yox. İş sulamaqda deyil, onların dibini yumşaltmaqdadır. Suyu ancaq günaşırı verirəm...

Pristavın alçaq divarının dalından hənirti eşidildi. Bir azdan həyətə açılan eyvan qapılarından qızılgül kolluqlarına tərəf uzanan yolla pristavın arvadı ilə podpolkovnik Dobrovolskinin addımladığı göründü. Lalənzar təəccüb qaldı: "Bu vaxt da qonaq olar?" Siranuş belə səhnələri çox gördüyü üçün nə təəccübləndi, nə də onlara əhəmiyyət verdi. Siranuşgilin həyətləri nisbətən hündür olduğundan pristavın həyəti ovucun içi kimi aşkarda qalmışdı. Oradan isə Siranuşgilin həyətləri qəti görünmürdü.

Tamara Danilovna qızılgül kolluqları altındakı skamyada oturdu. Dobrovolski bir müddət ayaq üstə durub dodaqlarını əlindən ayırmadı. Sonra o da pristavın arvadı ilə yanaşı oturub uzun qıçlarını bir-birinin üstə aşırdı. Çəkinmədən, açıq-saçıq bir hərəkətlə Tamara Danilovnanın başını öz sinəsinə basıb, onun dodaqlarından öpdü.

Hər iki qadın üzlərini yana çevirdi. Siranuş yavaşcadan pıçıldadı:

– Bir görürsünüzmü? Həmişə belədir. Buna görə heç istəmirəm ki, bizim Asatur yayı Zaqatalaya gəlsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə üçün? Onunla bunun nə əlaqəsi?

– Əlaqəsi çoxdur. Asaturun gəldiyini eşidən kimi əri xəbər göndərir ki, gəlsin xanıma fransız dərsi öyrətsin. – O, başını yellədi, – qorxuram uşağı yoldan çıxara.

– Bəs əri buna necə baxır?

– Necə baxacaq? Qonaqlar pristav evdə olmayanda gəlirlər. Bəzən evdə olanda da ərini içəridə qoyub qonaqla bağçaya gəzməyə çıxır. İndi isə əri evdə yoxdur. Eşitmədiniz, Nikolayı divanxanaya öz yanına çağırtdırıb?

Lalənzar məəttəl qalmışdı. Onlar qulaq asmaq istəməsələr də hasarın arxasından Dobrovolskinin Tamara Danilovnanın ünvanına dediyi təriflər və qadının işvəli gülüşü eşidilirdi.

– Siranuş!

Nikolayın səsi idi. O qayıdıb artırmadan arvadını çağırırdı. Siranuşla Lalənzar lobya cərgələrinin arasından çıxıb, evə tərəf getdilər. Lalənzar onlarla öz həyəti arasında olan alçaq qapıya çatdıqda xudahafizləşib getdi.

Siranuş ərini çox pərt gördü. Onun, pristavın yanından çıxandan sonra işə getməyib, evə gəlməsinə də təəccübləndi.

– Nə olub, bikefsən, pristav nə dedi?

Nikolay artırmada boş-boşuna əsəbi halda gəzişirdi.

– Pristav özü yox idi. Alaqaranlıqdan Nuxaya getmişdir.

– Bəs sən kimin yanında oldun?

– Katibinin, o eynəkli qaxacın.

O yenə əllərini cibinə salaraq gəzişdi və arvadına ağıllı-başlı bir cavab vermədi.

– Axı bir başa sal görüm, o qaxac sənə nə deyib ki, belə özündə deyilsən?

Nikolay hirslə əllərini bir-birinə vurdu.

– Əclaflar, gör mənə nə təklif edirlər! Yox, mən bunu bacarmayacağam. Çox deyərlər, poçtun açarını lap təpələrinə çırparam. Yox, yox, mən bunu bacarmayacağam. Necə yəni başqasının məktubunu açıb yoxlamaq? Nə olsun ki, dövlət sirridir. Bəs vicdan, mənim vicdanım. Onlar adamı göz baxa-baxa oğurluğa vadar edirlər? Başqasının məktubunu açmaq oğurluq deyil? Vicdan oğruları! Mən bacarmayacağam!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arvadı onu sakitləşdirməyə çalışdı. Nikolay isə bu dəqiqə heç nə eşitmək istəmirdi. Hələ bu vaxtadək heç kəs ona belə bir təklifdə olmamışdı. Onun atasını söysəydilər, özündən bəlkə də belə çıxmazdı. Lakin iyirmi beş il sədaqətlə xidmət etdiyi bir işə indi onu ləkə vurmağa vadar edirdilər.

– Bunlar hamısı o qaxacın işləridir, – deyə Nikolay dişlərini qıcadı. – O buraya gələndən sonra heç baş çıxarmaq mümkün deyil ki, nə işlə məşğuldur. Katibsən otur, mirzəliyini elə, daha hər şeyə burnunu soxma. Torbada da canı çıxmadı ki, əlindən rahat nəfəs alaq. Elə bil it canıdır... Deyirlər qaçaq Məhəmməd bu yaxınlarda o ki var onu əzişdirib, ay başına dönüm, gərək elə oradaca onun işini bitirəydin! Nahaq əlindən buraxmısan!

Siranuş ərinin danışıqlarından heç bir şey başa düşmürdü. O durub səbirsizliklə gözləyirdi ki, ona təklif olunan işi ağıllı-başlı başa salacaqlar; amma Nikolay qaçaq Məhəmməddən belə hamını bir-birinə qatmışdı.

– Elə danış ki, mən də başa düşüm. Kimin kağızını deyirlər aç oxu?

– Birdir, ikidir. Hansını deyim! Mən sonra onların üzünə necə baxım? Bəlkə məktubda biri gizli bir şey yazıbdır? Bu da kişilikdəndir? Özü də o adamların məktublarını deyirlər ki, onların hamısının yanımda hörməti var. Biri də Lalənzar xanım ola...

Siranuş “vah” deyə əllərini sinəsində çarpazladı.

– Ss... bir az yavaşdan. Özü eşidər, yaxşı deyil. Mən onsuz da, fələk gəlsə də onun məktubunu heç kəsə verən deyiləm. Əri ilə duz-çörək kəsmişəm. Özünə də nə qədər hörmətim var.

– Günahı nədir? – deyə Siranuş yavaşcadan soruşdu. – Bəlkə ərinə görədir?

– Nə bilim nəyə görədir. Bunlar şəhərdə ən yaxşı adamlardan şübhələnirlər. Ya da o dəmirçi Bəhramı götürək, ya da yoldaşı Arşak olsun. Bir soruşmaq lazımdır ki, bu adamlar sizə nə eləyiblər ki, onların dalınca qarabaqara gəzirsiniz? O iki cavan olmasaydı, camaat o günü Hacı Xeyrinin karxanasını darmadağın etmişdi. Yox, ya mən dəli olmuşam, ya da onları başa düşmürəm. Nə olsun ki, birinin qardaşı Bakıda fəhlədir... Buna görə onun məktubunu açıb oxuyarlar? Gör heç sənin qardaşının adını çəkən var? Mənim qaynım olsa da deyərəm ki, o eynəkli qaxacdan heç geri qalmaz. Yox,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxşı adamın qədrini bilən yoxdur. Pislə yaxşını ayırmağı bacarmırlar...

Siranuş söhbətin Ayrapetin üstünə gəlib çıxdığını eşitdikdə araya tez başqa söz qatmaq istədi. Onun çalışdığı bu idi ki, yeznə ilə qayın arasında olan söhbətlər həddini aşmasın, aralarında həmişə bir hörmət pərdəsi gözlənilsin.

– Bəs bu gün işə getməyəcəksən? – deyə o, başqa söhbətə keçmək istədi.

– Gedəcəyəm, lap o yana da keçəcəyəm. Mən onlara görə poçtu ata bilmərəm. Nə deyirlərsə qoy desinlər. Mən başqasının məktubunu yad əllərə sala bilməyəcəyəm. Öz istədiklərinə mənim meyitimin üstündən keçəndən sonra nail ola bilərlər.

– Yaxşı, daha əsəbiləşmə. Sən özündən çıxdın, Allah saxlasın. Heç hövsələn yoxdur.

– Adamda hövsələ qoyurlar ki, qalsın. Bir adama oxşamazın biri gəlib mənə hökm eləyir. Bir dəli şeytan deyir ki, Zaqataladan birdəfəlik yığış get, at buranın daşını. Təki eynəkli qaxac kimi adamların sifətini görməyim. O tərəfdən fikirləşirəm ki, hara getsəm, yenə belə adamlara üzləşəcəyəm!

Siranuş süfrəni yığışdırmaqla məşğul oldu. Nikolay içəri otaqdan bəzi sənədləri götürüb poçta getdi. Arvadı evdə işini qurtarandan sonra iri bir zənbil götürüb bağçaya, lobya dərməyə endi. Pristavın həyətindən hələ də hənirti gəlirdi. Tamara Danilovna ərinin gec qayıdacağını bildiyi üçün qonağını ləngidirdi. Bir azdan Siranuş onların evə keçdiklərini gördü. Həyətə açılan pəncərənin pərdəsi salındı.

Siranuş hirslə yerə tüpürdü.

* * *

Lalənzar Nikolaygildən qayıdandan sonra bazara çıxmağa hazırlaşırdı. Əlində zənbil artırmaya çıxarkən qapı döyüldü.

– Kimdir? – deyə soruşdu.

Qapı aralandı, tanımadığı bir adamın başı göründü.

– Kimi istəyirsiniz?

Yad adam içəri keçib sarmaşıqlı talvarın altında durdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bağışlayın, – dedi, – sizdə mənzil kirayə verilmir? Mənə yalnız bir otaq lazımdır.

Lalənzarın qapısına ilk dəfə idi ki, otaq kirayələmək üçün gəlirdilər. Buna görə də kişinin dediyi sözlər ona qəribə göründü.

– Bizdə heç zaman otaq kirayə verilmir. Sizi buraya kim göndərmişdir?

Kişi sanki karıxan kimi oldu.

– Məni heç kəs göndərməyib. Özüm elə qarasına bütün həyətlərə girib soruşuram.

– Xeyr, bizdə kirayə veriləsi otaq yoxdur.

Kişi üzr istəyib çıxdı. Qapı onun dalınca örtüldü. Lalənzar fikirləşirdi ki, gələn, görünür, buralı deyildir. O, aşağı enib həyət qapısını içəridən bağladı, özü isə Siranuşgilə açılan ara qapıdan keçdi. Siranuşu səslədi. Siranuş lobyaların arasında idi. Lalənzar onların da qapısına ev kirayələmək üçün gəlib-gəlmədiklərini soruşdu. Gələn olmamışdı. Lalənzar bundan şübhəyə düşdü. Kişi demişdi ki, bütün həyətləri gəzmişdir. Onu maraq götürdü. Küçəyə çıxarkən üzbəüzdə yaşayan qonşulara da döydü. Onlara da gələn olmamışdı. "Bəs bu necə olur, ancaq onların qapısına gəlmişdir? Özü də yalan danışmağa məcbur olmuşdur?!" O, küçədən evə qayıtmaq istədi. Narahatçılığı Əzizin axırıncı dəfə gətirdiyi vərəqələrdən idi. "Bəlkə iy duyublar? Ya da bu işdə xəyanət vardır?" Son günlər soldatların şəhərə buraxılmaması, vərəqələrin təkrar geri qaytarılması nə isə deyirdi. Bir hadisə baş verməsəydi, soldatlardan heç olmasa bir nəfərin eşiyə çıxa bilərdi. Görünür ki, vəziyyət gərgindir.

Lalənzar küçənin ortasında duraraq, qəti qərara gələ bilmirdi. Geri dönüb vərəqələrin yerini dəyişmək də xatalı idi. Qəflətən evə hücum edə bilərdilər. Yaxşısı, budur ki, onları qoyduğu yerdən tərpətməsin.

Lalənzar daha geri qayıtmadı. Bulaq başından bazar tərəfə burularkən ev kirayələməyə gəlmiş kişini gördü. O dayanıb Taytsla söhbət edirdi. Lalənzar özünü onlara göstərməmək üçün tez döngəni buruldu. Deməк, o, şübhələrində haqlı idi. Onu yəqin ki, Tayts müəyyən məqsədlə göndərmişdir. Lalənzarın nigarançılığı daha da artdı. Tez bazarlıq eləyib geri qayıtdı.

Vərəqələrin yerini dəyişmək fikrindən tamam əl çəkmişdi, çünki bu yeri Əzizdən başqa heç kəs bilmirdi. O da ağzından söz qaçırdan deyildi. Döysələr, əziyyət versələr də deməzdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lalənzar axşamadək gözlədi. Qapını döyən olmadı. Hava qaralarkən Nikolaygilin inəyini naxırdan qaytaran Əziz ara qapıdan Lalənzarın yanına keçib, ona kiçik bir məktub verdi və yenə də gəldiyi yolla küçəyə çıxdı. Məktub Bəhramdan idi. Yazırdı ki, şəhərə gizli yolla silah gətirilməsini pristava xəbər veriblər. Bu saat hər yer axtarılır. Siz göyərçinlərdən ehtiyatlı olun.

Bəhram axırıncı sözlərlə vərəqələrə işarə vururdu.

Məktubdan sonra Lalənzar rahat nəfəs aldı. Onun evində silah tapmaq istəyirlərsə, qoy gəlib axtarsınlar. Onun nigarançılığı ancaq "göyərçinlər" tərəfdən idi.

Gecəyarısı Tayts siyahıda adlarının yanına işarələr qoyduğu bütün adamların evlərində axtarışlar keçirdi. Heç birindən bir şey tapılmadı. Hətta siyahıya sonralar daxil edilmiş yazı ləvazimatı satan dükançının da evini axtardılar. Dükançı qorxuya düşdüyü üçün evdə dura bilməyib, eşiyə çıxmağa izin istədi. Onu ancaq bir alt tumanda buraxdılar. Kişi ayaqyolunda çox ləngidi. Bundan şübhəyə düşən Tayts tez onun dalınca adam göndərdi. Qapını döydülər, açan olmadı. Axırda qapını sındırmalı oldular. Kişini bayılmış halda tapdılar. Onu sürüyüb həyətə çıxardılar. Bir xeyli havada qalandan sonra özünə gəldi.

## XXIV fəsil

Pristavın təcili Nuxaya getməsi, Taytsın Nikolayı öz yanına çağırması və şübhələndiyi adamların evlərinə göz qoydurması, nəhayət, gecə axtarışları keçirilməsi Qaladan verilmiş bir xəbərlə bağlı idi. Gecənin bir yarısı Dobrovolski pristava zəng vuraraq, şəhərə gizli yolla silah gətirildiyini xəbər verdi: guya bir araba silah da Nuxadan yola düşəcəkdir. Pristav bu məlumatı alan kimi Tayts və onların işinə yarayan bəzi adamları toplayaraq, ətraflı təlimat verdi və bu işin məsuliyyətini Taytsın boynuna yıxdı. Özü isə Nuxaya gedəcəyini bildirdi. Bunu Dobrovolski şəxsən özü ondan xahiş etmişdi. Əlbəttə, bu xahiş silah axtarışı ilə deyil, Dobrovolskinin öz şəxsi arzusu ilə bağlı idi. Onun bir günlüyə Nuxaya getməsi lazım gəlirdi.

Şəhərdə xariqüladə bir vəziyyət yaranmışdı. Bəhram məsələnin nə yerdə olduğunu eşidən kimi əvvəlcə təşvişə düşdü. Qorxdu ki, gecə silahları gizlətmiş adamların ağzından bir söz qaçmış ola.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tez onları axtarıb tapdı. Hər ikisi and içdi ki, onlar divar kimi dilsizdirlər. Bundan sonra o sakitləşdi. Ancaq bununla belə, sirrin kimin tərəfindən verildiyi haqda çox götür-qoy elədi. Belə nəticoyə gəldi ki, Drujin qayıdan baş yəqin ki, tutulmuşdur. Axşamadək həyəcan içərisində vurnuxdu. Yalnız gecəyarısı öyrəndi ki, sirr Qaladan çıxmışdır. Bu məlumatı Arşak öz qohumu olan qorodovoydan öyrənə bilmişdi.

Qəribə idi. O, inqilabçı soldatlardan çoxunu inanılmış və namuslu bilirdi. Bəs necə olub ki, bu sirri vermişdi?

Bəlkə Əziz kağızı səhvən başqa soldata vermişdir. Belə isə bəs niyə onun Viktora göndərdiyi məktub haqqında heç yerdə söhbət getmir? Yox, bu ola bilməzdi. Əziz Viktoru yaxşı tanıyırdı. Onun bu vaxtadək yanıldığı da olmamışdı.

İki gün belə keçdi. Nigarançılıq və həyəcan həm qışlalarda soldatları, həm də Bəhram və yoldaşlarını gecəli-gündüzlü tərk etmədi. Üçüncü gündən başlayaraq şəhərdə yaranmış gərgin vəziyyət tədriclə mülayimləşdi. Deyildiyinə görə, pristav Nuxadan çox qəzəbli qayıtmışdı. Yerindən oynadılıb, Nuxaya getməsinə də guya təəssüflənirdi. Şəhərə silah gətirilməsi haqqında şayiə buraxan adamı tapsaydı, onu elə oradaca hülqumlardı, daha Nuxa pristavının yanında hörmətdən düşməzdi. Bir sözlə, pristav Nuxadan qayıdandan sonra adamların başından silah haqqındakı bütün fikirləri vurub çıxardı və belə şayiə yayanı ünvanına ağır söyüşlər vurub çıxardı və belə şayiə yayanın ünvanına ağır söyüşlər yağdırdı. Hamıdan çox canfəşanlıq edən Tayts isə bu xəbərin yalan olduğuna təəssüfləndi, onun ümidləri boşa çıxmışdı.

Pristavın qayıtmasından üç gün sonra şəhərdə soldatlar da göründü. Lakin birinci günlər ancaq komandanlığın etimadını qazanmış soldatlara icazə verilirdi.

Bəhram dərzi Usubdan tutmuş hamıya xəbərdarlıq etmişdi ki, Viktor Bondarçuku görən kimi onu yeni müəyyən edilmiş gizli mənzilə ötürsünlər. Ancaq nə Viktordan, nə də onun yoldaşlarından hələ xəbər yoxdu. Görünür ki, onlardan şübhələnirdilər.

Gərgin vəziyyət sovuşandan yalnız beş-altı gün sonra Viktor, Qriqori, Demeşko və başqalarına da şəhərə çıxmağa icazə verildi. Viktor ehtiyat üçün birinci gün tanıdığı adamlardan heç birinin yanına getmədi. Özünə xas olan həssaslıqla duymuşdu ki, onun arxasın-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ca göz qoyulmuşdur. Ancaq özünü Bəhrama göstərmək üçün bir dəfə xeyli aralıda onun dükanı qabağından ötüb keçdi. Bəhramın onu gördüyünə arxayın olduqdan sonra sakit addımlarla bazara tərəf yönəldi. Bəhram da bu hərəkətdən hiss etdi ki, ona ehtiyatla yanaşmaq lazımdır. O uzaqlaşandan bir müddət sonra Bəhram önlüyünü çıxarıb, tələsik bazara tərəf yönəldi.

Bazarda Viktoru meyvəsatanlar cərgəsində tapdı. Ehtiyatla ona yanaşdı. Viktor gilənar satan oğlanın qabağında durub gilənardan ucuz qiymətlə ona yarım girvənkə satması haqqında çənə vururdu. Bəhram da yaxınlaşaraq, gilənarın qiymətini soruşdu və oğlanın cavabından sonra baha olduğunu bəhanə edərək, onunla söhbətə başladı:

– Ucuz satsan, hamısını alaram.

Oğlan bir qəpik də aşağı düşmürdü. Bəhram Viktorla çiyin-çiyinə durmuşdu. Oğlanın başqa müştərini yola salmasından istifadə edərək yavaşcadan dedi:

– Göndərilənlər sağ-salamatdır. Ancaq sizin aranızda casus var. Ehtiyatlı olun. Gətirilən şeyləri xəbər vermişlər.

– Drujin özü necədir? – deyə Viktor qarşısındakı ərikləri vəznləyə-vəznləyə soruşdu.

– Sağ-salamat qayıtdı. Sizi çox görmək istəyirdi...

– Yaxşı, qurtaraq. O, tərəfdə bizim soldatlardan gəzişən var.

Bəhramın gilənar satan oğlanla "sövdası baş tutmadığından" uzaqlaşıb getdi. Viktor isə hələ də çənə vururdu.

Viktorun gördüyü soldatlar gəzişə-gəzişə onun yanına gəldilər.

– Hə, Viktor, nə alırsan? – deyə biri soruşdu.

– Salam, gilənar almaq istəyirəm, yaman baha deyir. Aşağı da düşmür. Ancaq yaxşı gilənardır, şirəli, ətli.

Soldatlar gilənarı tərifləyib getdilər. Viktor bu iki nəfər soldatın səhərdən onun arxasınca gəzdiklərini duymuşdu. Görünür ki, müəyyən tapşırıqla onu izləyirdilər. Bəhramın bir neçə dəqiqə qabaq ona dediyi söz xəyalını alt-üst eləmişdi: casus kimdir? Onlarla bir qabda çörək yeyən, bir şinelin altında büzüşüb yatan və and içərək, ömrünün axırınadək onlara sədaqətli qalacağını bildirən, dalda isə əlindəki xəncəri hər dəqiqə onların kürəyinə endirməyə hazır olan bu soldat kimdir? Ətrafında olan dostları bir anlığa bir şərid kimi gözünün qabağından ötüb keçdilər. Bu mərd, qorxmaz, lazım gələrsə qurşun güllənin qırmızı alovlu gözü içinə mərdanəliklə baxa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

biləcək gənclərdən hansı əqrəb neştərlidir? Hansının əlində qanlı bıçaq var? Bəs, görəsən, onu bu yola məcbur edən nədir? Vicdanının qabağında o necə dura biləcəkdir, onun amansız məhkəməsindən çəkinmirmi, qorxmurmu? Əgər belə bir adam varsa və onları ağacqurdu kimi daxildən çeynəyib bir gün, heç kəsin xəbəri olmadan qəflətən ildırım vurmuş qoca palıd kimi yerə sərmək istəyirsə, bəs, Viktor nəyə arxayın olub üsyanın müvəffəqiyyətlə nəticələnməsinə ümid bəsləyir? Yox, bu ağacqurdu tapılmalıdır, o, vicdan məhkəməsinin qarşısında dara çəkilməlidir.

Belə qarışıq fikirlərdən onun başı ağırlaşdı. Gicgahları şiddətlə vururdu. Qışlaya dönəndən sonra da sakitləşmir, xəyalında dostlarını bir-bir araşdırıb, sanki onların ürəklərinə, fikirlərinə, niyyətlərinə nüfuz edirdi. "Hansıdır?" Bu sual bir dəqiqə də onu rahat buraxmırdı; sızladır, yandırır, əziyyət və iztirab verirdi. Dərdini də deməyə adam yoxdu. Bəlkə ürəyini açıb deyəcəyi adam əli bıçaqlı özüdür? Kimlərlə məsləhətləşsin, məsləhət gözlədiyi adam bəlkə onu axtardığı həmin o dönük vicdanlının özüdür?

Yox, hamının üstünə kölgə salmaq da olmazdı. Vicdanı qəbul etmirdi ki, onunla qan dostları olmuş adamların hamısına şübhə ilə baxsın, onların səmimi gülüşləri arxasında yalnız dönüklük və satqınlıq duysun. O özünü bir anlığa, yalnız bir anlığa yalqız, qolsuz-qanadsız hiss etmişdi, sonra da bundan əzab çəkdi. Tək insan yoxdur və yaşaya bilməz.

Viktor yenə dostlarına qaynayıb qarışdı, bəzi məsələlər haqqında onlarla məsləhətləşdi, ancaq bununla belə, hər çiçəkdən şirə çəkən arılar kimi hərədən bir eyham tutmağı, hərədən bir söz çəkməyi unutmadı. Xüsusilə, danışdıqları zaman dostlarının gözlərinə baxmağa çalışırdı: riyakarlıq eləyən adamın yalnız gözləri öz rəngini, öz ifadəsini dəyişmir, yalnız insan baxışları riyakarlıq etməyi bacarmır.

Onların arasında xəyanətkar olduğunu o, yalnız Qriqori Romanova danışdı.

– Qriqori, xəbərin varmı, bizim aramızda olan söhbətlər kənara çıxır.

Qriqori Viktorun bu sözlər altında ona işarə vurduğunu güman edərək tutuldu. Yanaqları istiləşdi, burun pərələri qəzəbindən kövrəkləşərək çırpındı, ancaq danışa bilmədi. Viktor onun tutulduğunu, qızarıb rəngdən-rəngə düşdüyünü gördükdə ürəyini almağa çalışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən güman eləyirsən ki, bunu sənin ünvanına deyirəm? Əgər belə düşünürsənsə, sənə eyib olsun. Mən səndən heç gözləməzdim. Ancaq bir dost kimi xəbər vermək istədim ki, silah gətirilməsi haqqında verdiyim xəbəri kimsə Dobrovolskiyə çatdırmışdır. O da pristava xəbər vermiş, şəhərdə hər şey bir-birinə dəymişdir. Heç bilirsənmi, onun ucbatından bizi də bayıra buraxmırlarmış. Buna nə deyəsən? Yerli sosial-demokrat nümayəndələri bizə tənə vurub, xəbər verirlər ki, aramızda casus vardır.

Qriqori bu əhvalatı eşidən kimi tamam dəyişdi. Yavaşcadan təəccüblə dilləndi:

– Sən nə danışırsan? Bundan heç xəbərim yoxdur. Biz oturub baş sındırırıq ki, niyə bizi şəhərə buraxmırlar?

Bəs silahlar?

– Silahlar sağ-salamatdır. Məlum olur ki, yerli dostlarımız bizdən ehtiyatlıdırlar.

– Viktor, məni bağışla. Səni başa düşürəm, – deyə Viktorun bayaqkı sözlərinə haqq qazandırdı. – Bu elə məsələdir ki, onun üstündən ötüb keçmək olmaz. Ona görə gəl danışaq. De görək bu xəbəri məndən başqa daha kimə demisən?

Viktor fikirləşmədən üç adamın adını çəkdi: Demeşko, Sırojkin və Popenko.

Onların hər üçü inanılmış və sınaqdan çıxmış gənclərdi. Təkcə Sırojkin arada büdrəmişdi, ancaq sonra o, Mariyski polkuna soldat göndərilərkən özünü elə doğrultmuşdu ki, hamı onun büdrəməsini də unutdu. Popenkoya isə onlar özlərindən artıq inanırdılar. Demeşkonu da dara çəksəydilər belə şey etməzdi. Beləliklə, çıxılmaz vəziyyətdə qalmışdılar. Kimin üstünə kölgə salmaq olar?

Qriqori özünün üstünə düşə biləcək şübhəni dəf edərək, Viktorla bəzi məsələləri aydınlaşdırmaq istədi.

– Viktor, mən bəzi şeyləri də sənə açıq deməliyəm. İstəyirəm ki, Roza ilə aramda olan əlaqəni sən də biləsən. Əlbəttə, mən onu sevmirəm. O isə arxayınam ki, məni sevir. Yüz faiz arxayınam. Ancaq etiraf edirəm ki, mən onu tez-tez düşünürəm və ona inanıram. O mənim üçün hər şeyə hazırdır. Ancaq bu o demək deyil ki, mən hər şeyi ona deyirəm. Bundan arxayın ol. Vərəqələri də ona inandığım üçün verdim. Yəqin bilirəm ki, onları elə üçüncü gün dərziyə çatdırmışdır...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Viktor onun sözünü kəsdi:

– Çatdırmağına çatdırmışdır...

– Mən buna şübhə etmirdim... Deyim ki, onu bizim gizli işə cəlb etməyimə də peşman deyiləm. Qəlbi təmiz adam nə şəraitdə olursa-olsun öz ləyaqətini həmişə hifz edə bilir...

O, Viktora baxıb gülümsədi. Gözləri fərəhli bir ifadə ilə parıldadı.

– Ancaq bir şeyə inanmıram, yəni bir şey üçün zamin dura bilmərəm.

– O nədir? – deyə Viktor təəccübləndi.

Qriqori başını aşağı dikib, öz-özünə danışırmış kimi dedi:

– Bəlkə onu sevdim...

Qriqorinin qaşları çatılmış, üzü ciddi bir ifadə almışdı. Viktor Qriqorinin zarafat etmədiyini görüb, onun qəlbini sındırmaq istəmədi.

– O öz işindir. İnqilab işi ilə, əlbəttə, bunun heç bir əlaqəsi olmamalıdır. Heç kəs sevməyi sənə qadağan edə bilməz. İnqilabın isə öz müqəddəs sirləri vardır. Onlar yalnız öz qəlbində gömülməlidir.

– Əlbəttə.

Viktor vərəqələr haqqında söhbət gedərkən bir şeyi Romanova deməyi unutmuşdu. Bu da vərəqlərin tezliklə gətirilib soldatlar arasında yayılması idi. Üsyanın hazırlığı ərəfəsində bunların böyük köməyi dəyərdi. Bunun öhdəsindən isə onlardan heç biri Qriqori kimi gələ bilməzdi.

– Necə bilirsən, Qriqori, vərəqələri qışlaya gətirə bilərsənmi? Onları yubandırmağın daha mənası yoxdur. Qışlalardan da qabaq Qalaya ötürmək lazımdır.

Qriqori bir az fikrə gedəndən sonra vərəqələrin Qalaya necə gətirilməsi barədə öz fikrini danışdı. O təklif etdi ki, vərəqələr tərəvəz üçün bazara aparılan zənbil və səbətlərin altına yapışdırılsın. Feldfebel onları, adətən bir saatadək dükanın qabağına yığıb gözləyirdi. Sonra da dükançı ilə haqq-hesabı çürütmək üçün gedərkən yarım saata qədər ləngiyirdi. Bu müddətdə vərəqələri rahatlıqla səbətlərin altına yapışdırmaq olar.

– Bu işi Demeşko ilə mən edərəm. Tərəvəz üçün gedən soldatlar da bizim uşaqlar olsa, işimiz lap asanlaşar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Viktor onun təklifim ilə razılaşdı. Vərəqələrin kimdə olduğunu isə sabah təlimdən sonra Bəhramdan öyrənmək lazım idi. Bunu Viktor öz boynuna çəkdi.

Ertəsi gün təlimdən sonra Viktor şəhərə buraxılış vərəqi alıb qışladan çıxdı. Onun məqsədi Bəhramı görmək idi. Qapıdan çıxarkən Sırojkin ona yaxınlaşdı. O nə isə demək istəyirdi. Yanlarından soldatlar keçdiyindən susub durdu. Soldatlar ötüb keçdilər. Sırojkin yavaşcadan silahların aqibəti haqqında ondan soruşdu. Viktor ona dolayısı ilə cavab verdi.

– Qorxuram ki, elə keçmiş ola. Bərk nigaranam.

Viktor ona nə üçün belə cavab verdiyini özü də başa düşmədi. Bu sözlər qeyri-ixtiyari olaraq ağzından çıxmışdı. O, zarafat etdiyini və silahların gətirilərək təhlükəsiz yerdə saxlandığını demək istəyirdi ki, Sırojkin başını bulayıb ondan ayrıldı. Viktor yoldaşlıqda düzgün hərəkət etmədiyi üçün öz-özünü danladı. Ancaq işişdən keçmişdi. İndi ona həqiqəti açıb təzədən desəydi, Sırojkin inciyə bilərdi. Olacağa çarə yoxdur deyərlər.

Qışladan cəmi iki məhəllə ayrılmışdı ki, arxasınca bir nəfər soldatın gəldiyini sezdi. Dünənki soldat deyildi. Viktora qəribə gələn orası idi ki, onu təqib edən soldatlar Qalada yerləşən altıncı rotadan idilər. Özü də elə bil onun şəhərə çıxmasını kim isə tez Qalaya xəbər verirdi. Çünki iki-üç məhəllə getməmiş altıncı rotanın soldatlarından biri onu izləməyə başlayırdı. Görünürdü ki, bu, əvvəlcədən hazırlanmış cədvəl üzrə təşkil olunmuşdu. Bu gün isə o nə olursa-olsun Bəhramı görməli idi. Viktorun altıncı rotadan olan soldatı aldatmaqdan başqa çarəsi qalmadı. O müsəlman məscidinin yanında iri bir həyət tanıyırdı. Bir-iki dəfə görmüşdü ki, adamlar yollarını qısaltmaq üçün həyətin bu qapısından girib o biri qapısından məvazi küçəyə çıxardılar. Arxasınca gələn soldata da məhz bu yerdə kələk gəlmək istədi. Məscidin yanına çatanda tez düşündüyü həyətə girdi və sürətli addımlarla o biri qapıdan küçəyə çıxdı. Arxasına dönüb baxdı. Soldatı görmədi. Vaxtı itirməyib birbaşa dəmirçixanaya yönəldi. Bəhramla danışıb şərtləşdilər. Belə qərara gəldilər ki, sabah Qriqori kilsə meydançasında Uzun Həsənin faytonuna yaxınlaşıb kefi istədiyi yerə sürdürsün. Faytonun üst örtüyü qaldırılmış olacaqdır. Fayton gedə-gedə Qriqori əlini uzadıb döşəyin altından vərəqələri götürə bilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər şeyi yerli-yerində danışdıqdan sonra Viktor dolama yollarla kilsə meydançasına çıxdı. Camaatın tez-tez seyrə çıxdığı bu yerdə boş-boşuna gəzən adamdan şübhələnmirdilər. Viktor da özünü izdihamın içərisinə vurdu. Birdən dalınca gəzən soldatla rastlaşdı. Viktor özünü itirməyib, ona yaxınlaşdı.

– Hə, soldat, necədir, buranın qızları xoşuna gəlirmi?

Soldat əvvəlcə dinmədi. Onunla necə rəftar etmək lazım olduğunu bilmirdi, çünki tapşırıq verilərkən Viktorun özünün ona yan ala biləcəyini heç kəs düşünməmişdi. Ancaq o öz idrakı daxilində belə hesab etdi ki, ona yaxınlaşması xeyirdən başqa heç bir zərər gətirməz. Bəlkə də öz ağzından bəzi sözləri qoparda bildi. Birinci növbədə istəyirdi ki, onun məscid yanında hansı həyətə girdiyini öyrənsin.

– Kimin xoşuna gəlməz! Mən burada gördüyüm gözəllərə Rusiyanın heç yerində rast gəlməmişəm.

– Elədir, dostum. Görürəm ki, sən də ruh əhlisən. Gəl bu Qafqaz gözəllərinə birlikdə tamaşa edək.

– Edək! – deyə soldat məmnuniyyətlə razılaşdı.

– Mən şəhərə buraxılanda, peşəm xanımlara tamaşa etməkdir.

Onlar bir-birinə qoşularaq kilsə meydanında gəzişdilər. Soldat zarafata salıb, ondan söz çəkmək istədi.

– Dost, sən deyəsən, belə şeyin ustasısan. Bir az qabaq səni bir həyətin qapısında gördüm, ancaq sonra haraya isə birdən-birə yox oldun. Görünür ki, orada dostun var?

– Məscidin yanındamı? – deyə Viktor fərəhlə göz vurdu. – Yaxşı tapmısan, dost. Deyəsən, səndə ovçu gözləri var. Orada bir canan yaşayır ki, elə bil ay parçasıdır. İstəyirsən sənə nişan verim, bacarsan tanış olarsan. İstəyirsənmi?

Soldat başı ilə razılığını bildirdi.

– Gedək! – deyə Viktor onun qolundan tutub özü ilə məscidə tərəf apardı. Soldatın onun haqqındakı şübhəsini dağıtmaq üçün Viktorun bundan artıq çarəsi qalmamışdı. Yəqin ki, qalaya qayıdandan sonra o, Viktorun tez-tez şəhərə çıxmasının səbəbini də bununla izah edəcəkdi. Viktorun arzuladığı da bu idi.

Məsciddə böyür-böyürə olan həyətin qapısına çatıb soldata yavaşca pıçıldadı ki, canan sağ tərəfdəki pəncərələrdən tez-tez



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həyətə baxır. Fürsət düşəndə ona işarə ilə başa sal ki, tanış olmaq istəyirsən. Ancaq ehtiyatlı ol, bunların kişiləri dəhşətli qısqanc olurlar.

Soldat ona razılıq elədi, birlikdə geri döndülər. O, Viktoru qışlanın qapısınadək ötürdükdən sonra ayrılıb Qala düzünə qalxdı.

Viktor Bəhramla olan söhbətini axşam Qriqoriyə danışdı. Ertəsi gün də Qriqori müəyyən edilmiş vaxtda kilsə meydanına getdi. Uzaqda cavan çinar ağaclarının altında bir fayton durmuşdu. Qriqori yanaşıb qozlada mürgüləyən faytonçuya dedi:

– Məni bazar başına apararsanmı?

– Niyə aparmıram. Əyləşin.

Qriqori üst örtüyü qaldırılmış faytona qalxdı. Uzun Həsən qamçını havada yellədərək atları muşqurdu. Fayton yerindən götürüldü. Qriqori oturan kimi əlini döşəyin altına atdı. Barmaqları vərəqələrə toxundu. Ləngimədən hamısını götürüb, çəkməsinin boğazına dürtdü.

Fayton bazar başına çatdıqda faytonçu atları saxladı. Qriqori yerə atılıb, feldfebelin adətən boş səbətləri yığdığı ağacın altına gəldi. Feldfebel özü yox idi. Qriqori ağacın kölgəsində, səbətlərin böyründə yerə oturdu. Patavasını sahmana salmaq bəhanəsi ilə çəkməsinin boğazlığındakı vərəqələrdən çıxarıb, zənbil və səbətlərin dibindəki iri çinar yarpaqlarının altına doldurdu. Bunu elə bir sürətlə elədi ki, oturmağı ilə durmağı beş dəqiqədən artıq çəkmədi. İşini qurtardıqdan sonra ayağa qalxıb, saymazyana yoluna davam etdi.

Ertəsi gün iki qəribə hadisə baş verdi: Viktorun soldat “dostu” məscidin yanındakı həyətə girən kimi pəncərədən ətli-canlı bir qadının baxdığını görür. Soldat pəncərənin qabağına gəlir və işarə ilə başa salır ki, onunla tanış olmaq istəyir. Qadın bunu görən kimi tez pəncərədən uzaqlaşır. Soldat elə başa düşür ki, qadın indicə qapını açıb bayıra çıxacaqdır. Durub gözləyir. Bu zaman qadın təzədən pəncərəyə yaxınlaşır. Soldat əlini dodaqlarına apararaq ona öpüş göndərir. O, əlini dodaqlarından ayırmamış evin qapısı açılır və şəhərin keşişi qəzəbli halda aşağı enir. Soldat ona əhəmiyyət vermir. Qadına yenə işarə ilə nə isə demək istəyir. Elə bu zaman keşiş arxadan ona bir yumruq ilişdirir. Soldat da qolunu qolaylayıb keşişin cavabını verir, keşişin piyli cəmdəyi yerə sərilir. O, keşişin öldüyünü güman edib qaçır. Dalınca camaat çığırmağa başlayır.

–Soldat keşişi öldürdü!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəhərə səs düşür. Qorodovoylar soldatın qabağını kəsib tuturlar. Məlum olur ki, o, keşişin arvadına eşqnamə oxuyurmuş. Bundan ötrü ona *on iki* gün karser kəsilir.

İkinci hadisə isə, Qalada, nahar zamanı oldu. Mətbəxdə işləyən soldatlar tərəvəzi boşaldarkən səbətlərin altından inqilabi vərəqələr tökülməyə başladı. Soldatlar onları qapıb bərkdən bir-birinə oxudular. Bəziləri onların təhlükəli olduğunu görüb tez gizlətdilər. O biriləri isə guya adi məktub oxuyurmuş kimi, vərəqdə yazılanları avazla oxuyur və hətta bir-birinə izahat da verirdilər.

Vərəqələr soldatları inqilabi mübarizəyə çağırırdı. Bakı fəhlələrinin onları bu işdə müdafiə edəcəyi vəd olunurdu. Hamının başı vərəqələrə elə qarışmışdı ki, onların Qalaya hardan gətirildiyi ilə heç kəs maraqlanmadı. Xəbər Dobrovolskiyə çatdırılandan sonra ara elə qarışdı ki, çoxu çaşdığından vərəqəni cibinə dürtməyə məcbur oldu. Bəzisi isə əlinə od alıbmış kimi tez onu yerə tullayaraq özündən uzaqlaşdırdı. Qala həyəti vərəqələrlə dolmuşdu. Təkcə Varlamov və onun keşikçi dəstəsi deyil, kapitan Qasse və başqaları da işə qarışdı. Keşikçi dəstəsinin soldatları vərəqələri toplayaraq, Qalanın ortasında dayanıb, çığırmaqdan səsi batmış Varlamovun ayaqları yanına yığırdılar. Varlamov bir ayağını onların üstünə basıb, bir-birinin ardınca əmrlər verirdi.

Həyətin içərisindəkiləri yığışdırdıqdan sonra Qasse əmr etdi ki, soldatların cibləri də axtarılsın. Bunu eşidənlərdən bəziləri *ciblərindəki* vərəqəni xəlvətcə çıxarıb yerə buraxırdı. Varlamov belə soldatları gördükcə çağırtdırıb sağ tərəfində saxlatdırırdı. Beş dəqiqənin içərisində onun sağ tərəfinə keçib durmuş soldatların sayı otuzu keçdi.

Tələsmədən, ağır addımlarla onlara yaxınlaşan Dobrovolskini görən kimi Varlamov qabağa yeriyib, baş vermiş hadisə haqqında məlumat vermək istədi. Ancaq vərəqələri özbaşına buraxıb getməyi lazım bilmədi. Dobrovolski özü ona tərəf gəldi. Varlamov məlumat verdi. Onun sözlərini axıradək dinləməyə Dobrovolskinin səbri çatmadı. Əyilib vərəqələrdən birini qaldırdı. Baxdı, sonra murdar bir şey təki barmağının ucu ilə yenə o birilərinin üstünə atdı. Varlamova yavaşcadan nə isə dedi. O da tez əlini cibinə ataraq kibrit çıxartdı və vərəqələri odladı. Soldatların gözləri qabağında kağızlar şölələnib külə döndü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir ovuc külə zillənmiş gözlərin hərəsində bir cür ifadə vardı. Bəzi gözlərə dərin bir kədər çökmüşdü. Bəzisi acı bir istehza ilə parıldayırdı. Bəzisində təəccüb doğuran anlaşılmaz bir məna cilvələnirdi: "O kağız parçalarından niyə belə qorxuya düşüblər? Onlarda dünyanı alt-üst eləyə biləcək sehrkar bir qüvvəmi var?" Bir para soldatlar isə bu mənzərəni çox laqeydliklə seyr edirdilər. Onlara, dünyanın başqa işləri kimi, bu alovlanıb heçə dönmüş vərəqələr də adi əyləncə tək göründü.

Bəzi baxışlardan isə – bunların sayı daha çox idi – qəzəb yağırdı. Dobrovolskinin soyuqqanlılıqla vərəqələri barmaqlarının arasından yerə buraxdığını gördükdə bu gözlərin sahibləri bəbir kimi onun üstünə atılmağa hazır idilər. Onların baxışlarında elə bir alov qüdrəti vardı ki, bütün Qalanı odlara yaxıb yandıra bilərdi. Bu gözlər fitilinə od vurulmuş dinamitə bənzəyirdi: gec-tez partlayacaqdı, mütləq, mütləq partlayacaqdı.

Varlamov sağ tərəfində durmuş soldatları göstərərək, onların vərəqələri oxuduqdan sonra ciblərinə dürtdüklərini Dobrovolskiyə xəbər verdi. Dobrovolski onlara qəzəbli bir nəzər saldı. Otuz nəfərdən artıq olan bu soldatlar özlərini heç bir günah sahibi hesab etmədikləri üçün laqeydliklə durub baxırdılar.

Dobrovolski dinmirdi. Onun ancaq qəzəblə parıldayan gözlərinin hədələyici, qorxunc nəzərləri soldatların üzərində gəzişirdi. Dobrovolski susduğu zaman daha dəhşətli idi. Məhz belə dəqiqələrində o nə isə insan üçün fiziki cəhətdən ən amansız və dözülməz cəzalar fikirləşib axtarırdı. Məhz belə dəqiqələrində o, insan təbiətindən çıxaraq, qana susamış yırtıcı heyvan kimi öz ovunu parçalamaq, onu hərisliklə didişdirmək üçün çırpınırdı.

İnsan iztirabı ona təsəlli verəcək yeganə mənəvi qida idi. İndi ömrünün enişli çağlarında onu bu vaxtadək yaşatmış həyat şövqlərindən yalnız bu ehtiras ona miras qalmışdı. Qalanları isə ancaq hərdənbir, kül içərisində közərən cılız alovları xatırladırdı.

Kapitan Qasse podpolkovniklə uzun müddət birgə işlədiyindən gah coşub çılğınlaşan, gah da dilsiz kəsilərək, içərisində vulkan qaynadan qeyri-adi təbiətinə agah olduğundan, bayaqdan bəri ağzını açıb dinməyə cəsarət etmirdi. O, podpolkovnikə müraciət edərək, vərəqələrin yayılmasında təqsirləndirilən bu soldatların cəzasını



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

verməyi öz üzərinə götürmək istəyirdi. O hətta özlüyündə onlara necə divan tutmağı da düşünüb-daşınmışdı.

Varlamov da batalyon komandirinin qabağında duraraq, əmr gözləyirdi. Hamı sükut içində idi. Müqəssirlər susaraq cəzalarını gözləyir, hakimlər isə öz aləmlərində onlar üçün hökm, iztirablı cəza hazırlayırdılar.

Nəhayət, batalyon komandirinin səsi eşidildi.

– Poruçik Varlamov!

Varlamov əlini gicgahına apararaq, onun qabağında qəddini düzəltdi.

– Poruçik Varlamov, cibində vərəqə tapılmış soldatlar mənim əmrim olmayınca yerlərindən tərpənməməlidirlər. O birilər isə azaddır.

O, vərəqələrin yandırıldığı yerə bir də nəzər salıb getdi. Varlamov tez ciblərindən vərəqə tapılmış soldatların dörd dövrəsinə keşikçilər qoydu. O biri soldatlar isə qışlalara dağılışdı.

Hamı soldatlara nə divan tutulacağını gözləyirdi. Ancaq heç kəs bu barədə bir şey bilmirdi. Hətta Varlamov özü də soldatlarla nə edəcəyini bilmirdi. O hər dəqiqə təzə əmr gözləyirdi. Bu, podpolkovnikin növbəti tapmaca – cəzalarından olduğunu hamıdan qabaq yenə Varlamov özü başa düşdü. İki saat keçdi, təzə heç bir sərəncam olmadı. Hava qaraldı, ayaq üstə durmaqdan qıçları sızıldayan soldatlar, nəhayət dilləndilər:

– Nə cəza verəcəksinizsə, verin, ayaq üstə ağac kimi bitməyəcəyik ki?

Onların etirazına cavab verilmədi. Bəzisi dizlərini büküb yerə oturdu. Bunu öz pəncərəsindən görən Dobrovolskidən elə o dəqiqə sərəncam gəldi ki, soldatların yerə oturmağa ixtiyarı yoxdur. Keşikçilər yerə oturmuş soldatları süngü gücünə ayağa qaldırdılar. Podpolkovnikin niyyəti bəziləri üçün aydınlaşdı. O, soldatları ayaq üstə saxlamaqla cəza vermək istəyirdi.

Axşamdan xeyli keçdi. Otuz iki nəfər soldat hələ də dirək kimi bitib həyətin ortasında durmuşdu. Üç nəfər keşikçi tüfənglərinin süngüsünü onlara tərəf tuşlayaraq, yalnız bir anlığa belə diz üstə çökməyə təşəbbüs edən soldatların üzərinə çığırır, bununla iş aşmayanda isə süngünü böyürlərinə dayayırdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qışlalarda işıqlar söndürüldü. Bir azdan podpolkovnikin pəncərəsi də qaranlıqlaşdı.

Soldatlardan heç kəs yatmamışdı. Ayaq üstə bitili duran yoldaşlarını düşünürdülər. Hamıdan çox narahat olan şəhərdəki qışlalarda yaşayan soldatlardı. Qriqori gizlincə vicdan əzabı çəkirdi. Demeşko heç zaman indiki tək qəzəblənməmişdi. O yenə də öz hirsini yoldaşlarının üzərinə tökürdü.

– Gördünüzmü? – deyə, üzünü başqalarına tutub danışsa da, sözünü Viktora eşitdirirdi. – onun axırına çıxsaydım, yoldaşlarımız da belə əziyyət çəkməzdi. Kimin ağlına belə bir cəza gələr? Belə şeyləri ancaq ondan gözləyin!

Nə yoldaşları, nə də Viktor Demeşkonun dediklərini saya almırdılar. O bundan daha da əsəbiləşir, yaralanmış şir kimi qışlanın içərisində gezişir, ağzı köpüklənə-köpüklənə öz-özünə deyinirdi:

– Təqsir, əlbəttə, özümdədir. Nahaq sizin sözünüzlə oturub dururam. Onun işini elə bitirərdim ki, heç birinizin xəbəri olmazdı. Yox, durub gözləyəcəyəm ki, hamını gözlərim baxa-baxa şikəst eləsin, axırlarına çıxsın? Yox, mənim buna səbrim çatmaz. Siz...

Dağların üstündə birdən ildırım şığıdı. Qaranlıq qışla bir anlığa elə bil nura qərq oldu. Yer-yerdən qəzəbli gözlər parıldadı, sonra yenə hər şey və odlu gözlər də təzədən zülmətdə əridi. Demeşko, nə isə demək istəyirdi ki, göy guruldadı və dəhşətli bir şaqqıltı ilə dağlarda əks-səda verərək, yeri-göyü lərzəyə gətirdi. Onun kəsməsi ilə qışlanın dəmir damının təbil kimi döyəclənməsi bir oldu. Dolu tökməyə başlamışdı. Demeşkonun səsi daha hündürdən eşidildi:

– Buyurun, yəqin bunu heç gözləmirdiniz?! Sizə nə var ki, rahat, quru qışlada uzanmısınız?! Onların yerinə olsaydınız, onda mənim sözlərimə haqq verərdiniz. – Yenə heç kəsin dinmədiyini gördükdə, səsini bir az da ucaltdı. – Eşidirsinizmi, axı sizinləyəm, onlar orada əzab çəkirlər!

Səhərdən bəri yoldaşlarının həyatını düşünən Viktor Demeşkonun axırıncı sözlərinə laqeyd yanaşa bilmədi.

– Yox, Stepan, orada əzab çəkmirlər. Orada inqilab, üsyan yetişir. Üsyan belə qızışır, adamlar əzab çəkə-çəkə. Bu, Qriqorinin oraya çatdırdığı vərəqələrin nəticəsidir. İldırım bu saat göydə deyil, orada, qaladakıların arasında çıxır. Bir azdan isə göy gurlayacaqdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayaq üstə durmaqdan əldən düşmüş soldatlar yağışın tökməsi ilə başdan-ayağa islandılar. Keşikçilər heç kəsi yerindən tərpənməyə qoymurdu. Özləri onlarla birlikdə islansalar da, tez-tez dəyişirdilər. Soldatlardan bəzisi ayaq üstə mürgü vururdu. Bəzisi yağışın şiddətlə tökülməsinə baxmayaraq gündüzün ağır təlimindən sonra durduqları yerdə yuxuya getdiklərindən birdən dibindən kəsilmiş ağac kimi yerə sərilirdi. Keşikçilər dərhal yaxınlarının başının üstünü alaraq, onları təzədən ayaq üstə qalxmağa məcbur edirdilər. Adamlar bir-bir yıxılır. Süngülər isə onları ayağa qaldırırdı.

Yorğunluq, yuxusuzluq və yağış otuz iki nəfər soldatın amansız düşməni kəsilmişdi. Birisi yenə soldatların durduğu yerdə əmələ gəlmiş gölməçənin içinə sərildi. Keşikçilər onu ayağa qaldırmaq istədilər. Lakin o, şirin yuxuda idi. Onu qaldırıb ayaq üstə qoyan kimi, müvazinətini itirərək üzü üstə yıxılırdı. Yuxu hər şeyə qalib gəlmişdi. Nə şiddətlə tökən yağış, nə də əzab yuxunu yenə bilmirdi. Keşikçilər axırda naəlac qalıb, onu sürüyərək bir kənara çəkdilər. O yenə də şirin yuxuda idi.

Yağış bütün gecəni tökdü, adamlar da bütün gecəni onun altında ayaq üstə durdular. Yıxılanlar yıxıldı, onları daha ayaq üstə qaldırmaq mümkün olmadıqda, keşikçilər sürüyüb kənara çəkdilər. Çoxu isə səhəri ayaq üstə açdı. Lakin sübhün gözü açılarkən onlar tamam başqa adam olmuşdular. Kin və qəzəblə parlayan gözlərdə bir gecənin içərisində qəribə, odlu-alovlu bir ifadə yaranmışdı. Bu ifadə onların sifətinə başqa rəng, başqa məna həkk edirdi.

Soldatlar intiqam hissi ilə alovlanmışdılar. Səhər podpolkovnik gölməçənin içində durmuş soldatlara yaxınlaşanda hamı, bəzisi əzab və çətinliklə olsa da, özünü mərd və dözümlü göstərməyə çalışdı. Çoxu yuxusuzluqdan daşa dönmüş gözlərini güclə açırdı. Yalnız yeddisi dözə bilməmişdi. Onları podpolkovnik gələnədək sürüyüb qışlaya apardılar. Podpolkovnik soldatların qarşısından keçib, hərənin qabağında bir anlıq ayaq saxlayaraq, onların yorğunluq, əzab və nifrətlə dolu gözlərində nə isə oxumaq istəyirdi. Soldatlardan heç biri göz də qırpmırdı. Heç biri qəddarın qarşısında özünü alçaltmaq istəmirdi.

Dobrovolski yenə sükut içində çıxıb getdi. Yarım saatdan sonra isə soldatların ayaq üstə durmaq cəzasından azad edilmələri haq-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qında əmr gəldi. Ancaq onlara dinclərini almağa imkan verilmədi. Oradan birbaş təlimə göndərildilər.

Yağışdan sonra çıxan yay günəşinin yandırıcı şüaları altında aparılan təlim günortadan çox keçmiş qurtardı. Gecəni yuxusuz keçirmiş soldatlar qıçlarını arxalarınca güclə çəkir, qapanan gözlərini zorla açaraq, yuxu ilə əlbəyaxa mübarizəyə girişmişdilər. Bununla belə onların gözlərindəki və qəlblərindəki nifrət odu hələ də alovlanırdı. Adama elə gəlirdi ki, imkan düşən kimi bu od şölələnərək, hər şeyi yandıracaqdır, intiqam hissi ilə dolub-daşan adamların azadlığa olan coşqun meyllərini heç bir qüvvə yenə bilməyəcəkdir.

Təlimdən qayıdandan sonra gecəni ayaq üstə keçirmiş soldatlar nahar etmədən yatağa uzanıb ölü kimi düşdülər. Onlar yalnız ertəsi gün səhər ayıldılar. İşgəncəli əzabın ağırlığı bədənlərindən çıxsa da ürəklərindəki od sönməmişdi. Əksinə, dincəlib yuxusuzluğun acısı gözlərindən çıxandan sonra, onlar olub-keçmişləri daha dərindən dərk etməyə başladılar. Belə bir əzabın acısı uzun müddət onları düşündürəcəkdi. Ayaq üstə dura bilməyib, yuxunun gölməçə içərisində yuvarlatdığı və bütün gecəni burada keçirən soldatlardan iki nəfəri xəstələndi. İkitərəfli ciyər iltihabına tutulduqlarından hərarətləri qalxdı. Onları hərbi xəstəxanaya aparmağa məcbur oldular.

Podpolkovnik ciblərindən vərəqə tapılmış soldatların layiqli caza aldıqlarını güman edib, əsl mətləbə keçdi. O, vərəqələrin Qalaya hansı yolla gətirildiyini öyrənmək üçün istintaqa başladı. Məlum olduğuna görə vərəqələr mətbəx üçün tərəvəz daşınan səbətlərdə gətirilmişdi. Feldfebeldən tutaraq, səbətləri gətirmiş soldatlara qədər hamı bir-bir istintaqdan keçirildi. Heç birisinin xəbəri yoxdu. Feldfebel səbətlərin altında heç bir şey olmadığını, vərəqələrin, yəqin ki, sonradan Qalada oraya qoyulduğunu söyləyirdi. Soldatlar isə yerli-dibli heç bir şey görmədiklərini bir ağızdan deyirdilər. Podpolkovnik vərəqələrin qalanın içində səbətlərə qoyulduğuna inanmırdı. O, səbətlərlə kənardan gətirilmişdi və buna heç bir şəkk-şübhə ola bilməzdi. Dobrovolskini narahat edən onların Qalaya gətirilməsində soldatların iştirak edib-etməməsi idi.

Bütün səyinə baxmayaraq, soldatlardan tutarlı bir söz çəkə bilmədi. Feldfebel üzərinə düşən şübhəni özündən rədd etmək üçün ağzından qaçırtdı ki, guya səbəti gətirən iki nəfər soldatın hərəkət-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ləri ona birtəhər görünmüşdür. Dobrovolski də buradan tutub kələfin ucunu tapmaq istədi. Feldfebel yaxasını qurtardı.

Hədə-qorxu başlandı. Soldatlar isə heç bir şeydən xəbərləri olmadıqlarını hər dəfə etiraf edib dururdular. Batalyon komandiri yenə də təzə bir cəza düşünmək üçün susdu.

Ertəsi gün səhər xəbər çıxdı ki, mətbəx üçün şəhərdən tərəvəz daşıyan iki soldat hərbi-səhra məhkəməsinə verilmişdir. Hər ikisi də qandallanmışdır.

Onlar karserdə etiraz əlaməti olaraq, aclıq elan etdilər. Gətirilən yeməyi hər gün geri qaytardılar. Qalada və şəhər qışlalarında gizli söhbət gedirdi ki, Varlamovun adamları hər gün soldatları döyərək, onları yeməyə məcbur edirdilər. Bu, batalyon içərisində böyük bir həyəcana səbəb oldu. Qriqori yenə vicdan əzabı çəkirdi. Demeşko nəyin hesabına olursa-olsun batalyon komandirini öldürəcəyinə and içdi. Viktor Bondarçuk isə batalyon daxilindəki hadisələri izləyərək, adamların üsyan üçün hazır olduqlarını hiss edirdi. Üsyan gündən-günə, saatdan-saata yetişirdi. Yeganə məsələ silah daşınmasını sürətləndirmək idi. Bu barədə o, yerli sosial-demokratlara danışmalı idi.

## XXV fəsil

Küləkli bir gündə Qala düzündən aşağıda xəlvət döngələrin birisində bir soldat kolluğun dalına girib pusquda durmuşdu. Axşamdan azca sonra əl-ayaq yığışdı. Soldat isə yerindən tərpənmirdi. O, axır günlər sezmişdi ki, həmişə bir qorodovoy bu yolla keçib, evinə tərəf gedir. Zəif, çəlimsiz qorodovoyun surəti çoxdan bəri idi ki, soldatın düşüncəsini məşğul edirdi. Onunla təkbətək çarpışmada öhdəsindən gələ biləcəyini dəfələrlə ölçüb-biçmiş və belə nəticəyə gəlmişdi ki, hətta təkbaşına onun əl-qolunu da bağlaya bilər. Soldatı da bu gün buraya sürüyüb gətirən onun belə qərarı idi.

Külək ağacların başında uğuldayırdı. Küçələrdə ins-cins adına bir kimsənə görünmürdü. Soldatın gizləndiyi kolluğun dalından irəlidəki tək fənərin işıqlandırdığı döngənin girəcəyi aydın görünürdü. Qorodovoy oradan içəri keçərkən birinci növbədə soldatın nəzərinə çarpacaqdı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Soldat həyəcanlı idi. Əgər qorodovoy bu gün buradan keçməsə, onun bütün məqsədi alt-üst olacaqdı. Bir azdan döngənin ağzında bir uşaq göründü. O, atıla-atıla gəlirdi. Kolluğun bərabərinə çatdıqda oğlan ayaq saxlayıb durdu. Soldat gözlərini döyəcləyərək, onun nə üçün durduğunu öyrənmək istədi. Oğlan əllərini cibinə salaraq araşdırmağa, nə isə axtarmağa başladı. Elə bu zaman döngənin ağzında qorodovoyun alçaq, cılız vücudu göründü. Soldat çıxılmaz vəziyyətdə qaldı. Qorodovoy yaxınlaşınca oğlan yoluna davam edib uzaqlaşmasaydı, soldatın niyyəti baş tutulası deyildi. Buna görə yavaşdan, döngənin içərisinə tərəf irəliləyən qorodovoy eşitməsin deyə soldat qəribə bir səs çıxararaq, oğlanı qorxutmaq istədi. Oğlan səsi eşidən kimi doğrudan da yerindən qopub elə qaçdı ki, cibindən cingilti ilə yerə düşən pulunu da qaldırmağa macal tapmadı. Oğlan gözdən itdikdə qorodovoy kolluğun qarşısına yetişdi. Soldat fürsəti əldən vermədən kolun dalından pişik kimi sıçrayıb, qorodovoyun üstünə atıldı. Əvvəlcə bir əli ilə onun ağzından yapışıb belindən tapançasını açdı. Onu cibinə qoyandan sonra qorodovoyun ağzını buraxmadan onun qolunu burub, dalına qaytardı. Cibindən yaylıq çıxarıb, ağzına dürtdü. Sonra meyit kimi yolun ortasına yıxılmış qorodovoyun qollarından yapışaraq onu kolun dalına çəkdi...

Soldat kolun dalından çıxdıqda döngədə heç kəs yox idi. O az qala qaça-qaça kilsə meydançasına tərəf yönəldi.

Bu hadisədən bir az sonra kilsədən qayıdan Nikolay buradan keçərkən, Bəhramgilin yaşadığı məhəlləyə burulmaq istərkən yasəmən kollarının dalından eşidilən səsə ayaq saxladı. Geri döndü. Xırıltılı səs təkrar eşidildi. Nikolay kolun dalına boylandı. Qaranlıqda gözünə yerə uzadılmış bir adam dəydi. Tez kolun dalına keçib, onun köməyinə çatdı. Qorodovoyu tanıdı. Ağzına basılmış yaylığı çıxartdı. Qollarını açdı. Qorodovoy hələ də özünə gəlməmişdi. Nə isə kəkələyə-kəkələyə demək istəyirdi. Nikolay onun sözlərindən heç bir şey baş açmırdı. Axırda qorodovoy əlini boş koburuna tərəf apardı. Nikolay başa düşdü ki, onun tapançasını belindən açıblar. Halına acıdı. Qorodovoya bildirdi ki, tez gedib pristava xəbər versin.

– İsti ikən bildir, – dedi, – sonra səni ora-bura çox çəkərlər.

Qorodovoyu ayağa qaldırdı.

– Kim idi, tanımadın? – deyə soruşdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qorodovoyun səsi boğazından güclə çıxırdı.

– Tanıdım. Soldatlardan idi.

O, boş koburu sinəsinə basaraq uzaqlaşdı. Bir neçə addım aralanandan sonra Nikolayı səslədi.

– Əgər şahid istəsələr səni deyəcəyəm. Çox razıyam ki, köməyimə çatdın.

O yenə yoluna düzəldi. Nikolay da oradan Bəhramgilin məhəlləsinə tərəf buruldu.

Nikolay Bəhramı və onun qardaşı Uluxanı yaxşı tanıyırdı. Uluxan onunla yaşıd idi. Gənclikləri də burada bir yerdə keçmişdi. O, Bakıya işləməyə gedəndən sonra onun üzünü bir daha görməmişdi. Ancaq uzaqdan-uzağa onun haqqında eşidirdi ki, Bakı fəhlələri arasında böyük hörməti vardır, sahibkarların və polislərin onun əlindən canları boğazlarına yığılıb. Neçə dəfə qanlı vuruşmalarda iştirak etməsinə, hətta yaralanmasına baxmayaraq, öz məqsədindən dönməmişdir. Bəhram isə Nikolaydan çox kiçik idi. Onun balaca qardaşı yerində ancaq olardı. Lakin Bəhram şəhərdə onu tanıyanlar arasında özünə görə elə hörmət qazanmışdı ki, çoxu onun yanına məsləhətə gəlirdi. Yıxılanın əlindən həmişə tutan adam idi. Nikolay öz-özlüyündə neçə dəfə yeznəsi ilə onu müqayisə eləyəndə üstünlüyü həmişə bu gənc oğlana qazandırmışdı. Qara Nəsirin yetimlərinin qeydinə onun necə qaldığını görəndə Bəhram Nikolayın nəzərində daha da yüksəlmişdi. "Belə adamlar olmasa camaat çox korluq çəkər, – deyə düşünürdü. – Onlar elin xeyrinə də, şərinə də həmişə yarayırlar".

Bəhramın haqqında məhz belə fikirdə olduğu üçün idi ki, axşam vaxtı onu çox mühüm bir şeyi xəbər verməyə gedirdi. Ertədən bunu edə bilməzdi. Şəhərin belə qarışıq vaxtlarında divarlarında sanki gözü, qulağı vardı.

O, gəncliyindən tanıdığı qapıya yaxınlaşdı. Onu yavaşcadan döydü. Qapını Bəhram özü açdı. Poçt müdirini görüb heyrət etdi.

– Buyurun, Nikolay əmi! – dedi. – Həmişə siz gələsiniz.

Nikolay içəri keçdi. Bəhram onu həyətin ortasındakı taxtın üstündə oturtmaq istədi. Nikolay razı olmadı.

– İçəri keçək, – dedi.

İçəri keçdilər. Nikolayın belə ehtiyatlı gəliş onu təəccübə salmışdı. Onları Bəhramın xəstə anasına yatdığı otaqdan keçib,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kiçik ala-qaranlıq bir otağa daxil oldular, otağa işıq, xəstə qarının yatdığı ara otağın açıq qapısından düşürdü. Bəhram lampanı bu otağa keçirmək istədi, Nikolay buna da razı olmadı.

– Belə yaxşıdır, – dedi. – Zəhmət çəkmə, bu dəqiqə gedirəm, – sonra nə üçün gəldiyini izah etməyə başladı. – Mən Uluxanı səndən daha yaxşı tanıyıram. Bakıya işləməyə getməmişdən qabaq tez-tez onunla görüşərdik. Görürəm ki, sən də yaxşı oğlansan. Buna görə də səni bir şeydən xəbərdar etmək istədim. Güman edirəm ki, bu söhbət öz aramızda qalacaqdır.

– Əlbəttə, bu nə sözdür.

– Ona görə deyirəm ki, bu çox gizli saxlanılan bir şeydir. Ancaq sənə inandığım üçün açıb deyə bilərəm.

– Nikolay əmi, o sarıdan ürəyini lap buz kimi saxla. Bizdən söz çıxmaz. Arxayın ol.

– Orasını bilirəm, ona görə də sənin qapına gəlmişəm. Bizdə bəzən çox qəribə işlər olur. Zəmanə xarablaşıbdır. Bir də görürsən ki, hamının hörmət etdiyi nəcib bir adamı gözümçıxdıya salırlar, axmağın birisi isə meydan sulayır. Qılıncının dalı da kəsir, qabağı da. Müxtəsər, mətləbi nə uzadım: mənə göstəriş gəlib ki, poçtda bəzi adamların adına gələn məktubları açıb oxumaq üçün lazımı yerlərə göndərim. Belə iş heç yerdə deyiləsi deyil. Di gəl, heç bir şey eləyə bilmirsən. Hökumətin göstərişidir. Ona görə də gəldim xəbər verim ki, duyuq düşəsiniz.

– Onlar kimlərdir? – deyə Bəhramın səbri çatmadı.

– Bu saat deyəcəyəm.

O, əlini qoltuq cibinə atıb, ikiqat bir kağız çıxartdı. Onun qatını səliqə ilə açaraq, oxumaq istədi. Ancaq yazılar bir-birinə qarışdığı üçün eynəyini çıxarmağa məcbur oldu.

– Burada on-on beş nəfərin adıdır. Onlardan birisi sənsən. Ancaq əvvəlcədən onu deyim ki, hələlik heç kəsin məktubunu ələ verməmişəm. Sənə gələn axırıncı məktubu da özümlə gətirmişəm. Dedim ki, qoy ələ düşməsin. Budur, – o, əlindəki məktubu Bəhrama uzatdı. – İndi soruşa bilərsən ki, nigarançılığım nədəndir? Nə üçün belə əl-ayağa düşmüşəm. Qoy açığını deyim: Uluxan bilirəm ki, orada fəhlələrlə birləşib, tətillər düzəldir. Burada da pristavın onu görən gözü yoxdur. Deyirəm ki, işdir-qəziyyədir, məktubunda bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

işarə vurar, onun üstündə sən düşərsən cəncələ. Yaxşısı budur ki, sən işdən agah olasan.

– Nikolay əmi, sizə necə minnətdarlıq eləyim, özüm də bilmirəm. Bəs bundan sonra mənim adıma gələn məktubları siz özünüz gətirəcəksiniz?

– Yox. Mənim fikrim başqadır. Deyirəm ki, sən Bakıdakılara xəbər elə ki, bundan belə məktubları sənin adına göndərməsinlər. Bununla da hər şey qurtarıb gedər.

Nikolayın dediyi sözlər Bəhramın başına batdı. Ən düzgün yolu elə o fikirləşmişdi. Nikolayın özü gətirdiyi məktub isə, ələ keçməyib. Bəhram bu məktubda çox xəbərlər gözləyirdi.

Nikolayın belə mərd hərəkətinə görə özlüyündə yenə ona minnətdarlıq elədi. Əvvəllər heç ağlına gəlməzdi ki, Nikolay belə namuslu, nəcib bir adamdır. Deməli, onun öz yeznəsi Xaçaturyansla heç bir əlaqəsi yoxdur.

– Nikolay əmi, düz deyirsiniz. Bundan sonra elə edərik.

– Səndən başqa bir neçə adamın da adı var ki, istəyirəm, onlara da sən xəbər verəsən. Düzünü deyim ki, mənim şəhərdə xoşum gələn adamların hamısının adı bu siyahıya salınmışdır. Ürəyim onlar üçün yanır. Məni lap işdən çıxarsalar da, bunu sizə deməli idim. Görürəm ki, siz nə qədər ədalətli adamlarsınız. Qara Nəsirin qəbiri üstündə dediyin sözlərdən inan ki, gözlərim yaşardı. Deyirəm ki, elə belə xeyirxah işlərinizə görə gözləri sizi götürmür...

– O biriləri kimlərdir?

– Arşakdır, Lalənzar xanımdır. Mən bir şeyə təəccüb qalmışam. Kişiləri salırlar salsınlar, bəs bu qadının nə günahı var? Adam da qadına qarşı belə hörmətsizlik eləyər, özü də elə qadına. Nə olsun ki, əri Sibirdə ölüb. – O başını buladı. – Müxtəsər, dünya lap xarablaşıb. Bəlkə onlara da sən xəbər eləyəsən? Mən daha hamının evinə getmək istəmirəm. Sonra onların qulağına xəbər çatar, yaxşı olmaz.

Nikolayın tez-tez "onlar" deməsindən hiss olunurdu ki, o, məsələni bütünlüklə açıb demək istəmir. Bəhram isə, o deməsə də başa düşürdü ki, Nikolay Taytsla, pristava işarə edir.

– Nikolay əmi, siz zəhmət çəkməyin, onlara mən xəbər verərəm. Çatdırılası məktub varsa verin.

– Yox, onlara məktub gəlməyib. Mən daha gedim, gecdir. Şəhər küçələrinə bivaxt çıxmaq da xatalı olub.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Necə məgər?

– Mən buraya gələndə kolun dalından xırıltı səsi eşitdim. Əyilib baxdım. Gördüm ki, qorodovoylardan birinin ağzını bağlayıb yıxıblar böyrü üstə. Soruşdum, dedi ki, soldatlardan biri eləyib. Tapançasını da çıxarıb qaçırmışdır.

– Soldatı tanıya bilib? – deyə Bəhram həyəcanla soruşdu.

– Bilmirəm. Niyə soruşursan?

– Heç. Elə-belə.

Nikolay xudahafizləşib getdi.

* * *

Qorodovoyun tapançasını almış soldat qaranlıq küçələrlə oğrun-oğrun kilsə meydanına tərəf getdi. Kilsədə axşam duası bitmişdi. Lakin içəridən hələ də işıq gəlirdi. Soldat uzaqda, ağacların altında durub gözlədi, içəridən heç kəsin çıxmadığını gördükdə ləngimədən əyilə-əyilə yaxınlaşaraq, kilsənin dal tərəfinə keçdi. Burada, yoxuşun ətəyində üç çinar ağacı bir sırada boya-boy durmuşdu. Onların qol-budaqları elə qaynayıb qarışmışdı ki, sanki Qalanın baş darvazasına qalxan yoxuşla, kilsə binasının arasında yaşıl hündür bir hasar çəkilmişdi. Soldatrtadakı çinarın yoğun gövdəsi ilə dırmaşıb, onun sıx budaqları arasında özünə yer düzəltdi. Bir azdan aşağıda kilsənin işıqları söndürüldü və kim isə yəqin ki, kilsə xidmətçilərindən biri bayıra çıxaraq, qapını bağladı. Soldat bunu gördükdən sonra arxayınlıqla nəfəs aldı.

Onun oturduğu yerdən Qalaya qalxan yoxuş, darvaza və darvaza ağzında var-gəl edən keşikçi soldat aydın görünürdü. Soldatın özünü isə oradan heç kəs görə bilməzdi, çinarın enli yarpaqları onu yad nəzərlərdən möhkəm gizlətmişdi.

Yarım saatdan çox keçmişdi. Soldat qorodovoydan aldığı tapançanı ehtiyatla yoxladı. Üç gülləsi var idi. Əgər bu üç güllənin üçü də boşa çıxsaydı, o öz ölümünü birdəfəlik gözü qabağına almalı idi. Oxucum, yəqin, sən soldatın kim olduğunu bilirsən. Elədir ki, var. Demeşkodur. O axır ki, səbr edə bilməyib, podpolkovnik Dobrovolskini öldürmək qərarına gəlmişdi. Axşamdan podpolkovnikin pristavın evində qonaqlıqda olacağını bilirdi. Buna görə də indilərdə onun qayıdacağını gözləyirdi. Aşağıda, kilsə meydanında



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

səs-səmir çoxdan kəsilmişdi. Deməşko budaqların arasından meydanı görməsə də, orada eşidilən hər kiçik xışıltı onun qulağından yayınmırdı. İndi onun xəyalında ancaq öz yoldaşları dolaşırdı. Yəqin ki, onun bu hərəkətindən hamı xəbərsizdir və bu vaxtadək harada ləngiməsindən nigarandırlar. Dobrovolskinin öldürülməsi onları, əlbəttə, ağır vəziyyətə salacaqdı. Lakin, Deməşko bir şeylə özünə təsəlli verirdi ki, hamı Dobrovolski kimi cəlladın əlindən birdəfəlik yaxa qurtaracaqdır: "Qoy o biriləri heç olmasa rahat nəfəs alsınlar. Belə bir qəddarın nəfəsini kəsmək, bəlkə, başqalarını da ağıllandırardı. Qoy ürəklərinə vəlvələ düşsün ki, vəhşinin cəzası yerdə qalmır".

Kilsə meydanında addım səsləri eşidildi. Deməşko çinarın budaqlarını ehtiyatla aralayıb, meydanda gələnləri görməyə çalışsa da, mümkün olmadı. Dobrovolskini addımlarından tanıdı. Yanınca gələn də, yəqin ki, yavəri idi. Onlar meydandan keçib, yoxuşla Qalaya qalxmağa başladılar. Deməşko tapançanın çaxmağını çəkib, hazır tutdu. Bir azdan Dobrovolski və onun yanınca gələn yavəri Deməşkonun rubərunda göründülər. Birdən yoxuşun tən ortasında podpolkovnik ayaq saxladı. Deməşko nəfəsini gizlədib, yerindəcə donub qaldı. Ona elə gəldi ki, yoxuşla qalxanların nəzərini cəlb etmişdir. Lakin Dobrovolski öz yavərini geri göndərib, özü yoxuşu təkbaşına qalxdıqda Deməşko başa düşdü ki, o, yavərini yatmağa göndərir. Bu, Deməşko üçün daha əlverişli vəziyyət yaratdı. O, podpolkovnikin bir az da uzaqlaşmasını gözləyib, kürəyindən nişan aldı. Yavər artıq uzaqlaşıb, sağ tərəfdəki ağacların dalında görünməz oldu. Qabaqda darvaza ağzında gəzinən soldat isə çox uzaqda idi. Deməşko fürsəti əldən verməyərək çaxmağı basdı və bir-birinin dalınca iki güllə açıldı. Podpolkovnik getdiyi yerdə səndirləyib, üzüüstə tappıltı ilə yerə sərildi. Güllə səsinə ayaq saxlayan yavər arxaya qanrıldı və podpolkovnikin yerə yıxıldığını görən kimi tez qaçaraq özünü ona çatdırdı. Deməşko özünü itirmişdi. O, yavərin və darvaza ağzındakı keşikçinin yüyürüb gəldiklərini görəndən sonra sanki özünə gəlib, tələsik ağacdan yerə atıldı. Papağı budaqlara ilişib başından ağacın dibindəki pöhrəliklərin arasına düşdü. Onu axtarmağa daha macal tapmadı, pəncələri üstə, səs çıxarmadan qaranlıq küçələrə tərəf qaçdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qala düzündə bir an içində hər şey bir-birinə qarışdı. Qışlalarda hamı ayağa qaldırıldı. Qapılarda keşikçilərin sayı artırıldı. Həkim özünü çatdıranadək podpolkovnik keçindi. Varlamovun keşikçi dəstələri qarışqa kimi Qala düzünün dörd bir tərəfinə səpələndi. Ağacların, kolların dibləri axtarıldı. Rotalarda axtarışlar aparılarkən yeddinci rotadan Deməşkonun qışlada olmadığı məlum oldu. Səhərə yaxın otuza qədər soldat, o cümlədən Viktor Bondarçuk, Qriqori Romanov, Sırojkin və başqaları həbs edildi. Podpolkovnikin məhz Deməşko tərəfindən öldürüldüyünə heç bir şübhə qalmamışdı. Sübhün gözü açılan kimi bir tərəfdən Dobrovolskinin dəfninə hazırlıq görülməyə başlandı, o biri tərəfdən isə Varlamovun keşikçi dəstələri qorodovoylarla birlikdə şəhərin bütün həyət-bacalarını axtarmağa getdilər. Evlər, həyətlər, tövlələr, samanlıqlar axtarıldı. Soldatlar qabaqlarına çıxan bütün ot tayalarını, samanlıqları süngü ilə araşdırıb, didişdirdilər. Dükanlara, hətta hökumət idarələrinə və məscidə də baş soxdular. Lakin Deməşko heç yerdə tapılmadı. Tayts da canfəşanlıqla, keşikçi dəstələrinə kömək edirdi. O, birinci növbədə öz siyahısında adları qeyd edilmiş adamların həyət-bacalarını axtartdırdı. Bəhramgilin həyətindəki uçuq tövlədən tutaraq, Lalənzar xanımın həyətindəki talvaradək keçirilən axtarışlarda bilavasitə özü də iştirak etdi.

Axtarış bütün günü davam etdirildi. Lakin matros Deməşkonun izinə düşmək mümkün olmadı. Yalnız hava qaralandan sonra axtarış dayandırıldı.

Axşamdan bir az keçmiş isə ucqar həyətlərdən birində Deməşko gizləndiyi samanlıqdan çıxdı. Evdəkilərin samanlıqda adam gizlənməsindən xəbərləri yox idi. Deməşko samanlıqdan çıxan kimi it bərkdən hürməyə başladı. Səsə ev yiyəsi bayıra çıxdı. Qolundan qan sızan Deməşkonu görüb təəccüblə soruşdu:

– Sizə kim lazımdır?

Deməşko təqib edildiyini ona xəbər verən kimi, ev yiyəsi təşvişə düşdü və qarşısında duran adamın bütün şəhəri vəlvələyə salmış həman soldat olduğunu başa düşdü.

– Səni bərk axtarırlar.

– Bilirəm, – deyə Deməşko əlini yarasının üstünə basaraq həyətdən çıxmaq istədi. Ev sahibi təəccüblə soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Haraya gedirsən? Küçədə səni görən kimi tutacaqlar. Birdən onun gözləri soldatın qolundan süzülən qana sataşdı.

– Səndən su kimi qan axır. Belə halda heç yana gedə bilməyəcəksən. İçəri keçək, yaranı sarı.

Demeşko keçmək istəmədi, ev sahibi təkid etdi. Demeşko, nəhayət, məcbur olub evə girdi.

Ala-qaranlıq otaqda altı-yeddi nəfər oğlan və qız uşağı bir-birinə sığınıb oturmuşdular. Hisli lampanın zəif işığında onların ancaq gözləri parıldayırdı. Demeşkonu görən kimi, uşaqlar daha da bir-birinin böyrünə sığındılar. Ev sahibi samovarla əlləşən arvadına su gətirməyi tapşırdı. Sonra özü köməkləşib, Demeşkonun köynəyini çıxartdı. Dirsəyindən yuxarı böyük bir yara açılmışdı.

– Buna nə olub? – deyə ev sahibi soruşduqda, Demeşko zorla gülümsədi:

– Samanlığı süngüləyəndə qolumu deşdilər.

Ev sahibi onun dözümlülüyünə məəttəl qaldı. Təəssüflə başını buladı. Arvadı tasda su və lüləyini gətirdi. Köməkləşib Demeşkonun qolunu yudular və sonra yaylıqla bərk-bərk çəkib bağladılar. Demeşko minnətdarlıq edib, getmək istədi. Ev sahibi yenə xəbərdarlıq etdi ki, şəhərin içinə çıxmaq qorxuludur.

– Bəlkə qalasan? – dedi, – daha gəlib bizim həyəti yoxlamayacaqlar ki, ara sakitləşəndən sonra gedərsən.

Demeşko qala bilməyəcəyini söyləyib, həyətdən çıxdı. Küçə qaranlıq idi. O birinci növbədə papağını axtarmaq qərarına gəldi. Papağını tapandan sonra isə gecə ikən şəhərdən çıxıb getmək istəyirdi. Gündüzün gərgin vəziyyətindən sonra sanki küçələr də dincəlirdi. Səs-səmir yox idi. Demeşko xəlvət küçələrlə keçib, Kilsə meydanına çıxdı. Kilsənin qapısı hələ açıq idi. O, gözə görünməmək üçün sürətlə şığıyıb, çinar ağacının pöhrəliyinə soxuldu. Dünən gecə Dobrovolskini öldürdükdən sonra aşağı atılarkən papağını itirdiyi yeri axtarmağa başladı. Gecə yarısı yağış tökdüyündən ağacın dibi palçıq idi. Pöhrəlikləri aralaya-aralaya əlhavasına çox axtardı. Birdən kilsənin qapısı tərəfdən eşidilən xışıltıya arxaya qanrıldı. Kilsənin aralı qapısında durmuş keşişi gördü. Keşiş barmağı ilə işarə edərək Demeşkonu içəri çağırırdı. Demeşko tərəddüd içində qaldı. Lakin keşişin onu səssiz-səmirsiz çağırmasından ürəkləndi. Bir azdan keşiş içəri girib, əlində Demeşkonun papağını tut-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

duğu halda təzədən qapıda göründü. Demeşko uzaqdan öz papağını tanıdı. Artıq onda keşişin xeyirxahlığına heç bir şübhə yeri qalmadı. Əyilə-əyilə keçərək, kilsəyə daxil oldu. İçəridə keşişdən və çəpgöz kosa zəngçalandan başqa heç kəs yox idi. Demeşko içəri girən kimi keşiş qapını örtdü.

– Qorxuram ki, səni görərlər. Bu saat az qala divarların da qulağı var. – O, əlindəki papağı Demeşkoya uzatdı. – Axşamüstü bizim zəngçalan tapıb. Tapşırmışam ki, səs-küyə salmasın.

Demeşko papağını alıb, minnətdarlıq etdi və getməyə tələsdi. Keşiş razı olmadı.

– Haraya gedirsən, bu saat şəhərin hər bucağında səni axtarırlar. Getmə, istəyirsən, gecəni Allahın evində qal.

– Yox, ruhani ata, qala bilmərəm. Bu gecə şəhərdən çıxmalıyam. Sonra gec olar.

– Öz işindir. Mən səndən ötrü deyirəm. Getmək istəyirsənsə get. Ancaq gəl əvvəlcə sənə xeyir-dua oxuyum.

Demeşko buna etiraz edə bilmədi. Keşiş səsini uzada-uzada avazla ona xeyir-dua verməyə başladı. Çəpgöz zəngçalan görünmürdü. Keşişi öskürək tutdu. O, duanı qurtara bilmədi. Demeşko tələsirdi. Duanı da yarımçıq qoyub getmək istəmirdi. Haçandan-haçana keşiş özünə gəlib, duaya davam etdi. Dəqiqələr Demeşkoya bir il qədər uzun görünürdü. Keşişin aram-aram dediyi sözlər, boş kilsədə əks-səda verirdi. O bu qırmızıyanaq keşişin əlindən qurtara bilsəydi, indicə xəlvət küçələrlə keçib, şəhərin kənarına çıxardı. Gecəni yol gedərdi. Gündüzlər isə kolluqlarda, ağacların budaqları arasında gizlənərdi. Ta Bakıya çatanadək belə getmək fikrində idi.

Keşiş duasını qurtardı. Demeşko daha ləngiməyib, qapıya tərəf cumdu. Keşiş əlini qaldırdı.

– Tələsmə, oğlum, – dedi, – heç kəs yoxdur.

Demeşko yaralı qolunu döşünə apararaq təşəkkür edib, bayıra çıxmaq istəyirdi ki, başda Varlamov olmaqla altı nəfərdən ibarət keşikçi dəstəsi yel kimi içəri soxuldular. Demeşko gözünü qaldırmağa macal tapmadı. Qollarına dərhal qandal vuruldu. Onu kilsədən çıxarıb, apararkən bir anlığa keşişin qabağında ayaq saxladı. Qəzəbli gözləri ilə onu süzdükdən sonra hirslə üzünə tüpürdü:

– Tfu sənə, ruhani ata...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Varlamovun daldan ilişdirdiyi zərbə ona sözünü qurtarmağa macal vermədi. Keşiş istehza ilə gülümsəyərək, əlinin arxası ilə çallaşmış seyrək saqqalını sildi.

Hələ gecə ikən Qalaya və şəhərə xəbər yayıldı ki, podpolkovniki öldürən soldat Demeşko tutulmuşdur. Onun keşiş tərəfindən ələ verildiyi də həmçinin dildən-dilə gəzməyə başladı. Bəziləri çəkinmədən açıqdan-açığa deyirdi ki, keşiş bu işi onun arvadına sataşmış soldatdan intiqam almaq üçün etmişdir. Başqaları isə zarafata salaraq, keşişin ünvanına başqa tərəfdən daş atırdılar.

– Yaxşı, tutaq ki, soldatdan intiqamını bu cür aldı. Bəs başqalarından nə cür qisas alacaq?

Dildən-dilə, ağızdan-ağıza düşən bu söhbətlər mərtəbə-mərtəbə qol-qanad açaraq, nəhayət, keşişin öz qulağına da çatdı. O da bütün acığını arvadından çıxdı, o ki var, onu kötəklədi.

Axşamüstü Tiflisdən jandarm podpolkovniki Başinski gəldi. Onun Zaqatalaya ayaq basması ilə dəhşətli istintaqlar başladı. Birinci növbədə Stepan Demeşkonun yaxın yoldaşları dindirildi. Ancaq heç bir əsas olmadığı üçün onları ittiham etmək o qədər də asan iş deyildi.

Dobrovolski Qala düzünə qalxan yoxuşda, öldürüldüyü yerdə dəfn edilmişdi. Onun dəfnindən üç gün sonra hərbi-səhra məhkəməsinin yaxın günlərdə Zaqatalaya gələcəyi haqqında xəbər yayıldı. Lakin istintaq zamanı Stepan Demeşko Dobrovolskinin öldürülməsində özündən başqa heç kəsin iştirak etmədiyini, Zaqatalaya sürgün edildiyi gündən onun şəxsən belə bir niyyətə düşdüyünü dönə-dönə təkrar edərək, yoldaşlarının həyatını təhlükədən qurtarmağa səy edirdi. Rotalarda dindirilməmiş soldat qalmadı. Hamı birağızdan Demeşkonun, ümumiyyətlə qızğın xarakterindən danışdı, lakin onun gizli niyyətindən xəbərləri olmadıqlarını və bu barədə onun ağzından da heç bir söz eşitmədiklərini deyirdilər. Tapançası alınmış qorodovoy da dindirildi. O da gecə vaxtı Demeşkonun onun üzərinə hücum edərək, tapançasını alanda tək olduğunu təsdiq etdi – keşişin istintaq edilməsi ilə müstəntiq işə xitam verdi. Keşişin mötəbər sözü təsdiq etdi ki, sui-qəsddə Demeşko tək özü iştirak etmişdir. Keşiş tövbə zamanı Demeşkonun dediyi sözləri olduğu kimi müstəntiqə söylədi. “Mənim podpolkovniklə şəxsi haqq-hesabım vardı. Mən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ondan intiqam aldım. Onun zülmünə və təhqirlərinə dözə bilmədim. Mən and içmişdim. Buna görə də bunu etməli idim".

– Mən hətta ondan soruşdum ki, bəs tapançanı haradan tapmışdır, – deyə keşiş əlavə etdi. – O mənə tapançanı qorodovoyun belindən təkbaşına necə açdığını da yerli-yerində danışdı.

## XXVI fəsil

Hərbi-səhra məhkəməsi Stepan Demeşkoya güllələnmə cəzası çəkdi. Bu qəsdlə əlaqədar olaraq həbs edilmiş soldatlar, o cümlədən Viktor Bondarçuk, Qriqori Romanov və başqaları bəraət qazandılar.

Hökm elan ediləndən iki gün sonra səhər tezdən Qala düzündə eşidilən şeypur səsinə bütün rotalar toplaşmağa başladı. Varlamov əvvəlki kimi canfəşanlıq edirdi. Keşikçi dəstəsinin başçısı kimi yaxasını məsuliyyətdən yaxşı qurtardığı üçün sevindiyi aydın hiss olunurdu. Rotalar sıraya düzüldükdən sonra batalyon komandiri vəzifəsini müvəqqəti aparan kapitan Qasse "düzlən" əmri verdi. Rotalar bir nəfər kimi yerindəcə quruyub qaldılar. Qala düzünə çıxan qapı tərəfdən təbil səsləri eşidildi. Hamı nəfəsini çəkib gözləyirdi. Bir azdan darvazalar açıldı. Əvvəlcə silahlı keşikçilər, dallarınca da öküz arabası içəridən çıxdı. Demeşko qolları və ayaqları qandallanmış halda arabanın içərisində oturmuşdu. Arabanın yanınca və arxasınca da silahlı keşikçilər gəlirdilər. Araba rotaların qabağından keçib, qabağa düşdü. Üzünü tük basmış Demeşko yoldaşlarını görərkən zorla gülümsədi. Yeddinci rotanın yanından keçərkən gözləri ilə Viktoru aradı. Viktorun qaşları çatılmışdı. O, qəzəblə alovlanan baxışları ilə Demeşkonu süzdükdən sonra üzünü yana çevirmək istədi. Lakin nə fikirləşdisə, gözlərini ölümə gedən, həm də çəkinmədən, mərdanəliklə gedən yoldaşından ayırmadı. Demeşkonun rəngi qaçmış qalın dodaqlarında zəif bir təbəssüm sezildi. Stepan onunla vidalaşırdı. O, dostlarının üsyan planını pozmuş olsa da, soldatları ən qəddar bir cəlladın əlindən qurtardığı və bu işdə yoldaşlarını heç bir təhlükə altında buraxmaması ilə fəxr edərək, ölümə gedirdi. Viktor belə dəqiqədə onun ürəyinə xal salmaq, qəlbini nisgilli qoymaq istəmirdi. Buna görə də Stepanın təbəssümünə, təbəssümlə cavab verdi. Stepan dərindən köks



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ötürdü. Gözlərini Viktordan çəkib, onunla yanaşı durmuş başqa yoldaşları ilə də vidalaşdı. Araba rotaların durduğu yerdən bir az aralanandan sonra komanda eşidildi. Rotalar bir-bir hərəkətə gələrək arabanın dalınca addımlamağa başladılar.

Şəhərin küçələrindən keçərkən onların haraya getməsindən xəbər tutan şəhər əhli küçəyə doluşdu. Bəziləri arabanın dalınca yavaş-yavaş addımlayan soldatlara baxaraq başlarını bulayır, söz deməyə çəkinirdilər. Bəziləri isə, xüsusilə qadınlar çəkinmədən soldatların ünvanına iynəli atmacalar, eyhamlı sözlər atırdılar:

– Öz yoldaşlarını öldürməyə aparırlar. Heç olmasa vicdanlarından utansınlar!

– Onların silahı məndə olsaydı, mən də Demeşko kimi zərbaftalılardan birini öldürərdim.

– Utanmazlar, dünənədək bir süfrədə çörək yeyirdilər. Bu gün isə onu öz əlləri ilə öldürməyə aparırlar.

Viktor və yoldaşları bu sözləri eşitdikcə içəridən ilan kimi qıvrılır, tüstüsüz alovlanıb yanır, başlarını qaldıraraq, öz dilsiz, qəzəbli baxışları ilə də onlara tənə vuran adamlara nə isə demək istəyir, onların əlindən heç bir şey gəlməyəcəyini başa salmağa çalışırdılar, lakin soldatların böyrü ilə addımlayan keşikçilər onlara nəinki söz deməyə, hətta mənalı baxmağa da macal vermirdilər.

Demeşkonu aparan araba onlardan xeyli aralı, qabaqda gedirdi. Tala çayınadək soldatları müşayiət edən adamların qəzəbli baxışları qarşısında durmaq onların hər biri üçün cəhənnəm əzabıtək ağır və dözülməz idi. Baxışlar qəzəbli, sözlər tənəli idi. Başını bir anlığa qaldırıb, adamlara baxmaq, onların odlu-alovlu nəzərləri ilə toqquşmaq nə qədər desən əzablı idi. İzdiham da soldatlarla irəliləyirdi. Şəhərdən kənara çıxan kimi keşikçi soldatlar camaatı geri qaytarmağa başladılar. Geri dönmək istəməyənlər süngü ilə hədələnirdi. Nəhayət, rotalar izdihamı geridə buraxaraq, Tala çayına tərəf buruldular. Bəhramla Arşak birgə gedirdilər. Keşikçi soldatlar camaatı geri qovaraq, irəli buraxmadıqda, onlar bir ağacın altında duraraq rotalar gözdən itənədək gözlədilər.

Tala çayının dörd dövrəsinə keşikçilər qoyuldu. Camaatı yaxına buraxmadılar.

Bir azdan batalyon Tala çayının o biri sahilinə çatıb durdu. Ağır, üzücü iztirabla dolu dəqiqələr başlayırdı. Varlamov irəliləyib, ara-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baya yaxınlaşdı. Arabanın keşiyini çəkən iki nəfər soldatla köməkləşib, Demeşkonu arabadan düşürdülər. Onu qolları və ayaqları zəncirli halda rotaların qarşısında saxladılar. Hərbi-səhra məhkəməsinin hökmü oxundu. Ətrafa çökmüş sakitlik içərisində aramla oxunan hökmün sözləri qarşıdakı dağlara dəyərək, dəhşətli əks-səda verirdi. Hökm oxunandan sonra batalyon keşişi tövbə almaq üçün qürurla durmuş Demeşkoya yaxınlaşdı. Tük basmış sifəti Stepanı yaşlı göstərsə də, gözləri hələ də gənclik ehtirası ilə və qəzəblə şölələnirdi. O, əli ilə keşişi rədd edərək, gözlərini qarşısında durmuş yoldaşlarından ayırmadan dedi:

– Lazım deyil, ruhani ata, sizin də etibarınızı gördük. Batalyon keşişi onun sözlərini saya salmadan, xaç vurdu.

– Oğlum, tövbə hamı üçün vacibdir...

Stepan onun sözünü ağzında qoydu.

– Gediniz, xahiş edirəm.

O yenə gözlərini qabaqda düzülmüş silahlı soldatların arxasındakı yeddinci rotanın soldatlarından çəkmirdi. Budur, o, Viktoru, Qriqori və başqa yoldaşlarını görürdü. Onların rəngi qaçmış, üzlərini tük basmışdı. Onlar da axı karserdən yenicə azad edilmişdilər. Onun ucbatından neçə gün idi ki, onlar günahsız olaraq, qaranlıq karserlərdə əzab çəkirdilər. İndi Viktorun içərisində cərəyan edən düşüncə və mühakimələri Demeşko onun üzündən də oxuya bilirdi. Bəli, bu düşüncələr Stepana qarşı tənə və danlaqla dolu idi. O, Dobrovolskini öldürsə də, böyük və onun tutduğu bu işdən qat-qat yüksək və müqəddəs olan bir məqsədə zərər vurmuşdu. Buna görə də Viktor öz qəzəbində haqlı idi. Stepan öz yoldaşının ona zillənmiş gözlərində bu qəzəblə yanaşı olaraq kədər və təəssüf də duydu. O öz yoldaşının həyatına acıyırdı: neçə illər birgə əzab çəkmiş, hər cür təhlükə və qorxunu birlikdə yaşamış, mübarizənin ağırlığını çiyinlərində birgə dadmış yoldaş başqa cür də edə bilməzdi. Stepana elə gəldi ki, Viktor başı ilə işarə edərək, onun ölümə mərdanəliklə getdiyini təsdiq edir, bəyənir. Stepana da bu lazım idi. Demək o, nisgilli getmir...

Keşiş soldatın dinmədiyini gördükdə, geri dönüb, batalyon komandiri vəzifəsini ifa edən kapitan Qasseyə yaxınlaşdı və yavaşdan ona nə isə dedi. Qasse başı ilə Varlamova işarə etdi. O dəqiqə hündürdən komanda eşidildi. On nəfər silahlı soldat tüfənglərini Demeşkoya tuşlayaraq, hazır durdular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Atəş!

Demeşkonun səsi eşidildi:

– Əlvida qardaşlar, mən...

Açılan yaylım atəşi onun səsini kəsdi. Dağlarda gurultulu əks-səda eşidildi. Demeşko müvazinətini itirərək, yerə yıxıldı.

Yaylım atəşi çayın kənarına buraxılmamış kənd əhalisinin qulağına yetişdikdə, hamı, xüsusilə Demeşkonu şəxsən tanıyanlar onun ölümünə təəssüfləndilər. Bunlardan iki nəfəri Bəhramla Arşak idi. Yaylım atəşi dağlarda əks-səda verərkən onların kədərli nəzərləri bir-birinə dikilib qaldı. Sanki ikisinin sinəsində bir ürək çırpınırdı. Qüssəli, pərişan bir ürək! Bir-birilərini tanıdıqları zamandan, bir məqsəd uğrunda ölənədək birgə vuruşacaqlarına and içdikləri günlərdən bəri onlar belə ağır bir hadisənin şahidi olmamışdılar. Uzaq Rusiyadan buraya sürgün edilmiş və gəncliyini çar ordusunun ağır rejimi içərisində keçirmiş bu sarışın cavanın vəhşicəsinə öldürülməsi hər ikisinin qəlbində dərin yaralar açdı. Qeyri-ixtiyari olaraq, bir-birinin əlini sıxdılar. İki qəzəbli yumruq birləşib, vahid bir insan qüvvəsinə çevrildi. İki qəlbin qanı gözə görünməz damarlarla bir-birinə axdı. Onlara bu dəqiqələrdə kənardan baxan olsaydı, iki adamın simasında mütləq bir adam görərdi. Onları sanki bir ana doğmuş, bir mühit böyütmüş, bir məqsəd həmişəlik birləşdirmişdi. Güllənənən sarışın gəncin ölümü isə onların qollarına yeni qüvvə verir, gələcək döyüşlərin açılan üfüqlərini daha aydın sezmək üçün baxışlarını nurlandırırdı. Yaylım atəşləri gurlayırsa, qoy gurlasın, torpaq insan qanı ilə boyanırsa qoy boyansın, ancaq bunların heç biri bu iki qardaşı tutduqları yoldan qaytara bilməyəcəkdir. Yaylım atəşləri açanlar bir vaxt gələcək ki, özləri bu atəşlərin qurbanı olacaqlar. İnsan qanına boyanmış torpaq isə bir zaman ədalət düşmənlərinin ayaqları altında od tutub yanacaq, onların qədəm basdıqları hər yeri yanğın şölələri bürüyəcəkdir.

Bəhramla Arşak belə durduqları zaman kapitan Qassenin əmri ilə batalyonun soldatları Demeşkonun qəbri üstündən addımlayıb keçirdilər. Təpiklər altında yaş torpaq bərkiyir, qəbir yerlə-yeksan olaraq gözdən itirdi. Qassenin də arzusu bu idi. Bu mərd soldatın yer üzərində axırıncı dəfə buraxdığı izi – miskin qəbri də onlar üçün qorxulu idi. Komandirlərin hədəsi ilə atılan hər bir addım – hər bir təpik ürəklərdə zər poqonlu ağalara qarşı odlu əks-səda verirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şiddətlə və yeyin-yeyin döyəclənən təbillərin səsi, rota komandirlərinin çığır-bağırtısı, aram və təmkinlə atılan addımlardan ətrafa həyəcanlı bir gurultu yayılmışdı. Bütün bu qarışıqlıq içərisində qəribə bir sükut da yaranırdı. Bu sükutun nə dili vardı, nə də tüstüsü qalxırdı. Lakin o yanırdı. Onu ancaq qəbri itirməyə məcbur edilmiş insanların gözündən duymaq olardı. Ağalar isə bu adamların gözlərinə baxmağa qorxurdular.

Qəbrin torpağa qarışaraq, itdiyinə arxayın olandan sonra Qasse batalyonun geri dönməsi haqqında əmr verdi.

Şəhərə daxil olarkən soldatlara mahnı oxumaq əmr olundu. Heç kəsdən səs çıxmadı. Yalnız bir nəfərin cır səsi eşidildi. O da səsinə səs verilmədiyini görən kimi kiridi. Komandirlərin hədə-qorxuları əbəs idi. Batalyon dərin sükut içərisində şəhərin küçələrindən keçərək qışlalara döndü.

O gün axşam bərk yağış tökdü. Qasse bundan çox razı qaldı. Selin səhərədək qəbrin izini tamamilə itirəcəyini güman etdi. Lakin səhər açılarkən o öz mülahizələrində nə qədər yanıldığını başa düşdü. Xəbər verdilər ki, kimin tərəfindən isə Demeşkonun qəbri üstünə təzə çiçək dəstələri qoyulmuşdur. Qəzəblənmiş Qasse dərhal pristav Kukiyevlə əlaqə saxladı. Qorodovoylar çiçəkləri qəbrin üstündən götürdülər. Ertəsi gün qəbrin üstünə yenə də təzə gül dəstələri qoyuldu. Beləliklə, qorodovoylar bir neçə gün qəbrin üstündən gül-çiçək dəstələrini toplayıb, tələf etməklə məşğul oldular. Axırda bunun öhdəsindən gələ bilməyəcəklərini görüb əl çəkdilər. Gizli əllər tərəfindən qoyulan çiçəklərin ardı-arası kəsilmirdi.

## XXVII fəsil

Dobrovolskinin öldürülməsi ilə batalyon içərisində yaranmış gərgin vəziyyət hələ də davam edirdi. Soldatların şəhərə buraxılması qəti qadağan olunmuşdu. Matrosların üzərində nəzarət iki-üç qat gücləndirilmişdi. Varlamovun keşikçi dəstələri hər yerə baş soxur, iki nəfərin belə birgə durub söhbət etməsinə yol vermirdilər.

Pristav Kukiyevlə Tayts da yuxarıdan təzə göstərişlər almışdılar. Gözə balaca şübhəli görünən adamlar dərhal həbs olunurdu. Bəhram və Arşak öz dostlarına ayrı-ayrılıqda tapşırdılar ki, bir müddət üçün hərəkətlərində çox ehtiyatlı davransınlar. Hətta



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bakıya da xəbər verildi ki, silahların göndərilməsi müvəqqəti zaman üçün ləngidilsin.

Həmişə qaynar görünən şəhərə sanki ağır və kədərli bir sükut çökmüşdü. Demeşkonun güllələnməsindən sonra çoxları hələ özlərinə gəlməmişdi. Hacı Xeyri kimi adamlar isə bundan qol-qanad açmışdılar. Qara Nəsirin uşaqlarına kömək etməyə məcbur olduqdan sonra onun ovqatı təlx idi. Karxana fəhlələrinin belə əlbir hərəkətləri onu bərk təşvişə salmışdı. Hacı işin gələcəyindən qorxurdu. Hər bir belə iş üstündə fəhlələr günlərcə işə çıxmasalar o böyük ziyana düşəcəyini fikirləşirdi. Demeşkonun güllələnməsi isə ona böyük dayaq oldu.

– Adamın burnunu belə ovarlar, ha! – deyə yerli-yersiz bunu fəhlələrin üzünə çırpırdı. – Siz baxdınız ki, mənim sizin balalarımıza yazığım gəldi, güzəştə getdim... Yox, belə şeyi bir də yuxunuzda görərsiniz. Allahdan istəyirəm. Bir nəfəriniz əlini işdən çəkə, görün nə eləyəcəyəm...

Arşak bu sözləri hacının ona eşitdirdiyini hiss etdiyi üçün bir gün gülə-gülə soruşdu:

– Nə eləyəcəksən, a hacı?

– O daha sənin işin deyil, mən özüm bilirəm nə eyləyəcəyəm.

– Yox, biz də bilək də.

Hacı Xeyri birdən hirslə dönüb onun üstünə kəkələndi:

– Ada, sən genə mənəm-mənəm deyirsən? O Tala çayının qırağındakı sənə kar eləmədi. Ondan sonra yenə belə ötkəm danışırsan?

Arşak gülümsəyib başını hərlədi.

– Hacı, biz hələ öz böyüyümüzü öldürməmişik ki, bizi də eləcə sən deyən kimi torpağa gömsünlər...

Hacı Xeyri tez onun sözünü kəsdi.

– Tələsmə, inşallah o günü də görəcəyəm ki, səninlə o dostun Bəhramı da belə cəzasına çatdıracaqlar. Hökumətin elə bilirsən ki, gözü yoxdur? O hamısını görür, ancaq bir fürsət axtarır ki, sizi tələyə salsın. Gördün də, o soldatın da əlindən yığdı, yığdı, axırda cəzasını verdi.

– Hacı, hökumət görəndə nə olar ki? Qoy görsün. Biz nə iş tuturuq ki, cəzamızı da versinlər? Sözün düzü acı olar. Biz də sözün düzünü deyirik. Sən Qara Nəsirin uşaqlarını ac qoydun, biz də dedik ki, onlara kömək eləmsən işə çıxmayacağıq. Düz demirdik?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axırda özün də gördün ki, düz iş görmürsən, yetimlərə əl tutmağa məcbur oldun. Hökumət buna nə deyə bilər?

Hacı Xeyri söhbətin yenə Qara Nəsirin yetimləri üstünə gəlib çıxdığını görüb sözü çox uzatmadı. Əlini yelləyib, karxanadan çıxdı.

Bayaqdan bəri onların söhbətlərinə qulaq asan karxana fəhlələri yavaşdan gülüşdülər.

– Qara Nəsirin adını çəkməsəydin, yaxanı buraxmayacaqdı, – deyə onlardan biri söyləndi. – Qara Nəsirin ölüsü də onun gözlərinə tikan kimi batır.

– Siz hələ bir gözləyin, Məhəmməd Nəsirin intiqamını ondan almasa mən adımı dəyişərəm, – deyə ikinci fəhlə də söhbətə qarışdı, – gec-tez ona iş vuracaqdır.

Söhbət zamanı Arşak Bəhramın karxananın qapısından keçdiyini gördü. Bəhram, karxananın içərisinə ötəri nəzər saldı və Arşakı görən kimi yoluna davam etdi. Arşak onun mühüm bir məsələdən ötrü gəldiyini hiss etdi.

İşdən sonra o birbaşa dəmirçixanaya getdi. Bəhram Tiflisdən alınmış yeni xəbəri ona çatdırdı:

– Bu günlərdə Tiflisdən silah yola salınmışdır.

Arşak təəccübləndi:

– Belə zamanda?.. sən xəbər vermişdin ki, göndərməsinlər? Axı bəs niyə belə? Bəlkə adam göndərək?

Bəhramın enli qaşları vaxtından qabaq qırış atmış alnında çatıldı. Əlini gicgahlarına aparıb puçurlanmış tərini sildi.

– Gecdir, – dedi. – Araba oradan çıxıbdır. – Onun üzü qayğılı bir ifadə aldı. – İndi gərək bunu çox ehtiyatla qarşılayaq.

– Yəqin onların burada nələr olduğundan xəbərləri yoxdur. Yoxsa yola salmazdılar.

Bəhram onun fikri ilə razılaşmadı.

– Necə yəni xəbərləri yoxdur? Onlar hər şeyi bizdən yaxşı bilirlər. Bəlkə də məhz indi göndərməyi məsləhət biliblər. Silahların bu dəfə Bakıdan deyil, Tiflisdən göndərilməsi göstərir ki, onlar daha ehtiyatlı hərəkət edirlər. Bu işdə Bakı Komitəsi və Tiflis Komitəsi, yəqin, əlbir hərəkət edirlər.

– Silahları yenə Drujin gətirəcəkdir?

– Gələn adam bu haqda heç bir şey bilmir. Güman edirəm ki, Drujin olmasa da, hər halda bizi tanıyan adamdır. O, sabah bazar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

günü burada olacaqdır. Yükü kələmdir. Araba buraya gecə çatacaq, qoşa çinarın yanında çarxını sındırıb ləngiyəcəkdir.

– Uçuq pəyələrin yanında?

– Bəli. Yaxşı yerdir. Silahları da bəlkə elə orada basdırdıq. Sən sabah ertədən yatıb, dincini al. Gecəyarısı pəyələrin yanında olarsan. Həsən kişi ilə mən bəlkə gecəni də pəyələrdə keçirdik. Bu dəfə bizim üçümüzdən başqa bunu heç kəs bilməsə yaxşıdır. Tayts bu saat havadan iy çəkir.

Onlar şərtləşib, qurtarandan sonra əvvəlcə Arşak, sonra da Bəhram dəmirçixanadan çıxdılar.

Bəhram şəhərin mərkəzi küçələrinə tərəf buruldu. Göyün üzünü qara buludlar bürüyürdü. Bir həftədən çox idi ki, yağış yağmırdı. Bəhram qaynayıb-qarışan buludlara baxıb narahatlıqla köksünü ötürdü.

Deməşkonun güllələnməsindən sonra sanki qüssəyə batmış şəhər bu gün, ona xüsusilə darıxdırıcı göründü, ürəyi sıxıldı. Ağaclar da yağışqabağı, yaralı quşlartək qanadlarını sallayıb, məyus durmuşdular. Hər şeydə bir sükunət və dalğınlıq duyulurdu. Bir zamanlar şəhərin küçələrində soldatların gurlayan mahnıları indi sanki həmişəlik susmuş, ayaqları meydançadan və döngələrdən birdəfəlik üzülmüşdü. Gurultulu mahnılar Deməşkonun qəbri üstündə qalmışdı. "Onlar indi, görəsən, nə edirlər? Bondarçuk, yəqin ki, hamıdan çox iztirab çəkir. Axı Deməşko podpolkovniki öldürməklə onun neçə vaxtdan bəri düşünüb-daşındığını gözəl arzularını alt-üst etmişdi. İndi, bu hadisədən sonra üsyanın baş tutacağına, görəsən, yenə möhkəm inanırmı?.." Bəhram xəyalında öz mübarizə dostları ilə danışa-danışa Kilsə meydanına çatdı. Yağış artıq damcılayırdı. Adamlar evlərinə tələsirdilər. Çinarların yarpaqları yağışdan xışıldayır. Döşəmənin çay daşları islanıb işıldamağa başlayırdı. Bəhram addımlarını yeyinlətdi. Meydandan keçib, üzüyuxarı, evlərinə tərəf yönəldi. Yağışın şiddətlənməsi onu narahat etmişdi. Çünki başlayan yağış çətin ki, sabahadək kəsəydi. Əgər o sabah da bütün günü davam edərsə, o zaman Tiflis tərəfdən gələn araba, çayları bu tərəfə keçə bilməyəcəkdi.

Evə çatanda artıq yuxarı, enişli küçələrlə sel axırdı. Dağların arxasından göy gurultusu eşidilirdi. Belə havalarda Bəhram evdə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oturmağı sevməzdi. Buna görə də evdə xəstəlikdən yenicə ayağa durmuş qoca anasının bişirdiyi şorbanı içib, çayxanaya getmək niyyəti ilə bayıra çıxdı. Hasarın dibi ilə daldalana-daldalana çayxanaya tərəf getdi.

Yağış adamların əl-ayağını küçələrdən toplayıb, çayxanalara qovmuşdu. Qışda və belə yağışlı havalarda şəhərin yeganə yeri çayxanalar idi. Burada əslinə baxsan, əyləncə adına heç bir şey yox idi. Qocalar buraya söhbətə, cavanlar isə basıb-kəsməyə, yəni küyləməyə yığışardılar. Söhbətlər Şah Abbas zamanından başlayıb, Əlibəyin üstünə gəlib çıxırdı. Sözün ucun-bucağın yığışdırmaq olmurdu. Bu müddətdə çay içənlərin heç xəbəri olmadan stəkanlar dolub-boşalır, samovarın biri içilib qurtarınca o biri qaynayırdı. Stəkanların cingiltisi aranı doldurmuşdu. Çəkilən papiros və çubuq tüstüsündən göz-gözü görmürdü. Bəhram içəri girərkən, belə boğanaq havada güclə boş yer görüb oturdu. O buraya başqa cavanlar kimi mırt vurmağa, ya da nağıl eşitməyə deyil, Uzun Həsəni görmək məqsədi ilə gəlmişdi. Çayçı şagirdi çay süzüb, Bəhramın qabağına qoydu. Bəhram içəridəkilərə göz gəzdirdi. Həsən kişini görmədi. Dib tərəfdə oturmuş yaşlı bir adam nə isə danışdığı üçün hamı diqqətlə ona qulaq asırdı. Onun uzunsov daz başı tərdən işıldayır və sahibini oturanların içərisində tez nəzərə çarpdırırdı. Danışığından hiss olunurdu ki, baməzə adamdır. Hərdən nə deyirdisə ona qulaq asanlar bərkdən gülüşürdülər. Bəhram maraqlanıb qulaq asdı. Dazbaşlı kişi Yevlaxdan danışırdı...

– Axır ki, məndən əl çəkmirdi, hara gedirdim, dalımca gəlirdi. Fikirləşdim ki, yəqin bu məni xəspuşa oxşadıb. Ona görə mən də özümü elə göstərdim ki, elə bilsin doğrudan oğruyam. İstədim ki, onu bir az dolayım. Axırda deyəsən məndən lap şübhələndi. Səbri çatmayıb məni səslədi:

– Hey, yaxın gəl, – dedi.

Mən qaçmaq istədim. O, tapançasını çıxarıb hədələdi:

– Qaçma, vuraram.

Mən dayandım. O yaxına gəldi. Toxunma çamadanı əlimdən alıb, saldı məni qabağına.

– Gedək! – dedi.

– Haraya? – dedim, – təqsirim nədir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gedək, orada bilərsən.

Müxtəsər, məni qabağında qatıb apardı. Stansiya rəisinin otağı yanında kiçik bir yerə saldılar. Burada başqa iki nəfər də vardı. Məni görən kimi elə bil qulyabanı gördülər. Üçü də birdən dedi:

– Çamadanında nə var?

Gördüm ki, daha zarafat yeri deyil. Elə bu qədər onları dolamışdım, bəs idi. Bərkdən gülüb dedim:

– Bir az çitdir, bir neçə uşaq ayaqqabısıdır, bir az da ayın-oyun. Dedilər ki, aç. Mən tez açarı cibimdən çıxarıb açmaq istədim. Açar düşmədi. Özümü itirdim. Diqqətlə baxanda nə gördüm? Çamadan mənimki deyil, geri çəkildim.

– Bu mənim çamadanım deyil, – dedim.

Yer-yerdən tapançanı üstümə çəkdilər. "Aç" dedilər. Nə ilə açım? Yalvarıb yaxardım.

– İman haqqı, məscid haqqı, mənim deyildir.

Bundan onlar şübhəyə düşdülər. Birisi məni kənara itələyib, çamadanın qıfılını güclə qırıb açmaq istədi. Nə qədər gücəndi, bacarmadı. Mən mat-məəttəl qalıb baxırdım. Bəs mənim çamadanım hanı?! Necə olub başqasının çamadanı mənə gəlib? Müxtəsər, çamadanın qıfılını sındırdılar. İçindəkiləri bayıra çıxardılar. Nə çıxsa yaxşıdır? Arvad paltarları. Lap altdan da Nikolay padşahın şəkli. Bədənim əsməyə başladı. Öz-özümü o ki var söydüm. "Axı sənin nəyinə lazımdır, qorodovoyu dolamaq, hənək-hənək, bilmirsən axırda dəyənək olar". Hələ buna nə var? Həngamə təzədən başladı. Yapışdılar boğazımdan ki, öz çamadanını gizlətmisən, de görək hardadır, səninlə gələn arvad hara getdi? Özümü lap itirmişdim: arvad kimdir? Mən nə qədər dedim ki, mən təkəm, arvadla gəlməmişəm, heç kəs inanmadı. Mən dedim, onlar eşitmədi. Ancaq arvad sarıdan başım yenə bəla çəkdi. Üç gün damda saxladılar. Axırda deyəsən yazıqları gəldi, açıb buraxdılar. İndiyəcən heç başa düşmürəm ki, çamadanımı yolda kim dəyişmişdi və o arvad kim idi...

O, söhbətini qurtarmışdı ki, Həsən kişi içəri girdi. Uzaqdan Bəhramı görüb, onun yanına gəldi. Oturdu. Dərhal qabağına armudu stəkanda çay qoyuldu.

– Həsən kişi, bu gün şəhərdə səni görmədim. Deyəsən səfərin uzaq idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həsən kişi isti çayı hortuldadaraq içməyə başladı.

– Elədir, Yevlaxda idim. Bir saat olar ki, gəlmişəm. Yaxşı ki, yağış məni şəhərə girhagirdə yaxaladı. Yolda tutsaydı, çaylaqları keçə bilməyəcəkdim. Bəhram, yaxşı oldu ki, səni gördüm...

– Xeyir ola, yenə nə üz verib.

Həsən kişi tələsmədən çayı içib qurtardı. O, çayçı oğlanın yaxınlaşıb boş stəkanı aparmasını gözlədi. Çayçı şagirdi stəkanı apardıqdan sonra o, burnunun altında mızıldayaraq, dedi:

– Elə bir şey yoxdur. Ancaq bu gün Yevlaxdan gətirdiyim adam mənə çox tanış gəldi. Haradasa onu görmüşəm.

– Bakıdan gəlirdi?

Həsən kişi çiyinlərini çəkdi.

– Doğrusu bilmirəm. Mən Yevlaxdan əslinə baxsan boş qayıdırdım. Yolda yaxşı geyinmiş iki nəfərin, bəlkə də ərlə arvad idi, ağac altında oturduqlarını gördüm. Kişi tez yol ağzına çıxıb, əlini qaldırdı...

– Haraya düşdülər?

– Bəzzaz Minasyanın evinə.

– Deyirsən ki, sən onu kimə oxşatdın?

– Oxşatmağına deyəndə, heç kəsə oxşatmadım. Ancaq sifəti mənə çox tanış gəldi. Bir də yol uzunu fikirləşirdim ki, onlar niyə stansiyada deyil, yolda faytona əyləşsinlər?

– *Səndən bir şey-zad soruşdular?*

– Podpolkovnikin ölümü barədə çoxlu suallar verdilər.

Bəhram fikrə getdi. Sonra nəyi isə xatırlayıb, yavaşcadan Həsən kişidən soruşdu.

– Deyəsən axı Minasyanın bir qızı Bakıda oxuyur. Onu tanıyırsanmı?

Həsən kişi başını yellədi:

– Ay rəhmətliyin oğlu, haradan tanıyım. Deyirlər kiçik yaşlarından Bakıda dayısının yanında böyüyür. İndi də yəqin atası üçün darıxıb. Əri ilə bərabər gəliblər ki, görsünlər qoca necə yaşayır. Sən deyənə oxşayır. Qız sifətdən lap Minasyana oxşayırdı... Ancaq ərinin sifəti mənə çox tanış gəldi.

– O da yəqin buralıdır.

– Yox. Onu yəqin bilirəm ki, zaqatalalı deyil, rus idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Rus? – deyə Bəhram soruşdu.

– Bəli rus.

Bəhram gözlərini çayxananın hisli pəncərəsindən bayıra zilləyib susdu. Onun xəyalında nədənsə bir az qabaq dazbaşlı kişinin danışdığı hadisə canlandı.

Yağış şırhaşırla tökürdü. Bəhramın üzü qayğılı bir ifadə aldı. Həsən kişiyə tərəf dönüb soruşdu:

– Əgər sabah kəsməsə, hər şey pozuldu. İnanmıram belə yağışlardan sonra çayları keçmək mümkün olsun.

Həsən kişi laqeydliklə əlini çırpdı.

– Ondan ötrü ürəyini sıxma. İnşallah, sabah bir hava olacaq ki, özün afərin deyəcəksən.

O, yeddinci stəkanı içirdi. Çayçı şagirdi onun xasiyyətinə yaxış bələd olduğu üçün səkkizinci stəkanı ondan soruşmamış töküb qabağına qoyurdu. Doqquzuncu stəkanda soruşurdu:

– Həsən əmi, yenə töküммü?

Həsən kişi bu zaman başını qaldırıb ondan soruşardı:

– Hələ on yoxdur ki?

– Yox, səkkizdir.

– Onda daha niyə soruşursan, tök gəlsin.

Bundan sonra çayçı şagirdi iki stəkan da töküb gətirərdi. On stəkan içməyincə Həsən kişi stəkanı böyrü üstə qoymazdı. Onuncu stəkanından sonra Həsən kişi cibindən cib dəsmalını çıxarıb, tərini sildi. Çayxananı dazbaşlı kişinin səsi başına götürmüşü. O, indi də cavanlığında atası ilə birlikdə Xorasana gedərkən başına gəlmiş əhvalatı danışırdı. Xorasanda gördüyü ingilislərin arvad kimi tuman və qısa şalvar geydiklərini danışanda hamı ağzını açıb heyrətlə ona baxırdı. Həsən kişi başı ilə ona tərəf işarə edərək yavaşdan dedi:

– Onun atası da özü kimi naqqal idi. Nəfəsi boğazından çıxana kimi naqqallığından əl çəkmədi.

Həsən kişi dazbaş kişinin bütün əqrəbasından da qəribə şeylər danışdı. Bəhram isə sanki onun dediklərini eşitmirdi. Onun fikri şəhərə yeni gəlmiş qonağın yanında idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## XXVIII fəsil

Bəzzaz Minasyanın qızı Zaqatalaya gəldiyi günün ertəsi sübh tezdən atasının evində doyunca yatıb, dincini almadan şəhərin hörmətli müəllimi Lalənzar xanımın görüşünə getdi. Öz nişanlısını da müəllimə təqdim etmək istədiyi üçün bərabər getdilər. Minasyanın üç il qabaq vəfat etmiş böyük qızı vaxtı ilə Lalənzarla bir yerdə oxumuşdu. O zaman kiçik qız Susannanın on yaşı ancaq olardı. Haman bu yaşdan o, Bakıya, dayısının yanına oxumağa getmiş və Lalənzar xanımın üzünü daha görməmişdi. İçəri girəndə Lalənzar xanım əvvəlcə onu tanımadı. Susanna astanada durub gülümsəyirdi.

– Tanımadınız, eləmi?

Lalənzar xanım bütün yaddaşını səfərbərliyə alaraq, qızı yadına salmağa çalışdı. Lakin heç cür tanıya bilmədi. Axırda Susanna özünü nişan verməyə məcbur oldu. "Susanna" adını eşidən kimi Lalənzar qollarını açıb, onu bağrına basdı.

– Susanna, Susanna, sən nə qədər gözəlləşmisən! Özün nişan verməsəydin, tanıya bilməyəcəkdim... Şıltaq, adama ağzını açmağa macal verməyən dəcəl Susanna, gör, nə qədər gözəlləşib?..

Lalənzar Susannanın qollarından tutaraq heyrət və məftunluqla ona baxırdı. Onun nişanlısı isə azca kənarda duraraq, onların səmimi görüşlərini seyr edirdi. Susanna birdən səsləndi.

– Lalənzar xanım, tanış olun, mənim nişanlımdır.

Səliqə ilə geyinmiş sarışın gənc irəli gəlib əlini Lalənzar xanıma uzatdı və özünü təqdim etdi.

– Vadim Streltsov.

Susanna çox şad görünürdü.

– Sizdən ona çox danışmışam. Yol uzunu söhbətimiz elə sizdən olub.

– Çox minnətdaram, – deyə Lalənzar xanım gəncə tərəf baxaraq gülümsədi. Birdən ona elə gəldi ki, gəncin gözlərində səmimi ifadədən daha çox məkrli təbəssümlər oynaşır. Buna görə gözlərini tez ondan çəkərək, yenə də Susannaya tərəf çevrildi.

– Neçə müddətə gəlmişsiniz? Yəqin ki, bir ay qalacaqsınız?

Susanna qəhqəhə ilə güldü.

– Yox, Lalənzar xanım, biz lövbər salmağa gəlmiş qonaqlardan deyilik. Sabah yola düşməliyik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs niyə belə tələsik?

– Biz Qara dənizin sahillərinə gəzməyə gedirik. Yolumuzu buradan saldıq ki, Vadim atam və anamla tanış olsun. Elə deyilmi, Vadim?

– Bəli, elədir, – gənc tez dilləndi və Lalənzar onun mavi gözlərində məkrli ifadələrin daha da sıxlaşdığını hiss etdi.

Lalənzar onları stola dəvət etdi. Susanna razı olmadı.

– Zəhmət çəkməyin, Lalənzar xanım. Bu bizim hələlik qeyri-rəsmi gəlişimizdir. Sizin yanınıza axşam gələcəyik. Ancaq bunun üçün sizinlə əvvəlcədən danışmalıyıq ki, bizim olduğumuz məclisdə kimlər iştirak edə bilər.

Lalənzar onun dediklərindən heç bir şey başa düşmədi. Qadın gözlərini döyəcləyə-döyəcləyə qalmışdı. Susanna onu düşdüyü vəziyyətdən qurtardı. Tələm-tələsik dediyi bir neçə sözlə məsələni aydınlaşdırdı. Lalənzar eşitdiklərinə inanmaq istəmədi.

O gün axşam Susanna öz nişanlısı ilə birlikdə Lalənzara rəsmi qonaq gəldi. Onların üzünə başqa bir neçə nəfər də dəvət edilmişdi. Susanna ilə nişanlısı hamıdan qabaq gələrək, kənardan çağırılmış qonaqların yolunu gözləməyə başladılar. Axşamdan xeyli keçmiş Bəhram gəldi. Lalənzar onu Susanna və onun nişanlısı ilə tanış etdi. O, sarışın saçlı gəncin əlini sıxarkən, heyrət və təəccüb içərisində donub qaldı; qarşısında durmuş gənci harada isə görmüşdü.

Gənc gülümsəyərək soruşdu.

– Deyəsən kimə isə oxşadırsınız?

Bəhram etiraf etməyə məcbur oldu. Ancaq onu kimə oxşatdığını bilmirdi. Gənc, Bəhramın çox fikirləşdiyini görüb, onun əlini təzədən sıxdı.

– Narahat olmayın, siz öz şübhənizdə haqlısınız. Dərhal tanıya bilməməniz isə mənim üçün sevindirici haldır. Mən Drujinəm.

Bəhram bunu eşidən kimi qollarını açaraq, onunla qucaqlaşdı. Drujin onu sonra Susannaya təqdim etdi:

– Bu dəfə deyəsən öz yerlinizi mən sizə təqdim edəcəyəm. Tanış olunuz, yerli dəmirçi Bəhramdır.

Bəhram əlini uzadıb, Susannanın əlini sıxdı. Drujin gülümsəyərək Susannanı da Bəhrama təqdim etdi:

– Sizin yerliniz, Bakının inqilabçı qadınlarındandır. Burada isə hələlik mənim nişanlımdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Susanna gülümsədi. Lalənzar onları stola dəvət etdi.

Drujin narahat idi. Bondarçuk çox ləngiyirdi.

– Yəqin ki, qışladan çıxa bilməmişdir, – deyə o təəssüfləndi. Əli ilə yumşaq, sarışın saçlarını arxaya verərək kədərli görünən iri mavi gözlərini Bəhramın sifətində gəzdirdi.

Elə bu zaman qapı yavaşdan döyüldü. Lalənzar irəliləyib gələn qonağı qarşılamaq üçün dəhlizə çıxdı. Bir dəqiqədən sonra o, Viktor Bondarçukla birlikdə içəri girdi. Onların hər ikisi həyəcanlı idi. Lakin otaqdakıların heç birisi bu həyəcanın fərqinə varmadı. Bu ancaq iki qəlbin gizli çırpıntıları idi. Lalənzarın açıq, mehriban sifətinə xəfif bir qızartı çökmüşdü. Ürəyi hələ də şiddətlə döyünürdü. Yağışlı gündə faytonda gedərkən islanmış soldatın öz cibindən onun yaylığını çıxararaq, üzünü silməsi, daha sonra onun məktəbin pəncərəsi qarşısında durub heyrətlə baxması səhnələrini xatırladı. Adını dəfələrlə eşitmiş Viktor Bondarçuk həmin bu soldatmış! Onun içəri girən kimi Drujinlə qucaqlaşaraq bir-birindən ayrıla bilməmələri Lalənzarın gözlərini yaşartdı. Otaqdakıların hamısı bu səhnədən təsirlənmişdi. Heç kəs dinməyə cəsarət etmirdi. Otağa çökmüş sükut içərisində yalnız iki dostun fərəhli nidaları eşidilirdi.

Bir azdan hamı, üstü Şərq şirniyyatı və meyvələri ilə bəzədilmiş stolun ətrafında oturmuşdular. Viktorun oğrun nəzərləri arabir Lalənzara tərəf yönəlirdi. Drujin bu gecə Tiflisdən silah gələcəyini xəbər verdikdən sonra Bakı və Tiflis komitələrinin üsyan haqındakı rəylərindən danışırdı. Hər iki şəhərin komitələri əllərindən gələn köməyi əsirgəməyəcəkdir. Lebedinski batalyonunun üsyanı ətrafdakı qarnizonları da ayağa qaldıracaqdı. Buna görə Zaqataladakı üsyana da elə ehtiyatla və ciddi hazırlaşmaq lazım idi ki, o başqalarını da dərhal öz arxasınca apara bilsin. Əsas danışıqlar bu məsələ ətrafında idi. Bondarçuk üsyanın planını bütün təfərrüatı ilə birlikdə izah etdi. Hətta üsyanı saat neçədə başlamaq istədiklərini, ilk siqnalın kimin tərəfindən veriləcəyini və silahların harda paylaşdırılacağı barədə də danışdı. Drujin onun təklif etdiyi planla tamam razılaşdı. Sonra yerli inqilabçıların üsyana olan əlaqələrindən və bununla bağlı, onların qarşılarında duran vəzifələrdən danışdılar. Hər şey ən kiçik təfərrüatına qədər dəqiq müəyyən edildikdən sonra Drujin Bakıdan gələrkən yolda başlarına gəlmiş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əhvalatı danışdı. Hələ Bakı vağzalında onlara xəbər vermişdilər ki, çamadanlarınız qeydə alınmışdır, Yevlaxda düşərkən çalışın ki, onları özünüzdən rədd edəsiniz. Yolda gecə ikən çamadanlarını boşaldaraq, şeylərini əl çantasına doldurdular. Çamadanları isə guya yaddan çıxarıb, vaqonda qoydular. Qatar Yevlaxa səhər alaqaranlıqda çatdığından onlar çamadanlarını səhvən başqa bir adam tərəfindən götürüldüyünü də öz gözləri ilə gördülər. Bir az getdikdən sonra ağacların altında oturub, fayton gözləməli oldular.

Drujin bunları danışdıqda Bəhramın yadına dünən çayçı dükanında dazbaş kişinin danışıqları düşdü. O, gülümsəyib dedi:

– Sizdən sonra isə çamadanın böyük sərgüzəşti olmuşdur. O, dazbaş kişidən eşitdiklərini yerli-yerində danışdı. Hamı gülüşdü.

Drujin saatına baxdı. Üzünü Viktora tərəf tutdu.

– Viktor, sən get, vaxtındır. Məndən uşaqlara salam söylə. ancaq çalışın ki, hərəkətlərinizdə heç bir ehtiyatsızlığa yol verməyin. Əgər bu müddətdə mühüm bir tapşırıq olsa, Bəhram vasitəsi ilə sənə çatdırarıq. Biz də bir saatdan yola düşürük.

Onlar bir-birilərini qucaqlayıb gülüşdülər. Viktor sonra Lalənzarın əlini sıxdı. Qadın onun gözlərinə baxa bilmədi. Lakin Viktor ovcunda onun qəlbinin vurduğunu hiss etdi. Bir-biri ilə bir kəlmə kəsməsələr də, qəlblərindən gələn gizli sədalar başqalarını başa düşmədiyi bir tərzdə səsləşdi. Onlardan biri sevirdi, o biri isə mavi gözlü sarışın gəncin qarşısında yalnız bir qəhrəman kimi səcdə etməyə hazırdı. Viktor sonra Susanna, ondan sonra isə otaqda olan başqaları ilə xudahafizləşərək, tələsik addımlarla otaqdan çıxdı.

Bir saatdan sonra o biri qonaqlar da dağılışdı. Şəhərin küçələri boş və xəlvət idi. Qonaqlıq müddətində qapıda gözləyən Uzun Həsən gənc oğlanla nişanlısını Snoriyə aparmaq üçün faytonu qoşmağa getdi. Bəhram isə evlərinə baş çəkib oradan birbaşa pəyələrin yanına yollandı. Yolda Arşaka rast gəldi. Onlar şose yolundan çıxıb, kolluqların dalından keçən cığırlarla üzüyuxarı qalxdılar.

Uzun Həsən faytonu Minasyangilin qapısına çəkəndə, qapıda on nəfərə qədər adam gözləyirdi. Onlar gənc oğlanla nişanlı qızı yola salmağa gəlmişdilər. Sakit gecədə səsləri qonşu məhəllələrədək yayılmışdı. Qoca Minasyan qızı ilə gələcək kürəkənini Balakənədək yola salmaq fikrində idi. Drujin buna razı deyildi.

– Zəhmət çəkməyin. Özümüz gedərik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Minasyan isə təkidlə gedəcəyini bildirirdi. Uzun Həsən onun tərsliyinə salaraq, işləri xarablaya biləcəyini görərək, söhbətə qarışmalı oldu.

– Ay kişi, bu qədər yolu niyə gedirsən? Xatircəm ol. Həsənlə gedən adama zaval yoxdur. Yəni sən onları mənə etibar eləmirsən? Sənin özünü neçə dəfə gecəyarısı gətirmişəm. Heç başından bir tük əskik olubmu?

Həsənin müdaxiləsindən sonra, deyəsən, Minasyan fikrindən daşındı. O, Həsənə yaxınlaşıb, yavaşcadan dönə-dönə tapşırdı:

– Həsən kişi, xahiş edirəm, muğayat olasan. Ehtiyatla sür. Uzun Həsən saymazyana dedi:

– Ay Minasyan, sən bunları mənə öyrətmə. Mən bunların hamısını yaxşı bilirəm.

Minasyan Həsəni bir kənara çəkib, cibindən pul çıxartdı və gizlincə ona uzatdı.

– Al, qoy bilməsinlər. Çatanda deyərsən ki, pulu çatmışdır.

Həsən pulu alıb, cibinə qoydu. Sonra səmişinlərini tələsdirdi:

– Hə, getdik, gecikirik.

Arvadlar Susannanı qucaqlayıb ondan əl çəkmək istəmirdilər. Anası isə gözünün yaşını tökürdü. Qızına yalvarırdı ki, qayıdanbaş da mütləq Zaqataladan gəlib getsinlər. Qızı isə söz verə bilmirdi. Minasyan, nəhayət, qızını arvadların arasından çıxarıb faytona əyləşdirdi.

– Hə, Həsən kişi, di sür get. Yaxşı yol!

Drujin Minasyanın əlindən yaxşı qurtardıqları üçün sevindi. Qoca onlarla getsəydi bütün planlar pozulacaqdı. Fayton yerindən tərpəndi. Susannanın anasının səsi yenə də eşidildi:

– Susanna, eşidirsənmi, qayıdanbaş çalışın buradan gəlib gedəsiniz.

Uzun Həsən faytonu irəlidəki birinci tindən sağa döndərdi. Arvadların hənirtiləri sakit, boş küçələrin arxasında qaldı. Drujin zarafatla faytonçuya dedi:

– Bizi Susannanın atasının əlindən yaxşı qurtardın. Sən olmasaydın, bəlkə də əl çəkməyəydi.

– Qızının yanında olsa da deyirəm, yaman tərs kişidir. Desə ki, toyuq bir qıçlıdır, qurtardı getdi. Fələk də gəlsə ona isbat eləyə bilməz ki, toyuğun iki qıçı var. Onun xasiyyətinə yaxşı bələd olduğum üçün sizin söhbətə qarışdım.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Susanna gülümsəyib onun sözlərini təsdiq edirdi:

– Düz deyir. Bu xasiyyəti yazıq anamı vaxtından qabaq qocaldıb.

Fayton şəhərin küçələrindən çıxdı. Fənərlərin işıqları yolu zəif işıqlandırırdı. Həsən kişi lampaların piltəsini yuxarı qaldırdı. Atların dırnaqları çınqıllı yolda xırçıldayırdı. Quru çayların yataqlarından keçərkən çarxların altında qalan iri çay daşlarından fayton çalxalanmağa başladı. Atlar da tez-tez büdrəyirdi. Həsən kişi onların cilovlarını çəkərək, faytonun sürətini azaltdı.

Qabaqda uçuq pəyələr qaralmağa başladı. Sağ tərəfdəki ağacların qaranlıq kölgəsində hənirti eşidildi. Sürəkli fit səsi Bəhramla Arşakın pəyələrdə olduğunu xəbər verirdi.

– Uşaqlar bizdən qabaq çatıblar, – deyə Həsən kişi fərəhlə səsləndi.

Pəyələrə tez yetişmək üçün o, atları qovmağa başladı. Qabaqda hərəkət edən kölgələr göründü. Bəhramla Arşak yola, onların qabağına çıxmışdılar. Fayton onlara çatan kimi Həsən kişi atların başını çəkdi. Bəhram faytonun içərisinə tərəf əyildi.

– Hələ də gəlib çıxmamışdır, – deyə üzünü aydın seçmədiyi Drujinə tərəf tutub xəbər verdi.

Drujin kibrit yandıraraq, qol saatına baxdı. Gecə yarıdan ötmüşdü.

– İndilərdə gəlib çatmalıdır. Faytonu pəyələrin dalına çəkib onlar gələnədək gözləməliyik.

Uzun Həsən atlara muşqurdu. Fayton yerindən qoparaq qaranlıqda yoldan başıyuxarı qalxdı. Pəyələrin dalında göz-gözü görmürdü. Həsən kişi aşağı endi. Saman torbasını atların başına keçirmək istəyirdi ki, yolda araba təkərlərinin xırçıltısı eşidildi. Drujini təəccübə salan arabaçının kim ilə isə söhbət etməsi idi. "O nə üçün belə ehtiyatsızlıq etmişdir? Məgər bilmirmi ki, burada yad adamın görünməsi hər şeyi poza bilər?" deyə Drujin narahat oldu. Arabaçının səsi daha bərkdən eşidilirdi. Drujin və yoldaşları səslərini kəsib onların danışıqlarına qulaq asdılar. Arabaçı deyirdi:

– Burayadək səni gətirdim bəsdir. Atlar yorulmuşdur. İstəyirəm burada dincimi alım. Səhər tezdən yola çıxaram...

Onunla gələn yad adam isə təkid edirdi.

– Ay kişi, nə var ki, lap az qalıb. Şəhərə çatıb birdəfəlik dincini alarsan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox, daha getməyəcəyəm. Atlar bərk yorulub.

– Ay kişi, gəl daşı ətəyindən tök. Gecənin arısında mən burada nə edəcəyəm?

– Mən sizə dedim ki, Zaqatalada səhər tezdən olmalıyam. Niyə mindiniz? Atları sizdən ötrü üzə bilmərəm ki, heyvan olanda nə olar ki. Onlara da istirahət lazımdır, ya yox?!.

Yad adam arabaçıdan əl çəkməyərək onu gecə ikən Zaqatalaya getməyə məcbur edirdi. Drujin arabaçının bərkdən danışmasından başa düşdü ki, o bu hərəkəti ilə pəyədə olanlara işarə verir. Təcili tədbir görülməli idi. Arabanı yolun ağzında ləngitmək də qorxulu idi. Arabaçı ilə gələn adamı qorxudub qaçırtmaqdan başqa çarə yox idi. Susannadan savayı hamı pəyələrin dalındakı ağacların altına səpələnərək, hərə bir tərəfdən çığırmağa başladı. "Adə, Şamil, sən arabanın qabağını kəs, Nuru, sən də adamların cibini axtar. Deyəsən bazardan gəlirlər. Pullu olarlar". Arabaçı pəyədəkilərin niyyətini dərhal başa düşdü və yalandan əsməyə başladı.

– Qaçaqlar, evim yıxıldı. Malım cəhənnəmə, canım əldən gedəcək. Mən əkildim...

Onunla gələn adam da qorxusundan titrəməyə başladı. Yerə atılıb, arabaçının dalınca qaçmağa üz qoydu. Drujin və dostları onun yenə də arabaçıdan ayrılmadığını görüb, Arşakı dalınca göndərdilər. Onların dalınca adam qaçdığını görən arabaçı tez kolluqlara tərəf buruldu. Yad adam aralıqda tək qalıb arabaçının harada gizləndiyini öyrənmək istəyirdi. Arşak isə onun dalınca yüyürə-yüyürə deyirdi:

– Dayan, əlimdən qurtara bilməyəcəksən. Ciblərini boşalt.

Yad adam onu qovanın məqsədini başa düşdüyü üçün var gücü ilə üzüaşağı qaçmağa başladı. Arşak onun uzaqlaşıb getməsi üçün bilə-bilə geri qalırdı. Aradabir büdrədi də. Lakin səsini kəsmirdi:

– Yox, əlimdən qaça bilməyəcəksən. Dərini soyacağam.

Arşak yad adamı çaylaqlaradək qovdu. Yad adam tamam gözdən itəndə Arşak durub dincini aldı və geri qayıtdı.

Bu müddət də arabaçı kolluqların dalında gizləndiyi yerdən çıxaraq arabanı pəyələrin arxasına çəkmişdi. Arşak yad adamı çaylaqlaradək qovduğunu xəbər verdikdə hamı rahat nəfəs aldı. Sonra o da kömək elədi, tüfəngləri pəyələrdən bir az uzaqda sıx kolluqların arasında gizlətdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uzun Həsən yenə öz müştərilərini mindirib, Snoriyə yola düşdü. Arabaçıda özünü yol üstündə olan çayxanaya verdi. Bəhramla Arşak silahları yerbəyer edib, səhər açılmamış özlərini şəhərə çatdırmağa tələsdilər. Arşak yolda arabaçı ilə bərabər gəlmiş adamı necə qovduğunu danışdıqca Bəhram gülməkdən uğunub gedirdi.

## XXIX fəsil

Son günlərdə şəhər kənarında axşam qaranlığında meşədən qayıdan eşşəkçilərə tez-tez rast gəlmək olurdu. Eşşəklərə yüklənmiş uzun quru budaqların ucları yerlə sürünürdü. Adətən, çırpını rastlarına çıxan adamlara satan eşşəkçilər bu dəfə nədənsə şəhərdə ancaq bir neçə adamın qapısı ağzından keçərkən bərkdən çığırmağa başlayırdılar. Onların səsinə çıxan ev sahibləri çırpının qiyməti haqqında çənə vurmadan eşşəkləri həyətlərinə çəkirdilər.

İki-üç gündən sonra isə həmin eşşəkçilər eyni çırpı şələlərini yarıqiymətə satmaq istəyəndə də alan olmadı.

Bir gün Bəhram ilk günlərdə çırpını baha qiymətə almış olan ev sahiblərindən birinin qapısını döydü. Ev sahibi qapının ağzında Bəhramın durduğunu gördükdə tez onu içəri dəvət etdi.

– İçəri keç, – dedi. – Qayınanan səni istəyirmiş, bizim arvad təzəcə çörək bişirib. Zarafat deyil, şələsi bir manata çırpı alıb, təndir qalamışıq.

Bəhram ev sahibinin nəyə işarə vurduğunu başa düşüb, gülümsədi. Onlar birlikdə bağçanın içəri tərəfinə keçib orada sökük hasarın üstündə oturdular. Ev sahibi çırpının içərisində gətirilən silahların etibarlı yerdə gizlədildiyini Bəhrama xəbər verdi. Üstəlik bildirdi ki, o biri eşşəkçinin də qonşuya satdığı "çırpı" gecə ikən hasarın üstündən bu həyətə daşınmışdır. Bəhram, pəyələrin yanında gizlədilmiş silahların sağ-salamat daşındığına arxayın olandan sonra isti buğda çörəyinin arasına pendir qoyub iştahla yedi.

Oradan çıxıb, xəlvət küçələrlə Lalənzargilə yollandı. Ona Viktor üçün belə bir məzmunda məktub yazdırdı; "Sizin üçün yaxşı meyvə hazırlatdırmışam. Nə vaxt istəsəniz gəlib apara bilərsiniz. Yolda bir ay qalsa da xarab olmaz". Məktubu səhər Əzizin vasitəsi ilə Viktora çatdırmaq istəyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu məqsədlə ertəsi gün sübh tezdən Əzizgilə getdi. Oğlan tut ağacının altında durub çarıqlarının bağını möhkəmlədirdi. Nənəsi də ocağın qabağında vurnuxurdu. Əziz Bəhramın onunla işi olduğunu başa düşərək, qapıya yaxınlaşdı. Bəhram kağızı ona verdi və Viktora ötürərkən çox ehtiyatlı olmasını tapşırdı. Əzizin arıq, solğun bənizi Bəhramın ürəyini ağrıtdı. Onun iri, qüssəli gözlərinin altı kölgə salmışdı, almacıq sümükləri kiçik sifətində qabararaq, ona yaşından artıq görkəm verirdi. Həyatı başa düşdüyü gündən kiçik kürəklərini ağır zəhmətin altına vermiş bu uşağın hələ nə qarnı doyunca yediyi və nə də ürəkdən güldüyü bir günü olmuşdu. Bəhram, ən ağır dəqiqələrdə bu cılız oğlanın köməyinə nə qədər ehtiyac duyduğunu düşündükcə Əziz onun gözlərində bir o qədər yüksəlirdi.

Əziz kağızı qoltuğuna qoydu. Qurumuş dodaqlarını dili ilə yalayaraq yüngül çantasını çiyninə keçirdi. O, bütün günü qızmar günəşin altında, yəqin ki, çantanın bir küncünə atılmış bir tikə qara arpa çörəyi ilə keçirəcəkdi. Bəhram nənənin kefini soruşmaq bəhanəsi ilə mətbəxin qapısına yaxınlaşdı. Qarı həmişəki kimi yenə də deyinirdi. O, qara çaynikdən çay süzə-süzə güzaranlarından şikayətlənirdi. Bəhram gülümsəyərək salamlaşdı:

– Kefin necədir, ay arvad?

Qarı ürəyini açmaq üçün çoxdan bəri belə bir adam axtarırmış kimi, sözə başladı:

– Necə olacaq? Bu güzərandır biz keçiririk. Ölmək bundan min pay yaxşıdır. Adam heç olmasa gorda əl-ayağını rahat uzadıb yatar, daha dünyanın belə möhnətini görməz. Nə vaxtadək adam korluq çəkər. Nə vaxtadək yağ, qənd üzünə həsrət qalar? Bunlar cəhənnəmə, bu yetimin də dərdi məni lap əldən salıbdır.

– Maşallah ona nə olub ki? Təki bütün uşaqlar onun kimi zirək olsun.

– Zirəkliyi mənim nəyimə lazımdır. Belə adamlar elə zirəkliyindən həmişə bəlaya düçar olmurlarmı? Çox bilən quş dimdiyindən tora düşər. Yetimin başında nə isə bir qovğa var. Gecəyarısınadək heç bilmirəm haralarda olur. Deyirəm ki, a balam, naxırçı babasan, ertədən başını qoy, yat. Elə bil bu divara deyirəm. Qorxuram ki, bir gün qanına qəltan eləyərlər.

– Onun kimdə işi var ki, qanına qəltan da eləsinlər? – deyə Bəhram nəvəsinin əlindən qəzəblənmiş qarını sakitləşdirməyə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çalışdı. – O ki, qaldı, gecələr gec gəlməsinə, o tərəfdən heç nigaran olma. O da uşaqdır. Yoldaşları ilə yəqin ki, oynayır. Bəs nə vaxt oynasın? Səhərlər tezdən gedir, bir də qaş qaralanda gəlir. Yəqin ki, məhəllə uşaqları ilə olur. Mən həmişə işdən gələndə onu məhəllənin ağzında görürəm.

Bəhram sonra əlini cibinə atdı və iki manat pul çıxarıb, qarıya verdi və yavaşcadan sözünə davam etdi:

– Bunu da xərclik edərsiniz.

Qarı almaq istəmədi. Bəhram onu zorla qarının ovcuna basdı.

– Keçən aylar bizim kəlçənin haqqını verməmişdim. Onun əvəzi olsun... Ürəyini sıxma, yaman günün ömrü az olar. Bir gün gələr kasıbın da üzü gülər.

Qarı dərindən ah çəkərək, başını silkələdi.

– O gün haçan olacaq, oğul? Sümüklərimiz çürüyəndən sonra?

– Darıxma, tez olar. Belə zülm yerdə qalmayacaqdır. Gec-tez cəzalarını alacaqlar.

Əziz yaxınlaşıb, həyətdə, səkinin üstündə salınmış süfrəyə oturdu. Nənəsinin süzdüyü çayı içdi, quru çörəkdən bir neçə tikə qatığa batırıb yedi. Bəhram da, qarının onun üçün süzdüyü çayı içdi. Qatıq doğramacını yeməkdən isə boyun qaçırdı.

– İndicə çörək yeyib evdən çıxmışam, – dedi.

Bəhram Əzizgilin həyətindən çıxanda meşəli dağların başı hələ də dumandan təmizlənməmişdi. Görünür ki, bu gün də bərk isti olacaqdı. Sübh tezdən hava boğanaqdı.

Bəhram köynəyinin yaxasını açdı və misgər dükanlarının qabağından keçib, Kilsə meydançasına tərəf buruldu. Bu gün o, dükana həmişəki yolu ilə deyil, mərkəzi küçələrlə getmək fikrində idi. Kefi kök idi. Son, gərgin hadisələrdən sonra hər şeyin sahmanda olduğu bu günlərdə o, heç bir şey haqqında fikirləşmək istəmirdi. Əziz də məktubu Viktora çatdıra bilsəydi, o, çiynində daşıdığı ağır qayğı daşını bir neçə günlüyə yerə qoya bilərdi. Küçələr adamla dolu idi. Kimi işə tələsir, kimi əlində zənbil dükan-bazara gedirdi. Əllərində çətir və bu yerlərdə çox az təsadüf olunan rəngbərəng zənbillər tutmuş kişi və arvadlardan çoxunu Bəhram tanımırdı. Dincəlmək üçün gəlmiş yaylaqçılardı. Bu il onların sayı hər il olduğundan daha çox idi. Görünür ki, təkcə Zaqatalada deyil, hər yerdə havalar isti keçirdi. Bəhram bəzzaz dükanlarının qabağından keçəndə, onlardan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

heç biri hələ açılmamışdı. Ancaq, qonşu dükanların birində eşitdiyi xəbərdən çox narahat oldu. Adamlar danışırdılar ki, iki gündür qoca Minasyan dükanını açmır. Pristav tez-tez onun dalınca adam göndərib, yanına çağırtdırır. Bəhram bu xəbərin nə dərəcədə səhih olub-olmadığını öyrənmək üçün dərzi Usubun dükanına tərəf yollandı. Usubla Minasyan qonşu idilər. "Yəqin ki, o bundan xəbərdardır" deyə fikirləşdi. Hələ uzaqdan Usubun dərzi dükanının açıq olduğunu gördü. Yaxınlaşıb, bir az gendən içəridə adam olub-olmadığını gördü. Yaxınlaşıb, bir az gendən içəridə adam olub-olmadığını yoxladıqdan sonra dükana girdi. Piştaxtanın üstündə adəti üzrə bardaş qurub oturmuş Usub başını qaldıraraq, Bəhramın nə üçün gəldiyini, görünür ki, bildiyi üçün ona ağzını açmağa imkan vermədi:

– Nə eşitmişsənsə, doğrudur. Kim isə pristava xəbər verib ki, Minasyanın qızı Bakı inqilabçılarından biri ilə Zaqatalaya gəlmişdir. İki gündür, qoca kişinin bir ayağı pristavın idarəsindədir. Dəqiqəbaşı çağırıb, silis eləyirlər.

– Kim xəbər verib?

– O qədər xəbərçi var ki. Kim isə yenə pristavın qabağında quyruq bulayıb.

– Bəs qocadan nə soruşurlar? – deyə Bəhram həyəcanlı halda soruşdu. Onu narahat edən Lalənzargildəki qonaqlıq idi.

– Mən ondan xəbər aldım, dedi ki, qızdan daha çox onun nişanlısı barədə soruşurlar. Haraya getdiklərini də öyrənmək istəyiblər.

– Sonra? Daha nə soruşublar?

Usub başını silkələdi.

– Başqa bir şey soruşublarsa da, mənə demədi.

Bəhram Usubun yanında çox ləngimədi. Lalənzargildəki qonaqlıq sarıdan nigarançılığı onu bir dəqiqə olsun tərk etmədi. Əgər bu qonaqlıq pristava məlumsa, bəs nə üçün Lalənzarı çağırıb, ondan xəbər almayıblar? – deyə öz-özünə soruşdu. Bu haqda Uzun Həsəndən öyrənmək məqsədi ilə Kilsə meydanına gəlib onu gözlədi. Bir o qədər keçmədi ki, Həsən kişinin faytonu meydanın ortasında dayandı. Bəhram yaxınlaşmaq istədi. Lakin bu zaman Taytsla Xaçaturyans faytondan düşüb birlikdə kilsəyə tərəf getdilər. Bəhram faytona oturdu. Uzun Həsən tez atları qamçılayaraq meydandan çıxdı və xəlvət küçələrə keçdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Səni pristavın yanına çağırmışdılar? – deyə Bəhram soruşdu.

– Çağırmışdılar. İndicə oradan gəlirəm.

– Nə deyirlər?

– Dedilər ki, Minasyanın qızı ilə qonağını haraya apardın. Mən də olduğunu dedim. Çox sıxma-boğmaya saldılar. Mən də dediyimin üstündə durdum ki, durdum. Doğrudan da onları Snoridə düşürən kimi geri qayıtmışam.

– Kim onlara xəbər verib?

– Kim verəcəkdir? Görmədin, Taytsla faytondan kim düşdü? Belə şeyləri ancaq ondan gözləmək olar. Yazıq yeznəsi də onun əlindən lap təngə gəlib. Bütün adamları bir-birinin üstünə saldıran odur.

Atlar aramla gedirdilər. Döngələrdə tək-tük adama rast gələn kimi səslərini kəsirdilər. Bəhram Taytsla Xaçaturyansın kilsəyə nə üçün getdiklərini soruşdu.

– Söhbətlərindən belə başa düşdüm ki, keşişlə sözləri var.

– Lalənzar xanımgildəki qonaqlıqdan xəbərləri varmı?

– O haqda məndən heç bir şey soruşmadılar.

Bəhram pristav və Taytsın bu qonaqlıqla maraqlanmamasına təəccübləndi. "Xəbərləri olsaydı, yəqin ki, çoxdan hamını çağırıb, sorğu-suala başlamışdılar. Qoca Minasyan, görünür ki, qızının başını cəncələ salmamaq üçün bu qonaqlıq haqqında susmağı məsləhət bilmişdir".

Atlar, cilovları buraxıldığı üçün özbaşlarına bir döngədən çıxıb, o birinə girirdilər. Bəhram qonaqlıq sarıdan qismən sakitləşdiyindən Həsən kişidən onu dəmirçixanayadək aparmasını xahiş etdi. Faytonçu qamçını atların başı üstündə hərlətdi. Fayton silkələnib yerindən qopdu. Döngələrdən baş küçəyə, oradan da dəmirçixanaya tərəf buruldular.

O gün axşam Bəhram Lalənzarla görüşmək üçün havanın qaralmasını gözlədi. Küçə və döngələrdən adamların əl-ayağı yığışdıqda, Lalənzarın həyət qapısını yavaşcadan taqqıldatdı. İçəri keçəndən sonra Bəhram oturmaq istəmədi. Minasyanın qızı ilə Drujin haqqında eşitdiklərini Lalənzara xəbər verib, getməyə tələsdi.

– Ancaq bir şeyə təəccüb edirəm, – deyə o, sözünə davam etdi. – sizdəki qonaqlıq haqqında xəbərləri yoxdur. Deyirəm ki, yəqin qoca Minasyan qızının işini ağırlaşdırmamaq üçün bu haqda susmağı lazım bilmişdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lalənzar bu məsələdən xəbərdar olduğunu bildirdi.

– Mən srağagündən bu xəbəri eşitmişəm. Hətta onu da deyiblər ki, onlar kilsədə gizli yolla nikah da kəsdiriblər.

Bəhram bu gün Taytsla Xaçaturyansın kilsəyə nə üçün getdiklərini başa düşdü.

– Qonaqlıq məsələsinə gəldikdə isə, – deyə Lalənzar sözünə davam etdi, – deyə bilərəm ki, bunu sizdən başqa heç kəs bilmir. Susanna özü mənə dedi ki, bizə gəlmələrini atasından da, anasından da gizli saxlayıblar.

– Belə de! – deyə Bəhram rahat nəfəs aldı. – Demək, Xaçaturyans hələ çox şeydən xəbərsizdir.

Evlərində o gecəni Bəhram çox rahat yatdı. Belə yuxuya daldığı heç zaman olmamışdı.

## XXX fəsil

Taytsla Xaçaturyansın dəridən çıxmalarına baxmayaraq, Minasyanın qızı ilə gələn qonağın məhz Drujin olduğu barədə heç bir şey öyrənə bilmədilər. Qoca Minasyan qızı haqqında şayiə yayanları gecəli-gündüzlü qarğıyırdı. O hətta qorodovoylardan birinə demişdi ki, qubernatorun yanına gedib ona şikayət edəcəkdir.

– Bu yaşımda icazə verməरəm ki, məni sovsaqqal eləsinlər... Lap öz yanına gedəcəyəm. Görərsiniz, mən nə elərəm...

Əlbəttə, Minasyan qubernatorun yanına getmədi. Qorodovoya gileylənəndə də heç xoyalına gətirmirdi ki, belə şeydən ötrü qubernatoru narahat edərlər. Bir neçə müddətdən sonra isə bu haqdakı söhbətlərin arası tamam kəsildi. Minasyan da olub keçmişləri tamam unutdu. Arada zərbə yeyən yenə Xaçaturyans oldu. Bununla üçüncü dəfə idi ki, o, Taytsı gülünc vəziyyətdə qoyurdu. Axırıncı hadisədən qəzəblənən Tayts Xaçaturyansdan birdəfəlik üz döndərdi. Buna görə də Xaçaturyans, deyilənə görə, Zaqataladan getməyə hazırlaşırdı.

Ara müvəqqəti zaman üçün belə sakitləşdikdə Viktor üsyanı yubatmaq istəmirdi. İri qarnizon onlara qoşulmaq haqqında öz rəyini bildirmişdi. Əvvəlcə gəldikləri qərar qüvvədə qalırdı. Təkcə üsyanın başlanğıc günü müəyyən edilməli idi. Əvvəlki kimi Qalanın içərisində üsyana başçılığı feldfebel Popenko etməli idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ona köməkçi isə Sırojkin təyin edilmişdi. Şəhərdə yerləşən yeddinci və səkkizinci rotaları isə Viktor öz üzərinə götürmüşdü. Bazar günü öz aralarında məsləhətləşib, üsyanın başlanmasını gələn bazar axşamı gününə təyin etdilər. Çünki bazar axşamı günlərində zabitlərdən çoxunun başı içki məclislərinə məşğul olurdu. Üsyanın başlanması işarəsini gecə saat üçdə Qalanın yaxınlığından Bəhram verməli idi. O, təyin edilmiş vaxtda fişəngi yandırıb, gizlənməli idi. Lakin bütün bununla əlaqədar məsələlər haqqında Viktor özü Bəhramla danışmağa imkan axtarırdı. Nəhayət, iki gündən sonra təlimdən qayıdarkən su içmək bəhanəsi ilə dəmirçixananın qapısı ağzındakı quyuya yaxınlaşdı. Bəhram bunu görən kimi əlində vedrə bayıra çıxdı və ipə bağlayıb quyuya salladı. Bu müddətdə Viktor öz sözlərini ona yetirdi. Silahların gizlədildiyi yeri hər ehtimala qarşı bir də soruşub öyrəndi. Qərarlaşdılar ki, Qriqori iki saat qabaq silahların yanında olacaqdır. İşarə verilən kimi, soldatlar onun yanına yüyürəcəklər. Bəhram dolu vedrəni quyudan çəkdi, Viktor sudan içib, özünü yoldaşlarına çatdırdı.

Artıq bütün rotalarda gərgin vəziyyət yaranmışdı. Ələ düşə bilməsindən ehtiyat edərək, Viktor planın yazılı surətdə tutulmasına razılıq verməmişdi. Bu xəbər rotalara ancaq üsyan axşamı çatdırılmalı idi.

Bazar axşamı günü qaranlıq çökəndə Viktor və Qriqori qışladan necə çıxmaq haqqında düşünürdülər. Axşam ondan sonra qapıdan keşikçilər dəyişəcəyindən Qriqori ertədən qışladan çıxmalı idi. Bəs o, beş saatı harada keçirməli idi? Bunun kimi nəzərə alınmamış bir çox məsələlər də meydana çıxaraq, onları düşünməyə məcbur edirdi. Qriqori birdən nə isə fikirləşib dedi:

– Gecəni Rozanın otağında qala bilərəm. – O, sözlərinin Viktora necə təsir etdiyini sınamaq üçün gözucu ona nəzər saldı. Viktor fikirli idi. Qəti qərara gələ bilmədiyi hiss olunurdu. O, dalğın nəzərləri ilə Qriqoriyə baxıb tərəddüd içərisində soruşdu:

– Əgər ona inanırsansa, etiraz etmirəm. Başqa çıxış yolumuz da yoxdur.

– Axşam yoxlanışından sonra çıxaram.

Beləliklə, axşam yoxlanışını gözləməli oldular. Qalada isə Popenko hər şeyi qaydaya saldıqdan sonra, bir dəqiqə də olsun, silah anbarlarının qapısında duran keşikçiləri və silah verilləsi soldatların



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hərəkətlərini nəzərdən qaçırmırdı, hərəni ayrı-ayrılıqda gözaltı müşahidə edirdi. Gözünə nə şübhəli bir şey dəyirdi, nə də qışlalarda adi günlərə məxsus əhvali-ruhiyyədə dəyişiklik hiss olunurdu. Bu, Popenkonu bir tərəfdən razı salırdı, o biri tərəfdən ürəyində nə isə dumanlı bir narahatlıq, çırpıntı duyurdu. Elə bil nədə isə və ya harada isə bir şeyi nəzərdən qaçırmışdılar. Buna görə də beşinci rotadan olan köməkçisi Sırojkinə dönə-dönə tapşırıq verdi ki, gözünə şübhəli bir şey dəyən kimi təcili ona çatdırsın.

Rotalarda axşam yoxlanışı qurtardı. Bundan sonra keçən dəqiqələrin isə nəbzi başqa cür vurmağa başladı. İntizar və ürək çırpıntısı ilə dolu hər dəqiqə sanki bir il qədər uzun çəkir, əqrəblər nəyə isə ilişib ləngiyirdi. Gecəyarısı əlinə silah alacaq soldatlar, sussalar da, baxışları ilə bir-biri ilə danışır, dözülməz həyata qarşı süngü qaldıracaq azadlıq dəqiqələrinin astanasında xəyalən bir-birinin əlini sıxırdılar. Azadlıq! Bütün insanlığın əzəli və əbədi arzusu olan bu nemət xatirinə. Kim qan axıtmamışdı?

Qalada yerləşən beşinci və altıncı rotaların qışlalarında çıraqlar söndürüldü. Ancaq gözlər qaranlıqda da bir-birini görür, ürəklər bir-birini duyurdu. Hərə öz qonşusunu şübhəyə salmamaq üçün gözlərini yummağa məcbur olmuşdu. Lakin belə dəqiqələrdə insanın gözünə yuxu gedərmi?! Açılan sübh onları nə gözləyirdi? Qələbə, ya məğlubiyyət? Gözləri yumulu, lakin yatmayan adamların xəyal və düşüncələrini məşğul edən belə suallar idi.

* * *

Qriqori Romanov keşikçilərin dəyişməsindən azca qabaq qışladan çıxdı. Ətraf məhəllələr qaranlığa qərq olmuşdu. O, xeyli müddət əlhavasına irəlilədi. Gözləri qaranlığa alışandan sonra məscid tərəfə buruldu. Lakin bu tərəflə gəlməsinə peşman oldu. Məsciddən dağılışan adamlar, iki-iki, üç-üç onun qabağına çıxırdı. O, sifətini gizlətməyə çalışaraq sürətlə adamların yanından ötüb keçdi. Meyxanaya bir tin qalmış addım səsinə durdu. İrəlidəki küçədə bir qorodovoy tənbəl-tənbəl gəzişirdi. Onun uzaqlaşmasınadək, tində durub gözlədi. Xoşbəxtlikdən yaxın küçələrdə heç kəs görünmürdü. Qorodovoy uzaqlaşan kimi Qriqori sürətlə meyxananın dal küçəsinə yüyürdü. Meyxananın həyət qapısını aralı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gördü. İçəri keçib, həyətə nəzər saldı. Heç kəsi görmədikdə dib tərəfdəki pillələrlə yuxarı qalxdı. Qapını itələyib, səssizcə içəri girdi. Roza evdə yox idi. Aşağıdan meyxananın otaqlarından musiqi və sərxoş gülüş səsləri gəlirdi. O, meyxananın gecəyarısı bağlandığını bilirdi. Otağın içərisində gəzişməyə başladı. Pəncərənin pərdəsini saldı. Piltəsi aşağı salınmış onluq lampanın işığında divara vurulmuş çılpaq qadınların şəkilləri, baş tərəfdə isə Rozanın öz şəkli aydın seçilirdi. Qriqori yaxınlaşıb, onun şəklinə yaxından baxmaq istəyəndə divarda karandaşla öz adının yazıldığını gördü. Onun yanındaca iki qızılgül də asılmışdı. Qızılgülün yarpaqları, görünür ki, çoxdan asıldığından qurumuş və bir neçəsi qopub, çarpayının üstünə tökülmüşdü. Qriqorinin ürəyi Rozaya qarşı minnətdarlıqla çırpındı. Bu yoxsul daxmada Rozanın sanki onun adını çağıran pıçıltılarını, gecələr onun xəyalı ilə hıçqırıb ağlamasını eşitdi, onun ılıq nəfəsini duydu. Ürəyi ona acıdı. Ehtiyac və kimsəsizlik onu buraya sürüyüb gətirməsəydi, indi o da öz məhəbbətinə nail olan başqa qadınlar kimi xoşbəxt idi. O da başqaları kimi ailə qurmuş olardı. Həyat nə qədər amansızdır. Heç olmasa onun gözəlliyinə rəhm edəydi. Xoş bir hiss birdən-birə Qriqorinin varlığına hakim kəsildi. O, şəkildə Rozanın qüssəli ala gözlərinə diqqətlə baxdı. Onlarda yalnız bir saf məhəbbətin təzahürünü, sədaqətli bir qəlbin ifadəsini tapdı. Məhz bu gün, gecədən ötmüş başlayacaq sınaq ərəfəsində Rozanı görmək, onu sinəsinə basmaq ehtiyacı duydu. Nə üçün onun təmiz məhəbbəti nakam qalsın?! Onun sevgi haqqındakı gözəl xəyallarını alt-üst etmək insafdandırmı?! O ki, sevir. Gənc bir qadın üçün bundan da yüksək bir arzu vardırmı?! Yox, Roza sevilməyə layiqdir. Qriqori otağın hər şeyində Rozanın surətini görürdü. Lakin özü bəs nə vaxt gələcəkdir?

Qriqori aşağıya gedən ensiz pillələrin qapısına yaxınlaşıb qulağını taxtaya dirədi. Meyxanada olan danışıq və söhbətləri buradan aydın eşitmək olurdu. Səs-küy azalmışdı. Ancaq kim isə hündürdən dalaşırdı. Meyxana sahibi Aqva da öz yoğun səsi ilə savaşanları sakitləşdirmək istəyirdi. Bir azdan səs tamam kəsildi. İndi ancaq Aqva ilə Rozanın səsi gəlirdi. Aqva getməyə hazırlaşırdı. Budur, aşağıda səs-səmir tamam kəsildi və o qədər çəkmədi ki, pillələrlə qalxan Rozanın ayaq səsləri otaqda eşidildi. Qadın içəri girəndə, ala-qaranlıqda durmuş adamı görüb çığırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Aaa, – deyə əlini ürəyinin üstünə qoydu. Lakin Qriqorini tanıyan kimi yüyürüb, onun boynuna sarıldı:

– Sənsənmi, əzizim?! – dedi və Qriqorinin sifətini kiçik ovucları arasına aldı. – Bilirdim ki, gələcəksən.

– Haradan bilirdin? – deyə Qriqori təəccüblə soruşdu.

– Gecə səni yuxuda görmüşdüm. Haraya isə buradan çıxıb gedirdik. Ancaq ha gedirdik, çatmırdıq. Mən səndən soruşurdum ki, bəs nə üçün çatmırıq. Sən isə deyirdin, çatmağa tələsmə. Yol nə qədər uzun olsa, bizə daha xoş keçər. Bilmirsən yuxuda yol nədir?

Qriqori gülümsədi:

– Mən yuxu yozmağı bacarmıram.

– Eşitmişəm ki, yuxuda gördüyün şey həyatda tərsinə çıxır. Bizim gedəcəyimiz yol da, yəqin, qısa olacaqdır... – O, qollarını Qriqorinin boynundan çəkərək, otağı səliqəyə salmağa çalışdı. – Sən gözlə, mən bu saat yeməyə şey də gətirim.

– Lazım deyil, Roza. Aclığım yoxdur.

– Necə aclığın yoxdur, bəs səhərədək nə yeyəcəksən?

– Səhərədək qalmayacağam. Gecə birdən sonra getməliyəm. Roza gülümsəyərək, onun sözlərini saya almadan aşağı düşməyə hazırlaşdı:

– Gecə birdən sonra soldatı qışlaya buraxmırlar. Heç yerə getməyəcəksən.

– Gedəcəyəm. Başqa vacib işim var.

Rozanın sifəti ciddi bir ifadə aldı. Gözlərini Qriqorinin gözləri içinə zillədi.

– Yoxsa sən də zabit öldürmək fikrinə düşmüsən? Aman, yalvarıram, eləmə. Qorxuram.

Qriqori onu sakitləşdirdi:

– Yox, mən zabit öldürməyəcəyəm. Bu gecə biz öz taleyimizi həll edəcəyik. Ya elə, ya da belə.

Roza onun dediklərindən əvvəlcə heç bir şey başa düşmədi. Soldat öz məqsədlərini ona danışandan sonra gənc qadının üzündə fərəhli bir ifadə əmələ gəldi. Sevincindən qollarını təzədən Qriqorinin boynuna dolayıb, üzündən, boynundan öpdü. Otaqda onun zəif səsi eşidildi:

– Mənim əzizim. Kaş bu iş baş tutaydı. Onda biz də buradan çıxıb gedərdik. Bəlkə yuxuda gördüyüm yol elə bu yoldur...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Roza başını Qriqorinin sinəsinə dayamışdı. Gözləri naməlum bir nöqtəyə zillənərək, xumarlanar, xəyalında çoxdan arzuladığı rəngbərəng bir aləm canlanırdı. O, dərindən ah çəkib, başını qaldırdı və bir anlığa düşdüyü xoş xəyallardan məst olmuş halda Qriqoriyə baxıb, gülümsədi. Sonra birdən Qriqoridən ayrılıb, təzədən aşağı enmək istədi. Qriqori yenə mane oldu.

– Lazım deyil, Roza.

Roza ayaq saxlayıb, müti bir tərzdə soruşdu:

– Bəs mən sənin üçün nə edim? Sabahkı işinizin uğurlu olması üçün içməzsənmi?

– Yox, lazım deyil. Belə dəqiqələrdə içmək mənim üçün ancaq cinayət ola bilər.

– Heç olmasa, soyunub, gecə ikiyədək istirahət et, – bunu deyib Roza onun köynəyinin düymələrini açmağa başladı. – Üzündə elə yorğunluq var ki...

Qriqori məsum bir körpə kimi ona sığınmışdı. Rozanın saçlarını əli ilə oxşadı, başını sinəsinə basdı və ilk dəfə olaraq, onun odlu dodaqlarını öpdü. Gənc qadın bihuş halda soldatın qolları arasına yıxılıb sakit düşdü. Yalnız, hələ də, qızlıq təravətini itirməmiş sinəsi aramsızcasına qalxıb düşürdü.

Bir azdan onluq lampanın piltəsi tamam aşağı endirildi. Otaq qaranlıqlaşdı. Göyü görmək üçün Qriqori pəncərənin pərdəsini araladı. Yuxuya getmiş şəhərdə səs-səmir kəsilmişdi. Arabir meyxanaya bitişik heyətdə atlar fınxırır, uzaqlarda itlər ağız-ağıza verərək hürüşürdülər. Otaqda isə iki sevgilinin ılıq nəfəsi hakim kəsilmişdi. Divar saatının paslı kəfkiri aramsızcasına taqqıldayaraq bu sükut aləminə əfsanəvi bir boya yayırdı.

Gecə ötürdü. Aralı qoyulmuş pərdədən göydə donuq-donuq baxan ulduzlar içəri boylandılar. Rozanın səsi daha gəlmirdi. O, başını Qriqorinin sinəsinə qoyduğu halda, şirin yuxuya getmişdi. Onu oyatmamaq üçün Qriqori yerində kiçicik hərəkət etməyə də çəkinirdi. Rozanın yumşaq sarışın saçları balışının üstünə səpələnmiş, kiçik dodaqları yarımaralı qalmışdı. Qriqoriyə elə gəldi ki, o, yuxuda kiminlə isə danışır. Sifətinə qonmuş fərəhli ifadə, aramla qalxıb-enən sinəsi, onu gənc qadından daha çox, anasının qoynuna sığınmış kimsəsiz bir körpəyə oxşadırdı. Qriqori lampanın piltəsini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaldırıb, divardakı saata baxdı. Gecə təri yarı idi. Onun ixtiyarında hələ iki saat da vaxt qalırdı. O yenə də ehtiyatla əlini uzadıb, piltəni aşağı çəkdi. Ala-qaranlıqda gözlərini alçaq otağın his çəkmiş tavanında gəzdirərək, indi orada, qışlalarda onun kimi uzanaraq gözlərinə yuxu getməyən yoldaşlarını düşündü. Yəqin ki, onlardan heç biri bu gecəki kimi həyəcanlı intizar keçirməmiş, sübhədək beləcə oyaq qalaraq xoşbəxtlik gözlədikləri olmamışdır. Qriqori də özünü başqa bir aləmə açılacaq örtülü darvazaların ağzında hiss edirdi. Bu darvazalar gecəyarısı açılacaq, yüzlərcə, minlərcə, bəlkə də on minlərcə onun kimi təhqir və möhnətin bütün acılığını dadmış soldat şinelli adamların üzünə həsrət qaldıqları o azadlıq aləminə qovuşduracaqdır. Onun gözləri qarşısında bir anlığa, qanlı-qadalı qarışıq bir səhnə canlandı. Zülmət qaranlıqda mərmilərin partlayışından yerlə-göy sanki bir-birinə qovuşmuş, qəzəblə dolu yoldaşları isə yanğın və alovların arasından, ikibaşlı yırtıcı qartalın üstünə hücum çəkirlər. İniltilər, fəryadlar eşidilir. Qriqori ətrafına baxınır, ağzında od püskürən qartalın yığılıb-açılan dırnaqları arasında ölümlə çırpınan adamlar içərisində öz yoldaşlarını da görür, onların həyatını xilas etmək üçün özünü alovun içinə vurur. Qəribədir, əlindəki tüfəng bir anın içində şimşək tək şığıyan qılınca çevrilir, o qılıncı qolaylayır, vəhşi qartalın bir başı qopmuş budaq kimi üzülüb yerə düşür, ancaq o biri başı hələ də od püskürür. Yenə də fəğan və iniltilər. Qriqori son qüvvəsini toplayaraq, təzədən onun üstünə şığıdığı zaman bir anlığa getdiyi mürgüdən oyandı... Divar saatı əvvəlki kimi araînla çıqqıldayırdı. Mürgü zamanı, görünür ki, qolu Rozaya toxunaraq onu da yuxudan oyatmışdı.

– Yuxumu görürdün, əzizim? – deyə Roza gülümsədi və qeyri-ixtiyari olaraq gözləri təzədən qapandı. Qriqori daha uzana bilmədi. Ayağa qalxdı. Onu naməlum narahat bir hiss bürümüşdü. Roza onun getməyə hazırlaşdığını gördükdə, gözləri yaşardı:

– Gedirsənmi, Qrişa, – deyə yatağından qalxdı, yalın ayaqları döşəmənin üstündə tappıldadı. Yaxınlaşıb, Qriqorinin qabağında durdu. Qollarını onun boynuna keçirdi. Bir an beləcə hərəkətsiz qaldı. Onun yaşarmış gözləri yalvarışla dolu idi.

– Eşidirsənmi, Qrişa, yalvarıram, məni unutma. – Onun səsi titrədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qriqori Rozanın qolları arasından çıxmağa çalışdı. O ləngidikcə ürəyi ona rahatlıq vermirdi, kim isə onu elə bil çağırır və tələsdirirdi.

– Dayan, heç olmasa, qoy sənə xeyir-dua oxuyum.

Roza əllərini üzünün qabağında cütləşdirib Qriqorinin qarşısında dizi üstə yerə çökdü. Qriqori onun ancaq dodaqlarının tərpəndiyini görürdü, qadın sonra ayağa qalxıb titrəyən barmaqları ilə Qriqorinin üzünə xaç vurdu:

– Get əzizim, – dedi. – Qoy açılan səhər sizin üzünüzə gülsün. – O daha danışa bilmədi. Gecəköynəyinin uzun qollarını gözlərinə apararaq, hönkürtü ilə ağladı və özünü saxlaya bilməyərək üzü üstə yatağına yıxıldı. Qriqori xudahafizləşib, otaqdan çıxarkən, Roza yenə hövlnak qalxıb, onun boynuna sarıldı. Lakin boğazı qəhərləndiyindən danışa bilmirdi. Qriqori tələsik addımlarla taxta pillələnləri endi. Qaranlıq həyətdə onun tez-tez getdiyi seçilirdi.

Bir azdan o, darvaza ağzında yığılmış odun qalaqları arxasında gözdən itdi, həyətdən ayaq səsləri kəsildi. Roza hələ də başını aralı qalmış qapının haşiyəsinə dayayaraq, hərəkətsiz durmuşdu. Onun ancaq dodaqları tərpənirdi:

– Ya rəbbi, sən özün onlara kömək et! Öz mərhəmətini onlardan əsirgəmə!

* * *

Popenko gah su içmək, gah da təmiz hava almaq bəhanəsi ilə gecəyarısınadək bir neçə dəfə bayıra çıxaraq, silah anbarlarının keşikçilərini yoxlamışdı. Axırıncı dəfə həyətdən qışlaya qayıdaraq, yatağına uzandıqda, soldat yoldaşları gizlincə, hərəsi bir tərəfdən gözlərini aralayıb, ona baxdılar və yenə də üzlərini divara tərəf çevirərək, özlərini yuxulamış kimi göstərdilər. Əlbəttə, hər qışlada elə soldatlar vardı ki, bu gecəki hadisə ondan gizli saxlanmalı idi. Kiçik, ehtiyatsız bir hərəkət bir an içərisində hər şeyi alt-üst edə bilərdi. Buna görə də yoldaşlarının belə hərəkətləri onu razı saldı. Mələfəni başına çəkib uzandı.

Həyəcan və intizar yuxunu onun gözlərindən vurub çıxarmışdı. Qışlaya çökmüş sakitlik içərisində o, yalnız öz ürəyinin narahat döyüntülərini eşidirdi. Xəyalında müxtəlif fikirlər qaynayıb, birbirinə qarışmışdı. O, batalyonda komandanlığı ələ keçirəndən sonra



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görəcəkləri tədbirlər haqqında düşünərkən, bir az qabaqkı fikirlərinə qayıtdı. Sonra Drujin, Demeşkonu xatırladı. Bu gecə onların yoxluğu, onlarla çiyin-çiyinə vuruşa bilməyəcəkləri ürəyini göynətdi. Demeşkonun ölüm ayağında mərdanə duruşunu xatırlayanda ürəyi təşəxxüslə çırpındı...

Məşəqqətli yollar, üzüntü və iztirab, yaşamaq və azadıq ehtirası onun xəyalında payız buludları kimi qaynayıb qarışırdı... O fikirləşdikcə yerində qurcalanır, qurcalandıqca narahat olurdu. Yox, o yatağında uzana bilməzdi. Qarışıq ağır fikirlər yer-yerdən üstünə ələnirdi. Öz yoldaşlarından başqa hamının yuxuya getdiyini görüb təzədən geyindi və qalanın içinə çıxdı.

Həyətdə yenə də qranlıq və səssizlik idi. Popenko silah anbarlarının qabağından keçəndə keşikçilər adət üzrə başları ilə ona işarə edərək, hər şeyin qaydada olduğunu bildirdilər. Hamının nigarançılığı silah anbarları sarıdan idi. Komandanlıq onların niyyətindən xəbər tutarsa, birinci növbədə buradakı keşikçilərdən başlayacaqdı. Silahsız üsyan isə, əvvəlcədən məğlubiyyətə məhkumdur. Popenko Qala arxasında fişəngin açılacağına çox az qaldığı bir vaxtda hər şeyin onun arzuladığı kimi belə yerli-yerində olduğuna ürəkdən sevindi və təkrar qışlaya döndü. O, içəri girərkən qonşu qışlanın qapısı yavaşcadan cırıldadı. Popenko toz qapıdan çəkilib özünü bürcün kölgəsinə verdi. Qaranlıqda qışladan bir nəfərin çıxdığını gördü, ancaq tanıya bilmədi. Ətrafına baxına-baxına divarın kölgəsi ilə gedən adam bir azdan Qalanın ortasına tərəf çıxdıqda Popenko onu tanıdı. Sırojkin idi. Popenko dostunun məqsədini bilmədiyi üçün əvvəlcə yerində hərəkətsiz durub gözlədi. Sırojkin sürətini artırıb həyətin ortasına çatdıqda birdən istiqamətini dəyişib, rota komandirinin mənzilinə tərəf yönəldi. Popenko özünü itirdi, gözlərinə inanmadı, qara basdığını güman edib başını silkələdi. Yox, Qalanın içi ilə oğrun-oğrun gedən Sırojkin idi. Artıq durub gözləməyin mənası yox idi. O, qabağa çıxdı. Sırojkini pusa-pusa onun dalınca irəlilədi. Silah anbarını qabağına çatanda Sırojkin, görünür ki, keşikçilərin gözündən yayınmaq məqsədi ilə, yolunu dəyişib, hasarın dibi ilə sağ tərəfə buruldu. Artıq onun niyyəti Popenkoya tam aydın oldu. Sırojkin batalyon komandirinə xəbər verməyə gedirdi. Popenko onu qabaqlamaq üçün keşikçilərin yanından ötüb



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçdi və batalyon komandirinin mənzilinə gedən ensiz dəhlizə çatıb, pusquya girdi. Sırojkin qəfil onunla rastlaşdı.

– Haraya?.. – deyə Popenko sözünü qurtarmışdı ki, Sırojkin güclü bir zərbə ilə onu vurub yıxdı. Özü isə batalyon komandirinin mənzilinə tez çatmaq üçün, adətən keşikçilərin gəzişdiyi Qala hasarı üstünə qalxdı. O, arxasına baxmadan, yüyürərək batalyon komandirinin mənzili qarşısında, hasarın nisbətən alçaq yerindən tullanmaq fikrində idi. Onun niyyətini başa düşən Popenko yıxıldığı yerdən qalxdı və hasarın üstü ilə onun dalınca yüyürdü. Özünü ona çatdıra bildi, əlini uzadaraq, arxadan köynəyinin boynundan yapışdı.

– Xain!

Sırojkin geri qanrıldı, qüvvətli qolları ilə onun əlini köynəyinin boynundan uzaqlaşdırdı. Zərbə endirməyə isə imkan tapmadı. Popenko Sırojkindən qabaq, onun sağ qolunu əlinə keçirərək burmağa başladı.

Divarın üstündə səssiz-səmirsiz vuruşma gedirdi. Gecələr adətən iç hasarın üstü ilə gəzişən keşikçi də bu gün kənar bürcün arxasında silahını qucağında tutaraq oturmuşdu. Bürcün diş-diş daşları hasarın üstündə gedən əlbəyaxa vuruşmanı onun gözündən gizlətmişdi. Sırojkin bütün qüvvəsini toplayaraq, dizi ilə Popenkonun qarnına vurdu. Bundan Popenko bir anlığa müvazinətini itirdi. Sırojkin tez fürsəti əldən verməyərək onu aşağı, Qalanın kənarına yuvarlatdı. Hasarın dibində gumbultu eşidildi. Bununla kifayətlənməyən Sırojkin hasarın üstündən iri bir daş parçasını qoparaq, Popenkonun dalınca tulladı. Daş Popenkonun boynuna dəyərək, başını zədələdi. O, huşunu itirmiş halda yerindəcə hərəkətsiz qaldı. Sırojkin onun öldüyünü güman edərək, divarın üstü ilə batalyon komandirinin mənzilinə tərəf qaçdı.

Yarım saatdan sonra Popenko özünə gəldi. Boynu və başı tamam qan içində idi. Ayağa qalxmaq istədi, bacarmadı, başı hərlənib təzədən yıxıldı. Ona elə gəlirdi ki, özünü çatdırıb xəbər verəndən sonra bütün yoldaşlarını, yəqin ki, həbs ediblər.

O, üsyanın başlanmasını fişənglə xəbər verəcək adamın yaxınlıqda gizləndiyini bilirdi. Buna görə də bütün qüvvəsini toplayaraq, onun gizləndiyi ağacın altına tərəf sürünməyə başladı. Kolkos və daş-kəsəkdən barmaqları qanadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tez-tez ovcunun içində kibrit yandıraraq saatına baxan Bəhram birdən qala tərəfdən ona doğru sürünən adamı görüb duruxdu. Əvvəlcə onun silahlı olduğunu güman elədi. Lakin sürünən adamın arabir ayağa qalxmağa cəhd etdiyini, ancaq yenə də səndələyərək yerə yıxıldığını gördükdə, yaralı olduğunu başa düşdü. Bəhram nə isə bir hadisə baş verdiyini hiss edib ehtiyatla ona yaxınlaşdı.

– Kimsən? – bir az aralıdan səsləndi.

Popenko səs eşidən kimi əli ilə işarə edərək onu yanına çağırdı.

– Mən Popenkoyam. Xəyanət var... tez fişəngi yandırın... Yoldaşlarıma çatdır ki, Sırojkin xaindir... Sırojkin... Sıro...

O, sözünü qurtara bilmədi. Başı daş kimi çiyninə düşdü. Bəhram onun başdan-ayağa qana bulaşdığını görüb kömək eləmək istədi. Yaxasını açdı. Ancaq gec idi. Qaranlıqda onun hərəkətsiz gözləri bərələ qalıb şüşə tək parıldayırdı. Vaxtı itirmədən tez bayaq gizləndiyi ağacın altına gəldi. Kibriti çəkib, fişəngi yandırdı. Yuxarıda açılan fişəng darı kimi göyün üzünə səpələndi. Bir anlığa hər tərəf aydınlığa çıxanda Bəhram kolluqların dibi ilə aşağıya tərəf sürünən soldatları gördü. Fişəngin haradan atıldığını görəndə, soldatların üç nəfəri, istiqamətlərini dəyişib, ona tərəf qaçmağa başladılar. Bəhram tez özünü yaxındakı həyətlərdən birinə saldı. Sonra həyətin orta hasarını aşaraq qonşu həyətlərə, oradan da boş döngələrə çıxaraq, özünü evlərinə yetirdi.

Həyətə girib, qapını bağladığı zaman şəhər qışlaları tərəfdə hənirti səsləri çoxalmışdı.

* * *

Rozanın yanından çıxandan on-on beş dəqiqə sonra özünü silahların saxlandığı yerə çatdıran Qriqori qaranlıq göydə fişəngin açıldığını gördükdə təəccüb etdi. Onun saatında vaxta hələ yarım saat qalırdı. Bu haqda fikirləşməyə heç macal tapmamışdı ki, yeddinci rotadan üç nəfər soldatın təngnəfəs qaçaraq, özlərini çatdırdıqlarını gördü. Onlar çox həyəcanlı idilər.

– Qriqori, tez ol. Qışlaları silahlı piyadalar mühasirəyə alırlar, – deyə onlardan biri tez Qriqorinin öz əlindəki silahı alıb, gəldiyi tərəfə yüyürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən nə danışırsan? Nə mühasirə?

O biri soldatlar da onun sözünü təsdiq etdilər:

– Hər şeydən xəbər tutublar.

Onlar da silahlarını alıb, qranlıqda gözdən itdilər. Bir azdan Viktor başda olmaqla, yeddinci və səkkizinci rotaların başqa soldatları da özlərini çatdırdılar. Viktorun səsi titrəyirdi:

– Beşinci və altıncı rotalardan heç bir xəbər yoxdur. Ümid ancaq bizədir. Tez qapıların dalında mövqe tutmalıyıq.

Qriqori məsələnin nə yerdə olduğundan xəbərsiz halda silahları paylayırdı. Bu arada qışlalar tərəfdən qadın çığırtısı eşidildi. Onun dalınca açılan iki güllə qaranlıq gecədə qadının çığırtısını batırdı.

Bir azdan artıq atışma başladı. Bu, yeddinci və səkkizinci rotaların soldatları ilə silahlı piyadalar arasında qızışmış döyüş idi. Qriqori axırıncı silahları da paylaşdırandan sonra, başının üstündə şütüyən güllələrin altında yoldaşlarının köməyinə yüyürdü.

Atışma qızışırdı. Şəhər əhli vahimə içərisində oyanmışdı. Lakin heç kəs evdən bayıra çıxmağa cəsarət etmirdi. Həyətlərdə itlər ara vermədən hürüşürdü. Qriqori özünü yoldaşlarının qışlalar dalında tutduqları mövqeyə çatdırdıqda artıq əsl döyüş başlamışdı. Yoldaşlarından ancaq onu öyrənə bildi ki, fişəng bir az da gec açılsaydı, hamını elə qışlaların içərisində mühasirəyə alacaqdılar.

Viktor onları dövrəyə almaq istəyən piyadaları geri oturtmağa və tezliklə Qala hasarının ətrafına çıxmağa çalışırdı. Qalada baş vermiş hadisədən xəbərsizdi. Ona elə gəlirdi ki, Qalanın içərisində də üsyan qaldırmış soldatlara piyadalar arasında vuruşma gedir. Məhz buna görə də tezliklə onlarla birləşmək istəyirdi. Lakin onların üstünə göndərilən silahlı piyadaların sayını gördükdə heyrət etdi. "Bəs iki rota bu qədər piyadanı özünə tərəf çəkə bilməmişdirmi?" Bir sözlə, Qalada baş vermiş hadisə Viktor üçün dumanlı idi. Nə Popenkodan, nə də Sırojkindən xəbər çıxmırdı. Ancaq bununla belə orada, üsyanın baş tutmadığını özü şəxsən gizlicə hiss edirdi. Qışlaların dalında mövqe tutmuş üsyançılar səhər açılanadək, özlərini Qalaya yetirmək və öz yoldaşlarına qovuşmaq niyyəti ildə vuruşurdular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Sırojkin batalyon komandiri vəzifəsini ifadə edən Qasseyə üsyançıların bütün planlarını xəbər verəndən sonra Varlamovun ayağa qaldırılmış keşikçi dəstəsi birinci növbədə silah anbarlarının qapısında olan keşikçiləri həbs etdilər. Sonra Varlamov özü altı nəfər soldatla Qriqori Romanovun dalınca Sırojkinin xəbər verdiyi yerə – meyxanaya gəldi. Rozanın qapısı döyüldü. Qadın azca ləngidiyi üçün soldatlar qapını sındırıb içəri soxuldular. Roza mələfəni özünə sarıyıb çarpayısında oturmuşdu. Qorxudan rəngi qaçmış, əlləri titrəyirdi.

– Romanov hanı? – deyə Varlamov onun üstünə çığırdı.

– Burada Romanov yoxdur. Siz onu niyə burada axtarırsınız?

Varlamov irəliləyib, Rozanın sinəsinə örtdüyü mələfəni zorla çəkib atdı. Onun yarımçılpaq bədəni açıqda qaldı. Roza çarpayıdan enib, stolun üstündəki paltarının üstünə cumdu və onu bir an içində əyninə çəkdi.

– Vəhşi! – deyə dişlərini qıcadı.

Ehtiraslı nəzərlərini gənc qadının ayaqlarından çəkməyən zabit bu sözü eşidən kimi yaxınlaşıb, onun üzünə tökülmüş saçlarını əlinə doladı. O biri əli ilə isə qadının çənəsini yuxarı qaldırdı, qəzəbli, ehtiraslı nəzərləri onun həyəcanlı mavi gözlərinə, titrək dodaqlarına zilləndi. Lakin birdən Varlamovun gözləri sanki hədəqəsindən çıxdı. Rozanı saçlarından çəkərək, otağın ortasına sərdi. Qadının yalın ayaqları dizindən yuxarı açıqda qaldıqda soldatlar gülüşdülər. Roza dizlərini örtdü. Ayağa qalxmaq istərkən Varlamov ayağını onun paltarının ətəyinə basdı.

– De görüm, soldatı harada gizlətmisən?

Roza altdan-yuxarı onu qəzəblə süzərək dedi:

– Mən soldat görməmişəm.

Varlamov tapançasını çıxarıb, lüləsini qadının sinəsinə dirədi.

– Deməsən, sinən odlanacaqdır.

Roza istehza ilə gülümsədi:

– Odlayın. Ondanmı qorxacağam?

– Səsini kəs, de görüm soldatı harada gizlətmisən?

Roza dinmədi. O, ayağa qalxıb sinəsini tapançanın lüləsi qabağına verdi. Qürurla durub, zabiti istehza ilə süzdü. Varlamov ondan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

söz ala bilməyəcəyini görüb divara vurulmuş çılpaq qadın şəkillərini hirslə cırıb yerə tökdü:

– Sən onun yerini deməsən də biz tapacağıq. Tapandan sonra onun da axırına bu şəkillər kimi çıxacayıq. Elə bu səhər...

Bunu deyib, soldatlara işarə etdi. Onlar gəldikləri yolla deyil, meyxanadan keçib getmək istədilər. Aşağı endilər. Meyxananın da künc-bucağını diqqətlə axtardılar. Roza meyxananın qapısını onların dalınca bağladıqdan sonra, Varlamovun dediyi sözlərdən təşvişə düşdü. Ona elə gəldi ki, onlar Qriqorinin yerini bilirlər və indicə gedib, onu ələ keçirəcəklər. "Demək, onların niyyətləri baş tutmayıb. Bəs Qriqori haraya getmişdir?"

Roza bir dəqiqə də ləngimədən həyətə endi və özünü onlardan qabaq Qriqorinin qaldığı qışlaya çatdırmaq istədi. Həyət qapısından çıxanda Varlamovgil hələ də durub gözləyirdilər. Roza onların gözündən yayınmaq istədi. Lakin onu gördülər. Varlamov və soldatlar səssiz-səmirsiz onun dalınca qarabaqara getdilər. Roza qışlaların qarşısına çatanda əlini ağzına qoyub bərkdən çığırdı:

– Qriqori, qaçın, gizlənin. Sizin dalınızca gəlirlər... gizlənin!

Varlamov işin bu yerə çatdığını gördükdə onun ağzını yummaq üçün qadının qulağının dibindən iki güllə atdı. Güllələrdən biri Rozanı yerə sərdi. O yıxılarkən yenə çığırmaq istədi, ancaq səsi boğazından çıxmadı... Varlamov və soldatlar özlərini ona çatdırınca, Rozanın gözləri həmişəlik yumulmuşdu. Varlamov meyitin başı üstündə duraraq dedi:

– Güllə onu gəbərtmişdir...

Silah paylamaqla məşğul olan Qriqori qadın çığırtısını və onun dalınca açılan iki güllə səsini də bu zaman eşitmişdi.

Varlamov Qriqorini tapa bilmədiyindən, Qalaya tərəf yollandı. Qala hasarının ətrafında məşəlli adamların nə isə axtardığını görüb soldatlarla birlikdə onlara tərəf yönəldi. Sırojkin və üç nəfər keşikçi dəstəsinin soldatı Popenkonun meyitini axtarırdılar. Onu Qala hasarından bir az aralıda tapdılar. Al qanına bulaşmış halda düşmüşdü. Sırojkin bunu görən kimi rahat nəfəs aldı. Onun xəyanət etməsi sirrini demək, Popenko özü ilə o biri dünyaya aparmışdır.

Şəhər qışlaları tərəfdə gedən atışma səsindən Sırojkin vahiməyə düşdü. O, yoldaşlarının gözünə görünə bilməzdi. Kapitan Qasse əmr etmişdi ki, üsyanın başçıları ələ keçirildiyi zaman Sırojkin də onlarla birlikdə karserə salınsın. Bu, Sırojkin üçün bir növ təsəlli idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səhərin gözü açıldıqda atışma daha da qüvvətləndi. Viktor üzünü soldatlara tutaraq deyirdi:

– Bizim qardaşlarımız Qalada bizdən ayrı düşmüşlər. Biz nə olursa-olsun onlarla birləşməliyik.

Kapitan Qasse Qalanın dövrəsinə pulemyotlar düzdürmüşdü. Etibarlı piyada nəfərlərini isə üsyançıların üzərinə göndərmişdi. Bununla bərabər, hər ehtimala qarşı kömək üçün Snoriyə də xəbər göndərdi.

Üsyançılar Qalaya yol aça bilmirdilər. Onlar düzülmüş pulemyotları görüb, quru çay yatağı tərəfdən keçməyə təşəbbüs etdilər. Qasse onların niyyətini başa düşüb, məhz burada onlar üçün tələ qura bildi. Əmr etdi ki, piyadalar yavaş-yavaş Qalaya tərəf geriləsinlər və bununla da, üsyançıları özləri ilə Qala hasarlarına tərəf çəksinlər. Qala düzünə açılan darvazadan isə bir rota soldat şəhərin içi ilə böyük bir dövrə vuraraq, üsyançıların arxasına göndərildi. Qasse öz məqsədinə nail oldu. Viktor silahlanmış soldatları öz arxasınca apararaq, piyadaları Qala hasarına tərəf sıxışdırdıqda, arxadan gələn rota onları tam mühasirəyə aldı. Belə gözlənilməz vəziyyətdən üsyançılar özlərini itirdilər. Viktor da yalnız indi başa düşdü ki, Qalada üsyan baş tutmamışdır. Çünki qalın hasarların arxasından nəinki atışma səsləri, hətta heç bir səs eşidilmirdi. "Məğlubiyyət də oradan başlamışdır, – deyə o öz-özünə düşündü – Popenko və Sırojkin də yəqin ələ keçmişlər". Onları mühasirəyə alan soldatlar getdikcə yaxınlaşırdılar, çıxış yolu qalmamışdı. Viktor üçün hər şey aydınlaşdı. Kim isə andı pozaraq xəyanət etmişdi.

Səhər açılıb, gün meşəli dağların dalından şəhərin üzərinə boylandığı zaman atışma tamam kəsildi. Xəbər gəldi ki, üsyan qaldırmış soldatların hamısı tərk-silah edilmişlər. Bir azdan dükan-bazar da açıldı. Ancaq çoxu hələ də küçəyə çıxmağa ehtiyat edirdi.

Atışma kəsilən kimi evdən çıxanlardan biri də Bəhram idi. O, küçə və döngələrdə danışılan söhbətlərə əhəmiyyət vermədən birbaşa Lalənzarın yanına gəldi. Onun üçün qapını açmış Lalənzar çox həyəcanlı idi. Bəhram içəri keçəndən sonra, gecə gördüklərini qadına danışdı. Lalənzarın həyəcanlı gözləri qeyri-ixtiyari süzüldü. O, taqətsiz halda stula çökdü.

– Xain kimdir? – soruşdu.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəhram Popenkonun son nəfəsində dediyi sözləri ona xəbər verdi. Qadın qolları yanına düşmüş halda hərəkətsiz qalmışdı.

– Vaxtı itirmək olmaz, – deyə Bəhram Lalənzarı düşdüyü ümidsiz vəziyyətdən qurtarmağa çalışdı. – Viktoru, o da olmasa, yoldaşlarını bu xəyanətdən ayıq salmalıyıq. Buna görə də gəlmişəm. Deyirəm ki, onlara məktub yazaq.

Lalənzar gözlərini qaldırdı, pərişan görkəmini pozmadan soruşdu:

– Məktubu onlara necə çatdıracaqsan?

Bəhram bu barədə düşünüb-daşınmışdı, ancaq yenə də ümidi çox az idi.

– Bəlkə mümkün oldu, – dedi. – Biz hər halda onlara xəbər verməliyik. Əgər onları quru çay yatağı tərəfdəki karserlərə salsalar, bunu eləmək çətin deyil.

– Nə yolla?

– Mənim gümanım Əzizə gəlir. Deyirəm, o bəlkə bu işdə də bizə kömək elədi...

Lalənzar ayağa qalxdı. Ağır addımlarla qonaq otağının bir küncündə qoyulmuş yazı stoluna yaxınlaşdı. Bəhramın dediklərini qısa şəkildə kağız parçasına yazdı.

Bəhram otaqdan çıxmamışdan qabaq, dəhlizin astanasında bir anlığa ayaq saxladı. Onun nə isə demək istədiyi hiss olunurdu. Birdən durduğu yerdə arxaya qanrılıb, sinədən gələn boğuq bir səslə dedi:

– Sırojkin yəqin bizim adlarımızı da vermişdir... Lalənzar xanım, hər halda özünüzü gözləyin. Bəlkə də başları ayılandan sonra bizimlə də maraqlandılar... İnanmıram ki, Sırojkin onlara bu barədə bir şey deməmiş ola...

Lalənzarın üzündə istehzalı bir təbəssüm göründü:

– İslanmışın yağışdan nə qorxusu. – O dərindən ah çəkdi. – Qaya uçan günü toz qopar...

– Orası elədir. Ancaq ehtiyat lazımdır... Salamat qalın.

Bəhram Lalənzarın yanından gedəndən sonra, bütün günü məktubu necə çatdırmaq haqqında fikirləşdi. Dəmirçixanadan evə dönərkən küçə uşaqlarından eşitdiyi bir söz onu qismən sakitləşdirirdi. Onların danışığından öyrəndi ki, həbs edilmiş soldatları quru çay tərəfdəki karserlərə salıblar. Uşaqlar hətta xırdaca pəncərələr-



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dən onların başlarını da görmüşdülər. Lakin onu narahat edən ikinci bir şey də var idi. Viktorun və habelə Bəhramın tanıdığı başqa soldatların vəziyyəti idi. Onlar salamatdırlarmı?

Bəhram axşamı evdə otura bilmədi, üsyançıların taleyi haqqında kənardan, uzaqdan-uzağa olsa da bir şey öyrənmək üçün çayxanaya getdi.

Ağzınadək adamla dolu olan çayxanada söhbət ancaq soldatlardan və onların ötən gecəki vuruşmalından gedirdi. Hərə bir cüt rəvayət danışırdı. Lakin Bəhramı təşvişə salan topal müəzzinin sözləri idi. Bəhram üzünü ondan yan tutsa da qulağını onun danışığından çəkmirdi. Müəzzin təsbehini çevirə-çevirə aramla danışırdı:

– Bir az bundan qabaq bizim məhəllənin bütün həyətlərini axtarırdılar. Nə bilim, deyirdilər ki, bu soldatlar öz tüfənglərini guya bizim məhəllədə gizlədiblərmiş. Bir gör ha, bizim burnumuzun dibində tüfəng gizlədiblər, heç xəbərimiz olmayıb. Yaxşı, bunlar, deyim ki, kişidirlər. Bəs o arvad onlara niyə qoşulubmuş? – Oturanlardan biri təəccüblə ondan "Hansı arvad?" deyə soruşanda, müəzzin boğazını arıdıb, sözünə davam etdi: – O gürcü arvadın meyxanasında işləyən arvad nədir, onu deyirəm də. Mən tezdən məscidə gedəndə gördüm ki, qorodovoylar onun meyitini aparırlar...

Bəhram meyxanada işləyən qadının qəfil gülədən öldüyünü düşünürdü. Onu narahat edən silah anbarının axtarılması idi. Demək, Sırojkin bu barədə onlara xəbər vermişdir. Bəzilərinin isə uydurub danışdığı söhbətlərdən Bəhram daha özünü yorğun hiss edərək çayxanadan çıxdı. O, evə dönərkən düşünürdü ki, səhərədək onları da həbsə ala bilərlər. Buna görə də məktubun qeydinə qaldı. Gec olmasına baxmayaraq, Əzizgilin evinə getdi. Oğlanı yuxudan oyadıb, məktubu ona verdi və yerli-yerində başa saldı. Evlərinə qayıdarkən o özünü ağır bir yükün altından çıxmış kimi yüngül hiss edirdi.

## XXXI fəsil

Əziz naxırı səhər tezdən lillənmiş çay yatağına endirdi. Orda-burda, yatağın çınqıllı çökək yerlərində gecə tökmüş yağışdan gölməçələr parıldaşırdı. İnəklər yatağın içərisində dırnaqları ilə çınqılları xırçıldadaraq, irəliləyir, hərdənbir başlarını uzadıb,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dodaqlarını gah gölməçələrin sakit duru sularına, gah da yovşan kolluqlarına aparırdılar. Sübh açılandan bəri göyün üzünü topa-topa buludlar bürümüşdü. Əziz naxırı yatağın içində saxladı. Yuxarıda Qala bürclərinin yanında karserin üç dəmir barmaqlı pəncərəsi quş yuvası kimi görünürdü. Dərənin dibindən onlaradək azı iyirmi arşın olardı. Barmaqlığın dalında adam görünmürdü. Əziz keşikçini bürc hasarının üstündə görmədikdə, naxırın içindən çıxıb, qabağa gəldi və daşa sarınmış məktubu əlində hazır tutdu. Bir də yuxarıya və ətrafına baxındı. Nə yuxarıda, nə də ətrafda heç kəs görünmürdü. O, vaxtı itirmədən qolunu qolaylayaraq, daşı yuxarı, pəncərələrə tərəf tulladı. Lakin daş pəncərələrdən aşağıda tappıltı ilə hasara dəyib, yerə düşdü. Əziz irəliləyib, onu yerdən qaldırmaq istədikdə, keşikçi yuxarıda göründü. Oğlan durduğu yerdən tərpənmədi. Keşikçini də şübhəyə salmamaqdan ötrü əyilib, çarığının bağlarını möhkəmlətdi. O dikəlib, yuxarı baxmağa çəkinirdi. Keşikçinin üzünü görməsə də onun hasarın üstündə duraraq, aşağı baxdığını hiss edirdi. Əziz özünü yenə də məşğul kimi göstərməyə çalışaraq, dizi üstə çökdü və çarığının bağlarını açıb təzədən bağladı. Keşikçi hələ də hasarın üstündə durmuşdu, o, naxırçı oğlanın yuxarı baxmasını gözləyirdi. Əziz, nəhayət, ayağa qalxaraq yuxarıya nəzər saldıqda, keşikçi yuxarıdan aşağı çığırdı:

– Hey, oğlan, naxırı sür apar!

Əziz uzun çomağını inəklərin üstündə hərlədi və naxırı yatağın içindən üzüyuxarı təpələrə tərəf qovdu. Keşikçi də naxırın hərəkətə gəldiyini görüb, hasarın üstündən uzaqlaşdı. Əziz bir an içində cumub, kağız sarıqlı daşı yerdən götürdü və gözlərini qıyaraq, pəncərələrdən birini nişan aldı. Sonra onu var gücü ilə yuxarı tulladı. Sərrast atılmış daş pəncərələrdən birinin dəmir barmaqlığının arasından keçərək karserin daş döşəməsi üstünə düşdü.

Oğlan gözlərinə inanmadı. O, daşın təkrar yerə düşəcəyini gözlədiyi halda, yuxarıdan, karserin barmaqlığı arasından məhbuslardan biri qolunu çıxararaq, əlindəki daşı ona göstərdi. Əziz qeyri-ixtiyari gülümsədi. O özünün son borcunu da yerinə yetirmişdi.

Keşikçi təzədən bürcün üstündə göründüyü zaman Əziz naxırı çay yatağından çıxarıb, təpələrə yaymışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Alaqaranlıq karser dilsiz bir sükut içində idi. Bir gecənin içində üz-gözünü tük basmış Viktorun qollarına da, ayaqlarına da qandal vurulmuşdu. Dünəndən bəri susub oturmuşdu. Bu ağır uğursuzluğun ağrılarına sanki heç kəslə şərik olmaq istəmirdi. Aylardan bəri gecəli-gündüzlü birgə keçirdikləri gərgin dəqiqələrin məşəqqət və əzabı sona çatdığı zamanda, xoş arzuları indi amansız bir ovçu tərəfindən vurulmuş quş kimi qana bulaşmış halda yerə sərilmişdi. Axı nə üçün belə oldu? O ki, hər şeyi dəfələrlə ölçüb-biçmişdi. Buraya sürgün edildikləri zamandan ətrafındakı adamları yaxından öyrənməmişdimi?! Onlar hər zaman öz müqəddəs arzuları yolunda ölümə fədakarlıqla hazır olan adamlar deyildimi?! Doğrudanmı onların içərisində dönük çıxanı var? Bəlkə yalnız təsadüfi bir hadisə, ya da ehtiyatsız bir addım bu fəlakətə səbəb olmuşdur? Bundan ötrü indi, qolları qandallanıb, zindanlara atılmış onlarca adamların günahı nədir? Yox, günahkar o yalnız özünü hesab edirdi. Buna görə də vicdanı qarşısında təkcə özü xəcalət çəkirdi. Sərkərdə müharibəni uduzarsa, soldatları qınamazlar. Onları arxadan bıçaq sancan bir adam tapılıbsa, bunu o, üsyanın başçısı kimi qabaqcadan görməli idi. Popenkonun ölümü isə onun üçün hələ də dumanlı idi. Qalada bir nəfər də əlinə silah almağa macal tapmamış, onun öldürülməsi Viktoru çox düşündürürdü. Popenkadan o heç zaman xəyanət gözləyə bilməzdi. Onun öldürülməsi özü buna bir sübutdur. Bəs yüzlərcə öz ağır həyat və əzab dostlarının səadətinə əl qaldırmış olan bu satqın kimdir?

Fikirlər hər tərəfdən onun üstünə hücum çəkir, ona əzab verirdi.

Onunla bir karserdə olanlar da susmuşdu. Qriqori sübh tezdən dəmir barmaqlığın qarşısında duraraq, fikrə getmişdi. Şəhərin üzərində səhər açılırdı. Lakin göydə bir neçə ulduz hələ də parıldaşırdı. Bir azdan küçələrdə adamlar da göründü, onlardan çoxu karserin pəncərələrinə uzaqdan ötəri bir nəzər salaraq, ötüb keçirdi. Qriqori Rozanı da bunların arasında görmək istəyirdi. Buna görə də gözləyirdi. Gün artıq boylandığı üçün qarşıdakı təpələr qırmızı şəfəqə bürünmüşdü. Roza isə görünmürdü. "Nə tez hər şeyi unutdu, – deyə Qriqori fikirləşdi. – O ki, öz sevgisinin yolunda ölümə də getməyə hazır olduğundan danışırdı. Bəs hanı belə fədakarlıq,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

harada qaldı?" O, barmaqlığın qabağında ayaq üstə durmaqdan yorulub, geri çəkildi. Viktorla yanaşı, quru otun üstündə uzandı. Bu zaman yuxarıdan, bürcün üstündən keşikçinin səsi eşidildi:

– Hey, oğlan, naxırı sür apar!

Başını ovucları arasına alaraq fikrə getmiş məhbus soldat keşikçinin səsinə yerindən qalxdı və qandallarını sürüyə-sürüyə barmaqlığa yaxınlaşdı. Boyu barmaqlığa çatmadığından, pəncələri üstə qalxdı. Əlləri ilə barmaqlıqdan asılaraq, aşağı baxdı. Quru çayın yatağında naxır dayanmışdı. Görünür ki, keşikçinin sözlərindən sonra naxırçı oğlan onları təpələrə tərəf qovurdu. Lakin birdən oğlan ayaq saxlayıb, geri qanrıldı. Sonra yüyürə-yüyürə yaxınlaşaraq, əlindəki yumru şeyi yuxarıya tərəf qolayladı. O nə isə tullamaq istəyirdi. Soldat tez geri çəkildi. Elə o dəqiqə barmaqlıqdan içəri keçən daş parçası karserin döşəməsinə düşüb tappıldadı Qriqori hamıdan qabaq irəliləyib, onu götürdü. Daşa sarınmış kağızı görən kimi, Viktora ötürdü. Viktor məktubu açanda müəllimə Lalənzar tərəfindən yazıldığını xəttindən tanıdı. O, məktubu birnəfəsə oxudu və onu kənara tullayıb ayağa qalxdı. Onun gözləri alacalanmışdı. Qəzəbli baxışları Sırojkinə zilləndi və öz-özlüyündə təkrar etdi. "Sırojkin..."

Sırojkin özünü itirdi. Viktorun baxışları altında geriyə çəkilərək, küncə sığındı. Viktorun hirslə tulladığı məktubu Qriqori də qaldırıb oxudu. Onun da gözləri sanki hədəqəsindən çıxmağa gəldi. Sırojkinə tərəf irəliləyib hirslə tüpürdü:

– Xain... satqın!

Viktor gözləmədiyi bir zərbədən hələ də özünə gəlməyən adamlar kimi karserin ortasında donub qalmışdı. İki nəfər soldat da məsələdən agah oldular. Sırojkinin bədənini üşütmə bürüdü. O, dili dolaşa-dolaşa yalvarmağa başladı:

– Yalandır, böhtandır... inanmayın...

Beş nəfərin salındığı darısqal karserdə Sırojkindən başqa hamı susmuşdu. Bu sükut Sırojkini daha da vahiməyə saldı. O yalvarır, imdad eləyirdi. Lakin dinən yoxdu. Dodaqlar qəzəblə kilidlənmişdi. Bir azdan Viktorun ağır-ağır dediyi bu sözlər eşidildi:

– Üsyan planını xəbər verməklə, inqilab işinə xəyanət etdiyi üçün Serafim Sırojkinə üsyan komitəsi adından ölüm cəzası təklif edirəm. Etiraz edən varmı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamı bir ağızdan səsləndi:

– Yoxdur.

Viktor Qriqoriyə işarə etdi:

– O biri yoldaşların da razılığını al.

Qriqori tez karserin divarını barmaqlar ilə döyəclədi. Sırojkin özünü itirərək nə edəcəyini bilmirdi. Bir azdan divarın o tərəfindən cavab gəldi. Məhbuslar hökmlə razılaşdıqlarını bir səslə bildirdilər.

Viktor yenə əvvəlki təmkinlə sözünə davam etdi:

– Ölüm cəzası boğulmaqla yerinə yetirilsin.

Bunu eşidən kimi Sırojkin yüyürüb, karserin qapısını yumruqları ilə döyəcləməyə başladı. O, keşikçini köməyə çağırırdı:

– Kömək edin, öldürürlər...

Qriqori ilə soldatlar onun üstünə cumub, ağzını bağladılar. Sonra onu qapıdan uzaqlaşdırıb, küncə sürüdülər. O çırpınıb onların əlindən çıxmağa çalışırdısa da bacarmırdı. Qəzəbli barmaqlar hər tərəfdən onun boğazına tərəf uzanmağa başladı. Gözlər də barmaqlara kömək edirdi. Barmaqlar sıxılır, gözlər alov saçırdı.

Bu zaman karserin qapısındakı gözlüyün xırdaca qapısı tərpəndi. Viktor keşikçinin səsə gəldiyini bilib, tez kürəyi ilə gözlüyü örtdü. Keşikçi bundan şübhəyə düşərək, növbətçi zabitin dalınca xəbərə getdi.

Bir azdan qapı açıldı, unter-zabit içəri girən zaman Sırojkin gözləri bərəlmiş halda divar dibində yerə sərilmişdi. Unter-zabit irəliləyib, onun öldüyünü gördükdə, çiyin-çiyinə verib durmuş dörd soldata söz deməyə çəkindi. Onların gözləri alaqaranlıqda bəbir gözləri kimi parıldaşırdı.

Unter-zabit gedəndən sonra Qriqori hökmün yerinə yetirildiyini qonşu karserə də xəbər verdi.

## EPİLOQ

Bir gün səhər tezdən şəhər əhli Qala düzündə həyəcanla döyəclənən təbil səslərinə oyandı. On səkkiz nəfər qandallı soldat hərbi-səhra məhkəməsi tərəfindən mühakimə olunmaq üçün Tiflisə yola salınırdı. Məhbuslar ayaqlarındakı qandalları güclə sürüyə-sürüyə irəliləyirdilər. Şəhərin mərkəzi küçəsindən keçərkən Viktor



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adamların arasında Lalənzarı gördü. Onların baxışları rastlaşdı. Bu baxışlardakı mənanı onlar ancaq özləri oxuya bildi.

– Əlvida, cənubun gözəl, mərd qadını! Mən sənin sevgini də öz qəlbimdə aparıram.

Viktorun bu sözləri qarşısında Lalənzarın baxışları isə onunla vidalaşarkən belə deyirdi:

– Əlvida, qərib dost. Mən sənə bir qəhrəman kimi səcdə edirəm. Sən buna layiqsən. Sırojkin bizim haqqımızda da xəbər verməyə macal tapsaydı, indi mən də, dostlarım da sizinlə birlikdə bu yolu gedəcəydik.

Bəhram da onlarla vidalaşmağa gəlmiş adamların arasında idi. Viktoru gördüyü zaman yumruqları düyünləndi, lakin göz yaşlarını saxlaya bilmədi.

Məhbuslar irəliləyərək, Balakən yoluna çıxdıqları zaman uzaqdan hündür bir təpənin üstündən qaçaq Məhəmməd onları gördü. Silahlı soldatlar divar kimi məhbusları dövrəyə almışdılar. Məhəmməd təəssüflə onların dalınca baxdı və ömründə ilk dəfə olaraq, təkliyin acısını duydu.

Öz "nişanlısı" ilə Qara dəniz sahillərinə getmək bəhanəsi ilə Tiflisə gələrək, buradakı qarnizonları Zaqatala batalyonunun üsyanına qoşulmağa dəvət etməyə çalışan Drujin isə üsyanın yatırıldığını eşidəndən sonra ağır iztirab keçirirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QILMAN İLKİN**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ
*II CİLD*

"AVRASİYA PRESS"
BAKI-2006

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Zahid Sarıtorpaq*

Kompyuter səhifələyicisi: *İslam Rzayev*

Kompyuter operatoru: *Asifə Əfəndi*

Korrektor: *Tofiq Qaraqaya*

Yığılmağa verilmişdir 01.06.2006. Çapa imzalanmışdır 29.08.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 25,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 128.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional